Cəmil HƏSƏNLİ

İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCAN HƏRBİ, SİYASİ VƏ DİPLOMATİK MÜNASİBƏTLƏRDƏ (1939-1945)

16717

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI - 2015

Az2
2015
C 63

Redaktor:
İsmayıl MUSA,
tarix elmləri doktoru professor

Rəyçi:
Rövşən HƏTƏMOV,
tarix üzrə fəlsəfə doktoru

"İkinci Dünya Müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945). ", Cəmil HƏSƏNLİ

Bakı, "Yazıçı" nəşriyyatı - 2015, 540 səh.

Oxuculara təqdim edilən bu kitab İkinci Dünya müharibəsi illərində Azərbaycanın beynəlxalq siyasətdə yerini və rolunu əhatə edir. Tarix elmləri doktoru, professor Cəmil Həsənli tərəfindən hazırlanmış əsərdə 1939-1945-ci illərdə Azərbaycanın ətrafında cərəyan edən diplomatik mübarizə, Bakı neftinin dünya siyasətində rolu, SSRİ-nin İran siyasətində Sovet Azərbaycanının iştirakı, respublikanın regional siyasətdə yeri, Cənubi Azərbaycan məsələsinin dövlətlərarası münasibətlərə gəlməsi, Azərbaycan mühacirətinin siyasi, hərbi və diplomatik addımları geniş şəkildə araşdırılmışdır. Müəllif Azərbaycan, Rusiya, Gürcüstan, Türkiyə, ABŞ, Fransa, Böyük Britaniya və digər ölkələrin nadir arxiv materiallarına əsasən 1939-1945-ci illər xronoloji çərçivəsində Azərbaycanın beynəlxalq siyasətdəki tarixinin maraqlı mənzərəsini yarada bilmişdir. Kitabda Qərb - Şərq qarşıdurmasının, soyuq müharibə erasının, məhz Cənubi Azərbaycan hadisələrindən başlanması haqqında yeni fikir və mülahizələr yer almışdır.

Kitab beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, humanitar ixtisaslar üzrə təhsil alan tələbələr və yaxın keçmişimizin dramatik tarixinə maraq göstərən geniş oxucu dairəsi üçün nəzərdə tutulur.

İSBN: 978-9952-8274-8-4

C 5204000327 - (017) qrifli nəşr
M - 656 - 2015

© Cəmil HƏSƏNLİ
© YAZIÇI

İkinci Dünya müharibəsinin
iştirakçısı olmuş atam Polad xan
və anam Turə xanımın
əziz xatirəsinə

MÜQƏDDİMƏ

70 il əvvvəl başa çatmış İkinci Dünya müharibəsi xalqların həyatında dərin iz buraxdı. Altı illik hərbi əməliyyatlar Yer kürəsinin böyük bir hissəsini əhatə etdi. Bəşəriyyət bu müharibədə ağır faciə ilə qarşılaşdı. Hərb meydanında böyük canlı qüvvə itirildi. İqtisadi baxımdan dünya xalqlarına dəyən ziyan ən böyük rəqəmlərlə ölçülürdü. İnsanların əsrlər boyu yaratdığı mədəniyyət abidələri, böyük şəhərlər yerlə yeksan edildi. Öz dağıdıcılıq gücünə görə İkinci Dünya müharibəsi 1914-1918-ci illəri əhatə edən Birinci Dünya müharibəsindən və ondan əvvəl baş vermiş məhəlli müharibələrdən köklü şəkildə fərqlənirdi. XX əsrin birinci yarısında elm və texnika sahəsində bəşəriyyətin əldə etdiyi ən müasir nailiyyətlər hərb meydanında sınaqdan keçirildi. Qarşı-qarşıya dayanan düşmən blokların səngərləri Avropa, Asiya, Amerika, Afrika və digər qitələrdən keçirdi. Bu səngərlərin uzunluğu ayrı-ayrı dövlətlərin milli hüdudlarını aşaraq, transmilli məzmun kəsb edir, bütövlükdə dünyanı öz içinə alırdı.

İkinci Dünya müharibəsi XX əsrin 20-30-cu illərində beynəlxalq aləmdə baş verən hərbi, diplomatik, siyasi və milli münasibətlərin məntiqi yekunu idi. Birinci Dünya müharibəsinin yekunlarını özündə əks etdirən Versal-Vaşinqton sisteminin yaratdığı dünya düzəni uzun sürmədi. Kommunizmin və faşizmin tarix səhnəsinə çıxması, 20-ci illərin dünya iqtisadi böhranı, kapitalizm dünyasının yeni ideya axtarışları və müxtəlif burjua təlimləri Versal sisteminin çat verməsi ilə nəticələndi. Bir vaxtlar Versal müqaviləsinin hər bəndi ilə Almaniyanı simvolik dövlətə çevirmək istəyənlər, indi həmin maddələrin bir-birinin ardınca ləğvini sükutla qarşılayır, onun təftiş edilməsinə göz yumurdular. 30-cu illərin siyasi dəyişikliklərinə biganəlik, məğlubların hücumu ilə qaliblərin güzəşti arasında ləngər vuran "sülh diplomatiyası" dünyanı addım-addım böyük müharibəyə sürüklədi. 1939-cu ilin sentyabrında gözlənilən hadisə baş verdi, müharibə alovu Avropanı bürüdü.

Müharibəni faşist Almaniyası özü üçün əlverişli məqamda başladı lakin bu hadisə dünya güclərinin böhrana yuvarlanmış kollektiv məsuliyyət hissinin aydın bir təzahürü idi. Almaniya ilə Qərb müttəfiqləri arasında Münhen sövdələşməsi, faşizm ilə kommunizm arasında 1939-cu ilin avqust ayının 23-də imzalanmış Moskva müqaviləsi böyük müharibəni qaçılmaz edirdi. Müharibənin sonunda dəyişməli olan dünya xəritəsi hərbi əməliyyatlar başlamazdan əvvəl dəyişdirilir, xalqların və dövlətlərin taleyi atılan topların səsi ilə deyil, sakit kabinet diplomatiyasının gizli sövdələşmələri ilə müəyyən edilirdi. Tarix səhnəsinə düşmən kimi qədəm qoymuş rus bolşevizmi ilə alman nasional sosializmi yeni mərhələyə dost kimi daxil oldu, açıq və gizli qarşıdurmadan yorulmuş Avropa siyasi dairələrini qəfil müharibə faktı ilə üz-üzə qoydu. Sülhü "xilas etmək" görüntüsü Qərb demokratiyasının böhranı ilə nəticələndi, faşizmin radikallaşdırdığı Almaniya və kommunizmin totalitarlaşdırdığı Sovet İttifaqı həmin böhranın təzahürü kimi başlayan İkinci Dünya müharibəsindən dünyanı bölüşmək, Versal sisteminin qalıqlarını tarixin arxivinə vermək məqamı kimi istifadə etdilər.

İkinci Dünya müharibəsinin 1939-1941-ci illəri əhatə edən birinci mərhələsi Avropa üçün məhəlli xarakter daşıyır, hərbi əməliyyatlar Almaniya ilə ingilis-fransız müttəfiqləri arasında gedirdi. Həmin mərhələdə Sovet İttifaqının Qərb sərhədləri boyunca genişlənmə siyasəti Fin körfəzindən tutmuş Qara dənizə qədər geniş bir coğrafiyanı əhatə edirdi. Sovet planlarına görə faşizmlə əməkdaşlıq şəraitində Moskvanın genişlənmə siyasəti Türkiyəni də əhatə etməli idi, lakin 1939-cu ilin oktyabr ayında Ankaranın ingilis-fransızlarla imzaladığı qarşılıqlı yardım müqaviləsi Stalinin "türkləri Avropadan qovmaq" niyyətlərini puça çıxardı.

İkinci Dünya müharibəsinin ilk gündən etibarən yanacaq-energetika mənbələri uğrunda barışmaz bir savaş olduğu üzə çıxdı. 1939-cu ilin payızından başlayaraq ən mühüm strateji məhsul kimi neft təkcə siyasi müzakirələrin məzmununu deyil, hərbi əməliyyatların xarakterini də müəyyən edirdi. Sovetlər Birliyinin tərkibində olmasına baxmayaraq, neftlə zəngin ölkə kimi Azərbaycan vuruşan ölkələrin planlarında

önəmli yer tuturdu. 1938-ci ilin məlumatına görə, bütövlükdə, SSRİ-də 29 milyon 450 min ton neft istehsal edilirdi ki, bunun da 21 milyon 500 min tonu Azərbaycanın payına düşürdü. 1939-cu ildə bu rəqəm bir qədər də artaraq 21 milyon 630 min tona, 1941-ci ildə isə 23 milyon tona çatmışdı. Azərbaycan neft sənayesinin bütün Sovet dövrü üçün ən yüksək göstəricisi Böyük Vətən müharibəsinin birinci ilinə düşürdü və bu göstərici SSRİ-də neft istehsalının 75 faizindən artıq idi. Göründüyü kimi, Sovet İttifaqının neft sənayesində Bakının önəmi ildən-ilə yüksəlirdi. İkinci Dünya müharibəsi yanacağa olan ehtiyacı kəskin şəkildə artırdığından, bir sıra məqamlarda Bakı neftinə qələbəni müəyyən edən başlıca strateji amil kimi baxırdılar. Beynəlxalq siyasətdə Bakı neftinin əhəmiyyətini, onun hərbi əməliyyatlara təsir imkanlarını İkinci Dünya müharibəsinin ilk dövrlərində Britaniya baş naziri Uinston Çörçil açıq etiraf edir və müxtəlif yazışmalarında bunu gizlətmirdi.

Almaniya ilə iqtisadi əməkdaşlıq çərçivəsində SSRİ-nin Bakı nefti hesabına Berlini yanacaqla təmin etmək təhlükəsinin güclənməsi müttəfiqlərin Qafqaza, ilk növbədə isə Sovet Azərbaycanına olan strateji maraqlarını daha da artırdı. Ona görə də digər sovet respublikaları ilə müqayisədə Azərbaycan İkinci Dünya müharibəsi dövrünün diplomatiyasına bir qədər tez daxil oldu. Bakı neftinin dünya siyasətində alışdırıcı maddəyə çevrilməsi Sovet Azərbaycanını müharibənin ilk günlərindən etibarən dövlətlərarası müzakirələrə daxil etdi. Bu ilk növbədə, başlanmış hərbi əməliyyatlarda neftin rolunun artması və Bakı nefti haqqında hərbi blokların gizli planları ilə bağlı idi. 1939-1940-cı illərdə ingilis və fransızların Bakı neft mədənlərini bombardman etmək niyyətləri, 1942-ci ildə faşist Almaniyasının Bakını ələ keçirtmək cəhdləri bu planların tərkib hissəsi idi.

1941-ci ilin iyun ayının 22-də sovet-alman hərbi başladı. Həmin ilin avqust ayında Britaniya və Sovet ordularının İrana daxil olması Sovet İttifaqının xarici siyasətində Azərbaycan SSR-in rolunu daha da artırdı. Respublikanın rəhbərliyi, onun müxtəlif idarə və müəssisələri, təbliğat və təsərrüfat orqanları SSRİ-nin İran siyasətinin həyata keçirilməsində fəal iştirak edirdi. 1941-1942-ci illərdə Sovet Azərbaycanının partiya,

sovet, təsərrüfat, elm, mədəniyyət və ədəbiyyat xadimlərindən təşkil olunmuş "Əziz Əliyevin missiyası" sözün tam mənasında xalq diplomatiyasının bütün formalarından istifadə edirdi. Sovet İttifaqının İran siyasətinin birinci mərhələsində bu missiya Cənubi Azərbaycanda əhəmiyyətli sosial-iqtisadi, siyasi, milli və mədəni işlər həyata keçirə bildi. "Əziz Əliyevin missiyası" İranda olan sovet ordularının tərkibinə daxil edilsə də, əslində bu missiya daha çox diplomatik işlə məşğul olur və Sovet Azərbaycanını Cənubda siyasi, iqtisadi, mədəni, milli və mənəvi cəhətdən təmsil edirdi. Bilavasitə Moskvanın göstərişi ilə Azərbaycan siyasi işçilərinin 1942-ci ilin mart ayında İrandan çıxarılması müttəfiqlərarası diplomatik münasibətlərin tərkib hissəsi, beynəlxalq aləmdə baş verən dəyişikliklərin təzahür forması idi. Bu proses Böyük Vətən Müharibəsində əsaslı dönüş başa çatana, yəni 1944-cü ilin ortalarına qədər davam etdi. 1944-cü ilin mart ayında Sovet Azərbaycanından olan 20-yə yaxın şəxsin İranın, xüsusilə onun Azərbaycan vilayətinin müxtəlif şəhərlərinə diplomatik vəzifələrə təyinat almaları ilə Cənubi Azərbaycanda siyasi proseslərin yeni mərhələsi başladı və həmin mərhələ 1945-ci ilin dekabr ayının 12-də (Azər ayının 21-də) İran Azərbaycanı muxtariyyətinin elan edilməsi və milli hökumətinin yaradılması ilə nəticələndi.

İkinci Dünya müharibəsi illərində beynəlxalq aləmdə baş verən geosiyasi dəyişikliklər 1944-cü ildə müttəfiq respublikalarda xarici işlər komissarlıqlarının fəaliyyətinin bərpa edilməsi ilə nəticələndi. 1944-cü ildə respublika Xalq Xarici İşlər Komissarlığı yaradıldıqdan sonra Azərbaycan SSR Sovet İttifaqının Şərq siyasətində, dünya müharibəsinin son mərhələsində SSRİ-nin İran və Türkiyə ilə bağlı planlarında daha ardıcıl iştirak etməyə başladı. Bu dövrdən başlayaraq, Tehran da daxil olmaqla, İranın Sovet işğal zonasında yerləşən elə bir diplomatik nümayəndəliyi, konsulluq idarəsi yox idi ki, orada azərbaycanlılar xidmət etməsinlər. 1945-ci ildən etibarən bu proses Türkiyədə yerləşən Sovet diplomatik idarələrində də müşahidə edilməyə başladı. 1944-1945-ci illərdə respublikanın diplomatik kadr korpusunun yaradılması işində ilk addımlar atıldı. İranın müxtəlif şəhərlərində yerləşən SSRİ nümayəndəliyi və konsulluq

idarələrinə ezam olunan azərbaycanlılar, Bakıdan Cənubi Azərbaycana göndərilən siyasi işçilər Moskvada qısamüddətli diplomatik kurslarda dinləyici kimi iştirak etdilər. Peşəkar diplomatlar hazırlanması məqsədilə Azərbaycan gənclərinin ilk dəstəsi SSRİ Xarici İşlər Xalq Komissarlığının Ali Diplomatiya Məktəbinə göndərildi. Yüksək diplomatik təhsil almış bu gənclər sonralar respublikanın siyasi, elmi və mədəni həyatında mühüm rol oynadılar. Məhz, belə yüksək ixtisaslı peşəkar kadrların hesabına Azərbaycan SSR Xarici İşlər Komissarlığı Sovet İttifaqının Şərq siyasətində, xüsusilə, İran hadisələrində regional mərkəz funksiyasını yerinə yetirməyə başladı.

Avropada müharibə başa çatdıqdan sonra Yaxın və Orta Şərq ölkələrinə münasibətdə Sovet siyasəti yeni bir mərhələyə daxil oldu. 1945-ci ilin iyun-iyul aylarında Türkiyə, İran və Çinin Şərqi Türküstan (Sincan) vilayəti Sovet genişlənmə siyasətinə daxil edildi. Qeyd edilən ölkələrlə bağlı ÜİK(b)P MK Siyasi Bürosunun və SSRİ Xalq Komissarları Sovetinin gizli qərarları qəbul edildi. Bu qərarların həyata keçirilməsi Azərbaycan məsələsini beynəlxalq arenaya çıxardı, onu müharibə dövründə əməkdaşlıq etmiş müttəfiq dövlətlərin ilk qarşıdurma meydanına çevirdi. Əlli ilə yaxın dünyanı gərginlikdə saxlamış soyuq müharibə Sovet Azərbaycanının da yaxından iştirak etdiyi Cənubi Azərbaycan hadisələrindən başladı. 1945-ci ilin sentyabr ayının 2-də II Dünya müharibəsinin başa çatması ilə Qərb-Şərq qarşıdurması yeni müstəviyə keçdi. Müharibə dövrünün əməkdaşlığını soyuq müharibənin əsəb savaşı əvəzlədi. Soyuq müharibənin başlanğıc mərhələsində bu savaşın konturları Bakının və Təbrizin sinirlərindən keçirdi.

İkinci Dünya müharibəsi başa çatdıqdan dərhal sonra, 1945-ci ilin payızında Sovet Azərbaycanına Qərb ölkələrindən nüfuzlu xarici nümayəndəliklərin və ayrı-ayrı siyasi xadimlərin səfərləri diqqəti cəlb edir. Bunlar hələ müttəfiqlik çərçivəsində Sovet İttifaqı ilə əməkdaşlığın tərkib hissəsi idi. Bakıya səfər edənlər arasında ABŞ senatı və konqresinin üzvləri, Britaniya parlamentinin nümayəndələri, dünyanın nüfuzlu mətbuat orqanlarının təmsilçiləri var idi.

Onlar bir qayda olaraq Azərbaycanın neft sənayesi ilə maraqlanır, elmin və mədəniyyətin inkişafına diqqət göstərir və Sovet Azərbaycanı ilə İran Azərbaycanının birləşmə imkanlarını müşahidə edirdilər. Bu səfərlər zamanı Bakıya gələn xarici qonaqları SSRİ Xarici İşlər Xalq Komissarlığının və Sovet İttifaqının digər müvafiq orqanlarının nümayəndələri müşayiət edirdilər.

1945-ci ilin payızında Cənubi Qafqaz sovet respublikaları arasında ərazi və sərhəd mübahisələrinin yaranması regionda, xüsusilə Sovet İttifaqının İran və Türkiyə ilə arasında gedən diplomatik-siyasi münasibətlərin tərkib hissəsi idi. İkinci Dünya müharibəsindən sonra Cənubi Qafqaz respublikalarında güclənən icazəli millətçilik bilavasitə, Moskvadan qaynaqlanır və daha çox cənub sərhədləri boyunca yerləşən İran və Türkiyəyə istiqamətlənirdisə, lakin tezliklə həmin millətçilik dalğası regionda yerləşən respublikaların arasında ərazi və sərhəd dəyişikliyi ideyasını doğurmağa başladı. Bu müstəvidə Ermənistan və Gürcüstan sovet respublikalarının Azərbaycan SSR-ə qarşı ərazi iddiaları müzakirəyə gəldi. Hər iki sovet respublikası bu məqsədlə Moskvaya müraciət etmiş və Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüşdü, lakin Bakının əsaslı dəlillərini nəzərə alaraq həmin vaxt sovet rəhbərliyi SSRİ daxilində sərhədlərin dəyişdirilməsini məqsədəuyğun hesab etmədi. Bununla belə, 1945-ci ilin sonlarında SSRİ Xalq Komissarları Soveti xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi haqqında qərar verdi və Türkiyədən torpaq almaq hədəflərini özündə ehtiva bu qərar az sonra azərbaycanlıların Ermənistan SSR-dən kütləvi şəkildə köçürülməsi ilə nəticələndi.

Azərbaycan xarici siyasətinin 1939-1945-ci illərini əhatə edən bu araşdırmanın hazırlanmasında mənbə və tarixi ədəbiyyatın geniş dairəsindən istifadə edilmişdir. Müxtəlif ölkələrin çoxsaylı arxiv fondlarından əldə edilib, elmi tədqiqata cəlb edilən sənəd və materialların təhlili İkinci Dünya müharibəsi illərində Azərbaycan diplomatiya tarixinin, Sovet Azərbaycanının xarici siyasətinin bir sıra maraqlı məqamlarını aydınlaşdırmağa imkan vermişdir. Bu araşdırmanın hazırlanması zamanı Azərbaycan Respublikası Prezidentinin

İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Azərbaycan Respublikası Dövlət Arxivi, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi, Rusiya Federasiyası Xarici Siyasət Arxivi, Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi, Rusiya Federasiyası Dövlət Arxivi, Rusiya Dövlət Ən Yeni Tarix Arxivi, Rusiya Federasiyası Müdafiə Nazirliyinin Mərkəzi Arxivi, Fransa Xarici İşlər Nazirliyinin Diplomatik Arxivi, ABŞ Milli Arxivi və Sənədlər İdarəsi, Corc Vaşinqton Universiteti yanında Milli Təhlükəsizlik Arxivi, Birləşmiş Krallığın Milli Arxivi, Gürcüstan Prezidentinin Arxivi, Ermənistan Respublikası Mərkəzi Dövlət İctimai Siyasi Təşkilatların Sənədləri Arxivi və digər arxivlərin zəngin fondlarından geniş istifadə edilmişdir. Tədqiqata cəlb edilən arxiv sənədlərinin böyük bir hissəsi ilk dəfə olaraq, məhz, bu araşdırmada elmi dövriyyəyə gətirilmişdir.

Eyni zamanda tədqiqat prosesində müxtəlif dövrlərdə nəşr edilmiş sənəd və material toplularına da müraciət edilmişdir. Bu nəşrlərdə yer alan müxtəlif arxiv sənədləri Sovet Azərbaycanı diplomatiya tarixinin daha ətraflı əhatə olunmasına, ötən əsrin 30-40-cı illərinə aid bir sıra xarici siyasət məsələlərinin müqayisəli təhlilinə imkan yaratmışdır. Nəşr olunmuş sənəd toplularının müəyyən bir hissəsi II Dünya müharibəsi dövrünü əhatə edir və həmin toplularda SSRİ-nin Şərq siyasəti, hər iki Azərbaycanın bu siyasətdə yeri, neft uğrunda mübarizə və s. məsələlər əhatə olunur. Bu nəşrlərin böyük əksəriyyəti SSRİ dağıldıqdan sonra işıq üzü görən nadir sənədləri özündə əks etdirir.[1]

---

[1] Документы внешней политики СССР. Т. XXII. В двух книгах. М., 1992; Документы внешней политики. Т.XXIII. кн.1. М., 1995; Документы внешней политики. Т.XXIII. кн.2. М., 1998; Документы внешней политика. Г. XXIV, М., 2000; Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Т. II. 1930-1939. М., 2001; Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Г. III 1940-1952. М., 2001; Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав – СССР, США и Великобритании (17 июля-2 августа 1945 г.) Сборник документов. М., 1984; Московская конференция министров иностранных дел СССР, США и Великобритании (19-30 октября 1943 г.), М., 1978; Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I. Накануне. Книга первая (ноябрь 1938 г. – декабрь 1940 г.). М., 1995; Сталинские депортации. 1928-1953. Под общ.ред.акад.А.Н.Яковлева. М., 2005; О.А.Ржешевский. Сталин и Черчилль. Встречи. Беседы. Дискуссии: документы, комментарии. 1941-1945. М., 2004; Die Geheimakden des französischen

Eyni zamanda, qeyd edilən xronoloji çərçivədə Sovet Azərbaycanına rəhbərlik etmiş şəxslərin nəşr edilmiş məruzə, çıxış, məktub və müraciətləri mövzunu öyrənmək üçün qiymətli mənbələr sırasına daxil edilə bilər. Belə mənbələr sırasına İkinci Dünya müharibəsi illərində Azərbaycan Kommunist Partiyasına rəhbərlik etmiş Mir Cəfər Bağırovun, respublika Xalq Komissarları Sovetinə başçılıq etmiş Teymur Quliyevin müxtəlif mətbuat orqanlarında nəşr olunmuş çıxışlarını aid etmək olar.[2] İkinci Dünya müharibəsi illərində mühacirət liderlərinin müxtəlif nəşrlərdə yer almış yazışmaları, bir sıra beynəlxalq konfransların təşkilatçılarına, ayrı-ayrı Avropa ölkələrinin başçılarına və ABŞ rəsmilərinə ünvanladıqları nota və müraciətlər Sovet Azərbaycanına münasibətdə beynəlxalq vəziyyətdə baş verən dəyişiklikləri izləməyə imkan verir. Azərbaycan siyasi mühacirətinin Avropa ölkələrində fəaliyyəti, sovet xüsusi xidmət orqanlarının onlar haqqında topladığı məlumatlar, Azərbaycan mühacirətinin yeni dalğasının yaranması və digər məsələlər yeni əldə edilən sənədlərin səciyyəvi cəhətləridir. 1943-1944-cü illərdə Azərbaycan legionerlərinin Berlində nəşr etdikləri "Azərbaycan" qəzeti bu baxımdan mühüm əhəmiyyətə malikdir. Qəzetin səhifələrində rəsmi materiallarla yanaşı Azərbaycan tarixi, mədəniyyəti, siyasi həyatı və xarici əlaqələri haqqında da maraqlı yazılar verilirdi.[3] Milli legionların yaranması, onların hərbi əməliyyatlarda iştirakı,

---

Generalstabes. Auswartiges Amt, 1939/1941, Nr/ 6, Sechster Weibbruch der Deutschen Regierung, Archiv Edition, Verlag fur ganzheitliche Forschung 25884 Viöl Eigendruck, 1995; Documents diplomatiques français, serie Deuxieme Guerre, sous la direction d'Andre Kasp, Bruxelles, Peter Lang, 2002

[2] Bax: "Kommunist" və "Bakinski raboçi" qəzetlərinin 1941-1945-ci illər nömrələri; Г.Мехтиев. Деятельность Коммунистической партии Азербайджана в годы Великой Отечественной войны.Баку, 1967

[3] Bax: Fətəlibəyli Ə. Düdənginskinin İngiltərənin Baş Naziri K. Ettliyə məktubu. Ramiz Abutalıbovun şəxsi arxivindən; Fətəlibəyli Ə. Sovet-Fin hərbi// Azərbaycan, Münhen, 1953, N10; X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı. 1996; N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005; M.Cəfərli. Azərbaycan legion ədəbiyyatı. Bakı. 2005; А.Фаталибейли.Отчет азербайджанскому народу о борьбе его сынов за независимость Родину в период Второй мировой войны.// Азербайджан, Мюнхен, 1951, № 1; Р.Абуталыбов. Свой среди чужих, чужой среди своих. М., 2007; Р.Алиева. Азербайджанцы в Европейском движении сопротивления. Баку, 2005; Э.Алиев. Азербайджанцы в Европейском движении сопротивления. Автореферат. Баку, 2008; Azərbaycan legionunun 1943-1944-cü illərdə Berlində nəşr olunun "Azərbaycan" qəzetinin bütün nömrələri üçün
bax: http://zefys.staatsbibliothek-berlin.de/en/list/title/zdb/24322805/1943/

Azərbaycan mühacirət başçılarının ayrı-ayrı ölkələrin rəsmi dairələri ilə apardığı danışıqlar bir sıra xarici nəşrlərdə də yer almışdır [4]

Bu araşdırma hazırlanarkən Azərbaycan xarici siyasətinin 1939-1945-ci illər tarixinə dair bir sıra ölkələrdə nəşr olunmuş elmi ədəbiyyatından geniş istifadə edilmişdir. Bu kitabların bir hissəsi geniş tarixi xronologiyanı və İkinci Dünya müharibəsinin ayrı-ayrı epizodlarını əhatə etsə də, lakin müraciət edilən bir sıra əsərlərdə Sovet Azərbaycanının 1939-1945-ci illərdə beynəlxalq siyasətdə yeri haqqında maraqlı mülahizələr irəli sürülmüşdür. Azərbaycanda və xaricdə nəşr olunmuş bir sıra əsərlərdə neftin dünya siyasətində rolu, ötən əsrin 40-cı illərində Azərbaycan nefti uğrunda başlamış diplomatik mübarizə, Bakı neftinin beynəlxalq münasibətlərə təsiri kimi məsələləri əhatə edilmişdir.[5]

---

[4] Olaf Caroe. Soviet Empire. The Turks of Central Asia and Stalinism. New York, 1954; A.Dallin. German Rule in Russia 1941-1945. A study of Occupation Politicies. London, New York, 1957; Lothar Krecker. Deutchland und die Turkei im Zweiten Weltkrieg. Frankfurt, 1964; A. Jeloschek, Fr. Richter, E. Schütte, J. Semler. Freiwillige vom Kaukasus. Georgier, Armenier, Aserbaidschaner, Tschetschenen u.a. auf deutscher Seite. Der «Sonderverband Bergmann » und sein Grunder Theodor Oberländer. Graz-Stuttgart, 2003; Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi. İstanbul, 2003; Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012; С.Г.Чуев. Кавказская карта Германии.// Военно-исторический Архив, 2004, № 1; А.Ю.Безуголный. Кавказские национальные формирования в политических дискуссиях в период обороны Кавказа.// Военно-исторический Архив, 2004, № 10

[5] Azərbaycan tarixi. Yeddi cilddə. Yeddinci cild. Bakı, 2003; Q.Mədətov. Azərbaycan Böyük Vətən müharibəsində(1941-1945-ci illər). Bakı, 1975; Ə.Bağırzadə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970; M.Əmrahov. İkinci dünya müharibəsi. 1939-1945. Bakı, 2010; İ.İsmayılov. Azərbaycanlıların II dünya müharibəsində iştirakı. Bakı, 2000; İ.Əliyev, A.Muradverdiyev. Azərbaycan nefti dünya siyasətində. III cild. Bakı, 1998; İ.Musayev. Azərbaycanın xarici siyasəti. İkinci hissə. 1920-1991. Bakı, 2010; S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943. Bakı, 2002; Ə.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005; Ş.Tağıyeva, Ə.Rəhimli, S.Bayramzadə. Güney Azərbaycan. Bakı, 2000; Азербайджан в период войны 1941-1945 гг. Сборник статей, 2008; М. Абасов. Бакинская партийная оршанизация в годы Великой Отечественной войны. Баку, 1990 М. Абасов. А.Гритченко, Р.Зейналов. Азербайджан в годы Великой Отечественной войны. Баку, 1990; С.М.Алиев. История Ирана. XX век. Москва, 2004; Н.Г.Киреев. История Турция XX век. Москва, 2007; Hoffmann L. Die Kaukasien 1942-1943: Das deutsche Neer and die Ostrolker der Sowyetunion. Freiburg: Rombach, 1991; T.Swietochowski. Russia and Azerbaijan. A Borderland in Transition. New York, 1995; Muhlen Patrik fon Zur. Camali Xac ile Qızıl ulduz arasında. Ankara, 1984; J.H.Bamberg. The Hictory of the British Petroleum Company. The Anglo-Iranian years, 1928-1954. Cambridge. 1994; Johannes Glasneck, İnge Kircheisen. Türkei und Afghanistan – Brennpunkte der Orientpolitik im Zweiten Weltkrieg. Berlin, 1968

Azərbaycan məsələsinin II Dünya müharibəsi illərində beynəlxalq müzakirələrə gəlməsi, müharibənin ilk illərində müttəfiqlərin Bakı neft sənayesi ilə bağlı planları və digər məsələlərə son illərdə xarici ölkələrdə nəşr olunmuş bir sıra əsərlərdə toxunulmuşdur. Bu əsərlərin tədqiqata cəlb edilməsi İkinci Dünya müharibəsinn ilk illərində Azərbaycan tarixinin bir sıra yeni səhifələrinin öyrənilməsinə imkan verir. Xüsusilə, müttəfiqlərin 1939-1940-cı illərdə Bakı neft mədənlərini bombalamaq planları, bu işin Britaniya aviasiyası tərəfindən həyata keçirilməsinin razılaşdırılması, Yaxın Şərq ölkələrində bu məqsədlə təyyarə meydançaları tikməsi və s. məsələlər Azərbaycan diplomatiya tarixi üçün bir sıra yeni məqamları ortaya qoyur. Bütün bunlar Yaxın Şərq və Qafqaz regionunda Ikinci Dünya müharibəsinin Sovet Azərbaycanı üçün təhlükəli gedişlərinin hazırlanmasından xəbər verir və respublikanı hərbi əməliyyatlar meydanına yaxınlaşdırırdı. Qeyd edilən hadisələrin hərbi, siyasi və diplomatik mənzərəsinin yaradılması Azərbaycan tarix elmi üçün müstəsna əhəmiyyətə malikdir. Respublika tarixşünaslığında bu mühüm məsələnin aydınlaşması dünya siyasəti üçün Bakı neftinin əhəmiyyətini bir daha təsdiq etməklə yanaşı, diplomatiya tarixinin bəzi epizodlarının dəqiqləşdirilməsinə yardım edir, Azərbaycan tarixinin dramatik bir səhifəsinin aydınlaşmasına gətirib çıxarır.[6]

---

[6] Д.Г.Наджафов. Об историко-геополитическом наследии советско-германского пакта 1939 года.// Правда Виктора Суварова-2. Восстанавливая историю. Второй мировой. М., 2007; И.В.Гайдук. ООН и Иранский кризис 1946 года.// «Новая и новейшая история». 2011, № 5; А.О.Чубарьян. Канун трагедии: Сталин и международный кризис: сентябрь 1939 – июнь 1941 года. М.,2008; Г.Мамулия, Р.Абуталыбов. Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции. Париж-Баку, 2014; P.R.Osborn. Operation Pike. Britain Versus the Soviet Union, 1939-1941. Westport, Connecticut, London, Greenwood Press, 1966; Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010; C. Hasanlı. Soğuk Savaşın ilk çatışması: İran Azərbaycanı. İstanbul, Bağlam, 2005; C.Hasanlı. Tarafsızlıktan Sğuk Savaşa: Türk-Sovyet İlişkileri. 1939-1953. Ankara, Bilgi Yayınevi, 2011; G.Kahle.Das Kauasusprojekt der Alliierten vom Jahre1940. Opladen, Westdeutscher Verlag, 1973: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009; J.Hasanli. Der Kampf um das Erdöl im Nahen und Mittleren Osten.// Walter M. Ilber. Peter Ruggenthaler. Stalins Wirtschaftspolitik an der sowjetischen Peripherie. Ein Uberblick auf der Basis sowjetischer und osteuropaischer Quellen. Studien Verlag, Innsbruck, Wien, Bozen, 2011; Bruce R.Kuniholm. The Origins of the Cold War in the Near East: Great Power Conflict and Diplomacy in Iran, Turkey, and Greece. Princeton, 1980; Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War. University Press of America. Lanham, Boulder, New York, Toronto, Plymouth, UK. 2009

Sovet İttifaqının Şərq siyasətində Azərbaycanın SSR-in önəminin artması, SSRİ-nin İran və Türkiyə istiqamətində genişlənmə siyasətində respublika orqanlarının iştirakı kimi məsələlər Azərbaycanda və xarici ölkələrdə nəşr edilmiş elmi ədəbiyyatda araşdırmaya cəlb edilmişdir, lakin keçmiş Sovet İttifaqının dağılması nəticəsində açıqlanan yeni arxiv sənədlər əsasında yazılmış yeni əsərlər SSRİ-nin İran və Türkiyə siyasətinin tamamilə fərqli bir mənzərəsini ortaya qoyur. Bu fərqli mənzərə Cənubi Qafqaz sovet respublikalarının regionun beynəlxalq siyasətinə cəlb olunması, SSRİ-nin qonşu dövlətlərə münasibətlərində fəal rol oynamaları ilə bağlıdır.[7] Bu prosesin nəticəsi kimi Yaxın və Orta Şərq regionunda müttəfiqlərarası qarşıdurmanın güclənməsi və Arazın hər iki sahilində yerləşən Azərbaycanın soyuq müharibə arenasına çevrilməsi kimi məsələlər bir sıra tədqiqat işlərində araşdırılmışdır. Bu araşdırmalarda Cənubi Qafqazda cərəyan edən hadisələr, İran və Türkiyənin Qafqaz

---

[7] S.C.Pişəvəri. İran Azərbaycanı demokratik hərəkat tarixi. I cild. Bakı, 1947 (Əlyazma hüququnda); C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991; Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1989; M.Çeşmazər. Azərbaycan Demokrat partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan. 1945-1946-cı illər). Bakı, 1986; Ş.Tağıyeva, Ə.Rəhimli, S.Bayramzadə. Güney Azərbaycan. Bakı, 2000; C.Həsənli. Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946). Bakı, 2001; Əkrəm Rəhimli. Mübarizə burulğanında keçən ömür: Seyid Cəfər Pişəvəri. Bakı, 2009; T.Talıblı. Əziz Əliyev. Bakı, 1996; Б.Х.Парвизпур. Советско-иранские отношения в годы Второй Мировой войны (1939-1945). Тбилиси, 1978; Л.Сеидбекова. «Турецкий кризис» и великие державы в первые годы «холодной войны» (1945-1947). Автореферат. Баку, 2012; Fernande Raine Scheid. Stalin, Bagirov and Soviet Politics in Iran, 1939-1946. Ph.D. dissertation. Yale University, 2000; Fernande Scheid Raine. Stalin and the Creation of the Azerbaijan Democratic Party in Iran, 1945. //Cold War History, vol.2, №1, October 2001; Scheid Fernande Raine. The Iranian Crisis of 1946 and the origins of Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, 2005; J.Hasanl. The "Turkish Crisis" of the Cold War Period and the South Caucasian Republic.// The Caucasus and Globalization, Vol. 2, Issue 4, 2008; Vol. 3, Issue 1, 2009; J. Hasanli. Iranian Azerbaijan: The Epicenter of a Cold War. // The Caucasus and Globalization, Vol. 2, Issue 1-2, 2008; J.Hasanli e V.Zubok. La prima crisi della gurra fredda: Mosca e il petrolio İraniano (1943-1946) // Ventesimo Secolo, Anno VI, Giugno 2007, #13; Jamil Hasanli. Le "Crisis turca" nella Guerra fredda // Ventunessimo Secolo. 2009, # 19; Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967; A.H.Hamzavı. Persia and the Powers. An Account of Diplomatic Relations, 1941-1946. London, New-York, Melbourne, Sydney, 1946; Robert Rossow. The Battle of Azerbaijan. 1946. // The «Middle East» Journal. Winter, 1956; Kuross A. Samii. «Truman Against Stalin in Iran: A Tale of Three Messages». // Middle Eastern Studies, January, 1987, №1, Vol.23; Irina Morozova. Contemporary Azerbaijani Historiography on the Problem of "South Azerbaijan" after WWII.// Iran and the Caucasus, Vol. 9, Brill Academic Publishers, Leiden, 2005

siyasətinin bir sıra maraqlı məqamları əhatə edilmişdir.[8] Müxtəlif ölkələrdə nəşr olunmuş bu araşdırmalar II Dünya müharibəsi dövründə beynəlxalq münasibətlərin əhəmiyyətli məsələlərini əhatə etməklə yanaşı, Azərbaycan xarici siyasəti və diplomatiya tarixinin ayrı-ayrı məqamlarını aydınlaşdırmağa yardım göstərmişdir.

Mövzunun araşdırılması zamanı həmin dövrdə fəaliyyət göstərmiş ayrı-ayrı dövlət xadimləri, diplomatlar və hərbiçilərin müxtəlif illərdə nəşr olunmuş xatirə və gündəliklərindən geniş istifadə edilmişdir. Hadisələrin iştirakçısı olan bir sıra tanınmış siyasi və diplomatik dairələrin xatirələri bəzən rəsmi sənədlərdə öz əksini tapmayan ayrı-ayrı gizli məqamlara aydınlıq gətirir. Bu baxımdan yüksək partiya işçisi kmi İrana ezam edilmiş H.Həsənovun iki il (1944-1946-cı illər) ərzində qələmə aldığı gündəlik müstəsna əhəmiyyətə malikdir. Təbrizdə fəaliyyət göstərən "Bakı üçlüyü"nün üzvü kimi H.Həsənovun gündəliyi Cənubi Azərbaycanda və bütövlükdə, İranda Sovet İttifaqının siyasətinin pərdəarxası məqamlarını aydınlşdırmağa. 21 Azər hərəkatının siyasi məzmununu və milli qayəsini öyrənməyə, İranda fəaliyyət göstərən Sovet Azərbaycanı siyasi, hərbi və diplomatik işçilərinin fəaliyyətini izləməyə kömək edir.[9] İkinci Dünya

---

[8] C.Həsənli. Güney Azərbaycanda Sovet – Amerika – İngiltərə qarşıdurması. Bakı. 2001; C.Həsənli. SSRİ-Türkiyə: Soyuq müharibənin sınaq meydanı. 1939-1953. Bakı, 2005; M.Qasımov. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993; О.К.Березин. Неизученная кампания. Иран, август 1941. //«Военно-исторический архив», 2004, № 8; А.Б.Оришев. Политика нацистской Германии в Иране. Санкт-Петербург, 2005; А.Б. Оришев. Иранский узел. Схватка разведок. 1936-1945 гг. Москва, 2009; В.Т.Юнгблюд, А.В.Чучкалов. Политика США в Иране в годы Второй мировой войны. Киров, 2011; Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам // «Новая и новейшая история». 1994, №3; Дж.Гасанлы. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны. 1941-1946. Москва, 2006; Дж. Гасанлы. СССР-Турция: от нейтралитета к холодной войне. 1939-1953 гг. Москва, 2008; В.Печатнов. Сталин, Рузвельт, Трумэн: СССР и США в 1940-х гг. Документальные очерки. М., 2006; Fawcett Louise L'Estrange. Iran and the Cold War: the Azerbaijan crisis of 1946. Cambridge University Press, 1992; J. Hasanli. At the Dawn of the Cold War: The Soviet-American Crisis over Iranian Azerbaijan, 1941–1946. Rowman and Littlefield Publishers, INC. Lanham, Boulder, New York, Toronto, Oxford, 2006; Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History, 2011, Vol. 46, No 1; J. Hasanli. Stalin and Turkish Crisis of the Cold War, 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK. 2011

[9] Genaral Qulam Yəhya. Xatirələr. Bakı, 2006; İ.Novruzov. Azərbaycan kartı. İran xatirələri.Bakı, 1997; Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007; R.Massigli. La Turquie devant le guerra. Mission a Ankara 19391940. Paris, 1964; The Diary of Georgi Dimitrov, 1933--1949. New Haven, CT: Yale University Press, 2003; Məhəmməd Said Marağayi. Siyasi xatirələr. Tehran, 1994; Xaterat doctor Nüsrətulla Cahanşahlu Afşar. Sərgozəşt. Ma və biganegan. Berlin. 2001

müharbəsi illərində Azərbaycan, Sovet İttifaqı, İran, Türkiyə və digər ölkələrdə nəşr olunan mətbuat materiallarından geniş istifadə edilməsi mövzunun daha dolğun əhatə olunması, tədqiq edilən ayrı-ayrı məsələlərin ardıcıllıqla öyrənilməsində əhəmiyyətli rol oynamışdır.

Lakin mövzunun müəyyən tərəflərinin Azərbaycan və dünya tarixşünaslığında işıqlandırılmasına baxmayaraq, 1939-1945-ci illəri əhatə edən tarixi çərçivədə Sovet Azərbaycanının beynəlxalq siyasətdə rolu, onun dövlətlərarası münasibətlərdə yeri, diplomatik əlaqələrdə Azərbaycan məsələsinin təkamül prosesi ilə bağlı bütün məsələlərin elmi həllini tapdığını iddia etmək olmaz. Fikrimizcə, müxtəlif xarici ölkələrin, xüsusilə, Britaniya, Rusiya və Qərb dövlətlərinin arxivlərində mövzuya dair tədqiqata cəlb edilməmiş bəzi qiymətli sənədlər hələ qapalı fondlarda saxlanılır və ola bilsin ki, həmin sənədlərin gələcəkdə araşdırılması mövzunun yeni tərəflərini əhatə etməyə imkan verəcəkdir. Bütün bunlar gələcək tədqiqatçılara Azərbaycan xarici siyasətinin 1939-1945-ci illəri əhatə edən dövrünün daha dolğun mənzərəsini yaratmağa imkan verəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

I FƏSİL

II DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI VƏ MÜTTƏFİQLƏRİN BAKINI BOMBARDIMAN ETMƏK PLANLARI

XX əsrin 30-cu illərinin sonunda dünya addım-addım müharibəyə doğru gedirdi. 1939-cu ilin avqust ayının 23-də sovet-alman paktının və bu pakta əlavə olaraq gizli protokolların imzalanması dünya müharibəsinin alovlanmasında sonuncu qığılcım oldu. Bu paktın tarixi-siyasi nəticələri nəinki II Dünya müharibəsinin başlanmasını, eləcə də Sovetlər Birliyinin bütün sonrakı dövrdə həyata keçirdiyi siyasətin məzmununu və bütövlükdə bir dövlət olaraq SSRİ-nin mahiyyətini özündə əks etdirirdi. İ.Stalin Kominternin Icraiyyə Komitəsinin sədri G.Dimitrova verdiyi təlimatlarda açıq şəkildə etiraf edirdi ki, hücum etməmək haqqında müqavilə bu və ya digər dərəcədə Almaniyaya kömək edir.[1] Bu pakt həqiqətən Sovetlərin bütün xarici siyasət strategiyasında çox kəskin və əsaslı dönüşün başlanmasından xəbər verirdi.[2] Onu imzalamaqla sovet rəhbərliyi dünyanın taleyində yaranmış ən həlledici məqamda üzünün xarici siyasət kursunu müəyyən etdi və bununla da Avropada faşizm əleyhinə geniş cəbhə yaradılmasına bəslənilən ümidlər boşa çıxdı. 1939-cu ilin avqust ayının 23-də Moskvada imzalanmış Molotov - Ribbentrop paktından bir həftə sonra sentyabrın 1-də Almaniya Polşaya hücum etdi. Bundan iki gün sonra isə İngiltərə və Fransanın Almaniyaya müharibə elan etməsi ilə hadisələr dünya

---

[1] Ətraflı məlumat üçün bax: Д.Г. Наджафов. Об историко-геополитическом наследии советско-германского пакта 1939 года.// Правда Виктора Суворова-2. Восстанавливая историю. Второй мировой. М., 2007, с.52

[2] Bax: А О.Чубарьян. Канун трагедии: Сталин и международный кризис: сентябрь 1939 – июнь 1941 года. М ,2008, с.34

müharibəsi xarakteri aldı. Tarixdə qanlı hadisələr və böyük siyasi dəyişikliklərlə müşayiət edilən İkinci Dünya müharibəsi başlandı. Molotov-Ribbentrop paktına uyğun olaraq Almaniyanın ardınca sentyabr ayının 17-də Sovet orduları Polşaya daxil oldu və sentyabrın 23-də Polşanın işğalının başa çatdırılması münasibəti ilə Brest şəhərində birgə sovet-alman paradı keçirildi.[3] Oktyabrın 1-də Türkiyənin Xarici İşlər naziri Ş.Saracoğlunu qəbul edərkən İ.Stalin açıq şəkildə etiraf etdi ki, "Biz Almaniya ilə Polşanı bölüşdürdük."[4] Tanınmış rus alimi akademik O.Rjeşevski haqlı olaraq yazır ki, 23 avqust müqaviləsi və onun davamı kimi sentyabrın 28-də imzalanmış dostluq və sərhədlər haqqında sovet–alman müqaviləsi digər ölkələrin və xalqların taleyini onlardan xəbərsiz həll etdi.[5]

23 avqust müqaviləsi ilə Sovet İttifaqı faşist Almaniyasının müttəfiqi olduğundan ingilis və fransızlar SSRİ-nin zəiflədilməsinə Almaniyanın zəiflədilməsi kimi baxırdılar. Dünya müharibəsi başlandıqdan az sonra ittifaq müqaviləsi bağlamaq niyyəti ilə Moskvaya gələn Türkiyənin Xarici İşlər naziri Ş.Saracoğlu ilə oktyabr ayının 1-də Kremldə aparılan danışıqlarda İ.Stalin və V.Molotov açıq şəkildə Sovet İttifaqının mövqelərini ortaya qoymuşdular. Türkiyənin təhlükəsizlik paktı imzalamaq təklifinə V.Molotov belə cavab vermişdi: "Bu sovet-türk paktı kimin əleyhinə istiqamətlənəcək? Biz Almaniyanın əleyhinə pakt bağlaya bilmərik, əgər həmin pakt İtaliyanın əleyhinə olacaqsa o da Almaniyanın müttəfiqidir, Bolqarıstanın əleyhinə olacaqsa Bolqarıstan Türkiyəni təhdid etmir."[6] Qəribədir ki, bu fikirlərin müəllifləri və onların təmsil etdikləri ölkə sonralar uzun müddət Türkiyəni Almaniya ilə əməkdaşlıqda ittiham edəcəklərdi, lakın həmin dövrdə Almaniya ilə əməkdaşlıq yoluna qədəm qoymuş Sovet İttifaqından fərqli olaraq Türkiyə öz yerini faşizmə qarşı

---

[3] 23 avqust 1939-cu il sovet – alman müqaviləsi və onun doğurduğu hərbi-siyasi nəticələr barədə daha ətraflı məlumat üçün bax: Международный кризис 1939-1941 гг.: от советско-германских договоров 1939 года до нападения Германии на СССР. М., 2006, 560 с.

[4] İ.Stalin və V.Molotovun Ş.Saracoğlu ilə danışıqlarının stenoqramı. 01.10.1939.// RDSSTA, f.558, s.11, i.388, v.21

Великая Отечественная война: Энциклопедия. М., 2010, с.9

[6] İ.Stalin və V.Molotovun Ş.Saracoğlu ilə danışıqlarının stenoqramı. 01.10.1939.// RDSSTA, f.558, s.11, i.388, v.20

döyüşən İngiltərə və Fransanın yanında tapdı, oktyabrın 19-da ittifaq haqqında ingilis-fransız-türk müqaviləsi imzalandı. Hələ oktyabr ayının 1-də Moskvada aparılan danışıqlarda Türkiyəni Qərb müttəfiqləri ilə müqavilə imzalamaqdan çəkindirmək üçün İ.Stalin bildirmişdi ki, "türklər məndən soruşmadılar, əgər onlar məndən soruşsaydılar, mən onlara məsləhət görərdim ki, ingilis-türk və fransız-türk paktını bağlamağa razılaşmasınlar."[7] Lakin Stalinin tövsiyəsinin əksinə olaraq Türkiyə bu paktı imzaladı və faşizmə qarşı vuruşan ölkələrlə ittifaq sazişi bağlamaqla İkinci Dünya müharibəsində öz yerini müəyyənləşdirdi. Türkiyənin belə müstəqil addımı İ.Stalini ciddi şəkildə narahat edir və Ankaranı cəzalandırmaq üçün məqam axtarırdı. Ona görə də 1940-cı ilin noyabrında Berlində faşist liderləri ilə danışıqlar aparan V.Molotova əlavə vəkalət verilmişdi ki, Türkiyənin bölüşdürülməsi planını müzakirə etsin. Burada söhbət Türkiyənin SSRİ ilə Bolqarıstan arasında bölüşdürülməsindən və Almaniyanın buna razı salınmasından gedirdi. İ.Stalin Türkiyəyə münasibətdə öz fikirlərini Berlin danışıqlarından dərhal sonra 1940-cı ilin noyabr ayının 25-də Kominternin İcraiyyə Komitəsinin baş katibi G.Dimitrovla söhbətdə daha açıq şəkildə ifadə etmişdi. O demişdi: "Biz türkləri Asiyaya qovacağıq. Bu necə Türkiyədir? Orada 2 milyon gürcü, 1,5 milyon erməni, 1 milyon kürd və sair var. Türklər ancaq 6-7 milyondurlar."[8]

1939-cu ilin payızında Qafqaz mühacirləri vasitəsi ilə fransız kəşfiyyatı məlumat əldə etmişdi ki, Stalin Türkiyədən Boğazları bağlamaq, Bosfor rayonunda sovet hərbi dəniz bazasının yaradılması və Qafqazda 1914-cü il sərhədlərinin bərpa edilməsini tələb etmək niyyətindədir. Əldə edilən məlumatlara görə, əgər bu tələblər Ankara tərəfindən rədd edilsəydi və ölkə Qərb dövlətlərinə meyllənməkdə davam etsəydi, Stalin əlverişli şərait olan kimi bütün Türkiyənin sovetləşdirilməsinə cəhd göstərəcəkdi. Hətta, Türkiyədə gələcək

[7] Yenə orada, v.22

[8] Г.Димитров. Дневник (9 март 1933 – 6 февруари 1949). София, 1997, с.203; The Diary of Georgi Dimitrov, 1933–1949. New Haven, CT: Yale University Press, 2003, p.137; Odd Arne Westad. The Global Cold War. Third World Interventions and the Making of Our times. Cambridge University Press, 2007, p.59.

sovet işğal rejimi üçün kadrlar hazırlanması məqsədilə Moskva və Krımda xüsusi kurslar açılmışdı.[9]

Almaniya ilə əməkdaşlığa girdikdən sonra SSRİ Qərb müttəfiqləri üçün ciddi təhlükəyə çevrildiyindən, ingilis və fransızlar ona qarşı müxtəlif hərbi planlar hazırlayırdılar. Bu planlardan biri də Suriyada yerləşən fransız ordusu tərəfindən Cənubi Qafqaza hücum edib Bakını bombardman etmək idi. London tərəddüd etsə də, artıq 1939-cu ilin sentyabrında Fransanın hakim dairələri əvvəlcə siyasi, daha sonra isə hərbi səviyyədə Bakı, Qroznı və Maykopun neft mədənlərinin sıradan çıxarılmasını müzakirə edirdilər. Britaniya rəsmiləri belə hesab edirdilər ki, müttəfiqlərin başının Avropa əməliyyatlarına qarışdığı bir vaxda onların ehtiyatsız hərəkətləri Rusiyanın Yaxın Şərqdə imkanlarını artıra bilər və Qırmızı Ordu asanlıqla İranın və Əfqanıstanın Şimalını ələ keçirib Yaxın Şərqin neft rayonları üçün təhlükə törədə bilər.[10] Bakının bombalanması haqqında Fransa rəsmi dairələrinin belə mövqeyi onların Qafqaz, ilk növbədə isə Azərbaycan mühacirlərinə marağını artırmışdı. Avropanın müxtəlif ölkələrinə səpələnmiş mühacir xadimləri də yaranmış vəziyyətdən Azərbaycanın müstəqilliyi məsələsini yenidən gündəliyə gətirmək məqamı kimi istifadə etmək niyyətində idilər. Azərbaycan Milli Mərkəzinin (AMM) üzvləri arasında əlaqə qurmaq çətin olduğundan vaxtilə Paris Sülh konfransında ölkəni təmsil etmiş nümayəndə heyətinin üzvləri təcili toplanaraq Mir Yaqub Mehdiyev başda olmaqla Azərbaycan Milli Komitəsi təsis edib Fransa siyasi dairələri ilə əlaqəyə girdilər.[11] Komitə yaranan kimi sentyabr ayının 12-də Mehdiyev onun adında Fransa Xarici işlər naziri Jorj Bonneyə nota göndərdi. Notada qısaca olaraq 1918-ci ildə Azərbaycanın müstəqilliyinin elan olunmasına toxunulur və Azərbaycan nümayəndələrinin hansı zərurətdən Parisdə qalması təsvir edilirdi. Sonra Almaniyanın Polşaya hücum etməsi və Fransanın Varşavanın müda-

---

[9] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.338

[10] Bax: Г.Мамулия, Р.Абуталыбов. Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции, с.452.

[11] Bax: Yenə orada, c.443-444

fiəsinə qalxması təqdir edilirdi. Mehdiyev yazırdı ki, Azərbaycan xalqının polyak milləti ilə bir əsirlik dostluq əlaqələri, onun müdafiəsinə qalxmış Fransaya sonsuz sevgisi və səmimi rəğbəti vardır. Notanın sonunda göstərilirdi ki, Azərbaycan nümayəndəliyinin üzvləri "öz imkanları daxilində Fransa işi üçün faydalı olmağa hazırdır".[12] Təxminən 10 gün sonra, sentyabr ayının 21-də Mehdiyev məlumat xarakterli bir nota ilə Fransa informasiya komissarı Jan Jirida müraciət etdi. O, notada Qafqazın müttəfiqlər, xüsusilə Fransa üçün strateji əhəmiyyətini əsaslandırır və təmsil etdiyi nümayəndəlik haqqında məlumat verirdi, onun Şərq ölkələri, onların dili, ənənələri, dini inancları haqqında dərin biliklərə malik olduğu və bu səbəbdən İnformasiya komissarlığı ilə nümayəndəliyin əməkdaşlığının təbliğat sahəsində faydalı olacağını bildirirdi. Mehdiyev yazırdı ki, əgər komissar bu əməkdaşlığı faydalı bilirsə, Azərbaycan nümayəndələri buna hazırdırlar.[13] Nümayəndəliyin bu səyləri öz nəticələrini verdi. Artıq dekabr ayının 7-də Xarici informasiya bürosu Parisdə olan Azərbaycan nümayəndəliyinin üzvülərinin siyasi etibarlılığını öyrənmək üçün Nazirlər şurasına, Xarici işlər və hərbi nazirliklərə sorğu ilə müraciət etdi.[14] 1939-cu ilin dekabr ayının 26-da Fransa Xarici İşlər nazirliyinin Avropa departamenti azərbaycanlıların Nazirlər şurası və İnformasiya komissarlığı ilə əməkdaşlığa cəlb edilməsinin məqsədəuyğunluğu haqqında müvafiq orqanlara öz təkliflərini göndərdi. Orada qeyd edilirdi ki, nazirlik əvvəllər də nümayəndəliyin baş katibi Abbas bəy Atamalıbəyovla qeyri-rəsmi əlaqələr saxlayıb. Lakin bununla belə,

---

[12] M.Y. Mehtiev (president de la delegation) à Son Excellence Monsieur G. Bonnet, ministre des Affaires etrangeres de la Republique Française. Paris. 12.09.1939 // Ministere des Affairs Etrangere de France, Archives Diplomatique, CPC, 1914-1940. Serie Z (Europe). Dossier № 1093, URSS (nationalites et regionalisme). folio 332.

[13] M.Y. Mehtiev (president de la delegation) à Monsieur le Haut commissaire, Commissariat general a l'Information. Paris. 21.09.1939. // Ministere des Affairs Etrangere de France, Archives Diplomatique, CPC, 1914-1940. Serie Z (Europe). Dossier № 1093, URSS (nationalites et regionalisme), folio 341.

[14] Le Commissaire general à l'Information à Son Excellence Monsieur Ed. Daladier, president du Conseil, ministre des Affaires etrangeres, de la Defense Nationale et de la Guerre. A. S. de la delegation nationale d'Azerbaïdjan. Paris. 07.12.1939.// Ministere des Affairs Etrangere de France, Archives Diplomatique, CPC, 1914-1940. Serie Z (Europe). Dossier № 1093, URSS (nationalites et regionalisme), folio 340.

nazirlik xəbərdarlıq edirdi ki, Azərbaycan hərəkatı da daxil olmaqla, Rusiyanın qeyri-rus xalqlarının çoxlu qruplaşmaları son illərdə Berlində kömək axtardıqlarından, onlarla ehtiyatlı olmaq lazımdır. Bununla yanaşı, nazirlik SSRİ-nin türkdilli xalqları arasında təbliğat aparılması məqsədilə Azərbaycan nümayəndəliyi ilə əməkdaşlığı zəruri hesab edir, bir sıra sənədlərin hazırlanmasında, onların xidmətindən, xüsusilə Atamalıbəyovun imkanlarından istifadə etməyi mümkün sayırdı.[15]

Bu plan 1939-cu ilin noyabrın 30-da sovet–fin müharibəsinin başlanması ilə daha intensiv şəkildə gündəliyə gəlmişdi.[16] Bu hadisə Qafqaza və xüsusilə Bakıya münasibətdə müttəfiqlərin mövqelərini xeyli yaxınlaşdırdı. Artıq 1939-cu ilin payızından başlayaraq Bakı neft mədənlərinin bombardman edilməsi əməliyyatını Britaniya və Fransa ordularının baş qərargahları birgə hazırlamağa başlamışdılar. Bu işdə Qafqaz mühacirlərinin yardımından istifadə edilirdi. Hər iki ölkənin xüsusi xidmət orqanlarının məlumatına görə 23 avqust müqaviləsi və ona əlavə olaraq imzalanmış gizli protokollara görə Sovet İttifaqı Almaniyanın əsas neft təchizatçılarından biri idi. Həmin məlumatlara görə SSRİ neft ehtiyatlarının 80 faizi Qafqazda, ilk növbədə isə Bakı rayonunda yerləşirdi.[17] İngilis və fransızların Bakını bombardman etmək planı bir tərəfdən Almaniyanı Qafqaz neftindən məhrum etmək məqsədi daşıyırdısa, digər tərəfdən onların müttəfiqi olan Polşanın bölüşdürülməsində iştirak etmiş Sovet İttifaqını zəiflətmək arzusundan irəli gəlirdi.[18]

Polşanın işğalının başa çatması ilə bağlı Brest şəhərində birgə sovet-alman paradı keçirilən gün, sentyabr ayının 23-də SSRİ Daxili İşlər komissarı L.Beriya Azərbaycan Daxili İşlər komissarlığına göndərdiyi məxfi göstərişdə diversiya aktlarına qarşı Bakı neft

---

[15] Le president du Conseil, Ministre des Affaires etrangeres, à Monsieur le Commissaire general à l'Information. A. S. de la delegation nationale de l'Azerbaïdjan. Paris. 26.12.1939. // Ministere des Affairs Etrangere de France, Archives Diplomatique, CPC, 1914-1940. Serie Z (Europe). Dossier № 1093, URSS (nationalites et regionalisme), folio 342.

[16] Bax: G.Lenczowski. The Middle East in World Affairs. New York, 1962, p.143

[17] G.Mamoulia. Les combats independantistes des Caucasiens entre URSS et puissances occidentales. Le cas de la Georgie (1921-1945). Paris, L'Harmattan 2009, p.239

[18] Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010, s.50

mədənlərinin mühafizəsinin gücləndirilməsini tələb edirdi. O, xəbərdarlıq edirdi ki, SSRİ XDİK-nın məlumatına görə, Fransa kəşfiyyat orqanlarının göstərişi ilə Qafqazdan olan xarici mühacir təşkilatlar Bakı neft mədənlərində diversiya aktları həyata keçirmək üçün fəal iş aparır və bu məqsədlə Qafqaza diversantlar göndərirlər. Həmin dövrdə Beyrutdan Suriyaya gələn general Veyqan Qafqaz mühacirlərinin nümayəndələri ilə görüşdə Qafqazın gələcəkdə müttəfiqlər tərəfindən azad edilməsinin mümkünlüyünü istisna etmir, lakin bu məqsədə nail olmaq üçün region haqqında dəqiq kəşfiyyat məlumatlarının olmasını zəruri hesab edirdi.[19] L.Beriya yazırdı: "Parisdə diversant kadrların hazırlanması işi gedir ki, onları yaxın vaxtlarada Türkiyə və İran sərhədlərindən Zaqafqazyaya göndərsinlər. Həmin məlumatlara görə Fransa kəşfiyyatı Türkiyə kəşfiyyatına təklif edib ki, SSRİ-yə diversantlar göndərilməsi işində onlara köməklik göstərsin. Xüsusi missiya ilə Türkiyəyə gələn Fransa Ali Hərbi Şurasının üzvü general Veyqan Zaqafqazyada, o cümlədən Azərbaycanda diversiya işləri təşkil etmək barədə türklərlə danışıqlar aparıb. Veyqanla danışıqların nəticəsi olaraq bu məsələ ilə bağlı türk kəşfiyyatı ilə əlaqə yaratmaq məqsədilə fransızlar Türkiyəyə xüsusi hərbi təlimatçı göndəriblər." Diversantların Azərbaycan ərazisinə keçmələrinin və diversiya aktlarının qarşısının alınması üçün L.Beriya Azərbaycan XDİK-nın agentura-məlumat şəbəkəsinin təmizlənməsini, Azneftin bütün sahələrində agentura şəbəkəsinin qurulmasını, yeni agentlərin cəlb edilməsi işinin gücləndirilməsini, rəhbər əməliyyat işçilərinin şəxsən təlimatlandırılmasını, Azneftin mədən və müəssisələrinin, xüsusilə neftayırma zavodlarının mühafizə dəstələrinin şəxsi heyətinin öyrənilməsi və həmin müəssisələrin antisovet ünsürlərdən, şübhəli şəxslərdən təmizlənməsini təklif edirdi.[20]

---

[19] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012,с.337

[20] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I. Накануне. Книга первая (ноябрь 1938 г. – декабрь 1940 г.). М., 1995, с.94-95

1939-cu ilin oktyabrında Bakının bombalanması planı Londonda da müzakirə edilirdi, lakin həm Fransa, həm Britaniya hökumət kabinetlərində bu məsələyə münasibətdə fikir ayrılıqları var idi. Baş nazir N.Çemberlen və hərbi-dəniz naziri U.Çörçill Bakının bombalanmasından daha çox Qara dənizə sualtı gəmilər göndərib Almaniyaya neft daşınmasına mane olmağa üstünlük verirdilər. Fransada general de Qoll Bakının bombalanması ideyasının əleyhdarları sırasında idi. Sonralar o, xatırlayırdı ki, Berlinə qarşı durmaq əvəzinə "bəzi qızğın başlar" Bakı neft mədənlərini necə dağıtmaq barədə düşünürdülər.[21] İstər Britaniyanın, istərsə də Fransanın Moskvadakı səfirləri məxfi kanallarla Qafqaz haqqında, xüsusilə Azərbaycan neft sənayesi, dəmir yolları, Zaqafqazyada dislokasiya olunan ordu hissələri haqqında məlumatları Londona və Parisə göndərirdilər.[22] Dekabr ayının 23-də Moskvadan Londona göndərilən gizli teleqramda göstərilirdi ki, sovetlər çox asanlıqla Cənubi Qafqazda Türkyəyə qarşı 700 təyyarə toplaya bilərlər. Elə həmin məlumatda Qafqaz neftinin Almaniyaya veriləcəyi təqdirdə SSRİ-nin cənub sərhədlərində olan neft mədənlərinin məhv edilməsi zəruri hesab edilirdi.[23] Britaniyanın Ankaradakı səfiri Knaçbull-Hyuqessen 1939-cu ilin noyabr ayının 18-də türk mənbələrinə əsasən Londona yazırdı ki, Qafqazın yerli əhalisi rus idarəçiliyinə münasibətdə narazılığın əlamətlərini büruzə verir, Türkiyə Baş qərargahı güman edir ki, Rusiya ilə müharibə olacağı təqdirdə onlar əhalini üsyana təhrik edə bilərlər.[24] Fransanın Sovet İttifaqındakı hərbi attaşesi general Oqyust Antuan Palass Fransa Milli Müdafiə və Silahlı qüvvələr nazirliyinin, habelə Fransa ordusunun Baş qərargahının 19 dekabr sorğusuna cavab olaraq, 1939-cu ilin dekabr

---

[21] Ч.А.Султанов. Нефть, с.112

[22] 1939-1940-cı illərdə ingilis və fransızların Bakını bombardıman etmək planları barədə ətraflı məlumat üçün bax: G.Mamoulia. Les combats independantistes des Caucasiens entre URSS et puissances occidentales. Le cas de la Georgie (1921-1945). p.239-271

[23] Telegramme de Moscou № 1742, le 23 Decembre 1939.// Ministere des Affaires Etrangere de France, Archives Diplomatique, Paris, Deuxieme guerre 1939-1945, Papiers 1940, papiers Rochat, dossier №36 (URSS), folio 93

[24] Г Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.341

ayının 24-də Parisə göndərdiyi "Qafqazda hərbi əməliyyatlar meydanının mümkünlüyü haqqında" sənəddə bölgə ilə bağlı ümumi məlumatlarla yanaşı, xüsusi şəffaf kağızda Qafqazın dəmir yolları, Baku-Batum dəmir yolunun ümumi texniki xarakteristikasını verir, Qafqazdan Cənubi Qafqaza gedən yollar, orada yerləşdirilən ordu hissələrinin sayı haqqında hərbi xarakterli məlumatları Parisə göndərirdi.[25] Bundan bir gün əvvəl isə Fransanın Türkiyədəki hərbi attaşesi "Qafqazın neft mərkəzlərinə hücumun forma və şərtləri" adlı təhlil xarakterli sənəd hazırlamış və onu Parisə göndərmişdi. Sənəddə göstərilirdi ki, SSRİ-də neft istehsalının real həcminin nə qədər olmasından asılı olmayaraq, onun 4/5 hissəsi Bakı mədənlərində hasil edilir. Digər tərəfdən isə, həmin neft mədənlərində rus benzininin 2/5 hissəsi və demək olar ki, aviasiya benzininin hamısı istehsal edilir".[26] Sənəddə Türkiyədən kifayət qədər uzaqda yerləşən Bakı neft mədənlərinin bombardman edilməsinin çətinliklərindən söz açılır, lakin ildə 6 milyon ton Bakı neftinin daşındığı Türkiyə sərhədlərinin cəmi 25 kilometrliyində yerləşən Batum limanının və orada yerləşən neft terminallarının, anbarların və neft emalı zavodlarının müttəfiqlərin hərbi gəmiləri vasitəsilə dağıdılması mümkün hesab edilirdi. Bu əməliyyatın aviasiya vasitəsi ilə həyata keçirilməsi də istisna edilmirdi və bu halda 800 km. uzunluğunda Bakı-Batum neft kəməri marşrutu boyunca paraşüt desantının atılması nəzərdə tutulurdu. Desant əməliyyatında yerli şəraiti yaxşı bilən mühacir diversantlardan istifadə edilməsi məqsədəuyğun sayılırdı.[27] 1939-cu ilin dekabr ayının 30 Fransa ordusunun Baş qərargahının hazırladığı "Sovet-alman paktının nəticələri. Müharibənin strateji baxımdan aparılması haqqında qeydlər" adlı sənədin bir hissəsi də, məhz, Almaniyanı Bakı neftindən məhrum etməyin

---

[25] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I, с.349-351

[26] Conditions et modalites d'une attaque contre les centres petroliers du Caucase. Le 23 Decembre 1939.// Ministere des Affaires Etrangere de France. Archives Diplomatique. Paris. Deuxieme guerre 1939-1945, Papiers 1940, papiers Rochat. dossier №36 (URSS), folio 66

[27] Yenə orada, folio 70-74; Əlavə məlumat üçün bax: P.R.Osborn. Operation Pike. Britain. Versus the Soviet Union, 1939-1941. Westport, Connecticut, London, Greenwood Press, 1966, p.30

yollarını özündə ehtiva edirdi. Orada qeyd olunurdu ki, Qafqazdakı rus nefti hazırda Almaniyanı təminatı xidmətini yerinə yetirir. Bunun qarşısının alınması Bakı-Batum boru xəttinin və əgər mümkün olarsa, rus neftinin ¾ hissəsini verən Bakı neft mədənlərinin dağıdılmasında görülürdü. Qeydlərin müəllifləri belə hesab edirdilər ki, bu strateji məqsəd yerinə yetirilərsə sənaye baxımdan zəif və sahibkarlıq hissindən məhrum olan rus iqtisadiyyatı nəhəng çətinliklərlə qarşılaşmalı olardı. Onlar Türkiyənin göz yumacağı şəraitində bu işi əslən Qafqazlı olan və Suriyada məskunlaşan çərkəz və kürdlərdən təşkil edilmiş silahlı dəstələr vasitəsi ilə həyata keçirmək istəyirdilər. Orada deyilirdi: "Əgər biz əməliyyatı daha geniş miqyasda başlamaq istəyiriksə, keçmişdə Osmanlı mülkləri olan Cənubi Qafqazı vəd etməklə Türkiyəni bu işə maraqlandırmaq olar".[28] İngilis və fransız kəşfiyyatı Ankarada türk həmkarları ilə Qafqaz mühacirətinin təşkilatlanması və onların Türkiyə ərazisindən SSRİ-yə qarşı mübarizə məqsədilə istifadə etmələri məsələsini müzakirə etdikdə Türkiyə tərəfi ilkin şərt kimi Qafqaz mühacirəti nümayəndələrinin Sovet İttifaqı ilə Türkiyə arasında mövcud olan sərhədləri tanımalarını irəli sürdü. Türkiyə hələ, 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri ilə tənzimlənən Cənubi Qafqaz sovet respublikaları ilə sərhədlərə çox ehtiyatla yanaşır və onları qoruyub saxlamağa çalışırdı. Ankaranı bu şübhələrdən qurtarmaq üçün Qafqaz Konfederasiya Şurası 1940-cı ilin fevralında bəyan etdi ki, onların təmsil etdikləri respublikalar mövcud sərhədləri qoruyub saxlamaq üçün öz səylərini birləşdirəcək və dünyanın bu hissəsində sülhün əsl təminatçısı olacaqlar.[29] Eyni zamanda Qafqaz mühacirətinin nümayəndələri onların əraziləri hesabına türklərdən yardım alınmasının əleyhinə idilər və bu məqsədlə Qafqaz Konfederasiya Şurası 1940-cı ilin mart ayında öz

[28] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.346-347

[29] Bax: Promethee, 1940, 25 avril, p.33-34.//Ministere des Affaires Etrangeres (MAE) de France (Archives Diplomatique), Correspondanse politique et commerciale, 1918-1940. Serie «Z» Europe. Dossier Russie. Vol.659, folio 192-193

nümayəndəsi A.Ququşvilini Britaniya Xarici İşlər nazirliyinin məsul əməkdaşı L.Kolye ilə danışıqlara göndərmişdi. Bu danışıqlarda sərhədlərin tanınması məsələsinə razılıq verildi və ermənilərı də bu prosesə qoşmaq üçün Ququşvili bildirdi ki, onların Kremlə loyal münasibəti türklərdən qorxmaları ilə bağlıdır. O, təklif etdi ki, ermənilərin Moskvanın təsirindən çıxmalarını asanlaşdırmaq üçün Ankara digər Qafqaz xalqlarına olan münasibətini ermənilərə də şamil etməlidir.[30]

Yaranmış vəziyyətdə Avropada olan Azərbaycan mühacirləri Müttəfiq liderlərin diqqətini 1920-ci ildə itirilmiş müstəqilliyin bərpasına cəlb etmək istəyir və rəsmi dairələrlə sıx əlaqələrə can atırdılar. Bu məqsədlə 1940-cı ilin yanvar ayının 26-da nümayəndə Parisdə olan Azərbaycan nümayəndə heyətinin başçısı M.Mehdiyev Fransanın Baş naziri Eduard Daladiyenin adına nota göndərmişdi. Orada Fransa və onun müttəfiqlərinin xalqların azad həyat uğrunda apardıqları mübarizəyə dəstəkləri yüksək qiymətləndirilir və Azərbaycanın da öz müstəqilliyinə qovuşacağının çox da uzaqda olmadığı xatırladılırdı. Sənədin sonunda verilmiş əlavədə Azərbaycan nümayəndə heyətinə daxil olan Mir Yaqub Mehdiyev, Abbas bəy Atamalıbəyov, Məmməd Məhərrəmov, Ceyhun bəy Hacıbəyli, Əkbər ağa Şeyxülislamov və Ələkbər bəy Topçibaşi haqqında məlumat verilirdi.[31]

Müttəfiqlərlə yanaşı Azərbaycan nümayəndələri işğal olunmuş Polşanın Parisdəki mühacir hökuməti ilə də əlaqələri davam etdirirdi. Nümayəndəliyin Baş katibi A.Atamalıbəyov 1940-cı ilin yanvar ayının 25-də Polşa nümayəndələrinə geniş bir memorandum təqdim etmişdi. Orada Polşanın qeyri-rus, xüsusilə Qafqaz mühacir təşkilatları ilə əlaqələri qoruyub saxlamasının zəruriliyi göstərilir və Molotov-Ribbentrop paktı əsasında bölüşdürülmüş Polşanı işğal edən Almaniya və Sovet İttifaqının eyni mahiyyətə malik olduğu vurğulanırdı. Memorandumda Atamalıbəyov

---

[30] Ambassadeur de la France a Londres Ch.Corbin. La Question du Caucase. Le 9 mars 1940.//Ministere des Affaires Etrangeres (MAE) de France (Archives Diplomatique), Correspondanse politique et commerciale, 1918-1940. Serie «Z» Europe. Dossier Russie. Vol.659, folio 192-193

[31] Dr. M.Y. Mehtiev (president de la delegation nationale d'Azerbaïdjan) a Son Excellence Monsieur E. Daladier, president du Conseil, ministre des Affaires etrangeres. Paris. 26.01.1940. // Ministere des Affairs Etrangere de France, Archives Diplomatique, CPC, 1914-1940. Serie Z (Europe). Dossier № 1093, URSS (nationalites et regionalisme), folio 344-347.

Azərbaycan məsələsinə toxunur və onun zəngin təbii ehtiyatlara malik olduğunu qeyd edirdi, başlanmış müharibənin açarının Bakı neftində olduğunu önə çəkirdi. Memorandumda Polşanın Azərbaycan azadlıq hərəkatına diplomatik, siyasi, hərbi, maddi və maliyyə baxımdan yardım etməsinin faydalı ola biləcəyi irəli sürülürdü. Atamalıbəyov SSRİ ilə sərhəddə olan Türkiyə, İran, Əfqanıstan, Rumıniya kimi ölkələrdə türk irqindən olan 500 min mühacirin yaşadığını qeyd edir və indiki anda bu mühacirlərdən milli legionlar yaratmağı zəruri hesab edirdi.[32] Azərbaycan nümayəndələri Parisdəki polyak nümayəndələrinə müraciət etməkdə səhv etməmişdilər. Məhz, bu memorandumdan az sonra polyakların zəmanəti ilə Fransa hakimiyyət orqanları həm təbliğat, həm də kəşfiyyat işlərində azərbaycanlılarla əməkdaşlığa qəti qərar verdilər. Fevral ayının 2-də Fransa Xarici İşlər nazirliyi Atamalıbəyovun müraciətinə cavab olaraq Daxili İşlər və Hərbi nazirliklərinə məlumat verdi ki, müharibə dövrünün məhdudiyyətlərinə baxmayaraq, Azərbaycan nümayəndələrinin tam gücləri ilə fəaliyyət göstərmələrinə icazə verilsin və daha vacib işlərlə məşğul olduqlarından nümayəndə heyətinin üzvləri hərbi çağırışdan azad edilsinlər. Bu təklifi Xarici İşlər nazirliyi nümayəndəliyinin üzvlərinin əksəriyyətinin Azərbaycanda keçmiş parlament üzvləri, hətta onlardan birinin bolşevik işğalına qədər Bakı şəhərinin meri olduğu, hamısının Fransada universitet təhsili alması, Fransa hakimiyyətinin apardığı siyasətə rəğbətlə yanaşmaları ilə izah edirdi. Fevral ayının 17-də Daxili İşlər nazirliyi, mart ayının 2-də isə Hərbi Nazirlik Xarici İşlər nazirliyinin müraciətinə müsbət cavab verdilər. Məhz, bundan sonra Azərbaycan mühacirləri Fransanın müvafiq hakimiyyət orqanları üçün Azərbaycan, Qafqaz və türk xalqları, onların müttəfiqlərin siyasətində strateji əhəmiyyəti haqqında maraqlı məruzələr və arayışlar hazırladılar.[33] Məsələn, 1940-cı ilin mart ayının ortalarında SSRİ-nin türk xalqları haqqında hazırlanmış geniş arayışda Azərbaycan, Şimali Qafqaz, Türküstan, İdil-Ural, Krım xalqlarının Rusiyaya qarşı apardıqları

---

[32] A. Atamalibekoff. Memoire aux Polonais. 25.01.1940. //Archives d'Ali Mardan-bey Topchibachi. Carton n° 10/1. CERCEC. EHESS, Paris, pp.1-3

[33] Bax: Г.Мамулия, Р.Абуталыбов. Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции, с.463-464.

azadlıq hərəkatına toxunaraq sənəd müəllifləri SSRİ-yə qarşı hərbi əməliyyatların təcili başlanmasını təklif edir və Sovet Rusiyasının təbii ehtiyatları, əsasən türk xalqlarının məskunlaşdığı bu regionlardan əldə etdiyini bildirirdilər. Onların fikrincə, bu regionların Rusiyadan ayrılması Sovetləri öz təbii müttəfiqi olan Almaniyaya effektli yardımdan məhrum edər, müttəfiqləri qələbəyə yaxınlaşdırardı.[34]

1940-ci ilin yanvarında Fransa hökuməti Fransa Ali Hərbi Şurası sədrinin müavini general Moris Qamelenə və Fransa Dəniz Baş qərargahının rəisi admiral Jan Lui Darlana tapşırdı ki, Rusiyanın neft mənbələrinin sıradan çıxarılmasının mümkün variantlarını hazırlasınlar. Yanvar ayının 19-da onlar Baş nazir Eduard Daladyenin adına hazırladıqları "Neft mənbələrini məhv etmək məqsədilə SSRİ-yə nəzərdə tutulan hücum əməliyyatı haqqında" mülahizələrində üç istiqaməti əsaslandırmağa çalışırdılar. Birinci mülahizəyə görə onlar Qara dənizdə neft daşıyan Almaniya gəmilərinin ələ keçirilməsini nəzərdə tuturdular. Bu halda Rusiya əleyhinə müharibəyə başlanılmırdı. İkinci mülahizədə Qafqaza birbaşa müdaxilə təklif edilirdi. Üçüncü mülahizədə Rusiya əleyhinə birbaşa fəaliyyətdən yan keçib Qafqazda müsəlman xalqlarının azadlıq hərəkatının müdafiə edilməsi nəzərdə tutulurdu.[35] Bu mülahizələr E.Daladye ilə yanaşı, Fransa ordusunun quru orduları komandanı general Lui Keltsə və Fransa hərbi hava qüvvələrinin baş qərargahının rəisi general Jozef Vyuyemenə də göndərilmişdi. Fransanın Ankaradakı səfiri R.Massigli bu planın həyata keçirilməsində Sovet İttifaqında yaşayan bütün türk xalqlarının Böyük Turan dövlətində birləşdirilməsi məqsədilə turançılıq hərəkatının genişlənməsinə ümid bəsləyirdi. 1940-cı ilin fevral ayının 11-də Parisə göndərdiyi məlumatda o, turançı fikirlərin

---

[34] Les peuples de la race turque de l'URSS. Mars 1940. //Archives d'Ali Mardan-bey Topchibachi. Carton n° 10/2. CERCEC. EHESS. Paris. pp.1-5

[35] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I, с. 361-362. Əlavə məlumat üçün bax: Zehra Önder. II. Dünya Savaşında Türk Dış Politikası, s.51; J.Glasneck u. I.Kircheisen. Türkei und Afghanistan. Brennpunkte der Orientpolitik im Zweiten Weltkrieg. Berlin (Ost), 1968, p.53; W.L.Langer, S.E.Gleason. The Challenge to Isolation 1937-1940. New York, 1952, p.390; M. Beloff. The Foreign Policy of Soviet Russia 1929-1941. New York, 1952, p.301

Türkiyə hökumət dairələrində elə də böyük maraq doğurmadığını, lakin Sovet İttifaqı zəiflədiyi halda bu vəziyyətin dəyişəcəyini vurğulayırdı.[36] Hətta, sovet-fin müharibəsinin gedişində Budapeştdəki Finlandiya səfiri 1940-cı ilin yanvarında Ankaraya gəlib milyonlarla müsəlmanın sovet boyunduruğundan qurtulmağı gözlədiyi üçün Türkiyənin Sovet İttifaqına hücumunu təşviq etsə də, yalnız ordunun bəzi dairələrində və hələ də Ziya Gökalpın fikirlərinə bağlı olan ziyalılar arasında az sayda tərəfdar tapa bildi.[37] Üçüncü mülahizəyə əməli xarakter vermək üçün İngiltərə və Fransanın hərbi-siyasi dairələri Qafqaz Konfederasiyası Şurasının gücləndirilməsinə mühüm əhəmiyyət verirdilər və bu məqsədlə Qafqaz mühacirləri 1940-cı ilin mart ayının əvvəllərində "Robert layihəsi" adı altında ermənilərin Şuraya qoşulmasını özündə ehtiva edən danışıqlara başladılar. Mart ayının 6-da Azərbaycan nümayəndələrindən M.Mehdiyev və Ələkbər bəy Topçibaşi, Gürcüstandan A.Çxenkeli, Şimali Qafqazdan S.Şamil və A.Namitok, Ermənistandan A.Camalyan daxil olmaqla, Qafqaz Konfederasiya Şurasının layihəsini hazırlayan komissiyanın toplantısı keçirildi. Müzakirələrin gedişində erməni nümayəndəsi Camalyan 7 bənddən ibarət öz layihəsini təklif etdi. 2 və 5-ci bənd istisna olmaqla yeni erməni layihəsində qalan bəndlər 1934-cü ildə imzalanmış Brüssel paktının təkrarı idi. Camalyanın irəli sürdüyü 2-ci bənddə Qafqaz dövlətləri arasında kömrük ittifaqının yaradılması, 5-ci bənddə isə bu dövlətlərin ərazilərində yaşayan milli azlıqlara tam inzibatı muxtariyyət verilməsi nəzərdə tutulurdu. Azərbaycan nümayəndələri adından çıxış edən M.Mehdiyev Camalyanın 5-ci bəndinə qəti şəkildə etiraz etdi və bunu erməni nümayəndələrinin separatizm cəhdləri kimi qiymətləndirdi və bildirdi ki, bu məsələ gələcək Azərbaycan dövlətinin səlahiyyətlərinə aid məsələdir, mühacirət nümayəndələri Azərbaycan xalqı adından belə təklifə razı ola bilməzlər. Uzun müzakirələrdən sonra komissiyanın mart ayının 9-da keçirilən

[36] Zehra Önder. II. Dünya Savaşında Türk Dış Politikası, s.51

[37] R.Massigli. La Turquie devant le guerra. Miision a Ankara 1939-1940. Paris, 1964, p.37

toplantısında ermənilər öz iddiasından imtina etdi və əvəzində türklərin Ermənistana qarşı hər hansı təcavüzkar planlarının olmayacağına təminat aldılar.[38] 1940-cı ilin may ayının 28-də Şuranın üç bənddən ibarət olan əməkdaşlıq haqqında sənədinin imzalanmasına nail oldular. Türkiyənin Qafqazın işlərinə müdaxilə etməyəcəyi müqabilində ermənilər Türkiyəyə olan ərazi iddialarından imtina etdilər və mövcud erməni-türk sərhədlərini tanıdıqlarını bildirdilər. Qafqaz Konfederasiya Şurasının protokolunu Azərbaycan adından Mir Yaqub Mehdiyev, Gürcüstan adından Akaki Çxenkeli, Şimali Qafqaz adından Sunş Maqomet Qirey, Ermənistanın adından isə Arşak Camalyan imzalamışdılar. Orada Konfederasiya Şurasının şimal sərhədlərinin Kuban və Kuma çayları, cənub sərhədlərinin isə Ermənistan, Azərbaycan və Gürcüstan sovet respublikalarının mövcud sərhədlərindən ibarət olduğu tanınırdı. Protokolun ikinci bəndində göstərilirdi ki, Qafqazın rus ağalığından azad olması Qafqaz xalqları üçün başlıca məqsəd olaraq qalır və Qafqaz Konfederasiyası Rusiya tərəfindən tanınmayana qədər Rusiya ilə hər hansı saziş və kompromis Qafqaz Konfederasiyası üçün məqbul deyildir. İran və Türkiyəyə gəldikdə protokolda qeyd edilirdi ki, bu ölkələrə münasibətdə Qafqaz Konfederasiyasının xarici siyasəti səmimi dostluq və mehriban qonşuluq siyasətinə əsaslanmalıdır.[39] Elə həmin gün Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz milli mərkəzləri arasında 7 bənddən ibarət Qafqaz Konfederasiya paktı imzalandı. Onu Azərbaycan Milli Mərkəzi adından Mir Yaqub Mehdiyev, Gürcüstan Milli Mərkəzi adından A.Çxenkeli, Ermənistan Milli Mərkəzi adından A.Xatisyan, Şimali Qafqaz Milli Mərkəzi adından S.Şamil imzalamışdılar. Orada göstərilirdi ki, Qafqaz Konfederasiyası daxili siyasətin milli xarakterinə və Qafqaz respublikalarının hər birinin suverenliyinə tam

[38] Bax: Г.Мамулия, Р.Абуталыбов Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции, с.475-476.

[39] Bibliotheque de Documentation Inernationale Contemporaine (BDIC), microfilms des archives du gouvernement Georgien, mfm 881, bobine 127; Daha geniş məlumat üçün bax; Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.520-521

təminat verir, xarici siyasət sahəsində isə bütün respublikaların adından beynəlxalq subyekt kimi çıxış edir. Konfederativ respublikaların xarici siyasəti Konfederasiyanın səlahiyyətli orqanları tərəfindən idarə olunmalı idi. Konfederasiyanın sərhədləri onun vahid komandanlıq tərəfindən idarə olunan ordusu tərəfindən qorunmalı idi. Pakta görə konfederativ respublikada yaşayan hər bir milli azlıqların hüquqlarına təminat verilirdi. Konfederasiya vahid siyasi və kömrük sərhədlərinə malik olmalı, beynəlxalq ticarət üçün kömrük ittifaqı yaratmalı idi. Konfederativ respublikalar arasında yaranan mübahisəli məsələlər danışıqlar yolu ilə öz həllini tapmasaydı, Konfederasiyanın arbitrajına və ya Ali məhkəməsinə verilməli idi. Arbitrajın və Ali məhkəmənin qərarı respublikalar tərəfindən danışıqsız icra olunmalı idi. Ekspertlər komissiyası yuxarıda göstərilən prinsipləri əsas tutmaqla ən qısa vaxtda Qafqaz Konfederasiyasının konstitusiyasını hazırlamalı idilər və layihəyə uyğun olaraq hər respublika özünün konstitusiyasını formalaşdırmalı idi.[40] İstər Qafqaz Konfederasiya Şurası toplantısının protokolu, istərsə də Konfederasiya paktı həm general Veyqan, həm də Türkiyə hökuməti ilə razılaşdırılmışdı.

Parisin işğalı ərəfəsində Fransa rəsmi dairələrinin Qafqaz haqqında ciddi qərarlar qəbul etməsinə baxmayaraq, onlardan fərqli olaraq Britaniya rəsmi dairələri turançı hərəkatın dirçəldilməsinə bir qədər şübhə ilə yanaşırdılar. Onların fikrincə, türklər Böyük Turanın qurulmasından daha çox, Mosul neft bölgələrinin nümunəsində keçmiş Osmanlı torpaqları ilə maraqlanırdılar.[41] Eyni zamanda Britaniya siyasi dairələrinin nümayəndəsi kimi U.Çörçil açıq şəkildə bildirirdi ki, Türkiyə ilə əməkdaşlıq etmədən nə Bakını bombardman etmək, nə də Qara dənizdə neft daşınmasının qarşısını almaq olar.[42] Britaniya Xarici İşlər nazirliyinin nümayəndəsi M.Maklin Bakı neft mədənləri ilə bağlı

---

[40] Pacte de la Confederation du Caucase. Le 28 mai 1940.//Ministere des Affaires Etrangeres (MAE) de France (Archives Diplomatique), Correspondanse politique et commerciale, 1918-1940. Serie «Z» Europe. Dossier Russie, nationalites et regionalisme. Vol.1093, folio 381-382

[41] Zehra Önder. II. Dünya Savaşında Türk Dış Politikası, s.51

[42] Yenə orada, s.52

Azərbaycan Milli Mərkəzinin nümayəndəsi doktor Mir Yaqub Mehdiyevlə Londonda geniş müzakirələr aparmışdı. Bu müzakirələrin gedişində Maklin M.Mehdiyevə bildirmişdi ki, o, Bakını türklərin əlində görməyə daha çox üstünlük verir, nəinki sovetlərin. [43]

1940-cı ilin fevral ayından başlayaraq müttəfiqlər Qafqaz əməliyyatını daha da intensivləşdirməyə başladılar. Fevral ayının 18-də Fransa ordusu Baş qərargahı və Xarici İşlər nazirliyi tərəfindən hazırlanmış "Bakı-Sovet hakimiyyətinin həyat · mənbəyi. Məhv edilmə yolları" adlı sənəddə göstərilir ki, əgər Bakını bombardman etmək üçün Türkiyə və İranla razılığa gəlinməsə, şəhərin neft mədənlərinin məhv edilməsinin yeganə yolu sovetlərə düşmən əhvali-ruhiyyədə olan yerli azərbaycanlıların diversiya əməliyyatına cəlb edilməsidir. Maraqlıdır ki, bu əməliyyatda Bakının erməni əhalisindən istifadə nəzərdə tutulmurdu. Sənəd müəlliflərinin fikrincə, siyasi məsləkindən asılı olmayaraq yerli ermənilər türklərdən qorxduqlarına görə Kremlin müttəfiqi olaraq qalırlar [44] 1940-cı ilin fevral ayının 22-də onlar hökumətə təqdim etdikləri başqa bir hesabatda Bakının neft ehtiyatları və mədənlərinin istehsal gücü barədə məlumatlar hazırlamışdılar. Onların məlumatına görə Bakı SSRİ neft sənayesinin 75 faizini verirdi və Bakının neftayırma zavodları Qafqazda ən böyük müəssisələr sayılırdı, yerli yanacağın 50 faizi dəmir yolu və Xəzər gəmiçiliyi vasitəsi ilə daşınırdı. Fransa generallarının fikrincə sovet silahlı qüvvələri və Rusiyanın kənd təsərrüfatı bütövlükdə Bakı neftindən asılı idi.[45] Mart ayında hazırladıqları başqa bir sənəddə onlar belə nəticəyə gəlirdilər ki, əgər Sovetlər Bakı neft mənbələrini itirərdilərsə çox ciddi böhranla

---

[43] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж. 2012, с.374; Bax: Г.Мамулия, Р.Абуталыбов. Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции, с.491.

[44] Bakou, centre vital de la puissance soietique. Comment le detruire. Le 18 Fevrier 1940.// Ministere des Affaires Etrangere de France, Archives Diplomatique, Paris, Deuxieme guerre 1939-1945, Papiers 1940, Papiers Rochat, dossier n°36 (URSS), folio 225-226

[4] Die Geheimakden des franzozischen Generalstabes, Auswartiges Amt, 1939/1941, Nr/ 6, Deutsches verlag, 1941, p.205. Almaniya xarici işlər nazirliyinin nəşr etdiyi "Fransa Baş Qərargahının gizli sənədləri" toplusunun tam mətni üçün bax. RDSSTA, f 1357, s.3, i.163, v.1-198

qarşılaşmış olardılar.[46] 1940-cı ilin mart ayında Azərbaycan nümayəndələrinin Qafqazın iqtisadı həyatı və Bakının neft ehtiyatları haqqında hazırladıqları geniş arayış bu sənədlərin hazırlanmasında əhəmiyyətli rol oynayırdı. Orada göstərilirdi ki, Bakı öz neft ehtiyatlarına görə dünyada ikinci yerdə dayanır və bu səbəbdən Moskva son vaxtlar Bakıda və Qafqaz sərhədləri boyunca Azərbaycanda hərbi cəhətdən daha da möhkəmlənir. Bunu sənəd müəllifləri bir tərəfdən SSRİ-nin Cənuba doğru müdaxiləyə hazırlıq niyyətləri ilə izah edirdilərsə, digər tərəfdən Qafqaz xalqlarının müstəqillik uğrunda güclənən azadlıq hərəkatını boğmağa yönəldiyi ilə əsaslanırdılar. Sənəd müəlliflərinin fikrincə, Qafqazın azadlığı faktı rus imperializminin tam iflası ilə nəticələnməli idi.[47]

1940-cı ilin mart ayında Bakının bombardman edilməsi planı daha da dəqiqləşdirildi. Fransa hərbi dairələri bu məqsədlə Türkiyədən istifadə etməyə cəhd göstərirdilər. Onların fikrincə Bakının bombardman edilməsi üçün Suriya və İraqdakı hərbi hava bazalarından istifadə edilsəydi belə, Türkiyənin hava sahəsindən istifadə etmək lazım gələcəkdi. Türkiyə ilə Sovet İttifaqı arasında dostluq və bitərəflik haqqında müqavilə olduğundan müttəfiqlər yaxşı bilirdilər ki, türk hava sahəsindən Bakıya doğru uçuşlar həyata keçirilməsinə Türkiyə hökuməti gözyuma bilməz və belə hallar Türkiyə ilə SSRİ arasında ciddi problemlər yarada bilər. Bunu nəzərə alaraq, Bakının bombardman edilməsi planları barədə müttəfiqlər türk hökumətinə məlumat verilməsini zəruri hesab edirdilər. Eyni zamanda, onlar belə hesab edirdilər ki, Türkiyənin sonralar bu hücumdan xəbəri olmadığını iddia edə bilməsi üçün rəsmi belə bir razılaşmanın olması məqbul hesab edilmirdi.[48] Bu planla bağlı sovetlər tərəfindən hər hansı təhlükə olacağı təqdirdə türk iqtisadiyyatı və boğazlar məsələsində yarana biləcək problemlər də müttəfiqlər tərəfindən müzakirə edilirdi. Onlar bu fikirdə

---

[46] G.Kahle. Das Kauasusprojekt der Alliierten vom Jahre1940. Opladen. Westdeutscher Verlag, 1973, p.214

[47] Le Caucase et les evenements actuels. Mars 1940. //Archives d'Ali Mardan-bey Topchibachi, Carton n° 10/2. CERCEC. EHESS, Paris, pp.1-4

[48] Zehra Önder. II. Dünya Savaşında Türk Dış Politikası, s.52

idilər ki, Bakıya hücumla bağlı meydana çıxacaq türk-sovet qarşıdurması zamanı Türkiyəyə böyük həcmdə silah-sursat verilməli və türk iqtisadiyyatına dəyəcək zərər ödənilməlidir.[49] R.Massiglinin fikrincə Qara dəniz boğazları məsələsində Türkiyə son dərəcə ehtiyatlı hərəkət etməli və Möntrye sazişinə zidd olan hər hansı addım atmamalı idi. Fransa səfirinə görə Türkiyənin Möntrye sazişinə zidd olan hər hansı addımı SSRİ və İtaliyanın etirazına səbəb olar və onlar müəyyən qabaqlayıcı tədbirlər görə bilərdilər.[50] Bütün bunları nəzərə alaraq R.Massigli hesab edirdi ki, Bakı planı istisna olmaqla, Türkiyə Qara dənizdə ola biləcək hər hansı hərbi əməliyyata qarışmamalıdır.[51] Ona görə də, bu dövrdə Türkiyəni Sovet İttifaqına qarşı planlarda iştiraka razı salmaq Parisin də, Londonun da siyasətinin üstün istiqamətlərindən biri idi.[52] Hələ, 1939-cu ilin dekabrında müttəfiqlərin baş qərargah rəislərinin görüşündə Britaniya ordusunun Baş qərargahının rəisi general Edmund Ayronsayd Qafqazda hərbi hava əməliyyatlarda istifadə etmək məqsədilə mərhələli şəkildə Türkiyə hərbi hava qüvvələrinin yaradılmasını təklif etmişdi.[53] Fransanın Ankaradakı səfiri R.Massigli isə Xəzərin neftli sahələrinə, ilk növbədə isə Bakıya hava zərbələrinin endirilməsini yalnız Türkiyə ərazisindən mümkün hesab edirdi.[54] General Qamelen Maksim Veyqanla yazışmalarında Qafqaz planının həyata keçirilməsi ilə bağlı türk ordusunun Baş qərargahının rəisi marşal Fevzi Çakmakla gizli məsləhətləşmələr aparıldığını yazırdı.[55] 1940-cı ilin mart ayının 7-də Yaxın Şərqdəki Britaniya hərbi hava qüvvələrinin komandanı marşal Mitçell Suriyada olan Fransa ordusunun komandanı general Veyqana məlumat verirdi ki, o, Bakının

---

[49] Die Geheimakden des französischen Generalstabes, Auswartiges Amt, 1939/1941, p.168

[50] Yenə orada, s.68

[51] Yenə orada, s.76

[52] Documents diplomatiques français, serie Deuxieme Guerre, sous la direction d'Andre Kasp, Bruxelles, Peter Lang, 2002, vol. I, doc.122

[53] P R.Osborn Operation Pike. Britain. Versus the Soviet Union, 1939-1941. Westport, Connecticut, London, Greenwood Press, 1966, p.30

[54] Ətraflı məlumat üçün bax: R.Massigli. Turqie devant la guerre. Mission a Ankara 1939-1940. Paris, 1964.

[55] G.Mamoulia. Les combats independantistes des Caucasiens entre URSS et puissances occidentales. Le cas de la Georgie (1921-1945), p.263

neft rayonlarının və Batumun neftayırma zavodlarını bombardman etmək üçün təlimat almışdır. Mitçell əlavə etdi ki, uçuşların aralıq məntəqəsi kimi Diyarbəkir, Ərzurum, Qars və Van gölü rayonunun öyrənilməsi məqsədilə türk ordusunun baş komandanı marşal Fevzi Çakmakdan icazə alınmışdır.[56] Mart ayının 12-də general Qamelen Suriyadakı fransız ordusunun komandanı Veyqana göndərdiyi təlimatda bildirirdi ki, Qafqaz əməliyyatı müttəfiqlərin aviasiyasının və ola bilsin ki, xüsusi hərbi hissələrinin iştirakı ilə türk silahlı qüvvələri tərəfindən, Türkiyənin komandanlığı altında həyata keçirilməlidir. Qamelen tövsiyə edirdi ki, bu məsələ ilə bağlı Veyqan marşal Çakmakla əlaqə saxlasın və Orta Şərqə aid bütün hazırlıq tədbirlərində iştirak etsin. O, Qafqaz əməliyyatına aid geniş təlimatları kuryer vasitəsilə göndərdiyini bildirirdi.[57] Almaniya kəşfiyyatı Yaxın Şərqdə ingilis-fransızların Qafqaza hücum etməyə hazırlıqları barədə məlumatlı idi. Onlara məlum idi ki, Suriyadaki Veyqanın ordusunda çoxlu sayda erməni xidmət edir və məhz onların vasitəsi ilə İmperiya təhlükəsizliyi idarəsi SD 1940-cı ilin əvvəllərində İngiltərə və Fransanın Türkiyə ilə ittifaqda Suriyadan Qafqaza hücum hazırlıqları barədə etibarlı informasiya kanalı əldə etmək istəyirdi. Almanlar ehtiyat edirdilər ki, ingilislər və fransızlar "onların maraq dairəsində olan Qafqazın zəngin rayonlarını ələ keçirsinlər".[58] 1941-ci ilin aprelində Buxarestdəki görüş zamanı bir vaxtlar Bakıda fəaliyyət göstərmiş daşnak liderlərindən biri kimi Sarkis Araratyan Bakı neft sənayesinin keçmişi haqqında Almaniya kəşfiyyatının məsul əməkdaşlarına geniş məlumat verdi. Bu görüşdə Almaniya kəşfiyyatı erməni agentlər vasitəslə öyrəndi ki, Qafqaza hücum etmək üçün Suriyada dislokasiya edilən Fransa ordusunun sayı 50 minə yaxındır. Onlar müəyyən etdilər ki, Veyqanın Suriya ordusunun sayı ilə bağlı mətbuatda gedən rəqəmlər şişirdilmiş rəqəmlərdir.[59] Bununla yanaşı Almaniya generalı Veyqanın Bakıya

---

[56] Die Geheimakden des französischen Generalstabes, Auswartiges Amt, 1939/1941, p.229

[57] P.R.Osborn. Operation Pike. Britain. Versus the Soviet Union, 1939-1941. Westport, Connecticut, London, Greenwood Press, 1966, p.120// RFDA. f.P-9401, s.2, i.201, v.195

[58] Keçmiş Almaniya ordusunun hərbi əsiri Pyotr Qamsaraqanın ifadəsi. 21.10.1948. // RFDA, f.P-9401, s.2, i.201, v.195

[59] Yenə orada, v.202-205

hücumunun və rusların Mosula hərəkət edə biləcəklərini daha ətraflı öyrənmək üçün İranın şimalında yerli şəraiti öyrənməyə qərar verdilər. Bu məqsədlə, İmperiya Təhlükəsizlik İdarəsi öz gizli əməkdaşı, hələ, 1915-1916-cı illərdə Türkiyə və Şimali İrana ekspedisiyada iştirak etmiş kapitan Paul Leverkyunu 1940-cı ilin fevral ayında Təbrizə ezam etdi.[60] Doktor Leverkyun Moskva üzərindən hərəkət edib Çulfa-Təbriz dəmir yolu ilə İrana getmişdi və o, altı həftə ərzində üzərinə qoyulan tapşırığı yerinə yetirməli, Fransa ordusunun İranın şimalından Bakıya hərəkət etməsinin mümkünlüyünü araşdırmalı idi. Əvvəlcə, konspirasiya məqsədilə Təbrizdəki alman konsulu Bonla Leverkyunun görüşü Moskvada nəzərdə tutulsa da, lakin son anda bu görüşün Təbrizə saxlanılması məqsədəuyğun sayıldı.[61]

Qafqaza hücum əməliyyatı zamanı Türkiyənin hava məkanından istifadə edilməsinin bəzi tərəflərini R.Massigli Türkiyənin Xarici İşlər naziri Ş.Saracoğlu ilə görüş zamanı ona açıqlamışdı. Massigli bildirmişdi ki, Əlicəzair və Şimali İraqdan Bakıya hücum zamanı Türkiyənin və İranın hava məkanından hansısa formada istifadə edilə bilər. Həmin söhbət zamanı Saracoğlu Türkiyənin mövqeyinə toxunmayaraq İranın hansısa bir çətinlik yaradıb-yaratmayacağını Massiglidən soruşmuşdu. Bu sorğunu Massigli türk hava məkanından keçmək üçün rəsmi icazə olmasa da, Türkiyənin müttəfiqlərin planlarına maneçilik törətməyəcəyi kimi yozmuşdu.[62] Yəni Türkiyə müttəfiq aviasiyasının Türkiyə üzərindən Bakıya doğru uçmasına rəsmən icazə verməmişdi, eyni zamanda bunu qadağan edən bir fikir də bildirməmişdi. Müttəfiqlər bir növ Türkiyənin xəbəri yoxmuş kimi onun hava məkanından keçməli idilər.[63] Lakın sonralar verdiyi bir müsahibədə həmin dövrdə Türkiyənin prezidenti olmuş İsmət İnönü müttəfiqlərin türk hava məkanından uçaraq Bakını

---

[60] Almaniya Xarici İşlər nazirliyinin əməkdaşı Melxersin xidməti məlumatı. 22.02.1940. // RFDA, f.P-9401, s.2, i.97, v.219

[61] Almaniya Xarici işlər nazirliyinin əməkdaşı Melxersin 22 fevral 1940-cı il tarixli xidməti məlumatına əlavə. 26.02.1940. // RFDA, f.P-9401, s.2, i.97, v.221

[62] Zehra Önder. II. Dünya Savaşında Türk Dış Politikası, s.53

[63] F.Armaoğlu. İkinci Dünya Harbinda Türkiye. Siyasal Bilgiler Fakültesi Dergisi, Cilt 12, no. 2, 1958, s.149

bombardman etmək əməliyyatına Türkiyənin nə rəsmi, nə də qeyri-rəsmi icazə vermədiyini qəti şəkildə bildirmişdi.[64]

Mart ayının 20-də ingilis-fransız komandanlığının Hələbdə (Suriya) keçirilən müşavirəsində qərara alındı ki, 1940-cı ilin iyununa qədər Qafqaz əməliyyatını həyata keçirmək üçün Orta Şərq regionunda ilk olaraq 20 aerodromun tikintisi başa çatdırılsın.[65] Mart ayının 22-də Böyük Britaniya və Fransanın quru ordularının baş komandanı general Qamelen Fransa nazirlər şurasının sədri Pol Reynonun adına "Almaniya və SSRİ-ni Qafqazın neft mənbələrindən məhrum etmək üçün nəzərdə tutulan əməliyyat" haqqında son dərəcə məxfi bir sənəd hazırlamışdı. Sənəddə müttəfiq ordularının Qafqazın neftlə zəngin rayonlarına daxil olması Almaniyanı Qafqazdan neft almaqdan, Rusiyanı isə iqtisadiyyatı üçün zəruri olan xammaldan məhrum etməklə əlaqələndirilir və bu yolla Sovet dövlətinin gücünün zəiflədilməsi nəzərdə tutulurdu. Bütövlükdə plan Almaniyanı Rusiya yanacağından məhrum etməyə yönəlmişdi. Qafqazın neftlə zəngin rayonlarında hərbi əməliyyatlar Bakı, Qroznı-Maykop və Batum məntəqələrində aparılmalı idi. Qroznı-Maykop məntəqələri Qafqaz dağlarının şimalında yerləşdiyi üçün hava hücumunun obyekti ola bilməzdilər. Ona görə də general Qamelen Bakı və Batuma havadan zərbə endirilməsini təklif edirdi. Bakı əməliyyatı ilə bağlı o yazırdı: "Türkiyə sərhədlərindən 500 km aralıda olan Bakı Abşeron yarımadasında yerləşir, dağlıq ərazilərdən ibarətdir və yolları yoxdur. Ona görə Bakı Türkiyə istiqamətindən quru orduları obyekti ola bilməz. Bakıya doğru yerüstü hərəkət İranın şimal-şərq istiqamətindən mümkündür. Bu halda, birincisi, İranın razılığı tələb olunur, ikincisi isə bu rayonda yerləşən İran ordusu nəzərdə tutulan əməliyyatı yerinə yetirməyə yetərli olmadığı üçün, böyük tərkibdə müttəfiq ordusu göndərilməlidir. Yerüstü əməliyyatın qeyd edilən çətinliklərini nəzərə alaraq, Bakıya hücum havadan olmalıdır. Bakı eyni zamanda neftin hasilat, saxlama və daşınma mərkəzi olduğu üçün bombalama yolu ilə

---

[64] Bax: Zehra Önder. II. Dünya Savaşında Türk Dış Politikası, s.330-337

[65] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I, с.383

onu məhv etmək və ya yandırmaq olar."[66] Bakını bombardman etmək üçün müttəfiqlər İranın şimalında aviasiya bazası tikmək və ya Britaniyanın ağır bombardmançı təyyarələrini İranın hava məkanından uçuşlarına Rza şahdan razılıq alacaqlarına ümid bəsləyirdilər. Hərbi əməliyyatın başlanması 1940-cı ilin iyul ayının sonlarına planlaşdırılırdı.[67] Bakı əməliyyatının rentabelliyinə toxunaraq general Qamelen yazırdı: "Bakı Qafqazda ən mühüm neft mərkəzidir. Rus neftinin 75 faizi Bakı quyularından çıxarılır. Qafqazın ən mühüm neftayırma zavodları Bakıda yerləşir. Hasil edilən Qafqaz neftinin 50 faizindən çoxu dəmir yolu və gəmilərlə (Xəzər dənizi ilə) Bakı üzərindən daşınır. Buna görə də, bombardman şəraitində Bakıya hava hücumunda kifayət qədər çoxlu sayda təyyarə iştirak etməli, dağıntıların bərpasına imkan verməmək üçün bombalama təkrar olunmalıdır ki, bu da əməliyyatın müstəsna dərəcədə məqsədəuyğunluğundan irəli gəlir." General Qamelenin fikrincə Bakıya hava hücumu ya Türkiyə ərazisindən, Diyarbəkir – Van – Ərzurum rayonlarından, ya İran ərazisindən, ya da Suriya və İraq (Cizrə və Mosul rayonu) ərazilərindən olmalı idi. Bakı ilə Təbriz arasında məsafənin 400 km, Bakı ilə Ərzurum və Mosul arasında məsafənin 700 km olmasını nəzərə alaraq general Qamelen belə hesab edirdi ki, Bakının bombalanmasına uzaq məsafəyə uçan 6-8 qrupdan ibarət olan müasir ağır bombardmançı təyyarələr həyata keçirməli idilər. Sənədin sonunda Qamelen belə nəticəyə gəlirdi ki, Qafqazın neftli rayonlarına qarşı hərbi əməliyyatlar Qafqazın müsəlman xalqlarını hərəkətə gətirmək məqsədini güdərək ya siyasi xarakter daşımalıdır, ya da rus neft sənayesinin daha mühüm mərkəzləri əleyhinə yönəlmiş adi hərbi əməliyyat olmalıdır.[68] Müttəfiqlərin Ali Şurası elə həmin gün, mart ayının 22-də Xəzər hövzəsində neftlə zəngin ərazilərin bombardman edilməsi məsələsini geniş müzakirə etdi.[69]

---

[66] Die Geheimakden des französischen Generalstabes, Auswartiges Amt, 1939/1941, p.205-207; G.Kahle.Das Kauasusprojekt der Alliierten vom Jahre1940, p.213-214

[67] А.Б. Оришев. Иранский узел. Схватка разведок. 1936-1945 гг. Москва, 2009, с.100

[68] Die Geheimakden des französischen Generalstabes, Auswartiges Amt, 1939/1941, p.205-207; G.Kahle.Das Kauasusprojekt der Alliierten vom Jahre1940, p.215

[69] Международный кризис 1939-1941 гг.: от советско-германских договоров 1939 года до нападения Германии на СССР, с.403

Bu hazırlıqların gedişində müttəfiqlər SSRİ-nin İrana hücum ehtimalının güclü olduğunu təbliğ edir və bu hücumun yaxın vaxtlarda ola biləcəyini ehtimal edirdilər. 1940-cı ilin baharında Tehrandakı Almaniya və SSRİ səfirləri tez-tez görüşərək müttəfiqlərin, xüsusilə Britaniyanın İrandakı siyasətini müzakirə edirdilər. Onların fikrincə, Britaniya SSRİ-nin İrana hücumunu təbliğ etməklə, Sovet neft Bakısına hücum etmək planları cızır.[70] Bakının bombalanması əməliyyatı öz növbəsində Almaniyanın Moskva və Bakı vasitəsi ilə Tehrana yolunu da bağlamalı idi. Müttəfiqlər Yaxın Şərqi nəzarətə aldıqdan sonra Almaniya Əfqanıstan və İran paytaxtlarına hava xəttini SSRİ ərazisindən həyata keçirməyi planlaşdırırdı. Bu məqsədlə mart ayının 4-də Almaniyanın İrandakı səfiri E.Ettel Sovet səfir M.E. Flimonovdan xahiş edilmişdi ki, Berlin – Moskva – Bakı – Tehran hava xəttinin qurulması üzrə öz mülahizələrini bildirsin.[71] Eyni məsələ ilə bağlı Moskvadakı Almaniya səfiri F.Şullenburq da 1940-cı ilin avqust ayının 25-də SSRİ Xarici İşlər komissarı V.Molotova müraciət etmişdi. Onun müraciətində Almaniya – İran hava xətti Berlin – Kiyev – Xarkov – Rostov – Bakı – Tehran marşrutu üzrə olmalı idi.[72]

1940-cı ilin aprel ayının 4-5-də Fransa hərbi-hava qüvvələrinin baş komandanlığının əlaqələndirmə qrupu Qafqazın neftli rayonlarının bombardman edilməsi ilə bağlı iki günlük iclas keçirib əməliyyat planını müzakirə etdi. İclasda planlaşdırıldı ki, Bakı və Batumun bombardman edilməsi ən müasir təyyarələr hesab edilən "Qlenn-Martin" bombardmançıları ilə həyata keçirilsin. Plana görə Bakının vurulması Mosuldan nəzərdə tutulurdu. Batumda 12 neftayırma zavodu sıradan çıxarmaq üçün 6 "Qlenn-Martin" qrupu 15 gün ərzində 6 döyüş uçuşu həyata keçirməli idi. Bakının və Qroznının neftayırma zavodlarının bombardman edilməsi isə "Vellinqton" tipli 6 bombardmançı eskadrilya tərəfindən yerinə yetirilməli idi. "Qafqaz nefti" əməliyyatında 90-dan 100-ə qədər fransız və ingilis təyyarəsinin iştirakı, hər uçuş əməliyyatı

[70] Документы внешней политики. Т.XXIII, кн.1. М., 1995, с.126
[71] Документы внешней политики. Т.XXIII, кн.1. М., 1995, с.127
[72] Документы внешней политики. Т.XXIII, кн.1. М., 1995, с.50

zamanı isə neftayırma zavodlarına 70 ton bomba tökülməsi nəzərdə tutulurdu.[73] Hücum əməliyyatını səmərəli etmək üçün Bakı neft mədənləri və neftayırma zavodlarının planı artıq Britaniya kəşfiyyat orqanları tərəfindən hazırlanmışdı. Müttəfiqlər arasında əldə olunmuş ümumi razılığa görə Bakı neft mədənlərinin bombardman edilməsi əməliyyatını Britaniya hərbi hava qüvvələri həyata keçirməli, Gürcüstanın Qara dəniz sahillərindəki neft müəssisələrini və Qroznı neft mədənlərini Fransa aviasiyası dağıtmalı idi.[74]

Aprel ayının 17-də general Veyqan "Qafqaz nefti" əməliyyatının hazırlıq mərhələsi haqqında sonuncu məlumatları Fransa ordusunun quru ordularının baş komandanı general Qamelenə və hərbi-hava qüvvələrinin komandanı general Vyuyemenə təqdim etdi. Orada 30 gün ərzində bütün hazırlıq tədbirlərinin başa çatması göstərilirdi. Lakin Veyqan xüsusi bir çətinliyin yarandığına diqqəti cəlb edirdi ki, bu da Türkiyənin öz ərazisindən müttəfiqlərə Qafqaza hücum üçün tramplin kimi istifadə etməyə icazə verməməsi və Türkiyə ərazisində ingilis-fransız təyyarələrinin uçuşuna qadağa qoyulması idi. Qərb müttəfiqləri Türkiyəni Sovet İttifaqının ona hücum edəcəyi ilə qorxutsalar da, Xarici İşlər naziri Şükrü Saracoğlu bu təhlükəyə inanmadığını bildirmişdi.[75] Buna baxmayaraq, general Veyqan 1940-cı ilin iyun ayının sonu və iyul ayının əvvəllərində Qafqazın neftli rayonlarına hava zərbələrinin endirilməsinə başlamağı təklif edirdi.[76] SSRİ-nin neft istehsalı rayonlarına birinci zərbənin endirilməsi iyun ayının sonuna planlaşdırılırdı. Fransa rəhbərliyi "Qafqaz nefti" hərbi əməliyyatına o qədər böyük əhəmiyyət verirdi ki, Almaniyanın Danimarka və Norveçə daxil olmasına baxmayaraq Baş nazir Pol Reyno hərbi strukturlara təlimat vermişdi ki, iki gün ərzində Bakıya

---

[73] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I, с.377-379

[74] Bax: P.Buffotot. Le projet de bombardement des petroles sovietiques du Caucase en 1940.// Revue historique des armees, revue commune aux trios armees TERRE-AIR-MER, Vincennes, 1979. №4, p.96

[75] Documents diplomatiques français, serie Deuxieme Guerre. sous la direction d'Andre Kasp, Bruxelles, Peter Lang, 2002, vol. I, doc.273

[76] Die Geheimakden des franzozischen Generalstabes. Auswartiges Amt, 1939/1941, p.280

hücum planının bütün hazırlıq işləri başa çatdırılsın.[77] Lakin müttəfiqlər "Qafqaz nefti" əməliyyatını gerçəkləşdirə bilmədilər. Belə ki, 1940-cı ilin aprel ayının 23-də Britaniya Baş naziri N.Çemberlenin və Fransa Baş naziri P.Reynonun iştirakı ilə keçirilən müttəfiqlərin Ali Şurasının iclasında Britaniya Baş naziri bildirdi ki, Türkiyənin mənfi münasibəti nəticəsində yaxın gələcəkdə SSRİ-yə hərbi zərbələr endirmək mümkün olmayacaqdır.[78] Öz fikrini əsaslandırmaq üçün N.Çemberlen qeyd etdi ki, belə əməliyyatı həyata keçirmək üçün ya Türkiyənin, ya da İranın hava məkanından istifadə edilməlidir. Onun fikrincə, SSRİ Balkanda hərbi əməliyyatlara daxil olsaydı, Türkiyə müttəfiqlər üçün mənfi hesab edilən mövqeyini dəyişə bilərdi. Ona görə də N.Çemberlen belə nəticəyə gəldi ki, İngiltərə və Fransa SSRİ-yə hücum etmək üçün yetərli vasitələrə malik deyillər. İclasda iştirak edən general Qamelen Britaniya Baş nazirini öz fikrindən daşındırmaq üçün dedi ki, Türkiyədən fərqli olaraq İran hökuməti SSRİ-yə hücum planını müdafiə edir və ona görə də, Qamelenin fikrincə hazırlanmış planı təxirə salmaq məqsədəuyğun deyildir. Fransızların bütün ciddi-cəhdlərinə baxmayaraq Çemberlen "Qafqaz nefti" əməliyyatının əleyhinə oldu.[79] Digər tərəfdən 1940-cı ilin aprel ayının 9-da Almaniyanın Danimarkanı işğal etməsi və Norveçə doğru irəliləməsi SSRİ-yə hücum əməliyyatını arxa plana keçirdi. Son nəticədə, Bakıya nəzərdə tutulan hava hücumundan iki həftə əvvəl, 1940-cı ilin iyun ayının 14-də Almaniya orduları Parisə daxil oldu və iyun ayının 22-də Fransa nümayəndələri Kompyendə təslim aktını imzalamalı oldu.

Bundan düz bir ay əvvəl Azərbaycan nümayəndələri Parisi tərk edə bilmişdilər. Bu zaman nümayəndə heyətinin başçısı M.Mehdiyev artıq Londonda idi. Parisdəki Polşa səfirliyi may ayının 22-də Fransanın hərbi hakimiyyət orqanlarından xahiş etmişdi ki, A.Atamalıbəyov,

---

[77] Ч.А.Султанов. Нефть, с.113

[78] Ətraflı məlumat üçün bax: F.Bedaride. La strategie secrete de la dröle de guerre. Le conseil Supreme Inerallie, september 1939- avril 1940. Paris,1979.

[79] Международный кризис 1939-1941 гг.: от советско-германских договоров 1939 года до нападения Германии на СССР, с.404-405

M.Məhərrəmov, Ələkbər bəy Topçibaşi və C.Hacıbəylinin paytaxtdan çıxmasına icazə versinlər. Məhz, hakimiyyət orqanlarının yardımı nəticəsində Azərbaycan nümayəndələri Almaniya orduları Parisə girməzdən öncə şəhəri tərk edib, Fransanın işğal olunmamış ərazilərində yerləşdilər və bununla da, işğalın ilk aylarında Parisdə kütləvi xarakter alan repressiyalardan yayına bildilər.[80]

Paris işğal olunandan az sonra, 1940-cı ilin iyul ayında Almaniya Fransa Baş Qərargahının sənədlərini ələ keçirdi. Orada fransız siyasi, hərbi və diplomatik dairələrinin Bakı əməliyyatı ilə bağlı planları və çoxsaylı yazışmaları var idi. Almaniya həmin sənədləri "Ağ kitab" adı altında nəşr etdi.[81] Lakin bu kitabda Bakının bombardman edilməsi ilə bağlı Türkiyənin öz hava məkanından müttəfiqlərin təyyarələrinə hava dəhlizi verməsi məsələsində bəzi mübahisəli məqamlar vardır. Beləki, bu məsələ ilə bağlı Britaniya arxivlərində olan eyni məzmunlu sənədlərlə faşist Almaniyasının Fransadan qənimət kimi götürüb nəşr etdirdiyi sənədlər arasında sonradan müəyyən fərqliliklər meydana çıxdı. Bu fərqliliklər həmin dövrdə SSRİ ilə Türkiyə arasında münasibətləri daha da kəskinləşdirmək arzusunda olan və bu istiqamətdə siyasəti yeridən faşist Almaniyasının xüsusi xidmət orqanlarının Bakı əməliyyatı ilə bağlı fransız sənədlərinə bir balaca "əl gəzdirmələrinin" nəticəsi idi.

Göründüyü kimi, müharibənin 1939-1941-ci illəri əhatə edən birinci mərhələsində Azərbaycan mühacirləri daha çox müttəfiqlərə rəğbətlə yanaşırdılar, onlarla əməkdaşlığa can atırdılar. Sonralar Almaniya tərəfində Azərbaycan legionunun zabiti olmuş İsmayıl Əkbər yazırdı ki, "Hitlər və Stalin arasında ittifaq müqaviləsi bağlandıqdan sonra bizim xalqın bütün rəğbəti Qərb ölkələrinin tərəfində idi. Stalin Hitlerlə birlikdə Polşanı bölüşdürəndə, Finlandiyanı viran edəndə, Baltik ölkələrini müstəqillikdən məhrum

---

[80] Bax: Г.Мамулия, Р.Абуталыбов. Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции, с.491.

[81] Bax: Die Geheimakden des franzozischen Generalstabes, Auswartiges Amt, 1939/1941, Nr/ 6, Deutsches verlag, 1941

edəndə, Hitler Stalinlə ittifaqa arxalanaraq Avropanı zəiflədəndə biz onlara qarşı mübarizə aparan Qərb ölkələrinin ən yaxın dostu idik".[82]

Bakının işğalı məsələsi faşist Almaniyasının da planlarına daxil idi. 1940-cı ilin yayında Almaniyanın SSRİ-yə qarşı hücum etmək məsələsi gündəliyə gəldikdə bu hücum obyektlərindən biri də Bakı olmalı idi. 1940-cı ilin dekabr ayının 18-də SSRİ-yə qarşı ildırım sürətli müharibə ideyasını özündə əks etdirən "Barbarossa planı" təsdiq edildi. Bu plana uyğun olaraq, 1941-ci ilin yanvar ayının 9-da Vermaxtın qərargahında keçirilən müşavirədəki çıxışında A.Hitler Sovet İttifaqına hücumun hərbi-siyasi məqsədlərini izah etdi. Onun fikrincə, sovetlərə hücumun çıxış nöqtəsi sovet silahlı qüvvələrinin məhv edilməsi və vacib iqtisadi mərkəzlərin ələ keçirilməsindən ibarət olmalı idi. Həmin iqtisadi mərkəzlər içərisində Bakı önəmli yer tuturdu və Hitlər 9 Yanvar tarixli çıxışında Almaniya silahlı qüvvələrinin "Bakı rayonunu tutmasının zəruriliyini" strateji baxımdan çox önəmli hesab edirdi. 1941-ci ilin mart ayının 27-də Almaniyanın "Kontinental neft cəmiyyətinə" təlimat verildi ki, Qafqazın işğalından sonra Bakıda neftin hasilatı, emalı və daşınması ilə bağlı məsələləri işləyib hazırlasın. May ayının 4-də Vermaxtın operativ rəhbərliyinin hazırladığı memorandumda Bakının neft rayonlarının işğal olunmasında Almaniya komandanlığının müstəsna dərəcədə maraqlı olduğu göstərilirdi. Almaniyanın "Cənub" ordu qruplaşmasının qarşısında duran başlıca strateji məqsəd Maykop – Qroznı neft kəmərini və onun ardınca isə Bakını ələ keçirmək idi. Hitler Bakını faşist Almaniyasını neftlə təmin edən hərbiləşdirilmiş mərkəzə çevirmək fikrində idi.[83] Hətta, o, ehtiyat edirdi ki, Bakı Almaniya orduları tərəfindən ələ keçiriləcəyi təqdirdə, "1812-ci ilin Moskva"sı nümunəsində olduğu kimi ruslar özləri neft mədənlərini məhv etsinlər. Göründüyü kimi, İkinci Dünya müharibəsi başlandıqda Azərbaycan və onun zəngin neft ehtiyatları vuruşan ölkələrin hərbi, siyasi və strateji planlarına daxil idi.

---

[82] İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, pp.2-3

[83] Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (iyun 1941-2002-ci il). Bakı, 2003, s.12

II FƏSİL

SOVET – ALMAN HƏRBİNİN BAŞLANMASI VƏ AZƏRBAYCAN

§1. Müttəfiq ordularının İrana daxil olması və Cənubi Azərbaycan məsələsinin gündəliyə gəlməsi

İkinci Dünya müharibəsinin başlanması XIX əsrin əvvəllərində bölünmüş Azərbaycan məsələsini yenidən gündəliyə gətirməklə, bütövlükdə SSRİ-nin, o cümlədən Sovet Azərbaycanının beynəlxalq siyasətində yeni meyilərin meydana çıxması ilə nəticələndi. 30-cu illərin sonunda başlanan bu proses soyuq müharibə erasının başlanmasına qədər davam etdi. İkinci Dünya müharibəsinin ilk günlərində Polşanın işğalı nəticəsində Qərbi Ukrayna və Qərbi Belarusiyanın SSRİ-yə birləşdirilməsi, 1940-cı ilin yayında Bessarabiyanın və Şimali Bukovinanın Rumuniyadan alınması, həmin ilin payızında Baltik ölkələrinin işğal edilməsi Sovetlərin Cənubi Azərbaycana marağını artırmışdı. Dünya müharibəsinin ilk günündə, sentyabr ayının 3-də qonşu ölkədə vəziyyətə nəzarət etmək məqsədilə ÜİK(b)P MK-ın Siyasi Bürosu M. Filimonovu İrana yeni səlahiyyətli nümayəndə təyin etdi.[1] Həmin ilin oktyabr ayının 28-də isə Siyasi Büro V. Aleksandrovu Tehran səfirliyinə hərbi attaşe vəzifəsinə təsdiq etdi.[2] 1940-cı ilin ilk günlərindən İran Azərbaycanı problemi Moskvanın hərbi strateji planlarına daxil edilmişdi. Sovetlər Birliyi burada ilk növbədə ərazi ekspansiyası məqsədləri güdürdü. Tehrandakı sovet hərbi attaşeliyini gücləndirmək məqsədilə S. Marçenko Siyasi Büronun qərarı ilə 1940-cı ilin avqust ayının 28-də SSRİ-nin İrandakı hərbi attaşeliyinə katib vəzifəsinə təyin edildi.[3]

---

[1] ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 03.09.1939.// RDSSTA. f.17. s.3. i.1013. v.67
[2] ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 28.10.1939.// RDSSTA. f.17. s.3, i.1015. v.41
[3] ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 21.08.1940.// RDSSTA. f.17. s.3. i.1026. v.86

İkinci Dünya müharibəsi başlandıqdan sonra Sovetlər ehtiyat edirdi ki, Cənubi Azərbaycanın, xüsusilə Xəzərin cənubunun yanacaq energetika ehtiyatları Almaniyanın əlinə keçə bilər. İkinci Dünya müharibəsi başlandıqdan sonra 4 sentyabr 1939-cu ildə İran neytrallıq haqqında bəyanat versə də, Almaniya ilə əməkdaşlıq Pəhləvi rejiminin strateji xətti olaraq qalırdı. Lakin şah hökuməti Sovet İttifaqı ilə də ehtiyatlı dolanmağa çalışır və Kremlə göndərdiyi müxtəlif sənədlərdə Stalinin rəğbətini qazanmağa cəhd göstərirdilər. 1939-cu ilin may ayında M. Litvinovun istefasından sonra Sovet Hökumətinin başçısı V.Molotov SSRİ Xarici İşlər Komissarı vəzifəsinə təyin edildikdə, İ.Stalin yenidən Xalq Komissarları Sovetinin sədri vəzifəsini öz üzərinə götürdü və Moskvadakı İran səfiri Məhəmməd Saed bununla bağlı ona çox təmtəraqlı bir təbrik məktubu göndərmişdi. Səfir əmin olduğunu bildirirdi ki, Stalinin "yüksək rəhbərliyi" altında İran ilə Sovet İttifaqı arasında dostluq və mehriban qonşuluq siyasəti daha da inkişaf edəcəkdir.[4] Təxminən belə bir təbrik məktubunu Rza şah 1939-cu ilin dekabr ayında Stalinin 60 illiyi ilə bağlı ona göndərmişdi.[5] Münasibətlərin yumşalması fonunda 1940-cı ilin avqust ayında dəmir yol nəqliyyatına aid Sovet – İran birgə konfransı keçirilmiş və onun nəticəsi olaraq, protokol imzalanmışdı. Bu protokolun bir hissəsi İranla, bilavasitə bağlı olan Azərbaycan dəmir yollarına aid idi.[6]

Bununla belə, Avropada faşist təcavüzü gücləndikcə, İran hakimiyyət dairələrinin Almaniyaya olan marağı da artmaqda idi. Xüsusilə, 1941-ci ilin yazında Yuqoslaviya və Yunanıstan faşist orduları tərəfindən işğal edildikdən sonra İranın xarici siyasətində Almaniyaya söykənmək meyili qəti şəkil aldı. Almaniyanın məğlubedilməzliyi fonunda qarşıdakı böyük müharibədə Cənubi Qafqaz və Orta Asiyanın bir sıra şəhərlərinin İrana birləşdirilməsi barədə

---

[4] İranın SSRİ-dəki səfiri M.Saedin İ.Stalinə təbriki. 07.05.1939./ RDSSTA, f.558, s.11, i.1351, v.1

[5] Bax: İ.Stalinin 60 illiyi ilə bağlı İran şahının təbriki. 29.12.1939. // RDSSTA. f.558, s.11, i.1354, v.152-154

[6] Bax: Dəmir yol nəqliyyatına dair Sovet – İran protokolu. Avqust 1940.// RDSSTA, f.17, s.163, i.1277, v.98-101

planlar cızılırdı. SSRİ Xarici İşlər komissarı Vyaçeslav Molotovun tapşırığı ilə sovet ekspertləri İranın 1919-cu ildə Paris sülh konfransına təqdim etdiyi tələbləri ətraflı şəkildə öyrəndilər. SSRİ Xalq Xarici İşlər Komissarlığı 1940-cı ilin aprelində İran məclisinin qərarı ilə nəşr edilmiş "İran dövlətinin yeni ərazi inzibati bölgüsü" adlı xəritəni araşdırarkən məlum oldu ki, xəritənin aşağısında belə bir qeyd vardır: "Türkiyə ilə sərhədlər istisna olmaqla, İranın digər dövlətlərlə sərhədləri rəsmi xarakter daşımır." Bakıda yeni İran konsulunun akkreditasiyası məqsədilə Moskvadakı İran səfirliyinin XİXK-na 17 may 1940-cı il tarixli notasında Azərbaycan SSR "Qafqaz Azərbaycanı" adlandırılırdı. Dövlət Təhlükəsizliyi orqanlarının yoxlamaları nəticəsində aydın olmuşdu ki, baş konsul XİXK-na göndərdiyi rəsmi sənədlərin fars mətnində öz vəzifəsini belə yazır: "Şahənşahın Qafqaz Azərbaycanında baş konsulu." SSRİ Xarici İşlər Xalq Komissarlığının Bakıdakı müvəkkilinə yazdığı məktubları baş konsul, bir qayda olaraq, "Xarici İşlər üzrə Komissarlığın Qafqaz Azərbaycanındakı nümayəndəliyinə" kimi ünvanlayırdı. Yoxlamalar nəticəsində aydın oldu ki, rəsmi yazışmalarında İranın baş konsulu Bakının adını əski fars dilində olduğu kimi "Bad Kubə" yazır.[7]

Bütün bunlar sovetlərə şübhələnmək üçün əlavə imkanlar vermişdi. Artıq 1939-cu ilin payızından başlayaraq Sovet İttifaqı Güney Azərbaycanla bağlı hərbi, siyasi, iqtisadi, strateji əhəmiyyətli məlumatları çox diqqətlə toplayırdı. Sovet hərbi kəşfiyyatı 1940-cı ildə Güney Azərbaycanda olan bütün sənaye obyektlərinin kartotekasını hazırlamışdı. 90 sənaye müəssisəsinin, 25 elektrik stansiyasının bütün texniki göstəriciləri bu kartotekalarda öz əksini tapmışdı.[8] 1940-cı ildə Qırmızı Ordunun 5-ci idarəsi "İran Azərbaycanının hərbi coğrafi təsviri"ni hazırlamışdı. Ən kiçik detallara belə təsvirlərdə diqqət yetirilmişdi. Məsələn, Güney Azərbaycan çayla-

[7] 1723-cü ildən indiyə qədər Rusiya, sonra SSRİ ilə İran arasından keçən dövlət sərhəd xətti haqqında XXİK-nın arayışı. 16.07.1940. //ARDA, f.28, s.4, i.2, v.135

[8] Şimali İranın sənaye müəssisələrinin və elektrik stansiyalarının kartotekası. 1940. //ARDA, f.28, s.4, i.6a, v.1-206

rının hər kilometrdən bir dərinlik səviyyəsi bu sənəddə verilirdi. Orada göstərilirdi: Qarasu çayının Araza qovuşduğu məntəqədən Qaracadağa qədər olan ərazidə bütün ordu növlərindən istifadə etmək olar. Qaradağdan Astaraya qədər meşə və kolluqlarla əhatə olunmuş dağ zirvələri sənəddə çətin keçilən ərazilər hesab edilirdi. Dağlıq sahələr istisna olmaqla, bu ərazilərdə piyada ordularından belə istifadə edilməsi qeyri-mümkün hesab edilirdi.[9]

1941-ci ilin yanvarında Moskvada 216 səhifədən ibarət "Güney Azərbaycanının texniki-iqtisadi icmalı" hazırlanmışdı. 1920-1940-cı illər arasında Güney Azərbaycanının siyasi həyatı, iqtisadiyyatı, sənayesi, kənd təsərrüfatı, ticarət və nəqliyyatı, əhalisi, şəhərləri və s. məsələləri texniki-iqtisadi icmalda geniş əks olunmuşdu.[10]

1941-ci ilin martında Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun Stalinə göndərdiyi 35 səhifəlik "Cənubi Azərbaycan haqqında qısa arayış" faktların zənginliyi baxımından diqqəti cəlb edir. Bu əlyazmada Azərbaycan haqqında qısa tarixi məlumat, Cənubi Azərbaycan və onun sərhədləri, əhalisi, şəhərləri və yaşayış məntəqələri, əhalisinin mədəni səviyyəsi, kənd təsərrüfatı, əkinçilik və torpaqdan istifadə, ticarət, milli məsələ, əhalinin əhvali-ruhiyyəsi ətraflı şəkildə təhlil edilmişdir. O yazırdı: İranın şah hökuməti Azərbaycan xalqının Sovet Azərbaycanına qovuşmaq istəyini bildiyindən, hər gün polis rejimini və cəza tədbirlərini gücləndirir.[11] Eyni zamanda Sovet Azərbaycanında yaşayan və bütövlükdə azərbaycanlılardan ibarət olan İran təbəələrinə qarşı da təzyiqlər güclənmişdi. 1938-ci ilin yanvar ayının 18-də onların Azərbaycan SSR-dən çıxarılması haqqında Xalq Daxili İşlər Komissarı N.Yejovun əmri verilmişdi. Bu əmrə əsasən 1938-1939-cu illərdə 40 minə yaxın adam Azərbaycan SSR-dən məcburi qaydada İrana göndərilmişdi.[12] 1938-ci ilin yanvar ayının 31-də Siyasi Büronun

---

[9] İran Azərbaycanının hərbi-coğrafi təsviri. 1940. //ARDA, f.28, s.71, i.212, v.5

[10] Cənubi Azərbaycanla bağlı texniki-iqtisadi icmal. Yanvar, 1941. //ARPİİ SSA, f.1, s.89, i.23, v.2-216

[11] M.C.Bağırovun İ.Stalinə göndərdiyi "Cənubi Azərbaycan haqqında qısa arayış". 05.03.1941. //ARPİİ SSA, f.1, s.89, i.18, v.33

[12] Сталинские депортации. 1928-1953. Под общ.ред.акад.А.Н.Яковлева. М., 2005, с.99-101

qərarı ilə Daxili İşlər Komissarlığına göstəriş verildi ki, xarici kəşfiyyat öz agentlərini siyasi sığınacaq almaq adı ilə SSRİ-yə göndərməyə cəhd göstərdiyindən, sovet sərhədlərini keçən İran vətəndaşları təcili olaraq həbsə alınıb, hərtərəfli istintaqa cəlb edilsinlər və əgər istintaq onların casusluq və ya, digər hər hansı bir antisovet niyyətlərlə Sovet İttifaqına keçdiyini müəyyən etsə, Hərbi Tribunalın qərarı ilə həmin adamlar hökmən güllələnmə cəzasına məhkum edilsinlər.[13] Hətta, SSRİ-də həbs olunmuş İran təbəələri ilə bağlı məsələ 1939-cu ilin iyul ayının 10-da Siyasi Büronun iclasında çıxarıldı və XİXK-na tapşırıldı ki, Sovet İttifaqında sürgünə məhkum edilmiş 2126 nəfər İran təbəəsinin və onların ailə üzvlərinin 10 gün ərzində qəbul edilməsi barədə İran hökumətinə müraciət edilsin. İran hökuməti bu adamları qəbul etmədiyi təqdirdə, Daxili İşlər Komissarlığına tapşırılırdı ki, onları ailələri ilə birlikdə Qazaxıstanın şimal rayonlarına sürgünə göndərilməsini təmin etsin.[14]

Müdaxilə ərəfəsində sovet kəşfiyyatı İran ordusunun, o cümlədən İran Azərbaycanındakı hərbi hissələrin sayı, komanda heyəti, döyüş qabiliyyəti, kəşfiyyat imkanları barədə müfəssəl məlumatlar almışdı. SSRİ barədə kəşfiyyat materialları toplayan zabitlərin siyahısı Baş qərargaha verilmişdi. İran hərbi kəşfiyyatı tərəfindən hazırlanan Bakının müfəssəl şəkildə işlənmiş baş planı sovet xüsusi idarələri tərəfindən əldə edilmişdi. İran generallarının hansı ünvanda yaşadıqları da daxil edilməklə ən kiçik detallar belə bu materiallarda əks olunmuşdu.

Sovet ordularının İrana müdaxiləsi ərəfəsində, 1941-ci ilin may-iyun aylarında Azərbaycan Sovet Respublikasından hərbçi adı ilə Cənubi Azərbaycana göndəriləcək 3816 nəfər mülki şəxs səfərbər edilmiş, 52 briqada formalaşdırılmışdı. Bunların 12 nəfəri yüksək vəzifəli partiya işçiləri, 70 nəfəri rəhbər partiya, 100 nəfəri sovet orqanlarında işləyənlər, 200 nəfəri təhlükəsizlik orqanlarının, 400 nəfəri milis, 70 nəfəri prokurorluq, 90 nəfəri məhkəmə, 150 nəfəri

[13] ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 31.01.1938.// RDSSTA, f.17, s.162, i.22, v.114
[14] ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 10.07.1939.// RDSSTA, f.17, s.162, i.25, v.104

nəşriyyat və mətbuat orqanlarının işçiləri idi. Səfərbər edilənlər arasında 245 dəmiryolçu, 42 neftçi-geoloq və s. var idi. Güney Azərbaycanına göndəriləcək Sovet Azərbaycanı missiyasına Azərbaycan K(b)P MK-nın üçüncü katibi Əziz Əliyev rəhbər təyin edilmişdi.[15] Eyni zamanda, 1941-ci ilin may-iyun aylarında Tehrandakı sovet diplomatik heyətinin tərkibində də bəzi dəyişikliklər baş verdi. ÜİK(b)P MK-ın Siyasi Bürosunun qərarı ilə 1941-ci ilin may ayının 7-də M. Filimonov İrandakı səlahiyyətli nümayəndə vəzifəsindən azad edildi. Bu vəzifəyə SSRİ-nin Almaniyadakı səlahiyyətli nümayəndəsi Andrey Smirnov təyinat aldı.[16] Bu təyinata uyğun olaraq, İrandakı SSRİ diplomatik korpusunun və sovet idarələrinin tərkibində bəzi dəyişikliklər həyata keçirildi.[17] A. Smirnov İranda işə başlayanda Tehrandakı sovet səfirliyinin hərbi attaşesi də dəyişdirildi. 1941-ci ilin iyun ayının 12-də Vasili Aleksandrovu bu vəzifədə polkovnik Mixail Maslov əvəz etdi.[18] Yaxın və Orta Şərqə artan sovet maraqlarının fonunda şərqşünas kadrların hazırlanması məsələsi gündəliyə gəldi. 1941-ci ilin iyun ayının 17-də SSRİ Ali məktəblər üzrə ümumittifaq komitəsinin sədri S. Kaftanov XKS-in sədri İ. Stalinə və onun müavini, Xarici İşlər Komissarı V. Molotova yazırdı ki, indiki beynəlxalq şəraitdə sovet xarici siyasətinin şərqşünas kadrlara olan ehtiyacı yetərincə ödənilmir və o, təklif edirdi ki, "Şərqşünas kadrların hazırlanması haqqında" XKS-in qərarı qəbul edilsin.[19] Qərara görə, Moskva Şərqşünaslıq institutunda, Leninqrad Universitetində və SSRİ EA-ın Şərqşünaslıq institutunda İranla bağlı dinləyici və tələbələrin sayı 155 nəfərə, aspirantların sayı isə 10 nəfərə çatdırılmalı idi.[20]

---

[15] İrana xarici ezamiyyətə göndəriləcək rəhbər vəzifəlilərin, partiya, dövlət təhlükəsizliyi, daxili işlər orqanları və digər işçilər ehtiyat siyahısı. 1941. //ARPİİ SSA, f.1, s.89, i.33, v.1-269

[16] ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 07.05.1941.// RDSSTA, f.17, s.3, i.1039, v.16

[17] Bax: ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 13.05.1941.// RDSSTA, f.17, s.116, i.88, v.2-3

[18] ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 12.06.1941.// RDSSTA, f.17, s.3, i.1040, v.69

[19] S.Kaftanovun İ.Stalin və V.Molotova məktubu. 17.06.1941.// RDSSTA, f.82, s.2, i.926, v.12

[20] "Şərqşünas kadrların hazırlanması haqqında" SSRİ XKS-in qərar layihəsi. İyun 1941.// RDSSTA, f.82, s.2, i.926, v.3-6

1941-ci ilin iyun ayının 22-də Almaniyanın SSRİ-yə hücumu ilə İkinci Dünya müharibəsinin gedişində ciddi dəyişikliklər baş verdi. Faşizmlə əməkdaşlıq siyasəti Sovet İttifaqına çox baha başa gəldi. Bu əməkdaşlıq nəticəsində İ.Stalin Sovet İttifaqının sərhədlərini müəyyən qədər genişləndirə bilsə də, lakin bütövlükdə dünya ictimai rəyində SSRİ-nin nüfuzu xeyli aşağı düşmüşdü. Bununla belə Böyük Vətən müharibəsinin ilk günlərində Britaniya Baş naziri U.Çörçilin və Amerika prezidenti F.Ruzveltin Almaniyaya qarşı müharibədə Sovet İttifaqını müdafiə edəcəkləri barədə bəyanatla çıxış etmələri SSRİ-yə siyasi və mənəvi baxımdan böyük dəstək oldu. 1941-ci ilin iyul ayının 12-də Almaniyaya qarşı müharibədə birgə fəaliyyət haqqında SSRİ və Böyük Britaniya hökumətləri arasında saziş imzalandı.

Böyük Vətən müharibəsinin başlanması ilə Azərbaycan SSR-də geniş səfərbərlik keçirildi. İyun ayının 22-də Bakıda faşizm əleyhinə izdihamlı mitinq keçirildi. Müharibənin ilk günlərində respublikanın şəhər və kəndlərindən 40 min adam cəbhəyə könüllü getmək üçün səfərbərlik məntəqələrinə müraciət etdi. Bütövlükdə, 1941-1945-ci illərdə Azərbaycandan Sovet ordusuna 700 min adam səfərbər edildi. Döyüşən ordu üçün ehtiyat qüvvələri hazırlamaq məqsədilə respublikada 1941-ci ilin iyunun 22-dən avqustun 14-dək 186.704 nəfər adam xalq ordusu dəstələrinə yazılmışdı. Bakı şəhərinin ətrafında müdafiə işlərinin görülməsində xalq ordusu dəstələri fəal iştirak edirdilər. Hava hücumundan Bakının müdafiəsini gücləndirmək üçün Azərbaycan KP MK və XKS-nin qərarı ilə sığınacaqların tikilməsi və özünümüdafiə dəstələrinin təşkili işi sürətləndirildi. Müharibənin bütün çətinliklərinə baxmayaraq Azərbaycan neftçiləri 1941-ci ildə ölkəyə ən rekord həddə, 23 milyon 481 min ton neft verə bildi. Bu sovet dövründə respublika neft sənayesinin tarixində ən yüksək göstərici idi. Bunu nəzərə alaraq Hitler 1941-ci ilin noyabrında Bakını tutmağa qərar vermişdi.[21]

Türkiyənin və İranın vuruşan tərəflərə münasibətdə bitərəf qalacaqlarını rəsmi şəkildə elan etmələrinə baxmayaraq İ.Stalin onların

[21] Ч.А.Султанов. Нефть, с.185

bitərəfliyinə tərəddüdlə yanaşırdı. İyul ayının 4-də Moskvaya çağırılmış Zaqafqaziya respublikalarının başçıları – Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırovla, Gürcüstan K(b)P MK-nın katibi K.Çarkvianilə və Ermənistan K(b)P MK-nın katibi Q.Arutinovla söhbətdə o, bildirdi ki, "cəbhə Sizdən uzaqdır, lakin hər halda siz təhlükəli zonada yerləşirsiniz. Biz Türkiyənin bitərəf qalacağına arxayın ola bilmərik."[22] Dövlət Müdafiə Komitəsinin üzvləri V.Molotov, K.Voroşilov, L.Beriya və Q.Malenkov Zaqafqaziya respublikalarının başçıları ilə keçirilən görüşdə iştirak edirdilər. Stalinin bu diriektivindən sonra Sovet Azərbaycanının İran və Türkiyə ilə sərhədlərinin daha da möhkəmləndirilməsi, 1918-ci ildə Azərbaycana gəlib müxtəlif səbəblərdən ölkədə qalmış türklərin nəzarətə alınması istiqamətində tədbirlər görüldü. Xüsusilə, Naxçıvan Muxtar Sovet Respublikasında rəhbər kadrlar möhkəmləndirildi. Həm Muxtar respublikada, həm də digər sərhədyanı rayonlarda xaricdə qohumları yaşayan rəhbər işçilər vəzifələrdən uzaqlaşdırıldılar. Məsələ yalnız sərhədyanı rayonların möhkəmləndirilməsi ilə bitmədi. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbər xadimləri ilə qohumluq əlaqələri olan bütün ailələr üzərində ciddi nəzarət qoyuldu. Respublikanın ikinci şəhəri olan Kirovabadda (Gəncədə) nəzarətə alınmış belə ailələrdən biri də Şıxzamanovlar idi. Sonralar M.C.Bağırov yazırdı ki, "Şıxzamanovlar familiyası Azərbaycanda mürtəcelləşmiş familiyalardan biri idi. Bu familiyadan çox adam mühacirətdə olub, Sovet hakimiyyətinə qarşı iş aparırdı. Şıxzamanov özü (Nağı bəy nəzərdə tutulur – C.H.) Türkiyədə olurdu. Ona görə onunla doktor Cavadovun, Kirovabad şəhər komitəsinin keçmiş işçisi Novruzov və digərlərinin əlaqələrinə ciddi baxılırdı".[23]

Türkiyə və İrandan ola biləcək təhlükəni nəzərə alaraq hələ 1940-cı ildə Naxçıvan vilayət komitəsinin rəhbərliyi möhkəmləndirilmişdi. Həmin ilin sentyabrında respublika komsomolunun birinci katibi,

---

[22] Ю.Горьков. Государственный комитет обороны постановляет (1941–1945). М.,2002, с.230; Кавказ выстоял, Кавказ победил.Ветераны вспоминают. Тбилиси, 1973, с.130–131.

[23] M.C.Bağırovun Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinə izahatı. 1954.// RDSSTA, f.589, s.3, i.7044 (6-cı cild), v. 58

Y.M. Sverdlov adına təbliğatçılar məktəbinin məzunu H. Nəcəfov Azərbaycan K(b)P Naxçıvan vilayət komitəsinin birinci katibi təyin edilmişdi.[24] Bu təyinatla bağlı H.Nəcəfovu qəbul edən M.C.Bağırov onu müvəqqəti olaraq Naxçıvana göndərdiyini və yaxın vaxtlarda Cənubi Azərbaycan məsələsi həll olunduqda, onu Təbrizə partiya komitəsinin katibi vəzifəsinə göndərəcəyini vəd etmişdi. Göründüyü kimi, Sovet Azərbaycanının rəhbərliyi ölkə xaricində gözlənilən böyük hadisələrə hazırlaşırdı.

Müharibə başlandıqdan sonra Sovet xüsusi xidmət orqanları Türkiyədə fəaliyyət göstərən Qafqaz, ilk növbədə isə Azərbaycan mühacir təşkilatlarının fəaliyyətini diqqət mərkəzində saxlayırdılar. Türkiyənin rəsmi dairələri ilə bu təşkilatlar arasında hər hansı gizli əlaqələr sovet xüsusi xidmət orqanları tərəfindən diqqətlə izlənilirdi, lakin yeni açıqlanan arxiv sənədləri hətta kəşfiyyat və xüsusi xidmət orqanları xətti ilə alınan məlumatlar müharibə başlandıqdan sonra Türkiyənin Sovetlərə təmkinli münasibətini təsdiq edir. 1941-ci ilin iyul ayının sonlarında SSRİ Dövlət Təhlükəsizliyi Komissarlığının Türkiyədəki rezidenti mərkəzə yazırdı: "Türkiyə hökuməti cəhd göstərir ki, "Qafqaz" məsələlərində maraqlı olduğunu indiki anda göstərməsin. Təhlükəsizlik İdarəsinin siyasi şöbələrinə və polisə təlimat verilib ki, mühacirlərin leqal formada fəaliyyətinə, SSRİ ilə münasibətlərdə düşmənçilik kimi qiymətləndirilə bilən hər hansı hərəkətlərinə imkan verilməsin. Bu xətt onunla izah edilir ki, türklər SSRİ ilə münasibətləri kəskinləşdirmək istəmirlər və hələ vaxtın çatmadığını düşünürlər. Eyni zamanda onlar mühacirətə "ideya" himayəçiliyini də əllərindən buraxmaq istəmirlər. Ona görə də Mir Yaqub Mehdiyev, Said bəy Şamil, Zəki Validov və digərlərinin Sovet İttifaqına qarşı fəal mübarizəsini Türkiyə hökuməti rədd edir."[25] Almaniyanın SSRİ-yə hücumundan sonra Çörçil Türkiyənin müttəfiqlərə tərəf çəkilməsinə xüsusi əhəmiyyət verirdi. O, 1941-ci ilin sentyabr ayının 21-də Stalinə yazırdı ki, "biz Türkiyəni Almani-

[24] Azərbaycan K(b)P Naxçıvan vilayət komitəsinin katibi haqqında. 05.09.1940r. // ARPİİ SSA, f.1, s.405, i.2284,v.29.

[25] Лев Соцков. Неизвестный сепаратизм: на службе СД и Абвера. М., 2003, с.13.

yanın öz qoşunlarını onun ərazisindən buraxmaq tələblərinə qarşı müqavimət göstərməyə həvəsləndirə bilsək və ya bizim tərəfimizdən müharibəyə daxil olmasına nail ola bilsək, bu bizə böyük kömək olaradı".[26] Oktyabr ayının 3-də Londona göndərdiyi cavab məktubunda Stalin Çörçilin Türkiyə barədə fikirləri ilə razı olduğunu bildirirdi.[27]

Böyük Vətən müharibəsinin başlanması və İranın müttəfiqlərin maraq dairəsinə daxil olması ilə Sovet Azərbaycanının siyasi həyatında maraqlı bir dövr başlayırdı. Bu, ilk növbədə Sovet İttifaqının İrana yönəlik siyasətində Cənubi Azərbaycanla bağlı məsələlərin gündəliyə gəlməsi ilə bağlı idi. 1941-ci ilin iyun-iyul aylarında Zaqafqaziya cəbhəsinin 44 və 47-ci orduları artıq Cənubi Azərbaycan sərhədlərində dayanmışdı. İran böyük hadisələr ərəfəsində idi. İyul ayının sonlarında Zaqafqaziya cəbhəsində və sərhəd ordularında hərbi hazırlıq elan edilmişdi. İyulun 25-i ilə avqustun 5-i arasında hücum əməliyyatında son dəqiqləşdirmələr aparılmışdı. İşğal ediləcək şəhərlərin, yaşayış məntəqələrinin, məhv ediləcək sənaye və hərbi obyektlərin planı təsdiq edilmişdi. Avqustun 20-də hücum əməliyyatı ilə bağlı sənədlər çox məxfi olaraq müvafiq yerlərə göndərilmişdi. Ali Baş komandan qismində İ.Stalinin avqust ayının 25-də imzaladığı direktivdə Sovet ordularının 1921-ci il 26 fevral müqaviləsinin altıncı bəndinə əsasən İrana daxil olduğu bildirilir və almanların İran ərazisindən SSRİ üçün təhlükə təşkil etdiyi vurğulanırdı. Direktivdə düşmən aviasiyasının Bakı rayonu üzərində uçuşlarının mümkünlüyü qəti şəkildə qadağan edilirdi.[28] Dövlət Müdafiə Komitəsinin qərarı ilə Zaqafqaziya Cəbhəsi Hərbi Şurasının (hərbi şuranın üzvləri general-mayor Dmitri Kozlov, general-mayor Fyodor Tolbuxin, general-mayor Fyodor Şamanin) əmrinə əsasən, Cənubi Azərbaycan sərhədləri boyunca dayanmış Sovet orduları avqust ayının 25-də gecə saat 2-də hərbi əməliyyata

[26] U.Çörçilin İ.Stalinə məktubu. 21.09.1941// RDSSTA, f.82, s.2, i.1102, v.54
[27] İ.Stalinin U.Çörçilə cavab məktubu. 03.10.1941// RDSSTA, f.82, s.2, i.1102, v.58
[28] О.К.Березин. Неизученная кампания. Иран, август 1941. //«Военно-исторический архив», 2004, № 8, с.108-110

başladılar. Hərbi Şuranın, hələ avqust ayının 23-də imzalanmış, əmrində göstərilirdi ki, İran ordusu tərəfindən müqavimət göstəriləcəyi təqdirdə 44 və 47-ci ordular əllərində olan bütün vasitələrlə düşmənin silahlı qüvvələrini və maddi bazasını məhv etməli idilər. Elə həmin əmrdə Türkiyə ilə sərhədlərin təhlükəsizliyini təmin etmək üçün 45-ci ordunun dislokasiya olunduğu rayonda saxlanıldığı bildirilirdi.[29] Səhər saat 5-dən 7-yə qədər Naxçıvan Sovet Muxtar Respublikasından Xəzərin cənubuna doğru bütün istiqamətlərdən SSRİ sərhəd orduları, 44-cü (komandanı general-mayor A.A.Xadeyev) və 47-ci orduları (komandanı general-mayor V.V.Novikov), Xəzər donanması, Zaqafqaziyadakı 8-ci aviakorpus, Yevlaxdakı 132-ci aviadiviziya artıq Güney Azərbaycanda və Xəzərin cənubunda hərbi əməliyyatlara başlamışdılar. İran ordusunun arxa hissə ilə rabitə əlaqəsi kəsildi, qısa müddətdə bütün ön cəbhə ləğv edildi. Müəyyən yerlərdə müqavimət gündüz saat 12.00-dən 13.00-dək davam etdi.[30] Avqustun 25-də səhər SSRİ XKS sədrinin müavini Xarici İşlər komissari V.M.Molotov Sovet hökumətinin tapşırığı ilə İranın Moskvadakı səfiri Məhəmməd Saedə nota təqdim etdi. Orada uzun-uzadı Sovet-İran münasibətlərinin tarixinə və SSRİ-nin İrana dost münasibətini əks etdirən faktlara toxunduqdan, xüsusilə 1921-ci ilin fevral ayının 16-da imzalanmış Sovet-İran müqaviləsinin 6-cı maddəsi yada salındıqdan sonra, Almaniyanın İranda Sovetlərə qarşı yönəlmiş hərəkətləri sadalanır və Almaniyanın Sovetlərə hücumundan sonra SSRİ-nin İrana təqdim etdiyi üç xəbərdarlıq notası (26 iyun, 19 iyul və 16 avqust notaları) xatırladılırdı. Notada göstərilirdi: "Sovet hökuməti onun maraqlarını təhdid edən, eyni zamanda SSRİ-nin və Böyük Britaniyanın maraqları üçün yaranmış təhlükəni aradan qaldırmaq məqsədilə tədbir görülməsi üçün üç dəfə İran hökumətini

---

[29] Sovet ordusunun İrana girməsi ilə bağlı Zaqafqaziya cəbhəsi hərbi şurasının direktivi. 23.08.1941.// Rusiya Federasiyası Müdafiə Nazirliyinin Mərkəzi Arxivi (RFMNMA). f.209, s.1093, i.27, v.251-251

[30] İran sərhəd mühafizəsinin ləğv edilməsi ilə bağlı həyata keçirilmiş hərbi əməliyyatların yekunları barədə Malışev, Pavlov və Yerofeyevin M.C.Bağırova məruzəsi. 04.09.1941. //ARPİİ SSA, f.1, s.89, i.3, v.36; Sovet və İngilis ordularının İrana daxil olması, Tehran da daxil olmaqla ölkəni işğal altına alması İran təqvimi ili şəhrivər ayına (23 avqust – 22 sentyabr) təsadüf etdiyi üçün İran tarixşünaslığında bu hadisələrə şəhrivər hadisələri deyilir.

xəbərdar edib. İran hökuməti təəssüf ki, Almaniya agentlərinin İran ərazisində qarışıqlıq və pozğunluqlarına son qoymaq üçün ölçü götürməkdən imtina etdi, bununla da Almaniyanın bu agentlərini, onların cinayətkar işlərini şirniklərdirdi. Bunun nəticəsi olaraq Sovet hökuməti zəruri ölçü götürmək məcburiyyətində qaldı və 1921-ci il müqaviləsinin Sovet İttifaqına verdiyi hüquqdan istifadə edərək özünümüdafiə məqsədi ilə müvəqqəti olaraq öz ordularını İran ərazisinə yeritdi".[31] Daha sonra notada göstərilirdi ki, bu addım İran xalqına qarşı yönəlməyib və Sovet hökumətinin İranın ərazi bütövlüyü və dövlət müstəqilliyi haqqında hər hansı bir niyyəti yoxdur, Sovet hökumətinin həyata keçirdiyi bu hərbi tədbir müstəsna olaraq yalnız almanların İranda düşmənçilik fəaliyyətinin doğurduğu təhlükə ilə bağlıdır. Notanın sonunda qeyd edilirdi ki, "İranın və SSRİ-nin maraqlarını təhdid edən bu təhlükə sovuşan kimi, Sovet hökuməti 1921-ci il Sovet-İran müqaviləsi üzrə öz öhdəliyini yerinə yetirərək, təcili şəkildə sovet ordularını İranın hüdudlarından çıxaracaq".[32] Avqustun 25-də səhər saat 4:30-da Sovet hökumətinin tapşırığı ilə SSRİ-nin Tehrandakı səfiri A.A.Smirnov eyni məzmunlu notanı İran Baş nazirinin evinə gedərək ona təqdim etdi. Bununla eyni gündə və eyni saatda Böyük Britaniyanın Tehrandakı fövqəladə və səlahiyyətli səfiri Bullard Kral hökuməti adından ingilis ordularının İrana yeridilməsini zəruri edən səbəblər haqqında Böyük Britaniya hökumətinin notasını İranın Baş nazirinə təqdim etdi.[33] Notada deyilməsə də, əslində, Sovet İttifaqının İrana müdaxiləsi Bakı neft sənayesinin təhlükəsizliyinin təmin edilməsi və lend-liz qanununa əsasən müttəfiqlərin hərbi yüklərinin SSRİ-yə daşınması istiqamətində mühüm addım sayılırdı. İrana daxil olan sovet qüvvələrinin komandanı Kozlov etiraf edirdi ki, "İranda düşmən qüvvələrin, ilk növbədə, bizim neft rayonlarımız üçün ciddi təhlükə

---

[31] Sovet Hökumətinin İran hökumətinə notası. 25.08.1941.// RDSSTA. f.82, s.2, i.1217, v.42-43

[32] Yenə orada, v.43

[33] Tehrandakı Almaniya səfiri Ettelin Reza şahla görüşü barədə İmperiya Xarici İşlər nazirliyinə gizli teleqramı. 25.08.1941.// RFDA, f.P-9401c, s.2, i.95, v.160; Əlavə məlumat üçün bax bax: RDSSTA, f.82, s.2, i.1217, v.35

təşkil etməsi" ora ordu yeridilməsini zəruri etmişdi.[34] Avqustun 25-də günorta vaxtı İran parlamentinin fövqəladə iclası keçirildi və baş verən hadisələr barədə Baş nazir Məclisə məlumat verdi. O, bildirdi ki, SSRİ-nin hava qüvvələri Azərbaycanın müdafiəsiz şəhərlərini bombardman edir və sovet orduları Culfadan Təbrizə doğru irəliləyirlər.[35] Həmin gün şah Tehrandakı Almaniya səfiri Etteli qəbul etdi və səfir Hitlerin məktubunu Reza şaha təqdim etdi. Şah həmin gün baş verən hadisələr barədə alman səfirini məlumatlandırdı. Şah dedi ki, rus və ingilis orduları artıq İrana qarşı hərbi əməliyyatlara başlayıblar və səbəb kimi onlar şah hökumətinin ölkədə olan almanları İrandan çıxarmaq barədə müttəfiqlərin tələblərinə cavab verməməsi gətiriblər. Reza şah bildirdi ki, ingilislər və ruslar Bəndər Abbasdan Pəhləviyə qədər qəfil hücuma başlayıblar və Fars körfəzindəki limanlar tutulub, İran donanması batırılıb, ölkənin şəhərləri və kəndləri havadan bombardman edilir. O, əlavə etdi ki, hərbi əməliyyatlarda 1000 tank, bir neçə yüz hərbi təyyarə iştirak edir və İran ordusu iki cəbhədə belə qüdrətli düşmənlərə qarşı müharibədə uğura ümid bəsləyə bilməz. Şah dedi ki, o, indi Almaniyadan hərbi kömək istəyə bilməz və indiki anda belə köməyin göstərilməsi mümkün deyil. O, əlavə etdi ki, təkidlə Türkiyə hökumətindən xahiş edəcək ki, Ankara ingilislərə və ruslara təsir göstərsin, İrana qarşı hərbi əməliyyatların dayandırılmasına onları razı salsın və İrandan almanların maneəsiz olaraq müəyyən edilmiş diplomatik qaydada ölkəni tərk etməsinə icazə versinlər. Sonda şah bildirdi ki, almanlar əleyhinə iddianın yalnız bəhanə olduğu ona yaxşı məlumdur.[36] Bu söhbət barədə Ettel yazırdı ki, "rusların və ingilislərin gözlənilməz hücumları şahı ağır vəziyyətə salmışdır və onun bu müharibədə iki cəbhədə müqavimət göstərməyə heç bir iradəsi qalmamışdır. Bu gün Baş nazir və parlamentin bəyanatları da bunu təsdiq edir. Öz çıxışında Baş nazir Britaniya və Sovetlərin İran hökumətinə

---

[34] İranda vəziyyət haqqında Kozlovun məlumatı. 06.06.1945. // RDSSTA, f.17, s.128, i.748, v.56

[35] İran mətbuatının icmalı. 25-26.08.1941 // RFXSA, f.94, s.26, q 69, i.30, v.205

[36] Tehrandakı Almaniya səfiri Ettelin Reza şahla görüşü barədə İmperiya Xarici işlər nazirliyinə gizli teleqramı. 25.08.1941.// RFDA, f.P-9401c, s.2, i.95, v.160-161

təzyiqlərinin tarixi icmalını verdi və İran hökumətinin mövqeyi üzərində dayandı. Sonra Britaniya və Sovet ordularının İrana hücumu haqqında danışıldı. Düşmən hər tərəfdə İran ordusuna hücum edir. Bu hücumun səbəblərini aydınlaşdırmaq üçün İran hökuməti danışıqlara başlamışdır. Hökumət danışıqların nəticələri barədə vaxtlı-vaxtında məlumat verir. Baş nazir əhalini soyuqqanlılığa, dəyanətli olmağa və sakitliyə çağırır". [37]

Müttəfiqlərin İrana hücum edəcəyindən şah məlumatlı idimi? Sovetlərin müdaxiləsi barədə İran rəhbərliyi məlumatsız olsa da, Misir kralı Faruk 1941-ci ilin iyun ayının 29-da Britaniyanın qarşıdakı iki ay ərzində İrana girəcəyi barədə Reza şaha və Tehrandakı Almaniya səfirinə gizli məlumat göndərmişdi. Məlumatda deyilirdi ki, "Britaniya Baş qərargahı İranın neftli vilayətlərinin işğal edilməsi haqqında qərar qəbul etmişdir. Bu işğal onlara Almaniyanın SSRİ ərazisindən İraq və İrana mümkün hücumundan müdafiə olunmaq üçün zəruridir". Britaniya Baş qərargahı belə hesab edirdi ki, alman orduları İran Azərbaycanı vasitəsi ilə Mosul və Kərkük neft rayonlarına həmlə edə bilərdi. Əsas həmlənin Culfa, Xoy və Urmiya gölü rayonundan olacağı ehtimal edilirdi. Tehrandakı alman səfiri Ettel yazır ki, "Misir səfiri iyul ayının 1-də bu məlumatı Reza şaha çatdırdı. Məlumat şaha çox təsir etdi. O, səfirdən çox xahiş etdi ki, bu barədə heç kimlə söhbət etməsin". Misir səfiri bir neçə dəfə təkrar etdi ki, söhbət şayiələrdən yox, Britaniya Baş qərargahının qərarından getdiyi üçün məsələyə ciddi yanaşmaq lazımdır. Səfir izah etdi ki, Londonun bu qərarı Almaniya ordusunun bolşeviklərə qarşı uğurlu hərbi əməliyyatlarından sonra qəbul edilmişdir.[38]

Almaniya hökuməti İrandakı almanları Türkiyə vasitəsilə çıxarmaq istəyirdi. Ona görə avqust ayının 27-də Ribbentrop Ankaradakı Almaniya səfiri fon Papenə təlimat verdi ki, Xarici İşlər naziri Saracoğlu ilə əlaqəyə girib Türkiyənin bu məsələdə Berlinə nə

[37] Yenə orada, v.161

[38] Səfir Ettelin Almaniya Xarici İşlər nazirliyinə qeydləri. 20.07.1942.// RFDA, f.P-9401, s.2, i.97, v.242.

kömək edə biləcəyini aydınlaşdırsın. Sonra Ribbentrop səfirə təlimat verirdi ki, bu məsələdə ruslara etibar etmək mümkün olmadığı üçün ingilislərlə razılığa gəlməyə çalışsın. O, əlavə edirdi ki, əgər bu məsələdə ruslar və ingilislər bizi başa düşsələr, biz bunun əvəzi olaraq güzəştlərə də hazırıq, amma Ribbentrop bu güzəştləri qabaqcadan deməyi məqsədəuyğun saymırdı.[39] Sentyabr ayının 2-də Berlindən Ettelə təlimat gəldi ki, İrandakı alman icmasını Tehrandakı Türkiyə səfirliyinin ərazisində yerləşdirsin. Onlar belə hesab edirdilər ki, almanlara sığınacaq verilməsi ilə bağlı Türkiyə hökuməti öz sözünü tutacaqdır.[40] Lakin müttəfiqlər İrandakı almanların Türkiyə səfirliyinin ərazisində yerləşdirilməsinə icazə vermədilər. Sovet orqanları onların bir hissəsini Miyanə yaxınlığında təcrid edilmiş vəziyyətdə saxladı, digər bir hissəsini isə Daşkəndə yola saldı.[41] Müttəfiqlərin tələbi ilə İran hökuməti sentyabr ayının 16-da Tehrandakı Almaniya səfirliyinin fəaliyyətini dayandırdı. Ettel Ribbentropa göndərdiyi teleqramda İran hökumətinin özünü çox qorxaq və satqın apardığını bildirir və yazırdı: "Əgər imperiyanın bayrağı müvəqqəti olaraq bu binanın (Tehrandakı Alaniya səfirliyinin binası nəzərdə tutulur –C.H.) üzərində dalğalanmırsa, sizi əmin edirəm ki, bizlərdən hər birimiz fürerin bayrağını öz ürəyimizdə və öz hərəkətlərimizdə yüksəkdə tuturuq".[42]

Avqust ayının 25-də Sovet ordusu müxtəlif istiqamətlərdən 40-50 km. İranın içərilərinə doğru irəlilədi. Həmin gün Sovet hərbi aviasiyası İran ərazisinə 173 uçuş keçirdi. Yalnız əhali deyil, hökumət də vahimə içərisində idi. Qısa zaman ərzində sovet aviasiyası İran ərazisinə 1500-dən çox uçuş keçirmişdi.[43] Müttəfiqlərin müdaxiləsi zamanı İran, ordusu demək olar ki, vuruşmadı. Baş

---

[39] İrandakı almanların çıxarılması ilə bağlı Ribbentropun fon Papenə təlimatı. 27.08.1941.// RFDA, f.P-9401c, s.2, i.95, v.162-163

[40] Rintelenin Ettelə teleqramı. 02.09.1941.// RFDA, f.P-9401c, s.2, i.95, v.168

[41] Tehrandakı keçmiş Almaniya səfiri Ettelin İran XİN-nin şöbə müdiri Abdulla Entezamla görüşündən qeydlər. 15.07.1942.// RFDA, f.P-9401c, s.2, i.97, v.210.

[42] Ettelin Ribbentropa teleqramı. 16.09.1941.// RFDA, f.P-9401c, s.2, i.95, v.170

[43] Sovet ordusunun İran ərazisində irəliləməsi haqqında Zaqafqaziya Cəbhəsi Fəhlə-Kəndli Qırmızı Ordusunun Baş Siyasi İdarəsinin məlumatı. 25.08.1941.// RFMNMA, f.209, s.1113, i.9, v.8-9; А.Б.Оришев. Политика нацистской Германии в Иране. Санкт-Петербург, 2005, с.149

qərargah ehtiyat hissələri cəbhəyə göndərə bilmədi. Reza şahın müqavimət göstərmək əmrinə baxmayaraq, əsgərlər və zabitlər silahı və hərbi sursatı ataraq sürətlə mövqelərini tərk etdilər. Yalnız avqust ayının 26-da Sovet aviasiyası tərəfindən İran Azərbaycanı ərazisinə 1 619 700 vərəqələr töküldü.[44] Lakin Zaqafqaziya cəbhəsi siyasi idarəsinin rəisi, briqada komissarı Pyotr Solomko məlumat verirdi ki, bu vərəqələr fars dilində olduğu üçün İran Azərbaycanının yerli əhalisi onu oxuya bilmir. Azərbaycan dilində nəşr olunmuş vərəqələr isə ərəb əlifbası ilə deyil, latın əlifbası ilə nəşr edildiyindən bunun oxunması da əhali üçün çətinlik təşkil edirdi. Avqustun 28-də İran ordusunun müqaviməti rəsmən dayandırıldı. Əhali ilk baxışda Sovet İttifaqının müdaxiləsinə İranda sovet hakimiyyətinin qurulması kimi baxırdı, lakin bu vərəqələr yayıldıqdan sonra onlar sovet müdaxiləsinin hərbi zərurətdən irəli gəldiyini anlamağa başladılar.[45] Hətta, sentyabr ayının 1-də Təbrizdə 7 min adamın iştirakı ilə sovet hakimiyyətinin qurulmasını tələb edən mitinq keçirildi. 47-ci ordunun siyasi idarəsi mitinq haqqında xəbər tutduqda onlar nümayişçilərin arasına gedib Sovet ordusunun İrana daxil olmasının səbəblərini və Qırmızı ordunun İran ərazisində vəzifələrini onlara izah etməyə başladılar. Eyni vəziyyət sentyabr ayının 2-də davam etdi.[46] Bu mitinq və nümayişlərdə əsas fəallıq göstərən ermənilər idi. Sentyabr ayının 2-də axşam şəhərdə əlyazma formasında vərəqələr yayıldı ki, Qırmızı orduya və sovet hakimiyyətinə rəğbət bəsləyən adamlarla haqq-hesab çəkiləcəkdir. Həmin vərəqələrdə yazılırdı: "İran üçün bu matəm günlərində bəzi yad adamlar gülür və şənlənirlər. Bu adamların başında ermənilər dayanır. Onlar bizim düşmənlərimizdir. Qoy onlar bilsinlər ki, Qırmızı ordudan xeyir

---

[44] Sovet ordusunun İran ərazisində irəliləməsi haqqında Zaqafqaziya Cəbhəsi Fəhlə-Kəndli Qırmızı Ordusunun Baş Siyasi İdarəsinin məlumatı. 26.08.1941.// RFMNMA, f.209, s.1113, i.9, v.10-12

[45] İran əhalisinin Sovet ordusunun müdaxiləsinə münasibəti haqqında Zaqafqaziya Cəbhəsi Fəhlə-Kəndli Qırmızı Ordusunun Baş Siyasi İdarəsinin məlumatı. 30.08.1941.// RFMNMA, f.209, s.1113, i.9, v.21-22

[46] İranın işğal olunmuş ərazisində əhalinin mitinq və nümayişlər keçirməsi haqqında Zaqafqaziya Cəbhəsi Fəhlə-Kəndli Qırmızı Ordusunun Baş Siyasi İdarəsinin məlumatı. 02.09.1941.// RFMNMA, f.209, s.1113, i.9, v.25-27

görməyəcəklər. Qisas günü gələcək və buna görə biz intiqam alacağıq".[47] Belə çağırışlardan narahat olan Təbrizdəki erməni arxiyepiskopu Melik-Tanqiyan ermənilərı toplayıb onları başa saldı ki, qırmızılara kömək etməkdə fəallıq göstərməsinlər və yerli hakimiyyətə loyal olsunlar. O, xəbərdarlıq edirdi ki, "Sovet ordusu müvəqqəti olaraq İrandadır və onlar ölkədən çıxarıldıqdan sonra İran hökuməti ermənilərı təqib edəcək". Sovetlər əleyhinə çağırışlar bəzi müsəlman din xadimlərı tərəfindən də edilirdi. Təbriz şəhərinin din xadimi molla Xəlil şəhər məscidindəki moizəsində əhalini ruslara inanmamağa çağırmışdı. O, əyan etmişdi ki, "ruslar Təbrizdə birinci dəfə deyillər və həmişə onlar burada öz məzarlarını tapmışlar".[48]

Sovet orduları avqust ayının 26-da Təbriz və Ərdəbilə, avqustun 30-da Zəncana, avqustun 31-də isə Qəzvinə daxil oldular. Orduya verilmiş təlimata əsasən sentyabr ayının 3-nə qədər İranın şimal ərazilərinin tutulması başa çatdırılmalı idi. Türkiyə istiqamətində etibarlı müdafiə olunmaq üçün 63-cü dağ atıcı diviziyası alaylar formasında Maku, Saadil, Qotur və Xoy rayonlarında, 5-ci tank diviziyası Dilman rayonunda dislokasiya olmalı idi.[49] Qısa müddətdə Cənubi Azərbaycan, Gilan, Mazandaran və Xorasan sovet ordusu tərəfindən tutuldu. Eyni zamanda hərbi əməliyyatlara başlayan Britaniya on iki hind diviziyası ilə Kermanşah, Abadan, Xorrəmabad, Məcidi-Süleymaniyyə, Hörmüz, Bəndər Deylim xəttinə çıxdı.[50] Avqust ayının 27-də Əli Mənsur hökuməti istefa verdi. Səhəri gün İran Məclisi Tehran Universitetinin professoru Mirzə Məhəmməd Əli xan Foruği hökumətinin tərkibini, SSRİ və Britaniya ordularına qarşı

---

[47] İranın işğal olunmuş ərazisində antisovet təbliğat haqqında Zaqafqaziya Cəbhəsi Fəhlə-Kəndli Qırmızı Ordusunun Baş Siyasi İdarəsinin məlumatı. 04.09.1941.// RFMNMA, f.209, s.1113, i.9, v.31

[48] İranın əhalisinin ayrı-ayrı zümrələrinin Qırmızı orduya qarşı müqavimətinin təşkil olunması haqqında Zaqafqaziya Cəbhəsi Fəhlə-Kəndli Qırmızı Ordusunun Baş Siyasi İdarəsinin məlumatı. 08.09.1941.// RFMNMA, f.209, s.1113, i.9, v.35-36

[49] Sovet ordusunun İran ərazisində irəliləməsi haqqında Zaqafqaziya Cəbhəsi qərargahının hərbi hissələr və birləşmələrə operativ direktivi. 27.08.1941.// RFMNMA, f.209, s.1089, i.4, v.6-8; Əlavə məlumat üçün bax: C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991, s.25-26

[50] С.Лавринов, И.Попов. Советский Союз в локальных войнах и конфликтах. Москва, 2005, с.18-19

müqaviməti dayandırmaq barədə hökumətin qərarını təsdiq etdi. Ölkədə bütün siyasi məhbusların azad edilməsi barədə amnistiya elan olundu.[51] Qısa sürən hərbi əməliyyatlar zamanı İran tərəfindən 106 nəfər həlak oldu, 320 nəfər əsir götürüldü. Bilavasitə döyüşlərdə Sovet Ordusu 6 nəfər itirdi, 18 nəfər yaralandı, 9 nəfər Araz çayını keçərkən suda boğuldu.[52] Bununla müqayisədə sovet aviasiyası 25-26 avqust əməliyyatları zamanı ciddi itkilər verdilər. 10 hərbi təyyarə 25 nəfərlik heyəti ilə birlikdə sıradan çıxdı,[53] lakin bu itkilər döyüş əməliyyatları ilə bağlı olmayıb, aviasiya zabitlərin səhlənkarlığı, sərxoşluğu və onların yerli şəraiti, meteoroloji vəziyyəti bilməmələri ilə bağlı idi. İrana daxil olan ordu komandanı Kozlov şah ordusunun döyüş qabiliyyətinin çox aşağı olduğunu bildirirdi. İrandakı vəziyyət haqqında ÜİK(b)P MK-ya məlumatında o, yazırdı ki, bizim bir təyyarənin Təbrizin səmasında görünməsi İran əsgərlərinin silahı töküb qaçması üçün yetərli idi.[54]

Sovet ordularının İrana daxil olması və orada möhkəmlənməsi SSRİ təhlükəsizlik orqanlarının İranda geniş şəbəkəsinin yaradılması ilə müşayiət olunurdu. İşğal əməliyyatının həyata keçirildiyi dövrdə İranda sovet xüsusi xidmət orqanlarının 40-a yaxın rezidenturası və çekist məntəqəsi fəaliyyət göstərirdi. Sovet təhlükəsizlik orqanlarının Tehrandakı baş rezidenturasına İ.İ.Aqayans, digər rezidenturalara isə P.M.Juravlyov və N.P. Lısenkov başçılıq edirdilər. Hərbi hissələrin xüsusi şöbələrinin əməliyyatçılarından başqa rezidenturalarda 115 əməliyyatçı çalışırdı.[55] 1941-ci ilin avqust ayının sonu, sentyabr ayının əvvəllərində İran ərazisində keçirilən hərbi əməliyyatlarda Azərbaycan SSR-in təhlükəsizlik orqanlarından yalnız çekist qrupu iştirak edirdi. Azərbaycan SSR Xalq Daxili İşlər komissarının müa-

---

[51] Bax: C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991, s.26

[52] İran sərhəd mühafizəsinin ləğv edilməsi ilə bağlı həyata keçirilmiş hərbi əməliyyatların yekunları barədə Malışev, Pavlov və Yerofeyevin M.C.Bağırova məruzəsi. 04.09.1941. //ARPİİ SSA, f.1, s.89, i.3, v.39

[53] SSRİ Xalq Daxili İşlər Komissarlığının Zaqafqaziya hərbi dairəsi üzrə xüsusi şöbəsinin rəisi Ruxadzenin M.C.Bağırova məxfi məlumatı. 13.09.1941.//ARPİİ SSA, f.1, s.89, i.2, v.19

[54] İranda vəziyyət haqqında Kozlovun məlumatı. 06.06.1945. // RDSSTA, f.17, s.128, i.748, v.82

[5] Bax: Nikolay Mitroxin. Dövlət Təhlükəsizlik Komitəsi İranda. (Əlyazma), 1988.// Cold War International History Project, Woodrow Wilson Inernational Center for Scholars, Washinton D.C., p.1

vini Stepan Yemelyanov başda olmaqla bu qrupun İran ərazisindəki hərbi əməliyyatlarda iştirakının hadisələrin sonrakı mərhələsində müəyyən əhəmiyyəti oldu. Belə ki, Ermənistan SSR-dən çekist qrupuna rəhbərlik edən Daxili İşlər komissarının müavini Gözəlyan Ermənistan rəhbərliyinin fikrini belə açıqlamışdı ki, guya sovet ordularının işğal etdiyi "İran ərazisi" Azərbaycanla Ermənistan arasında təsir dairəsinə bölünməli idi. Onların fikrincə, Ermənistanın əməliyyat işçiləri artıq Təbrizdə işə başladıqlarından, bu şəhər Ermənistanın respublika orqanlarına tabe edilməli idi. Ermənistanın xüsusi xidmət orqanları müxtəlif yollarla əsaslandırmağa çalışırdılar ki, Azərbaycandan fərqli olaraq, guya "onlar Təbrizdə daha çox maraqlıdırlar."[56] Azərbaycan əməliyyatçılarının avqust ayının 29-da verdiyi bu məlumat M.C.Bağırovu daha fəal olmağa sövq etdi. O, Cənubi Azərbaycan üçün Qərbi Ukrayna və Qərbi Belarusiya modelinin yetişdiyini zənn edirdi. Azərbaycan SSR-dən İrana göndərilmək üçün səfərbər edilmiş "Əziz Əliyev qrupu" əslində Azərbaycanın birləşməsi məqsədinə xidmət etməli idi. Hələ avqustun 26-da M.C.Bağırovun Stalinə göndərdiyi şifrli teleqramda göstərilirdi: "Bizim orduların irəliləməsi bir sıra məsələlər doğurmuşdur, həmin məsələlərin həlli üçün göstərişlərinizi gözləyirik. Birincisi, bizim hissələrin İrana daxil olması əhali tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır, lakin eyni zamanda yerli hakimiyyət orqanları qaçırlar. Bizim hissələr isə böyük yaşayış məntəqələrində qayda-qanun və normal həyat yaratmaq üçün öz nümayəndələrini qoymurlar. Nəticədə belə faktlar var ki, dükanlar bağlıdır, hakimiyyət orqanları yoxdur, əhalinin zəruri mallara ehtiyacı ödənilmir. İkincisi, İran hakimiyyət orqanları qolçomaqları və köçəri tayfaların başçılarını güclü şəkildə silahlandırırlar. Bizim hərbi hissələr isə bu yerlərdən keçərkən İran ordusunun atıb getdiyi silahları yığmamışlar. Ona görə də bizim ordunun arxasında silahlı çıxışların təşkil olunması mümkündür. Üçüncüsü, bizim hissələrin sürətlə irəliləməsi

[56] M.Markaryanın M.T.Yaqubova məktubu. 28.08.1941. //Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivi (AR MTNA), i.120, v.12-23

hərbi işçilərə əhali içərisində lazımi səviyyədə izahat işi aparmağa imkan vermir.[57] M.C.Bağırov çalışırdı ki, vəziyyətə nəzarət etmək üçün "Əziz Əliyev qrupu" Təbrizə daha tez daxil olsun, lakin avqustun 28-də Stalindən Bakıya gələn teleqramda tələsməmək məsləhət görülürdü. Orada göstərilirdi: "İranda vəziyyət hələ aydın deyil. Üç-dörd gündən sonra hər şey aydınlaşacaq. Siz bütün suallarınızla bağlı direktivləri üç gündən sonra alacaqsınız".[58] Qeyd edilən üç gün ərzində doğrudan da gərgin iş getdi və SSRİ ilə İran arasında notalar mübadiləsi həyata keçirildi. SSRİ Xarici İşlər Xalq Komissarlığının 1941-ci ilin avqust ayının 30-da İrana təqdim etdiyi notada bu ölkəyə ordu yeridilməsinin İran hökumətinin müttəfiqlərin dost çağırışlarına məhəl qoymaması ilə, almanların İranda pozuculuq işlərini genişləndirmələri ilə bağlı olduğu bildirilirdi. Hərbi əməliyyatları dayandırmaq üçün notada İranın üzərinə bir sıra şərtlər qoyulur və müttəfiqlərin tələblərinə İran hökumətinin təminat verməsi tələb olunurdu. Bu tələblərin ən mühümü ölkənin şimalının sovet, cənubunun isə Britaniya orduları tərəfindən işğal edilməsinin İran hökuməti tərəfindən tanınması, ölkə ərazisindən daşınan yüklərə heç bir maneçilik törədilməməsi, alman vətəndaşlarının bir həftə ərzində İrandan çıxarılması və sairdən ibarət idi.[59] Sentyabrın 1-də verdiyi cavab notasında İran hökuməti müttəfiqlərin diktə etdiyi bütün şərtləri qəbul etdiyini bildirir və onlarla əməkdaşlığa hazır olduğunu təsdiqləyirdi. İran hökuməti başlanmış müharibədə neytral qalacağını, SSRİ-nin və Böyük Britaniyanın maraqlarına qarşı ola biləcək heç bir addım atmayacağını rəsmi şəkildə bəyan edirdi.[60]

Bu müddət ərzində Sovet Azərbaycanının rəhbərliyi də fəaliyyətsiz qalmadı. Sovet ordularının müdaxiləsindən sonra Cənubi Azərbaycanda yaranmış vəziyyətlə bilavasitə tanış olmaq üçün M.C.Bağırov məxfi şəkildə Naxçıvan vasitəsilə Təbrizə getdi. O, az sonra qeyri-rəsmi Təbriz səfərini belə təsvir edirdi: "Mən Naxçı-

---

[57] M.C.Bağırovun İ.Stalinə teleqramı. 26.08.1941.//ARPİİ SSA, f.1, s.89, i.1, v.1
[58] İ.Stalinin M.C.Bağırova teleqramı. 28.08.1941.//ARPİİ SSA, f.1, s.89, i.1, v.2
[59] SSRİ-nin İrana notası. 30.08.1941. //ARDA, f.28, s.4, i.4, v.88-89
[60] İran hökumətinin SSRİ-yə cavab notası. 01.09.1941. //ARDA, f.28, s.4, i.4, v.90-93

vanda olarkən oradan 3-4 saatlığa Təbrizə getdim... Təbrizdə bir neçə yerdə 7-8 qız və oğlan uşağına rast gəldim və onlarla danışmaq istədim. Ancaq mən maşını saxlayan kimi onlar qaçdılar. Mən uzaqdan Azərbaycan dilində onlara dedim: "Bura gəlin". Mənim Azərbaycan dilində danışığımı eşidən kimi hamısı qayıdıb yanıma gəldi... Cənubi Azərbaycan torpağı bizim əsl vətənimizdir. Respublikamızın sərhədlərində yaşayan bir çox adamlarımızın ən yaxın qohum-qardaşları uzun müddət idi ki, bir-birindən ayrı düşmüşdü... İran hökuməti özü məmləkəti vilayətlərə bölləndə Azərbaycanı belə göstərmişdir (xəritədə göstərir). Bu, yalandır. Azərbaycan bax buradan buraya qədərdir (xəritədə göstərir). Əslinə baxsanız, Tehran da Azərbaycan torpaqlarına daxildir.[61]

Nəhayət, sentyabrın ilk günlərində Cənubi Azərbaycan məsələsini müzakirə etmək üçün M.C.Bağırov Moskvaya çağırıldı. Bununla bağlı İ.Stalinin Bakıya göndərdiyi teleqramda deyilirdi: "YİK(b)P MK sizi bir günlük Moskvaya çağırır. Xahiş edirik gəlin. Stalin. 5.IX.41".[62] Elə həmin gün M.C.Bağırov təcili Moskvaya getməli oldu. Moskva müzakirələri zamanı razılıq əldə edildi ki, Azərbaycan SSR-də səfərbər edilmiş partiya, sovet, hüquq-mühafizə, təsərrüfat və mədəniyyət işçilərinin mərhələlərlə Cənubi Azərbaycana göndərilməsinə başlanılsın. Azərbaycan K(b)P MK-nın təklifi ilə İrana göndəriləcək qrupun rəhbərliyinə MK-nın 3-cü katibi Əliyev Əziz Məmmədkərim oğlunun namizədliyi Moskvada təsdiq edildi. Qərara alındı ki, sentyabrın ikinci yarısında "Əziz Əliyevin missiyası" Təbrizdə fəaliyyətə başlasın. Sovet Azərbaycanının tanınmış nümayəndələrindən Süleyman Rəhimov Cənubi Azərbaycanda fəaliyyət göstərəcək təbliğat, Meybalı Əmiraslanov inzibati-təsərrüfat, Ağasəlim Atakişiyev xüsusi əməliyyat, Mustafa Quliyev tibbi sanitar qruplarının, Mirzə Ibrahimov türk dilində çıxacaq ordu qəzetinin redaktoru təsdiq edildi. Əziz Əliyev başda olmaqla bu adamlar Sovet Azərbaycanının Təbrizdə ilk qeyri-rəsmi elçiləri

[61] M.C.Bağırovun İrana ezam edilən yoldaşlarla söhbəti. 12-14.09.1941.//ARPİİ SSA, f.1, s.162, i.30, v.6

[62] İ.Stalinin M.C.Bağırova teleqramı. 05.09.1941. //ARPİİ SSA, f.1, s.89, i.10, v.26

idilər. Cənubi Azərbaycanda sovet təsirini yaymaq, ədəbiyyat, sənət, mədəniyyət, iqtisadiyyat və digər sahələrdə Sovet Azərbaycanının uğurlarını nümayiş etdirmək məqsədilə Təbriz, Pəhləvi, Ərdəbil, Rəşt, Astara və digər yerlərə taxıl, qənd, kerosin, manufaktura və s. göndərilməli idi. Cənubi Azərbaycanın iri şəhərlərində opera teatrının ifasında "Koroğlu", "Leyli və Məcnun", "Şah İsmayıl" operaları, "Arşın mal alan", "O olmasın, bu olsun" tamaşaları göstərilməli idi. Moskvadan razılıq alındı ki, 2-3 ay ərzində "Əziz Əliyevin missiyası" üzvlərinin sayı iki min-iki min beş yüz nəfərə çatdırılsın. Əldə olunan razılığa əsasən, ən yaxın günlərdə isə 500 nəfərdən ibarət Azərbaycan siyasi işçilərinin ilk dəstəsi təcili olaraq İrana yola düşməli idi.

Dövlət Müdafiə Komitəsinin göstərişinə və Zaqafqaziya cəbhəsinin komandanı general-leytenant D.Kozlovun 16 sentyabr 1941-ci il tarixli əmrinə əsasən, polkovnik-komissar Əziz Əliyev Təbrizdə yerləşmiş 47-ci ordunun hərbi şurasının üzvü vəzifəsinə təyin edildi. Əmrdə göstərilirdi: "Ezam olunan yoldaşlar bütün işlərində Azərbaycan K(b)P MK-nın katibi və hərbi şura üzvü Əziz Əliyevin göstərişlərini rəhbər tutmalıdırlar. Komissarlar və hərbi-siyasi orqanlar "Əziz Əliyev qrupu"nun işinə qarışa bilməzlər və bilavasitə onlara rəhbərlik edə bilməzlər. Eyni zamanda ezam olunanlar hərbi işlərə müdaxilə edə bilməzlər, hərbi xarakterli hər hansı göstərişlər verə bilməzlər".[63] Bununla belə, 47-ci ordunun hərbi şurası öz üzərinə götürürdü ki, Azərbaycan Sovet Respublikasının Cənubi Azərbaycanda nəzərdə tutduğu tədbirləri həyata keçirmək üçün bütün zəruri olan şəraiti yaradacaq. M.C.Bağırov bu işi sürətləndirmək və Cənubi Azərbaycana daha çox sayda adam göndərmək məqsədilə Zaqafqaziya cəbhəsi komandanlığına məktubla müraciət edərək bildirmişdi ki, Azərbaycandan İrana göndərilən bütün şəxslərin hərbi geyim, ərzaq, sursat və s. xərcləri respublika büdcəsi hesabına ödəniləcəkdir.

[63] Zaqafqaziya cəbhəsinin komandanı general-leytenant D.Kozlovun Ə.Əliyevin 47-ci ordunun hərbi şurasının üzvü təyin olunması haqqında əmri. 16.09.1941. //ARPİİ SSA, f.1, s.89, i.10, v.32

Sentyabr ayının 12-dən 25-ə qədər, demək olar ki, hər gün M.C.Bağırovun Cənubi Azərbaycana göndərilən siyasi işçilərlə görüşləri keçirildi. Bu görüşlərin birində o deyirdi: "İlk dəstədə biz 500 nəfər göndəririk. Lakin kiçik dəstələr göndərməklə ay yarım ərzində bu rəqəmi biz 3000-ə çatdıracağıq... "Sizə məlumdur ki, bizim Qızıl Ordumuz az vaxt içərisində Şimali İranda xeyli ərazi tutmuşdur. Bu ərazilər əsas etibarilə bizim Cənubi Azərbaycan torpaqlarıdır. Tarixən bura Azərbaycan torpağı kimi tanınmışdır. İranın böyük şəhərlərindən olan Qəzvin, Urmiya, Miyanə, Marağa, Təbriz, Ərdəbil, Səlmas, Xoy, Ənzəli və s. bizim ata-babalarımızın doğma vətənləri olmuşdur. Hələ doğrusunu bilmək istəsəniz, Tehran da qədim Azərbaycan şəhəridir".[64] Sentyabr ayının 15-də "İrana göndərilən yoldaşlarla M.C.Bağırovun söhbəti"nin stenoqramında göstərilir: "Burada mən sizə bir məsələni də deməliyəm. O məsələ də bundan ibarətdir; nə qədər ki, bizim Qızıl Ordumuz oradadır, biz heç vaxt razı ola bilmərik ki, gözümüzün qarşısında Cənubi Azərbaycan torpağında yüzlərlə adam acından həlak olsun. Əgər bizdə bir damcı belə azərbaycanlı qanı qalıbsa, gərək biz bir vaxtlar zorla parçalanmış xalqın birləşməsinə nail olaq... Buna bizim gücümüz və bacarığımız çatar... Nə qədər çətin olsa da, biz Cənubi Azərbaycan zəhmətkeşlərinə bu köməyi göstərməliyik. Buna bizim qeyrətimiz, vicdanımız, şərəfimiz və sədaqətimiz çağırır... Ona görə də biz öz rəhbərimiz Stalin yoldaşa məktub yazıb ondan Cənubi Azərbaycan zəhmətkeşlərinə kömək etmək məsələsini xahiş etmişik... Biz dörd-beş gündür ki, bu məsələyə başlamışdıq, məni Moskvaya çağırıb soruşdular ki, nə istəyirsiniz. Cavab verdim ki, biz Cənubi Azərbaycanda yaşayan qardaşlarımıza kömək etmək istəyirik, buna bizə icazə verməlisiniz. Moskvadakı yoldaşlar bizə bu icazəni verdilər".[65] Lakin M.C.Bağırov Moskvanın direktivini şərh edərkən xəbərdarlıq edirdi ki, Cənubi Azərbaycana kömək elə olmalıdır ki, nə şah hökuməti, nə də ingilislər bizi İranın daxili işlərinə müdaxilədə

[64] M.C.Bağırovun İrana ezam edilən yoldaşlarla söhbəti. 12-25.09.1941.//ARPİİ SSA, f.1, s.162, i.28, v.1
[65] Yenə orada, v.14-18

günahlandırmasınlar. Çıxışının sonunda o deyirdi: "Sizin vəzifəniz olduqca məsul və olduqca şərəflidir. Siz çox böyük işlər görəcəksiniz. Sizin qarşısında qoyulan vəzifəni yerinə yetirməklə Azərbaycan xalqı qarşısında çox böyük xidmət göstərmiş olacaqsınız. Siz bu şərəfli vəzifəni yerinə yetirməklə əsrlərlə ikiyə bölünmüş qardaşların arzusunu yerinə yetirmiş olacaqsınız. Siz uzun müddətdən bəri bir-birindən ayrılan qəlbi, möhübbəti, duyğunu birləşdirmiş olacaqsınız. Bu namus, qeyrət, sədaqət və möhübbət məsələsidir".[66]

Sentyabr ayının 24-də İrana ezam olunan siyasi işçilərlə keçirilən görüşdə Cənubi Azərbaycandan yenicə qayıtmış H.Şahgəldiyev belə bir məlumat verdi: "Biz Türkmənçay kəndindən keçərkən (Bağırovun replikası: həmin kənddə böyük Azərbaycan xalqını iki yerə bölmüşlər) orada kəndlilərlə söhbət etdik. Onlar dedilər: "Biz burda yığıncaq etdik və bir nümayəndə seçib Təbrizə göndərdik ki, burada da Sovet hakimiyyəti qurulsun".[67] Cənubi Azərbaycana göndərilən qruplarla görüşlərdə M.C.Bağırov işin məxfi xarakter daşıdığını və bütün məsələlərlə bağlı Əziz Əliyevin göstərişlərinə əməl edilməsini ciddi şəkildə vurğulayırdı. M.C.Bağırovun cəhdlərinə baxmayaraq, Cənubi Azərbaycan məsələsinə münasibətdə sovet rəhbərliyi müəyyən dərəcədə tərəddüd edirdi. İrana təsir vasitəsi kimi sovet xüsusi xidmət idarələri kürd separatizmi məsələsindən istifadə etmək barədə bəzi təkliflər hazırlamışdılar. İkinci Dünya müharibəsi başlandıqdan az sonra, xüsusilə 1942-ci ildən başlayaraq kürd məsələsi yalnız İrana qarşı deyil, Türkiyəyə qarşı da istifadə edilən başlıca amillərdən birinə çevrildi. 1942-ci ilin martında Zaqafqaziya hərbi dairəsinin komandanı, ordu generalı İ.V.Tyulenev Stalin üçün hazırladığı məruzədə qeyd edirdi ki, Türkiyə ilə müharibə olacağı təqdirdə kürdlərin insan ehtiyatlarından istifadə etmək məqsədilə onlarla dostluq münasibətlərini saxlamaq lazımdır.[68] Maraqlıdır ki, həmin vaxt Almaniya da türklərə təzyiq vasitəsi kimi kürdlərlə gizli əlaqələr

---

[66] Yenə orada, v.19

[67] M.C.Bağırovun İrana ezam edilən yoldaşlarla söhbəti. 24.09.1941.//ARPİİ SSA, f.1, s.162, i.30, v.14

[68] I.Tyulenovun M.C.Bağırov və K.Çarkvianiyə məktubu. Mart 1942.// Gürcüstan Prezidentinin Arxivi (GPA), f.14, s.16, i.168, v.108

yaratmaq istəyirdi. Bu məqsədlə alman kəşfiyyatı ilə əməkdaşlığa cəlb edilmiş erməni daşnaklardan istifadə edilirdi. 1943-cü ilin yazında Türkiyəyə qarşı kürdlərdən istifadə edilməsi haqqında daşnaklar tərəfindən hazırlanmış xidməti məlumat Almaniyanın hərbi rəhbərlərindən biri olan Alfred Yodla verilmişdi. Xidməti məlumatda Almaniya ilə Türkiyə arasında müharibə olacağı təqdirdə daşnakların və kürdlərin birgə səyi ilə Türkiyənin şərqinə hava desantı çıxarmaq üçün şəraitin yaradılmasından gedirdi. Bu məqsədlə kürdlərin "Huybyun" adlı təşkilatı ilə daşnaklar arasında yaradılmış sıx əlaqələrdən istifadə edilməsi nəzərdə tutulurdu.[69]

Lakin İrana daha yaxından bələd olan sovet səfiri Andrey Smirnov "kürd məsələsi ilə oynamağın" əleyhinə idi. O, SSRİ Xarici İşlər Komissarlığına yazırdı: "İranda kürd separatizmi həmişə xarici ölkələrin oyununa çevrilib. Biz qəti şəkildə kürdlərlə olan səhv oyundan imtina etməliyik. Lakin bu o demək deyil ki, biz kürdlərlə olan bütün əlaqələrdən, onlardan öz mənafeyimiz naminə istifadədən əl çəkməliyik, lakin İranın şimalında biz siyasi fəaliyyətimizə azərbaycanlılara arxalanmalıyıq".[70]

Sovet ordularının İrana müdaxiləsindən sonra Tehran hökuməti Azərbaycan məsələsindən ciddi şəkildə narahat olmağa başlamışdı. Avqust ayının 28-də təşkil olunmuş Foruği hökumətində Xarici İşlər naziri vəzifəsini tutan Mirzə Əli xan Soheyli xarici ölkələrdəki İran diplomatik korpuslarına gizli tapşırıq vermişdi ki, şurəvi (sovet – C.H.) təhlükəsinə qarşı dayanmaq üçün ingilis meylinə üstünlük versinlər və Azərbaycan məsələsi ilə ciddi məşğul olsunlar. O, Ankaradakı İran səfirinə yazırdı: "Əgər bundan sonra da belə davam etsə, onda biz Azərbaycanı itirəcəyik".[71] Baş nazir Foruği bütün vasitələrlə SSRİ-nin və Böyük Britaniyanın İrana münasibətini yumşalt-

---

[69] Keçmiş Almaniya ordusunun hərbi əsiri Pyotr Qamsaraqanın ifadəsi. 21.10.1948. // RFDA, f.P-9401, s.2, i.201, v.227

[70] İran üzrə qısa məlumat. İranda siyasi-iqtisadi vəziyyət və bizim fəaliyyətimiz. SSRİ-nin İrandakı səfirliyinin məsləhətçisi S.Sıçev tərəfindən hazırlanmış arayış. 29.09.1944.//ARDA, f.28, s.4, i.2, v.55

[71] M.A.Soheylinin sözləri M.C.Bağırovun Merkulova və Dekanozova teleqramından götürülüb. 26.01.1942.//ARPİİ SSA, f.1, s.89, i.35, v.9

mağa çalışırdı. O, sentyabr ayının 8-də Britaniya və Sovet İttifaqının hərbi qüvvələrinin İranda yerləşməsi barədə sazişi imzaladı.

İngilislər hadisələrin başlanğıcında Tehrana girməyi lazım bilməsələr də, İran paytaxtının sovet təsir dairəsinə düşəcəyindən ehtiyat edərək tezliklə fikirlərini dəyişdilər. Britaniya hökuməti sentyabr ayının əvvəllərində Moskvaya bildirdi ki, o öz ordularına təcili olaraq Tehrana girmək əmri verib. U.Çörçill Stalindən xahiş edirdi ki, müvafiq qaydada İranda olan sovet ordularına da belə bir göstəriş verilsin. SSRİ və Britaniya ordularının Tehranın astanasında olduğu bir vaxtda – sentyabrın 16-da Baş nazir Foruği səltənət taxtından əl çəkmək barədə müttəfiqlərin tələbini Reza şaha təqdim etdi. Yaranmış vəziyyətdə əlacsızlıqdan Reza şah tələbi qəbul etdi və oğlu Məhəmməd Reza Pəhləvinin xeyrinə səltənət tacından əl çəkdi. Ayın 17-də sovet orduları, bir gün sonra isə Britaniya hərbi hissələri Tehrana daxil oldular. Sentyabrın 17-də 22 yaşlı Məhəmməd Reza Pəhləvi Məclisdə konstitusiyaya riayət edəcəyinə və ölkəni Məclisin qəbul etdiyi qanunlarla idarə edəcəyinə söz verdi. Elə həmin gün Reza şah Tehranı tərk etdi. O dörd oğlu və iki qızı ilə əvvəl Isfahana, oradan isə Hindistana yollandı. Müttəfiqlərin qərarına görə Reza şah Sinqapur üzərindən Argentinaya getməli və ömrünün qalan hissəsini orada yaşamalı idi. Lakin son anda bu qərarda dəyişiklik oldu və Britaniya müdafiəsi altında o əvvəlcə Mavriki adasına, sonra isə Cənubi Afrikaya göndərildi və 1944-cü ilin iyul ayının 26-da Yohannesburqda vəfat etdi.[72] Şəhrivər hadisələri, bütövlükdə, Reza şahın xarici siyasətinin iflası olmaqla yanaşı, Pəhləvi rejiminin milli zülm üzərində qurulmuş daxili siyasətinin də iflası demək idi.

Yeni şah Məhəmməd Reza hələ 1926-cı ilin yanvar ayının 1-də vəliəhd elan olunmuşdu. O, İsveçrədə oxumuş, Tehranda zabit məktəbini bitirmişdi və 1938-ci ildə Avropadan qayıdarkən Bakıda olmuş, Qliyerin "Şahsənəm" operasına baxmışdı. Reza şahın dövründə Məhəmməd Reza tez-tez hökumət iclaslarında iştirak edir, faktiki olaraq hərbi nazir vəzifəsini yerinə yetirirdi. Həmin dövrdə hərbi nazir işləyən

[72] А.Б.Оришев. Политика нацистской Германии в Иране, с.156

general Əhməd Naxçıvani əslində onun köməkçisi rolunda çıxış edirdi. 1939-cu ilin mart ayının 16-da Məhəmməd Reza Misir kralının qızı Fövziyə ilə evlənmişdi.[73] Onun nigah mərasiminə ÜİK(b)P MK-ın Siyasi Bürosunun qərarı ilə SSRİ hökuməti Türkiyədəki səfir Terentiyev başda olmaqla, Zaqafqaziya hərbi dairəsinin komandani Tyülenev və İrandakı müvəqqəti işlər vəkili Kartaşovdan ibarət bir heyət göndərmişdi. 1939-cu ilin mart ayında Tehrana yollanan bu heyət 5800 rubl dəyərində olan qiymətli hədiyyələrlə Pəhləvi xanədanının vəliəhdi olan Məhəmməd Rezanın dəbdəbəli toy mərasimində iştirak etmişdilər.[74] Fövziyə Britaniyada təhsil almışdı və Misir kral ailəsi ingilislərlə çox yaxın idi. Məsələnin bu tərəfi ingilislərin gənc şahı öz tərəflərinə çəkəcəklərinə ümidlərini artırmışdı.

Sentyabrın 21-də Məhəmməd Reza Pəhləvinin tacqoyma mərasimi keçirildi. Elə həmin gün yeni şah tərəfindən formal olaraq Foruğinin ikinci hökumət kabinetinin tərkibi Məclisə təqdim edildi. Yeni hökumətin ilk addımı sentyabr ayının 21-də köhnə aristokrat ailəsindən olan, vaxtilə bir sıra nazir postlarında çalışmış, Ankarada səfir işləmiş Xəlil Fəhimini (Fəhim-ol-Mülkü) Azərbaycana vali təyin etmək oldu. Bu təyinat elan olunan gün – sentyabrın 21-də Sovet Azərbaycanı siyasi işçilərinin rəhbəri Əziz Əliyev Təbrizdə, onun başçılıq etdiyi qrup isə Cənubi Azərbaycanın müxtəlif şəhərlərində artıq işə başlamışdı.[75]

§2. Əziz Əliyevin missiyasının Təbrizdə fəaliyyəti

1941–1942-ci illərdə Sovet Azərbaycanından göndərilən missiya Cənubi Azərbaycanda çox ciddi işlər görürdü. Bunlardan ən mühümü 1941-ci ilin oktyabr ayında Təbrizdə ordu qəzeti kimi nəzərdə tutulan "Vətən yolunda" qəzetinin nəşrə başlaması idi.[76] Tezliklə qəzet

---

[73] İran üzrə qısa məlumat. 29.09.1944.//ARDA, f.28, s.4, i.17, v 1

[74] İrana nümayəndə heyəti göndərmək barədə ÜİK(b)P MK-ın Siyasi Bürosunun qərarı. 27.03.1939.// RDSSTA, f.17, s.162, i.25, v.2

[75] Əziz Əliyevin Təbrizdən M.C.Bağırova məktubu. 27.09.1941./ ARPİİ SSA, f.1, s.89, i.4, v.1

[76] Bax: C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991, s.31

Cənubi Azərbaycan əhalisi arasında geniş yayıldı və İranın siyasi dairələrini narahat etməyə başladı. SSRİ Xarici İşlər Komissarlığından M.C.Bağırova göndərilən şifrəli teleqramda deyilirdi: "İranın Xarici İşlər naziri Soheyli bizim səfir Smirnova şikayət edib ki, Təbrizdə Əliyev qrupu türk dilində "Vətən yolunda" qəzeti buraxır. Smirnov cavab verib ki, qəzet Azərbaycandakı qızıl əsgərlər və sovet xidmətçiləri üçün nəzərdə tutulub. Soheyli xahiş edib ki, onu İran əhalisi arasında yaymasınlar. Xahiş edirik, Xarici İşlər nazirinin bəyanatının nə dərəcədə əsaslı olduğunu bildirəsiniz".[77] Xalq Xarici İşlər Komissarlığına, Vladimir Dekanazova və komissarlığın baş katibi Arkadi Sovolevə göndərdiyi teleqramlarda M.C.Bağırov yazırdı: "Soheylinin iddiaları əsassızdır və təsadüfi deyil. Bizim işçilər İranın daxili qaydalarına toxunan heç bir iş görməyiblər və görmürlər. Əksinə, bizim əlimizdə Smirnova da bəlli olan yoxlanılmış məlumatlar vardır ki, son vaxtlar Cənubi Azərbaycanda yerli İran hakimiyyəti orqanları tərəfindən İran vətəndaşlarının sıxışdırılması və təxribatçılıq nəticəsində həbs edilməsi geniş xarakter alıb. Bu adamların "günahı" yalnız ondadır ki, həmin adamlar Qızıl Ordu hissələrinə loyal münasibət bəsləyir və sevgi ilə yanaşır, Sovet İttifaqına öz rəğbətlərini ifadə edirlər. Sizdən xahiş edirəm bütün bunları Vyaçeslav Mixayloviçə (*Molotov nəzərdə tutulur – C.H.*) çatdırın..."[78]

Əziz Əliyev Təbrizə gəldiyi günün səhəri, sentyabrın 22-də Cənubi Azərbaycana ezam olunanlarla söhbətdən sonra onlar ayrı-ayrı şəhərlərdə yerləşən hərbi hissələrə getdilər. Birbaşa təyinat almayanların çoxu Təbrizdə saxlanıldı. Süleyman Rəhimov başda olmaqla təbliğatçılar qrupu, Meybulla Əmiraslanov başda olmaqla təsərrüfat qrupu, Ağasəlim Atakişiyev başda olmaqla xüsusi qrup, Mustafa Quliyev başda olmaqla səhiyyə qrupu, Mirzə İbrahimov başda olmaqla redaksiya qrupu, Yunis Hacıyev başda olmaqla 1-ci

---

[77] Xarici İşlər Komissarlığından M.C.Bağırova şifrəli teleqram. 17.12.1941. //ARPİİ SSA, f.1, s.89, i.1, v.17

[78] M.C.Bağırovun V.Dekanozova və A.Sobolevə teleqramı. 18.12.1941.//ARPİİ SSA, f.1, s.89, i.1, v.32-33

Qafqaz diviziyasına düşənlər Təbrizdə işləməli idilər. Bundan əlavə, ilk göndərilən dəstədən 16 nəfər Makuya, 22 nəfər Urmiyaya, 15 nəfər Zəncana, 27 nəfər Pəhləviyə, 16 nəfər Xoya, 15 nəfər Ərdəbilə, 14 nəfər Marağaya, 15 nəfər Dilmana, 16 nəfər Uşnuya, 16 nəfər Qəzvinə, 16 nəfər Mianəyə, 16 nəfər Rudəsərə, 15 nəfər Noşəhrə göndərilmişdi.[79] Təbrizə gələcək Azərbaycan opera teatrı truppası üçün şəhərdə yer ayrılmışdı. İlkin işləri gördükdən sonra Əziz Əliyev bir sıra məsələləri sovet səfiri və hərbi komandanlıqla razılaşdırmaq üçün sentyabrın 22-də axşam Tehrana yola düşdü. Sovet orduları Tehrana daxil olduğu üçün komandanlıq və hərbi şura orada idi. İki gün ərzində o, Sovet Azərbaycanı siyasi işçilərinin İrana gəlməsi barədə hərbi komandanlığa, Tehrandakı sovet səfiri A.Smirnova və ticarət müvəkkili Alekseyevə məlumat verdi.[80]

Əziz Əliyev Təbrizə qayıdan gün şəhərdə qənd ticarətinə nəzarət edən erməni Budaqyan narazılıq yaratmaq məqsədilə əhaliyə qənd buraxılmasını qadağan etmişdi. Anbarlarda olan qənd və şəkər gizli yolla İranın cənubuna göndərilirdi. Şəhərin normal həyatının pozulmaq təhlükəsi olduğundan Təbrizdə olan ingilis və türk konsulluğu Ə.Əliyevdən xahiş etmişdilər ki, şəhərdə normal həyatı bərpa etmək üçün tədbirlər görsünlər. Baş vermiş təxribatı aradan qaldırmaq üçün şəhər fərmandarı və polis rəisi Təbrizdəki ordu qərargahına dəvət edildilər və onlara bildirildi ki, bu oyunlara son qoyulsun. Belə gərgin bir vaxtda Sovet Azərbaycanından Təbrizə göndərilən ərzaq məhsullarının ilk hissəsi sentyabrın 24-də axşam şəhərə gəlib yetişdi.[81] Təbrizdə vəziyyəti normallaşdırmaq üçün təcili olaraq Bakıdan respublika fondu hesabına Cənubi Azərbaycana 800 ton qənd, 360 ton un, 105 ton buğda, 300 min metr parça və s. yardımlar göndərilmişdi. Ümumiyyətlə, 1941-ci ilin axırına qədər Bakıdan Cənubi Azərbaycana 1.494.053 metr parça, 2.548 ton qənd,

---

[79] "İrana ezam olunmuş işçilərin siyahısı" haqqında Ə.Əliyevin S.Qafarzadəyə məlumatı. 15.10.1941. //ARPİİ SSA, f.1, s.179, i.7, v.33-87

[80] Əziz Əliyevin Təbrizdən M.C.Bağırova məktubu. 27.09.1941.//ARPİİ SSA, f.1, s.89, i.4, v.1

[81] Yenə orada, v.3

1.371 ton un, 1.814 ton buğda və ümumi dəyəri 2 mln. manat olan digər mallar göndərilmişdi.[82]

Əziz Əliyev qrupu sentyabrın sonu, oktyabrın əvvəllərində uzun müddət Cənubi Azərbaycan şəhərlərində fəaliyyət göstərmiş Almaniya firmalarının əmlakını müsadirə etdi. Dövlət Müdafiə Komitəsi hələ 1941-ci ilin sentyabr ayının 4-də İranda almanlara məxsus bütün malların müsadirə edilməsi haqqında qərar qəbul etmişdi. Qərara görə, Zaqafqaziya hərbi dairəsinin komandanlığı sovet ordularının olduğu İran ərazisində bu işi həyata keçirməli, İranda olan sovet ordusunun ehtiyaclarına sərf edilən hissədən başqa müsadirə edilən alman mallarının qalan hissəsinin qənimət kimi SSRİ-yə göndərilməsini təmin etməli idi.[83] Bu qərara uyğun olaraq, "İran ekspess", "Veberbayer transport", "Hes və K-o", "AEQ" formalarına məxsus ümumi dəyəri 1247000 İran rialı həcmində olan müxtəlif növ mallar müsadirə edildikdən sonra Sovetlər Birliyinə göndərildi. İran Milli Bankının Cənubi Azərbaycanda olan şöbələrində alman təbəələrinə aid 11 hesab müəyyənləşdirildi. Bu hesablarda olan 923305.85 rial pul vəsaiti 47-ci ordunun hesabına keçirildi. Avqustun 25-nə qədər İran tacirlərinin Almaniyadan aldığı malların üzərinə həbs qoyuldu.[84] Sovet xüsusi xidmət orqanlarının məlumatına görə həmin dövrdə İranda 2350 nəfər alman yaşayırdı ki, onun 870 nəfəri kişi 1480 nəfəri isə qadın və uşaqlar idi. Təbrizdə 112 nəfər ailə üzvündən ibarət olan cəmi 23 alman ailəsi yaşayırdı, 80 nəfər alman qadını isə iranlı kişilərlə ailə qurmuşdu.[85]

Sentyabr-oktyabr aylarında missiya üzvləri şahsevən tayfa başçıları arasında ciddi iş apardılar. Avqust ayında başlanan hərbi müdaxilə zamanı sovet ordularının hücumu qarşısında İran orduları geri çəkilərkən onların silah və hərbi sursatının bir hissəsi şahsevənlərin

---

[82] M.C.Bağırovun İ.Stalinə məktubu. 20.12.1941.//ARPİİ SSA, f.1, s.89, i.1, v.18

[83] Dövlət Müdafiə Komitəsinin 631s nömrəli qərarı. 04.09.1941. //RDSSTA, f.644, s.1, i.8, v.163

[84] Əziz Əliyevin və 47-ci Ordunun qərargah rəisi Trifonovun Təbrizdən M.C.Bağırova məktubu. 02.10.1941. //ARPİİ SSA, f.1, s.89, i.6, v.23; 1930-1940-cı ilin əvvəllərində Almaniya-İran münasibətləri haqqında daha geniş məlumat üçün bax: А.Б.Оришев. Политика нацистской Германии в Иране. Санкт-Петербург, 2005

[85] А.Б.Оришев. Политика нацистской Германии в Иране, с.159

əlinə keçmişdi. Cənubi Azərbaycanda fəaliyyətə başlayan sovet idarələri ehtiyat edirdi ki, gizli fəaliyyətə keçmiş şahsevən tayfa başçıları bu silahdan sovet siyasətinə qarşı istifadə etsinlər. Əziz Əliyev sentyabrın sonlarında tapşırıq vermişdi ki, şahsevənlər arasında ciddi izahat işi aparılsın və əllərdə olan silahın təhvil verilməsinin zəruriliyi onlara inandırılsın. Onun adına hazırlanan arayışda şahsevənlərin 32 tayfadan, 40020 nəfər əhalidən ibarət olduğu göstərilirdi. Onların 21490 dəvəsi, 7967 atı, 595200 qoyunu, 50260 iribuynuzlu mal-qarasının olduğu sənəddə göstərilirdi.[86] Şahsevənlər bu dövləti itirməkdən çox ehtiyatlanırdılar. Sentyabr ayının 28-də Xiovda şahsevən tayfa başçıları ilə keçirilən görüşdə Qocabəydidərdən Əli xan Bəhrəm xan oğlu, Əcirlilərdən Nüsrət bəy, Həmzəlilərdən Qulam xan, Alarlılardan Yadulla xan, Hüseynağa xan, Sahib xan, Xəlfəlilərdən Mir Qulam xan, Göykilərdən Hətəm xan, Sarxanbəylilərdən Alış bəy, Talış Mikayıllılardan Fərzulla bəy və b. iştirak edirdilər.[87] M.C.Bağırov hələ Azərbaycan siyasi iradəsinin rəisi işlədiyi dövrdə Şahsevən tayfa başçılarını yaxşı tanıdığından Əziz Əliyev qrupunun üzvü kimi Ərdəbildə və Muğanda fəaliyyət göstərən M.Sarıcalinskidən onlara xəbər göndərmişdi ki, silahları təhvil versinlər.[88] Sovet Azərbaycanının və sərhəd ordularının nümayəndələri ilə aparılan danışıqlardan sonra şahsevən tayfa başçıları silahları təhvil verməyə razı oldular və onlar Bakıya M.C.Bağırovla görüşə dəvət edildilər. Şahsevənlər Pəhləvi hakimiyyətindən, xüsusilə onlara qarşı repressiyalar həyata keçirmiş Reza şah diktaturasından çox narazı idilər. 1941-ci ilin noyabrında Bakıda M.C.Bağırovla görüş zamanı onlar bildirdilər ki, ümumiyyətlə, şahsevənlərin İranla heç bir əlaqəsi yoxdur, onların əhalisinin yarıya qədəri Şura Azərbaycanında yaşayır və özləri də Yuxarı Azərbaycana, yəni Sovet Azərbaycanına birləşmək istəyirlər.[89]

---

[86] İran şahsevənləri haqqında arayış. Sentyabr, 1941.//ARPİİ SSA, f.1, s.89, i.6, v.16

[87] Şahsevən tayfa başçıları ilə keçirilən görüş haqqında M.Sarcalinskının Ə.Əliyevə məlumatı. 28.09.1941.//ARPİİ SSA, f.1, s.89, i.6, v.79-81

[88] Yenə orada, v.80

[89] İrandan gəlmiş şahsevən tayfa başçıları ilə M.C.Bağırovun söhbətinin stenoqramı. Noyabr, 1941.//ARPİİ SSA, f.1, s.89, i.10, v.8

1941-ci ilin sentyabr ayının 26-da Azərbaycan K(B)P MK katibi Sultan Qafarzadə siyasi işçilərin ikinci dəstəsinin göndərildiyi barədə Əziz Əliyevə yazırdı: "Oktyabrın ilk günlərində 2-ci dəstədə gələnlər hamısı yerlərə təyinat üzrə göndərilmişlər." Ə.Əliyev məsləhət bilirdi ki, bundan sonra 47-ci ordunun yerləşdiyi ərazidə göndərilənlərin təyinat yeri Bakıda dəqiqləşdirilsin və elə adamlar oradan da birbaşa təyinat yerinə yola düşsünlər.

Oktyabrın 24-də Əziz Əliyev rəhbərlik etdiyi qrupun fəaliyyəti, habelə Cənubi Azərbaycandakı vəziyyət haqqında M.C.Bağırovun adına ilk geniş hesabatını göndərdi. Orada göstərilirdi ki, Cənubi Azərbaycana Bakıdan partiya, sovet, mədəniyyət və təsərrüfat işçilərinin göndərilməsi çox faydalı olmuşdur.[90] O yazırdı: "Əhali sovetlərin İrana daxil olmasını sovetləşmə məqamı kimi qəbul edir. Lakin biz adamlarımıza göstəriş vermişik ki, müxtəlif şübhəli qüvvələrin ortaya atdığı bu təxribata imkan verməsinlər. Sovet ordusunun yerləşdiyi bütün şəhərlərdə və onlara yaxın kəndlərdə əhali arasında geniş təbliğat işlərinə başlamışıq. Yayılan broşuralar və vərəqələr əhaliyə güclü təsir göstərir. Çox yerlərdə kəndlilər açıq şəkildə deyirdilər: "Biz Qırmızı Ordunun Cənubi Azərbaycandan çıxmasına imkan verməyəcəyik, əgər çıxsanız biz də sizinlə birlikdə Sovet İttifaqına gedəcəyik. Artıq Azərbaycanın hər yerində İran hakimiyyət orqanlarının törətdiyi qanunsuzluqlar barədə əhali bizə şikayət etməyə başlamışdır. Biz mümkün olan bütün vasitələrlə onları müdafiə edirik". Ə.Əliyev M.C.Bağırova bildirirdi ki, "mənim sərəncamıma Bakıdan 7 minik avtomobili gəlib. Onun biri qəzet redaksiyasına, biri S.Rəhimova, qalan 5 maşın Təbriz, Urmiya, Maku, Pəhləvi və Zəncana, bizim diviziyalarda çalışan yoldaşlara göndərilib. Azərbaycan dilində "Vətən Yolunda" qəzetinin iki nömrəsini artıq buraxmışıq. Əhali arasında rəğbətlə qarşılanıb. Urmiyada, Pəhləvidə də Azərbaycan dilində qəzet buraxmağa böyük ehtiyac var". Əziz Əliyev öz hesabatında yazırdı: "Təbrizdə, son 15 il

[90] Cənubi Azərbaycana göndərilmiş Sovet Azərbaycanı siyasi işçilərinin rəhbəri Ə.Əliyevin M.C.Bağırova məktubu. 24.10.1941. //ARPİİ SSA, f.1, s.89, i.4, v.33-45

ərzində ədəbiyyat, sənət, elm və texnika ilə bağlı Azərbaycan dilində bir dənə də olsun kitab buraxılmayıb. Şair və yazıçıların yaradıcılığı üçün heç bir şərait olmayıb, əksinə onlar hakimiyyət tərəfindən təqib olunublar. Təbrizin şair və yazıçılarından Zeynal Gənci, Turxan Gənci, Nadir Fitrət, Ruhi, Sadıq Naxçıvani, Heybulla Cavid və digərləri öz əsərlərindən heç birini çap etdirə bilməmişlər". Güney Azərbaycanda məktəblərin vəziyyətini təhlil edərək Ə.Əliyev yazırdı: "Bir qayda olaraq maarif sistemində və məktəblərdə rəhbər vəzifələri farslar tutublar. Mövcud qaydaya müəllimlər etiraz edirlər, onlar tələb edirlər ki, dərslər Azərbaycan dilində keçirilsin və fars müəllimlərə verilən əlavə güzəştlər ləğv edilsin.[91] O əlavə edirdi ki, səhiyyə ilə bağlı vəziyyət bərbaddır. "Biz indi Güney Azərbaycanın tibbi-sanitar xəritəsini hazırlamağa başlamışıq. Oktyabrın 6-da bizim həkimlərə prof. Fəxri-Atam başda olmaqla Təbriz həkimlərinin görüşünü təşkil etdik. Görüşdə yerli həkimləri erməni və fars həkimləri arasında antaqonizm olduğu kəskin şəkildə göründü... Bakıdan gələn dərmanların hamısını paylamışıq, qadınlar arasında işləmək üçün qadın həkimlərə, tibb kadrlarına, mama-qinekoloqlara böyük ehtiyac var. Onların arasında xəstəlik yüksək həddə çatıb. Kişi həkimlərdən istifadə etməyin çətinlikləri var".[92] Cənubi Azərbaycan əhalisinə tibbi yardım göstərilməsi işində İrandakı sovet ordusunun tərkibindəki azərbaycanlı həkimlər və şəfqət bacıları mühüm rol oynayırdılar. Onların səyi ilə Təbriz ambulatoriyalarında 20 min, Marağada isə 10 min nəfər adama peyvənd edilmişdi. Xoy şəhərinin tibb məntəqəsində 1500 xəstə müalicə edilmişdi. Cənubi Azərbaycanın bütün şəhərlərində yerli əhaliyə tibbi yardım pulsuz həyata keçirilirdi.[93]

Cənubi Azərbaycanda normal həyatın yaradılmasında İran hakimiyyət orqanlarının maraqlı olmadığına diqqəti cəlb edərək Ə.Əliyev yazırdı: "Təbriz valisi Fəhimi özü qarışıqlıq salanları himayə edir. O yaxşı bilir ki, bir çox sənaye obyektləri işləmir, iri tacirlər Tehrana və ingilis işğal zonasına gedirlər. Belə vəziyyətdə vali heç bir iş

[91] Yenə orada, v.39
[92] Yenə orada, v.40
[93] Bax: C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991, s.32

görmür və bizim iqtisadi-təsərrüfat həyatını normallaşdırmaqla bağlı bütün tələblərimizdən yayınır, lakin son vaxtlar mən bildirdim ki, onun fəaliyyətsizliyi barədə bizim səfir vasitəsilə Tehran hökumətinə məlumat çatdıracağam. Yalnız bundan sonra o, bir qədər fəallaşdı.[94] Daha sonra Əziz Əliyev 47-ci ordunun bəzi zabit və əsgərlərinin soyğunçuluğu, sərxoşluğu, oğurluğu barədə faktları göstərirdi. O yazırdı: "Təbrizdə və digər şəhərlərdə ayrı-ayrı qızıl əsgərlər tərəfindən soyğunçuluq hadisələri baş vermişdir. Gecələr silah axtarışı adı altında onlar evlərə daxil olurlar, əhalinin pullarını götürürlər. Belə faktlar çoxdur. Bu vəziyyətə son qoymaq üçün biz müvafiq ölçülər götürürük". Nəhayət, məruzənin sonunda Ə.Əliyev daha ciddi məsələyə toxunaraq M.C.Bağırova məlumat verildi ki, Ermənistan SSR Xalq Daxili İşlər Komissarının müavini Gözəlyan iranlının minik avtomaşınını qənimət kimi əlindən alıb və aparıb. Qənimət Komissiyasının dəfələrlə tələbinə baxmayaraq maşının qaytarılması nəticəsiz qalmışdır.[95]

Öz məktubunda Ə.Əliyev əhalinin Sovet hakimiyyətinə münasibətini xüsusi şəkildə qeyd edirdi. O yazırdı: əhali arasında belə tələblər səslənir ki, "Biz Qızıl Ordunu iyirmi ildən çoxdur ki, gözləyirik. Artıq səbrimiz tükənib. Yubanmağın vaxtı deyil. Sovet hökumətini verin".[96] Noyabrın 7-də qeyd olunacaq Böyük Oktyabr Sosialist İnqilabının 24-cü ildönümü ərəfəsində belə şayiələr yayılmışdı ki, guya Cənubi Azərbaycanda Sovet hakimiyyəti qurulacaqdır. Əslində, doğrudan da Sovetlərin Cənubi Azərbaycanı sovetləşdirmək niyyətləri var idi, lakin alman ordularının Moskvanın yaxınlığına gəlib çıxması onu bu niyyətlərdən daşındırdı. Sovetlərin bu niyyətini təxmin edən və onların İran ordularının Cənubi Azərbaycana gəlməsinə icazə verdiyini görən Tehran hökuməti gözlənilən təhlükənin qarşısını almaq məqsədilə Azərbaycanda jandarmanın sayını artırıb 3784 nəfərə çatdırdı.[97]

---

[94] Cənubi Azərbaycana göndərilmiş Sovet Azərbaycanı siyasi işçilərinin rəhbəri Ə.Əliyevin M.C.Bağırova məktubu. 24.10.1941.//ARPİİ SSA, f.1, s.89, i.4, v.41

[95] Yenə orada, v.44

[96] Yenə orada, v.33

[97] A.Antonovun M.C.Bağırova raportu. 12.12.1942.//ARPİİ SSA, f.1, s.89, i.39, v.42

İran hakimiyyət orqanlarının Azərbaycan əhalisinə "Vətən yolunda" qəzetini oxumağı qadağan etməsinə baxmayaraq, iki gündən bir 4000 nüsxə çıxan qəzet əldən-ələ gəzirdi. Cənubdan gələn məlumatda göstərilirdi: "Təbrizdə bir qoca "Vətən yolunda" qəzetini əlinə alıb xahiş etdi ki, bunu onun üçün oxusunlar. Oxumağa başlayan zaman o, dərindən nəfəs alıb dedi: Allaha şükür olsun, indi biz öz ana dilimizdə qəzet oxuyuruq".[98] "Vətən yolunda" qəzetinin geniş yayılması və bolşevikləşmə meylinin güclənməsi Azərbaycanda sərt tədbirlərlə müşayiət olunurdu. Bu sərtləşmənin gedişində, oktyabrın axırlarında İranın Daxili İşlər naziri Cahanbani Təbrizə gəldi. Oktyabrın 30-da o, əyalətin bütün vəzifəli və imkanlı adamlarının toplantısını keçirdi və öz çıxışında bildirdi ki, hər kəs gərək ayıq olsun, şahın və hökumətin tapşırıqlarını sözsüz yerinə yetirsin. Nazirdən sonra vali Fəhimi çıxış etdi və bildirdi ki, əhali gərək Qızıl Ordu tərəfindən aparılan təbliğata uymasın, öz pullarını havayı yerə Sovet kino filmlərinə və teatr tamaşalarına xərcləməsinlər, lakin İran rəsmi dairələrinin müqavimətinə baxmayaraq 1941-ci ilin noyabr ayının 7-də Təbrizin "Şir o xorşid" kinoteatrında Böyük Oktyabr Sosialist inqilabının 24-cü ildönümünə həsr edilmiş təntənəli iclas keçirildi.[99] Həmin vaxt belə tədbirlər Təbrizlə yanaşı, digər Cənubi Azərbaycan şəhərlərində də keçirildi. Oktyabr abı-havası qurtarana qədər, yəni noyabr ayının 10-na qədər Cahanbani Təbrizdə qaldı.

1941-ci ilin payızında Cənubi Azərbaycanda yaranmış vəziyyət artıq bir sıra dövlətlərin siyasi dairələrinin müzakirə mövzusuna çevrilmişdi. Tehran, London, Moskva, Ankara qəzetləri tez-tez Azərbaycan haqqında yazılar verirdilər. İran məclisində Azərbaycan deputatları çıxış edib bildirmişdilər ki, İran hökuməti Azərbaycana yetərincə diqqət yetirmir, Azərbaycan üçün ayrılan vəsait və vilayətin gəliri İranın digər rayonlarının qurulmasına sərf olunur. Baş nazir Foruği deputatların çıxışlarının doğruluğunu təsdiq etdi və söz verdi ki, bundan sonra bütün gücünü Azərbaycanın ehtiyaclarının ödənilməsinə

---

[98] M.C.Bağırovun İ.Stalinə məktubu. 20.12.1941.//ARPİİ SSA, f.1, s.89, i.1, v.21

[99] Bax: C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991, s.30

qoyacaqdır. O dedi: "Azərbaycan İranın əsas hissəsidir və həmişə vacib dövlət məsələlərinin həllində bilavasitə iştirak etmişdir".[100] Azərbaycanı itirmək təhlükəsi İran mətbuatında ona qarşı "sevgi" dolu yazılar doğurmuşdu. Hökumət Əhməd Kəsrəvini Təbrizə göndərmişdi ki, qəzet çıxarıb Azərbaycan əhalisinin "türk olmadığını" onlara başa salsın. Tehran qəzetləri İranı insan bədəninə bənzədib deyirdilər: "Azərbaycan bu bədənin həm başıdır, həm gözləridir, həm də ürəyidir". Tehranda çıxan "Quşeş" qəzeti öz səhifələrində Təbrizdəki hadisələrdən bəhs edərək yazırdı: "Şəhrivər hadisələrindən sonra Azərbaycandan kədərli və qəribə xəbərlər alırıq. Deyirlər ki, Azərbaycan keçmiş şahdan və onun məmurlarından çox zülmlər görüb. İndi onlar öz narazılıqlarını mərkəzi hökumətə müxalifət olmaqla, mərkəzin göndərdiyi adamlara tabe olmamaqla nümayiş etdirirlər".[101] Qəzet əhaliyə müraciət edərək yazırdı: "İndi Azərbaycanda narazılıq edən qüvvələrin fikri belədir ki, Azərbaycanı İrandan ayırsınlar. Cənubi azərbaycanlılar, biz İranın bütün xalqları birik, fərqimiz yoxdur. Sizin qəhrəmanlığınız və şücaətiniz sayəsində İranın adı indiyə qədər yaşayır. Bu sizlərsiz ki, İran üçün indiyə qədər sinənizi düşmənin qabağına vermisiniz, onun üçün qanınızı tökmüsünüz. Bu sizlərsiniz ki, öz qəhrəmanlığınızla İran üçün tarixi iftixar fəth etmisiniz və biz Azərbaycana sevgi ilə yanaşırıq".[102] Lakin Cənubi Azərbaycanın qabaqcıl adamları İran mətbuatında başlanan belə təbliğatı elə də yaxşı qarşılamırdılar. Tehran qəzetlərinin yazılarında əhalinin münasibəti ilə bağlı toplanmış Sovet materiallarında göstərilirdi: "Təbrizin yazıçı və jurnalistləri bu sözlərdən hiddətə gəlib deyirdilər: "bu ikiüzlülər və yaramazlar dünən bizi "türkəxər" adlandırırdılar, bu gün isə riyakarlıqla bizi aldatmaq məqsədilə Azərbaycanı gözəl sözlərlə tərifləməyə başlayıblar".[103]

Eyni zamanda Türkiyənin "Yeni Sabah" və "Cümhuriyyət" qəzetləri də 1941-ci ilin oktyabr ayında Cənubi Azərbaycan türkləri

---

[100] Cənubi Azərbaycana göndərilmiş Sovet Azərbaycanı siyasi işçilərinin rəhbəri Ə.Əliyevin M.C.Bağırova məktubu. 19.11.1941.//ARPİİ SSA, f.1, s.89, i.4, v.148

[101] İran mətbuatının icmalı Dekabr, 1941. //ARPİİ SSA, f.1, s.89, i.14, v.88-90

[102] Yenə orada, v.89

[103] M.C.Bağırovun Ə.Əliyevə, M.Əmiraslanova, M.İbrahimova, Aqaranova məktubu. 10.11.1941.//ARPİİ SSA, f.1, s.89, i.4, v.100

ilə bağlı geniş yazılar vermişdilər. Oktyabr ayının axırlarında türk yazıçısı və publisisti Hüseyn Cahid Yalçının "Cümhuriyyət" qəzetindəki yazısında bildirilirdi ki, İran hökuməti orada yaşayan türklərə heç bir diqqət yetirmir və onların taleyinə biganədir. O yazırdı: "İranda, hətta türkləri əzməkdən çəkinmirlər. Biz biganə qala bilmirik ki, türklər maarif sahəsində farslarla bərabər hüquqa malik deyillər, onların dilləri və mədəniyyəti sıxışdırılır... Keçmişdə İranda parlament yarananda Məclisdə türkcə çıxış etməyə icazə verilirdi. Bir vaxtlar İranın Ankarada səfiri olmuş və indiki Baş nazir bizim dostumuz ağayi Foruği birinci vəzifəsini parlamentdə türkcə danışmağı qadağan etməkdə gördü".[104] "Cümhuriyyət" qəzetinin bu yazısından sonra Tehran mətbuatında Türkiyəyə qarşı geniş kampaniya başlandı. İran qəzetləri cavab olaraq göstərirdilər ki, türk dili İran əhalisinin bir hissəsinin danışdığı dildir. Bu o demək deyil ki, onlar türk millətidir. İranda yaşayan türklər iranlılar olaraq bütün hüquqlardan istifadə edirlər. Azərbaycan türkcə danışan iranlıların yaşadığı yerdir ki, bütün İranın beyni və ürəyi olub, indi də olmaqdadır. İranın öz dövlət dili var və bu bütün iranlılar üçün məcburidir. Qəzetlər sübut etməyə çalışırdılar ki, azərbaycanlılar elə əski farslardır və Azərbaycan dilini onlara XVI əsrdə calaşdırıblar.

İran və Türkiyə mətbuatında Azərbaycanla bağlı gedən yazılar M.C.Bağırovu bərk əsəbiləşdirirdi. Bu barədə Əziz Əliyevin göndərdiyi məlumatla tanış olduqdan sonra o deyirdi: "İndi Cənubi azərbaycanlılara təzə sahib çıxıb, o da ibarət olsun osmanlı türklərindən. Yəqin onlara indi xəbər çatmışdır ki, Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar onların doğmalarıdırlar. Bilmirəm bu vaxta qədər onlar harada imişlər. Bu vaxta qədər onların qabağını kim kəsirdi. İş o yerə gəlib çatmışdır ki, Tehran ilə Ankara bir-birilə mübahisəyə başlamışlar. Guya 5 milyon Azərbaycan xalqı sahibsiz qalmışdır. Bunlar deyir bizimdir, onlar deyir bizimdir. Ortalığa bölhaböl məsələsi düşmüşdür. Tehran bu məsələdə görünür özünü o

[104] Cənubi Azərbaycana göndərilmiş Sovet Azərbaycanı siyasi işçilərinin rəhbəri Ə.Əliyevin M.C.Bağırova məktubu. 19.11.1941.//ARPİİ SSA, f.1, s.89, i.4, v.148

qədər itirmişdir ki, bir neçə tarixi faktları bu vaxta qədər bilməmişdir... Bizim öz məqsədimiz və getdiyimiz yol özümüzə aydındır... Biz Sovet Azərbaycanında yaşayan azərbaycanlılar deyə bilərik ki, istədiyimiz məqsədlərin birini əldə etmişik... İndi bu günlər məcbur olurlar etiraf etsinlər ki, əgər min illərlə böyük dövlətə, tarixə malik olan xalq varsa, o da azərbaycanlılardır".[105]

Cənubi Azərbaycandan alınan məlumatlar təhlil edildikdən sonra M.C.Bağırov noyabrın 10-da görülən işlərlə bağlı Əziz Əliyevə öz rəy və təkliflərini göndərmişdi. M.C.Bağırov "Vətən Yolunda" qəzetinin uğurlarından razı idi. Eyni zamanda o təklif edirdi ki, oxunaqlı olmaq üçün qəzetdə yığcam materiallar verilməli, bədii materiallar qısaldılmaqla siyasi mövzulara maraq gücləndirilməlidir. O yazırdı: "Qabaqcıl ziyalıları qəzetin ətrafında toplamaqla, Siz yaxşı xətt götürmüsünüz, lakin bunu ehtiyatla etmək, qəzetdə işə cəlb olunan hər kəsi fərdi qaydada yoxlamaq lazımdır".[106] Eyni zamanda Bağırov Xoyda, Pəhləvidə və digər şəhərlərdə qəzet çıxarmağa razılığını bildirirdi. Opera teatrının Cənubdakı fəaliyyəti onun tərəfindən yüksək qiymətləndirilirdi. Təbrizin "Şir-o Xorşid" teatrında Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası, "Koroğlu", "Leyli və Məcnun", "Əsli və Kərəm", M.Maqomayevin "Şah İsmayıl" operaları böyük uğurla tamaşaya qoyulmuşdu. Tamaşaların uğurla keçməsi üçün rejissor İ.Hidayətzadə, dirijor Niyazi və balet ansamblının rəhbəri Q.Almaszadə gərgin yaradıcılıq işləri görmüşdülər. Məcnun və Kərəm rollarının ifaçısı Ə.Sadıqov, Leyli və Əsli rollarının ifaçısı H.Rzayevanın çıxışları böyük hərarətlə qarşılanmışdı. "Arşın mal alan" musiqili komediyasında Əsgər rolunun ifaçısı Bülbül Məmmədov, Gülçöhrə rolunun ifaçısı Sona Mustafayevə sözün tam mənasında Təbriz tamaşaçılarının qəlbini fəth etmişdilər. 1941-ci ilin oktyabr ayının 26-da SSRİ xalq artisti Ş.Məmmədovanın təbrizlilər qarşısında çıxışı da böyük hadisəyə

---

[105] Təbrizdən gəlmiş nümayəndələrlə M.C.Bağırovun söhbətinin stenoqramı. 26.11.1941.//ARPİİ SSA, f.1, s.89, i.10, v.9-11

[106] M.C.Bağırovun Ə.Əliyevə, M.Əmiraslanova, M.İbrahimova, Aqaranova məktubu. 10.11.1941.//ARPİİ SSA, f.1, s.89, i.4, v.90

çevrildi.[107] Bu uğurları nəzərə alaraq, Bağırov truppanın Təbrizdə noyabrın 20-nə qədər qalmasına icazə verirdi, lakin Ə.Əliyevdən teatr işçilərinə aydınlaşdırmasını xahiş edirdi ki, "onlar necə Bakıdan mütəşəkkil getmişdilər, elə də gərək geri qayıtsınlar. Özünü saxlaya bilməyən, müxtəlif əşyalar almağa cəhd göstərənlər gərək məzəmmət edilsinlər. Sovet Azərbaycanının bütün incəsənəti, aktyor kollektivi, teatrı haqqında əhalidə ən yaxşı təəssüratlar yaratmağa nail olmaq lazımdır".[108] Doğrudan da Sovet Azərbaycanının incəsənət adamları Təbrizdə böyük rəğbət qazandılar və az sonra Bülbül, Sara Qədimova, Rəşid Behbudov və digərləri yenidən ora qastrol səfərlərinə getməli oldular.[109] Azərbaycan incəsənət nümayəndələri ilə keçirilən görüşlərdə Təbriz ziyalıları bildirdilər ki, onlar öz şəhərlərində bəstəkar Ü. Hacıbəyovu, şair S.Vurğunu, cərrah M. Topçubaşovu və professor M. Mirqasımovu görmək istəyirlər.[110]

M.C.Bağırov xəbərdarlıq edirdi ki, kürd məsələsində ehtiyatlı olmaq lazımdır. O xatırladırdı ki, "kürd məsələsi İran və Türkiyə siyasətində ən kövrək yerdir, ingilislərin əlində ən mühüm silahdır. Bunu heç vaxt, xüsusilə indiki anda unutmaq olmaz. Cənubi azərbaycanlılar ilə kürdlərin barışığı üçün hər şeyi etmək lazımdır, bu əsasda bütün vasitələrlə kürdləri özümüzə yaxınlaşdırmalıyıq. Bizim kürdlər arasında fəaliyyətimizin əsas istiqaməti ondan ibarət olmalıdır ki, kürdlər xarici kəşfiyyatın təxribatlarına uymasınlar, ayrıca kürd dövləti yaratmaq məqsədi ilə silahlanmağa cəhd göstərməsinlər".[111]

Öz məktubunda Bağırov xatırladırdı ki, "Cənubi Azərbaycanın bir sıra yerlərində əhalinin müəyyən təbəqələri, xüsusilə bir neçə il əvvəl Sovet Azərbaycanından sürgün edilənlər İranda Sovet hakimiyyəti qurmaq üçün fəallaşıblar. Astarada, Ərdəbildə, Pəhlə-

---

[107] Bax: C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991, s.38-39

[108] M.C.Bağırovun Ə.Əliyevə, M.Əmiraslanova, M.İbrahimova, Aqaranova məktubu. 10.11.1941.//ARPİİ SSA, f.1, s.89, i.4, v.91

[109] Bax: C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991, s.40

[110] Yenə orada, s.39

[111] M.C.Bağırovun Ə.Əliyevə, M.Əmiraslanova, M.İbrahimova, Aqaranova məktubu. 10.11.1941.//ARPİİ SSA, f.1, s.89, i.4, v.91-92

vidə belə faktlar olmuşdur. Bütün bunlar bizimlə müttəfiqlərin arasını vurmağa yönəlmiş alman kəşfiyyatının işidir. Buna qəti surətdə yol vermək olmaz." O xəbərdarlıq edirdi ki, yeni təşkil edilən kommunist özəkləri, aysor, erməni, Tudə təşkilatları ilə son dərəcə ehtiyatlı olmaq lazımdır. Şübhəsiz, belə bir fakt diqqətdən yayınmamışdı ki, İran Xalq Partiyasının 1941-ci ilin noyabrında Təbriz filialının əsas yaradıcıları Ərdəşir Ovanesyan, David Gevorkyan, Əli Əmir Xizi və b. idi.[112] Xüsusilə, Ə.Ovanesyan haqqında Bağırovun məlumatı daha geniş idi. Ona görə Bağırov xəbərdarlıq edirdi ki, daşnaklarla ehtiyatlı olsunlar. O yazırdı: "Daşnakların Sovetlərin etimadını qazanıb öz pozuculuq işlərini gücləndirmək istədikləri barədə əlimizdə məlumatlar var. Bütün bu partiya və cəmiyyətlərin xarici kəşfiyyatın birbaşa tapşırığı ilə yarandığı istisna olunmur". O yazırdı: "Məsələn, aysorlar həmişə ingilislərə meyl ediblər və ingilis kəşfiyyatının agentləridirlər. Bu səbəbdən onların hazırkı fəallaşması müəyyən dərəcədə şübhəlidir".[113] Məktubun sonunda M.C.Bağırov Təbriz ziyalılarının, Şahsevən və Kürd tayfa başçılarının Bakıya gəlişini bəyənirdi, lakin qeyd edirdi ki, bu iş yüksək səviyyədə təşkil olunmalıdır.

Qeyd edilən tövsiyəyə uyğun olaraq noyabrın 18-də Şahsevən tayfa başçıları, 20-də Təbriz ziyalılarının nümayəndələri, 27-də kürd tayfa başçıları Bakıya gəldilər. Hər üç nümayəndəlik M.C.Bağırov tərəfindən qəbul edildi. Süleyman Rüstəm, Süleyman Rəhimov və Mirzə İbrahimov Cənubdan nümayəndələrlə birgə gəlmişdilər. Ən maraqlı müzakirələr Təbriz ziyalıları ilə oldu. Təbriz qonaqlarını müşayiət edən M.S.Ordubadi görüş zamanı Bağırova bildirdi: "Yoldaşlar buraya gələndə bizim azərbaycanlılar onları görən kimi gözləri yaşardı. Əlbəttə, bu, onlarda olan sevinci ifadə edirdi".[114] Təbriz ziyalıları ilə görüşdə M.C.Bağırov dedi ki, İran hökuməti Azərbaycandan götürdüyü dövlətdən heç olmasa bir payını oranın

---

[112] Yenə orada, v.93
[113] Yenə orada, v.93
[114] Təbrizdən gəlmiş nümayəndələrlə M.C.Bağırovun söhbətinin stenoqramı. 20.11.1941.//ARPİİ SSA, f.1, s.89, i.10, v.130

abadlıq işinə sərf etməlidir. "Biz bu barədə səsimizi qaldırdıq ki, bəsdir, daha bu vaxtacan 5 milyon xalqı axır damarına qədər çatdırmısınız. Bu yaxşı şey deyil. Görünür ki, nəinki İranda yaşayan azərbaycanlı qardaşlarımız, hətta İran hökuməti də başa düşmüşdür ki,.. əgər lazım gələrsə biz də səsimizi qaldıracağıq. Hanı məktəb, hanı azərbaycanlıların dili, hanı onların oxuması, onların dilində qəzet, hanı ədəbiyyat? Bu məsələləri onların qarşısına qoyacağıq. Ancaq hələ vaxtı deyil... Bizim istədiyimiz odur ki, Azərbaycan xalqının öz hüququnu öz ixtiyarına versinlər. Onlara, özləri-özlərinə sahib olmaq hüququ versinlər. Əgər biz azərbaycanlıyıqsa, biz öz azərbaycanlılarımızı bilirik. Onların namusunu da bilirik. Daha əsir olmaq bəsdir, 10 illərlə, 100 illərlə Azərbaycan xalqı əsir olmuşdur... Əgər sizin dediyiniz bir olsa, yolunuz bir olsa, fikriniz bir olsa, onda siz böyük işlər görərsiniz... Sizə kömək etmək bizim borcumuzdur. Burada nə görürsünüzsə, hamısı Azərbaycan xalqınındır. Odur ki, siz Azərbaycan övladları olduğunuz üçün ixtiyarınız var öz payınızı burada istəyəsiniz, lakin sizin özünüzdə də bir hərəkət olmalıdır. Həqiqətən millətin qanı gərək cuşə gəlsin".[115] Cənub ziyalıları Təbrizə qayıtdıqdan sonra İran hakimiyyət orqanları çox çalışdılar öyrənsinlər ki, Bağırovla hansı söhbətlər olub, hətta Bakıya gələnlərin bəziləri təqiblərə də məruz qaldı. Yalnız Ə.Əliyevin ciddi müdaxiləsindən sonra bunlara son qoyuldu.

1941-ci ilin sonuna qədər Cənubi Azərbaycanda görülən işlərlə bağlı M.C.Bağırov Stalinə geniş hesabat hazırlamışdı. Hesabatda yer alan müəyyən məsələləri müzakirə etmək üçün İrandakı sovet siyasi, hərbi, diplomatik orqanları isə Sovet Azərbaycanı missiyası arasında yaranmış gərginliyi araşdırmaq məqsədilə Cənubdakı missiyanın başçısı Əziz Əliyev Bakıya dəvət edilmişdi. Cənubi Azərbaycana göstərilən yardım, orada aparılan siyasi iş, iqtisadi-mədəni tədbirlər, səhiyyənin təşkili və s. məsələlərlə bağlı Bakıda aparılan müzakirələr hesabatda öz əksini tapmışdı. M.C.Bağırov öz hesabatında Stalindən xahiş edirdi ki, Təbrizin kimsəsiz, yetim uşaqları üçün 200-300

[115] Yenə orada, v.137-138

nəfərlik uşaq evi açmağa icazə verilsin və təklif edirdi ki, bu uşaq evlərində dərslər Azərbaycan dilində keçilsin.[116] Hesabatda eyni zamanda İrandakı sovet ordu hissələrinin fəaliyyətinə toxunulur və qeyd olunurdu: "Bəzi ordu hissələri və bölmələrdə lazımi rəhbərlik olmadığından fərarilik, soyğunçuluq və sərxoşluq halları olmuşdur. Bu onunla bağlıdır ki, İrandakı Sovet ordusunun komandanı general-mayor Novikov və hərbi komissar Yarkov hərbi intizamı yüksəltmək üçün gündəlik işlə məşğul olmurlar, təsadüfi halda hissə və bölmələrdə olurlar, vaxtlarını banketlərdə, içki məclisində keçirirlər. Öz hərəkətləri ilə Novikov özünü elə rüsvay edib ki, İran generallarından biri bizim işçilərlə söhbət edərkən Novikovun bərk içdiyi və onun badə yoldaşının isə Hərbi Şuranın üzvü polkovnik komissar Yarkov olduğunu deyib. Novikov bərk içdikdən sonra İran ərazisindəki və Zaqafqaziyadakı ordu hissələrinizin sayı barədə məlumatları ingilislərə verib. Təbrizdə olarkən o, məşhur daşnak qardaşları Budaqyanlarla əlaqəyə girib, vaxtını onlarla birlikdə içki mərasimlərində, kef məclislərində keçirib".[117] Həm general Novikov, həm də polkovnik Yarkov Əziz Əliyev qrupu əleyhinə Moskvaya gizli məlumatlar verirdilər. M.C.Bağırovun ciddi müdaxiləsi ilə onların hər ikisini İrandan geri çağırdılar, lakin Əziz Əliyev missiyasını xilas etmək mümkün olmadı. Bu həm də 1941-ci ilin sonunda Sovet-Alman cəbhəsində vəziyyətin çox ağır olması ilə bağlı idi. Almanlar Moskvaya yaxınlaşdıqdan sonra sovet idarələri paytaxtdan Kuybışevə köçürülmüşdü. Cənubi Azərbaycan məsələsini dərinləşdirməklə Sovetlər özləri üçün əlavə problem yaratmaq istəmirdilər. Dekabr ayında Əziz Əliyev Bakıya çağırılanda Tehrandakı sovet səfiri A.Smirnov səfirliyin məsləhətçisi Nikolay İvanovu Təbrizə göndərmişdi. Ona və Təbrizə yeni təyin olunmuş Baş konsul Anatoli Kulajenkova xüsusi tapşırıq vermişdi ki, Əziz Əliyevin və onun qrupunun əleyhinə materiallar toplasınlar.[118]

---

[116] M.C.Bağırovun İ.Stalinə məktubu. 20.12.1941.//ARPİİ SSA, f.1, s.89, i.1, v.31
[117] Yenə orada, v.30
[118] Bax: ARPİİ SSA, f.1, s.89, i.40, v.28, 34

İranda, ilk növbədə isə Cənubi Azərbaycanda gedən proseslərə bilavasitə, nəzarət etmək üçün sovet rəhbərliyi 1941-ci ilin payızından başlayaraq bu ölkədə özünün diplomatik şəbəkəsini xeyli genişləndirdi. Noyabr ayının 28-də V. Miqunov SSRİ-in İranda ticarət nümayəndəsi təyin edildi.[119] ÜİK(b)P MK-in Siyasi Bürosu 1941-ci ilin oktyabr ayının 27-də Təbrizdə və Məşhəddə Baş konsulluq, Rəşt, İsfahan, Qorqan, Əhvaz və digər şəhərlərdə konsulluq, Urmiya, Maku, Bəndər Şah və digər yerlərdə vitse konsulluq, habelə bəzi şəhərlərdə konsul agentlikləri açılması haqqında qərar qəbul etdi.[120] Təcili olaraq, Anatoli Kulejnikov Təbrizə Baş konsul vəzifəsinə təyin edildi. Fəaliyyətə başlayan kimi onun ilk işi Moskvanın təlimatına əsasən Cənubi Azərbaycana ezam olunmuş Sovet Azərbaycanı siyasi işçilərinin əleyhinə material toplamaq oldu. Təbrizdəki Baş konsul Anatoli Kulajenkovun və Tehrandakı Sovet səfirliyinin müşaviri Nikolay İvanovun topladığı materiallar əsasında səfir Andrey Smirnov 12 yanvar 1942-ci ildə SSRİ Xarici İşlər Xalq Komissarlığına Əziz Əliyev qrupu əleyhinə geniş hesabat göndərmişdi. Hesabatın əsas bəndlərini Dekanazov yanvarın 17-də M.C.Bağırova göndərdiyi teleqramda açıqlamışdı. Orada deyilirdi: Kulajenkovun məruzəsindən aydın olur ki, yerli hakimiyyət və xarici konsulluqlar Əliyev qrupunun mövcudluğundan yaxşı xəbərdardılar. Kulajenkov Əliyev qrupunun saymazyana işi barədə bir neçə fakt sadalamışdır. Səfir Smirnovun hesabatına düşmüş bu faktlar əsasən aşağıdakılardan ibarət idi:

1.Yetərincə əsas olmadan "Azərbaycanın səsi" qəzeti bağlanmış və onun redaksiyasında axtarış aparılmışdır.

2.Dekabrın əvvəllərində Əliyev yerli adamlar vasitəsilə Urmiyadakı Sovet qarnizonunun komandiri polkovnik Selivanova bir məktub göndərmiş və bu məktubda o əhalinin əlində olan silahların yığılmamasını və yığılanların isə geri verilməsini tələb etmişdir. Bu məktub İran hakimiyyət orqanlarının əlinə keçmişdir və Urmiyanın valisi onun haqqında təqdimat hazırlamışdır.

---

[119] ÜİK(b)P MK-ın Siyasi Bürosunun qərarı. 28.11.1941.// RDSSTA, f.17, s.3, i.1042, v.79

[120] ÜİK(b)P MK-ın Siyasi Bürosunun qərarı. 27.10.1941.// RDSSTA, f.17, s.3, i.1042, v.58

3. Əliyevin müavini Əmiraslanov dekabrın 16-da Urmiyada valinin müavinini həbs etmiş və onu Təbrizə gətirmişdir. Burada o sərbəst buraxılmışdır. Həbsin səbəbi kürdlərin döyülməsidir. İndi Əmiraslanov deyir ki, valinin müavininin həyatı təhlükədə olduğu üçün guya o, həbs adı ilə oradan çıxarılıb.

4. Azərbaycan Daxili İşlər Komissarının müavini Atakişiyev dekabrın 30-da Sərab şəhərində mülkədarı həbs edib, jandarm idarəsində onu istintaq edib və jandarmaya onu həbs etməyi təklif edib. Bu barədə də vali təqdimat hazırlayıb.

Smirnov yazırdı: "Əliyev qrupunun geniş açıqlanması çətin ki, bizə xeyirli olsun, halbuki o, özü burada Azərbaycan K(b)P MK-nın katibi kimi geniş tanınır. Onun bu işə rəhbərlik etməsi faktı artıq iranlıların, türklərin və ingilislərin narahatçılığı və etimadsızlığı üçün yetərlidir. Əliyev qrupunun fəaliyyəti haqqında yalnız Soheyli deyil, Bulard (ingilis səfiri – C.H.) və türk səfiri də məlumatlıdır".[121] Dekazanov teleqramın sonunda Bağırovun nəzərinə çatdırırdı ki, səfir Smirnovla Əziz Əliyevin əlaqələrini tənzimləmək hələ ki, mümkün olmamışdır. Dekazanov onların görüşməsini məsləhət bilirdi. Teleqramdan başqa Bağırovun bu barədə Dekazanovla telefon danışıqları da olmuşdu.

Teleqramın məzmunu ilə tanış olduqdan sonra, elə həmin gün, yanvarın 17-də M.C.Bağırov Kremlə teleqram vurdu və Dekazanovun teleqramına cavab verdi. O yazırdı: "Sizinlə söhbətdən sonra Əliyevə təklif edildi ki, yerli hakimiyyətin işlərinə müdaxilə etməsin, Smirnovla sıx əlaqə saxlasın, bütün tədbirlərini onunla razılaşdırsın və yalnız onun razılığından sonra bu və ya digər məsələni yerli hakimiyyət qarşısında qaldırsın. Bu gün Əliyevə təklif etdim ki, təcili Tehrana getsin və bütün məsələləri, o cümlədən Kulajenkovun məruzəsini Smirnovla aydınlaşdırsın... O ki qaldı ingilis, türk və digər nümayəndələr qarşısında Əliyevin kimliyinin açıqlanmasına, nə Əliyev, nə də onun qrupu özünü açıqlamayıb. Mən ehtiyat edirəm ki, heç nəyə məhəl qoymadan şübhəli adamlarla sərxoşluq edən bizim

[121] B.Dekanozovun M.C.Bağırova teleqramı. 17.01.1942.//ARPİİ SSA, f.1, s.89, i.35, v.2

ayrı-ayrı işçilərimiz onları açıqlasınlar. Yaranmış vəziyyət imkan vermir ki, bizim orada ilk günlərdən başladığımız böyük işləri davam etdirək. Smirnov, ya qeyrisi görünür bizim başlayacağımız işləri ləğv etməyə nail olur".[122]

Sənədlərin araşdırılması əsasında qeyd etmək olar ki, Sovet Azərbaycanından olan siyasi işçilərin fəaliyyətinin məhdudlaşdırılması və tədricən onların Cənubdan çıxarılması ideyası Sovet rəhbərliyindən gəlirdi. Sovet səfiri Smirnovun Əziz Əliyev qrupu əleyhinə hesabatlar, teleqramlar göndərməsi və Xarici İşlər Xalq Komissarlığının gizli tapşırığı əsasında baş vermişdi. Bu daha çox müharibənin əvvəlində sovetlərin məğlubiyyəti ilə izah edilməlidir. İkincisi, Tehranda gizli şəkildə sovet-ingilis-İran üçtərəfli danışıqları aparılırdı və sovetlərin müttəfiqlərə daha böyük ehtiyacı olduğundan, Cənubi Azərbaycanda əvvəllər başlanmış "bolşevik eksperimentlərindən" tədricən imtina edilirdi. Üçüncü tərəfdən, İran ərazisindən sovetlərə müttəfiqlərin hərbi strateji yardımı daşınmalı idi. Bu məsələn İran öz ərazi bütövlüyünə SSRİ-dən təminat almaq məqamı kimi istifadə etdi. Dördüncüsü isə, ingilislər "bolşevik təhlükəsi" ilə şahı və İran hökumətini daim qorxu altında saxlayırdı. Türkiyə də öz növbəsində Cənubi Azərbaycanda sovetlərin fəaliyyətini diqqət mərkəzində saxlayırdı. Sovet hərbi kəşfiyyatının məlumatlarında göstərilirdi ki, 1942-ci ilin əvvəllərindən başlayaraq ingilislər Cənubi Azərbaycana maraq göstərməyə, türklər isə Şərqi və Qərbi Azərbaycanda təbliğat işlərini genişləndirməyə başlamışdılar. Onlar kürdlərlə azərbaycanlılar arasında yaranmış gərginlikdən İran hakimiyyətinə təsir vasitəsi kimi istifadə edirdilər. Sovet xüsusi xidmət orqanlarının məlumatına görə, Türkiyənin siyasi dairələrində belə bir fikir yaranmışdı ki, "yalnız Türkiyə Azərbaycan əhalisini kürdlərin soyğunçuluğundan xilas edə bilər". Bütün bu məlumatları ümumiləşdirərək Tehrandakı sovet səfiri öz məlumatında yazırdı: "Türklər müharibədən sonra Azərbaycanı (*İran Azərbaycanını – C.H.*) Türkiyəyə birləşdirmək üçün zəmin hazırlayırlar".[123]

---

[122] M.C.Bağırovun B.Dekanozova teleqramı. 17.01.1942.//ARPİİ SSA, f.1, s.89, i.35, v.3

[123] Tehrandakı Sovet səfirliyinin Iran haqqında qıza məruzəsi. 29.09.1944.//ARDA, f.28, s.4, i.2, v.52

İranda sovet siyasətinin dəyişməsi və SSRİ-nin əvvəlki planlardan geri çəkilməsi 1941-ci ilin sonlarında Tehranda və Moskvada Britaniya rəsmi dairələri ilə bağlanmış gizli müzakirələrlə bağlı idi. 1941-ci ilin dekabr ayının 16-da Britaniya Xarici İşlər naziri A.İdenlə Kremldə keçirilən görüşdə İ.Stalin müttəfiqlər tərəfindən SSRİ-yə göstərilən yardım, müharibədən sonrakı dövr üçün Sovet-Britaniya münasibətləri barədə, Xarici İşlər Xalq Komissarlığı tərəfindən hazırlanmış bir sıra sənədləri müzakirəyə təqdim etdi. Bu sənədlərdə İrana münasibətdə tərəflərin yaxın vaxtda Tehranla ittifaq müqaviləsi imzalamaları nəzərdə tutulurdu. Eyni zamanda sənəddə göstərilirdi ki, tərəflərin İrana münasibəti Tehranın bu müqaviləni və bu müqavilə üzrə öz üzərinə götürdüyü öhdəlikləri necə yerinə yetirməsindən asılı olacaqdır.[124] Əslində, bu müqavilə İran ərazisindən müttəfiqlərin Sovet İttifaqına daşınan hərbi-strateji yüklərinin təhlükəsizliyini təmin etməli idi. Bu məqsədlə Sovet İttifaqı nəinki Cənubi Azərbaycandan, hətta kommunist ideologiyasının əsasını təşkil edən kommunist partiyalarının şəbəkəsinin genişləndirilməsi fikrindən də yayınmağa hazır idi.

1941-ci ildə müttəfiq orduları İrana daxil olduqdan sonra əfv edilən sol qüvvələr və sabiq kommunistlər İran Kommunist Partiyasını bərpa etmək məqsədilə sentyabr ayında Tehranda toplaşmış və 1941-ci ilin payızında Moskvaya müraciət etmişdilər. Bu müraciət Kommunist İnternasionalının İcraiyyə Komitəsində müzakirə edildikdən sonra, 1941-ci ilin dekabr ayının 9-da G.Dimitrov İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova bu məzmunda belə şifrəli məlumat göndərmişdi: "İran kommunistlərinin bir qrupu, keçmiş siyasi məhbuslar İran Kommunist Partiyasının bərpa olunması işinə başlamışlar. Onlar müvəqqəti büro yaratmış, Kommunist İnternasionalı İcraiyyə Komitəsi ilə əlaqə yaratmaq üçün bir nəfər (Artaşes Ovanesyan) ayırmış və göstəriş almaq üçün bizə müraciət etmişlər... Eyni zamanda İranda diplomatik xadim olan Süleyman Mirzə

[124] О.А.Ржашевский. Сталин и Черчилль. Встречи. Беседы. Дискуссии: документы, комментарии. 1941-1945. М., 2004, с.53

tərəfindən demokratik proqramı olan xalq partiyası yaradılmışdır. S.Mirzə artıq 30 ildir ki, İranda demokratik dəyişikliklər uğrunda mübarizə aparır. Bu xalq partiyasının işində İran kommunistlərinin də bir hissəsi iştirak edir. İranın xüsusi şəraitini nəzərə alaraq (ingilislərlə birgə işğalı, hitlerçilərin və onların agentlərinin pozuculuq işləri və demaqogiyasını, İran hakimiyyət dairələrinin bir hissəsinin ehtiyatlılığını və düşmənçiliyini), biz hesab edirik ki, həmişə kiçik təriqətçi qrupdan ibarət olan İran Kommunist Partiyasının indiki anda bərpa edilməsi çətin ki, xeyir gətirsin... Bu hakim dairələrin sıralarında şübhələri və etinasızlığı artıraraq İranın sovetləşməsi təhlükəsi ilə İran burjuaziyasını qorxutmaq üçün alman casuslarına böyük imkanlar verər, İranın guya sovetləşdirilməsinə cəhdlərlə bağlı Sovet İttifaqına münasibətdə ingilislərin özlərini daha şübhəli edər. Ona görə hesab edirik ki, indiki şəraitdə Kommunist Partiyasını bərpa etməyə ehtiyac yoxdur və kommunistlər xalq partiyasında işləməlidirlər".[125] G.Dimitrovun təklifləri ilə tanış olduqdan sonra İ.Stalin dekabr ayının 10-da İran Xalq Partiyasının (Tudə) yaradılmasına razılıq verdi və 1941-ci ilin dekabr ayından başlayaraq Tudə partiyası İranda fəaliyyətə başladı. Ölkənin bir çox şəhərlərində onun yerli təşkilatları yaradıldı. Partiyanın 1942-ci ildə keçirilən I Ümumiran konfransı onun təşkilatlanmasında, proqram sənədlərinin hazırlanmasında mühüm rol oynadı. İXP-in güclü təşkilatlarından biri onun Azərbaycan şöbəsi idi. Qısa müddətdə Cənubi Azərbaycanın, demək olar ki, bütün iri şəhərlərində partiyanın şəbəkələri yaranmışdı.[126]

1941-ci ilin sentyabr ayının əvvəllərində Kremldə Cənubi Azərbaycanla bağlı tədbirlər müzakirə edilən zaman M.C.Bağırova müstəsna səlahiyyətlər verilmişdi. 1941-ci ilin sonu – 1942-ci ilin əvvəllərində Sovet rəhbərliyi hərbi, siyasi, diplomatik idarələrin, kəşfiyyat orqanlarının əli ilə Cənubdakı Sovet hərbi zonasında

---

[125] G.Dimitrovun Stalin, Molotov, Beriya və Malenkova şifrovkası. 09.12.1941. //RDSSTA, f.558, s.11, i.66, v.43

[126] Bax: M.Çeşmazər. Azərbaycan Demokrat partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan, 1945-1946-cı illər). Bakı, 1986, s.21

müxtəlif təxribatlar törədib M.C.Bağırovu fakt qarşısında qoymaq və Sovet Azərbaycan işçilərini oradan çıxarmaq planını gerçəkləşdirməyə başlamışdılar.

Cənubi Azərbaycandakı proseslərin getdikcə milli müstəviyə keçməsi Sovetləri o qədər də təmin etmirdi. Ona görə Andrey Smirnov ilk olaraq türk dilində çıxan və Cənubi Azərbaycanda əl-əl gəzən "Vətən yolunda" qəzetinin bağlanmasını SSRİ Xarici İşlər Komissarlığından xahiş edirdi. Bu elə bir vaxt idi ki, qəzet redaksiyasında Mirzə İbrahimov, Süleyman Rüstəm, İsrafil Nəzərov, Osman Sarıvəlli, Mehdixan Vəkilov, Qılman Musayev, Şəmsi Bədəlbəyli və digərlərindən ibarət peşəkar bir kollektiv formalaşmışdı. M.C.Bağırov "Vətən yolunda" qəzetinin bağlanmasına etiraz edirdi. Kuybışev şəhərində yerləşən SSRİ XİXK-nın aparatının baş katibi Arkadi Sobolyevə və Dekanozova göndərdiyi teleqramda bildirirdi: "Bizim əlimizdə yoxlanılmış məlumatlar var ki, son zamanlar yerli İran hakimiyyət orqanları Cənubi Azərbaycanda bizə loyal münasibət bəsləyən, bizə sevgisi olan adamları həbs edib incidirlər. İran hakimiyyətinin Cənubi Azərbaycanda bizə münasibəti o dərəcəyə çatıb ki, Təbrizdə alman faşistlərinin müharibə cəbhəsindən bəhs edən kinofilmlərini açıq nümayiş etdirirlər. Təbriz valisinin bilavasitə himayəsi ilə "Azərbaycanın səsi" adlı faşistpərvər qəzet buraxılır. Cənubi Azərbaycan şəhərlərində bizə loyal münasibəti olan şəxslər vali tərəfindən vəzifələrindən azad edilir. Belə bir vəziyyətdə nəinki əhali arasında "Vətən yolunda" qəzetinin yayılmasını dayandırmaq, əksinə olaraq Smirnova tapşırılmalıdır ki, yerli hakimiyyətin bizə qarşı törətdiyi təxribatlara daha ciddi reaksiya versin.[127] Daha sonra M.C.Bağırov Xarici İşlər Xalq Komissarlığının məsul vəzifəli şəxslərinə xəbərdarlıq edirdi ki, bütün bu məsələlər barəsində o, ingilis səfirini Bakıdan Moskvaya müşayiət edən SSRİ Daxili İşlər Xalq Komissarlığının əməkdaşı Viktorov vasitəsilə Stalinə geniş məktub göndərib.

Sovet Azərbaycanından göndərilmiş siyasi işçiləri Cənubi Azərbaycandan uzaqlaşdırmaq məqsədilə sovet xüsusi xidmət orqanları

---

[127] M.C.Bağırovun A.Sobolevə teleqramı. 18.12.1941.//ARPİİ SSA, f.1, s.89, i.1, v.33-34

1942-ci ilin ilk günlərində "Sərtibzadə qiyamından" məharətlə istifadə etdilər. Sərtibzadənin keçmişi Kominternlə bağlı olsa da, sonradan alman xüsusi xidmət orqanları ilə əməkdaşlığa keçmişdi. Sərtibzadə vaxtilə Sovet Azərbaycanından sürgün edilmiş Ağayev və Rəsulovla birlikdə sovetlərlə sərhəd bölgələrdə Qaradağda, Culfada, Mərənddə və digər yerlərdə Sovet hakimiyyəti qurmaq üçün partizan dəstələri yaradıb qırmızı bayraqlar qaldırmışdılar. Partizan dəstəsinin əlinə keçmiş bəzi yerlərdə hakimiyyət orqanları qovulmuş, yerli özünüidarə orqanları yaradılmışdı. Bu hadisələr başlayanda Bakıdan Təbrizə qayıdan Əziz Əliyev hələ Naxçıvanda olduğundan, Azərbaycan Daxili İşlər komissarı Mir Teymur Yaqubov sərhəd ordularının rabitə sistemi ilə Bağırovun tapşırıqlarını ona çatdırdı. Orada deyilirdi: "Yoldaş Bağırov təklif edir ki, təcili olaraq "partizan dəstələri" ləğv edilməlidir. Bu çıxışın ziyanlı olduğu, yerlərdə izah edilməlidir. Bundan əlavə, ayrı-ayrı şəxslərdən alınmış pul və silah təcili olaraq qaytarılmalı, həbs olunmuş hakimiyyət nümayəndələri azad edilməlidir. Müxtəlif bəhanələrlə Rəsulovu hələlik bizim ərazimizdə saxlayın. Ona yaxşı şərait yaradın ki, o, həbs olunduğunu hiss etməsin".[128] Bağırovun tapşırığı üzrə Əziz Əliyev təcili olaraq bir qrup siyasi işçi ilə Mərəndə getdi. Yerlərdə görüşlər keçirdi. Silahlı dəstələri dinc yolla dağıtmaq mümkün oldu. Dəstələrin başçıları danışıqlar aparmaq üçün Culfaya gətirildi və Sovet Azərbaycanı Daxili İşlər orqanları tərəfindən zərərsizləşdirildi.

İran hökuməti bu hadisədən Azərbaycana ordu yetirmək məqamı kimi istifadə etmək istəyirdi. 1942-ci ilin yanvarın 7-də M.C.Bağırov "Sərtibzadə qiyamı" barədə Stalinə və Xarici İşlər Xalq Komissarlığına məlumat göndərdi. O yazırdı: "İngilislərlə razılıq əsasında İran hökuməti quldur adı altında bizə tərəfdar olan, bizə lazım olan adamları məhv etmək istəyir. Bununla da nəzarət etdiyimiz ərazidə bizim nüfuzumuzu aşağı salmaq istəyirlər. Eyni zamanda İran hökumətinin bizim nəzarətimizdə olan əraziyə nizami ordu yeritmək təklifi ilə razılaşmaq olmaz. Əks təqdirdə bizim qarnizonların az

[128] Meğri-Bakı birbaşa xətti ilə danışığın qeydləri. 17.01.1942.//ARPİİ SSA, f.1, s.89, i.42, v.99-100

olduğu yerlərdə bu ordudan müxtəlif təxribatçılıq məqsədilə istifadə edilə bilər.[129]

1942-ci ilin yanvarında M.C.Bağırov yaranmış vəziyyətlə əlaqədar olaraq SSRİ Daxili İşlər komissarının müavini V.Merkulova və Xarici İşlər komissarının müavini B.Dekonazova müraciət etdi. Müraciətdə ingilis kəşfiyyatının kürdlər arasında və Cənubi Azərbaycanda apardıqları pozuculuq işləri barədə məlumat verilirdi. O yazırdı: "İngilislər ayrı-ayrı qruplarla nəinki Britaniya təsir dairəsində, eyni zamanda bizim orduların yerləşdiyi ərazidə heç nədən çəkinmədən dolaşırlar. Hər yerdə əhaliyə, xüsusilə kürdlərə silah paylayıb onları İran hökumətinə qarşı çıxmağa təşviq edirlər. Səciyyəvi haldır ki, onlar bilavasitə silahları kürdlərə əlbəəl paylamırlar, onları yük maşınları ilə daşıyıb yaşayış məntəqələrinin yaxınlığına tökürlər. Sonra isə kürdlərə deyirlər ki, filan yerdə silah var, niyə onu götürmürsünüz. Onlar bütün fəaliyyətində kürdlərə və azərbaycanlılara deyirlər, hətta silahlı üsyan yolu ilə də olsa, siz öz müstəqilliyinizə nail olun, lakin biz sizin işlərinizə müdaxilə etməyəcəyik, biz İran hökuməti tərəfindəyik". Bu məktubda M.C.Bağırovun əsas məqsədi Əziz Əliyev qrupuna qarşı yönəlmiş təhlükəni sovuşdurmaq idi. O, sözünə davam edərək yazırdı: "İngilislərin sizə məlum olan bütün bu əməlləri bizim işçilərin adına yazılır. Onlar bizim səfirə təqdimat verirlər ki, guya bu pozuculuq faktları bizim işçilərin əməlləridir. Yoldaş Smirnov isə heç nəyi araşdırmadan, bizim işçilərdən izahat tələb etmədən, guya bizim işçilərin özlərini pis aparması barədə tamamilə səhv məlumatları Moskvaya verir. Halbuki bizim işçilər özlərini çox təmkinli aparırlar. Indiyə qədər onlardan heç kəs ingilis zonasına ayaq basmayıb. Bizim İranda olan hərbi işçilərin özlərini pis aparması barədə məndə olan məlumatları Moskvaya çatdırmışam. Əsas məsələ ondadır ki, ingilislər, eyni dərəcədə türklər, iranlıları mən hələ demirəm, bizim Cənubi Azərbaycan əhalisi, eyni zamanda kürdlər arasında gündən-günə artan nüfuzumuzdan dəhşətli qorxurlar. Ona görə xarici

[129] M.C.Bağırovun İ.Stalinə teleqramı. 07.01.1942.//ARPİİ SSA, f.1, s.89, i.35, v.36-37

kəşfiyyat qüvvələri bizim Cənubdakı işçilərimizə oradakı fəaliyyətində hansı yollasa mane olmaqdan çəkinmirlər. Mənə elə gəlir ki, bütün bunları bizim bir sıra yoldaşlar, o cümlədən Smirnov düzgün anlamır". M.C.Bağırov məktubun sonunda maraqlı bir məsələyə toxunaraq yazırdı: "Həmin ingilislər, türklər və iranlılar daha bir şəraitdən istifadə edə bilərlər ki, bizim tədbirlərimiz heç bir nəticə verməsin, bu da Cənubi Azərbaycan əhalisi, xüsusilə kürdlər, aysorlar və ermənilər arasında işləyən bizim qrupların paralelliyi və bir-birini təkrar etməsidir. Mən Ermənistan Daxili İşlər Xalq Komissarlığının kəşfiyyat idarəsinin işçilərini nəzərdə tuturam. SSRİ Daxili İşlər Xalq Komissarlığının göstərişi olmasına baxmayaraq, onlar görünür hələ ki, orada işlərini davam etdirirlər.[130]

Sovet Ermənistanı xüsusi xidmət orqanlarının Cənubi Azərbaycandakı planlarına qarşı mübarizə aparmaqla yanaşı, Azərbaycan təhlükəsizlik orqanlarının əməkdaşları İranda və xüsusilə, Təbrizdə fəaliyyət göstərən daşnak partiyasının addımlarını da diqqətlə izləyirdilər.[131] Moskvadan M.C.Bağırova söz verdilər ki, Tehrandakı səfir Andrey Smirnovla danışacaqlar və Əziz Əliyev qrupu ilə bağlı yaranmış gərginliyi tənzimləyəcəklər. O, Təbrizə göndərdiyi məktubda xahiş edirdi ki, Əziz Əliyev yaxın vaxtlarda bir neçə günlüyə Tehrana getsin və Smirnovla görüşüb məsələləri müzakirə etsin. M.C.Bağırov Əziz Əliyevə və Cənubdakı rəhbər işçilərə məsləhət görürdü ki, "işimizin xatirinə nə edirsinizsə, həmin işlərdən Smirnovun məlumatı olsun. Smirnovla əlaqə saxlamaq elə də çətin deyildir. Şifrəli yazışmalardan da istifadə etmək olar, lakin yaxşı olar ki, vaxtaşırı Tehrana gedilsin. Yoldaş Smirnov da bu məsələ ilə bağlı müvafiq göstəriş alıb". M.C.Bağırov Əziz Əliyevə məktubunda Sovet Azərbaycanından göndərilən siyasi işçilərin ruhdan düşməməsini məsləhət görürdü. O yazırdı: "Bizim ilk gündən başladığımız kütləvi izahat işlərindən, faydalı mədəni tədbirlərdən,

---

[130] M.C.Bağırovun V.Merkulov və B.Dekanozova məktubu. Yanvar, 1942.//ARPİİ SSA, f.1, s.89, i.38, v.36-37

[131] Daha geniş məlumat üçün bax: AR MTN Arxivi, i. 862, cild 2, v.829-837

ümumilikdə bütün bu ali məqsədlərdən imtina edilməsin. Elə həmin ruhda da işləri davam etdirin..."[132]

Qaradağda, Mərənddə, Culfadakı gərginliyi tənzimlədikdən sonra yanvarın 18-də Əziz Əliyev Təbrizə döndü və yeni təyin edilmiş baş konsul Anatoli Kulajenkovla görüşüb onun Smirnova göndərdiyi məruzə haqqında söhbət açdı. Baş konsul qəti şəkildə bildirdi ki, o, heç bir məruzə hazırlamayıb, yalnız öz gündəliyindəki qeydlərə əsasən Smirnova bəzi məlumatlar verib. Müzakirə zamanı Əziz Əliyev baş konsulun qeydlərinin əsaslı olmadığını bildirdi. Yanvar ayının 12-də Smirnovun SSRİ Xarici İşlər Komissarlığına göndərdiyi məruzəni aydınlaşdırmaq məqsədilə Əziz Əliyev yanvarın 21-də Tehrana getdi. Cənubi Azərbaycanda görülən işlər barədə Smirnova məlumat verdikdən sonra, aparılan işlərdə hansı səhvlərə yol verildiyini səfirdən soruşdu. A.Smirnov əvvəl heç nə demədi, lakin sonra Kulajenkovun qaldırdığı məsələlərə toxunub Sovet Azərbaycanı siyasi işçilərini İran hökumətinin işlərinə müdaxilədə günahlandırdı. Söhbət əsnasında o, əhali arasında izahat işi aparılmasının əleyhinə olduğunu bildirərək dedi: "Cənubi Azərbaycanda əhali kifayət qədər inqilabi ruhdadır, orada hər hansı izahat işləri aparmağa ehtiyac yoxdur". Müzakirələr zamanı Smirnov Əziz Əliyevə Bakıya qayıtmağı və oradan Təbrizdəki işlərə rəhbərlik etməyi təklif etdi.[133] Ə.Əliyev Tehranda olarkən Sovet səfirliyinin birinci katibi Avapovla, Kuznetsovla, məsləhətçi İvanovla, ticarət müvəkkilinin müavini Polyanski ilə görüşlər keçirmişdi. Tehrandakı səfir Smirnovla, səfirliyin əməkdaşları ilə, Təbrizdəki baş konsul Kulajenkovla keçirdiyi görüşlər, apardığı danışıqlar barədə o, yanvar ayının 28-də (1942) M.C.Bağırova geniş hesabat göndərmişdi. Hesabatda göstərilirdi: "Əhali arasında təbliğat və izahat işinin dayandırılması barədə Smirnovun və Kulajenkovun xəttini səhv və ziyanlı hesab edirəm. Fikrimizcə, Smirnovun müəmmalı və qəribə hərəkətləri barədə mərkəzə xəbər verməliyik. Smirnov bütün vasitələrlə çalışır ki, bizim apardığımız böyük işi gözdən salsın. Bizə qarşı

[132] M.C.Bağırovun Ə.Əliyevə, R.Markaryana, M.Əmiraslanova, Aqaranovova, A.Atakişiyevə məktubu. Yanvar, 1942.//ARPİİ SSA, f.1, s.89, i.38, v.3

[133] Ə.Əliyevin M.C.Bağırova məktubu. 28.01.1942.//ARPİİ SSA, f.1, s.89, i.40, v.28-35

etimadsızlıq yaradıb fəaliyyətimizi dayandırmağa cəhd göstərir. Smirnov hökumət qarşısında məsələ qaldırır ki, Foruği və Soheyli hökuməti müdafiə edilsin. Guya bu hökumət Sovetlərlə əməkdaşlığa hazırdır". Ə.Əliyev təklif edirdi ki, "Smirnovun məlumatları səhvdir. Foruği hökuməti Sovetlərlə deyil, ingilislərlə əməkdaşlığa hazırdır. Foruği hökuməti İranda öz sosial dayaqlarını itirmişdir".[134] Bunun əksinə olaraq, səfir Smirnov Foruği hökumətinin müdafiə edilməsini SSRİ Xarici İşlər Komissarlığına məsləhət görürdü. Yeri gəlmişkən, bu məsələdə Əziz Əliyevin ehtimalları düz çıxdı. Yeddi gün ərzində 4 dəfə hökumət böhranı ilə qarşılaşmış Foruği hökuməti 9 mart 1942-ci ildə istefa verməli oldu.

Əziz Əliyev 28 Yanvar tarixli hesabatında A.Smirnovun qeyri-qənaətbəxş işinin səbəblərini açıqlayaraq yazırdı: "Səfir kimi fəaliyyətə başladığı 7 ay müddətində Smirnovun bir nəfər də olsun etibarlı informasiya mənbəyi yoxdur. Onun əsas informasiya mənbəyi Britaniya səfiri Bulard, Foruği, Soheyli, eyni zamanda ticarət müvəkkilinin müavini, öz saxtakarlığı ilə məşhur olan, bu saxtakarlığa görə vaxtilə universitetdən qovulmuş Beloşapkindir və onun məlumatları rəsmi görüşlərdən, kabinet söhbətlərindən və mətbuat məlumatlarından ibarətdir". Ə.Əliyev yazırdı: "Hətta Xarici İşlər üzrə İran məclisinin parlament komissiyasının sədri Eqbal (Mənuçöhr – C.H.)14 yanvar 1942-ci ildə Smirnovla görüş zamanı onun ictimai rəydən və İranın daxili həyatından ayrı düşdüyünü, demokratik dairələrə heç bir yardım göstərmədiyini vurğulamışdı. Eqbalın fikrincə, Smirnovun zəifliyi nəticəsində faşistlərlə əməkdaşlıq etmiş keçmiş baş nazir Əli Mansur Xorasana vali təyin edilmişdi. İş o yerə gəlib çatmışdı ki, Tehranda sovet işçilərinin yaşadığı evlərin divarlarında faşist xaçı və şüarlar görünməyə başlamışdır".[135] Əziz Əliyevin hesabatından başqa, M.C.Bağırov İranda və Cənubi Azərbaycanda cərəyan edən hadisələr barədə xüsusi xidmət orqanlarının gizli məlumatlarını da almışdı. Bu məlumatlar

[134] Yenə orada, v.36-37
[135] Yenə orada, v.37-40

Cənubi Azərbaycanda beş aya qədər fəaliyyət göstərmiş Sovet Azərbaycanının siyasi işçilərinin, Bakının ilk qeyri-rəsmi diplomatlarının yaxın günlərdə İrandan çıxarılacağından xəbər verirdi.

1942-ci ilin yanvar arının 26-da İran Məclisində SSRİ, Böyük Britaniya və İran arasında imzalanacaq ittifaq müqaviləsinin müzakirəsi başa çatdı. 80 deputat lehinə, 8 əleyhinə, 5 deputat tərəfsiz qalmaqla Məclis ittifaq müqaviləsini təsdiq etdi. İran hökumətinə onu imzalamaq səlahiyyəti verilirdi. 29 yanvar 1942-ci ildə axşam saat 18:15-də Tehranda Sovetlər Birliyi, Böyük Britaniya və İran arasında ittifaq müqaviləsi imzalandı. Bu müqaviləyə görə, SSRİ və Böyük Britaniya "İranın siyasi istiqlaliyyətinə, müstəqilliyinə, ərazi bütövlüyünə birlikdə və ayrı-ayrılıqda hörmətlə yanaşmağa"təminat verir, onun Almaniya və ya digər dövlət tərəfindən hər hansı təcavüzə məruz qalacağı təqdirdə müdafiə olunmasını öz üzərlərinə götürürdülər. İran hökuməti isə özünün nəqliyyat vasitələrini, dəmir və avtomobil yollarını, aerodrom və limanlarını strateji əhəmiyyətli yükləri daşımaq üçün müttəfiqlərin ixtiyarına verirdi. Müqavilədə, eyni zamanda göstərilirdi ki, SSRİ və Böyük Britaniya "İran ərazisində lazımi miqdarda piyada, dəniz və hava qüvvələri saxlaya bilər və müharibə qurtarandan altı ay sonra bu qüvvələri İran ərazisindən çıxartmalıdırlar".[136] Müqaviləni Sovetlər tərəfindən Tehrandakı sovet səfiri A.Smirnov, Britaniya tərəfindən İrandakı ingilis səfiri R.Bulard, İran tərəfindən isə Xarici İşlər naziri M.Soheyli imzaladılar. Mərasimdə baş nazir Ə.Foruği da iştirak etdi. Bu münasibətlə marşal Stalindən baş nazir Foruğiyə təbrik teleqramı gəldi. İttifaq müqaviləsinin imzalanmasını Stalin Sovet-İran münasibətlərinin dönüş məqamı hesab edir və bu müqavilənin SSRİ və İran hökumətləri arasında əlaqələrin daha sıx inkişafına xidmət edəcəyini bildirirdi.[137] Bir il sonra bu məzmunda yeni bir təbrik teleqramını İ.Stalin SSRİ, Böyük Britaniya və İran arasında imzalanmış müqavilənin birilliyi münasibəti ilə İranın 1942-ci ilin avqustunda yeni baş naziri təyin edilmiş Əhməd Qəvama göndərmişdi.[138] 1942-ci ilin fevral ayının 10-da üçtərəfli

[136] Советско-иранские отношения в договорах, конвенциях и соглашениях, с. 87
[137] İ.Stalinin M.A.Foruğiyə təbrik teleqramı. 02.02.1942 //RDSSTA, f.558, s.11, i.847, v.5
[138] İ.Stalinin Əhməd Qəvama təbrik teleqramı. 29.01.1943.//RDSSTA, f.558, s.11, i.847, v.11

sazişlərlə bağlı İran şahı Məhəmməd Reza Pəhləvi ilə ABŞ prezidenti Franklin Ruzvelt arasında da teleqramlar mübadiləsi oldu. Vaşinqtona göndərdiyi cavab teleqramında şah xahiş edirdi ki, Ruzvelt İranın ərazi bütövlüyünün və müstəqilliyinin təminatçısı olsun.[139]

1942-ci ilin yazında İranda və Cənubi Azərbaycanda vəziyyət dəyişməyə başladı. Moskvanın təzyiqi ilə 1942-ci ilin martında Əziz Əliyev və Sovet Azərbaycanından göndərilmiş siyasi işçilərin çoxu geri çağırıldı. Əziz Əliyev missiyası geri çağırılan kimi, 1942-ci ilin aprelində Siyasi Büro SSRİ Daxili İşlər Xalq Komissarlığına icazə verdi ki, İrana ezam olunan hərbçilərin və müxtəlif sovet işçilərinin Sovet-İran sərhəddindən buraxılışının yeni qaydasını tətbiq etsinlər. Yeni təlimata uyğun olaraq, Azərbaycan SSR-in Bakı dəniz limanında, Culfa və Astara sərhəd məntəqələrində İrana keçid qaydaları sərtləşdirildi.[140] 1942-ci ilin ortalarında Cənubda Bakı missiyasından cəmi 84 nəfər qalmışdı. Bunun 62 nəfəri siyasi və mətbuat işçiləri, 17 nəfəri həkim idi. SSRİ Daxili İşlər Xalq Komissarı Lavrenti Beriya 29 mart 1942-ci ildə M.C.Bağırova vurduğu şifrəli teleqramla bildirirdi: "İranda qalan partiya və sovet işçilərinin geri çağırılması, Təbrizdə və Rəştdə qəzetlərin nəşrinin dayandırılması haqqında Sizin teleqramınızla bağlı məlumat verirəm: məsələ mənim tərəfimdən Mərkəzi Komitə ilə razılaşdırıldı. İşçilərin geri çağırılmasına və qəzetlərin nəşrinin dayandırılmasına razılıq alındı.[141] Bu direktivdən sonra Təbrizdə Sovet Azərbaycanı işçilərindən M.Əmiraslanov başda olmaqla cəmi bir neçə nəfər qaldı. Elə həmin vaxt İrandakı sovet diplomatik idarələri yeni göndərilən kadrlar hesabına möhkəmləndirildi. Polkovnik B.Razin M.Maslovun yerinə Tehrandakı sovet səfirliyinə hərbi attaşe göndərildi.[142] N. Nikitin səfirliyin gizli şifr şöbəsinin müdiri təyin

---

[139] Tehrandakı Sovet səfirliyinin İran haqqında qısa məruzəsi. 29.09.1944.//ARDA, f.28, s.4, i.2, v.47

[140] ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 25.04.1942.// RDSSTA, f.17, s.162, i.37, v.47-52

[141] L.Beriyanın M.C.Bağırova şifrəli teleqramı. 29.03.1942.//ARPİİ SSA, f.1, s.89, i.35, v.14-15

[142] ÜİK(b)P MK-ın Siyasi Bürosunun qərarı. 11.04.1942.// RDSSTA, f.17, s.3, i.1043, v.111; Siyasi Büronun qərarında göstərilməsə də B.Razin Tehrana Sovet kəşfiyyat xidmətinin rəhbəri kimi göndərilmişdi və ölkə ərazisində fəaliyyət göstərən bütün sovet hərbi kəşfiyyatçıları ona tabe idi. Bax: А.Б. Оришев. Иранский узел. Схватка разведок. 1936-1945 гг. Москва, 2009, с.334

edildi.[143] 1942-ci ilin may ayında SSRİ Xarici İşlər Xalq Komissarı V.Molotovun Vaşinqtona səfəri zamanı F.Ruzveltlə görüşdə artıq söhbət İranda kürd tayfalarının azğınlıq etməsindən və bu azğınlıqların qarşısının alınmasında ABŞ-ın Tehrandakı missiyasının Sovet hərbi idarəsinə yardım edə biləcəyindən gedirdi.[144]

1942-ci ilin mart ayının 9-da şahın təqdimatı ilə keçmiş Xarici İşlər naziri Mirzə Əli xan Soheyli yeni hökumət kabinəsi qurdu. 1942-ci ilin yazından başlayaraq, İranın Qərbə meyili xeyli gücləndi. May ayında İran-ingilis maliyyə sazişi imzalandı. İran hökuməti ingilislərin riala olan ehtiyaclarını ödəməli, ingilislər isə bu realı müxtəlif mallarla, funt sterlinqlə və qızılla əvəz etməli idilər.[145] 1942-ci ildə ingilis və amerikanlarla imzalanmış sazişə görə, İran həmin ölkələr tərəfindən ərzaqla təmin olunmalı idi. 3 may 1942-ci ildə ABŞ lend-liz siyasətini İrana aid etdi. M.Ə.Soheylinin Qərblə yaxınlaşma xətti İranın Yaponiya ilə diplomatik əlaqələrini kəsməsi ilə nəticələndi. O, Berlin-Roma-Tokio xətti lehinə təbliğat aparan şəxslərə qarşı qanunu məclisdən keçirə bildi. Soheyli elə etmək istəyirdi ki, həm müttəfiqlərin dediyi ilə davransın, həm də ictimai rəydə öz müstəqilliyini saxlasın, lakin əhalinin maddi vəziyyəti pisləşdiyindən, ingilislər tərəfindən vəd edilən kömək gəlmədiyindən, məclisi buraxmaq haqqında şayiələr yayıldığından, 1942-ci ilin yayında Soheyli hökuməti istefaya getməli oldu. 9 avqust 1942-ci ildə İranın köhnə siyasətçisi Mirzə Əhməd Qəvam əs-Səltənə yeni hökumət kabinəsini qurdu və elə həmin axşam hökumət bəyanatı ilə çıxış etdi. Qəvam öz proqramında ABŞ-la əlaqələri gücləndirəcəyini xüsusi şəkildə vurğulayırdı, lakin İran Xarici İşlər nazirliyinin məsul əməkdaşı Abdulla Entezam İsveçrəyə gedərkən İstanbul yaxınlığındakı Şahzadə adalarında Tehrandakı keçmiş alman səfiri Ettellə gizli görüşdə Britaniyanın İrana kifayət qədər taxıl gətirdiyini və əhalinin çörək probleminin olmadığını dedi. Bunun əksinə olaraq Entezam rusların Azərbaycandan və İranın

[143] ÜİK(b)P MK-ın Siyasi Bürosunun qərarı. 21.12.1942.// RDSSTA, f.17, s.116, i.114, v.22
[144] О.А.Ржашевский. Сталин и Черчилль, с.209
[145] Tehrandakı Sovet səfirliyinin İran haqqında qısa məruzəsi. 29.09.1944.//ARDA, f.28, s.4, i.2, v.48-49

şimal vilayətlərindən ərzaq məhsullarını, xüsusilə çoxlu sayda mal-qaranı Sovet İttifaqına aparması haqqında faktların olduğunu bildirdi.[146]

1942-ci ilin avqust ayının 9-da hökumətə gələn kimi Qəvamın ilk addımı köhnə tanışı Artur Milspo başda olmaqla, Amerika maliyyə missiyasını İrana dəvət etmək oldu. Bunun ardınca müxtəlif adlarla dəvət edilən Amerika müşavirləri İran hökumətinə nəzarəti gücləndirmək üçün əlverişli vasitəyə çevrildilər. 1942-ci ilin oktyabrında polkovnik Norman Şvarskomf və general Klarens Ridl başda olmaqla iki Amerika hərbi missiyası İrana gəldi. Şeridan İran hökumətində müşavir postunu tutdu. Beş aylıq fəaliyyətdən sonra 1942-ci ilin noyabrında Əhməd Qəvam hökuməti Milspo missiyasına rəsmi status verdi. Tehrandakı Sovet səfirliyi öz hesabatında yazırdı: "1942-ci ilin ikinci yarısında Tehrandakı Amerika missiyaları İran dövlət xadimləri və mətbuatla əlaqələri gücləndirməyə güclü səy göstərirlər. Məsələn, qeyd olunur ki, Azərbaycanda amerikanlar yerli hökumət aparatını və ziyalıları öz təsirlərinə tabe etməyə cəhd göstərirlər".[147]

Eyni zamanda SSRİ Xarici İşlər Xalq Komissarlığına Tehrandan məlumat verilirdi ki, 1942-ci ildə türklərin Cənubi Azərbaycandakı fəaliyyətləri diqqəti cəlb edir. Ankaranın diplomatik və kəşfiyyat orqanlarının narahatlığı onunla bağlı idi ki, Türkiyə ilə sərhəddə yerləşən İran ərazisində, xüsusilə Urmiyada sovet ordularının sayının artması barədə məlumatlar var idi. Bu barədə 1942-ci ilin mart ayında Tehrandakı Amerika səfiri buradakı Türkiyə səfirinə məlumat vermişdi. Amerika səfirinin məlumatına görə Türkiyə sərhədlərində yerləşən sovet qarnizonlarına hər həftə 4-5 min əlavə qüvvələr gətirilirdi. Mart ayının 22-də səfir bu məlumatı dərhal Ankaraya göndərdi, Türkiyə XİN-i tərəfindən Təbriz və Rezayədəki türk konsulluqlarına təlimat verildi ki, bu informasiya təcili olaraq yoxlanılsın.[148] Ona görə də 1942-ci ilin yaz və yay aylarında Cənub-

---

[146] Tehrandakı keçmiş Almaniya səfiri Ettelin İran XİN-nin şöbə müdiri Abdulla Entezamla görüşündən qeydlər. 15.07.1942.// RFDA, f.P-9401c, s.2, i.97, v.206.

[147] Tehrandakı Sovet səfirliyinin İran haqqında qısa məruzəsi. 29.09.1944.//ARDA, f.28, s.4, i.2, v.50

[148] Tehrandakı Türkiyə səfirinin Xarici İşlər nazirliyinə məlumatı. 22.03.1942.// RFDA, f.P-9401c, s.2, i.100, v.118-119

da Türkiyə tərəfindən təbliğat işlərinin gücləndirilməsi, Şərqi və Qərbi Azərbaycanda sovetlərə qarşı kəşfiyyat işlərinin genişləndirilməsi Moskvanın narahatlığını artırmışdı. 1942-ci ilin iyulunda Türkiyənin yeni Baş naziri vəzifəsinə gəlmiş Şükrü Saracoğlu rusların əsarətində olan türk xalqlarına maraq göstərməsi bu narahatçılığı daha da artırırdı. 1942-ci ilin avqustunda sovet kəşfiyyatı Ankaradakı Almaniya səfiri fon Papenin Saracoğlu ilə söhbətinin Berlinə göndərilən hesabatını əldə etmişdi. Orada Rusiyada yaşayan türklərlə yanaşı, İran Azərbaycanı məsələsində də toxunulur və burada yaşayan türklərin Türkiyəyə rəğbətlə yanaşdığı bildirilirdi.[149]

Yeni baş nazir Qəvam əs-Səltənənin kommunizmin düşməni olmasını açıq elan etməsi, müttəfiqlərlə əməkdaşlığa hazır olması ilə bağlı bəyanatı Kremlin diqqətindən yayınmamışdı. Bu vəziyyəti dəyişmək üçün sovet rəhbərliyi bir sıra əməli addımlar atdı. 1942-ci ilin oktyabr ayının 18-də SSRİ Dövlət Müdafiə Komitəsi "İranın hərbi sənayesindən istifadə edilməsi haqqında" gizli qərar qəbul etdi. Orada İranın hərbi sənaye müəssisələrindən SSRİ-nin müdafiə ehtiyaclarının ödənilməsi üçün istifadə edilməsi nəzərdə tutulurdu.[150]

1942-ci ilin payızında Sovet rəhbərləri başa düşdülər ki, Cənubdan Sovet Azərbaycanı siyasi işçilərini geri çağırmaqda səhvə yol veriblər. Bu məsələləri müzakirə etmək üçün oktyabr ayının sonunda İrandakı sovet səfiri A.Smirnov Təbrizdə bir neçə nəfərlə qalmış Meybulla Əmiraslanovu Tehrana dəvət etdi. İrandakı sovet ordularının komandanının iştirak etdiyi danışıqlarda Smirnov SSRİ Xarici İşlər Xalq Komissarlığının göstərişi əsasında hazırlanmış direktivi müzakirəyə təqdim etdi. Direktivdə İran hakimiyyəti ilə münasibətlər, əhali ilə əlaqələr, Mərkəzi qərargahı Təbrizdə olmaqla şimal-qərb İran hərbi diviziyasının formalaşdırılması məsələləri əks olunmuşdu. Direktivdə yerli əhali arasında siyasi işin gücləndirilməsi xüsusi şəkildə qeyd olunurdu. Orada deyilirdi: "Bizim konsulluq işçiləri və hərbçi yoldaşlar

---

[149] Fon Papen. Siyasi hesabat. Türkiyənin yeni baş nazirinin türk azlıqları və Rusiyanın gələcəyi məsələləri haqqında fikirləri. 27.08.1942.// RFDA, f.P-9401c, s.2, i.100, v.64

[150] "İranın hərbi sənayesindən istifadə edilməsi haqqında" Dövlət Müdafiə Komitəsinin 2320s saylı qərarı. 18.09.1942.//RDSSTA, f.644, s.2, i.94, v.14

unudurlar ki, İranın şimalının əhalisi əsasən azərbaycanlılardır. Bu əhalini nəzərə almamaq olmaz, onların rəğbətini qazanmaq lazımdır, lakin əslində işlər tərsinə getmişdir. Belə ki, bizim konsulluq işçilərimiz və hərbçilərimiz öz məlumatlarında əsasən kürdlər haqqında, onların bizə olan rəğbəti və meyli haqqında yazırlar. Halbuki İran hökumətinin zəifliyindən istifadə edərək kürdlər talançılıqla, Azərbaycan kəndlərində soyğunçuluqla məşğuldurlar. İran hökumətində də belə bir səhv fikir formalaşır ki, ...guya kürdləri sovetlər silahla təchiz edir. Bu qədər sadəlövh olmaq olmaz ki, bütün kürd tayfa başçılarının Sovet hakimiyyətinə və Qızıl Orduya rəğbətlə yanaşdığını əminliklə bəyan edəsən... Kürd başçıları arasında xarici kəşfiyyatın agentləri çoxdur. Tayfalar parçalanmışlar və öz aralarında düşmənçilik edirlər... beləliklə, başlıca və əsaslı olaraq bütün diqqət Azərbaycan əhalisinin rəğbətinin qazanılmasına yönəldilməlidir".[151] Direktivlə tanış olduqdan sonra Smirnov bildirdi ki, hərbi hissələr əhali içərisində heç bir iş aparmır və aparmaq da istəmirlər. General Novikovun yerinə komandan təyin olunmuş general Antonov səfirin bu sözlərinə etiraz etdi və bildirdi ki, hər kəsə bu məsul işi etibar etmək olmaz. O qeyd etdi ki, əhali arasında iş ordunun funksiyasına aid deyildir. Belə olduqda Tehranda keçirilən görüşdə A.Smirnov əhali arasında aparılan siyasi işin əhəmiyyətindən danışdı və misal kimi Əziz Əliyev başda olmaqla Sovet Azərbaycanı siyasi işçilərinin vaxtilə apardığı nəhəng işi xatırlatdı. Səfir təəssüf hissi ilə qeyd etdi ki, 1941-ci ilin payızında başlanmış bu faydalı iş yarımçıq dayandırıldı və Əziz Əliyev qrupu nahaq yerə geri çağırıldı.

Bununla da, Sovet Azərbaycanının siyasi işçilərinin 1941-ci ilin avqustundan Sovet ordularının, SSRİ-nin diplomat idarələrinin tərkibində Cənubi Azərbaycanda apardığı hərbi, siyasi, milli, mədəni və diplomatik iş izsiz ötüşmədi. Bu iş az sonra Cənubi Azərbaycanda əhalinin geniş dairələrinin ictimai-siyasi proseslərə qoşulması ilə nəticələndi ki, həmin proseslərin dərinləşməsində, onun milli müstəviyə yönəlməsində Ə.Əliyev qrupunun müstəsna xidmətləri oldu.

---

[151] SSRİ-nin İrandakı səfiri ilə görüş barədə M.Əmiraslanovun M.C.Bağırova məktubu. 15.12.1942.// ARPİİ SSA, f.1, s.89, i.38, v.53

III FƏSİL

AZƏRBAYCAN SSR XARİCİ İŞLƏR KOMİSSARLIĞININ YARADILMASI VƏ YAXIN ŞƏRQ ÖLKƏLƏRİNDƏ SOVET SİYASƏTİNİN FƏALLAŞMASI

§1. Azərbaycan SSR Xarici İşlər komissarlığının fəaliyyətə başlaması

1943-cü ilin oktyabr ayında Xarici İşlər nazirlərinin Moskvada keçirilən müşavirəsində beynəlxalq təhlükəsizlik orqanının yaradılması haqqında qərar qəbul edilmiş və bu təşkilatın nizamnamə prinsiplərini müəyyənləşdirmək üçün 1944-cü ilin yayında Dumbarton-Oksda konfransın keçirilməsi haqqında razılığa gəlinmişdi. Qarşıdakı Dumbarton-Oks konfransında müzakirələr Birləşmiş Millətlər Təşkilatının yaradılması haqqında gedəcəyindən, Sovet İttifaqı həmin birlikdə daha çox səslə təmsil olunmağın müxtəlif variantlarını axtarırdı. Belə variantlardan biri ayrı-ayrı müttəfiq sovet respublikalarının müstəqil dövlət statusunda BMT-də təmsil olunması məsələsi idi, lakin beynəlxalq münasibətlərin və beynəlxalq hüququn universal prinsiplərinə görə Xarici İşlər nazirliyi olmayan ölkələr müstəqil dövlətlər sayıla bilməzdilər. Bu məqsədlə, SSRİ XİXK-nın və ÜİK(b)P MK-nın Siyasi Bürosunun təqdimatı ilə 1944-cü ilin fevral ayında SSRİ Ali Soveti xarici əlaqələr sahəsində müttəfiq respublikalara səlahiyyət verilməsi və sovet respublikalarında Xarici İşlər Xalq komissarlıqlarının bərpa edilməsi haqqında qanun qəbul etdi. Fevral ayının 17-də Moskvadan müttəfiq respublikalara teleqram göndərildi ki, respublika Xarici İşlər komissarı vəzifəsinə namizədlər irəli sürsünlər və tanışlıq üçün onları

təcili olaraq ÜİK(b)P MK-ya ezam etsinlər.[152] Müttəfiq Respublikaların yeni yaranacaq Xarici İşlər Xalq komissarlıqlarını diplomat kadrları ilə təmin etmək məqsədi ilə, hələ, bu komissarlıqlar yaranmazdan əvvəl ÜK(b)P MK Siyasi Bürosu 1944-cü ilin fevral ayının 29-da "SSRİ XİXK yanında diplomatik işçilər üçün kursların təşkil edilməsi barədə" qərar qəbul edib. Siyasi Büronun həmin gün qəbul edilən digər bir qərarı isə SSRİ XİXK-nın Ali Diplomatiya məktəbinə dinləyicilər göndərilməsi barədə idi. Hər iki qərarla bağlı fevral ayının 29-da ÜK(b)P MK-nın katibi G. Malenkov Azərbaycan rəhbərliyinə təcili teleqram göndərdi. Teleqramda diplomatik kurslarda və Ali diplomatiya məktəbində Azərbaycan üçün ayrı-ayrılıqda 5 yer ayrıldığı və təcili olaraq kommunist və komsomolçular arasından kurslar üçün diplomatik kadrların, diplomatiya məktəbi üçün dinləyicilərin seçilib göndərilməsi tələb olunurdu. 1944-cü ilin mart ayının 2-3-də keçirilmiş AK(b)P MK Bürosu T.Quliyev, P.Çeplyakov, S.Qafarzadə, T.Yaqubov və S.Yemelyanova tapşırdı ki, SSRİ XİXK yanında təşkil olunmuş 6 aylıq kurslara göndərmək üçün respublika və vilayət səviyyəsində partiya və dövlət orqanlarında 3 il rəhbər vəzifələrdə çalışmış 5 nəfər partiya üzvünü seçib mart ayının 10-a kimi Büronun təsdiqinə təqdim etsinlər.[153] Eyni zamanda onlara tapşırılırdı ki, Ali Diplomatiya məktəbi üçün kommunist və komsomolçular arasında 5 nəfər dinləyici müəyyənləşdirib martın 10-a kimi AK(b)P MK Bürosuna təqdim etsinlər.[154]

G.Malenkovun teleqramından az sonra ÜK(b)P MK-nın kadrlar idarəsini rəisinin müavini Nikolay Şatalin Azərbaycan K(b)P MK katibi Soltan Qafarzadəyə teleqram göndərərək, Ali Diplomatiya məktəbinə dinləyici kimi göndərilən şəxslərə qoyulan tələbləri izah etmişdi. O yazırdı ki, dinləyicilər 22-33 yaş hüdudunda ali humanitar təhsilli kişi cinsindən olan şəxslər arasından seçilməli idi. Şatalin məlumat verirdi ki, Ali Diplomatiya məktəbinin Qərb bölməsində

---

[152] Şatalinin respublikalara şifrli teleqramı. 17.02.1944.// RDSSTA, f.17, s.167, i.67, v.68

[153] SSRİ XXİK yanında diplomatik işçilər kursuna göndəriş barədə AK(b)P MK Bürosunun qərarı. 02-03.03.1944.//ARPİİ SSA, f.1, s.29, i.12, v.103

[154] SSRİ XXİK-nın Ali diplomatik məktəbinə dinləyicələr göndərilməsi barədə AK(b)P MK Bürosunun qərarı. 02-03.03.1944.//ARPİİ SSA, f.1, s.29, i.12, v.103

təhsil 2 il, Şərq bölməsində isə 3 il olacaqdır. Seçilən dinləyicilər 1944-cü ilin aprelin 1-nə qədər SSRİ XİXK-a ezam edilməli idilər.[155] Mart ayının ilk günlərində SSRİ Xarici İşlər Xalq Komissarının müavini Mahmud Əliyev Azərbaycan K(b)P MK-nın digər katibi P.Çeplakova zəng edərək Ali Diplomatiya məktəbinin dinləyicilərinə və 6 aylıq kursların iştirakçılarına qoyulan tələbləri xatırlatmışdı. 6 aylıq diplomat kurslarına göndərilənlərin yaşı 42-dən artıq olmamalı idi.[156] Azərbaycan K(b)P MK Bürosunun 1944-cü ilin mart ayının 30-da keçirilən iclasının qərarı ilə Azərbaycan SSR XKS yanında Dövlət Plan Komitəsi sədrinin müavini Qayıbov Davud Məmməd oğlu, Bakı şəhər Zəhmətkeş Deputatları Soveti Icraiyyə Komitəsi sədrinin müavini Əlizadə Ağasəməd Əbdülhüseyn oğlu, Azərbaycan K(b)P Bakı şəhər komitəsinin təbliğat və təşviqat şöbəsi müdirinin müavini Abdullayev Həzi Behbud oğlu, Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin katibi Allahverdiyev Tofiq Əliheydər oğlu və Azərbaycan K(b)P Quba rayon komitəsinin birinci katibi Orucov Məmmədtağı Əlövsət oğlu SSRİ XİXK Ali Diplomatk məktəbi nəzdində diplomatik işçilər üçün təşkil edilmiş 6 aylıq kurslara göndərildilər.[157] Azərbaycan K(b)P MK Bürosunun qərarı ilə Hüseynzadə Zahir Yusif oğlu, Qaziyev Məmməd Əmin Adil oğlu, Bağırov Yusif Əli oğlu, Ağayev Əkbər Məmməd oğlu, Şükürzadə Ənvər Bəylər oğlu dinləyici kimi SSRİ Xarici İşlər Xalq Komissarlığının Ali Diplomatiya məktəbinə göndərildilər.[158]

SSRİ Ali Sovetinin ittifaq – respublika səviyyəli Xarici İşlər Komissarlıqları yaradılması haqqında qanununa əsasən 1944-cü ilin mart ayında keçirilən Azərbaycan SSR Ali sovetin sessiyası Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığının yaradılması haqqında qanun qəbul etdi. Mart ayının 8-də qəbul edilmiş qanuna əsasən yeni qurumun yaradılması ilə bağlı Azərbaycan SSR-in konstitusiyasına

---

[155] N.Şatalinin S.Qafarzadəyə teleqramı. 05.03.1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.30

[156] P.Çeplakovun S.Qafarzadəyə məlumatı. 11.03.1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.31

[157] Azərbaycan K(b)P MK katibi S.Qafqarzadənin ÜK(b)P MK-nın kadrlar idarəsinin rəsi Şatalinə məktubu. 30.03.1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.24

[158] SSRİ XXİK-nın Ali Diplomatiya məktəbinin direktor əvəzi Leonovun azərbaycanlı dinləyicilər barədə Silinə məktubu. 11.04.1945.// AR DA, f.28, s.4-c, i.7, v.25-26

bəzi əlavələr və əsas qanunun ayrı-ayrı maddələrinə bir sıra dəyişikliklər edildi. Konstitusiya əlavə edilən 16-cı maddədə yazılırdı: "Azərbaycan Sovet Sosialist Respublikası xarici dövlətlərlə bilavasitə əlaqələr qurmaq, onlarla saziş bağlamaq, diplomatik və konsulluq nümayəndəliklərinin mübadiləsini həyata keçirmək hüququna malikdir". Konstitusiyanın 19-cu maddəsinə edilən əlavəyə görə, Azərbaycan SSR xarici ölkələrlə əlaqələr qurmaq, 33-cü maddəyə edilən əlavəyə görə, xarici dövlətlərə diplomatik nümayəndəliklər göndərmək və geri çağırmaq, xarici ölkələrin Azərbaycanda akkreditə olmuş diplomatik nümayəndəliklərinin etimadnaməsini və geri çağırış sənədlərini qəbul etmək məsələləri əks olunmuşdu, lakin 46-cı maddəyə edilmiş əlavədə qeyd edilirdi ki, Azərbaycan SSR-in xarici ölkələrlə əlaqələri SSRİ-nin xarici ölkələrlə müəyyən edilmiş ümumi qaydalar çərçivəsində olmalı idi.[159]

Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığının yaradılması haqqında fərman qəbul edildikdən sonra kadrların toplanması və komissarlığın formalaşdırılması işinə başlandı. Müvəqqəti olaraq bu işlərə rəhbərlik etmək üçün Azərbaycan Respublikası XKS-nin sədri Teymur Quliyevin imzaladığı sərəncamla 1944-cü ilin mart ayının 12-də Ağasəməd Əbdülhüseyn oğlu Əlizadə Azərbaycan SSR Xarici İşlər Xalq komissarının müavini təyin edildi.[160] 1944-cü ilin may ayında ÜK(b)P MK kadrlar idarəsi Azərbaycan rəhbərliyinə məktub göndərərək, SSRİ Xarici İşlər Xalq Komissarlığının şifrçilər kursuna 4 nəfər dinləyici göndərməsini bildirdi. SSRİ XİXK-nın 10-cu şöbəsinin müdiri F.Rıjov və Kadrlar İdarəsinin rəisi M.Silinin Bakıya göndərdikləri məktubda şifrçilər kursuna seçilən dinləyicilərə qoyulan tələblər izah edilirdi. Onlar yazırdılar ki, bu kurslar üçün seçilən dinləyicilər 20-30 yaşlar arasında, partiya üzvü, üzvlüyə namizəd və ÜLKGİ-nin üzvü olan tamamilə sağlam, heç bir fiziki qüsuru olmayan kişi cinsi arasından seçilməli idi. Dinləyicilərin tam orta təhsil kursunu

---

[159] Azərbaycan SSR İttifaq-Respublika Xarici İşlər Komissarlığının yaradılması haqqında qanun. 08.03.1944.// AR DA, f.28, s.6-c, i.1, v.1-2

[160] A.Ə.Əlizadənin Azərbaycan SSR XXİK-ın müavini təyin edilməsi haqqında Azərbaycan SSR XKS-in sərəncamı. 12.03.1944.//AR DA, f.28, s.4-c, i.11, v.23

bitirmələri, onların rus dilindən, tarix və coğrafiyadan bilikləri yetərli olmalı idi. Tövsiyə olunurdu ki, əvvəllər şifr işində işləyənlərə üstünlük verilsin, təqdim edilən şəxslər evli olsunlar, lakin 2-dən artıq uşaqları olmasın. Məktubda bildirilirdi ki, kursu bitirənlərdən SSRİ XİXK-da, ittifaq respublika Xarici İşlər Xalq Komissarlıqlarında və SSRİ-nin xaricdəki diplomatik nümayəndəliklərində şifr işlərində istifadə ediləcəkdir.[161] Bu tapşırığa uyğun olaraq may ayının 22-də SSRİ XİXK-nın şifrçilər kursuna dinləyici kimi göndərilmək üçün Sadıxov İsmayıl Nəcəfqulu oğlu, Qafarov Cəlal İsgəndər oğlu, Cəfərov Qubad Paşa oğlu və Kərimov İlyas Əziz oğlunun namizədliyi Azərbaycan KP MK Bürosunda təsdiq edildi və onların sənədləri SSRİ Xarici İşlər Xalq Komissarlığının Azərbaycandakı müvəkkili Berestov vasitəsi ilə Moskvaya göndərildi.[162] Cəfərov Qubad istisna olmaqla qalan 3 nəfərin namizədliyi SSRİ Xarici İşlər Komissarlığı tərəfindən təsdiq edildi.[163]

1944-cü ilin may ayında fars dilində hərbi tərçüməçi kadrların hazırlanması ilə bağlı SSRİ Müdafiə Komissarlığının Hərbi Xarici Dillər İnstitutunun rəisi general-mayor Biyazi də M.C.Bağırova müraciət etdi. O yazırdı ki, Sovet Ordusunun Baş Qərargahının tapşırığına və hərbi dövrün tələblərinə uyğun olaraq, institut təcili olaraq fars dili üzrə hərbi tərcüməçilər hazırlamalıdır. Bu tələbatı nəzərə alaraq o, Bağırovdan xahiş edirdi ki, qısa müddətdə fars dilini mənimsəmək imkanına malik olan Quba rayonunda yaşayan tat əhali arasından 15-20 gənci seçib instituta göndərsin. Seçilənlər 18-25 yaş arası kişi cinsindən olmalı, partiya və komsomolun üzvü olub, ana dilini (tat dilini – C.H.) və rus dilini yaxşı bilməli, ən başlıcası isə ciddi şəkildə yoxlamadan keçməli idilər. Onlar təhsillərini başa vurduqdan sonra hərbi rütbə alacaq və Sovet Ordusunun kadrları sıralarına daxil ediləcəkdilər. Seçilən gənclər 1944-cü ilin iyun ayının 1-nə qədər Moskvaya göndərilməli idilər.[164]

---

[161] SSRİ XXİK-nın şifrçilər kursuna qəbulla bağlı qoyulan şərtlər. 1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.5

[162] S.Qafarzadə - ÜK(b)P MK-nın kadrlar idarəsinə, yoldaş Strunnikova.22.05.1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.11

[163] M.Silinin S.Qafarzadəyə məktubu.08.08.1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.12

[164] General-mayor Biyazinin Bağırova məktubu. 15.05.1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.4

Azərbaycan K(b)P MK Bürosu 1944-cü ilin may ayının 26-da bu məktubu müzakirə edib, S. Qafarzadə, Q. Məmmədov və Daxili İşlər Xalq Komissarının müavini Rəhmanova tapşırıq verdi ki, təcili olaraq Balaxanı, Suraxanı və Maştağanın tat əhalisi içərisindən 15-20 gəncin seçilib fars dili üzrə tərcüməçilər hazırlamaq üçün Hərbi Xarici Dillər İnstitutuna göndərilməsini təmin etsinlər.[165] Qoyulan tələblərə uyğun gələn 12 gəncin – Salmanov Əhməd Əbdülvahab oğlu, Əliyev Şərif Ağaşirin oğlu, Abbasov Abbas Hüseyn oğlu, Əhmədov Fuad Bahadur oğlu, Abdullayev Əhməd Ağamitfulla oğlu, Əliyev Yusif Musa oğlu, Bağışov Əlabbas Mehdi oğlu, Zeynalov Nəriman Haşım oğlu, İsmayılov Çingiz Muxtar oğlu, İsrafilov Əsəd Musa oğlu, Rəhimov Şəmsəddin Zeynalabdin oğlu və Səfərov Oruc Adil oğlunun sənədləri qısa müddətdə hazırlanıb Moskvaya göndərildi və bu gənclər fars dili üzrə hərbi tərcüməçilik kursuna qəbul edildilər.[166]

Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı haqqında Ali Sovetin Rəyasət Heyətinin fərmanı Azərbaycan K(b)P MK Bürosunun təqdimatı ilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Mahmud İsmayıl oğlu Əliyev 1944-cü ilin sentyabr ayının 2-də Azərbaycan Respublikası Xarici İşlər Xalq Komissarı təyin edildi.[167] Mahmud Əliyev 1908-ci ildə Bakı şəhərində doğulmuş, 1931-ci ildə həkim-nevropatoloq ixtisası üzrə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə fakültəsini bitirmişdi. O, 1931-1936-cı illərdə respublikanın müxtəlif rayonlarında və Zaqafqaziya Siyasi İdarəsinin sərhəd dəstəsində həkim işləmiş, 1936-1937-ci illərdə tibb institutunun aspiranturasında oxumuşdu. Aspirantura təhsilini bitirdikdən sonra M.Əliyev 1937-1943-cü illərdə Səhiyyə Komissarlığının elm və təhsil idarəsinə, komissarlığın Bakı şəhər şöbəsinə, 1938-1943-cü illərdə Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik etmişdi. 1943-cü ilin iyul-noyabr aylarında o, Azərbaycan K(b)P MK-nın ali təhsil müəssisələri və məktəblər şöbəsinin müdiri

---

[165] Azərbaycan K(b)P MK Bürosunun qərarı. 26.05.1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.3

[166][166] Sovet Ordusunun Hərbi Xarici Dillər İnstitutuna təhsil almaq üçün göndərilənlər haqqında. May 1944.//ARPİİ SSA, f.1, s.29, i.321, v.1-2

[167] M.İ.Əliyevin Azərbaycan SSR XXİK təyin edilməsi haqqında Azərbaycan SSR Ali Sovetı Rəyasət Heyətinin fərmanı. 02.09.1944.// AR DA, f.2941, s.7, i.190, v.217

vəzifəsində çalışmış, 1943-cü ilin payızında Moskvaya çağırılmış, ÜK(b)P MK Siyasi Bürosunun təqdimatı ilə noyabr ayının 22-də SSRİ Xarici İşlər Komissarı V. Molotovun müavini vəzifəsinə təyin edilmiş və 1944-cü ilin sentyabr ayının 3-nə qədər bu vəzifədə işləmişdi.[168] Xarici İşlər Xalq Komissarının müavini kimi yüksək vəzifəyə təyin edildikdən sonra ona fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilmişdi. Təxminən bir ilə yaxın SSRİ XİXK-da rəhbər vəzifədə çalışdıqdan sonra, Azərbaycan SSR XİXK yaradıldıqda M. Əliyev 1944-cü ilin sentyabr ayında Bakıya Xarici İşlər Xalq Komissarı vəzifəsinə göndərilmişdi.[169]

Azərbaycan SSR XİXK yaradıldıqdan sonra respublika XKS-nin qərarı ilə Poluxun (M.Muxtarov küçəsi – C.H.) küçəsində 6 saylı ünvanda yerləşən 3 mərtəbədən ibarət keçmiş Əli Bayramov klubunun binası Xarici İşlər Komissarlığına verildi və onun təmiri üçün büdcədən vəsait ayrıldı.[170]

M.Əliyev Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı vəzifəsinin icrasına başladıqdan sonra komissarlığın aparatı formalaşdırılmağa başladı. 1944-cü ilin oktyabr ayı ərzində, demək olar ki, komissarlığın bütün şöbə müdirləri və digər vəzifəli şəxslər komissarlıqda işə başladılar. Noyabr ayının 2-də M. Əliyevin imzaladığı 1 saylı əmrlə Qayıbov Davud Məmməd oğlu 1944-cü ilin oktyabr ayının 15-dən etibarən Azərbaycan SSR XİXK-ın Siyasi şöbəsinin müdiri, Orucov Məmmədtağı Əlövsət oğlu oktyabr ayının 15-dən etibarən Protokol-konsulluq şöbəsinin müdiri, Allahverdiyev Tofiq Əliheydər oğlu oktyabr ayının 1-dən etibarən Məxfi-şifr şöbəsinin müdiri, Əfəndiyev Məmməd Məmməd oğlu oktyabr ayının 1-dən etibarən Kadrlar Şöbəsinin müdiri, Qaziyev Məmməd Əmin Adil oğlu oktyabr ayının 15-dən etibarən komissarın köməkçisi, Ağayev Qəzənfər Rəhim oğlu oktyabr ayının 1-dən etibarən Məxfi-şifr şöbəsi müdirinin müavini, Həsənov Qaryağdı Ziyad oğlu oktyabr ayının 1-dən

---

[168] Очерки истории Министерства Иностранных Дел России. Том второй, 1917-2002. Москва, 2002, с.273

[169] Bax: M.İ.Əliyevin şəxsi işi.//ARPİİ SSA, f.1, s.405, i.3167, v.1-33; S.Qafarzadə. M.İ.Əliyev haqqında arayış. 12.11.1943.//ARPİİ SSA, f.1, s.28, i.218, v.1-2.

[170] Azərbaycan XKS-nin 2472 və 1510 saylı sərəncamları. 05-11.12.1944.// AR DA, f.411, s.15-c, i.14, v.52-53

etibarən Siyasi şöbə müdirinin köməkçisi, Abdullayev Həzi Behbud oğlu oktyabr ayının 15-dən etibarən Siyasi şöbəyə məsul referent, Asiryan Artavaz Nikolayeviç oktyabr ayının 1-dən etibarən Siyasi şöbənin Baş referenti, Babayev Ələkbər Hənifə oğlu komissarlığın baş mühasibi vəzifəsinə təyin olundular.[171] Noyabr ayının 3-də Azərbaycan K(b)P MK Bürosu A.Əlizadəni Xarici İşlər Komissarının müavini, M.Əliyevin 2 noyabrda imzaladığı əmrdə adları keçən şəxslər isə müvafiq qaydada vəzifələrinə təsdiq etdi. Büro ÜK(b)P MK-dən xahiş etdi ki, A.Əlizadəni Azərbaycan SSR XİXK-ın müavini vəzifəsinə təsdiq etsin.[172] Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığına rəhbər diplomatik işə təyin edilmiş əməkdaşları SSRİ XKS-in müvafiq qərarına əsasən hərbi səfərbərlikdən azad edilmək haqqında bronla təmin edilmişdilər.[173] Azərbaycan K(b)P MK bürosu tərəfindən rəhbər diplomatik işə təsdiq edilənlərin (D.Qayıbov, M.Qaziyev, M.Orucov, T.Allahverdiyev və M.Əfəndiyevin) şəxsi işləri və onlar haqqında M.Əliyevin imzaladığı xasiyyətnamələr SSRİ XİXK-ın müavini V.Dekanozova göndərildi. M.Əliyev xahiş edirdi ki, adları çəkilən şəxslər SSRİ Xarici İşlər Xalq Komissarlığı tərəfindən təyin olunduqları vəzifələrə təsdiq edilsinlər.[174] 1944-cü ilin dekabr ayında Moskvada SSRİ XİXK-ın 10-cu şöbəsində xüsusi kursu bitirib Bakıya qayıtdıqdan sonra İsmayıl Sadıxov komissarlığın məxfi-şifr şöbəsinin baş referenti vəzifəsinə təyin edildi.[175] 1944-cü ilin dekabr ayının 1-də SSRİ XİXK-da müvafiq kursları bitirdikdən sonra Cəlal Qafarov və İlyas Kərimov da Azərbaycan Xarici İşlər Xalq Komissarlığının Məxfi-şifr şöbəsində referent vəzifələrinə təyin edildilər.[176]

---

[171] Azərbaycan SSR XXİK-ın 1 saylı əmri. 02.11.1944.//AR DA, f.28, s.6-c, i.2, v.1-2.

[172] Azərbaycan K(b)P MK Bürosunun 398 saylı protokolu.3-16.11.1944.//ARPİİ SSA, f.1, s.29, i.33, v.16-17

[173] Bax: SSRİ XKS-nin 180, 205, 239 saylı qərarlarına görə hərbi səfərbərlikdən azad edilən Azərbaycan SSR XXİK-ın işçilərinin siyahısı.//AR DA, f.28, s.6-c, i.6, v.18

[174] M.Əliyevin V.Dekanozova məktubu. 24.01.1945.//AR DA, f.28, s.6-c, i.6, v.7

[175] Azərbaycan SSRİ XXİK-ın kadrlar şöbəsinin 1944-cü ilin noyabrından 1945-ci ilin sentyabrına qədərki fəaliyyəti haqqında qısa hesabat. 1945.//AR DA, f.28, s.6-c, i.6, v.104

[176] 1945-ci ilin iyul ayının 10-na olan məlumata görə Azərbaycan SSR XXİK-ın ştatda olan işçilərinin siyahisi. 1945.//AR DA, f.28, s.4-c, i.8, v.62-63.

1944-cü ilin sonlarından başlayaraq Azərbaycan Xarici İşlər Xalq Komissarlığının texniki heyəti də formalaşdırılmağa başladı. Həmin ilin noyabr ayının 15-də M. Əliyevin əmri ilə Xudiyeva Səfurə Əli qızı komissarlığın katibliyinin katibi təyin edildi. Tədricən komissarlığın 14 nəfərdən ibarət olan texniki heyətinin formalaşdırılması işi başa çatdırıldı.[177]

Komissarlığın aparatı formalaşdırılan kimi SSRİ XİXK-ın göstərişinə əsasən M. Əliyevin noyabr ayının 9-da imzaladığı yeni əmrlə komissarlığın əməkdaşlarının xarici dil öyrənməklə bağlı vəzifələri müəyyən edildi. Komissarın əmrinə görə, komissarlığın bütün əməkdaşları 2-3 il ərzində bir Qərb, bir Şərq dillərini öyrənib, müvafiq qaydada imtahan verməli idilər. Komissarlıq tərəfindən təşkil olunmuş xarici dil kurslarında 2-3 il ərzində Xalq Komissarının müavini A. Əlizadə, D. Qayıbov, M. Əfəndiyev, M. Qaziyev ingilis və fars dillərini, M. Orucov fransız və fars dillərini, T. Allahverdiyev ingilis və ərəb dillərini, Q. Həsənov, Q. Ağayev, H. Abdullayev, A. Asiryan fransız və türk dillərini lazım olan səviyyədə mənimsəməli idilər.[178]

Xarici dil kursları ilə bağlı respublikanın ali məktəblərindən və digər tədris müəssisələrindən güclü mütəxəssislər cəlb edilməklə komissarlığın nəzdində xüsusi tədris qrupu yaradıldı. Bu qrupa Azərbaycan Dövlət Universitetinin və Pedaqoji Universitetin ingilis dili kafedrasının müdiri Rüxsara xanım Qayıbova başçılıq edirdi. Bu qrupa Yekatrina Reçitskaya, Jan Jozef, Əjdər Axundov, Andriana Mdivani və Georgi Poqosov daxil idilər.[179]

Komissarlığın rəhbər işçiləri tam heyətdə işə başlayandan sonra M.Əliyev onların hər biri haqqında xasiyyətnamə yazıb, SSRİ XİXK-na göndərdi. Bu xasiyyətnamələrdə o, xahiş edirdi ki, komissar müavini A.Əlizadə və D.Qayıbova I dərəcəli müşavir, M.Qaziyev, M.Əfəndiyev, T.Allahverdiyev və M.Orucova II dərəcəli müşavir, H.

---

[177] 1945-ci ilin iyun ayının 10-na olan məlumata görə Azərbaycan SSR XXİK-ın işçilərinin siyahısı. 24.01.1945.//AR DA, f.28, s.4-c, i.8, v.72-73.

[178] Azərbaycan SSR XXİK-ın 4 saylı əmri. 09.11.1944.//AR DA, f.28, s.6-c, i.2, v.5-7.

[179] Azərbaycan SSR XXİK-da xarici dili tədris edən müəllimlərin siyahısı. 1944.//AR DA, f.28, s.4-c, i.8, v.54

Abdullayev və Q.Həsənova I dərəcəli 1-ci katib, Q.Ağayevə II dərəcəli 1-katib diplomatik rütbələri verilsin.[180] SSRİ XKS-in 1943-cü ilin may ayının 28-də qəbul etdiyi qərara görə, Xarici İşlər Xalq Komissarlığının diplomatik işçilərinin, səfirliklərin və SSRİ-in xarici ölkələrdəki missiyalarının əməkdaşları üçün xüsusi geyim forması müəyyən edilmişdi. SSRİ XKS-in müavini V.Molotovun 1944-cü ilin sentyabr ayının 16-da imzaladığı qərara görə diplomatik korpus üçün müəyyən edilmiş geyim forması müttəfiq respublikaların Xarici İşlər Xalq Komissarlıqlarının diplomatik işçilərinə də şamil edilirdi.[181] Bu qərara uyğun olaraq, M. Əliyev komissarlığın 11 nəfər diplomatik işçisinə diplomatik forma hazırlamaq üçün Azərbaycan tikiş fabrikinin direktoru Hacıyevə məktubla müraciət etdi.[182]

Azərbaycan Xarici İşlər Xalq Komissarlığı fəaliyyətə başlayan kimi SSRİ XİXK-ın müavini V. Dekanozov tərəfindən məxfi-şifr şöbəsinə aid əvvəllər qəbul olunmuş gizli təlimatlar Bakıya göndərildi. Bu, ilk növbədə, idarə və müəssisələrdə silahların saxlanması, onların uçotunun aparılması və sair məsələlərlə bağlı 1942-ci ilin dekabr ayının 3-də qəbul olunmuş tam məxfi təlimat idi. Orada deyilirdi ki, Pəhləvi, Tehran, Kulca, Urumçi, Karaşar, Ankara, Kızıl, Altan-Bulak və digər yerlərə göndərilən silahların uçotunun aparılmasında ciddi nöqsanlar vardır. Təlimatda göstərilirdi ki, hər bir silah vahidi Məxfi şöbə tərəfindən pasportlaşdırılmalıdır; Komissarlığın rəhbər şəxslərinə tapşırılır ki, Məxfi şöbələrdə silahların necə saxlanmasını şəxsən yoxlasınlar; silahların bir maddədən digər maddəyə keçirilməsi və onların XİXK-nın Məxfi-şifr şöbəsinin razılığı olmadan tranzit yolçulara verilməsi qəti qadağandır; yerlərdə istifadəyə yararsız olan bütün nasaz silahlar XİXK-nın Məxfi şöbəsinə göndərilsin.[183] Həmin

---

[180] A.Əlizadə,D.Qayıbov, M.Qazıyev, M.Əfəndiyev, T.Allahverdiyev, M.Orucov, H.Abdullayev, Q.Həsənov və Q.Ağayev haqqında M.Əliyevin SSRİ XXİK-na göndərdiyi xarakteristikalar. 1944.//AR DA, f.28, s.4-c, i.1, v.60-68

[181] Müttəfiq respublikaların XXİK diplomatik işçilərinin geyim forması haqqında SSRİ XKS-in qərarı.16.09.1944.//AR DA, f.28, s.4-c, i.1, v.31

[182] M.Əliyevin Hacıyevə məktubu. 14.04.1945.//AR DA, f.28, s.6-c, i.6, v.28.

[183] V.Dekanozovun Azərbaycan XXİK-ın Məxfi-şifr şöbəsinə gizli məktubu. 04.11.1944.//AR DA, f.28, s.4-c, i.1, v.2

gün göndərdiyi başqa bir təlimatda V.Dekanozov Məxfi-şifr şöbəsi işçilərinin əmək haqqlarına əlavə barədə SSRİ XKS-nin 1944-cü ilin avqust ayının 31-də verdiyi əmrin sentyabr ayının 25-dən etibarən respublikalardakı müvafiq işçilərə tətbiq olunduğunu bildirirdi. XKS-in əmrinə görə məxfi-şifr işlərində 1 ildən 3 ilə qədər çalışan işçilərə əmək haqqının 10%-i, 3 ildən 6 ilə qədər çalışan işçilərə əmək haqqının 20%-i, 6 ildən çox bu sahədə çalışan işçilərə isə əmək haqqının 30% əlavə olaraq ödənilirdi.[184] SSRİ XİXK-ın digər bir müavini A.Vışinski Azərbaycan Xarici İşlər Komissarlığına göndərdiyi təlimatda diplomatik, xüsusilə, yazışmaların məxfiliyinin qorunmasını izah edirdi. O, Məxfi-şifr şöbəsinə tapşırırdı ki, gizli diplomatik yazışmalar iki nüsxədən artıq tərtib edilməməli və nazik kağızda yazılmalıdır.[185]

Məxfi-şifr şöbəsinin bütün fəaliyyəti SSRİ XİXK ilə razılaşdırılırdı. Hətta, komissarlığın binasında bu şöbənin yerləşdiyi otaqların, xüsusilə, şifr işləri görülən otağın bütün planı, şəkilləri çəkilib, şöbə müdiri T.Allahverdiyev tərəfindən SSRİ XİXK-ın Məxfi hissəsinin müdiri M.Tompakova göndərilmişdi.[186]

1944-cü ilin payızında fəaliyyətə başlayan Azərbaycan Xarici İşlər Xalq Komissarlığının ilk diplomatik addımı dekabr ayında Azərbaycan vasitəsi ilə Moskvaya gedən Fransa Milli Müqavimət hərəkatının lideri general Şarl de-Qollu Bakıda qarşılamaq və protokol qaydasında onu yola salmaq oldu. Bu səfərin xərcləri SSRİ XİXK tərəfindən ödənilmişdi.[187]

Azərbaycan Xarici İşlər Xalq Komissarlığının rəhbər heyətini Yaxın və Orta Şərq ölkələrində gedən siyasi proseslərlə yaxından tanış etmək üçün SSRİ XİXK 1944-cü ilin dekabr ayının 29-da İran, Türkiyə, Əfqanıstan, Misir və digər ərəb ölkələrindən sovet səfirliklərinin Moskvaya göndərdiyi çoxlu sayda hesabat, məlumat, ayrı-ayrı dövlət xadimlərinin və hökumət üzvlərinin xarakteristikası,

---

[184] SSRİ XXİK üzrə əmr.25.09.1944 .//AR DA, f.28, s.4-c, i.1, v.6

[185] A.Vışinskinin Azərbaycan XXİK-ın Məxfi-şifr şöbəsinə təlimatı. 04.11.1944. .//AR DA, f.28, s.4-c, i.1, v.4

[186] T.Allahverdiyevin M.Tompakova məktubu. 03.05.1945.//AR DA, f.28, s.4-c, i.8, v.55

[187] V. Dekanozovun teleqramı. 06.12.1944.//AR DA, f.28, s.4-c, i.1, v.57

Moskvada bu ölkələr haqqında 30-40-cı illərdə hazırlanmış bir sıra arayışların surəti, İran və Türkiyədə sovet səfirliyi tərəfindən hazırlanmış mətbuat icmalı və sair sənədlər Bakıya göndərildi. Bunların içərisində Türkiyənin prezidenti İ.İnöyni, Baş Naziri Ş.Saracoğlu, Xarici İşlər naziri H.Saka, İran şahı Məhəmməd Reza Pəhləvi, Əfqanıstan şahı və digərləri haqqında çox maraqlı məlumatlar var idi. Öz siyasi və diplomatik dəyərinə görə bu sənədlərin bir hissəsi, hələ bu gün də Rusiya Federasiyasının Xarici Siyasət Arxivinin qapalı fondlarında saxlanılır. Bunların içərisində "İrana dair qısa xatırlatma məktubu", "SSRİ ilə İran arasında sərhəd xəttinin dəqiqləşdirilməsinə dair aparılan danışıqlar və yazışmalar barədə arayış", "1723-cü ildən bu günə qədər Rusiya, sonra isə SSRİ ilə İran arasında sərhəd xətti haqqında arayış", İranda 40-cı illərdə təşkil olunmuş hökumət kabinetlərinin başçıları və kabinet üzvləri haqqında Tehrandakı sovet səfirliyinin hazırladığı arayışlar, İranda fəaliyyət göstərən siyasi partiyalar və mətbuat orqanları haqqında arayışlar, 1944-cü ildən başlayaraq İran mətbuatının icmalı, İrandakı kürd liderləri haqqında arayışlar, Tehrandakı Britaniya səfiri Bullard haqqında arayış və digər gizli sənədlər var idi.[188] Türkiyəyə gəldikdə isə bura "1 yanvar 1944-cü ilə qədər SSRİ ilə Türkiyə arasında qüvvədə və fəaliyyətdə olan siyasi müqavilə və sazişlər haqqında arayış", "1 aprel 1944-cü ilə qədər Türkiyə ilə SSRİ arasında qüvvədə olan iqtisadi-ticarət, sərhəd, nəqliyyat və digər müqavilə və sazişlər haqında arayış", "15 aprel 1944-cü il üçün SSRİ ilə Türkiyə arasında həll edilməmiş məsələlər üzrə arayış", Montrö konfransında boğazlar haqqında məsələyə dair 1943-cü ildə SSRİ XİXK-da hazırlanmış arayış, Türkiyənin bütün dövlət xadimlərinin, diplomatlarının, yüksək rütbəli hərbçilərinin bioqrafiyası, Türkiyə mətbuatı haqqında arayışlar və 1944-cü ildən başlayaraq türk mətbuatının icmalı, Türkiyədə sol dünyagörüşlü yazarlar və jurnalistlər haqqında arayışlar və digər çoxsaylı sənədlər daxil idi.[189] Bunlardan əlavə,

[188] Bax:Azərbaycan SSR XXİK-na 1944-cü ildə daxil olan sənədlərin jurnalı. 1944.//AR DA, f.28, s.4-c, i.5, v.2-5

[189] Yenə orada, v.5-8

Yaxın və Orta Şərq ölkələrinə aid Moskvada və Leninqradda nəşr edilmiş məlumat xarakterli kitablar, tərcümə işlərinin gedişində tarixi günlərin hicri təqvimindən milad tarixinə düzgün keçirilməsinin Leninqrad Ermitajı tərəfindən hazırlanmış sinxron cədvəli, beynəlxalq hüquqa aid dərsliklər və sair materiallar da komissarlığın siyasi şöbəsi tərəfindən Moskvaya sifariş edilmişdi. [190]

Komissarliğın elmi-texniki və məlumat bazasını yaratmaq üçün M.Əliyev 1944-cü ildə xarici ölkələrdə nəşr olunan əsas mətbuat orqanlarının və diplomatiya tarixinə dair kitabların Azərbaycana göndərilməsini sifariş etdi. Bu sifarişlərin içərisində İngiltərədə çıxan "Tayms", "Deyli Uorker", "Ekonomist" qəzetləri, "Beynalxalq xəbərlər bülleteni", Böyük Britaniya parlamentinin nəşrləri olan "Lordlar palatası", "İcma palatası" buraxılışları, "Böyük Britaniya və Şərq" jurnalı, Misirin "Əl-Əhram" qəzeti, Dəməşqdə çıxan "Suriya və Şərq" jurnalı, Fələstində nəşr olunan "Fələstin post" qəzeti, İranın "Etelaat", "Həftəlik Etelaat", "İran", "Rəhbər" qəzetləri, "Tehran jurnalı", "Həftəlik məcəllə", Türkiyənin "Cümhuriyyət", "Tan", "Ulus", "Vatan", "Yeni sabah" qəzetləri, "Ankara", "Çinaraltı" jurnalları, Birləşmiş Ştatların "Nyu York Tayms" qəzeti, "Asiya və Amerika" "Forin Affairs", Layf' Amerika beynəlxalq hüquq jurnalı" və digər jurnallar var idi. M.Əliyev komissarlığın kitabxanasını xarici ədəbiyyat ilə zənginləşdirmək üçün müxtəlif dünya ölkələrində nəşr olunmuş geniş bir ədəbiyyat siyahısını Moskvaya göndərmişdi. Məsələn, bu siyahıda, təkcə, İngiltərədə nəşr olunmuş kitabların sayı 74 adda, ABŞ-da nəşr olunan kitabların sayı 63 adda idi. Həmin nəşrlərin içərisində "Beynəlxalq münasibətlərin qısa tarixi, 1920-1939", "Britaniya ensiklopediyası", "İngiltərənin diplomatik sənədlər toplusu", 6 cilddən ibarət "Paris sülh konfransının tarixi", Q. Filippin "Orta Şərq 1940-1942-ci illərdə", P.Filippin "Türkiyə: eniş və yüksəliş", L.Efraimin "Avropa XIX əsrdə", L.Elvell-Kattonun " Müasir İran", B.Vardın "Türkiyə", E.Flippsin "Hitlerin son ümidi", C.Stembricin "Oksford hərbi atlası" kimi qiymətli kitablar var idi. Birləşmiş Ştatların nəşrlərinə gəldikdə isə, orada müxtəlif

[190] Bax: Moskvadan Azərbaycan XXİK-ın siyasi şöbəsinə dair həll edilməli olan məsələlərin siyahisi. 12.02.1945.// AR DA, f.28, s.6-c, i.6, v.13

illərdə çap olunmuş prezident Ruzveltin müraciət və məktublarından ibarət "Birləşmiş Ştatların xarici siyasətinin inkişafı", Latanenin (Con Hollidey) "Amerikanın xarici siyasət tarixi, 1776-1940), S. Karlın "Balkanlarda əlli il müharibə və diplomatiya", 30 cilddən ibarət olan "Amerika ensiklopediyası", Uolter Lipmanın "Amerika Birləşmiş Ştatlarının xarici siyasəti", Striplingin "Osmanlı Türkiyəsi və ərəblər, 1511-1574", R. Qrussetin 4 cildlik "Şərq sivilizasiyası", J. Nudsonun "Millətlər Cəmiyyətinin tarixi" və digər maraqlı kitablar sifariş edilmişdi. Bütövlükdə, sifariş edilən qəzet, jurnal və kitabların yalnız siyahısı 30 səhifədən ibarət idi.[191]

Xarici ədəbiyyatın alınması ilə yanaşı, eyni zamanda onun istifadə qaydaları da müəyyən edildi. 1945-ci ilin yanvar ayının ortalarında Xarici İşlər Komissarı M. Əliyevin imzaladığı 3 saylı əmrlə Məxfi-şifr şöbəsinin müdiri T. Allahverdiyevə tapşırılırdı ki, komissarlığa gələn bütün xarici qəzet və jurnalları qəbul edib, yoxlandıqdan sonra onların uçotu aparılsın və istifadə üçün kitabxanaya verilsin. Xarici ədəbiyyata gəldikdə isə, əmrdə göstərilirdi ki, bu nəşrlər tamamilə məxfi sənədlər hesab edildiyindən saxlamaq üçün şəxsən kitabxanaçı Süleymanovaya verilsin və yalnız, gizli sənədlərlə tanış olmağa hüququ olan şəxslərə onlardan istifadə etməyə icazə verilsin. Əmrin ikinci bəndində kitabxananın müdiri Süleymanovaya tapşırılırdı ki, qadağan olunmuş ədəbiyyatı komissarlığın işçilərinə və digər şəxslərə, yalnız Məxfi-şifr şöbəsinin müdiri T. Allahverdiyevin icazəsi ilə versin. Komissarlığın işçilərinə tam məxfi qrifi ilə alınmış xarici ədəbiyyatı komissarlığın binasından kənara çıxarmaq qəti qadağan edilirdi.[192]

Beləliklə, 1944-cü ilin sonlarından etibarən yeni formalaşdırılan Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı kiçik bir diplomatik heyətlə aktiv fəaliyyətə başlamışdı və SSRİ-in Yaxın Şərq ölkələri, ilk növbədə isə, İran və Türkiyə ilə münasibətlərində bu qurumun fəal rol oynayacağı gözlənilirdi.

---

[191] Bax: Azərbaycan SSR XXİK. 1944-cü ilə aid müxtəlif yazışmalar. Noyabr – dekabr 1944.//AR DA, f.28, s.6-c, i.1, v.113-142

[192] Azərbaycan SSR XXİK-na daxil olan xarici ədəbiyyatın istifadə qaydası haqqında əmr. 16.01.1945.//AR DA, f.28, s.6-c, i.8, v.3

§ 2. Türkiyəyə qarşı Sovet iddialarının başlanması və Azərbaycan

Böyük Üçlüyün Tehran konfransı göstərdi ki, Sovet İttifaqı dünyanın müharibədən sonrakı taleyinə münasibətdə öz müttəfiqlərindən daha hazırlıqlıdır. Hələ, 1942-ci ilin yanvar ayının 26-da ÜİK(b)P MK-nın Siyasi Bürosu Xarici İşlər Xalq Komissarı V.Molotov başda olmaqla "Avropa, Asiya ölkələri və dünyanın digər yerlərində müharibədən sonrakı dövlət quruculuğunun layihəsi üzrə Komissiya haqqında" qərar qəbul etmişdi.[193] Komissiya daxilində üç işçi qrupu yaradılmışdı. V.Q.Dekanozov və Y.Z.Suritsin rəhbərlik etdiyi qrup Yaxın və Orta Şərq məsələləri ilə məşğul idi. 1943-cü ilin payızında işçi qrupları müharibədən sonrakı dünyanın qurulması barədə Sovet təkliflərini özündə əks etdirən sənədi hazırlayıb başa çatdırmışdılar. İlk dəfə olaraq, ümumi şəkildə bu təkliflər Tehran konfransında açıqlanmışdı. Hələ, Tehran konfransı ərəfəsində prezident Ruzvelt Böyük Üçlüyün görüşünün Ankarada keçirilməsini məqsədəuyğun saysa da, Stalin buna razılıq vermədi. 1943-cü ilin oktyabr ayının 25-də prezident Stalinə yazırdı ki, görüşün Ankarada keçirilməsi üzərində düşünməyə dəyər, "o neytral ərazidə yerləşir. Belə bir fikir türklərin xoşuna gələ bilər ki, onlar ev sahibliyi edəcəklər".[194] Lakın bu dövrdə Sovet rəhbərliyi türkləri cəzalandırmağın müxtəlif planlarını cızırdılar.

Elə həmin vaxt, 1943-cü ilin avqust ayının 3-də SSRİ Xarici İşlər Xalq Komissarının müavini M.Litvinov müharibədən sonra sülh konfranslarının hazırlanması haqqında komissiyanın tərkibi və strukturu haqqında fikir və mülahizələrini V.Molotova göndərmişdi. Komissiyanın 7 nəfərdən ibarət olması nəzərdə tutulurdu. Ayrı-ayrı problemlər üzrə xüsusi tapşırıqları yerinə yetirmək üçün komissiyaya məsləhətçilər daxil edilməsi təklif edilirdi.[195] Sentyabr ayının 9-da

---

[193] Bax: Политбюро ЦК РКП (б) – ВКП(б). Повестки дня заседаний. 1919–1952. Каталог, т. III. 1940–1952. M., 2001, c.241.

[194] F.Ruzveltin İ.Stalinə məktubu. 25.10.1943.// RDSSTA, f.82, s.2, i.1107, v.1031

[195] M.Litvinovun V.Molotova məktubu. 03.08.1943.//RF XSA, f.06, s.6,q.149a, i.1071, v.4–6.

isə M.Litvinov İ.Stalin və V.Molotova göndərdiyi məlumatda komissiyanın məşğul olacağı məsələlərin siyahısını və əhatə dairəsini müəyyənləşdirmişdi. Burada XIX bölmədə Dodekanez adaları istisna olmaqla İtaliyanın əvvəlki sərhədlərinin saxlanması, bu ada ilə bağlı Yunanıstanla Türkiyənin yenidən iddialarının olacağı göstərilirdi. Şərqi Avropa və Balkanda istisnasız olaraq yeni hökumətlərin yaradılması nəzərdə tutulur, Türkiyə ilə bağlı məsələlər neytral ölkələr bölməsinə aid edilirdi. Eyni zamanda komissiyanın öyrənəcəyi və təkliflər hazırlayacağı məsələlərin siyahısına Bosfor və Dardanel boğazları da daxil edilmişdi.[196]

1944-cü ilin yanvarında isə Xarici İşlər Xalq Komissarının müavini İ.M.Mayski müharibədən sonrakı dünyada sərhədlərlə bağlı məsələləri və SSRİ-nin maraqlarını özündə əks etdirən "Gələcək sülhün arzu olunan əsasları haqqında" qeydləri V.Molotova təqdim etmişdi. Bu sənədə görə, Türkiyəyə yaxın olan Rumıniya ərazisində SSRİ-yə hərbi baza və İran ərazisi vasitəsi ilə Fars körfəzinə doğru "azad və münasib" ticarət yolundan istifadəyə təminat verilməsi nəzərdə tutulurdu. Sənəddə bütün Balkan ölkələri ilə qarşılıqlı yardım haqqında, SSRİ və Yunanıstan arasında qarşılıqlı yardım haqqında üçtərəfli paktın bağlanması, Türkiyəyə gəldiksə isə, onun güclənməsinə mane olmaq təklif olunurdu. Sovet-bolqar və sovet-rumın paktları vasitəsi ilə Türkiyənin Balkan işlərindən uzaqlaşdırılması məqsədəuyğun sayılırdı. Bu boşluğu isə təbii ki, SSRİ doldurmalı idi. Bir sıra iqtisadi, mədəni və siyasi tədbirlərin köməyi ilə Sovetlərin İrana nüfuz etməsinin gücləndirilməsi təklif edilirdi. Yaxın Şərqdə Sovet təsirinin möhkəmləndirilməsi SSRİ-nin siyasətinin əsas istiqamətlərindən biri kimi şərh edilirdi.[197]

1944-cü ilin yazında Türkiyəyə qarşı sərtləşmə siyasəti Cənubi Qafqaz sovet respublikalarının Xarici İşlər Xalq Komissarlıqlarının yaranması fonunda baş verirdi. Bu daha çox SSRİ Xarici İşlər Xalq

---

[196] M.Litvinovun İ. Stalin və V.Molotova məktubu. 09.09.1943.//RF XSA, f.06, s.6,q.149a, i.1071, v.45–53.

[197] А.А.Данилов, А.В.Пыжиков. Рождение сверхдержавы: СССР в первые послевоенные годы. М., 2001, с.16–17.

Komissarlığında Sovet-Türkiyə münasibətlərinin mübahisəli sayılan məqamlarını əks etdirən bir sıra sənədlərin hazırlanması və onların Cənubi Qafqaz respublikalarına, o cümlədən, Azərbaycana göndərilməsində özünü büruzə verirdi. Bunlardan birincisi, Xarici İşlər Xalq Komissarlığının əməkdaşı A.Fedosov tərəfindən 1944-cü ilin yanvar ayının 25-də hazırlanmış "1944-cü ilin yanvar ayının 1-nə qədər SSRİ ilə Türkiyə arasında qüvvədə və fəaliyyətdə olan siyasi müqavilə və sazişlər haqqında arayış"dan ibarət idi. RSFSR ilə Türkiyə arasında 1921-ci ilin mart ayının 16-da imzalanmış Moskva müqaviləsinin arayışda geniş təhlil edilməsi təsadüfi deyildi. Bu müqavilədə Azərbaycana və digər Qafqaz respublikalarına aid bir sıra həlledici məqamlar var idi. Sovet İttifaqı az sonra Moskva müqaviləsinin maddələrini, xüsusilə, Türkiyənin Cənubi Qafqaz repusblikaları ilə sərhədlərini müəyyənləşdirən birinci əlavəsini ciddi şəkildə təftiş etməyə hazırlaşırdı. Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında 1921-ci ilin oktyabr ayının 13-də imzalanmış Qars müqaviləsinə də arayışda geniş yer verilirdi. Müqavilənin təhlilindən aydın olurdu ki, sovet ekspertləri tərəfindən Qafqaz sovet respublikalarının Qars müqaviləsindən imtina etmələrinin müəyyən hüquqi məqamları axtarılır. Hər iki müqaviləyə münasibətdə onların qüvvədə olma tarixi və fəaliyyət müddətinin göstərilməməsi xüsusi şəkildə qeyd edilirdi. Moskva və Qars müqavilələri ilə müqayisədə 21 yanvar 1922-ci ilin yanvar ayının 21-də Türkiyə ilə Ukrayna arasında imzalanmış Ankara müqaviləsinin və xüsusilə, müqavilənin beşinci maddəsinin (Qara dənizə tökülən çaylarla bağlı olan maddə-C.H.) daha da irəli getdiyi göstərilirdi.[198]

A.Fedosovun arayışında xüsusi olaraq, diqqət yetirilən müqavilələrdən biri də Türkiyə ilə SSRİ arasında 1925-ci ilin dekabr ayının 17-də Parisdə imzalanmış müqavilə idi. Sənəddə müqavilənin ikinci maddəsinin və ona əlavə olaraq, imzalanmış protokolların yenidən müzakirəyə çıxarılması dünya müharibəsinin gedişində baş verən

[198]Ətraflı məlumat üçün bax: From General George Moseley to the State Department. The Soviet Union and Turkey.10.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-1045, p.1-3

dəyişikliklər və bu dəyişikliklərə Sovet İttifaqının yanaşma metodları əks olunmuşdu. Qeyd edilən müqavilələrdən başqa SSRİ Xarici İşlər Xalq Komissarlığının arxivində olan sənədlər əsasında tərəflər arasında imzalanmış 17 dekabr 1929-cu il, 7 mart 1931-ci il, 30 oktyabr 1931-ci il, 7 noyabr 1935-ci il protokolları, habelə Moskvadakı Türkiyə səfiri ilə Xarici İşlər Xalq Komissarlığı arasında "Centlmen sazişi" haqqında aparılmış danışıqlara yenidən müraciət edilmişdi. SSRİ ilə Türkiyə arasında fəaliyyətdə olan bütün müqavilə və sənədlərin hüquqi və siyasi mənzərəsini özündə əks etdirən bu arayışın tam mətni 1944-cü ilin sonlarında Bakıya göndərilmişdi.[199]

SSRİ Xarici İşlər Komissarlığı tərəfindən 1944-cü ilin aprel ayının 3-də gizli şəkildə hazırlanıb, tam məxfi qrifi ilə Azərbaycan SSR Xarici İşlər Komissarlığına göndərilmiş digər mühüm sənəd 1944-cü ilin aprel ayının 1-nə qədər Türkiyə ilə SSRİ arasında qüvvədə olan iqtisadi-ticarət, sərhəd, nəqliyyat və digər müqavilə və sazişlər haqqında arayışdan ibarət idi. Əslində, bu müqavilə və sazişlərin belə, dərindən öyrənilməsi, 1944-cü ildə onlara yenidən qayıdılması, bu istiqamətdə hazırlanmış sənədlərin həmin müqavilə və sazişlərin subyekti olan Cənubi Qafqaz sovet respublikalarına gizli şəkildə göndərilməsi Moskvanın SSRİ - Türkiyə münasibətlərini təftiş etmək niyyətindən xəbər verirdi. Arayışın iqtisadi-ticarət bölməsində 1934-cü ilin kredit protokolu, 1937-ci ilin ticarət və gəmiçilik müqaviləsi, sərhəd sazişləri bölməsində 1926-cı il dövlət sərhədləri protokolu, sərhəd çaylarının suyundan istifadə haqda 1927-ci il Konvensiyası, SSRİ ilə Türkiyə arasında sərhəd münaqişələrinin tənzimlənməsi haqqında 1937-ci il Konvensiyası, nəqliyyat və rabitə bölməsində 1922-ci il poçt-teleqraf və dəmiryol konvensiyaları, bir ölkənin hərbi gəmilərinin digər ölkənin limanlarına səfəri barədə SSRİ müvəqqəti işlər vəkili ilə Türkiyə Xarici İşlər Nazirliyi arasında 1930-cu il notalar mübadiləsi, hüquqi sazişlər bölməsində Türkiyədə Sovet vətəndaşlarının əmlakının sekvestrinin yolverilməz-

---

[199] A.Fedosov. 1944-cü ilin yanvar ayının 1-nə qədər SSRİ ilə Türkiyə arasında qüvvədə və fəaliyyətdə olan siyasi müqavilə və sazişlər haqqında arayış. 25.01.1944.// AR DA, f.28, s.4, i.3, v.3-6

liyi haqqında 1928-ci il sazişi, vərəsəliyin leqallaşdırılması haqqında 1936-cı il Türkiyə səfirliyi ilə SSRİ Xarici İşlər Komissarlığı arasında notalar mübadiləsi əks olunmuşdu.[200] Bu müqavilə, saziş və protokolların müəyyən maddələri Azərbaycan Sovet respublikasına və onun vətəndaşlarına da aid idi.

Qeyd edilən istiqamətdə aprel ayının 22-də hazırlanan "1944-cü ilin aprel ayının 15-i üçün SSRİ ilə Türkiyə arasında həll edilməmiş məsələlər üzrə arayış" adlı ikinci sənəd daha maraqlı idi. SSRİ Xarici İşlər Xalq Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri vəzifəsini icra edən A.Fedosov və şöbənin əməkdaşı V. Kornevin hazırladığı 21 səhifəlik geniş arayışda diqqəti çəkən ən mühüm məsələ həll edilməmiş məsələnin təsvirindən sonra Yaxın Şərq şöbəsinin həmin məsələ ilə bağlı təklifləri idi. Hər bir təklifdə baş verən hadisədən Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə olunması irəli sürülürdü.[201] Bütövlükdə, bu təkliflər az sonra Sovetlərin Türkiyəyə qarşı irəli sürəcəyi iddialarının rəsmi başlanğıcı kimi səslənirdi. Son dərəcə məxfi xarakter daşıyan bu sənəd də, eyni ilə Azərbaycan SSR Xarici İşlər Komissarlığına göndərilmişdi. Krım yarımadası alman ordularından azad edildikdən sonra, 1944-cü ilin mayında heç bir zərurət olmadan Krım türklərinin öz tarixi torpaqlarından sürgün edilməsi Türkiyə ilə münasibətlərin pisləşmə fonunda baş verir və Sovet İttifaqının Qara dəniz boyunca sərhədlərini türk əhalisindən təmizlənməsi xarakteri daşıyırdı. Krım türklərinin deportasiya edilməsi haqqında əməliyyatın keçirilməsinə razılıq 1944-cü ilin aprel ayının 2-də verildi. Bu məsələ ilə bağlı 1944-cü ilin may ayının 10-da SSRİ Xalq Daxili İşlər Komissarı L.Beriya Dövlət Müdafiə Komitəsinin sədri İ.Stalinin adına üç səhifəlik məruzə göndərmişdi. Orada deyilirdi: "Daxili İşlər və Dövlət Təhlükəsizliyi Xalq Komissarlıqları

---

[200] A.Fedosov. 1944-cü ilin aprel ayının 1-nə qədər SSRİ ilə Türkiyə arasında fəaliyyətdə olan iqtisadi, sərhəd, nəqliyyat və digər müqavilə və sazişlər haqqında arayış. 03.10.1944.// AR DA, f.28, s.4, i.3, v.28–37.

[201] A.Fedosov və V.Kornev. 1944-cü ilin aprel ayının 15-i üçün SSRİ ilə Türkiyə arasında həll edilməmiş məsələlər üzrə arayış. 03.10.1944.// AR DA, f.28, s.4, i.3, v.7–27.

düşmən agenturasını, vətən xainlərini, alman-faşist işğalçıları ilə əlbir olanları və digər antisovet ünsürləri aydınlaşdırmaq və aradan götürmək üçün Krımda əməliyyat tədbirləri həyata keçirib. May ayının 7-nə olan vəziyyətə görə 5381 nəfər belə şəxs həbs edilib. Əhalidə qeyri-qanuni saxlanan 5995 tüfəng, 337 pulemyot, 250 avtomat, 31 minomyot, böyük həcmdə qranat və patrondan ibarət silahlar yığılıb. Qızıl Ordu sıralarından 1944-cü ilə qədər 20 mindən artıq tatar vətənini sataraq və almanların xidmətinə keçərək, fərarilik etmişdir". Daha sonra L.Beriya yazırdı ki, "alman faşist işğalçıları Almaniyadan və Türkiyədən gəlmiş ağqvardiyaçı-müsəlman mühacirlərin köməyi ilə filialları, demək olar ki, Krımın tatarlar yaşayan bütün rayonlarında mövcud olan "Tatar Milli Komitəsi" adlanan təşkilatın kəşfiyyat şəbəkəsini yaradıblar. "Tatar Milli Komitəsi" alman polisi ilə birlikdə 50 min sovet vətəndaşının Almaniyaya zorla aparılmasında, alman ordusu üçün əhali içərisində vəsait toplanmasında, yerli qeyri-tatar əhalisinə qarşı, onların hər cür sıxışdırılması istiqamətində geniş miqyaslı xəyanətkarlıq işlərində fəal iştirak etmişdir. Krım tatarlarının sovet xalqına qarşı satqınlıq hərəkətlərini əsas götürərək və bundan sonra Krım tatarlarının Sovet İttifaqının sərhəd rayonlarında yaşamalarını arzuolunmaz hesab edərək, SSRİ Xalq Daxili İşlər Komissarlığı Dövlət Müdafiə Komitəsinin bütün tatarların Krım ərazisindən sürgün edilməsi haqqında qərar layihəsini baxılmaq üçün Sizə göndərir". L.Beriya yazırdı ki, "Krım tatarlarının xüsusi sürgün olunanlar kimi, həm kənd təsərrüfatında – kolxozlarda və sovxozlarda və həm də, sənayedə və tikintidə istifadə etmək üçün Özbəkistan SSR-in rayonlarında yerləşdirilməsini məqsədəuyğun sayırıq. Tatarların Özbəkistan SSR-də yerləşdirilməsi məsələsi Özbəkistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi yoldaş Yusupovla (Usman Yusupov 1937-1950-ci illərdə ÖK(b)P MK-nın birinci katibi vəzifəsində işləyib – C. H.) razılaşdırılıb. İlkin məlumatlara görə, hal-hazırda Krımda 140-160 min tatar əhalisi yaşayır. Sürgün əməliyyatı may ayının 20-21-də başlayacaq və iyun ayının 1-də başa çatdırılacaqdır. Bununla bağlı, Dövlət Müdafiə Komitəsinin qərar layihəsini təqdim edirik. Xahiş edirik fikrinizi

bildirəsiniz".[202] L.Beriyanın müraciətindən bir gün sonra may ayının 11-də Krım türklərinin sürgün edilməsi haqda İ.Stalinin imzası ilə Dövlət Müdafiə Komitəsinin qərarı qəbul edildi. Krım türklərinin sürgün edilməsi əməliyyatı müəyyən edilmiş vaxtdan əvvəl başa çatdırıldı. Artıq may ayının 20-də Daxili İşlər Komissarının müavini İ.Serov və Dövlət Təhlükəsizliyi Komissarının birinci müavini B.Kobulov Krım türklərinin sürgün edilməsi üzrə tədbirlərin başa çatdırıldığı haqqında L.Beriyaya məruzə etdilər. İyul ayının 4-də L.Beriya Krım əməliyyatının başa çatması haqqında İ.Stalinə hesabat göndərdi. Orada göstərilirdi ki, Krımdan bütövlükdə 225 009 adam sürgün edilmişdir, bunun 183155 nəfəri tatar, 12 422 nəfəri bolqar, 15 040 nəfəri yunan, qalanları isə digər xalqların nümayəndələridir. Dövlət Müdafiə Komitəsinin 1944-cü ilin may ayının 21-də qəbul edilmiş qərarına uyğun olaraq tatarların 151604 nəfəri Özbəkistan SSR-in vilayətlərinə, 31 551 nəfəri isə Rusiya Federasiyasının müxtəlif vilayətlərinə sürgün olunmuşdur.[203] Ümumiyyətlə, XIX əsrin sonlarından 1944-cü ildə deportasiya olunana qədər Krım türklərinin əhali artımı ilə bağlı maraqlı etno-demoqrafik proseslər baş verib. 1922-ci ildə Simferopolda nəşr edilmiş "Krımın Statistik-İqtisadi Atlası"nda 1897-ci il əhali sayımına görə Krımda 186 212 nəfər, 1921-ci il sayımına görə isə 186 715 nəfər türkün yaşadığı bildirilir. 1944-cü ilin deportasiya materiallarında isə onların sayı 183 155 nəfər göstərilir. Bu da bütövlükdə 50 il ərzində Krım türklərinin sayının azalması deməkdir.[204] Türklərin Krımdan sürgün edilməsi başa çatdırıldıqdan sonra ÜİK(b)P MK-nın Siyasi Bürosu 1945-ci ilin iyun ayının 30-da Krım Muxtar Sovet Sosialist Respublikasının Rusiya Federasiyası tərkibində Krım vilayətinə çevrilməsi haqda qərar qəbul etdi, lakin, Siyasi Büronun iclasında Krımla bağlı

---

[202] The National Security Archive at the George Washington University (далее –The NSA), Doc.3069. Krım türklərinin Krım yarımadasından sürgün edilməsi haqqında ətraflı məlumat üçün bax: Сталинские депортации. 1928–1953. Документы. М., 2005, с.491-521

[203] Bax: А.Топтыгин. Неизвестный Берия. М.,2002, с.165; The NSA, Doc.9077

[204] Bax: Статистико-экономический атлас Крыма. Выпуск 1. Симферополь, 1922, с.9.

qərarın mətbuatda dərc edilməməsi lazım bilinirdi.[205] Türkiyə ilə münasibətlərin pisləşməsi fonunda milli-etnik mənsubiyyətlərinə görə, SSRİ-nin ən böyük türk xalqlarından birinin öz yurdlarından sürgün edilməsi mənəvi-siyasi baxımdan azərbaycanlılar üçün narahat bir dövrün, etimadsız bir siyasi mühitin yaranmasından xəbər verirdi.

Müttəfiqlərlə yazışmalarında Stalin Türkiyəyə etimad göstərilməməsini açıq şəkildə ifadə edirdi. 1943-cü ilin yanvar ayında Türkiyə rəhbərliyi ilə keçirdiyi Adana görüşündə Çörçil sovet-türk münasibətlərini yumşaltmağa çalışsa da, bunun ciddi nəticələri olmadı.[206] Britaniya Baş naziri Adana görüşü və ondan sonrakı dövrdə türklərə rəğbətini gizlətmirdi. O, Türkiyə prezidenti İsmət İnöynüyə təqdim etdiyi bəyanatın xülasəsini Stalinə də göndərmişdi və orada yazırdı: "Mən 1909-cu ildə müasir Türkiyənin əsasını qoyan çox sayda cəsarətli adamlarla görüşlərdən sonra Türkiyədə olmamışdım. Böyük Britaniya ilə Türkiyə arasında dostluq münasibətlərinin uzun tarixi vardır. Bu tarix ötən müharibədən dəhşətli yara almışdır. Alman intiriqaları, eyni zamanda ingilislərin və türklərin səhvləri ona gətirib çıxardı ki, biz əks cəbhələrdə olduq. Biz cəsarətlə vuruşan layiqli düşmənlər idik, lakin o günlərlə vidalaşdıq, biz də, amerikalı müttəfiqlərimiz də gücümüzü qoymağa hazırıq ki, hamımız bir yerdə olaq və dinc quruculuğa doğru yolumuzu birlikdə davam etdirək..."[207] Lakin Çörçilin bu səmimi sözləri Stalinin qəlbinə yol tapa bilmədi. 1944-cü ilin fevral ayında Sovet lideri Çörçilə yazırdı ki, Türkiyə bir tərəfdən dostluq və neytrallıq haqqında müqavilə SSRİ, təcavüzkara müqavimət göstərmək üçün qarşılıqlı yardım haqqında müqavilə ilə Britaniya ilə bağlıdır, digər tərəfdən, SSRİ-yə hücumdan 3 gün əvvəl dostluq haqqında müqavilə imzalayıb özünü Almaniya ilə bağlamışdır. Mənə məlum deyil, Türkiyə indiki şəraitdə SSRİ və Böyük Britaniya qarşısında öhdəliklərini, Almaniya qarşısında öhdəlikləri ilə bir

---

[205] Krım MSSR-nın RSFSR-in tərkibində Krım vilayətinə çevrilməsi haqqında ÜK(b)P MK Siyasi Bürosunun qərarı. 30.06.1945. // RDSSTA, f.17, s.3, i.1053, v.9.

[206] Adana görüşünün yekunları haqqında məlumat üçün bax: 1945-ci ilin yanvar ayının 30-31-də Adanada baş tutmuş ingilis-türk konfransının razılaşdırılmış nəticələri. 24.02.1943.// RDSSTA, f.82, s.2, i.1103, v.207-208

[207] Baş Nazirin president İsmətə və Adana konfransında türk nümayəndələrinə bəyanatının xülasəsi. 24.02.1943.// RDSSTA, f.82, s.2, i.1103, v.206

yerdə yerinə yetirməyi necə təsəvvür edir".[208] 1944-cü ilin iyul ayının 15-də o, Çörçilə göndərdiyi şəxsi məktubunda Türkiyə ilə danışıqlar aparmağın heç bir əhəmiyyəti olmadığını yazırdı. Buna səbəb kimi Stalin 1943-cü ilin noyabr-dekabr və 1944-cü ilin may-iyun aylarında Türkiyə hökumətinin müttəfiqlər tərəfindən müharibəyə daxil olmaqdan yayınmasını göstərirdi. O, qeyd edirdi ki, Almaniyaya münasibətdə Türkiyə qeyri-müəyyən mövqe tutduğundan "Türkiyəyə yeni təzyiq göstərməmək, onu öz iradəsini ifadə etməkdə sakit buraxmaq yaxşı olardı. Bu, əlbəttə, o deməkdir ki, Almaniya ilə müharibədən yayınan Türkiyənin iddiaları, müharibədən sonrakı məsələlərdə xüsusi hüququ da öz mənasını itirir".[209] Göründüyü kimi, 1944-cü ilin yazından başlayaraq Qara dəniz sahillərinin türklərdən təmizlənməsi, bilavasitə Stalinin Türkiyə barədə gələcək niyyətləri ilə bağlı idi.

Krım türklərindən az sonra 1944-cü ilin noyabrında Gürcüstan Sovet Respublikasının Türkiyə ilə sərhəd rayonlarında yaşayan ahıska türkləri və onlarla yanaşı, çoxlu sayda azərbaycanlılar da deportasiyaya məruz qalması Azərbaycan SSR üçün əlavə çətinliklər yaradırdı. Hələ 1944-cü ilin iyul ayının 24-də Stalinin adına hazırladığı məruzədə L.Beriya yazırdı: "Gürcüstan SSR-in Türkiyə ilə sərhəd rayonlarında türk əhalisi yaşayır. Bu əhalinin böyük hissəsi Türkiyənin sərhəd rayonlarının sakinləri ilə qohumluq əlaqələrinə malikdir. Onlar qaçaqmalçılıqla məşğul olub, mühacir əhvali-ruhiyyəsinə malikdirlər və Türkiyə kəşfiyyat orqanları üçün casus ünsürlər rolunu oynayırlar". Dövlət sərhədlərini möhkəmləndirmək məqsədilə Beriya təklif edirdi ki, Gürcüstanın Türkiyə ilə sərhədlərdə yerləşən rayonlarında yaşayan 86 min nəfər türk, kürd və xemşil (16 700 təsərrüfat) əhalisi Qazaxısan, Özbəkistan və Qırğızıstan SSR-ə köçürülsün. O, əlavə edirdi ki, "türklərin köçürülməsi başa çatdırıldıqdan sonra Gürcüstanın digər yerlərindən bu rayonlara 7 min aztorpaqlı kolxozçuların köçürülməsini məqsədəuyğun hesab

[208] İ.Stalinin U.Çörçilə şəxsi məktubu. 12.02.1944.// RDSSTA, f.82, s.2, i.1103, v.195
[209] İ.Stalinin U.Çörçilə şəxsi məktubu. 15.07.1944.// RDSSTA, f.82, s.2, i.1104, v.492-493

edirik".[210] Bu məruzəyə əsasən Dövlət Müdafiə Komitəsinin 1944-cü ilin iyul ayının 31-də qəbul etdiyi qərarda Gürcüstanın Türkiyə ilə sərhəddə yerləşən rayonlarından sürgün edilən əhalinin 49 mini Qazaxıstan, 30 mini Özbəkistan, 16 mini isə Qırğızıstanda yerləşdirilməli idi.[211] DMK-nin müvafiq qərarına uyğun olaraq, həmin ilin sentyabr ayının 20-də Gürcüstan SSR-in Türkiyə ilə sərhəd rayonları olan Adigey, Axalsix, Axalkələk, Aspindz, Boqdanovski və Acariya Muxtar Respublikasından 15 568 ailədən ibarət 69 869 nəfər adam Orta Asiya respublikalarına sürgün edildi. Sovet orqanlarının məlumatına görə, bunlardan 59 780 nəfəri (13434 ailə) türk, 8 627 nəfəri (1830 ailə) kürd, 1 462 nəfəri (304 ailə) isə xemşillər idi.[212] 1944-cü ilin noyabr ayının 28-də İ.Stalin, V.Molotov və G.Malenkovun adına hazırlanmış məruzədə qeyd olunurdu ki, ahıska türklərinin sürgün edilməsi ilə bağlı əməliyyatın hazırlanması və həyata keçirilməsi sentyabr ayının 20-dən noyabr ayının 15-nə qədər davam etmişdir. Orada yazılırdı ki, sürgün edilənlərin ümumi sayı 91 095 nəfərdir. Onlardan 79 201 nəfəri ahıska türkləri idi. SSRİ-də sürgün olunan xalqlar barədə məlumatlar dəqiqləşdirildikdən sonra bu rəqəmlər daha da artdı. Araşdırmalar zamanı məlum oldu ki, müharibə dövründə Gürcüstan SSR-dən 24 min nəfər azərbaycanlı əhali sürgün edilmişdir. Onlardan 11 min nəfəri Özbəkistanda, 10 min nəfərə yaxını Qazaxıstanda və təxminən 3 min nəfəri Qırğızıstanda yerləşdirilmişdi.[213]1946-cı ildə SSRİ Dövlət Təhlükəsizliyi Komissarlığının 3-cü idarəsinin hazırladığı məlumatda müharibə dövründə 400 478 nəfər çeçen və inquşların, 60 139 nəfər qaraçaylıların, 32 817 nəfər balkarların, 81 673 nəfər kalmıkların, 193 959 nəfər Krım tatarı, bolqar və yunanların, 774 178 nəfər almanların (bunların bir hissəsi Azərbaycan SSR-dən sürgün

---

[210]L.Beriyanın Dövlət Müdafiə Komitəsinin sədri İ.Stalinə məruzəsi. 24.07.1944.// RFDA, f.P-9401, s.2, i.66, v.19

[211] Gürcüstan SSR-in sərhəd zonasından türk, kürd və xemşillərin köçürülməsi haqqında Dövlət Müdafiə Komitəsinin qərarı. 31.07.1944.// RFDA, f.P-9401, s.2, i.66, v.20

[212]Gürcüstan KP MK-nın katibi P.Kovanovun Sov.İKP MK-ya məktubu. 1957.// GPA, f.14, s.39, i.219, v.1.

[213] Сталинские депортации. 1928–1953„с.538.

edilmişdi – C.H.), 84 402 nəfər türk, kürd, xemşillərin (Gürcüstan SSR-dən), bütövlükdə isə 2 milyon adamın öz doğma yurdlarından deportasiya olunduğu göstərilirdi.[214]

1944-cü ilin əvvəllərindən başlayaraq Sovet ordusunun cəbhələrdə qələbələri SSRİ-nin Türkiyəyə təzyiqlərinin artması ilə müşayiət olunurdu. Sovet xüsusi xidmət orqanları, kəşfiyyat idarələrinin Türkiyə haqqında topladığı materiallar indi artıq ona qarşı müxtəlif təzyiq imkanlarını əldə etmək xarakteri daşıyırdı. Bütün bunlar Cənubi Qafqaz respublikalarında, o cümlədən, Azərbaycan SSR-də Türkiyə əleyhinə təbliğat kampaniyasının güclənməsi ilə müşayiət olunurdu. Müharibədəki əsaslı dönüşdən sonra Azərbaycan SSR-in təhlükəsizlik orqanları Türkiyədəki Azərbaycan mühacirəti, ölkənin şərq vilayətlərində siyasi və hərbi vəziyyət haqqında daha sistemli materiallar toplamaq istiqamətində fəaliyyətlərini genişləndirdilər.

Sovet cəbhəsində əsir alınmış yüksək rütbəli alman hərbçilərindən Türkiyənin guya 1942-1943-cü illərdə SSRİ-yə hücum etmək niyyətlərinin olması barədə təsdiqləyici ifadələr alınırdı. SSRİ tərəfindən əsir alınmış general-feldmarşal Fridrix Paulyus sovet orqanlarına ifadə vermişdi ki, 1941-ci ilin dekabr ayında Şimali Afrikada olan Almaniya ordusunun Türkiyə üzərindən Sovet cəbhəsinə göndərilməsi planı olub və guya türk hökuməti buna yardım edəcəyini bildirmişdi. Onun ifadəsinə görə, Şimali Afrikadan gətirilmiş Rommelin ordusu Qafqazın işğal edilməsində iştirak etməli idi. Başqa bir yüksək rütbəli alman əsiri general-leytenant Vinsers Müller bildirmişdi: "1942-ci ilin ortalarında Almaniya ordu qrupunun Poltavada keçirilmiş müşavirəsində Hitler demişdi ki, Almaniya ordusu Qafqazda görünən kimi Türkiyənin onların müttəfiqi olmasına çalışacaq. O, əlavə etmişdi ki, guya Almaniyanın Qafqaza hücumu neft mənbələrini ələ keçirməklə yanaşı, Türkiyənin Almaniya tərəfindən müharibəyə girməsinə zəmin yaratmalı idi. Fon Manşteynin 11-ci ordusunun birinci yaveri polkovnik Rixard Verner isə öz ifadəsində

[214] А.Топтыгин. Неизвестный Берия, с.167.

göstərirdi ki, Krım alman ordusu tərəfindən tutulduqdan sonra 1942-ci ilin iyul ayında Baş nazir Ş.Şaracoğlunun kabinetinin mətbuat idarəsinin direktoru başda olmaqla Xarici İşlər nazirliyinin məsul işçiləri və nüfuzlu mətbuat işçilərindən ibarət bir heyət Krıma gəlib. Vernerin sözlərinə görə, onlar burada Türkiyənin təsirində olan müstəqil Krım tatar dövlətinin yaradılmasının mümkünlüyünü araşdırıblar.[215] Feldmarşal Paulyus və general Verner hətta, Türkiyənin SSRİ-yə hücum edəcəyi tarixi də açıqlamışdılar. Onların birgə imzaladığı sənədə görə, bütün hazırlıq işlərini başa çatdırdıqdan sonra guya İsmət İnönü hökuməti 1942-ci ilin oktyabr ayının 17-də SSRİ-yə hücum etməli idi.[216] Keçmiş alman ordusunun polkovniki fon Rixard Verder öz ifadələrində daha dərinə gedərək Türkiyənin SSRİ-yə hücum edəcəyi təqdirdə Ankaranın guya Qafqazın həmsərhəd ərazilərinin, xüsusilə Ermənistanın Türkiyəyə birləşdirilməsini tələb etdiyini bildirirdi. O, sovet orqanlarına ifadəsində 1942-ci ilin iyul ayında Türkiyə nümayəndə heyətinin Krıma səfərinin geniş mənzərəsini təsvir edir və Almaniya ordusunun Qafqazı tutacağı təqdirdə Türkiyənin müharibəyə girəcəyini təsdiq edirdi.[217]

Vermaxt ordusu Qafqaza yaxınlaşanda Almaniya kəşfiyyatı İrandakı vəziyyətlə bağlı kəşfiyyat materialları toplayırdı. İranda gizli fəaliyyət göstərən Almaniya kəşfiyyat orqanlarının nümayəndəsi Frans Mayer İranın hərbi və daxili siyasi vəziyyəti, rus və ingilis orduları, İranda yol tikintiləri və istehkamlar, müttəfiqlərə qarşı gizli radio təbliğatının imkanları və sair məsələlər haqqında zəruri məlumatlar toplayıb Tehrandakı Yaponiya səfiri İxikava vasitəsi ilə Hitlerin qərargahına göndərilmişdi.[218]

Qərargahı Tbilisidə yerləşən Sovet ordusu Zaqafqaziya Cəbhəsi kəşfiyyat idarəsi 1944-cü ilin yayında türk ordusunun bütün ölkə

---

[215] S.Kruqlovun İ.Stalin, V.Molotov, L.Beriya və A.Jdanova məlumatı. 10.04.1947.// RFDA, f.P-9401, s.2, i.169, v.136-139

[216] V.Verner və F.Paulyusun Sovet hökumətinə müraciəti. 29.03.1947.// RFDA, f.P-9401, s.2, i.169, v.140

[217] Polkovnik fon Rixard Verderin ifadəsi. 01.04.1947.// RFDA, f.P-9401, s.2, i.169, v.179.

[218] Tokiodakı alman səfiri Ottun Xarici İşlər nazirliyinə teleqramı. 25.06.1942.// RFDA, f.P-9401, s.2, i.97, v.224.

ərazisində yerləşməsi barədə böyük xəritələr hazırlamışdı. Bu tipli xəritələr, adətən müharibə başlanması ehtimal olunan ölkələr haqqında hazırlanırdı. Türkiyə silahlı qüvvələrinin İstanbul, İzmir, Ankara, Ərzurum, Sinop, Hatay, Şərqi Anadolu, Boğazlar və Qərbi Anadolu birləşmələrinin dislokasiyasını özündə əks etdirən 8 xüsusi hissədən ibarət olan bu xəritələr may ayının 15-də Zaqafqaziya Cəbhəsinin hərbi qərargah rəisi general-leytenant İvanov tərəfindən təsdiq edilmiş və kəşfiyyat şöbəsinin rəisi polkovnik Qorşkov tərəfindən 1944-cü ilin iyun ayının 6-da xüsusi hərbi poçt ilə Azərbaycan Kommunist Partiyasının birinci katibi M.C.Bağırova göndərilmişdi.[219]

Eyni zamanda, 1944-cü ildə Sovet ordusunun Baş qərargahı Türkiyə sərhədləri boyunca İran, İraq və Ermənistan ərazilərində kürd tayfa birliklərinin yerləşməsini özündə əks etdirən xüsusi xəritə hazırlamışdı. Bu xəritənin sol küncündə 42 kürd tayfasının adı, onların başçıları və sayları göstərilirdi. Kürd tayfaları haqqında məlumatların və xəritənin Sovet ordusu Baş qərargahı tərəfindən hazırlanması və Türkiyənin Şərq vilayətlərinin kürd tayfalarının əhatəsində verilməsi Sovetlərin Türkiyəyə qarşı gizli niyyətlərindən xəbər verirdi.[220] Sovet Ordusunun Baş Qərargahında gizli şəkildə hazırlanmış bu xəritə də xüsusi hərbi poçt xidməti tərəfindən Azərbaycan SSR-in rəhbərliyinə çatdırılmışdı. 1944-cü ildə Azərbaycan Respublikası Xarici İşlər Xalq Komissarlığı yaradıldıqdan sonra kürd məsələsinə dair V. Molotovun Yaxın Şərq ölkələrindəki sovet diplomatik idarələrinə göndərilən təlimat xarakterli gizli məktubunun surəti Bakıya – respublika Xarici İşlər Xalq Komissarlığına göndərilmişdi.[221]

Bütün qeyd edilən sənədlərlə yanaşı, 1944-cü ilin sonlarında türk boğazlarının hüquqi-siyasi statusu ilə bağlı SSRİ Xarici İşlər Komissarlığında hazırlanan çox mühüm arayışlar və bəzi yazışmalar

---

[219] 1944-cü ilin iyun ayının 6-na olan məlumata görə, türk ordusunun dislokasiyası. 06.06.1944.// ARPİİ SSA, f.1, s.89, i.154, № 1-8.

[220] Yenə orada. № 9.

[221] Bax: Moskvadan Azərbaycan XXİK-ın siyasi şöbəsinə dair həll edilməli olan məsələlərin siyahısı. 12.02.1945.// AR DA, f.28, s.6-c, i.6, v.13

da Bakıya göndərilmişdi. Azərbaycan Xarici İşlər Xalq Komissarlığına göndərilən Bosfor və Dardanel boğazlarının tarixi keçmişi və indiki vəziyyəti ilə bağlı sovet ekspertlərinin hazırladığı sənədlər boğazlar rejiminin təftiş edilməsini nəzərdə tuturdu. Həmin arayışların və məxfi sənədlərin Cənubi Qafqaz respublikalarına, o cümlədən, Azərbaycana göndərilməsi respublika xarici işlər xalq komissarlıqlarını nəzərdə tutulan dəyişikliklərə səfərbər etmək xarakteri daşıyırdı. Əslində, 1944-cü ilin payızında Boğazlar rejiminə dair Montrö sazişinin dəyişdirilməsi Türkiyəyə münasibətdə Sovet İttifaqının siyasətinin çıxış nöqtəsini təşkil edirdi. Bu məsələ 1944-cü ilin oktyabrında SSRİ-yə səfər edən Böyük Britaniyanın Baş naziri Çörçill ilə İ.Stalin arasında geniş müzakirə edilmişdi. Nəzərə almaq lazımdır ki, Sovet İttifaqı bu məsələyə hələ Tehran konfransı ərəfəsində hazırlaşırdı. 1943-cü ilin noyabr ayının 26-da Moskvada, xüsusilə, Xarici İşlər Komissarlığında olan arxiv sənədləri əsasında Komissarlığın Adamov, Qarmaş və Koblyakov familiyalı əməkdaşları "Montrö konfransında Boğazlar haqqında məsələ" adlı 12 səhifəlik arayış hazırlamış, onun bir surətini də Azərbaycan Xarici İşlər Xalq Komissarlığına göndərmişdilər. Arayışda Lozanna konfransında Sovet Rusiyasının Boğazlara münasibətdə müdafiə etdiyi prinsiplər, Montrödə konfransa hazırlıq və həmin mərhələdə Boğazlar məsələsində Sovet İttifaqının mövqeyi, Sovet təkliflərinin Türkiyə Xarici İşlər Nazirliyi ilə razılaşdırılmasına dair çoxsaylı yazışmalar, Montrö konfransının başlanması və gedişi, Britaniya nümayəndələri ilə qarşıdurmalar, Boğazlar rejimi haqda sazişin məzmunu və nəhayət, sazişin tətbiq edildiyi dövrdə onun pozulmasına dair faktlar təhlil edilirdi .[222] Arayışın məzmunundan aydın olur ki, Sovet İttifaqı Qara dəniz boğazlarına dair Montrö sazişini təftiş etməyin yollarını arayırdı. Əslində, 1944-cü ilin sonunda həmin sənədin Bakıya və digər Qafqaz respublikalarının paytaxtlarına göndərilməsi, xarici işlər komissarlıqları yeni təsis edil-

[222] Adamov, Qarmaş və Koblyakov. Montrö konfransında Boğazlar haqqında məsələ. 26.11.1943.// AR DA. f.28, s.4, i.4, v.1-12.

miş sahilyanı ölkələrin Moskva tərəfindən həmin prosesə cəlb edilməsi planlarının tərkib hissəsi idi. Sonradan aydın oldu ki, Qara dəniz boğazlarına dair müxtəlif sovet ekspertləri tərəfindən hazırlanmış bir sıra sənədlərdə məsələnin sahilyanı ölkələrin səsverməsinə çıxarılması nəzərdə tutulurdu və Sovet İttifaqının Qafqaz respublikalarını bu işə cəlb etmək niyyətləri türk boğazlarının taleyinin həllində daha çox səs almaq arzusundan irəli gəlirdi. Bu istiqamətdə ilk cəhdlər, hələ Lozanna konfransı dövründə olmuşdu.[223]

Birinci Dünya müharibəsindən sonra Boğazlar məsələsi hüququ cəhətdən Lozanna konfransında tənzim edildi. Lozanna konfransında ruslar belə hesab edirdilər ki, Boğazlar Türkiyə istisna olmaqla bütün ölkələrin hərbi gəmilərinin üzünə bağlı olmalıdır. Onların təqdim etdiyi layihəyə görə yalnız müstəsna hallarda Türkiyə hökuməti xüsusi dekretlə, ayrılıqda götürülmüş halda yüngül hərbi gəmilərin boğazlardan hər iki tərəfə keçməsinə icazə verə bilərdi, bu şərtlə ki, həmin səfərlər hərbi məqsədlər daşımasın. Müharibə zamanı isə boğazlar Türkiyə istisna olmaqla bütün ölkələrin gəmilərinin üzünə bağlı olmalı idi. Ən nəhayət, Türkiyə boğazları möhkəmləndirmək və oranı hərbiləşdirmək hüququ əldə etməli idi ki, Konvensiyanın qaydalarının yerinə yetirilməsinə nəzarət edə bilsin və bu barədə Konvensiya iştirakçıları qarşısında öhdəlik götürmüş olsun. Bu prinsiplərin Lozannada müdafiə olunması Sovetlərin Türkiyənin maraqlarını qorumaqdan daha çox öz təhlükəsizliyini təmin etmək zərurətindən irəli gəlirdi. Əgər bu təkliflərlə Rusiya Qara dənizdən digər dənizlərə keçmək imkanlarını itirirdisə, digər tərəfdən Sovetlərə düşmən olan ölkələrin hərbi donanmalarının Qara dənizə keçmək cəhdlərinin də qarşısını almış olurdu.[224] Hətta, Sovet Rusiyası Ankaraya təzyiq göstərmək yolu ilə Lozannada müttəfiqi kimi çıxış etməyə onu razı salmaq fikrində idi. Rusiyanın Xarici İşlər komissarı G.Çiçerin Lozannadan Moskvaya L.Karaxana yazırdı:

---

[223] Ətraflı məlumat üçün bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, pp.69-75

[224] Adamov, Qarmaş və Koblyakov. Montrö konfransında Boğazlar haqqında məsələ. 26.11.1943.// AR DA. f.28, s.4, i.4, v.1

"Ankaraya göstərmək lazımdır ki, əgər türk hökuməti bizim əleyhimizə olsa, biz özümüz müdafiənin digər vasitəsini tapacağıq".[225] Lakin bütün bu təzyiqlərin elə bir nəticəsi olmadı. Türklər Lozannada ingilislərə güzəştə getdilər və ingilis layihəsi əsas kimi qəbul olundu. Bu layihənin mahiyyəti isə iki prinsipdən ibarət idi: "Boğazların azadlığı" və "Boğazlar zonasının demilitarizasiyası".

Boğazlar məsələsində Türkiyənin Lozannada Sovet təkliflərini müdafiə etməməsi bir tərəfdən onunla bağlı idi ki, Türkiyə həmin dövrdə boğazlar üzərində təkbaşına nəzarət etmək iqtidarına malik deyildi. Digər tərəfdən Sevr müqaviləsindən imtina etmiş Türkiyə öz müstəqilliyinin beynəlxalq tanınmasına cəhd edirdi və buna uyğun olaraq milli mücadilə nəticəsində bərpa olunmuş milli hüdudlar Lozannada təsdiq olunmuşdu. Lozanna müqaviləsi xarici dövlətlərin Türkiyənin daxili işlərinə müdaxilələrinə son qoydu. Ona görə də Lozanna müqaviləsi boğazlar məsələsində müəyyən güzəştlərə baxmayaraq, türk diplomatiyasının qələbəsi kimi qiymətləndirilə bilər. Heç şübhəsiz ki, sovetlərlə eyni mövqedən çıxış edib beynəlxalq cəhətdən təcrid olunmuş vəziyyətdə qalmaq Türkiyə üçün ağır nəticələr verə bilərdi. Türkiyənin vaxtilə Lozannadakı bu "antisovet" fəaliyyətinə 1944-cü ilin payızında boğazlara dair hazırlanan bütün sovet layihələrdə xüsusi şəkildə diqqət yetrilirdi.

SSRİ Xarici İşlər Xalq Komissarlığından Bakıya göndərilən arayışda Boğazlar rejimini tənzimləyən Montrö sazişinin çox geniş təhlili verilmişdi. 1936-cı ilin iyun ayının 22-də işə başlayan Montrö konfransı bir aylıq gərgin müzakirələrdən sonra 1936-cı ilin iyul ayının 20-də Boğazlar rejimi haqqında Montrö sazişinin imzalanması ilə nəticələnmişdi. Türkiyə, SSRİ, Bolqarıstan, Rumıniya, Böyük Britaniya, Fransa, Yaponiya, Yunanıstan və Yuqoslaviya nümayəndələri tərəfindən imzalanan Montrö sazişi 5 hissədən, 29 maddədən, texniki xarakterli 4 əlavədən və 1 protokoldan ibarət idi. Bütün iştirakçı dövlətlər tərəfindən təsdiq edilirdi ki, Boğazlar rejimi "Türkiyənin, Qara dənizin və sahilyanı dövlətlərin təhlükəsizliyi"

[225] Россия и Черноморские проливы (XVIII–XX столетия). М., 1999, с.375.

çərçivəsində qurulmalıdır. Montrö sazişi 20 il müddətinə imzalanmışdı. Bu müddətin başa çatmasına 2 il qalmış onu imzalamış olan dövlətlərdən hər hansı biri Sazişin ləğvini tələb edə bilərdi.[226] Beləliklə, Boğazlar üzrə Lozanna konfransında yaradılmış Beynəlxalq Komissiya Montrödə ləğv edildi və sazişi şərh etmək funksiyası Türkiyəyə verildi. Bununla da Türkiyə Lozannada itirdiklərini Montrödə bərpa edə bildi.

Lakin 1944-cü ilin oktyabr ayında keçirilən Sovet və Britaniya rəhbərlərinin görüşündən dərhal sonra SSRİ Xarici İşlər Xalq Komissarlığında M.Litvinovun başçılığı ilə fəaliyyət göstərən "Sülh müqavilələrinin hazırlığı və müharibədən sonrakı quruculuğu üzrə komissiya" Sovet İttifaqı ilə İngiltərə arasında əməkdaşlığın mümkün əsasları və perspektivləri haqqında böyük bir sənəd hazırladı. Boğazlar məsələsi ilə bağlı sənəddə qeyd olunurdu ki, bu məsələ əvvəlki kəskinliyini itirsə də, ümumilikdə mövcuddur. İndiki vəziyyət Britaniyanı təmin etsə də, Sovetləri təmin etmir. Boğazlar haqqında məsələyə baxılması qaçılmazdır, çətin ki, İngiltərə bunun əleyhinə olsun. Biz konvensiyaya dəyişiklikləri özümüzün arzuladığımız istiqamətdə etməliyik, əgər mümkün olsa Boğazlar üzərində nəzarəti Qara dəniz sahillərindəki ölkələrin əlinə keçirməliyik. İngiltərənin bu məsələdə bizimlə razılaşmayacağını düşünməyə heç bir əsas yoxdur.[227] Beləliklə, M.Litvinov komissiyasının hazırladığı sənəddə Montrö sazişinə SSRİ-nin maraqları nöqteyi-nəzərindən yenidən baxılmasının zəruriliyi tarixi cəhətdən əsaslandırılır, eyni zamanda Avropada və Balkanlarda "təhlükəsizlik sahəsi"nin müəyyənləşdirilməsi və Türkiyənin Sovet "təsir dairəsi"nə daxil edilməsi barədə İngiltərə ilə "centlmen sazişinin" bağlanması təklif olunurdu. Sənədin sonunda qeyd edilirdi ki, Boğazlar haqqında Montrö sazişinə baxılması barədə qarşılıqlı razılığı özündə əks etdirən təkliflər əlavə olaraq əsaslandırılacaqdır. Eyni zamanda müharibədən sonrakı dövrdə SSRİ ilə Britaniya arasında İran, Əfqanıstan və

---

[226] Adamov, Qarmaş və Koblyakov. Montrö konfransında Boğazlar haqqında məsələ. 26.11.1943.// AR DA, f.28, s.4, i.4, v.10-11

[227] "Sovet Britaniya əməkdaşlığının mümkün bazası və perspektivləri haqqında" M.Litvinovun İ.Stalin, V.Molotov, V. Dekanozov arayışı. 15.11.1944.// RF XSA, f.06, s.9, q.69, i.1071, v.31-88

hətta mümkündür ki, Sincan (Çin) üzrə razılığa gəlinməsi Xarici İşlər Xalq Komissarlığının təkliflərində özünə yer almışdı. Bu sənədlə tanış olarkən onun üzərindəki qeydlərindən aydın olur ki, Xarici İşlər komissarı V.Molotov M.Litvinov komissiyasının hazırladığı geniş arayışın "təsir dairəsi" haqqında söhbət gedən bölmələrinə daha çox maraq göstərmişdir.

M.Litvinov komissiyasının hazırladığı ikinci sənəd bilavasitə "Boğazlar haqqında məsələyə dair" adlanırdı və İngiltərə ilə əməkdaşlığın əsasları haqqında qeydlərə əlavə olaraq hazırlanmışdı. Əslində birinci geniş sənədin yekunlarında verilmiş üçüncü bənddə qeyd olunurdu ki, Boğazlar məsələsinə dair təkliflər əlavə sənəddə təqdim olunacaqdır. Elə həmin gün, 1944-cü ilin noyabr ayının 15-də M.Litvinov tərəfindən imzalanmış və Stalin, Molotov, Dekanozov, Lazovski, Manuilski, Mayski və Surisə təqdim olunmuş dörd səhifəlik qeydlərdə Boğazlar məsələsinə münasibətdə sovetlərin arzu və təklifləri əks olunmuşdu. Boğazlar məsələsi haqqında əvvəllər hazırlanmış tarixi arayışlar bu məruzənin hazırlanmasında əsas kimi götürülmüşdü. Bütövlükdə, sənəd Boğazlardan gəmilərin hərəkət rejiminə münasibətdə Türkiyəni müstəsna nəzarət hüququndan məhrum etməyə yönəlmişdi. Orada göstərilirdi ki, Boğazlar haqqında sazişin müddəti 1956-cı ildə başa çatır. Bu müddət başa çatmadan Konvensiyaya dəyişikliyi nəzərdə tutan hallar bizə imkan vermir ki, Türkiyə ilə razılaşmadan bizim arzuladığımız dəyişikliyə nail olaq. Lakin M.Litvinov qeyd edirdi ki, bir sıra formal cəhətlərdən yayınaraq indiki müharibə nəticəsində şəraitin ciddi şəkildə dəyişməsi əsasında Montrö sazişi haqqında məsələni qoymaq mümkündür. Bunu M.Litvinov Yaponiyanın konvensiya iştirakçıları sırasından çıxarılması və Montrö sazişinin bir neçə maddəsində istinad edilən Millətlər Cəmiyyətinin öz fəaliyyətini dayandırması ilə əlaqələndirirdi. M.Litvinovun fikrincə, əlbəttə, Türkiyənin Sazişə yenidən baxılmasına müqavimət göstərəcəyi halda yalnız onun iştirakçılarının əksəriyyəti, ən əsası isə İngiltərə ilə qabaqcadan razılaşma və əməkdaşlıq şəraitində yenidən baxmaq mümkün ola bilər (50).[228] M.Litvinov komissiyası Sovet

[228] M.Litvinov. Boğazlar məsələsinə dair. 15.11.1944.// RF XSA, f.06, s.9, q.14, i.143, v.62.

rəhbərliyinə tövsiyə edirdi ki, Lozanna və Montrö arasında mövcud olan beynəlxalq nəzarətə qayıdılmasından imtina edilməlidir, lakin bizim təsirimizin Rumıniya və Bolqarıstanda yetərincə möhkəm olduğu şəraitdə Qara dəniz dövlətlərinin birgə nəzarəti ideyası tamamilə qəbul ediləndir. Bu halda biz nəzarət komissiyasında səslərin dörddə üçünü əldə edirik, Gürcüstan və Ukraynanın komissiyaya daxil ediləcəyi təqdirdə isə biz səslərin altıda beş hissəsinə malik oluruq.[229] .

Boğazlar məsələsinə dair Montrö sazişini dəyişdirmək və Türkiyəni Bosfor və Dardanel üzərində müstəsna hüquqdan məhrum etmək istiqamətində SSRİ Xarici İşlər Xalq Komissarlığında gərgin iş gedirdi. 1944-cü ilin noyabr ayının 17-də yenidən M.Litvinovun rəhbərliyi ilə "Boğazlar haqqında məsələyə dair" adlı iki səhifəlik qeydlər İ.Stalin, V.Molotov, V.Dekanozov, S.Lazovski və digərlərinə göndərildi.[230]

Beləliklə, 1944-cü ilin yazından başlayaraq, sovet-türk münasibətləri getdikcə gərginləşmə mərhələsinə daxil oldu. Krım konfransı ərəfəsində Sovet İttifaqı Türkiyənin ərazi suları olan Qara dəniz boğazları üzərində təkbaşına nəzarətinə son qoymaq üçün müxtəlif variantlar hazırlamışdı. Lakin bu, Türkiyəyə qarşı yönəlmiş Sovet tələblərinin ilkin mərhələsi idi. Qarşıda Ankaranı şərq vilayətlərinə yönəlmiş sovet torpaq tələbləri gözləyirdi.

§3.II Dünya müharibəsində əsaslı dönüş və Cənubi Azərbaycanda işlərin canlanması

Sovet İttifaqının ərazisinin faşistlərdən təmizlənməsi, Qırmızı Ordunun Avropa sərhədlərinə çıxması SSRİ-nin ekspansionist meyillərini gücləndirdi. İranın və Yaxın Şərqin yanacaq energetika mənbələrinə çıxmaq yenidən Sovet siyasətinin mərkəzi məsələsinə çevrildi. 1944-cü ildən başlayaraq Cənubi Azərbaycanda da Sovetlərin siyasəti tədricən dəyişməyə başladı. SSRİ-in İranda fəallaşmasının ilk görüntülərindən

---

[229] Bax:From General George Moseley to the State Department. The Soviet Union and Turkey.10.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-1045, p.13

[230] M.Litvinov. Boğazlar məsələsinə dair. 17.11.1944.// RF XSA, f.06, s.9, q.14, i.143, v.65-66.

biri 1944-cü ilin mayında daha çox passiv təsir bağışlayan səfir K.Mixaylovun səhhəti ilə bağlı işdən azad edilməsi oldu. ÜİK(b)P MK-ın Siyasi Bürosunun 1944-cü ilin may ayının 24-də qəbul etdiyi qərarla Sovet İttifaqının İranda səfiri vəzifəsinə Mixayil Maksimov təyin edildi.[231] Britaniya və ABŞ müttəfiqlərinin Yaxın və Orta Şərq siyasəti, onların müharibədən sonra bu regionda iqtisadi cəhətdən güclənmək və xüsusilə, İranı özlərinin milli maraqlar zonasına çevirmək cəhdləri sovetlər üçün mühüm amilə çevrilirdi.

Birləşmiş Ştatların Təbrizdəki konsulu Riçard Ford 1943-cü ilin oktyabr ayında İran Azərbaycanının sosial, siyasi və iqtisadi həyatı haqqında 35 səhifəlik geniş bir memorandum hazırlayıb Dövlət Departamentinə göndərmişdi. O, özünün qeyd etdiyi kimi Azərbaycanda ümumi qəbul edilmiş mətbuat orqanları olmadığı üçün bu memorandumu daha çox şəxsi müşahidələri və ayrı-ayrı adamların məlumatı əsasında hazırlamışdı. Sənədin birinci bölməsi Azərbaycanın irqi səciyyəsi adlanırdı. Orada göstərilirdi ki, "Azərbaycanda doğulan adamların əksəriyyəti irqi mənsubiyyətindən asılı olmayaraq özlərini azərbaycanlı hesab edirlər".[232] R.Ford qeyd edirdi ki, Azərbaycanda yaşayan türklər Osmanlı türklərindən fərqlənsələr də, onlar eyni kökdən idilər və tarixin hansısa mərhələsində bir xalq olmuşdular. O, eyni zamanda Azərbaycanda erməni və assuri icmalarının, kürd tayfalarının və "20 min gözəl gürcü"nün yaşadığını bildirir, onların hər birinin öz dili olmasına baxmayaraq, "ümimi ünsiyyət dilinin türk dialekti olduğunu yazırdı".[233] Memorandumun ikinci bölməsi "Əhalinin özəl səciyyəsi", üçüncü bölməsi isə "Xalqın dini inancları" adlanırdı və bu bölmədə Azərbaycan şiəliyin əsas vətəni kimi təqdim edilirdi. Ford yazırdı ki, İran və Osmanlı imperiyaları arasında əsrlər boyu davam edən dini müharibələrin ağırlığını Azərbaycan çəkməli olurdu. O, əlavə edirdi ki, "türk ideyasının liberallaşması nəticəsində bu gərginlik, demək olar ki, aradan qalxmışdır və indi Azərbaycan keçmiş dini düşmənlər

[231] ÜİK(b)P MK-ın Siyasi Bürosunun qərarı. 24.05.1944.//RDSSTA, f.17, s.3, i.1050, v.49
[232] Memorandum concerning the social and political economy of Azerbaijan. 02.10.1943.// National Archives and Records Administration of the USA, NND 802116, Doc. 891.00/2065/10-143, p.3
[233] Yenə orada, s.5

arasında yerləşən bufer zona kimi Türkiyə təhlükəsindən daha çox, kürd soyğunçuluğundan qayğılanır".[234] Kürdlərin azərbaycanlılara qarşı belə münasibətini Ford onların sünni olması ilə izah edirdi. Azərbaycanlıların dini inancları üzərində geniş dayanan Amerika konsulu belə bir nəticəyə gəlirdi ki, "bütün məqsəd və məramlara görə Azərbaycanda bir tanrı var ki, onun adı Allahdır və əgər molla onun peyğəmbəri deyilsə də, hər halda onun hər yerdə... aydın bir simvoludur".[235]

"Azərbaycanın iqtisadi vəziyyəti" adlı dördüncü bölmə memorandumun ən geniş işlənmiş hissəsi hesab edilə bilər. Bu bölmədə Azərbaycanın iqtisadi həyatı, sənaye və kənd təsərrüfatının haqqında geniş məlumat verilir, kənd həyatı, şəhər mərkəzləri, həyat şəraiti, səhiyyə və sanitariya, əmək şəraiti, təhsil və mədəniyyət məsələləri ətraflı təsvir edilirdi. Riçard Ford da bir çoxları kimi Azərbaycanı İranın taxıl anbarı hesab edir və onun iqtisadi həyatına sovetlərin təsir imkanlarına malik olduğunu qeyd edirdi. Onun fikrincə, bu təsir birbaşa olmayıb, Sovet İttifaqı tərəfindən müdafiə edilən "İran Xalqı" adı ilə fəaliyyət göstərən liberal qruplar vasitəsi ilə həyata keçirilirdi. Sənəddə yerli məlumatlara istinadən İran Azərbaycanı əhalisinin 90 faizinin savadsız olduğu göstərilirdi. Ford Təbrizin mətbuat həyatının solğun olduğunu yazır və şəhərdə iki həftədə bir dəfə, iki vərəqdən ibarət olan "Şahin" adlı qəzetin çıxdığını bildirirdi. Əyalətin mədəni həyatına toxunan Ford yazırdı ki, bəzi böyük şəhərlərdə musiqi sədaları qulağa dəysə də, teatrlar yoxdur və Təbrizin köhnə avadanlıqla köhnə filmlər nümayiş etdirilən bir neçə tökülmüş kinoteatrını çıxmaq şərtilə kino klubları fəaliyyət göstərmir. Onun məlumatına görə Azərbaycanda ədəbi dərnəklər və cəmiyyətlər mövcud deyildi, yalnız çay evləri vardı ki, adamlar orada toplanıb yerli siyasət haqqında fikir mübadiləsi edirdilər.[236]

Memorandumun beşinci bölməsi "Azərbaycanın siyasi mövqeləri" adlanırdı və elə birinci cümlədə qeyd edilirdi ki, "Azərbaycan xalqı siyasəti sevir... və siyasət bu əyalətin böyük ictimai maraq dairəsində olub, bazarın

---

[234] Yenə orada, s.9
[235] Yenə orada, s.10
[236] Yenə orada, s.10-21

və çay evləri qeybətlərinin doxsan doqquz faizlə yüz faiz arasında başlıca müzakirə mövzusudur". Həmin dövrdə Ford əsas siyasi müzakirələrin Azərbaycan əyalətinin iki yerə - üçüncü və dördüncü ostana bölünməsi haqqında getdiyini və yerli əhalinin bundan narazı olduğunu vurğulayırdı. Buna misal olaraq Amerika konsulu "Şahin" qəzetinin 17 sentyabr 1943-cü il sayında getmiş bir yazıdan nümunələr gətirirdi. Orada qeyd edilirdi ki, "Azərbaycan bölünməzdir. Bu üçüncü və dördüncü ostan ideyasının mənası nədədir. Bu Azərbaycandır! Pəhləvilərin rüsvayçı siyasəti dayandırılmalıdır. Biz hamımız bilirik ki, keçmiş şah Azərbaycana etibar etmirdi. Azərbaycan, xüsusilə onun qəlbi azadlıq ruhu ilə döyünən qəhrəman şəhəri Təbriz hər an onun üçün narahatlıq və çətinliklər yarada bilərdi. Ona görə də, o, bütün vasitələrlə bu şəhəri daha çox zəiflədib rahat şəraitdə öz diktaturasını davam etdirmək istəyirdi...Məqsəd, əlbəttə ki, azadlığın bu mərkəzini məhv etmək, Azərbaycanı gözdən salmaq və onun əhəmiyyətini heçə endirməkdir. Taxt-taclarını hər hansı təhlükədən qorumaq üçün hakimiyyətə gəlmək kimi öz arzularına yetişdikdən sonra pəhləvilər qətiyyətlə Azərbaycanın bu paytaxtını zəif və cazibəsiz yerə döndərdilər ki, sakinlər burdan köçməyə məcbur olsunlar, Təbrizin məqamını kənd səviyyəsinə endirsinlər".[237] Ford müxtəlif mülahizələri müqayisə edərək bəzi siyasi dairələrin fikirlərinə istinadən yazırdı ki, Azərbaycanı bölünmüş vəziyyətdə saxlamaq ən yaxşı, ən təhlükəsiz inzibati siyasətdir və "bu adamlar hiss edirlər ki, güclü vahid Azərbaycanın Iranın bütövlüyü üçün hər zaman, xüsusilə müharibədən sonrakı dövrdə təhlükə təşkil edə bilər... Milli ailənin üzvü kimi Azərbaycan şübhəsiz ki, daha çox özünə vurğun, eqoist bir əyalət idi".[238] Riçard Fordun fikrincə, "bütün hallarda bu əyalət taxıl ehtiyaclarının təmin edilməsi baxımından İranın digər əyalətlərinə daha çox kömək etmək imkanına malik olub və o bunu indiyə qədər edir".[239]

Sovet İttifaqına və İrandakı sovet ordularına münasibət də Memorandumda yer almışdı. Amerika konsulu qeyd edirdi ki, bu əyalətin hər yerində diklokasiya edilmiş sovet orduları fonunda Sovet

[237] Yenə orada, s.22-23
[238] Yenə orada, s.24
[239] Yenə orada, s.25

İttifaqına yerli əhalinin münasibətini dəyərləndirmək çətindir. Ford belə hesab edirdi ki, son yarım əsrdə Şimali İranda nəhəng şimal qonşunun təsiri elə güclü olub ki, yerli əhalidə bir növ buna psixoloji immunitet yaranıb. O, əlavə edirdi ki, "hazırda əyalətin sovet hərbi xidmətçilərinin Azərbaycanı hər ev-ev sümürmələrinə baxmayaraq, mən hələ istər ordu, istərsə də millət kimi sovetləri nə açıq şifahi bəyanatlarda, nə də yerli mətbuat orqanlarında mühakimə edən çıxışlara rast gəlməmişəm. Əksinə, yerli mətbuatın çox az təsadüf edilən yazılarında və natiqlərin çıxışlarında sovet hakimiyyətinin ünvanına qeyd-şərtsiz tərifləri ifadə olunur. Belə yanaşma münasibətlərin normal dövründə üzərinə qorxu əlavə edilmiş ehtiyatlı yanaşmanın təzahürüdür. Bütün bunlar yəqin ki, elə də səmimi deyildir".[240] Siyasi baxımdan öz mülahizələrini Riçard Ford belə ümumiləşdirirdi ki, "indiki zamanda doğrudan da Azərbaycanın içində bir müəmma gizlənmişdir. Bir tərəfdən orada yerləşən Sovet ordusunun nə zaman çıxacağı bəlli deyil, digər tərəfdən onunla eyni millətdən olan bir sovet respublikası İran Azərbaycanı ilə sərhəddə yerləşir və Azərbaycan Sovet Sosialist Respublikası və Azərbaycan əyalətinin əhalisi eyni dilə malikdir və hər iki tərəfdə türklər yaşayır. Hər iki tərəfin tarixi, demək olar ki, eyni vaxtlarda yüksəliş və eniş məqamların yaşayıb. Kəndlər bir-birinə oxşayır, sakinlər bənzər xörəklər yeyirlər, eyni paltar geyinir, bənzəri işləri görür, hətta eyni cür düşünürlər...Nəhayət, sovet ordusunun nəhəng kölgəsinin müvəqqəti olaraq Azərbaycanda yerləşməsi bu məsələlərə xüsusi məzmun verir".[241] Əyalətdə məskunlaşan üç azsaylı qrupun – yaxın vaxtlarda Sovet İttifaqından çıxarılmış və sovet ideologiyasına yaxşı bələd olan İran təbəələri, İran müsəlmanlarından narazı olan ermənilər və sovetləşmədən sonra İrana gəlmiş Qafqaz müsəlmanları. Fordun fikrincə, Azərbaycan əyalətində Sovet siyasətinin alətinə çevrilə bilərdi və həmin qruplar, hətta, Təbrizdə yaxın vaxtlarda Sovet İttifaqının dostları cəmiyyətini yaratmışdılar. Forda görə müharibədən sonra "sovet təhlükəsi qaçılmaz idi və Rusiyanın nəhəng gücü

[240] Yenə orada, s.29
[241] Yenə orada, s.29

qarşısında İran, pişiyin öz pəncəsində laqeydcəsinə məzələndiyi köməksiz siçana bənzəyir. Onun xilas olmağa yalnız bir ümidi vardır, bu da müharibədən sonra onun dadına çatacaq müttəfiqlərin, o cümlədən Birləşmiş Ştatların gücü və imkanlarıdır".[242] Fordun fikrincə, ABŞ gələcəkdə İranda yeganə arbitr ola bilərdi, nə müttəfiqlər, nə də ayrı-ayrılıqda Böyük Britaniya və Rusiya bu funksiyanı yerinə yetirə bilməzdi, bu sadəcə ABŞ ola bilərdi.[243] Göründüyü kimi, Sovet xüsusi xidmət və diplomatik orqanlarının İranda Britaniya və ABŞ-ın mövqelərinin güclənməsindən narahatlığı səbəbsiz deyildi.

1943-cü ilin ortalarından başlayaraq İran hakimiyyət orqanları da öz növbəsində Cənubi Azərbaycanda ordu və jandarma qüvvələrini möhkəmləndirməyə çalışırdılar. Sovet hərbi kəşfiyyatının məlumatına görə, Azərbaycanda yerləşən 3-cü Şimal-Qərb diviziyası 7-ci Təbriz, 8-ci Urmiya, 9-cu Ərdəbil briqadalarından ibarət idi. 3-cü diviziyada 1943-cü ilin axırlarında 123 unter-zabit, 4170 zabit və sıravi, bütövlükdə 4293 əsgər və zabit xidmət edirdi. Azərbaycandakı ordunun bu dövrdə 3546 "Brno" tipli tüfəngi, 189 "Brno" pulemyotu, 6 ədəd 75 mm-lik dağ topları, 4 "Bofors" topları, 6 tankı var idi. 1943-cü ilin dekabrında Amerika hərbçilərinin hazırladığı proqram əsasında 3-cü diviziyada 6 aylıq hərbi kurslar yaradılmışdı. 1944-cü ilin əvvəllərində Azərbaycandakı ordunun sayı artırılaraq 5200 nəfərə çatdırılmışdı.[244] 3-cü orduya əvvəlcə briqada generalı Xosrovani, 1944-cü ildən isə əslən Urmiyadan olan, bir müddət 4-cü ostanın general-qubernatoru işləmiş briqada generalı Ələkbər Dərəxşani komandan təyin edilmişdi.

Sovet ordusunun müharibədəki qələbəsi, onun beynəlxalq münasibətlərə təsirinin artması Cənubi Azərbaycanda bir çoxlarını düşündürməyə vadar etmişdi. SSRİ Xarici İşlər Xalq Komissarlığının Bakıya göndərdiyi hesabat xarakterli sənədə görə, Təbrizin iri tacirlərindən və fabrikantlarından olan Xoyi Rəhimzadə beynəlxalq vəziyyəti belə qiymətləndirirdi: "Vəziyyət elə gətirib ki, gərək biz

---

[242] Yenə orada, s.31-32

[243] Yenə orada, s.34

[244] S.Marçenko - S.Kavtaradze və M.Maksimova. SSRİ-in Təbriz Baş konsulluğu dairəsində 1943-cü il ərzində siyasi-iqtisadi vəziyyət haqqında məruzə. 05.06.1944.// AR DA, f.28, s.4, i.19, v.65-66

ruslarla əməkdaşlıq edək. Əks təqdirdə onlar hər hansı bir Titonu (Yuqoslaviyada İosip Broz Tito nəzərdə tutulur – C.H.), yaxud ona bənzər birini tapıb, onun vasitəsilə bizim bütün əmlakımızı alacaqlar. Yuqoslaviyadakı hadisələr və Polşa məsələsi göstərdi ki, İngiltərə və Amerika Rusiyaya qarşı nə isə etməkdə gücsüzdürlər".[245] Ümumiyyətlə, Cənubi Azərbaycanda baş verən hadisələr barədə Təbrizdəki vitse-konsul S. Marçenko 5 iyun 1944-cü ildə SSRİ Xarici İşlər Komissarının müavini Sergey Kavtaradzeyə 84 səhifəlik geniş məruzə göndərmişdi.[246] Cənubi Azərbaycanda gedən proseslərlə yaxından tanış olmaq üçün həmin məruzənin bir surəti 1944-cü ilin dekabrında SSRİ Xarici İşlər Xalq Komissarlığı tərəfindən Azərbaycan Xarici İşlər Xalq Komissarlığına göndərilmişdi.

1944-cü ilin əvvəllərində beynəlxalq aləmdə və İranda yaranmış vəziyyətlə əlaqədar Sovet Azərbaycanı rəhbərliyinin təklifi ilə Moskva Cənubi Azərbaycan məsələsinə yenidən qayıtdı. Mart ayının 6-da SSRİ Xalq Komissarları Soveti V.Molotovun başçılığı ilə "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" məsələni müzakirə edib müvafiq qərar qəbul etdi. Qərarda göstərilirdi:

"1. Cənubi Azərbaycanın və Qırmızı Ordunun yerləşdiyi şəhərlərin əhalisinin böyük əksəriyyətinin azərbaycanlılardan ibarət olduğunu nəzərə alaraq, yerli əhali ilə əlaqələri gücləndirmək üçün sovet siyasi işçilərinin və digər hərbi müəssisələrin tərkibinə azərbaycanlıların (Azərbaycan SSR-dən olan azərbaycanlıların – C.H.) daxil edilməsi məqsədəuyğun sayılsın;

2. Yuxarıdakı mülahizələrə uyğun olaraq, hərbi hissələrində həftədə üç dəfədən az olmayaraq Azərbaycan dilində ordu qəzeti nəşr edilsin və mülki əhaliyə çatdırılsın;

3. Təbrizdə, Ərdəbildə və Cənubi Azərbaycanın digər şəhərlərində sovet ticarət müvəkkillərinin nümayəndələri azərbaycanlılarla əvəz edilməsi məqsədəuyğun sayılsın. Bu dəyişikliklər tədricən

---

[245] Yenə orada, v.45

[246] Bax: S.Marçenko - S.Kavtaradze və M.Maksimova. SSRİ-in Təbriz Baş konsulluğu dairəsində 1943-cü il ərzində siyasi-iqtisadi vəziyyət haqqında məruzə. 05.06.1944.// AR DA, f.28, s.4, i.19, v.38-122

Cənubdakı maliyyə və digər idarələrin nümayəndələrinə də tətbiq edilsin. Məsələn, Təbrizdəki Sovet Bankı və s.;

4. Bizim İrandakı diplomatik orqanlarda - konsul, vitse-konsul və konsulluğun katibi vəzifələrində azərbaycanlı işçilərimizin olması məqsədəuyğun sayılsın. Xüsusilə Təbrizdə və Makuda bunun daha çox vacib olduğu qeyd edilsin;

5. Tehrandakı Sovet səfirliyi və ticarət nümayəndəliyində 1-2 nəfər azərbaycanlı işçimizin olması məqsədəuyğun sayılsın;

6. Müxtəlif siyasi və bədii ədəbiyyat, o cümlədən, Cənubi Azərbaycan yazıçı və şairlərinin əsərlərinin nəşri və əhali arasında yayılması məqsədilə Təbriz şəhərində yaxşı avadanlıqla təchiz edilmiş "Təbriz" adlı mətbəə yaradılsın;

7. 1944-cü ilin may-iyun aylarında Azərbaycan Dövlət Dram Teatrının Təbrizə və bir konsert briqadasının Cənubi Azərbaycan şəhərlərinə qastrol səfərləri təşkil edilsin;

8. Təbrizdə Azərbaycan dilində təhsil verən on illik orta məktəb təşkil edilsin. Fars dili və ədəbiyyatı orada bir fənn kimi keçilsin, təhsil pulsuz olsun. Pedaqoji kollektiv Sovet Azərbaycanı müəllimlərindən komplektləşdirilsin;

9. Qeyd edilən məktəbdə kitabxana, oxu zalı açılsın, oradan təkcə şagirdlərin deyil, yerli əhalinin də istifadəsinə icazə verilsin;

10. Torpağın becərilməsi və bağçılıq sahəsində kəndlilərə əməli kömək göstərmək məqsədilə Təbriz ətrafında nümunəvi aqrotexniki stansiya yaradılsın;

11. İşsizlərin heç olmasa kiçik bir hissəsinə iş vermək məqsədilə Təbrizdə corab-trikotaj fabriki yaradılsın".[247]

SSRİ Xalq Komissarlar Sovetinin bu qərarı İran Azərbaycanında genişmiqyaslı işlərin başlanmasından xəbər verirdi.

Mart ayının əvvəllərində İrandakı Sovet təsərrüfat və ordu hissələrində işləmək üçün Sovet Azərbaycanı zabit və siyasi işçiləri üçün 33 yer, ticarət müvəkkilliyində işləmək üçün 11 yer ayrıldı.

[247] "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" SSRİ Xalq Komissarları Sovetinin qərarı. 06.03.1944.// ARPİİ SSA, f.1, s.89, i.84, v.1-5

SSRİ Xalq Komissarları Sovetindən M.C.Bağırova göndərilən teleqramda deyilirdi: "Xahiş edirik, müvafiq namizədlərin seçilməsinə göstəriş verəsiniz və sənədlərini rəsmiləşdirmək üçün onları Moskvaya göndərəsiniz".[248] Azərbaycan K(b)P MK Bürosunun 20 mart 1944-cü il tarixli qərarı ilə İrandakı Sovet diplomatik idarələrində işləmək üçün 14 nəfər azərbaycanlı təsdiq üçün ÜK(b)P MK-ya göndərildi. Azərbaycan K(b)P MK Bürosu MK katibinin müavini Əhəd Yaqubov Tehrandakı Sovet səfirliyinə müşavir, Dərbənd şəhər partiya komitəsinin katibi Əli Əliyev səfirliyin birinci katibi, Saatlı rayon Dövlət Təhlükəsizliyi şöbəsinin rəisi Cəbrayıl Aşumov səfirliyin üçüncü katibi, Azərbaycan Kommunist partiyasının üçüncü katibi Həsən Həsənov Təbrizdəki baş konsulluğa vitse-konsul, Azərbaycan K(b)P MK-ın yüngül sənaye üzrə katibinin müavini Mirzə Məmmədov baş konsulluğa katib, Azərbaycan Dövlət Təhlükəsizlik Komissarlığının birinci şöbəsinin rəisi Mustafa Mustafayev Makuya vitse-konsul, Azərbaycan Komsomol təşkilatının ikinci katibi Bağır Seyidzadə Maku konsulluğuna katib, Quba rayon Dövlət Təhlükəsizliyi şöbəsinin rəisi Paşa Ələkbərov Urmiya vitse-konsulluğuna katib, Bakı partiya təşkilatı katibinin müavini Bəndalı Mehdiyev Ərdəbil vitse-konsulluğuna katib, Azərbaycan Dövlət Təhlükəsizliyi Komissarlığının istintaq şöbəsinin rəisi Şamil Nəzərli Rəşt Baş konsulluğuna vitse-konsul, Azərbaycan Kommunist partiyası katibinin müavini Məmməd Şərifov Qorqana konsul, Daxili İşlər Xalq Komissarlığının məsul işçisi Zeynal Gözəlov Qəzvin konsulluğuna katib, yenə həmin komissarlığın xüsusi idarəsinin rəisi Seyfulla Süleymanov Bəndərşah konsulluğuna katib, Daxili İşlər və Dövlət Təhlükəsizliyi Komissarlığının partiya təşkilatı katibi Əhəd Bağırzadə Tehrandakı Sovet səfirliyinin mədəniyyət evinə direktor vəzifəsinə təsdiq edildilər.[249] MK Bürosundan keçmiş şəxslər 1944-cü ilin aprel ayının 4-də Moskvaya göndərildilər və bir ay ərzində onlar SSRİ Xarici İşlər Komissar-

[248] A.Mikoyanın M.C.Bağırova teleqramı. 05.03.1944.// ARPİİ SSA, f.1, s.89, i.84, v.11
[249] Azərbaycan KP MK Bürosunun qərarı. 20.03.1944.// ARPİİ SSA, f.1, s.129, i.80, v.2-3

lığında İranla bağlı diplomatik yazışmaları, Sovet səfirliyinin hazırladığı arayışları öyrəndilər və komissarlığın əməkdaşları, o cümlədən, Sovet İttifaqının Tehrana yeni təyin edilmiş səfiri M. Maksimovla görüşdülər. Diplomatik təyinat almış Azərbaycan nümayəndələrini Moskvada V.Molotov qəbul etdi. Görüş zamanı o, SSRİ-nin İranda və ilk növbədə, Cənubi Azərbaycanda başladığı işin əhəmiyyətindən və məsuliyyətindən danışdı. Molotov izah etdi ki, yeni təyinat almış Azərbaycan nümayəndələri İrandakı şəraiti yaxşı öyrənməli və yerli əhali arasında iş aparmalıdırlar. O, qeyd etdi ki, Xarici İşlər Xalq Komissarlığı ilə sıx əlaqə saxlamaq və onun bütün direktivlərini yerinə yetirmək lazımdır.[250] Molotov dedi: "Hər kiçik şeyə belə diqqət yetirin, əhali arasında bizim nüfuzumuzu qaldırmaq üçün ən çətin işləri belə bilavasitə aparın".[251]

SSRİ XİXK-dan diplomatik işə təyinat almış şəxslər, onlardan bir qədər əvvəl isə Sovet Azərbaycanından göndərilən digər təsərrüfat, mədəniyyət, mətbuat işçilərinin ilk dəstəsi 1944-cü ilin yazında Cənubi Azərbaycanda işə başladılar. Təbrizə ezam olunmuş Sovet Azərbaycanı işçilərinin ilk addımı Cənubu Azərbaycanın mərkəzi şəhərində ordu qəzeti adı ilə türk dilində "Vətən yolunda" qəzetinin nəşrinə başlamaq oldu. Bu işə rəhbərlik edən Ə.Şahgəldiyev Təbrizdən M.C.Bağırova göndərdiyi teleqramda yazırdı: "Aprel ayının 10-da 4 min tirajla "Vətən yolunda" qəzetinin birinci sayı çapdan çıxdı və üç saat ərzində yayıldı. Bizim oxucular birinci nömrənin çıxmasını sevinclə qarşıladılar. Növbəti nömrəmiz ayın 12-də daha artıq tirajla çap olunacaqdır".[252] Nəzərə almaq lazımdır ki, təkcə "Vətən yolunda" qəzetini nəşr etmək üçün Bakıdan 27 nəfər mətbuat işçisi Təbrizə ezam olunmuşdu. Bunların arasında Əlihəsən Şahgəldiyev, Cəfər Xəndan Hacıyev, İsrafil Nəzərov, Qulam Məmmədli, Qılman Musayev, Ənvər Məmmədxanlı, Məmməd Rahim, Kazım Kazımzadə, Məlik Məlikzadə və digərləri var idi.

---

[250] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.18-19

[251] Ə.Bağırzadənin M.C.Bağırova müraciəti. 22.10.1946.// ARPİİ SSA, f.89, s.220, i.49, v.45

[252] Ə.Şahgəldiyevin M.C.Bağırova teleqramı. 10.04.1944.// ARPİİ SSA, f.1, s.89, i.84, v.54

Cənubi Azərbaycana siyasi, diplomatik, mədəniyyət və mətbuat işçilərinin yeni dəstələrin göndərilməsi, demək olar ki, Sovet Azərbaycanı rəhbərliyinin gündəlik işinə çevrilmişdi. Aprel ayında İmam Mustafayev başda olmaqla Təbriz aqrotexniki stansiyasında, Hüseyn Babayev başda olmaqla corab-trikotaj fabrikində, Hüseyn Şərifov başda olmaqla "Təbriz" mətbəəsində, Cəbrayıl Ələsgərov başda olmaqla Təbrizdəki orta məktəbdə işləyəcək şəxslərin siyahısı təsdiq edilmək üçün Moskvaya, Georgi Malenkova göndərilmişdi. Cənubi Azərbaycana təsir imkanlarını artırmaq üçün ÜK(b)P MK Siyasi Bürosunun 6 mart 1944-cü il tarixli qərarı ilə Bakıda Zaqafqaziya müsəlmanları Dini İdarəsinin yaradılması haqqında qərar qəbul edilmişdi.[253] Bu qərara uyğun olaraq, Azərbaycan Partiya Təşkilatı Bürosunun 20 mart tarixli iclasında Zaqafqaziya müsəlmanlarının Dini İdarəsinin yaradılması geniş müzakirə edildi və təcili olaraq, bu istiqamətdə praktiki addımların atılması zəruri hesab edildi. [254]

Nəhayət, İrana göndərilən heyət formalaşdırıldıqdan sonra əsasən Cənubi Azərbaycanda aparılacaq işi əlaqələndirmək məqsədilə, M.C.Bağırovun təşəbbüsü və Moskvanın razılığı ilə İrana Sovet Azərbaycanından xüsusi tapşırıqla göndərilən bütün işçilərə ümumi rəhbərlik etmək vəzifəsi Həsən Məmməd oğlu Həsənova tapşırıldı.[255] Sovet Azərbaycanından xüsusi tapşırıqla Cənuba göndərilən qruplara ümumi rəhbər təyin edilən H.Həsənov Azərbaycan K(b)P MK-nın ideologiya üzrə katibi Qəzənfər Məmmədovla birlikdə rəhbər işçilər arasında aparılmış iş bölgüsünü və görüləcək ilkin işlər barədə öz təkliflərini M.C.Bağırova təqdim etdilər. Həmin sənədə görə, Təbrizdə və onun ətraf rayonlarında bütün təşkilatlara partiya rəhbərliyi H.Həsənov, M.Məmmədov və Ə.Şahgəldiyevdən ibarət üçlüyə, Qəzvindəki işlərə rəhbərlik etmək A.Atakişiyevə, Tehran və onun ətraf rayonlarında xüsusi işləri əlaqələndirmək Ə.Yaqubov, Ə.Əliyevə, Ərdəbildə işlərə rəhbərlik etmək B.Mehdiyevə, Qorqanda

---

[253] ÜK(b)P MK Siyasi Bürosu iclasının 42 saylı protokolu. 06.03.1944.// RDSSTA, f.17, s.162, i.37, v.114

[254] Azərbaycan KP MK Bürosunun qərarı. 20.03.1944.// ARPİİ SSA, f.1, s.129, i.80, v.3

[255] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.18

xüsusi tapşırıqları yerinə yetirmək M.Şərifova, ordu, səfirlik və konsul idarələri xətti ilə işə cavabdehlik H.Həsənov, Ə.Yaqubov və A.Atakişiyevə tapşırılırdı.[256] May ayının 5-də SSRİ XİXK H. Həsənovun Təbrizdəki Sovet konsulluğunun vitse-konsulu vəzifəsinə təyinatını təsdiq etdi və o, may ayının 11-də İrana yola düşüb, iki gün sonra vəzifəsinin icrasına başladı. May ayının ortalarında müxtəlif diplomatik vəzifələrə təyinat almış digər şəxslər də Təbrizə gəlib, oradan təyinat yerlərinə yollandılar.[257]

Azərbaycan K(b)P MK-da Cənubi Azərbaycan üçün hazırlanmış iş planında göstərilirdi ki, azərbaycanlı əhalini Sovet Azərbaycanına daha artıq yaxınlaşdırmaq üçün, ilk növbədə, dinə və din xadimlərinə böyük diqqət yetirmək lazımdır. Sənəddə bu addım İranın din xadimlərinin Sovet hökumətinin dayağı olacaqları ilə deyil, ruhanilər vasitəsi ilə daha çox iş görmək imkanı ilə izah edilirdi. Xüsusi tapşırıqlarla Cənubi Azərbaycana göndərilənlərə tövsiyə edilirdi ki, əhalinin sosial vəziyyətinə fərq qoymadan, onları Sovet Azərbaycanının tərəfinə çəkməyə üstünlük vermək lazımdır. İş planında qeyd edilirdi ki, həyata keçirilən tədbirlərin gedişində orta və xırda mülkiyyət sahibləri hiss etməlidirlər ki, hətta, Sovet hakimiyyəti şəraitində, belə, onlar öz mülkiyyətinin sahibləri kimi qalacaqlar. Sənəddə siyasi partiyalara ehtiyatla yanaşmaq məsləhət bilinir, xüsusilə, özlərini köhnə bolşevik adlandırıb, Sovet hakimiyyəti qurulmasında təkid edən şəxslərdən uzaq olmaq tövsiyə edilirdi. Sovet xüsusi xidmət orqanlarının məlumatına əsasən iş planında göstərilirdi ki, özünü köhnə bolşevik adlandıranların çoxu xarici kəşfiyyat orqanlarının casuslarıdır. Sənəddə yazılırdı: "Bunları nəzərə alaraq, biz özümüzü elə aparmalıyıq, elə göstərməliyik ki, guya, sovet hakimiyyəti qurmaq barədə düşünmürük. Belə rəy yaratmalıyıq ki, biz sovet vətəndaşlarıyıq, qonşu ölkənin vətəndaşları olaraq, onlarla ən dostcasına qarşılıqlı münasibətlər yaratmağa, ticarət və iqtisadi əlaqələri gücləndirməyə, stansiyalar açmağa və s. hazırıq". Sənədə görə, xüsusi

---

[256] Cənubi Azərbaycan göndərilən Sovet Azərbaycanı siyasi işçilərin iş planı. 1944.// ARPİİ SSA, f.1, s.89, i.81, v.131

[257] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.19-20

tapşırıqla Cənuba gedənlərin qarşısında duran başlıca vəzifə Arazın o biri tayındakı azərbaycanlıların milli özünüdərk hissini yüksəltmək, onların tək olmadığını, sərhədin yuxarı tərəfində qardaşlarının yaşadığını, həm də, onlardan bir neçə dəfə yaxşı yaşadığını yerli əhaliyə başa salmaq idi. Bunun üçün teatr, konsert briqadalarından, qəzetlərdən, nəşriyyatdan, kinodan, məktəbdən, Tehranda və Təbrizdə mədəniyyət evlərindən, kitabxanadan və s. istifadə etmək planlaşdırılmışdı. İş planında siyasi və dövlət intriqalarına qarışmamaq tövsiyə edilərək bildirilirdi: "Bununla qoy səfir məşğul olsun, bu barədə o, təlimat alıb... Buraya kimi yaxşı adamları, sağlam millətçiləri, özünü bolşevik və sovet hakimiyyətinin tərəfdarı kimi göstərənlərdən fərqli olaraq öz xalqını dərindən sevən qabaqcıl, istedadlı, mədəni adamları hərdən bizim qəzetlər vasitəsilə təbliğ etmək, qaldırmaq lazımdır". İngilis, Amerika, Türkiyə, İran xüsusi xidmət orqanlarının sovet işçilərini izləməsi barədə məlumatlar olduğundan, Cənubda işləyənlərə məsləhət görülürdü ki, özlərini yaxşı aparsınlar. Eyni zamanda, onlardan tələb olunurdu ki, ezam olunduqları regionun tarixini, iqtisadiyyatını, hətta, Cənubla bağlı ən kiçik detalları, belə, dərindən öyrənsinlər ki, "sabah məsələ həll olunduqda nədən başlayacağımızı bilək..." Sənəddə deyilirdi: "Əgər biz birləşmək məsələsini həll ediriksə, müəyyən müddət üçün indi mövcud olan əlifbanı, istəsək də, istəməsək də saxlamalıyıq. Ona görə də, əgər kim əski əlifbanı unudubsa, onu və fars dilini öyrənmək üçün gündə bir-iki saat vaxt ayırıb, öz üzərində işləməsi vacibdir...". Cənuba ezam olunanlara qəti şəkildə tapşırılırdı: "Sizlərdən heç biriniz zahirən nə ingilis, nə amerikalı, nə də digər ölkələrin nümayəndələrinə bəhanə verməməlidir ki, siz konsul deyil, partiya təşkilatlarının işçilərisiniz. Zahirən siz konsulsunuz və hərəkətləriniz bu barədə heç bir şübhə doğurmamalıdır".[258]

Sovet Azərbaycanının rəhbərliyi Cənubi Azərbaycanda gedən prosesləri, xüsusilə, 1944-cü ilin martında başa çatmış İran parlament seçkilərinin yekunlarını diqqətlə izləyirdi. XIV çağırış İran Məclisinə

[258] Cənubi Azərbaycana göndərilən Sovet Azərbaycanı siyasi işçilərinin iş planı. 1944. // ARPİİ SSA, f.1, s.89, i.81, v.132-136

seçkilər 1943-cü ilin avqust ayının 8-də başlasa da, yalnız, 1944-cü ilin mart ayında başa çatmışdı. Yalnız müttəfiqlər deyil, Almaniya da seçkilərdə özünə yaxın adamları Məclisə keçirmək istəyirdi və onlar mandatların daha çox pulla alınmasına ümid bəsləyirdilər. Hələ seçkilərdən iki ay əvvəl İmperiya təhlükəsizliyi idarəsinin (SS) rəisi, Ernst Kaltenbrunner Xarici İşlər naziri fon Ribbentropa yazırdı ki, İran Məclisinə seçkilərdə ingilislərin deyil, bolşeviklərin şansı böyükdür. O, əlavə edirdi ki, İran xalqının Almaniyaya rəğbəti böyük olduğu üçün seçkilərdə Berlinin şansları yüksəkdir, lakin Kaltenbrunner bu "rəğbətə" ümid bəsləməyib deputat yerlərinin satın alınmasını məqsədəuyğun hesab edir və Tehrandakı deputat yerlərinin əldə olunması üçün 400 min tümən, İrandakı qalan yerlər üçün 600 min tümən vəsait lazım olduğunu bildirirdi. O, yazırdı:"Bu məbləğ bizim düşmənlərimizə xərclənən məbləğlə müqayisədə heç nədir. Qeyd etmək lazımdır ki, millətçi əhvali-ruhiyyəli İran dairələri Almaniyanın müdaxiləsini gözləyir. Xahiş edirəm, bu məqsədlə Almaniya Xarici İşlər nazirliyindən 1 milyon tümən almağın mümkünlüyünü bizə bildirin".[259]

İran Məclisinə seçkilər başa çatdıqdan sonra, 1943-cü ilin fevralında qurulmuş Mirzə Əli Soheyli hökumətini Məhəmməd Said Marağayi hökuməti (mart - noyabr 1944) əvəz etmişdi. Məhəmməd Said və ondan sonra tez-tez dəyişən hökumət kabinetlərinə rəhbərlik etmiş Mürtəzaqulu Bayat (Səham əs-Sultan), İbrahim Həkimi (Həküm ül-Mülk) İranın Azərbaycan əyalətindən idilər. Məhəmməd Said hələ gənc yaşlarından diplomatik işlərdə çalışmış, 1918-ci ildə İranın Bakıda konsulu olmuş, ötən əsrin 30-cu illərində isə İranın Moskvadakı səfirliyinə başçılıq etmişdi.[260] Təxminən həmin vaxt Almaniya təhlükəsizlik orqanları "Azad İran hökuməti" adı altında mühacir hökumətini formalaşdırmaq istiqamətində müzakirələr aparırdı. Bununla bağlı 1943-cü ilin oktyabr ayının 3-də fon der

---

[259] İran Məclisinə seçkilərlə bağlı E.Kaltenbrünnerin fon Ribbentropa məktubu. 28.06.1943.// RFDA. f.P-9401c, s.2, i.97, v.135

[260] Ətraflı məlumat üçün bax: Məhəmməd Said Marağayi. Siyasi xatirələr. Tehran, 1994

Şulenburqla İran mühacirləri arasında görüş keçirilmişdi.[261] Razılığa görə "Azad İran hökuməti"nə diviziya generalı Məhəmməd Hüseyn xan Ayrum başçılıq etməli və kabinetdə Xarici İşlər naziri vəzifəsini də tutmalı idi. Kabinetin tərkibində Daxili İşlər naziri vəzifəsini Abbas xan Alamir, Hərbi nazir vəzifəsini general Şeybani, Maliyyə naziri vəzifəsini Bursuq Umud Müxbir Humayun, Təhsil və Mədəniyyət naziri vəzifəsini şahzadə Salar Səltənə, Kənd təsərrüfatı naziri vəzifəsini Saleh xan Loğman, Mətbuat və Təbliğat naziri vəzifəsini Abdulla xan Xosrovi, Yollar naziri vəzifəsini Fərid əs - Səltənə Sədri, Milli Azlıqlar naziri vəzifəsini Sarkis Araratyan, Səhiyyə nazirinin müavini vəzifəsini Reza Nurian, Almaniyada diplomatik nümayəndə vəzifəsini fon Qranmayex (onun atası feldmarşal Mirzə Reza xan İranın Berlində səfiri olmuşdu), "Azad İran" xarici təşkilatının rəhbəri vəzifəsini Hüseyn xan Dadqar tutmalı idi.[262] Hökumətin tərkibində digər yüksək vəzifəli şəxsləri adlarının və katibliyə təyinat alanların siyahısının yaxın vaxtlarda elan ediləcəyi bildirilirdi.

XIV çağırış İran Məclisinə seçkilərin keçirilməsi ölkənin siyasi həyatını canlandırmış, Cənubi Azərbaycanda partiya və cəmiyyətlərin fəaliyyətlərinin genişlənməsinə səbəb olmuşdu. 1944-cü ilin yazında Azərbaycan əyalətlərindən seçilən 21 deputat yeri uğrunda gərgin mübarizə başlamışdı. Tudə partiyası seçkilər dövründə sovetlərin gizli yardımı ilə xeyli fəallaşmışdı. Bu canlanma 1944-cü ilin ortalarında Xalq partiyasının Təbriz vilayət komitəsinin yenidən təşkil olunması ilə nəticələnmişdi. Tudənin Azərbaycan təşkilatının yenidən qurulması nəticəsində 17 nəfər, o cümlədən, Sadıq Padeqan, Əhməd İsfahani, Cəfər Kavian, Məhəmməd Biriya, David Gevorqyan, Mir Qasım Çeşmazər, Kazım Haşımniya, Səlim Haşimi, Tağı Ənqami və digərləri vilayət komitəsinin üzvü seçilmişdi. Vilayət komitəsinə seçilənlərin yarıdan çoxunun keçmişi müəyyən dərəcədə Sovet Azərbaycanı ilə bağlı idi. Tudə partiyasının Ərdəbil vilayət komitəsinə M.Nünəkərani,

[261] L.Beriya və S.Kruqlovun İ.Stalinə məlumatı. 16.10.1945.// RFDA, f.P-9401c, s.2, i.100, v.76-77
[262] İran milli azadlıq hökuməti üzvlərinin siyahısı (qısa tərcümeyi-hal). 1943.// RFDA, f.P-9401c, s.2, i.100, v.51-55

seçkilər 1943-cü ilin avqust ayının 8-də başlasa da, yalnız, 1944-cü ilin mart ayında başa çatmışdı. Yalnız müttəfiqlər deyil, Almaniya da seçkilərdə özünə yaxın adamları Məclisə keçirmək istəyirdi və onlar mandatların daha çox pulla alınmasına ümid bəsləyirdilər. Hələ seçkilərdən iki ay əvvəl İmperiya təhlükəsizliyi idarəsinin (SS) rəisi, Ernst Kaltenbrunner Xarici İşlər naziri fon Ribbentropa yazırdı ki, İran Məclisinə seçkilərdə ingilislərin deyil, bolşeviklərin şansı böyükdür. O, əlavə edirdi ki, İran xalqının Almaniyaya rəğbəti böyük olduğu üçün seçkilərdə Berlinin şansları yüksəkdir, lakin Kaltenbrunner bu "rəğbətə" ümid bəsləməyib deputat yerlərinin satın alınmasını məqsədəuyğun hesab edir və Tehrandakı deputat yerlərinin əldə olunması üçün 400 min tümən, İrandakı qalan yerlər üçün 600 min tümən vəsait lazım olduğunu bildirirdi. O, yazırdı:"Bu məbləğ bizim düşmənlərimizə xərclənən məbləğlə müqayisədə heç nədir. Qeyd etmək lazımdır ki, millətçi əhvali-ruhiyyəli İran dairələri Almaniyanın müdaxiləsini gözləyir. Xahiş edirəm, bu məqsədlə Almaniya Xarici İşlər nazirliyindən 1 milyon tümən almağın mümkünlüyünü bizə bildirin".[259]

İran Məclisinə seçkilər başa çatdıqdan sonra, 1943-cü ilin fevralında qurulmuş Mirzə Əli Soheyli hökumətini Məhəmməd Said Marağayi hökuməti (mart - noyabr 1944) əvəz etmişdi. Məhəmməd Said və ondan sonra tez-tez dəyişən hökumət kabinetlərinə rəhbərlik etmiş Mürtəzaqulu Bayat (Səham əs-Sultan), İbrahim Həkimi (Həküm ül-Mülk) İranın Azərbaycan əyalətindən idilər. Məhəmməd Said hələ gənc yaşlarından diplomatik işlərdə çalışmış, 1918-ci ildə İranın Bakıda konsulu olmuş, ötən əsrin 30-cu illərində isə İranın Moskvadakı səfirliyinə başçılıq etmişdi.[260] Təxminən həmin vaxt Almaniya təhlükəsizlik orqanları "Azad İran hökuməti" adı altında mühacir hökumətini formalaşdırmaq istiqamətində müzakirələr aparırdı. Bununla bağlı 1943-cü ilin oktyabr ayının 3-də fon der

---

[259] İran Məclisinə seçkilərlə bağlı E.Kaltenbrünnerin fon Ribbentropa məktubu. 28.06.1943.// RFDA. f.P-9401c, s.2, i.97, v.135

[260] Ətraflı məlumat üçün bax: Məhəmməd Said Marağayi. Siyasi xatirələr. Tehran, 1994

Şulenburqla İran mühacirləri arasında görüş keçirilmişdi.[261] Razılığa görə "Azad İran hökuməti"nə diviziya generalı Məhəmməd Hüseyn xan Ayrum başçılıq etməli və kabinetdə Xarici İşlər naziri vəzifəsini də tutmalı idi. Kabinetin tərkibində Daxili İşlər naziri vəzifəsini Abbas xan Alamir, Hərbi nazir vəzifəsini general Şeybani, Maliyyə naziri vəzifəsini Bursuq Umud Müxbir Humayun, Təhsil və Mədəniyyət naziri vəzifəsini şahzadə Salar Səltənə, Kənd təsərrüfatı naziri vəzifəsini Saleh xan Loğman, Mətbuat və Təbliğat naziri vəzifəsini Abdulla xan Xosrovi, Yollar naziri vəzifəsini Fərid əs - Səltənə Sədri, Milli Azlıqlar naziri vəzifəsini Sarkis Araratyan, Səhiyyə nazirinin müavini vəzifəsini Reza Nurian, Almaniyada diplomatik nümayəndə vəzifəsini fon Qranmayex (onun atası feldmarşal Mirzə Reza xan İranın Berlində səfiri olmuşdu), "Azad İran" xarici təşkilatının rəhbəri vəzifəsini Hüseyn xan Dadqar tutmalı idi.[262] Hökumətin tərkibində digər yüksək vəzifəli şəxsləri adlarının və katibliyə təyinat alanların siyahısının yaxın vaxtlarda elan ediləcəyi bildirilirdi.

XIV çağırış İran Məclisinə seçkilərin keçirilməsi ölkənin siyasi həyatını canlandırmış, Cənubi Azərbaycanda partiya və cəmiyyətlərin fəaliyyətlərinin genişlənməsinə səbəb olmuşdu. 1944-cü ilin yazında Azərbaycan əyalətlərindən seçilən 21 deputat yeri uğrunda gərgin mübarizə başlamışdı. Tudə partiyası seçkilər dövründə sovetlərin gizli yardımı ilə xeyli fəallaşmışdı. Bu canlanma 1944-cü ilin ortalarında Xalq partiyasının Təbriz vilayət komitəsinin yenidən təşkil olunması ilə nəticələnmişdi. Tudənin Azərbaycan təşkilatının yenidən qurulması nəticəsində 17 nəfər, o cümlədən, Sadıq Padeqan, Əhməd İsfahani, Cəfər Kavian, Məhəmməd Biriya, David Gevorqyan, Mir Qasım Çeşmazər, Kazım Haşımniya, Səlim Haşimi, Tağı Ənqami və digərləri vilayət komitəsinin üzvü seçilmişdi. Vilayət komitəsinə seçilənlərin yarıdan çoxunun keçmişi müəyyən dərəcədə Sovet Azərbaycanı ilə bağlı idi. Tudə partiyasının Ərdəbil vilayət komitəsinə M.Nünəkərani,

---

[261] L. Beriya və S.Kruqlovun İ.Stalinə məlumatı. 16.10.1945.// RFDA, f.P-9401c, s.2, i.100, v.76-77

[262] İran milli azadlıq hökuməti üzvlərinin siyahısı (qısa tərcümeyi-hal). 1943. RFDA, f.P-9401c, s.2, i.100, v.51-55

M.Məzlumi, Q.Şəmsi, B.Ədaləti, Z.Ocaqnəvin, B.Əbizadə, Xoy komitəsinə Nəsrulla xan Yeqani, Rəhim Yeqani, Ə.Zeynalov, Mir Sətda, Mustafa Həsəni və digərləri daxil idi.[263] Mərkəzi partiya təşkilatının nümayəndələri kimi Ərdəşir (Artaşes) Ovenesyan, Əli Əmir Xizi və başqaları Tudə partiyasının Azərbaycan təşkilatlarının qurulmasında böyük fəallıq göstərirdilər. Lakin bütün bu dəyişikliklərə baxmayaraq, sovetlərdən yardım almadan və digər sol qruplarla bloka girmədən Tudə partiyası nə Azərbaycanda, nə də İranın digər yerlərində öz namizədlərini məclisə keçirmək iqtidarında deyildi.

İranın XIV Məclisinə seçkilər Azərbaycanda çox gərgin keçdi. Xoy, Maku, Sərab, Miyanə, Əhərdəki nəticələr tudəçilər üçün arzuolunmaz idi. Seçkilər dövründə İrandakı Britaniya səfiri Bullard Londondakı İran səfiri Seyid Həsən Tağızadə ilə birlikdə Azərbaycana gəlmişdi. O, etibarlı və nüfuzlu adamlara məsləhət görürdü ki, Tehranın namizədlərini müdafiə etsinlər, lakin sovet hərbi, siyasi, diplomatik orqanlarının gizli yardımı ilə tudəçilər Təbrizdəki seçkilərdə müəyyən uğurlar qazandılar. Seçkilərin keçirilməsi haqqında Azərbaycan sovet xüsusi idarələrinin məlumatında göstərilirdi: "Təbrizdəki seçkilər bizim üçün uğurlu oldu. 9 deputat yeri uğrunda mübarizədə bizim müdafiə etdiyimiz 7 namizəddən 5-i uğur qazandı. Təbrizdəki seçkilərin nəticələri bizim Cənubi Azərbaycanda nüfuzumuzun göstəricisidir". Azərbaycan təhlükəsizlik orqanları Sərabın iri torpaq sahibkarlarından olan Fərman Fərmanianın Tehrandan Təbrizdə yaşayan qohumlarına gizli məktubunu əldə etmişdi. O yazırdı: "Rusların müdafiə etdiyi namizədləri sıradan çıxarıb, bizim üçün arzu olunan şəxslərin seçilməsini təmin etmək lazımdır, bu mümkün olmasa, seçkiləri pozmaq və onu dayandırmağa nail olmaq lazımdır". Təbrizin keçmiş ostandarı, sovet idarələrinin təkidi ilə Azərbaycandan uzaqlaşdırılmış Fəhim ol-Mülk ona yaxın olan torpaq sahibkarı Liqvaniyə seçkilərlə bağlı bildirirdi: "Mənim eşitdiyimə görə, ruslar artıq sənin namizədliyini müdafiə etmirlər. Sən buna

[263] İranda siyasi partiyalar, təşkilatlar və ictimai qruplar haqqında arayış. 30.11.1944.// ARPİİ SSA, f.1, s.89, i.85, v.1-7. Bu arayış Azərbaycan Sovet xüsusi xidmət orqanlarının Təbrizdə "Bul" gizli adı altında fəaliyyət göstərən rezidenti tərəfindən hazırlanmışdır.

sevinməlisən, çünki Məclis üzvü olmamaq rusların yardımı ilə seçilməkdən min dəfə yaxşıdır. Hökumətin seçkilər üzrə müvəkkilinə tapşırıq verilmişdir ki, rusların bizə sırıdığı namizədləri batırsın, əgər bu mümkün olmasa, yeni Məclis açılana qədər seçkiləri yubatsın. Ola bilsin ki, Məclis Azərbaycandakı seçkiləri ləğv etsin. Rüsvayçılıqla seçilməkdənsə, parlamentdə Azərbaycandan nümayəndələrin olmaması daha yaxşıdır. Ruslar tərəfindən bizə sırınan namizədləri batırmaq üçün bütün tədbirləri görün". Xüsusi xidmət orqanlarının məlumatında tudəçilərin Təbrizdəki uğuru ilə bağlı Britaniya konsulun fikirləri də yer almışdı. O deyirdi: "Xalq partiyasının namizədlərinin Təbriz şəhərindəki uğurları rusların şəhər əhalisinə təsirinin güclü olduğundan xəbər verir". Onun fikrincə, "İran Azərbaycanının gələcək taleyi kənd yerlərindəki seçkilərin nəticələrindən asılı olacaqdır".[264]

Cənubi Azərbaycanda işləyən İran hakimiyyət orqanlarının nümayəndələri yaxşı başa düşürdülər ki, onların öz fəaliyyətlərini davam etdirməsi Sovet nümayəndələrinin münasibətindən asılıdır. Ona görə də onlar, xüsusilə, Azərbaycan ostandarı Dadvər, Təbriz şəhridari Kərim Rövşəni şəhərdəki SSRİ diplomatik nümayəndələrinə sovetlərin müdafiə etdiyi namizədlərə kömək edəcəyi barədə vədlər verirdilər.[265] Lakin Tehranın təzyiqi altında onlar ingilislərə tərəfdar olan namizədlərin Məclisə seçilməsinə gizli şəkildə kömək edirdilər. Nəticədə Cənubi Azərbaycandakı seçkilərdə Fərman Fərmanian (Sərab - Mianə), Xoyi İmami (Xoy - Maku), Hüseyn Əşrəf Sadiqi (Urmiya, Məclisdə Sovetləri müdafiə edəcəyinə söz vermişdi), Seyf Qazi (Mahabad, 1941-ci ildə Bakıya gələnlərdən idi), Bahaduri (Əhər), Fətəli İpəkçian (Təbriz, 1928-ci ilə kimi Bakı, Tbilisi, Moskvada yaşamışdı), Mir Cəfər Pişəvəri (Təbriz), Əbdül Həsən Sadiqi (Təbriz), Əmir Nüsrət İsgəndəri (Təbriz, əslən şamaxılı idi), Əbül Həsən Siqqətül İslam (Təbriz Sovetlərə söz vermişdi ki, onları Məclisdə müdafiə edəcək), Əsgər Pənahi (Təbriz), Yusif Müştəhidi (Təbriz), Əli Əsgər Sərtibzadə (Təbriz), İsgəndər Müqəddəm, Musa Fatuqi (Marağa), Mehdi

[264] Cənubi Azərbaycanın qısa siyasi icmalı. 1944.// ARPİİ SSA, f.1, s.89, i.73, v.73
[265] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.24-26

Ədl (Meşkinşəhr), Şeyx Lənkərani (Ərdəbil, Seyid Ziyanın və ingilislərin əleyhdarı idi), Ərdəşir Ovanesyan (ermənilərin nümayəndəsi kimi Xalq Partiyasından) və digərləri uğur qazandılar. Beləliklə, Cənubi Azərbaycandan seçilən vəkillərin 8 nəfəri sovetlərlə əməkdaşlıq etməyə razılıq verən, 3 nəfəri SSRİ-yə düşmən münasibət bəsləməyən, 2 nəfəri isə tərəddüd edən şəxslər idi. Təbrizdən məclisə nümayəndə seçilmiş S. C Pişəvəri may ayının 16-da Təbrizdəki Sovet konsulluğunun vitse-konsulu Həsən Həsənovla görüşüb, seçkilərin nəticələrini müzakirə etdi. Pişəvəri qeyd etdi ki, sovetlərin dəstəyi ilə Məclisə seçilmiş bir sıra şəxslər seçki prosesində Sovet İttifaqını müdafiə edəcəklərinə söz versələr də, lakin onu yerinə yetirməyəcəklər. Müzakirələrin gedişində Pişəvəri bildirdi ki, İranda olan daşnaklar seçkilər zamanı Tudə partiyasının namizədlərini müdafiə ediblər. Cənubi Azərbaycanda yaranmış siyasi, sosial-iqtisadi vəziyyəti geniş təhlil edərək, Pişəvəri İran Məclisində Azərbaycan xalqının mənafeyi uğrunda mübarizə aparacağını bildirdi.[266] Lakin 1944-cü ilin fevral ayının 26-da işə başlayan XIV çağırış İran Məclisinin ilk addımlarından biri 1944-cü ilin iyun ayında keçirilən iclasında 16 min təbrizlinin səsini toplamış S.C.Pişəvəri və böyük üstünlüklə Ərdəbildən vəkil seçilmiş Şeyx Lənkəraninin mandatlarını ləğv etmək oldu.[267] Doktor Müsəddiqin "oğrular yuvası" adlandırdığı Məclisdə baş vermiş bu hadisə ilə bağlı S.C.Pişəvəri yazırdı: "Bilirdim, Məclis kürsülərini qəsb edən xainlərlə mənim suyum bir arxa getməyəcək və hiss edirdim ki, bu yolkəsənlər dəstəsi mənim aralarına girməyimə asanlıqla razı olmayacaqlar. Ona görə fürsətdən istifadə edib, sözlərimi dedim. Məni 16 min rəy ilə intixab edib, Məclisə göndərən Azərbaycan xalqının ehtiyaclarını sayıb söylədim, sözlərimi böyük bir diqqət və dərin bir sükut ilə eşidib təsdiq etdilər, lakin bu təsdiqlər xəyanətlərini gizlətmək üçün qara bir pərdədən başqa bir şey deyildi. Fürsət əllərinə düşən kimi də "bu azərbaycanlı rahat oturan adama bənzəmir, bunu buradan uzaqlaşdırmaq lazımdır" - deyib etibarnaməmə tülkülərə yaraşan alçaqlıqla müxalifət etdilər".[268]

---

[266] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.23

[267] Cənubi Azərbaycanın qısa siyasi icmalı. 1944.// ARPİİ SSA. f.1, s.89, i.73, v.76-77

[268] Qızıl səhifələr. Təbriz, 1946, s.31

1944-cü ilin may ayının 17-də H.Həsənov və S.Marçenko Təbrizdəki Amerika konsulu Ebeleing və İngiltərə konsulu Repp ilə görüşüb İranda və dünyada cərəyan edən hadisləri, ilk növbədə isə döyüş cəbhələrindəki son hərbi əməliyyatları, müttəfiqlərin uğurlarını müzakirə etdilər. Görüş zamanı Repp yaxın vaxtlarda Urmiya və Miandoba etdiyi səfər haqqında sovet nümayəndələrinə geniş məlumat verdi və qeyd etdi ki, bölgədə narahatçılıq yaradan kürdlər, yalnız, sovet işçiləri ilə hesablaşırlar. Söhbətin sonunda Repp bildirdi ki, onlar səyyar kino qurğusu gətirmişlər və bu qurğular vasitəsilə Təbrizdə filmlər nümayiş etdirmək istəyirlər. Təbriz sovet işğal zonasına daxil olduğundan o, filmlərin nümayişi üçün S.Marçenkodan icazə istəyirdi. Sovet konsulu bu məsələni aydınlaşdırıb ona cavab verəcəyini bildirdi.[269] May ayının 21-də Marçenko və Həsənov Təbrizdəki türk konsulu Kurqut bəylə görüşdülər. O, 8 ilə yaxın SSRİ-də xidmət etmiş yaşlı bir türk diplomatı idi. Söhbətin gedişində Kurqut bəy bildirdi ki, Sovet İttifaqı öz ideologiyasını digər dövlətlərə və xalqlara zorla qəbul etdirmək istəmir, digər ölkələrin mövcud dövlət sistemini dəyişməyə cəhd göstərmir. Hətta, türk konsulu qeyd etdi ki, Sovet İttifaqı istəyir ki, hər xalq öz taleyini özü həll etsin. Bu sözləri dinləyən sovet diplomatları təcrübəli Kurqut bəyin onlardan söz almaq niyyətini zənn edib, heç bir söz demədilər. Türk konsulu H. Həsənovun azərbaycanlı olduğunu bilib, söhbətin qalan hissəsini onunla Azərbaycan dilində apardı.[270]

Lakin Britaniya və İngiltərə konsulluğu ilə yanaşı, Təbrizdəki Türkiyə konsulluğunun fəaliyyəti də sovet idarələrinin diqqət mərkəzində idi. Təbrizdəki Türkiyə konsulluğunun İranın hakimiyyət orqanları, yerli əhali və şəhərdəki diplomatik idarələrlə bütün əlaqələri demək olar ki, sovet xüsusi xidmət orqanlarının nəzarətində idi. Məsələn, 1944-cü ilin iyununda Təbrizdəki Sovet konsulluğuna daxil olan məlumatda Tehrandakı türk hərbi attaşesinin Təbrizə gəldiyi və Sovet konsulluğu istisna olmaqla buradakı bütün diplo-

[269] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.28
[270] Yenə orada, s.36-37

matik idarələrin nümayəndələri ilə görüş keçirdiyi bildirilirdi. Görüş zamanı türk hərbi attaşesi qeyd etmişdi ki, ruslar İran Azərbaycanın Sovet İttifaqına birləşdirmək üçün oranı işğal etmək istəyirlər.[271] Azərbaycan təhlükəsizlik xidmətinin Təbrizdəki rezidenti N.Quliyev vasitəsi ilə əldə edilən bu məlumatı Sovet konsulluğu dərhal SSRİ Xarici İşlər Xalq Komissarlığına, vitse-konsul H. Həsənov isə Bakıya – M.C.Bağırova vermişdi.

May ayının sonlarında İrandakı Sovet səfirliyinin əməkdaşları ilə tanış olmaq və Cənubi Azərbaycandakı vəziyyəti müzakirə etmək üçün H.Həsənov, Ə.Bağırzadə və M.Məmmədov Tehrana yola düşdülər. Mayın 27-də onlar Tehrandakı Sovet səfiri M.Maksimov, səfirin müşaviri Ə.Yaqubov, səfirliyin müşaviri S.Sıçev, SSRİ-nin İranda ticarət müvəkkili V.Miqunov və digərləri ilə görüşdülər, habelə səfirliyin "VÇ" telefonu (yüksəktezlikli əlaqə - C.H.) ilə Bakıya zəng edib, M.C.Bağırovla danışdılar. Bağırova belə bir məlumat çatmışdı ki, Bakıdan göndərilən bəzi siyasi işçilərlə Sovet səfirliyi və ticarət nümayəndəliyi arasında münasibətlər elə də yaxşı deyildir. Doğrudan da, bir sıra yerlərdə sovet hərbi nümayəndələrinin Bakıdan göndərilən siyasi işçilərə mane olmaq cəhdləri var idi. Ona görə, Bağırov Həsənova tapşırıq verdi ki, Bakıdan gedən siyasi işçilər səfirlik və ticarət nümayəndəliyinin işçiləri ilə ümumi dil tapıb, verilən tapşırıqları yerinə yetirsinlər. Görüş zamanı səfir Maksimov Təbrizdə mədəniyyət evinin açılması, Azərbaycan SSR-dən göndərilən işçilərə şərait yaradılması və sair məsələlərdə Sovet Azərbaycanı nümayəndələrinə kömək edəcəyini bildirdi. S.Sıçev İrandakı siyasi partiyalar və ölkənin siyasi həyatı barədə Azərbaycan siyasi işçilərinə geniş məlumat verdi. Mayın 29-da onlar Təbrizə döndülər və yolüstü Qəzvində İrandakı Sovet ordusunun komandanı general Sovetnikov, general Atakişiyev, Qaydukov, Yarmaşeviç, Şafranski, Əmircanov və digər yüksək rütbəli hərbiçilər, habelə həmin günlərdə Bakıdan Qəzvinə gəlmiş Azərbaycan XKS-in müavini Ə. Əzizbəyov ilə görüşdülər. Ə. Əzizbəyov Bakıda "Vətən

[271] Yenə orada, s.62

yolunda" qəzetinin fəaliyyətindən narazılıq olduğunu H. Həsənovun diqqətinə çatdırdı və tezliklə qəzetin fəaliyyətində dönüş yaratmağı tövsiyə etdi. İyunun 1-də H. Həsənov və onu müşayiət edən şəxslər "Duqlas" təyyarəsi ilə Qəzvindən Təbrizə uçdular.[272]

SSRİ Xalq Komissarları Sovetinin 6 mart tarixli qərarına uyğun olaraq, Təbrizdə və Azərbaycanın digər şəhərlərində nəzərdə tutulan işləri görmək üçün M.C.Bağırov və Teymur Quliyev Moskva ilə çoxsahəli yazışmalar və məsləhətləşmələr aparırdılar. Onların səyi nəticəsində Sovet hökuməti 1944-cü ilin may ayının 19-da Ümumittifaq Mədəni Əlaqə Cəmiyyətinin filialı kimi Təbrizdə Mədəniyyət evinin açılmasına icazə vermişdi. Mədəniyyət evinin açılması ilə bağlı işin təşkili V.Dekanazova və Azərbaycan rəhbərliyinə tapşırılmışdı. M.C.Bağırov ÜMƏC-nin sədri Vladimir Kemenova yazdığı məktubda Təbrizdə mədəniyyət evinin açılması üçün əməli işlərin sürətləndirilməsini xahiş etmişdi. SSRİ Rabitə nazirinin müavini Nikula Azərbaycan XKS sədrinin müavini Ə.Əzizbəyova yazırdı ki, Təbrizdəki Mədəniyyət evi üçün 3 radio, 10 reproduktor, 5 telefon, 2 patefon və s. ayrılmışdır. Təzə mebel və kreslo olmadığından M.C.Bağırovun göstərişi ilə neftçilərin mədəniyyət evindən 400 kreslo, Bakının digər klublarından 200 kreslo sökülüb, təcili olaraq, Təbriz mədəniyyət evi üçün göndərilmişdi.[273] Mədəniyyət evi üçün hazırlanan mebel və avadanlığı aparmaq üçün Ə.Bağırzadə Təbrizdən Bakıya ezam olunmuşdu.

Təbrizdə nümunəvi aqrotexniki stansiya yaratmaq üçün İ.Mustafayevin məktubuna cavab olaraq, T.Quliyevin sərəncamı ilə Azərbaycan XKS-i 15 traktor, 5 maşın, toxumçuluq laboratoriyası üçün avadanlıq, 50 nəfərlik yeməkxana üçün inventar və s. ayırmışdı. Eyni zamanda M.C.Bağırov və T.Quliyev SSRİ XKS-nə müraciət etmişdilər ki, Mərənddə də aqrotexniki stansiya yaratmağa icazə versinlər. T.Quliyevin adına hazırlanmış arayışda "Təbriz" mətbəəsi üçün ərəb və kiril əlifbası ilə işləyən mətbəə maşını, 30 ton kağız, 2 taxta kiosk, hazır kitablar, mebel, 2 ədəd makina, yağlı rəng, 15 ədəd

---

[272] Yenə orada, s.40-44

[273] Təbriz Mədəniyyət evi üçün inventar göndərilməsinə dair M.C.Bağırovun təlimatı. 1944.//AR DA, f.411, s.25, i.407, v.58

dəmir soba, hər ay 400 litr benzin və s. göndərildiyi göstərilirdi. Cənubi Azərbaycana göndərilən poliqrafiya avadanlığının, ədəbiyyat və digər zəruri vəsaitlərin ümumi dəyəri 652210 manat idi.[274] 1944-cü ilin may ayında T.Quliyev V.Molotova məktubla müraciət edərək, Tehranda, Təbrizdə, Rəştdə təsərrüfat hesablı aptek açmağa icazə istəmişdi. Lakin 24 iyul 1944-cü ildə SSRİ XKS-nin idarə rəisi Y.Çadayevin göndərdiyi məktubda buna icazə verilmədiyi göstərilir. Hələ, 1944-cü ilin aprel ayının 12-də Cənubi Azərbaycandakı Sovet ordusu Hərbi Şurasının üzvü general mayor Russov M.C.Bağırova yazırdı ki, Qəzvində içməli su problemi ciddi xarakter alıb. Yerli hakimiyyət amerikanlara müraciət edib. Amerikanların qazma qurğusu olsa da boruları bizdən istəyiblər. Əgər təcili olaraq 2 qazma qurğusu və 700 metr boru göndərsəniz, biz özümüz bu işi iki həftəyə görərik.[275] Şəhər hakimiyyətinin müqavimətinə baxmayaraq, Qəzvinin əhalisi Sovet hakimiyyət orqanlarından onlar üçün bir neçə artezian quyusu qazılmasını xahiş etmişdilər.[276] Bunu nəzərə alaraq, M.C.Bağırovun göstərişi ilə mayın 11-də Qəzvinə 2 "Franks" markalı qazma qurğusu, lazım olan qədər boru və qazmaçılardan ibarət 33 nəfərlik briqada göndərildi. Qısa müddətdə Qəzvində əhalini içməli su ilə təmin edə biləcək 4 quyu qazıldı. Su problemi həll olunduqdan sonra Qəzvin şəhər ictimaiyyəti M.C.Bağırova təşəkkür məktubu göndərdi.

Sovet Azərbaycanından İrana ezam olunmuş siyasi işçilərin başlıca arzularından biri Təbrizdə Azərbaycan dilində məktəb açılmasına nail olmaq idi. Nəhayət, 24 iyun 1944-cü ildə V.Molotov SSRİ Xalq Komissarları Sovetinin Təbrizdə Azərbaycan dilində orta məktəb açılması haqqında 13421 saylı qərarını imzaladı. Qərarda deyilirdi: SSRİ Xarici İşlər Komissarlığına icazə verilsin ki, Sovetlər Birliyindən ezam olunmuş azərbaycanlıların və yerli azərbaycanlı əhalinin uşaqlarının oxuması üçün 1944/45-ci tədris ilində Azərbaycan dilində orta məktəb açsın. Məktəbin aylıq əmək haqqı fondu

---

[274] ARPİİ SSA, f.1, s.169, i.129, v.4

[275] General Russovun M.C.Bağırova məktubu. 05.101944.// ARPİİ SSA, f.1, s.189, i.101, v.58

[276] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.43

28979 xarici valyuta, 4094 sovet rublu olmaqla 36 nəfər müəllim, inzibatı-təsərrüfat işçilərindən ibarət ştat cədvəli təsdiq edilsin. Təbrizdə açılan orta məktəbə bir avtomaşın ayırması haqqında Xarici İşlər Xalq Komissarlığına icazə verilsin.[277] 1944-cü ilin avqust ayının 18-də məktəbə direktor təsdiq edilmiş C.Ələsgərov Təbrizə gəldi. O, Xalq Komissarları Sovetinin Təbrizdə orta məktəb açılması haqqında qərarını da özü ilə gətirmişdi. Təbrizdə türk dilində orta məktəbin açılması əhali arasında böyük marağa səbəb olmuşdu. Sentyabrın 20-nə qədər 812 şagird bu məktəbdə oxumaq üçün ərizə vermişdi. Bunlardan 595 nəfəri azərbaycanlı, 64 nəfəri erməni, 11 nəfəri rus, qalanları isə digər millətlərin uşaqları idi.[278] Müraciət edənlərin sayı o qədər çox idi ki, sentyabrın 20-də ərizələrin qəbul edilməsi dayandırılmalı olmuşdu. Bundan əlavə, İranın orta məktəblərini bitirmiş 31 nəfər məzun müraciət etmişdilər ki, onlar təhsillərini Bakıda davam etdirmək istəyirlər.

Təbrizdə türk dilində orta məktəb açılması İran hakimiyyət orqanlarının narahatlığına səbəb olmuşdu. 3-cü Ostanın maarif idarəsinin rəisi Səlimi Təbrizdəki Sovet Baş Konsulluğunda orta məktəbin direktoru Cəbrayıl Ələsgərovla görüşüb, ona demişdi: "Ötən il erməni əhalisinin nümayəndələri bizə müraciət etmişdilər ki, onlar üçün erməni milli məktəbləri açaq. Buna cavab olaraq, İran hakimiyyəti bir sahibkara icazə vermişdi ki, erməni uşaqları üçün fars dilində üç məktəb açsın. Bu məktəblərdə erməni dili həftədə 2 saat tədris edilirdi və hər bir şagird üçün ayda 100 rial pul ödənilirdi. Lakin, bu il ermənilər 700-800 şagirdi əhatə edən, tədrisin erməni dilində olduğu xüsusi milli məktəb açdılar. Nəticədə erməni uşaqları üçün olan 3 fars özəl məktəbinin şagirdləri erməni milli məktəbinə keçdilər. Bu üç məktəbin sahibi maliyyə cəhətdən çox ziyana düşdü".[279] C.Ələsgərov Səlimi ilə söhbət barədə M.C.Bağırova yazırdı: "Cənab Səlimi bu misalı xəbərdarlıq kimi çəkdi ki, Sovet

---

[277] Təbriz şəhərində Azərbaycan dilində məktəb açılması haqqında SSRİ XKS-in qərarı. 24.06.1944.// ARPİİ SSA, f.1, s.89, i.79, v.7

[278] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.151

[279] C.Ələsgərovun M.C.Bağırova məktubu. 05.10.1944.// ARPİİ SSA, f.1, s.89, i.79, v.30

məktəbinin açılması İran məktəblərinin işinə maneçilik törətməsin. Cənab Səlimi əhalinin və ziyalıların bizim məktəbə münasibətini çox gözəl bilir və şagirdlərin kütləvi şəkildə İran məktəblərindən bizə gəlməsindən bərk narahatdır".[280]

1944-cü ilin noyabr ayının 17-də Təbrizdə sovet orta məktəbinin təntənəli açılışı oldu. Açılış mərasimində Azərbaycan ostandarı Dadvər, şəhər idarəsinin rəisi İlhami, məktəbin direktoru Ələsgərov, Sovet Baş konsulu Matveyev, gənc şair Məhəmməd Biriya və digərləri çıxış etdilər. Onlar öz çıxışlarında yeni məktəbin açılmasını Sovet İttifaqının humanist siyasətinin təzahürü kimi dəyərləndirdilər və onun əhəmiyyətindən danışdılar.[281]

Təbrizdə Azərbaycan dilində orta məktəbin açılması haqqında xəbər Cənubi Azərbaycan türklərinin milli azadlıq arzularına əməli xarakter verən bir addım idi. Bununla bağlı Təbrizdən göndərilən məlumatda deyilirdi: "Cənubi Azərbaycan əhalisi çox əsrlik arzusuna, farsların zülmündən qurtarmağa can atır. İranın Şimal vilayətlərinin azərbaycanlıları öz qan qardaşları ilə birləşməyin həsrətindədirlər. Milli birlik hissləri öz təzahürünü azadfikirlilikdə, ana dilində təhsil almaq istəyində, öz uşaqlarını vətənə və xalqa dərin məhəbbət hissi ilə tərbiyələndirməkdə tapır. Ərdəbil şəhərindəki antifaşistlərin başında öz vətənini həddindən artıq sevən gənc, istedadlı şair Balaş Azəroğlu dayanır. Bu yaxınlarda biz onun "Tarix boyu" poemasından parçalar çap etdik; Ziyalıların qabaqcıl hissəsi öz fikirlərini fars dilində deyil, xalqın başa düşdüyü Azərbaycan dilində yazıb yayırlar. Əhalinin Sovet İttifaqında yaşayan azərbaycanlı qardaşlarına tükənməz sevgisi vardır".[282]

1944-cü ilin yazında və yayında ÜİK(b)P MK-nın və SSRİ Xalq Komissarları Sovetinin 6 mart tarixli qərarına uyğun olaraq, Bakıdan Cənubi Azərbaycan 620 nəfərdən çox müxtəlif işçilər göndərilmişdi. Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov 1944-cü ilin sentyabr ayının 14-də Stalinə göndərdiyi hesabat xarakterli "Cənubi

---

[280] Yenə orada, v.30

[281] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.232

[282] ARPİİ SSA. f.1, s.89, i.81, v.137-140

Azərbaycandakı vəziyyətin bir sıra tərəfləri haqqında" geniş məruzəsində yazırdı: "Cənubi Azərbaycanda Sovet İttifaqının təsirini gücləndirmək haqqında sizin göstərişinizi yerinə yetirərək, son vaxtlar bizim tərəfimizdən bir sıra tədbirlər həyata keçirilmişdir. Respublikanın partiya, sovet və hərbi kadrlarından 245 nəfər Cənubi Azərbaycana göndərilmişdir. Bunlardan 13 nəfəri diplomatik işdə, 10 nəfəri ticarət təşkilatlarında, 150 nəfəri qarnizon komendantları olmaqla hərbi işdə, qalanları təsərrüfat, nəqliyyat, maarif mədəniyyət təşkilatlarında çalışırlar. Xarici Ticarət Komissarlığı, səhiyyə, dəmir yolu və digər sovet və təsərrüfat orqanlarında işləmək üçün yaxın günlərdə Cənubi Azərbaycana göndəriləcək daha 375 nəfər səfərbər edilmişdir. Cənubi Azərbaycana göndərilənlər istisnasız olaraq azərbaycanlılardır".[283]

"Vətən yolunda" qəzetinin əməkdaşları Təbrizə birinci getdiklərindən M.C.Bağırovun adına ilk hesabatları 1944-cü ilin may ayının 6-da və 18-də Ə.Şahgəldiyev göndərmişdi. O, qəzetin Təbrizdən başqa Urmiya, Xoy, Mərənd, Miyanə, Zəncan, Qəzvin, Sərab və digər şəhərlərdə geniş yayıldığını bildirirdi. Qəzetin işi ilə bağlı Cəfər Xəndan və Qulam Məmmədli Cənubi Azərbaycanın müxtəlif şəhərlərinə ezam olunmuşdular. Yerli ziyalıların işə cəlb olunması ilə bağlı Şahgəldiyev yazırdı: "Məhəmməd Biriya mənimlə əlaqə saxlayır. Hər gün görüşürük, onun gələcək ədəbi fəaliyyəti barədə müzakirələr aparırıq. Biriya "Yumruq" və "Ədəbi vərəqəni" buraxmaq üçün gecə-gündüz çalışır. O, məndən xahiş edib ki, göstərdiyiniz atalıq qayğısına görə onun atəşin salamlarını sizə çatdırım".[284]

1944-cü ilin may ayının 17-də "Vətən yolunda" qəzetinin redaksiyasında İran Məclisinə vəkil seçildikdən sonra Təbrizə mandatını almaq üçün gəlmiş, Tehrandakı "Ajir" qəzetinin redaktoru Seyid Cəfər Pişəvəri ilə görüş keçirilmişdi. 4 saatlıq görüş zamanı Pişəvəri redaksiya işçilərinə müttəfiqlərin İranda fəaliyyəti, xüsusilə, ingilislərin adamı kimi tanınan Seyid Ziyanın pozuculuq fəaliyyəti

[283] M.C.Bağırovun İ.Stalinə məktubu. 14.09.1944.// ARPİİ SSA, f.1, s.89, i.71, v.2
[284] ARPİİ SSA, f.1, s.89, i.80, v.31-32

haqqında geniş məlumat vermişdi. Pişəvəri ilə söhbətdə Xalq Partiyasının Təbriz şöbəsinin azərbaycanlı kadrlar hesabına gücləndirilməsi müzakirə edilmişdi. Halbuki, Urmiyadan İran məclisinə seçilmiş Ə.Ovanesyan "Tudə" partiyasının Təbriz bölməsinə başçılıq edirdi. Bununla bağlı M.C.Bağırov Stalinə yazırdı: "Belə bir faktdan yan keçmək olmaz ki, Cənubi Azərbaycanda tərkibi əsasən azərbaycanlılardan ibarət olan güclü siyasi təşkilatlardan biri kimi Xalq Partiyasının başında indiyə qədər erməni Ərdəşir Ovanesyan dayanır".[285] Bu faktdan Seyid Ziyaəddin böyük məharətlə istifadə edirdi. O, özünün çıxış və bəyanatlarında deyirdi: "Şəms əd-Din Təbrizinin (Şəms Təbrizi Azərbaycanın orta əsr şairlərindəndir, 1185-1248-ci illərdə yaşamışdır – C.H.) yurdunda erməni Ərdəşir Ovanesyanın ağalıq etməsinə müsəlman dünyası dözə bilməz".[286]

XIV çağırış İran Məclisi S.C.Pişəvərinin mandatını tanımaqdan imtina etdikdə İrandakı sovet nümayəndələri Xalq Partiyasının Təbrizdəki təşkilatına göstəriş verdilər ki, tudəçilər mitinq keçirib onun mandatının tanınmasını Tehrandan tələb etsinlər, lakin İran Xalq Partiyasının əyalət təşkilatının rəhbərliyi bildirdi ki, Pişəvəri Tudə partiyasının üzvü deyil və onun tədbirlərini müdafiə etmir. Onlar açıq şəkildə etiraf etdilər ki, Pişəvərinin mandatının təsdiq edilməsində elə də maraqlı deyillər.[287] Pişəvəriyə qarşı belə münasibətin arxasında Ə.Ovanesyan dayanırdı. O, sovet səfirliyi tərəfindən Pişəvərinin irəli çəkilməsinə qısqanclıqla yanaşır və ona qarşı Tudənin əyalət təşkilatını səfərbər edirdi. Bu münaqişənin kökləri onların hər ikisinin və digər İran kommunistlərinin, hələ XX əsrin 30-cu illərdə "Qəsri Qacar" zindanında yatdıqları dövrə gedib çıxırdı. Az sonra o, Cənubi Azərbaycandakı vəziyyət və İXP-nin Azərbaycan təşkilatı haqqında Moskvaya göndərdiyi geniş məktubda Pişəvəriyə olan düşmən münasibətini açıq şəkildə ortaya qoyurdu.[288]

---

[285] M.C.Bağrovun İ.Stalinə məktubu. 14.09.1944.// ARPİİ SSA, f.1, s.89, i.71, v.20

[286] Seyid Ziyaəddinin bəyanatı. SİTA. 01.01.1945.//AR DA, f.28, s.4, i.20, v.144

[287] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.128

[288] Ətraflı məlumat üçün bax: Ə.Ovanesyanın ÜK(b)P MK-ya məktubları. Senyabr - oktyabr 1945.// RDSSTA, f.17, s.128, i.819, v.35-84

"Vətən yolunda" qəzetinin fəaliyyəti, Cənub ziyalıları ilə iş barədə geniş məlumatı M.C.Bağırov 1944-cü ilin sentyabrında bir neçə günlüyə Bakıya çağırılmış Cəfər Xəndandan almışdı. Ə.Şahgəldiyevin məktubları Azərbaycan K(b)P MK-da müzakirə edilərkən, redaksiyaya tövsiyə olundu ki, son dərəcə ehtiyatlı olsunlar və İran hakimiyyət orqanlarına qəzeti bağlamaq üçün əsas verməsinlər. "Vətən yolunda" qəzetində çap olunmuş bəzi yazılar, xüsusilə, "Fətəli xan" məqaləsi və "Mən nə gətirərəm" şeiri Azərbaycan ostandarının etirazına səbəb olmuşdu. Müzakirənin gedişində Məhəmməd Biriya ilə əlaqələrin açıq şəkildə aparılması, onun hər gün redaksiyada görünməsi, İran hakimiyyət orqanları əleyhinə açıq təbliğat aparması siyasi cəhətdən düzgün hesab edilmirdi. Bağırov tərəfindən Şahgəldiyevə göstəriş verildi ki, "şair Biriya kimi dəyərli işçilərdən son dərəcə ehtiyatla istifadə etmək lazımdır, onu xırdalamaq, kiçik işlərə qoşmaq lazım deyildir".[289] M.Biriya ilə bağlı göndərilən xüsusi təlimatda deyilirdi: "Sabahın böyük siyasəti" naminə o, bizim üçün son dərəcə yararlıdır... Biriya Təbrizdə yaşayır və onun çox geniş əhatəsi var. Şübhəsiz ki, bu əhatədə müxtəlif siyasi qruplaşmalara xidmət edən təxribatçılar da yox deyildir. Onu bu əhatədən ağılla və ehtiyatla təcrid edib yorulmadan bizə lazım olan istiqamətdə tərbiyələndirmək lazımdır".[290] Müzakirə nəticəsində Azərbaycan K(b)P MK-nın ideologiya üzrə katibi Q.Məmmədova tapşırıldı ki, Zaqafqaziya Cəbhəsinin siyasi idarəsinin rəisi general Sorokinlə danışıb, "Vətən yolunda" qəzetinin texniki, məişət, sosial məsələlərini həll etsin və müvafiq göstərişləri vermək üçün Şahgəldiyev vaxtaşırı Bakıya dəvət edilsin. İclasın qərarı ilə Cənubi Azərbaycanla bağlı tədbirlər planının yerinə yetirilməsinə nəzarət etmək Azərbaycan K(b)P MK katibi Ə.Əlizadəyə tapşırıldı.

Cənubi Azərbaycana xüsusi tapşırıqla göndərilən bütün siyasi işçilərə rəhbər təyin edilmiş Təbrizdəki vitse-konsul Həsən Həsənov 1944-cü ilin iyununda qarşılaşdığı çətinliklərlə bağlı M.C.Bağırova üç məktub göndərmişdi. Bu məktublarda qaldırılan bütün məsələlər

[289] AR DA, f.411, s.25, i.407, v.7
[290] AR DA, f.411, s.25, i.407, v.11-12

Azərbaycan K(b)P MK-da müzakirə edildikdən sonra Bağırov Şahgəldiyev vasitəsi ilə H.Həsənova göndərdiyi cavabda yazırdı: "Xalq partiyasının konfransına, ümumiyyətlə bu partiyanın tədbirlərinə müdaxilə etmək lazım deyil. Yaxşı olar ki, qeyd edilən partiyanın fəaliyyətini izləyəsiniz, onun tərkibini, xüsusilə rəhbərlərini və əhalinin müxtəlif təbəqələri ilə əlaqələrini öyrənəsiniz. Fabrik və zavodlarda tətillərə gəldikdə, qoy fəhlələr bunu öz təşkilatları və həmkarlar ittifaqı vasitəsilə etsinlər. Sizin bu işlərə müdaxiləniz düşünülmüş və ehtiyatlı olmalıdır. Biriya ilə bağlı müvafiq göstərişləri biz bu yaxınlarda Bakıya gəlmiş Şahgəldiyevə vermişik və siz də buna əməl etməlisiniz. Adamların saxta sənədlərlə hərəkət etməsi ilə bağlı sərhəddə yaranmış problem sərhədçilərə aid deyil, onlar öz vəzifələrini yerinə yetirirlər. Bu işi yaxşı təşkil edə bilməyən, həmin sənədləri verən hərbi orqanların günahıdır. Qaldırılan məsələ Zaqafqaziya Cəbhəsinin nəzərinə çatdırılacaq. Təbrizdəki xəstəxananın baş həkimi H.Z.Quliyeva təyin edilmişdir və bu günlərdə ora gələcəkdir. Cənublu gənclərin rus dilini öyrənməsi məsələsi Təbriz mədəniyyət evinin dərnəklərində həll edilsin. Sovet Azərbaycanı ali məktəblərində oxumaq istəyənlərin məsələsi SSRİ Xarici İşlər Xalq Komissarlığının Yaxın Şərq şöbəsi ilə birgə həll edilməlidir. Bizim mədəniyyətimizin və təsirimizin geniş yayılması, ümumilikdə, bu məsələnin müsbət həll olunması gələcək kəşfiyyat işləri baxımından arzuolunandır. Araz çayından su götürməklə Muğanın aşağı hissəsinə kanal çəkilməsi SSRİ və İranın müvafiq orqanları tərəfindən həll edilə bilər. Qoy İran hökuməti rəsmi qaydada Sovet hökumətinə müraciət etsin. Ərdəbildə xəstəxana açılması məsələsinə Təbriz və Rəştdən sonra ikinci növbədə baxılacaq".[291]

Təbrizdəki sovet xəstəxanasının baş həkimi və səhiyyə kollektivinin formalaşdırılması ilə bağlı maraqlı bir vəziyyət yaranmışdı. Bu xəstəxananın açılmasından xəbər tutan kimi Ermənistan rəhbərliyi Suren Məlik-Israilyanı təcili olaraq ora baş həkim təyin etmiş və ona təlimat vermişdilər ki, Təbriz xəstəxanasında işləmək üçün Yerevandan 35 nəfər

[291] ARPİİ SSA, f.1, s.89, i.72, v.46-48. 55-56

səhiyyə işçisi toplasın, lakin iyun ayının ortalarında Təbrizə gələn S.Məlik-İsrailyana H. Həsənov bildirdi ki, Təbriz xəstəxanasına lazım olan səhiyyə kollektivinin sənədləri artıq, orada Bakıda təsdiq edilmişdir.[292] S.Məlik-İsrailyanın Təbrizdə yeni açılmış sovet xəstəxanasına belə tələsik təyinatı Tehrandakı sovet xəstəxanasının baş həkimi Boryanın təşəbbüsü ilə olmuşdu. Müəyyən hazırlıq işləri görüldükdən sonra 1944-cü ilin sentyabr ayının 3-də Təbrizdəki sovet xəstəxanasının açılışı oldu. Açılış mərasimində Təbrizdəki Sovet konsulluğunun əməkdaşları və Tehrandan gəlmiş sovet xəstəxanasının baş həkimi Boryan iştirak edirdi.[293]

Ümumiyyətlə, İrandakı sovet diplomatik və hərbi idarələrinin rəhbərlərinin istər yerli, istərsə də gəlmə ermənilərlə işləməyə üstünlük verməsi Azərbaycan siyasi işçilərində müəyyən narahatçılıqlar yaradırdı. Məsələn, Təbrizdəki SSRİ ticarət nümayəndəliyi İrandakı Sovet Ordusunu təchiz etmək üçün lazım olan malları erməni tacirləri vasitəsi ilə alırdılar. Lakin bu ticarət əməliyyatında göstərilən qiymətlər bir qayda olaraq, bazardakı qiymətlərdən xeyli yüksək olurdu və erməni tacirləri yerli əhalidən bu malları çox ucuz qiymətə alırdılar. Yaxud, 1944-cü ilin may ayında Təbrizə gələn sovet "Beynəlxalq kitab" idarəsinin nümayəndəsi Mironov, məhz, Mkrtçyanın mağazası vasitəsi ilə Təbrizdə sovet kitablarının ticarətini təşkil etmək arzusunda olduğunu bildirmişdi. Lakin Təbrizdəki vitse-konsul ona məsləhət görmüşdü öz mağazasını açsın və bu işdə konsulluq onu lazım olan avadanlıqlarla təmin edəcəkdir.[294]

1944-cü ilin iyun ayının 14-də Makunın, Xoyun, Şapurun, Şərəfxanın Azərbaycan kəndlərinin kürd talanlarına məruz qalması ilə bağlı ağır vəziyyət yarandığı üçün Tehrandakı Sovet səfirliyinin müşaviri Əhəd Yaqubov təcili olaraq Makuya yollanmışdı. Makuya gedərkən, o, Təbrizdə dayanmış, son vaxtlar azərbaycanlılarla kürdlər arasında baş vermiş toqquşmaları general Qlinski və Sovet konsulluğunun əməkdaşları ilə müzakirə etmişdi. İyun ayının əvvəllərində Təbrizə gəlmiş Mahabadda yaşayan kürdlərin başçısı

---

[292] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.55
[293] Yenə orada, s.124
[294] Yenə orada, s.34-35

Məhəmməd Qazi Sovet konsulluğundakı görüşdə Azərbaycan əhalisinə qarşı törədilən talanların yerli kürdlərlə deyil, son vaxtlar İraqdan gəlmiş 10 min nəfərlik silahlı "Xaştarı" kürd tayfası ilə bağlı olduğunu bildirmişdi. Söhbət zamanı Məhəmməd Qazi kürdlərin siyasi istəklərini də ortaya qoymuşdu. O qeyd etmişdi ki, regionda 7 milyon kürd yaşayır, onun 2 milyonu İranda, 2 milyonu İraqda, 3 milyonu isə Türkiyədə yerləşir. Məhəmməd Qazi dedi ki, ingilislər İraq parlamentində kürdlərə 9 yer verdiyi halda, İranda onların heç bir siyasi imtiyazı yoxdur. O, sovet nümayəndələrinə bildirdi ki, "kürdlər İran hüdudlarında muxtariyyət istəyirlər".[295]

İyun ayının 19-da Makuda yaranmış vəziyyətlə bağlı Azərbaycan jandarmasının rəisi Firudin Far Təbrizdəki sovet konsulluğuna dəvət edildi və onun qarşısına tələb qoyuldu ki, kürd talançı dəstələrinin Azərbaycan əhalisinə qarşı soyğunçuluğuna son qoyulsun. Jandarma rəisi kürdlərin İran hakimiyyət orqanlarına tabe olmadığını və qulaq asmadığını etiraf etdikdə, H. Həsənovun təklifi ilə belə qərara alındı ki, sovet ordu hissələrinin müdaxiləsi ilə soyğunçuluq edən kürdlər tərksilah edilsinlər.[296]

Kürd məsələsində sovet hərbi və diplomatik idarələrinin də günahı var idi. Yerində vəziyyətlə tanış olduqdan sonra Əhəd Yaqubov iyul ayının 4-də Makudan M.C.Bağırova göndərdiyi məlumatda bildirirdi: "İndiyə qədər konsulluq və hərbi idarələrin işçiləri kürd məsələsinə düzgün yanaşmırlar. Onlar kürd məsələsi ilə bağlı yoldaş Molotovun göstərişlərinə tamamilə məhəl qoymurlar. Ona görə kürdlərin soyğunçuluğu və törətdikləri qətllər bizim ünvanımıza arzuolunmaz söz-söhbət doğurur. Mən sizi xəbərdar etmək istəyirəm ki, keçmiş səfir (A. Smirnov – C.H.) burada çoxdan işlədiyindən, səfirliyin köhnə səhvlərini, öz işinin çatışmayan cəhətlərini göstərməməyə çalışırdı və qaldırılan məsələlərə münasibətdə lazımi tədbirlər görmürdü... Mən sizinlə görüşüb, bəzi məlumatları şəxsən sizə vermək istəyirəm. Ona görə, Tehrana gedən kimi

[295] Yenə orada, s.46
[296] Yenəorada, s.59

səfirdən xahiş edəcəyəm ki, Dekanazov vasitəsilə mənim 3-4 günlüyə Bakıya gəlməyimə nail olsun. Bəhanə olaraq ailəmə baş çəkməyi göstərəcəyəm".[297] Ə.Yaqubov kürd məsələsi ilə bağlı məlumatları SSRİ Xarici İşlər Xalq Komissarlığına da göndərmişdi. Cənubi Azərbaycana münasibətdə siyasət dəyişdiyindən, Tehrana yeni səfir təyin edilmiş M.Maksimova bu istiqamətdə müvafiq göstərişlər verilmişdi.

İyunun 28-də H.Həsənov da Urmiyaya getdi. Bu səfər Azərbaycan əhalisinə qarşı geniş xarakter almış kürd tayfalarının soyğunçuluğu ilə bağlı idi. 1944-cü ilin yazında və yayında Azərbaycan əhalisinə qarşı törədilən kürd talanlarında İran hakimiyyət orqanlarının əli olması barədə sovet diplomatik və hərbi dairələrində məlumatlar var idi. Azərbaycandakı 3-cü piyada diviziyasının komandiri general Cavadinin İran ordusu baş qərargahının rəisinə göndərdiyi gizli məktubu sovet xüsusi xidmət orqanları tərəfindən ələ keçirilib, hərbi kəşfiyyat xətti ilə M.C.Bağırova göndərilmişdi. General Cavadi yazırdı: "3-cü, 4-cü və 15-ci diviziyanın silahları kürdlərin əlinə keçmişdir. Bundan əlavə, Tehrandan da gizli yollarla silah gətirilib, kürdlərə satılır... Kürdləri tərk silah etmək indi nəinki mümkün deyil, heç məqsədəuyğun da deyildir. İndiki anda ən yaxşı vasitə kürdlərin birləşməsinin qarşısını almaqdır".[298] Azərbaycanın qərb bölgəsinə səfər zamanı H. Həsənov Urmiya, Şəbüstər, Şapur, Uşnu və Xoyda oldu, əhali və hakimiyyət orqanlarının nümayəndələri ilə görüşdü. Onların məlumatına görə, kürd talançı dəstələri Şəbüstərlə Şapur arasındakı Qanlı Dərə deyilən yerdə toplaşmışdılar. Jandarm rəisinin məlumatına görə, soyğunçu kürd dəstələri, yalnız, Şapur ətrafından 700 baş iribuynuzlu mal-qara aparmışdılar. Araşdırmalar zamanı məlum oldu ki, İran hakimiyyət orqanları kürd talanlarının qarşısını almaqda gücsüzdür. Bu halda H.Həsənov kürd talanlarının qarşısını almaq üçün sovet hərbi hissələrinin müdaxiləsini zəruri hesab edirdi, lakin sovet ordu hissələrinin komandirləri bu işə elə də həvəslə getmirdilər. H.Həsənov öz gündəliyində yazırdı: "Bədbəxt-

---

[297] Ə.Yaqubovun M.C.Bağırova məktubu. 04.07.1944.// ARPİİ SSA, f.1, s.89, i.72, v.72

[298] General İvanovun M.C.Bağırova məlumatı. 15.081944.// ARPİİ SSA, f.1, s.89, , i.74, v.34

çilik ondadır ki, bizim ordu hissələrinin bəzi komandirləri İranın daxili işlərinə müdaxilə etməməyi səhv başa düşürlər. Onlar deyirlər ki, kürd talanları İranın daxili işidir və biz buna müdaxilə edə bilmərik. Bu o deməkdir ki, kürdlər Azərbaycan əhalisini talan etməlidir və bu cəzasız qalmalıdır. Kürdlər birinci yürüşü edib, gördükdəki, heç kim onlara mane olmur, onda onlar öz talançılıqlarını daha da gücləndirdilər. Kimlər ki, heyvan oğurlamağa macal tapmamışdılar, onlar da soyğunçuluğa hazırlaşmağa başladılar. Bütün bunlar Azərbaycan əhalisinin kütləvi narazılığını doğurdu."[299] İyun ayının 29-30-da və iyulun 5-də H.Həsənov S.Marçenko ilə birlikdə müxtəlif kürd tayfa başçıları ilə görüşüb, onları soyğunçuluqdan çəkinməyə və ələ keçirdikləri malqaranı qaytarmağa çağırdı. Əks təqdirdə, o, sovet ordu hissələrinin bu işin öhdəsindən gələ biləcəyini və talançılıqda iştirak etmiş kürd tayfa başçılarının saxlanılaraq, İran hakimiyyət orqanlarına təhvil veriləcəyini bəyan etdi. H. Həsənov iyul ayının 3-də Təbrizdən Urmiyaya gəlmiş general Qlinski ilə kürd talanlarından ziyan çəkən rayonlarda qaydaqanun yaradılması istiqamətində bir sıra müzakirələr apardı.[300] Ümumilikdə, iyun-iyul aylarında Tehrandakı sovet səfirinin müşaviri Ə.Yaqubovun və Təbrizdəki vitse-konsul H. Həsənovun bölgəyə səfərləri Azərbaycan əhalisinin kürd talanlarından qorunması istiqamətində əhəmiyyətli hadisə oldu.

İyunun axırlarında Qərbi Azərbaycana gəlib vəziyyətlə tanış olduqdan sonra Təbrizdəki vitse-konsul H.Həsənov iyulun 9-da V.Molotova, Tehrandakı sovet səfirinə və iyulun 11-də M.C.Bağırova geniş məruzələr hazırlamışdı. Maraqlıdır ki, M.C.Bağırova göndərilən məruzə Moskvaya və Tehrana göndərilən məruzədən fərqlənirdi. Həsən Həsənov yazırdı: "Sizə məlum olduğu kimi, mən Azərbaycanın Qərb rayonlarına getdim. Səfərin nəticəsi kimi hazırladığım məruzəni Moskvaya, Tehrana yolladım və sizə göndərirəm. Bu məruzəyə Moskvaya və Tehrana yazmaq istəmədiyim məsələləri əlavə etmək istəyirəm..."[301]

---

[299] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.70

[300] Bax: Yenə orada, s.67-84

[301] H.Həsənovun M.C.Bağırova məruzəsi. 12.09. 1944.// ARPİİ SSA, f.1, s.89, i.72, v.94

Azərbaycandan Cənuba göndərilən siyasi işçilərin rəhbəri, Təbrizdəki vitse-konsul Həsən Həsənov V.Molotova və Tehrandakı Sovet səfirinə nələri yazmaq istəməmişdi? Həmin məsələləri o, M.C.Bağırova 1944-cü ilin iyul ayının 12-də "tamamilə məxfi" qrifi altında göndərdiyi məruzədə açıqlamışdı. Molotova yazılan məruzə İranın kürd rayonlarında ümumi vəziyyət haqqında, kürdlərin azərbaycanlılarla münasibətləri barədə məlumatdan ibarət idi. Həsənov kürdlərin sovetlər tərəfindən himayə edilməsindən ingilislərin və türklərin bərk narahat olduğunu bildirirdi. İngilis kəşfiyyatı zabitlərinin kürd tayfa başçıları ilə tez-tez görüşüb danışıqlar aparması barədə məlumatlar var idi. Kürdlərin azərbaycanlılara qarşı talançılığının ingilis kəşfiyyatı və İran hakimiyyəti tərəfindən gizli şəkildə təşkil olunduğu bildirilirdi. O yazırdı: kürdlərin azərbaycanlı əhaliyə qarşı bütün azğınlığı Rizaiyyə şəhərinin şəhridarı doktor Mərzbanın gözləri qarşısında baş verir. Bu talanlardan cana doyan əhali 7 iyulda şəhər başçısına qarşı çıxdılar və onu hamının gözü qarşısında döydülər. Xoy şəhərinin jandarm rəisi Teymurinin himayə etdiyi kürd talançılarının başçıları türk əhalisinin iri və xırdabuynuzlu mal-qarasını sürüb aparanda açıqca bildirmişdi ki, bundan Sovet ordusunun komandirinə də pay verirlər. H. Həsənov Molotova bildirirdi ki, kürdlərlə azərbaycanlılar arasında gərginlik yaratmaqla, İran hakimiyyət dairələri Azərbaycanda ordu və jandarmanı gücləndirmək, sovetlərə münasibətdə artan rəqabəti boğmaq istəyirlər.[302]

M.C.Bağırova göndərdiyi məruzədə isə Həsənov Cənubda yaranmış real vəziyyəti açıqlayaraq əhalinin İran hakimiyyətindən bərk narazı olduğunu, Sovet Azərbaycanına ümidlə yanaşdığını bildirirdi. O yazırdı: "Yoldaş Bağırov, bu bir faktdır ki, əhali qırılıb əldən gedir. Kəndlərdə dəhşətli vəziyyətdir. Əyinlərindəki paltarlara o qədər yamaq vurulub və elə miskin görkəmdədirlər ki, ilk dəfə həmin paltarın hansı materialdan tikildiyini müəyyən etmək olmur. Demək olar ki, hamı lüt və səfil kökündədir. Çox hallarda kəndlərdə meyitləri kəfənsiz basdırırlar.

[302] H.Həsənovun SSRİ XXİK Molotova məruzəsi. 09.07.1944.// ARPİİ SSA, f.1, s.89, i.72, v.201-205

Azərbaycanlı kəndlilərin İranda indiki həyatından daha dəhşətli mənzərəni təsəvvürə gətirmək çətindir. Çoxları sual verir ki, nə vaxt bu biçarə xalq cəhənnəm əzabından qurtaracaq. Qərb rayonlarına gedərkən keçirdiyim görüşlərdə heç nədən çəkinmədən ucadan deyirdilər: "Axı bu millət qırıldı, əldən getdi, gəlin buna sahib olun". Qərbi Azərbaycana səfər edərkən H.Həsənov kürd tayfa başçıları ilə də görüşdüyünü Bağırova bildirirdi. Onlardan bir neçəsi - Qotaz bəy, Rəşid bəy, Nuru bəy, Zero bəy M.C.Bağırovu şəxsən tanıyır və deyirdilər: "Yoldaş Bağırov bizə söz verib ki, müharibədən sonra kürd məsələsini həll edəcək. Biz ancaq ona ümid bağlayırıq... Biz sizin adamlarınızıq, bizi özünüzdən uzaqlaşdırmayın. Əgər sözlərimizə inanmırsınızsa, istənilən çətinliklərdə yoxlayın". Doğrudan da Sovet Ordusunun İrana daxil olmasından kürdlər çox faydalanmışdılar. Reza şah dövründə ipə-sapa yatmayan kürd tayfa başçılarının çoxu cənuba və İranın digər uzaq yerlərinə sürgün edilmişdilər. Vaxtilə Reza şah tərəfindən həbs və sürgün edilən kürdlər 1941-ci ilin şəhrivər hadisəsindən sonra öz yerlərinə qayıtmışdılar. H.Həsənov öz məruzəsində təklif edirdi ki, "bizim İranda məqsədlərimizdən asılı olmayaraq, kürdlər arasında dayaqlarımızı yaratmalıyıq. 30-40 kürd uşağını Bakıda oxuda bilsək, gələcək işlərimiz üçün çox yaxşı olar".[303] Kürd məsələsi ilə bağlı H. Həsənovun fikirləri İrandakı sovet hərbi və diplomatik nümayəndələrinin fikri ilə üst-üstə düşmürdü və o, bu fikirlərini Bağırova da bildirirdi. Həsənovun fikrincə, nə səfir Maksimov, nə də yüksək rütbəli sovet hərbiçiləri kürd məsələsinin mahiyyətini anlamırdılar. Həsənova görə, kürd məsələsinə münasibətdə Sovet hökumətinin aydın bir xətti olmalı idi. O, "kürd məsələsinin bizə dəxli yoxdur" yanaşmasını doğru saymırdı və hesab edirdi ki, kürdlərin soyğunçuluq hərəkətlərinin İranın şimalında sabitliyə və təhlükəsizliyə məsuliyyət daşıyan Sovet İttifaqını gözdən saldığını onlara izah etmək lazımdır. H.Həsənov, bir tərəfdən, kürdləri sovetlərdən uzaqlaşdırmamağı, digər tərəfdən, onların nazı ilə oynamamağı tövsiyə edərək yazırdı: "Bizim kürdlərlə münasibətlərimizi Türkiyə və İraqda yaşayan kürdlər izləyirlər, ona görə bu münasibətlər

[303] H.Həsənovun M.C.Bağırova məruzəsi. 12.09. 1944.// ARPİİ SSA, f.1, s.89, i.72, v.95

normal olmalıdır və biz kürdləri özümüzə tərəf çəkməliyik".[304] Bütün bu məsələləri M. C. Bağırovla yaxından müzakirə etmək üçün H. Həsənov onunla görüşmək arzusunu da məktuba əlavə etmişdi, lakin bu məktubu yola saldıqdan bir gün sonra, yeni kürd talanları ilə bağlı Həsənov yenidən Makuya qayıtmalı oldu. O, iyul ayının 14-də Urmiyadakı sovet diviziyasının komandiri Rıjovla birlikdə Qotur dərəsində kürd tayfa başçıları ilə keçirdiyi görüşdə Azərbaycan əhalisindən qəsb etdikləri mal-qaranı qaytaracaqları barədə onlardan yazılı iltizam aldı. Maku və Xoyda daha bir neçə görüş keçirdikdən sonra o, iyul ayının 19-da Təbrizə qayıtdı.[305]

İranda və Cənubi Azərbaycanda yaranmış vəziyyəti, xüsusilə, qərb rayonlarında kəskin xarakter almış kürd məsələsini müzakirə etmək üçün diplomat kimi fəaliyyət göstərən Sovet Azərbaycanı siyasi işçilərdən H. Həsənov, B. Seyidzadə, Hacıbəyov, Təbrizdəki Baş konsul Matveyev avqust ayının 7-8-də Tehranda keçirilən konfransa dəvət edildilər. Konfransın gündəliyində duran başlıca məsələ kürd məsələsi idi. Bu məsələ ilə bağlı avqust ayının 7-də Matveyev ətraflı çıxış etdi və vitse-konsul Həsənovun geniş məruzəsi dinlənildi. Avqustun 8-də isə İranda siyasi partiyalar haqqında Tehrandakı Sovet səfirliyinin müşaviri S. Sıçev Təbrizdəki vitse-konsul Həsənovun, təbliğat işləri haqqında səfirliyin katibi Rassadinin, sovet zonasına xaricilərə buraxılışların verilməsi haqqında Təbrizdəki konsul Yemelyanovun, həmkarlar təşkilatının işi barədə Qoryaçovun, hesabatların tərtib olunması və İranın siyasi xadimləri haqqında xarakteristikaların hazırlanması barədə Avalovun məruzələri dinlənildi. Konfransın işinə səfir M. Maksimov yekun vurdu. O, qeyd etdi ki, SSRİ XİXK sovet diplomatik orqanlarının İrandakı fəaliyyətini, o cümlədən, kürd məsələsi ilə bağlı görülən işləri yüksək qiymətləndirir. O, öz çıxışında H. Həsənov tərəfindən göndərilmiş xidməti məlumatları yüksək qiymətləndirdi. Konfransdan sonra H.Həsənovla keçirdiyi görüşdə M. Maksimov səfirliyin azərbaycanlı

[304] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.85
[305] Bax: Yenə orada, s.87-89

əməkdaşları Ə.Əliyev və M.Şərifovun da işini yüksək qiymətləndirdi. Eyni zamanda, H.Həsənov Təbrizdə yaranmış vəziyyəti də ətraflı şəkildə sovet səfiri ilə müzakirə etdi.[306]

Cənubi Azərbaycanla bağlı istər Moskvada və istərsə də Bakıda aparılan bütün müzakirələrdə əhali arasında təbliğat işinin gücləndirilməsinə böyük əhəmiyyət verilirdi. 1944-cü ilin yayında sovetlər İranda öz təsirini gücləndirmək üçün mətbuata xüsusi diqqət yetirirdi. İngilislərin Tehranda çoxlu sayda qəzet və jurnallar nəşr etməsi də onları qıcıqlandırırdı. Sovet səfirliyi M.C.Bağırovdan xahiş edirdi ki, Tehranda mətbuat işinin yenidən təşkilində onlara köməklik göstərsin. Sovet Azərbaycanından göndərilən tərcüməçilərin və mətbuat işçilərinin yardımı ilə SSRİ səfirliyi Tehranda "Duste İran" qəzetini, İranın Sovet İttifaqı ilə mədəni əlaqə cəmiyyətinin "Piyşe Nou" (Yeni Xəbərlər) jurnalını buraxmağa başladılar. Jurnalın ilk sayı 1944-cü ilin avqust ayının 30-da çıxdı. Onun məsul katibi tanınmış yazıçı Səid Nəfisi idi.

1944-cü ilin yazında və yayında Cənubi Azərbaycanda aparılan siyasət barədə M.C.Bağırov İ.Stalin üçün hazırladığı 21 səhifədən ibarət olan ilk geniş məruzəsini sentyabr ayının 14-də Kremlə göndərdi, hesabatda ilk olaraq "Vətən yolunda" qəzetinin fəaliyyətindən söhbət açılırdı. Qəzetin Cənubi Azərbaycanda geniş yayıldığı, onun yaradıcı ziyalıları öz ətrafında topladığı bildirilirdi. Öz fikrini əsaslandırmaq üçün o, Təbrizin orta məktəb müəllimlərindən birinin qəzet haqqında dediyi sözləri misal gətirirdi. Təbrizli müəllim "Vətən yolunda" qəzetini belə səciyyələndirmişdi: "Mən qəzetin birinci nömrəsini aldım və böyük həyəcanla onu oxudum. Əgər qəzetin bir sayı üçün mənim bütün var-yoxumu istəsələr, mən tərəddüd etmədən verərəm. Ümidvaram ki, "Vətən yolunda" qəzeti parlaq ulduz kimi öz işığı ilə Təbriz üfüqlərini işıqlandıracaq".[307]

Stalinə məruzəsində M.C.Bağırov Cənubi Azərbaycanın gənc şairlərindən olan Məhəmməd Biriyanın və Balaş Azəroğlunun adını

---

[306] Yenə orada, s.99-102

[307] M.C.Bağırovun İ.Stalinə məktubu. 14.09.1944.// ARPİİ SSA, f.1, s.89, i.71, v.3

xüsusi iftixarla çəkirdi. Məruzədə qoyulan ciddi məsələlərdən biri də Cənubi Azərbaycana təsir vasitəsi kimi İslam dinindən istifadə məsələsi idi. Bakıda Qafqaz Müsəlmanları Dini İdarəsi yaradıldıqdan sonra müsəlman ruhanilərinin və Zaqafqaziya dindarlarının Bakıda qurultayı keçirilmişdi. Qurultayda bütün dünya müsəlmanlarına qəbul edilən müraciətin 5000 nüsxəsi Azərbaycan və fars dillərində nəşr edilib Təbrizə göndərilmişdi. Qurultayın qəbul etdiyi "Müsəlman qardaşlara müraciət" adlı sənəddə deyilirdi: "Müsəlman qardaşlar! Cəllad Hitler və onun əlaltısı Mussolini müqəddəs islam torpaqlarını - Ərəbistanı və Misiri tapdalayıb, işğal etmək məqsədi güdürlər. Liviyada Mussolini yüz minlərlə müsəlmanı işgəncələrə məruz qoyaraq güllələyibdir. Onun həyasızlığı, hətta, o dərəcəyə çatmışdı ki, Mussolini üç il öncə islam xəlifəliyi iddiasına düşmüşdü... Biz Azərbaycan və Sovet İttifaqının bütün ruhaniləri torpaqlarımıza hücum etmiş, yüz minlərlə insanın həyatını məhv etmiş faşistlərin cinayətinə necə dözüb cihad elan etməyək. Hitler, Mussolini və onların əlaltıları cürbəcür şayiələr yayırlar ki, guya, Sovet hökuməti islam dininə təzyiq göstərir. Bundan böyük yalan və böhtanı dünyada hələ heç kəs görməyibdir... Biz Sovet İttifaqının müsəlmanları həmrəy olub alman faşizminə cihad elan edirik. İntiqam günü çatıb. Hədisi Şərifdə buyurulub ki, başqasına hücum edən tezliklə öz cəzasını almalıdır. Biz Sovet İttifaqının mömin müsəlmanları bütün dünya müsəlmanlarına müraciət edirik: alman və italyan faşistlərinə rəhminiz gəlməsin. Hər yerdə ki, onları gördünüz öldürün, çünki bu müqəddəs əmrdir.[308] Qafqaz müsəlmanları qurultayının bu müraciəti Cənubi Azərbaycanda da böyük əks-səda doğurmuşdu. Sovet Azərbaycanında yeni yaranan dini idarənin başçısı Şeyxülislam Axund Ağa Əlizadənin Cənubi Azərbaycanın din xadimlərinin bəziləri ilə hələ, Bağdad İlahiyyət Universiteti və Nəcəfdəki Ali Dini Universitetdəki təhsil illərindən tanışlığı və şəxsi əlaqələri var idi.

---

[308] Şeyxülislam Axund Ağa Əlizadənin dünya müsəlmanlarına müraciəti. 1944. ARPİİ SSA, f.1, s.89, i.63, v.36-38

M.C.Bağırov İ.Stalinə göndərdiyi məruzəsində ÜİK(b)P MK-nın və XKS-nin qərarına uyğun olaraq, Cənubi Azərbaycanda görülən işlərə toxunub, yerli əhali üçün radio verilişlərinin təşkil edilməsini, Təbrizdə xəstəxananın, mədəniyyət evinin, corab trikotaj fabrikinin və sovet orta məktəbinin açılmasını, Qəzvində əhalinin içməli su ilə təmin edilməsini, Dövlət Müdafiə Komitəsinin qərarına əsasən Bakı-Astara-Qəzvin avtomobil yolunun çəkilməyə başlamasını yüksək qiymətləndirirdi. Onun fikrincə, son zamanlar görülən bütün bu tədbirlər şübhəsiz ki, iranlılar arasında Sovet İttifaqına inam və etimadı yüksəltmiş, Azərbaycan əhalisi arasında milli özünüdərk prosesini gücləndirmişdir. Onun fikrincə, bu işdə Cənubi Azərbaycan əhalisinin dilini, məişətini, milli xüsusiyyətlərini bilən azərbaycanlı işçilərin İrana ezam edilməsi böyük rol oynamışdı. M.C.Bağırov yazırdı: "İran hökuməti və yüksək dövlət məmurları son zamanlar bizim orada nüfuzumuzun yüksəlməsindən və onun gələcək nəticələrindən ehtiyat edirlər. Onlar bizim İrandakı tədbirlərimizi pozmaq üçün əks tədbirlər görürlər. Bir sıra faktlar mübahisəsiz şəkildə təsdiq edir ki, bütün bunlar ingilislər tərəfindən istiqamətləndirilir və müdafiə edilir".[309]

M.C.Bağırov Stalin üçün hazırladığı geniş məruzədə ingilislərin Xəzərin cənubunda və kürdlər arasında gizli iş apardıqları da qeyd edilirdi. O, məlumat verirdi ki, 1944-cü ilin aprel-avqust aylarında kürd silahlı dəstələrinin hücumları nəticəsində Azərbaycan kəndləri talan edilmiş, üç nəfər, o cümlədən iki uşaq öldürülmüş, 6000 baş xırda buynuzlu, 700 baş iribuynuzlu mal-qara sürülüb aparılmışdır. M.C.Bağırov Stalinə yazırdı: "Uzun müddətdir ki, kürdlər bizim komandanlığın gözü qarşısında Azərbaycan əhalisini qarət edir. Bizim komandanlıq kürdlərə qarşı heç bir qəti tədbir görmür, yalnız xəbərdarlıq etməklə işini bitmiş hesab edir". Məruzənin sonunda o, Cənubi Azərbaycanda işi gücləndirmək uçun aşağıdakı təklifləri irəli sürürdü: "Bütün vasitələrlə Azərbaycandan İran Məclisinə seçilmiş vəkillərin mandatlarının Məclis tərəfindən təsdiqinə nail olmaq; zəruri hazırlıq tədbirləri görülməklə

[309] M.C.Bağırovun İ.Stalinə məktubu. 14.09.1944.// ARPİİ SSA. f.1, s.89, i.71, v.5-14

yaxın zamanlarda həmkarlar təşkilatlarını birləşdirmək, Sovet İttifaqına düşmən münasibətdə olanların hamısını rəhbərlikdən uzaqlaşdırmaqla orada sovet təsirini gücləndirmək; İran Xalq partiyasının rəhbərliyini azərbaycanlılardan olan tanınmış ziyalılar hesabına möhkəmlətmək, onun nüfuzunu qaldırmaq üçün bir sıra tədbirlər görmək; İran hakimiyyət orqanları vasitəsi ilə Cənubi Azərbaycanda bizə qarşı pozuculuq işləri aparan təxribatçı ünsürləri ləğv etmək üçün qəti tədbirlər görmək; Azərbaycanlı əhaliyə hücum edən bir sıra kürd talançı tayfa başçılarına münasibətdə qəti mövqe tutulması istiqamətində İrandakı Sovet Ordusu komandanlığına və diplomatik işçilərə göstəriş vermək, azərbaycanlılarla kürdlər arasında normal münasibətlərin yaradılmasına nail olmaq; Sovet Ordusunun yerləşdiyi ərazidə qarnizonların nüfuzunu qaldırmaq, sovet qarnizonlarının razılığı olmadan İran hakimiyyət orqanlarının bizim mənafeyimizə toxunan hər hansı tədbirinin keçirilməsinin qarşısını almaq; İranda və Cənubi Azərbaycanda kəşfiyyat işlərini genişləndirmək, bu məqsədlə əhalinin etibarlı hissəsindən istifadə etmək; çox ehtiyatlı formada kəndlilər arasında bizim işimizi gücləndirməyə xüsusi diqqət yetirmək.[310]

Cənubi Azərbaycana münasibətdə Sovet İttifaqının siyasəti dəyişildiyi üçün kəşfiyyat orqanları vasitəsi ilə İranın siyasi həyatı, ordunun quruluşu barədə məlumatlar toplanılması gücləndirildi. Hərbi kəşfiyyat 1944-cü ilin iyul ayının 15-də "İran silahlı qüvvələri haqqında" son dərəcə məxfi xarakter daşıyan geniş məlumatlı sənəd hazırlamışdı. Bu sənəddə İran ordusunun baş qərargahı, hərbi idarələri, hərbi təhsil müəssisələri, ordunun şəxsi heyəti, yerləşməsi, döyüş ruhu, hərbi hava qüvvələrinin vəziyyəti barədə maraqlı kəşfiyyat materialları toplanmışdı. Təkcə Zaqafqaziya Cəbhəsinin kəşfiyyat idarəsinin 1944-cü ilin sentyabr ayının 20-də hazırlayıb bir nüsxəsini M.C.Bağırova göndərdiyi "İran Ordusunun general heyəti və zabit korpusu" adlı arayış-məruzəsi 236 səhifədən ibarət idi. Arayışı Zaqafqaziya Cəbhəsinin qərargah rəisi general-mayor İvanov və kəşfiyyat idarəsi rəisinin müavini podpolkovnik Qorşkov

[310] M.C.Bağırovun İ.Stalinə məktubu. 14.09.1944.// ARPİİ SSA. f.1, s.89, i.71, v.21-22

hazırlamışdı. Həmin arayışda İran ordusunun sayının 123 min, zabitlərin sayının 9 min olduğu göstərilirdi. Sovet hərbi kəşfiyyatının məlumatına görə, İran ordusunda 1 hərbi nazir, 2 müavini, 2 korpus generalı, 17 diviziya generalı, 34 briqada generalı, 338 polkovnik, 239 podpolkovnik, 320 mayor, 1470 kapitan, 1960 baş leytenant, 1247 leytenant, 870 leytenant və s. xidmət edirdi.[311] Bütün bu rəqəmlər Sovet İttifaqının İranda, ilk növbədə isə Cənubi Azərbaycanda böyük marağının olmasından xəbər verirdi.

İranın Müdafiə Nazirliyi və Baş Qərargahın bütün yüksək rütbəli hərbiçiləri haqqında, demək olar ki, hər şey sovet hərbi kəşfiyyat orqanlarına məlum idi. Onların yaşadıqları evlərin nəinki ünvanı, hətta planı belə Sovet xüsusi xidmət orqanları tərəfindən öyrənilmişdi.[312] 1944-cü ilin oktyabrında Sovet xüsusi xidmət orqanları və hərbi kəşfiyyatı tərəfindən İran dövlət aparatında işləyən bütün yüksək vəzifəli şəxslərin siyasi oriyentasiyası və SSRİ-yə münasibəti haqqında məlumatlar toplanmışdı. Bu məlumatlar əsasında bütün vəzifəli şəxsləri səciyyələndirən 219 səhifədən ibarət geniş arayış hazırlanmışdı.[313] İran ordusu zabitlərinin siyahısı və onlar haqqında toplanmış şəxsi məlumatlar Qırmızı Ordunun Baş Qərargahının rəisi, ordu generalı Aleksey Antonova təqdim edilmişdi.

1944-cü ilin dekabrında toplanan məlumatlara və öyrənilən vəziyyətə uyğun olaraq, Zaqafqaziya Cəbhəsinin komandanı, ordu generalı İvan Tyülenev, Azərbaycan K(b)PMK-nın katibi M.C.Bağırov, hərbi şura üzvü general-mayor Yefimov, Siyasi İdarənin rəisi general-mayor Yemelyanovun imzası ilə Qırmızı Ordunun Baş Siyasi İdarəsinin rəisi general-polkovnik Aleksandr Şerbakovun adına "İranın yerli əhalisi içərisində işin gücləndirilməsi haqqında" geniş məruzə hazırlandı. Orada deyilirdi: "Sovet Ordusunun İranda olduğu 3 ildən artıq bir dövrdə İran əhalisinin, xüsusilə, Cənubi Azərbaycan əhalisinin siyasi təfəkküründə

---

[311] İranın silahlı qüvvələri haqqında. 15.07.1944.// ARPİİ SSA, f.1, s.89, i.89, v.2. Sənəd sovet hərbi kəşfiyyatının materialları əsasında hazırlanmışdır.
[312] ARPİİ SSA, f.1, s.89, i.74, v.58
[313] İranın dövlət aparatının işçilərinin və onların agentlərinin antisovet və pozucu fəaliyyəti haqqında arayış-məruzə. 1944.//ARPİİ SSA, f.1, s.89, i.101, v.1-219

inkişafında əhəmiyyətli iş görülmüşdür. Azərbaycan partiya təşkilatı, yalnız, 1944-cü il ərzində İranda yerləşən Sovet ordusunun siyasi idarələrində, hərbi komendaturalarda, Sovet ticarət və nəqliyyat idarələrində işləmək üçün 800 nəfərə yaxın işçi göndərmişdir. Bunlar yerli əhali içərisində böyük iş aparırlar. Lakin, buna baxmayaraq, bizim əhali içərisində təbliğat işlərimiz arzu olunan səviyyədə deyildir". Təbliğat işlərini gücləndirmək üçün sənəddə bir sıra tədbirlərin həyata keçirilməsi təklif olunurdu. Orada göstərilirdi: "Duste İran" qəzeti yenidən qurulsun və onun tirajı 15 min nüsxəyə çatdırılsın; Cənubi Azərbaycan əhalisi içərisində yayılan "Vətən yolunda" qəzetinin tirajı 15 min nüsxəyə çatdırılsın; İranda tez bir zamanda fars, Azərbaycan, erməni, ərəb və kürd mətnləri ilə şərh edilən illüstrasiyalı jurnal buraxılsın; bizim nəzarətimizdə olan nəşrlərdə müxtəlif istiqamətləri təmsil edən yerli müəlliflərin yazılarının dərc edilməsi artırılsın; Şimali İrana verilişlər yayan radio qovşaqlarının işi təkmilləşdirilsin və ştatları artırılsın; Tehranda məlumat-tərcümə mərkəzi yaradılması üçün Zaqafqaziya Cəbhəsi Siyasi İdarəsinin 7-ci bölməsinə icazə verilsin; ölkənin və fars dilinin dərindən öyrənilməsi istiqamətində İranda olan Sovet Ordusunun qərargahı və siyasi orqanlarına tapşırıq verilsin; ÜİMƏC (Ümumittifaq Mədəni Əlaqələr Cəmiyyəti) xətti ilə İranda rus dili öyrədən kurslar açılsın; aztəminatlı əhaliyə pulsuz xidmət göstərən "xalq xəstəxanaları" açılsın və hərbi həkimlərin işləyəcəyi bu xəstəxanalar dərman və tibbi avadanlıqla təmin edilsin; təbliğat işlərini təşkil etmək üçün yüz min manat dəyərində xarici valyuta ayrılsın və s.[314]

İran Azərbaycanı ilə mədəni əlaqələri genişləndirmək üçün M.C.Bağırov Azərbaycan mədəni əlaqə cəmiyyətinin yaradılmasını zəruri hesab edirdi. 1944-cü ilin noyabr ayının 1-də o, G. Malenkova yazırdı: "Bizim tərəfimizdən İran əhalisi arasında həyata keçirilən tədbirlər nəticəsində İran ziyalılarının Azərbaycan SSR-in elm, incəsənət və ədəbiyyat sahəsində əldə etdiyi uğurlara böyük marağı müşahidə edilməkdədir. Bizim respublikanın nailiyyətlərinin xaricdə daha yaxşı tanınması və bu sahədə

[314] İranın yerli əhalisi arasında işin gücləndirilməsi haqqında Tyulenev, Bağırov, Yefimov və Yemelyanovun Şerbakovun adına hazırladıqları xidməti məruzə. 1944.// ARPİİ SSA, f.1, s.89, i.71, v.23-27

həyata keçirilən bütün tədbirlərin mərkəzləşdirilməsi məqsədilə Azərbaycanın xarici ölkələrlə mədəni əlaqələri cəmiyyətinin yaradılmasını məqsədəuyğun və vaxtı çatmış məsələ hesab edirik. Azərbaycanın xarici ölkələrlə mədəni əlaqə cəmiyyətinin yaradılmasını məqsədəuyğun hesab edən yoldaş Kemenov, eyni zamanda bu cəmiyyətə sədrlik etmək üçün uyğun namizədin seçilməsini xahiş etmişdir. Azərbaycan Partiya Təşkilatının Mərkəzi Komitəsi sizdən xahiş edir ki, Azərbaycan Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin yaradılmasına qərar verəsiniz və 1940-cı ildən partiya üzvü, iki dəfə Stalin mükafatı laureatı, şair, ədəbiyyatçı Vəkilov Səməd Vurğun Yusif oğlunu Cəmiyyətin sədri vəzifəsinə təsdiq edəsiniz.[315] Nəhayət, M.C.Bağırovun bu teleqramına cavab olaraq, 1944-cü ilin noyabrın 27-də Moskva Cənubi Azərbaycana mədəni, ədəbi, elmi təsiri gücləndirmək üçün Azərbaycan-İran Mədəni Əlaqə Cəmiyyətinin yaradılmasına icazə verdi və həmin dövrdə Sovet İttifaqında çox geniş tanınan Səməd Vurğun Azərbaycan rəhbərliyinin təklifi ilə cəmiyyətin sədri vəzifəsinə təsdiq edildi.

Bununla da, Cənubi Azərbaycanda siyasi proseslərə əməli xarakter vermək üçün 1944-cü ilin sonlarında bir sıra siyasi, iqtisadi, hərbi, diplomatik və mədəni xarakterli təşkilati işlər başa çatdırıldı. Qarşıda Araz çayının hər iki sahilində yerləşən hər iki Azərbaycanı böyük sınaqlar gözləyirdi.

[315] M.C.Bağırovun G.Malenkova hökumət teleqramı. 01.11.1944.//RDSSTA, f.17, s.127, i.500, v.31-32.

IV FƏSİL

SOVET İTTİFAQININ YAXIN ŞƏRQDƏ NEFT MARAQLARI VƏ AZƏRBAYCAN

1944-cü ilin ortalarında böyük müharibənin sonu görünməkdə idi. İtaliya məğlub olmuşdu. Almaniya Şimali Afrikadan, Yaxın və Orta Şərqdən, Sovet ərazilərindən çıxarılmışdı. Artıq müttəfiqlər müharibədən sonrakı dövrün perspektivləri haqqında düşünürdülər. Onların arasında açıq və qapalı xarakter daşıyan çoxlu ziddiyyətlər toplanmışdı. Almaniya tərəfindən işğal olunmuş və onunla əməkdaşlıq etmiş dövlətlərin gələcək taleləri, Sovet İttifaqının Şərqi Avropada və Cənubi Azərbaycanda möhkəmlənmək cəhdləri, Uzaq Şərq və Sakit okean hövzəsindəki qeyri-sabitlik açıq və ya, gizli müzakirələrin mövzularına çevrilmişdi. Dünya yanacaq və energetika mənbələri uğrunda gərgin mübarizə dövrü başlamışdı. Böyük müharibənin ağırlığını öz çiyinlərində daşıyan müttəfiqlər tədricən rəqiblərə çevrilirdilər. 1944-cü ilin ortalarından başlayaraq, neft uğrunda mübarizə Yaxın Şərqə münasibətdə siyasəti müəyyən edən başlıca amilə çevrilirdi. ABŞ və İngiltərə Sovet İttifaqını Yaxın Şərqin neft mənbələrinə buraxmamaq siyasətini rəhbər tutmaqla, öz aralarında da ciddi ixtilaflardan yan keçə bilmədilər. Birləşmiş Ştatların keçmiş prezidenti Uorren Hardinq qeyd edirdi ki, biz dünyanı, ictimai münasibətləri və hüququ öyrənməklə məşğul olarkən, İngiltərə neft mənbələrini ələ keçirmişdir. Bu sərvət isə dünya ağalığının əsasını təşkil edirdi.[1] Məhz, bu meyarla da, ABŞ tədricən dünya neft ehtiyatları ilə zəngin olan Yaxın Şərq regionunda, ilk növbədə isə İranda möhkəmlənməyi özünün strateji siyasətinə daxil edirdi. Qeyd edilən strategiyanın tərkib hissəsi kimi

[1] İran nefti ətrafında Amerika firmalarının fəallaşması haqqında V.Miqunovun M.C.Bağırova məktubu. Avqust 1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.180

1944-cü ilin iyul - avqust aylarında ABŞ və İngiltərə neft problemlərinə həsr edilmiş ikitərəfli konfrans keçirmişdilər və konfransın yekunu kimi avqust ayının 8-də neft siyasəti sahəsində birgə fəaliyyət barədə Vaşinqtonda xüsusi saziş imzalanmışdı.[2]

Birləşmiş Ştatların neft siyasətində mühüm rol oynayan "Standart Vakum Oyl Kompani" şirkətinin nümayəndəsi Drayper, hələ 1943-cü ilin sonunda Tehrana gəlmiş, Bəlucistanda neft konsessiyası almaq barədə İranın Ticarət və Sənaye naziri general Şəfai ilə danışıqlara başlamışdı. Bu danışıqlarla bağlı Tehrandakı ABŞ-ın müvəqqəti işlər vəkili Ford 1944-cü ilin fevral ayının 2-də Birləşmiş Ştatların səfirliyi adından general Şəfaidən, fevralın 11-də Məhəmməd Saiddən, fevralın 19-da isə Baş nazir Soheylidən xahiş etmişdi ki, konsessiya barədə danışıqlarda Drayperi müdafiə etsinlər. 1944-cü ilin aprelində Milsponun Cənubi İran üzrə müavini təyin edilmiş amerikalı Breyton Tehrana gəldi. Rəsmi olaraq o, Kermanda qərar tutmalı, Cənubi İran vilayətlərinin maliyyə işlərinə nəzarət etməli idi, lakin əslində Breyton Bəlucistan neftində maraqlı olan Amerikanın "Sinkler" kompaniyasının nümayəndəsi idi. 1944-cü ilin yayında bu kompaniyanın digər bir nümayəndəsi - Vilson Tehrana gəldi. Eyni ilə bu dövrdə "Amerikan İstern K°"-nun nümayəndəsi Vaqram Frendyana və Kempel də Iranda danışıqlar aparırdılar. İyulun əvvəllərində neft məsələləri üzrə Amerika hökumətinin nümayəndəsi polkovnik Levelin Tehrana gəlişi ilə işlər yeni xarakter almağa başladı. O, 12 iyulda İranda danışıqlar aparan bütün kompaniyalara bildirdi ki, bundan sonra neft konsessiyası danışıqları Amerika hökumətinin adından aparılacaqdır. İyul ayının 20-də Huver (keçmiş prezident H.Huverin oğlu – C.H.) və Kurtis İran hökuməti tərəfindən neft üzrə mütəxəssislər kimi Tehrana dəvət edildilər. 1944-cü ilin iyulundan başlayaraq İran hökuməti gizli şəkildə Amerika hakimiyyət dairələri və kampaniyaları ilə danışıqlar aparırdı.[3] Lakin iranlılar

---

[2]Bax: RF XSA, f.06, s.6, qovluq 37, i.461, v. 16-28

[3] Amerikalıların İranda fəaliyyəti.30.12.1944.// ARPİİ SSA, f.1,s.89, i.73.v.169-170. 18 səhifədən ibarət olan bu geniş material sovet xüsusi xidmət orqanlarının İranda "Ford" gizli adı altında fəaliyyət göstərən əməkdaşı tərəfindən hazırlanmışdı.

elə bilirdilər ki, bu danışıqlar gizli aparılır. Danışıqların gedişi sovet xüsusi xidmət orqanları tərəfindən izlənilirdi. Tehrandakı Sovet ticarət nümayəndəsi V.Miqunov amerikalıların apardığı neft danışıqları barədə topladığı materialları avqust ayında gizli şəkildə M.C.Bağırova göndərmişdi.[4]

ABŞ-ın İrandakı fəallığı sovetləri ciddi addımlar atmağa sövq edirdi. İrandakı SSRİ diplomatik, hərbi və xüsusi xidmət idarələri 1944-cü ilin ortalarından başlayaraq neft maraqları uğrunda mübarizəyə səfərbər edilmişdilər. İran nefti müttəfiqlər arasındakı münasibətlərdə tədricən alışqan maddəyə çevrilirdi. Xüsusilə, ingilislərin İranın cənubunda 1943-cü ildə 10 milyon tondan artıq neft çıxarması müharibədəki əsaslı dönüşdən sonra Sovet rəhbərliyində başlıca müzakirə mövzusuna çevrilmişdi.[5] İrandakı Sovet Ordusunun komandanı Dmitri Kozlov SSRİ rəhbərliyinə məlumat verirdi ki, İranın neft sənayesi, bütövlükdə, Britaniyanın əlindədir və ölkənin enerji ehtiyatları 60 il müddətinə ingilislərə konsessiyaya verilmişdir. Bununla yanaşı, Kozlov əlavə edirdi ki, İranda 100-dən artıq neft yataqları aşkar edilmişdir və onların heç də hamısı istismar edilmir. O yazırdı: "Neft hər yanda, o cümlədən, şimalda da vardır".[6] Hələ, 1943-cü ilin iyununda Tehrandakı SSRİ səfiri A. Smirnov M. C. Bağırova müraciət etmişdi ki, İranın şimalındakı neft ehtiyatlarını öyrənmək üçün bir neçə neftçi-geoloq göndərilsin. M. C. Bağırovun göstərişi ilə Azneftin geoloji axtarış idarəsinin baş geoloqu A. N. Korneyev və həmin idarənin əməkdaşı İ.Q.Həsənov hərbi mühəndis adı ilə iyulun 2-də Tehrana göndərildilər. İlkin axtarışlar nəticəsində müəyyən olundu ki, Cənubi Azərbaycan, Gilan, Mazandaran, Astarabad və Şimali Xorasanda olan neft-qaz ehtiyatları heç də ingilislərin nəzarətində olan Cənubi İrandakı enerji ehtiyatlarından az deyildir. Geoloji axtarış işlərinin nəticələri Tehrana gəlmiş SSRİ

---

[4] İran nefti ətrafında Amerika firmalarının fəallaşması haqqında V.Miqunovun M.C.Bağırova məktubu. Avqust 1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.153-162

[5] Bax: J.H.Bamberg. The Hictory of the British Petroleum Company. The Anglo-Iranian years, 1928-1954. Cambridge. 1994, pp.242-243

[6] İranda vəziyyət haqqında Kozlovun məlumatı. 06.06.1945.// RDSSTA, f.17, s.128, i.748, v.58-59

Xarici İşlər Xalq Komissarlığının Yaxın Şərq şöbəsinin rəisi İvan Sadçikovun iştirakı ilə müzakirə edilmişdi. Müzakirənin yekunu olaraq, o, bildirmişdi ki, neft axtarışının nəticələri Sovet Xarici İşlər Xalq Komissarlığında müzakirə ediləcək və işlərin təşkili haqqında müvafiq göstərişlər veriləcəkdir.[7] Geoloji-kəşfiyyat işlərini genişləndirmək üçün Tehrandakı SSRİ ticarət müvəkkili Vasili Miqunova göstəriş verilmişdi ki, geoloji qrupu avtomobillə təmin etsin. Maliyyə məsələləri isə Moskvanın göstərişi ilə Neft Sənayesi Komissarlığına tapşırılmışdı. 1944-cü ilin fevralında geoloji qrup Ordubad rayonunun 20 km. cənubunda bitum ehtiyatının, Sərab-Ərdəbil arasında neft ehtiyatının, Rəşt düzənliyində qaz ehtiyatının, Lahicandan cənubda Azərbaycan SSR-dəki Neftçala yataqlarına bənzər neft yataqlarının, Qorqan, Taş-Abad və Seminanda isə zəngin neft ehtiyatının olduğunu bildirmişdi.[8]

Geoloji qrupun Cənubi Azərbaycan və Xəzər dənizinin cənubunun enerji ehtiyatları haqqında topladığı məlumatlar 1944-cü ilin ortalarından başlayaraq, Sovet İttifaqının İranda neft strategiyasının əsasını qoydu. Əslində, 1944-cü ilin yazından başlayaraq, Sovet Azərbaycanı işçilərinin xüsusi tapşırıqla Cənuba göndərilməsi Moskvanın neft siyasətinin tərkib hissəsi idi. Lakin, hələ nə Cənuba gedənlərin, nə də milli hissləri qızışdırılan yerli əhalinin bu niyyətlərdən xəbərləri yox idi.

1944-cü ilin avqust ayının 16-da SSRİ XKS sədrinin müavini L.Beriya İ.Stalinə və Xarici İşlər Xalq Komissarı V.Molotova SSRİ-nin müharibədən sonrakı dövrdə İrana münasibətdə niyyətlərini özündə əks etdirən maraqlı bir arayış göndərmişdi. Bu arayışda dünya neft ehtiyatları və neft hasilatı geniş təhlil edilir, İngiltərə və ABŞ-ın neft siyasəti ilə bağlı bəzi nəticələr təqdim edilirdi. Orada qeyd edilirdi ki, İranın neftlə zəngin olan yataqları uğrunda ingilis-amerikan rəqabəti hiss edilməkdədir. Eyni zamanda Beriya diqqəti bu dövlətlərin üçüncü bir ölkəni, ilk növbədə isə SSRİ-ni İranın neft ehtiyatlarına yaxın buraxmamaqda həmrəy olduqlarına cəlb edirdi. L.Beriya

[7] İranın şimalının (Qorqan, Mazandaran, Gilan) neft ehtiyatlarının öyrənilməsi haqqında arayış.24.02.1944.// ARPİİ SSA, f.1, s.89, i.77, v.1, 16

[8] Yenə orada, v.28-29

təklif edirdi ki, "Şimali İranda neft konsessiyaları əldə etmək üçün İranla fəal danışıqlara başlamaq lazımdır". Bununla bağlı o, qeyd edirdi ki, "ingilislər, ola bilsin amerikalılar da, Şimali İranın neft yataqlarının Sovet İttifaqının istismarına verilməsi əleyhinə gizli iş aparırlar". Eyni zamanda Beriya "beynəlxalq neft işi sahəsində SSRİ-nin maraqlarını müdafiə etmək üçün" Sovet İttifaqının ingilis və amerikalıların neft danışıqlarında iştirak etməsini faydalı hesab edirdi.[9]

Sovetlər tərəfindən himayə edilən Tehran mətbuatı 1944-cü ilin ortalarından başlayaraq, Birləşmiş Ştatların yalnız neft məsələsinə maraq göstərdiyini deyil, həm də SSRİ-yə daşınan beynəlxalq yüklərin əsas tranziti kimi İranın nəqliyyat sektoruna böyük maraq göstərirdilər. Hələ, 1942-ci ildə Britaniya İran ərazisindən SSRİ-yə yük daşınması sahəsində öz imtiyazlarını amerikalılara vermişdi. Cənubdan Tehrana gedən limanlar, avtomobil və dəmir yolları ABŞ-ın nəzarətinə keçmişdi. 1944-cü ildə amerikalılar Təbrizə və Xəzər dənizi limanlarına gedən yolları da öz nəzarətlərinə götürmək istəyirdilər. 1944-cü ilin payızında Tehran, Həmədan, Xorrəmabad, Əhvaz, Abadan, Qəzvin və digər yerlərdə olan Amerika ordusunun sayı 50.000 əsgər və zabitdən ibarət idi. 1944-cü ilin avqust ayının 1-də Amerika ordusunun Tehranda keçirdiyi paradında şah özü iştirak etmişdi. O, xanımı və hökumət üzvləri ilə birlikdə Əmirabadda Amerika hərbi düşərgəsində olmuşdu.[10] İranda olan Sovet Azərbaycanı xüsusi xidmət orqanlarının məlumatlarına görə, ABŞ ordusu Yaxın Şərqə gəldikdə onun qarşısına qoyulan strateji vəzifələrdən ən başlıcası böhranlı anda Bakını alman hücumundan müdafiə etmək olmalı idi. Yəni, əgər alman ordusu Bakı neft mədənlərinə doğru irəliləyərdisə, Amerika ordusu təcili Zaqafqaziyaya daxil olmalı və ilk olaraq, Abşeron yarımadasını tutmalı idi.[11]

---

[9] Dünya neft ehtiyatı və hasilatı haqqında. ABŞ-ın neft siyasəti haqqında L. Beriyanın İ.Stalin və V. Molotova arayışı. 16.08.1944.//RF XSA, f.06, s.6, qovluq 37, v.14-18; Əlavə məlumat üçün bax: С.Лавренев, И.Попов. Советский Союз в локальных войнах и конфликтах. Москва, 2005, с.24

[10] Amerikalıların İranda fəaliyyəti.30.12.1944.// ARPİİ SSA, f.1,s.89, i.73.v.158-164

[11] Yenə orada, v.161

Sovet orqanlarının məlumatlarına görə, 1944-cü ilin axırlarında İrandakı Amerika müşavirlərinin sayı yüzə yaxın idi. Maarif sahəsində işləmək üçün daha 60 müşavir dəvət edilmişdi. Tehranda Amerika kolleci işə başlamışdı. İrana gələn Amerika müşavirlərinin əsas vəzifələrindən biri ölkədə gündən-günə güclənən sovet təsirinə qarşı durmaq idi.[12] "Nyusvik" jurnalı yazırdı: "Təsir dairəsi uğrunda intriqa aparan Britaniya və Rusiyadan fərqli olaraq, ABŞ qəti olaraq İranın müstəqilliyinə tərəfdardır. İran haqqında bəyannamə ABŞ nöqteyi-nəzərinin qələbəsidir. Bu bəyannamə rusların Fars körfəzinə çıxmaq təhlükəsini aradan qaldırmışdır".[13] İranın Müdafiə nazirinin müşaviri Amerika general-mayoru Ridli Təbrizdə olarkən polis və jandarma başçılarına göstəriş vermişdi ki, İran ordusunun əsgər və zabitləri, habelə Amerika müşavirləri üçün lazım olan miqdarda taxıl ayırsınlar. O, xəbərdarlıq edirdi ki, onsuz da taxılı ruslar sizin əlinizdən alacaqlar.[14]

1944-cü il ərzində amerikalılar gənc şahı öz tərəflərinə çəkmək üçün bir sıra addımlar atmışdılar. Həmin ilin yayında Məhəmməd Rza şah Amerika təyyarəsində Tehrandan Abadana getmiş və orada SSRİ-yə göndərilmək üçün yığılan təyyarələrin nəhəng emalatxanası ilə tanış olmuşdu. Amerikalılar vəd etmişdilər ki, müharibədən sonra bu emalatxana İrana veriləcək. "Assoşeyted press"in müxbiri Hermanın iyul ayında şahdan götürdüyü müsahibə Birləşmiş Ştatların mətbuatında şahın ünvanına yazılan komplimentlərlə dərc edilmişdi. Belə yazılarda məqsəd 1944-cü ilin sentyabrında Məhəmməd Rza şahın Vaşinqtona nəzərdə tutulan səfərini hazırlamaq idi. Lakin atası İohanesburqda vəfat etdiyindən o, bu səfərdən imtina etmişdi.[15]

1944-cü ilin payızında Sovet rəhbərliyi İranın şimalında neft konsessiyaları almaq barədə fikrini qətiləşdirdi. Həmin ilin sentyabrında İran hökumətindən xəbərsiz sovet iqtisadi komissiyasının

---

[12] Amerikalıların İranda fəaliyyəti ilə bağlı ətraflı məlumat üçün bax: Memorandum on Recent American Diplomacy in Iran. By Dr. A. C. Millspaugh. 1948.// National Archives and Records Administration USA, RG 59, Box: 3398, NND 7600050, Doc.711.91/48, pp.1-32

[13] Amerikalıların İranda fəaliyyəti.30.12.1944.// ARPİ SSA, f.1,s.89, i.73, v.166

[14] Yenə orada, v.166

[15] Yenə orada, v.174

Tehrana səfəri gözlənilirdi. İmzalanması nəzərdə tutulan konsessiya müqaviləsinin, gizli protokolların və niyyət protokolunun layihələri hazırlanmışdı. İran neft sənayesi haqqında hazırlanan arayışda göstərilirdi ki, İraq, Səudiyyə Ərəbistanı və Bəhreyndə ildə beş milyon ton neft çıxarıldığı halda, İranda 16 milyon ton neft çıxarılır.[16] Sənəddə qeyd edilirdi ki, İranın neft sənayesi bütövlükdə Britaniya kompaniyalarının nəzarəti altındadır və ölkənin ən iri müəssisələri sayılan Abadan və Kermanşah neftayırma zavodları bütövlükdə ingilis kapitalı əsasında qurulmuşdur.[17] Sovet rəhbərliyi tərəfindən SSRİ Xarici İşlər Xalq Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri İvan Sadçikova tapşırılmışdı ki, yaradılması nəzərdə tutulan rəqabətə dözümlü "Sovet-İran Neft Kompaniyası"nın "İngiltərə-İran Neft Kompaniyası" ilə müqayisəli təhlilini hazırlasın. Sadçikovun mütəxəssislərlə birgə hazırladığı arayışda İngiltərə-İran kampaniyasına aid müharibə ərəfəsindəki rəqəmlər əsas götürülmüşdü. 1944-cü ilin sentyabr ayının 8-də təqdim edilmiş arayışda göstərilirdi: İngilislər 1938-ci ildə İranda 10.195.000 ton neft çıxarmışlar. Həmin neftdən gələn 6.109.477 funt sterlinq gəlirin 3.307.479 funt sterlinqini İran hökumətinə vermişlər. "Soviranneft" yaranardısa, hazırlanmış müqavilə layihələrinə görə, Şimali İranda şərti olaraq 10.195.000 ton neft çıxarılmalı idi. Bundan gələn 11.418.000 Amerika dolları həcmində gəlirin funt sterlinq hesabı ilə 3.933.905 funtu İran hökumətinə verilməli idi. Bu hesablamalara görə, Sovet neft konsessiyası İngiltərə-İran neft kompaniyası ilə müqayisədə 18-19 faiz İran hökuməti üçün sərfəli olmalı idi. Arayışın sonunda hesablamaların şərti xarakter daşıdığı qeyd olunurdu.[18]

1944-cü ilin yayında neft məsələsi, demək olar ki, İran mətbuatının başlıca mövzusuna çevrilmişdi. "Dəmavənd" qəzeti yazırdı: Təbrizdəki son iğtişaşlar neft məsələsi ilə əlaqəlidir və İran Azərbay-

---

[16] İranın neft sənayesi haqqında arayış. 1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.50

[17] Britaniya kompaniyalarının İrandakı fəaliyyəti haqqında geniş məlumat üçün bax: J.H.Bamberg. The History of the British Petroleum Company. Years of British-Iranian concession. - Cambridge, 1996

[18] İngilis-İran neft kompaniyasından İran hökumətinin xeyrinə olan köçürmələrlə sovet konsessiya müqaviləsinin layihəsi arasında müqayisə haqqında arayış. 08.09.1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.66-61

canında Mosul və Kərkük neft yataqları ilə yeraltı bağlılığı olan çox zəngin neft ehtiyatları vardır. Qəzetin fikrincə, pantürkizm və vahid kürd dövləti yaratmaq ideyasının bilavasitə, bu məsələ ilə əlaqəsi var idi. Bunu əsas tutaraq, "Dəmavənd" SSRİ, İngiltərə, ABŞ və Türkiyənin Azərbaycan məsələsində maraqlı olduğunu yazırdı. Qəzet keçmişdə baş vermiş erməni, aysor, kürd məsələsinin köklərini də məhz, neft problemində axtarırdı. Qəzetin fikrincə, əgər neft kompaniyalarının təhrikçiliyi olmasaydı, yəqin ki, türklər (yerli əhali nəzərdə tutulur - C.H.) Azərbaycanla bağlı heç bir tələb irəli sürməzdilər.[19] Tehranda çıxan "Fərda" qəzeti də Azərbaycanın neftlə zəngin olduğunu, hətta bir sıra yerlərdə bu neftin torpağın üstünə çıxdığını qeyd edirdi. Qəzet dünyanın məşhur bir iqtisadçısının sözlərinə istinadən deyirdi: "hansı ölkənin ki, qara qızılı var, onun sarı qızıl haqqında düşünməyinə ehtiyacı yoxdur".[20] "İrane ma" qəzeti neft məsələsinin gündəliyə gəldiyinə işarə edərək, yazırdı ki, Abadanda ali neft məktəbinin tələbələri içərisindən 12 iranlı seçiblər ki, Londona oxumağa göndərsinlər.[21] Tehranda çıxan "Dariya" qəzeti 17 iyul sayında Sovet İttifaqının almaq istədiyi şimal nefti konsessiyası ilə bağlı geniş yazı vermişdi. Yeni meydana çıxan neft məsələsi ilə bağlı məsləhətləşmələr aparmaq üçün Londondakı səfir Seyid HəsənTağızadə, Moskvadakı səfir Məcid Ahi, Qahirədəki səfir Cam eyni vaxtda Tehrana dəvət edilmişdilər. Əhali arasında belə şayiə gəzirdi ki, guya yeni hökumətin təşkili ilə bağlı tanınmış səfirləri İrana çağırıblar.

Sovetlərin konsessiya şərtləri ilə istədiyi Kevir-Xuryan neft yataqlarının ərazisi vaxtilə Nəsrəddin şah tərəfindən bir iranlıya verilmişdi. Sonra həmin iranlı bu ərazini rus təbəəsi olan Xoştariya adlı bir gürcüyə satmışdı. Neft konsessiyası yaratmaqla bağlı Xoştariya bu ərazini İngilis-Amerika kompaniyasına 400.000 funt sterlinqə satmaq istəyəndə rus hökuməti buna etiraz etmişdi.[22]

---

[19] "Dəmavənd", 1944, 23 iyul
[20] «Fərda", 1944, 25 iyul
[21] "İrane Ma", 1944, 17 iyul
[22] «Dariya", 1944, 17 iyul

Sovetlər dövründə burada fəaliyyət göstərən "Kevir-Xuryan Limited" səhmdar cəmiyyəti ilə bağlı İranla 1928-ci ilin iyul ayının 8-də, 1929-cu ilin oktyabr ayının 7-də və 1932-ci ilin avqust ayının 29-da sazişləri imzalanmışdı.[23] Sovetlərin narahatçılığı onunla bağlı idi ki, hələ 1921-ci ildə İran Məclisi şimal neftinin "Standart oyl" kompaniyasına konsessiyaya vermək haqda beş bənddən ibarət qərar qəbul etmişdi. Bu qərarı pozmaq üçün ruslar İranda çox ciddi dəyişiklik etmək məcburiyyətində qalmışdılar. 1944-cü ilin yayında Amerika kompaniyalarının İrana axışması, Tehran mətbuatında şimal neftinin ingilislərə verilməsi haqda fikirlərin səslənməsi SSRİ-nin narahatçılığını daha da artırmışdı.[24]

Bu istiqamətdə gedən bütün müzakirələrin nəticəsi olaraq, 1944-cü ilin sentyabr ayının 10-da Xarici İşlər Xalq Komissarının müavini S.Kavtaradzenin sədrliyi ilə SSRİ orqanlarının və Azneftin nümayəndələri kimi N.Baybakov, P.Kumıkin (komissiya üzvləri), N.Heydərov, Y.Dmitrov, M.Korasyov, İ.Kanrodovdan (ekspertlər) ibarət Sovet hökumət komissiyası Tehrana gəldi. Sentyabrın 11-də komissiyanı Baş Nazir Məhəmməd Said Marağayi Tehran yaxınlığındakı villasında qəbul etdi. Öz nitqində o, Sovet İttifaqına şahənşah hökumətinin qarşılıqlı dostluq münasibətlərindən, Kavtaradzenin səfərindən məmnun qaldığını bildirdi. Sonra SSRİ Xarici İşlər Xalq Komissarının müavini Baş nazirə təşəkkür etdi və Sovetlər Birliyinə silah, hərbi sursat gətirilməsində İranın rolunu yüksək qiymətləndirdi. O bildirdi: "Ölkələrimiz arasında bərqərar olmuş əsl dostluq sonrakı siyasi, iqtisadi və mədəni əlaqələrimizin genişlənməsi üçün yaxşı bünövrədir." Kavtaradze İran hökumətinin ölkədə nüfuzunu qaldırmaq üçün üç tərəfli sazişlərə uyğun olaraq, müttəfiq ordularının İrandan vaxtında çıxarılmasının zəruriliyini qeyd etdi.[25] Danışıqlar zamanı Sovet tərəfi səfərin əsas məqsədinin İranın şimalındakı neft mənbələri ilə tanış olmaq, Sovet-İran neft birliyinin konsessiya

---

[23] «Kevir Xuryan Limited" səhmdar cəmiyyəti ilə bağlı SSRİ hökuməti ilə İran hökuməti arasında konfidensional protokol. 1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.44

[24] İranın neft siyasəti haqqında bax: С.Алиев. История Ирана. XX век. М., 2004. с.210-214

[25] «Ettelaat", 1944, 20 sentyabr

müqavilələrini imzalamaq olduğunu elan etdi. Baş nazir Said komissiyaya bütün vasitələrlə köməklik edəcəyini vəd etdi.[26] Sentyabrın 16-da Kavtaradze Tehrandakı səfir M.Maksimovun müşayiəti ilə Saadabad sarayına getdi və Məhəmməd Rza şahla görüşdü.[27] Sentyabrın 17-dən 23-nə qədər komissiya tam heyətdə Sovet səfirliyinin müşaviri Ə.Yaqubovun müşayiəti ilə şimal vilayətlərinə səfər etdi. Semnan, Mazandaran, Gilan, Qorqanda Kevir-Xuryan səhmdar cəmiyyətinin kəşfiyyat işləri, palçıq vulkanı, Türkmən çölündəki neft mənbələri ilə komissiya yaxından tanış oldu. Daha sonra bir neçə gün Azneftin nümayəndələri olan N.Heydərov və Y.Dmitrov Cənubi Azərbaycanda - Ərdəbil, Təbriz, Urmiya və Miyanə yaxınlığında bəzi yerlərə baxdılar, qalan komissiya üzvləri isə Tehrana qayıtdılar.

Komissiyanın qənaətinə görə, ilk işlər Mazandaranda başlamalı idi. Neftlə zəngin olan Sari-Şahi rayonu Xəzər dənizindən 40 km. cənubda yerləşirdi və qazma işləri aparmaq üçün əlverişli idi. İkinci perspektivli rayon Qorqan hesab edilirdi. Semnanda isə qazma işlərinin aparılmasının bir sıra çətinlikləri olduğu qeyd edilirdi. Gilan və Azərbaycanda hələ geoloji-kəşfiyyat işlərinin aparılması məsləhət bilinirdi.[28]

Sentyabr ayının 25-də komissiyanın Şimali İranda - Semnan, Qorqan, Mazandaran, Gilan və Azərbaycanda neft konsessiyası haqqında təklifləri və şimal neftindən SSRİ-yə istifadə hüququ verilməsi barədə Sovet hökumətinin notası Baş nazir Saidə təqdim edildi. Sovet İttifaqının neft tələbləri Tehran mətbuatının başlıca mövzusuna çevrilmişdi. Danışıqların ilk dövründə sol təmayüllü qəzetlər şimal neftinin Sovet İttifaqına konsessiyaya verilməsinə müsbət yanaşırdı. "Rəstaxiz" qəzetinin fikrincə, hökumət İran neftinin xaricilərə konsessiyaya verilməsinin əleyhinə deyildi. Qəzet yazırdı: "Bu məsələyə beynəlxalq siyasət nəzərindən yanaşaraq, belə nəticəyə gəlirik ki, əgər biz cənub neft mənbələrini İngiltərəyə

---

[26] İrana səfərin nəticələri haqqında Y.Dmitrov və N.Heydərovun M.C.Bağırova xidməti məlumatı. 06.11.1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.66

[27] S.Kavtaradze başda olmaqla sovet hökumət komissiyasının 16 sentyabrdan 7 oktyabr 1944-cü ilə qədər İranda olmasını Tehran mətbuatının münasibəti. 07.10.1944 .// ARPİİ SSA, f.1,s.89, i.82.v.62

[28] İrana səfərin nəticələri haqqında Y.Dmitrov və N.Heydərovun M.C.Bağırova xidməti məlumatı. 06.11.1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.67

konsessiyaya vermişiksə, şübhə yoxdur ki, digər qonşumuz da istisna edilə bilməz. Şimal qonşumuza, eyni zamanda Amerikaya konsessiya verilməsindən imtina edilməsinə heç bir əsas yoxdur".[29]

Tərkibində Azərbaycan nümayəndələrinin də təmsil olunduğu sovet iqtisadi komissiyasının İran hökumətinə təqdim etdiyi "Konsessiya müqaviləsi" 22 maddədən ibarət idi. Müqavilənin layihəsində göstərilirdi: "Soviranneft" birliyi konsessiya ərazisində neft, təbii qaz və digər məhsulların axtarışı və hasilatı, onların istehsalı, nəqli, İranda və ondan kənarda satılmasında müstəsna hüquqlara malikdir. Konsessiyanın ərazisi xəritədə müəyyən olunmalı və həmin xəritə hər iki dövlət tərəfindən imzalanmalı və müqavilənin ayrılmaz hissəsinə çevrilməli idi. Müqavilə 60 il müddətinə imzalanmalı və 40 ildən tez onun şərtlərinə yenidən baxılmamalı idi. Layihəyə görə, müqavilə birtərəfli qaydada İran hökuməti tərəfindən ləğv edilə bilməzdi, onun maddələri gələcəkdə qəbul olunan hər hansı qanun və ya aktla dəyişdirilə bilməzdi. Tərəflər arasında yarana biləcək münaqişə hər iki tərəfdən iki nəfər olmaqla bərabər hüquqlu komissiyada həll edilməli idi. Müqavilə Məclis tərəfindən qəbul edildikdən və şah tərəfindən imzalandıqdan sonra qüvvəyə minməli idi.[30] Müqavilə ilə bərabər "Kevir-Xuryan Limited" səhmdar cəmiyyəti haqqında gizli protokol da İran hökumətinə təqdim edilmişdi. Gizli protokolda səhmdar cəmiyyətlə bağlı əvvəllər iki dövlət arasında imzalanmış 8 iyul 1928-ci il, 7 oktyabr 1929-cu il və 28 avqust 1932-ci il tarixli sazişlərin öz hüquqi qüvvəsini itirdiyi bildirilirdi. Bununla da "Kevir-Xuryan Limited" səhmdar cəmiyyəti öz nizamnaməsi çərçivəsində ləğv edilirdi. Gizli protokol, konsessiya müqaviləsi kimi Məclis tərəfindən bəyənilib, şah tərəfindən imzalandıqdan sonra qüvvəyə minə bilərdi,[31] İran hökumətinə təqdim edilən üçüncü sənəd isə 4 bənddən ibarət olan niyyət protokolu idi. Niyyət proto-

---

[29] "Rəstaxiz", 1944, 26 sentyabr

[30] «Sovet-İran neft" Birliyi ilə İran hökuməti arasında konsessiya müqaviləsi (layihə). 1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.30-43

[31] «Kevir-Xuryan Limited" aksioner cəmiyyəti ilə bağlı SSRİ hökuməti ilə İran hökuməti arasında konfidensional protokol (layihə). 1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.44-45

koluna görə, "Soviranneft" Moskvada təşkil olunmalı, 60 il müddətinə Şimali İranda neft kəşfiyyatı və hasilatı ilə məşğul olub, istehsal münasibətlərinin inkişafına yardım göstərməli idi.[32] Baş nazir Məhəmməd Said söz verdi ki, İran hökuməti konsessiya müqaviləsini tam müdafiə edəcək və o, müqaviləni Məclisdən keçirəcək.[33]

İran hökuməti, tanınmış siyasi xadimlər və Məclisin deputatları ilə əlaqə yaratmaq məqsədilə Tehrandakı Sovet səfirliyi və İran hökuməti Sovet hökumət komissiyasının Tehrana gəlişi ilə bağlı ziyafətlər təşkil etdilər. Sentyabrın son günlərində S.Kavtaradze yenidən şahla görüşdü. Tehranın ən məşhur mətbuat orqanı sayılan "Ettelaat" qəzetinin redaktoru Məsudi Kavtaradze ilə geniş müsahibə dərc etdi. SSRİ Xarici İşlər Xalq Komissarının müavini "Ettelaat" qəzeti üçün müsahibəsində qeyd edirdi: "Mən "Kevir-Xuryan" cəmiyyətinin vəziyyətini və Şimali İranın təbii ehtiyatlarını öyrənən komissiyanın başçısı olaraq, İrana gəlmişəm. Bu iş hələ Moskvada başlanmışdı və mənimlə bura gəlmiş tanınmış geoloqların köməyi ilə orada başa çatdırılmışdı. Sovet iqtisadi komissiyası bizi maraqlandıran yerlərdə oldu və bir sıra coğrafi, texniki və iqtisadi göstəriciləri öyrəndilər. İşin nəticələrini mən öz hökumətimə məruzə etdim. Sovet hökuməti mənim başçılıq etdiyim komissiyaya səlahiyyət vermişdir ki, İranın şimalında neft kəşfiyyatı və çıxarılması ilə bağlı SSRİ-yə konsessiya verilməsi təkliflərini İran hökumətinə təqdim edim. Sovet hökuməti belə hesab edir ki, Şimali İranın təbii ehtiyatları, İran fəhlələrinin, ziyalılarının əməyi və güclü, mükəmməl Sovet texnikası ilə birləşərsə, hər iki tərəf üçün uğurlu nəticələr verər, İranın şimalının sənayeləşməsinin bünövrəsi qoyular... Mən bu məsələ ilə bağlı iki dəfə əlahəzrət şahla və bir neçə dəfə cənab Baş nazirlə görüşmüşəm. Ümidvaram ki, hər iki tərəf üçün faydalı olan bu böyük işin bünövrəsini qoymaq mümkün olacaq".[34]

---

[32] SSRİ hökuməti ilə İran hökuməti arasında protokol (layihə). 1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.46

[33] Bax: R.Bullard. Soviet Policy in Iran. 12.01.1945.// National Archives and Records Administration USA, RG 59, Box: 3398, NND 7600050, Doc.761.91/1-1245.

[34] «Ettelaat", 1944, 4 oktyabr

Lakin bununla eyni vaxtda, artıq oktyabrın ilk günlərində hökumət dairələrinə yaxın olan mətbuat orqanları Sovet İttifaqına konsessiya verilməsi əleyhinə yazılar dərc etməyə başlamışdılar. "Vəzifə" qəzeti 3 oktyabr sayında yazırdı: "Müttəfiq ordularının ölkədə olduğu hərbi dövrdə hüquqi cəhətdən hökumət konsessiya haqqında müqavilə imzalamağa səlahiyyətli deyildir".[35] Oktyabrın 4-də həmin qəzetdə Məhəmməd Saidə və kabinetin digər üzvlərinə müraciət edilmişdi ki, neft konsessiyaları haqda məsələ hərbi əməliyyatlar başa çatana qədər təxirə salınsın. "Əxtər" qəzetində gedən "Bizim nefti əldən buraxmayın" adlı yazıda müharibə dövründə hər hansı xarici dövlətə neft konsessiyası verilməsi xəyanət hesab edilirdi. Qəzet yazırdı: "Hətta konsessiya Məclisdə təsdiq edilsə də, İran xalqı onu qeyri-qanuni hesab edəcək. Bizim əzabkeş xalqımız özünə haqq verəcək ki, təbii sərvətlərini öz əlinə alsın... İran nefti İran xalqına məxsusdur".[36] "Rəstaxiz" qəzetində sentyabrın 27-də dərc olunan məqalə isə həmin qəzetdə iki gün əvvəl dərc edilmiş yazının tam əksini iddia edirdi. Neft konsessiyası ilə bağlı hökumətin çıxılmaz vəziyyətə düşdüyünü xatırladaraq qəzet bildirirdi: "Bizə belə gəlir ki, daha əlverişli məqama qədər hökumət yeni konsessiyalar verilməsini təxirə salmalıdır. Cənub neftinin Amerikaya, Şimal neftinin Rusiyaya verilməsi məsələsi gündəlikdə durduğu hazırki anda bizim hökumətdən tələb etməyə haqqımız var ki, o sazişləri gözü bağlı imzalamasın. Böyük dövlətlərin siyasəti aydınlaşana qədər ölkəmizin yenidən beynəlxalq qarşıdurmanın meydanına çevrilməməsi üçün biz heç bir qərar qəbul etməməliyik".[37]

Sovet təkliflərinin İran hökumətinə verilməsindən xeyli keçməsinə baxmayaraq, Baş nazir Məhəmməd Said cavab verməyi müxtəlif bəhanələrlə yubadırdı. Oktyabrın 2-də Said Sovet təkliflərini kabinetin qapalı müzakirəsinə qoydu. Həmin axşam Said bəyanat verdi ki, vəziyyət mürəkkəb olduğundan kabinetin iclasında heç bir qərar qəbul edilmədi. Halbuki Nazirlər Kabinetinin iclasında qərar qəbul

[35] "Vəzifə", 1944, 3 oktyabr
[36] "Əxtər", 1944, 6 oktyabr
[37] "Rəstaxiz", 1944, 27 sentyabr

edilmişdi ki, neft konsessiyalarının verilməsi müharibə qurtarana qədər təxirə salınsın.[38] Baş nazir istəmirdi ki, Sovet hökumət komissiyası Tehranda olarkən bu qərarı elan etsin,lakin sentyabrın 10-da İrana gələn SSRİ nümayəndələrinin nə zaman Moskvaya qayıdacaqları heç kəsə məlum deyildi. Ona görə də hələ, Tehranda olan Sovet hökumət komissiyasına məlumat vermədən oktyabr ayının 5-də hökumətin və Məclisin birgə qapalı iclası keçirildi. İclasda Kavtaradzenin Saidə təqdim etdiyi təkliflər müzakirəyə çıxarıldı. Hökumət və Məclisin birgə iclası qapalı keçirilsə də, tezliklə Sovet idarələrinə məlum oldu ki, neft müzakirələrinə həsr edilmiş iclas elə də yaxşı şəraitdə keçməmişdir. Oktyabrın 9-da Məclisin növbəti qapalı iclasında Baş nazir Sovet təkliflərinin əleyhinə geniş hökumət bəyanatı ilə çıxış etdi.

Tehranda olan Sovet hökumət komissiyası öz təkliflərinə rəsmi cavab almadıqları üçün Baş nazirdən tələb etdilər ki, onları qəbul etsin. Oktyabr ayının 11-də S.Kavtaradze, N.Baybakov və P.Kumıkin Məhəmməd Saidlə görüşdülər. Görüş zamanı artıq, səbri tükənmiş S.Kavtaradze İranın Baş nazirindən qəti cavab tələb etdi. Said etiraf etdi ki, müharibə qurtarana qədər İran hökuməti Sovetlərə konsessiya verə bilməyəcəkdir. S.Kavtaradze bildirdi ki, İran hökumətinin bu məsələdə özünü qəribə aparması, müharibə qurtarana qədər neft konsessiyaları haqqında danışıqlardan imtina etməsi Sovet İttifaqına konsessiya verməkdən imtina etməsi deməkdir.[39] Səfərin yekunları

---

[38] İrana səfərin nəticələri haqqında Y.Dmitrov və N.Heydərovun M.C.Bağırova xidməti məlumatı. 06.11.1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.68

[39] Daha geniş məlumat üçün bax: Scheid Fernande Raine. The Iranian Crisis of 1946 and the origins of Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, pp.93-111. Fernando Şaydın bu məqaləsi əvvəlcə "Cold War History" jurnalında nəşr edilmiş (Bax: Fernande Scheid Raine. Stalin and the Creation of the Azerbaijan Democratic Party in Iran, 1945. //Cold War History, vol.2, №1, October 2001), sonra isə qeyd edilən məqalələr toplusuna daxil edilmişdir. Amerika tarixşünaslığı üçün mühüm əhəmiyyət daşıyan bu məqalə zəngin arxiv materialları əsasında yazılmışdır. Lakin orada bir sıra səhvlərə də yol verilmişdir. Məsələn, orada Azərbaycan SSR Daxili İşlər Komissarının müavini və Təbrizdəki sovet konsulluğunun müşaviri kimi təqdim edilən Yaqubov, əslində, Daxili İşlər Komissarı Mir Teymur Yaqubovun qardaşı, İrandakı müvəqqəti işlər vəkili Əhəd Yaqubov idi. (Bax: Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, pp.98). Yaxud, qeyd edilən məqalənin növbəti səhifəsində Şayd yazır ki, Tudənin Azərbaycan təşkilatının rəhbərləri ilə danışıqları Azərbaycan SSR XKS-in sədri Teymur Quliyev aparırdı. Halbuki,

barədə M.C.Bağırova hesabat hazırlamış Azneftin rəhbərləri yazırdılar: "Sovet İttifaqının hökumət komissiyasına münasibətdə Baş nazir Said özünü nəzakətsiz apardı və ikibaşlı oyun oynadı. O, sözdə hərtərəfli yardım göstərəcəyini vəd etsə də, işdə bizim təkliflərimizi rədd etdi".[40]

Sovet iqtisadi komissiyasında aparılan ətraflı müzakirədən sonra SSRİ Xarici İşlər Xalq Komissarlığının təlimatına uyğun olaraq, oktyabrın 23-də Kavtaradze Məhəmməd Rza şahla görüşdə ona bildirdi ki, artıq, Məhəmməd Said hökuməti ilə əməkdaşlığı davam etdirmək mümkün deyildir, lakin danışıqların gedişində məlum oldu ki, şah da bu məsələdə Baş naziri müdafiə edir. Sovet nümayəndələrinin fikrincə, İran hökumətinin belə hərəkəti ingilislərin onlara təsiri ilə bağlı idi. İngilislər öz adamları vasitəsi ilə belə bir təbliğat aparırdılar ki, Sovet hökumətinin məqsədi neft almaq olmayıb, İranın Şimal vilayətlərini ələ keçirmək və həmin əraziləri Sovet Azərbaycanına birləşdirməkdir. Ona görə, ingilislər gizli şəkildə rəsmi dairələrə məsləhət verirdilər ki, İran öz neftini hökumətə deyil (Sovet hökuməti nəzərdə tutulurdu - C.H.), xüsusi kompaniyalara verməlidir.[41] Azərbaycan xüsusi xidmət orqanlarının məlumatına görə, İran Məclisinin 112 deputatından 90-ı, kabinetin isə 11 üzvündən 9-u ingilislərə tərəfdar idi. Onlarda belə bir məlumat var idi ki, danışıqların getdiyi dövrdə Tehrandakı Britaniya səfirliyinin mətbuat katibi xanım Limpton qəzet redaktorlarını yanına dəvət edib, onlara müəyyən təlimatlar vermişdir. Bu təlimata uyğun olaraq, "Setare" qəzetinin redaktoru Baş nazirlə görüş zamanı Sovet hökumət komissiyasının İrana səfəri haqda onda qabaqcadan məlumat olub-olmadığını soruşduqda, Said bu səfərdən onun məlumatı olmadığını bildir-

---

həmin danışıqları Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komissarlığının İran Azərbaycanındakı rezidenti, Təbrizdəki vitse-konsul Nurməmməd Quliyev aparırdı. (Bax: Fernande Scheid Raine. Stalin and the Creation of the Azerbaijan Democratic Party in Iran, 1945. //Cold War History, vol.2, №1, October 2001, p.8)

[40] İrana səfərin nəticələri haqqında Y.Dmitrov və N.Heydərovun M.C.Bağırova xidməti məlumatı. 06.11.1944.// ARPİİ SSA. f.1,s.89, i.77.v.68

[41] Yenə orada, v.69

mişdi.[42] İran hökumətinin başçısı mətbuatı və ölkə ictimaiyyətini inandırmağa çalışırdı ki, guya, müharibə dövründə SSRİ-yə neft konsessiyası verilməsindən imtina edilməsi Sovet-İran münasibətlərini pisləşdirməyəcəkdir. Baş nazirin özünə və ölkəyə təskinlik verməsinə baxmayaraq, Sovet hökumət komissiyası hələ Tehranda ikən onun yerinə namizəd axtarışına başlamışdı. Namizəd isə özü təşrif buyurmuşdu. Tehranda Sovet – İran danışıqlarının getdiyi bir vaxtda İranın tanınmış siyasətçilərindən olan Qəvam əs-Səltənə (Əhməd Qəvam) gizli şəkildə Sovet hökumət komissiyasının üzvü, SSRİ neft sənayesi komissarının müavini Nikolay Baybakovla görüşüb, Baş Nazir Məhəmməd Saidin onları aldatdığını və Sovet İttifaqına neft verməyəcəyini anlatmışdı. Əhməd Qəvam vəd vermişdi ki, əgər o, hökumət kabinəsinə rəhbərlik etsə, Sovet hökumətinin təkliflərini həyata keçirəcəkdir.[43] İndi artıq bəlli olur ki, Əhməd Qəvamın, hələ, bundan əvvəl sovet diplomatik orqanları ilə gizli əlaqələri olub. Çünki, Azərbaycan siyasi işçiləri İrandakı diplomatik vəzifələrə tövsiyə olunduqdan sonra, 1944-cü ilin aprel-may aylarında Moskvada təcrübə keçən zaman Tehrandakı Sovet səfiri onlara bildirmişdi ki, keçmiş Baş Nazir Əhməd Qəvam Sovet İttifaqına loyal münasibət bəsləyir, əgər biz ona hakimiyyətə gəlməyə kömək etsək, o, bizim İrana təsirimizi gücləndirəcəkdir.[44]

Bir aydan artıq sürən danışıqlar heç bir nəticə verməyindən, Sovet hökumət komissiyası Tehrandan Moskvaya qayıtdı. Bu səfər Nikolay Baybakov üçün düşərli oldu. O, Tehrandan qayıdandan bir neçə gün sonra noyabr ayının 30-da, 33 yaşında ikən SSRİ Neft Sənayesi Xalq Komissarı təyin edildi. Sovet neft konsessiyasının əleyhinə çıxmaq Məhəmməd Said Marağayiyə baha başa gəldi. 1944-cü ilin noyabr ayının 9-da Sovet nümayəndələri Moskvaya qayıtdıqdan iki həftə sonra o, istefa ərizəsini şaha təqdim etdi. Amma Qəvam əs-Səltənə isə 1946-cı ilin yanvarına qədər gözləməli oldu.

---

[42] «Setare", 1944, 22 oktyabr

[43] İrana səfərin nəticələri haqqında Y.Dmitrov və N.Heydərovun M.C.Bağırova xidməti məlumatı. 06.11.1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.70

[44] Вах: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.19

İran hökumətinin qərarı haqqında Tehrandan məlumat aldıqdan sonra V. Molotov 1944-cü ilin oktyabr ayının 24-də Moskvadakı İran səfiri Məcid Ahini qəbul etdi. O, səfirə bildirdi ki, Sovet hökuməti İran hökumətinin bu qərarına bəhanə kimi baxır və naməlum səbəbə görə, İran hökumətinin bu qərarının arxasında, Sovet hökumətinin konsessiya təklifindən imtinası dayanır. Molotovun bu bəyanatından sonra, sovet rəhbərliyi yaxşı başa düşürdü ki, SSRİ iqtisadi missiyasının Tehranda qalıb danışıqları davam etdirməsi mənasızdır. Ona görə, Kavtaradzeyə təlimat verildi ki, təcili olaraq, Tehranı tərk edib, Moskvaya qayıtsın. Oktyabr ayının 25-də sovet iqtisadi missiyası Moskvaya döndü.[45] Tehran danışıqlarını çox diqqətlə izləyən İngiltərə və ABŞ noyabr ayının 1-də və 2-də Moskvanın təzyiqlərinə duruş gətirmək üçün İranı müdafiə etmək istiqamətində Sovet hökumətinə nota təqdim etdilər. Orada deyilirdi ki, Sovet hökumətinin İrandan neft konsessiyaları almağa cəhd göstərməsi İranın daxili işlərinə müdaxilədir və üç dövlətin 1943-cü ilin dekabr ayında elan etdiyi Bəyannamə ilə ziddiyyət təşkil edir. Hər iki müttəfiq ölkəyə cavab notasında Molotov ingilis və amerikalıların neft konsessiyaları ilə bağlı Sovet – İran danışıqlarına və bütövlükdə, bu məsələdə Sovet hökumətinə münasibətlərini arzuolunmaz addım kimi qiymətləndirdi. O, bildirdi ki, Sovet İttifaqı üçün neft konsessiyaları haqqında məsələnin müsbət həll olunması Sovet - İran münasibətlərinin yaxşılaşmasını təmin edər və bununla yanaşı, İrana əhəmiyyətli iqtisadi yardım göstərməyin bir forması olardı".[46] Sovet tərəfinin fikrincə, SSRİ-nin təklif etdiyi konsessiya müqaviləsi, əslində, İranın suverenliyinə etibarlı təminat ola bilərdi.[47]

Sovet hökumət komissiyası hələ Tehranda ikən İrandakı SSRİ hərbi, diplomatik və xüsusi idarələrinə Said hökumətini yıxmaq barədə təlimat verildi. Təlimatda göstərildi ki, Baş naziri təcrid etmək

---

[45] Bax: R.Bullard. Soviet Policy in Iran. 12.01.1945.// National Archives and Records Administration USA, RG 59, Box: 3398, NND 7600050, Doc.761.91/1-1245.

[46] Sovet – İran münasibətlərinin qısa icmalı (1917-1955). SSRİ Xarici İşlər Nazirliyinin Arxiv İdarəsi. İyun 1956.// Rusiya Dövlət Ən Yeni Tarix Arxivi (bundan sonra - RDƏYTA), f.5, s.30, i.171, v.81-82

[47] Bax: R.Bullard. Soviet Policy in Iran. 12.01.1945.// National Archives and Records Administration USA, RG 59, Box: 3398, NND 7600050, Doc.761.91/1-1245.

üçün bütün diplomatik danışıqlar onun müavinləri və ayrı-ayrı nazirlərlə aparılmalıdır. Cənubi Azərbaycan başlıca kənd təsərrüfatı regionu olduğundan göstəriş verildi ki, Azərbaycandan Tehrana aparılan ərzaq məhsullarının üzərində məhdudiyyət qoyulsun. Hətta, Moskvanın göstərişi ilə Tehrana göndərilən 150 vaqon ərzaq təcili olaraq, yolda dayandırıldı. Sovet idarələrinə tapşırıq verildi ki, hərbi yüklər istisna olmaqla Tehran istiqamətinə yük qatarları göndərməsinlər. Paytaxtla ölkənin şimalı arasında teleqraf əlaqələrinin kəsilməsi hökumət dairələri və tacirlər arasında çaxnaşma yaratdı. Sovet komissiyasının Moskvaya dönüşü ərəfəsində SSRİ hərbi hissələrinin motomexaniki polklarından biri nümayişkaranə şəkildə Tehranın küçələrindən keçdi. İran hökumətinin şimal vilayətlərində və Kürdüstanda hərbi qarnizonların sayını artırmaq cəhdlərinin qarşısı alındı. İran ordusunun şimal istiqamətində hər hansı hərəkətinə qadağa qoyuldu. İran hökumətindən tələb edildi ki, ölkə ərazisində həbs olunmuş beş nəfər müsavatçını Sovet idarələrinə versinlər. Cənubi Azərbaycan şəhərlərində, Gilanda və digər yerlərdəki Sovet Konsulluq İdarələrinin məsul şəxslərinin müşavirəsi keçirildi. Onlara tapşırıq verildi ki, əhalinin sovet təkliflərini müdafiə edən nümayişləri təşkil olunsun, İran hökumətinin siyasətindən narazılıq ifadə edən teleqramlar vurulsun.[48] Amerikalıların fikrincə, bütün bunlar ənənəvi sovet təzyiq metodları idi. Bu metodları onlar belə ümumiləşdirirdilər: "Adamların süzgəcdən keçirilməsi, sovetlərə yaxın qüvvələrin və ya yerli kommunist partiyasının gücləndirilməsi, ictimai fikrin azdırılması, narazılıq və biganəlik mühiti yaradılması, satınalınma yolu ilə manipulyasiya, ayrı-ayrı qrupların və şəxslərin qorxudulması, iqtisadi təzyiqdən istifadə edilməsi, daimi yalan təbliğata rəvac verilməsi və ümumiyyətlə, liderlərinin çoxunun dürüst və vətənpərvər olmadığı ölkənin zəifliyindən istifadə edilməsi".[49] Məhəmməd Said hökumətini yıxmaq üçün İrandakı sovet

---

[48] İrana səfərin nəticələri haqqında Y.Dmitrov və N.Heydərovun M.C.Bağırova xidməti məlumatı. 06.11.1944.// ARPİİ SSA, f.1,s.89, i.77.v.70

[49] Memorandum on Recent American Diplomacy in Iran. By Dr. A. C. Millspaugh. 1948.// National Archives and Records Administration USA, RG 59, Box: 3398, NND 7600050, Doc.711.91/48, p.3

orqanlarına verilən yuxarıdakı təlimatlar, bütövlükdə, Tehrandakı Amerika missiyasının başçısı Artur Millsponun müəyyənləşdirdiyi sovet təzyiq metodlarına tam uyğun gəlirdi.

Sovet hökumət komissiyası Tehrandan yola düşən gün, oktyabr ayının 25-də artıq, Təbrizdə Said hökuməti əleyhinə mitinq və nümayişlər başlamışdı. Əslində, oktyabr ayının ortalarından başlayaraq, Təbrizdəki Sovet konsulluğu əməkdaşları və Bakıdan Cənubi Azərbaycana göndərilən siyasi işçilər, nəinki, geniş kütlələri, eyni zamanda ayrı-ayrı imkanlı şəxsləri, hətta, Cənubi Azərbaycanda fəaliyyət göstərən İran məmurlarını, belə, Mərkəzi hökumət əleyhinə çıxışlara hazırlayırdılar. Eyni təlimat sovet orqanları tərəfindən kürd tayfa başçılarına da verilmişdi. Sovet nümayəndələri ilə görüş zamanı Təbrizin işgüzar dairələrinin nümayəndələri və bəzi şəhərlərin idarəçiləri açıq şəkildə qeyd edirdilər ki, İran öz gücünə şimal neftini istehsal etmək imkanına malik deyildir. Onlar şimal neftinin, ilk növbədə, yaxın qonşu hesab etdikləri Sovet İttifaqına verilməsini məqbul hesab edir və bu məsələdə Baş Nazir Məhəmməd Saidin doğru hərəkət etmədiyini bildirirdilər. Məsələn, Mehabadın fərmandarı Neysəri oktyabr ayının 19-da H. Həsənovla görüşdə qeyd edirdi ki, Sovet İttifaqına konsessiya verilsə, bu konsessiyada 10 min adamı işlə təmin etmək olar, ondan gələn gəlirlərlə şəhərləri abadlaşdırmaq, xəstəxanalar tikmək və məktəblər açmaq olar.[50] Hətta, gizli sovet əleyhdarı kimi tanınan Miyanədən olan iri torpaq sahibkarı, Azərbaycandan İran Məclisinə nümayəndə seçilmiş Fərman Fərmanian oktyabr ayının 21-də Təbrizdəki Sovet konsulluğuna gəlib vitse-konsul H.Həsənova bildirmişdi ki, Məclis bu qərarı qəbul edən zaman o, Tehranda olmamışdır və neft konsessiyalarının qadağan edilməsi haqqında Məclisin qərarı onu təəccübləndirmişdir. F.Fərmanian əlavə etmişdi ki, o, Tehrandakı Sovet səfirliyinin əməkdaşlarından, ilk növbədə M.Maksimov, Ə.Yaqubov, Avalov və digərləri ilə sıx əlaqə saxlayır, Məclisdə Azərbaycan nümayəndələri ilə birlikdə oturur, habelə, Pişəvəri və Lənkəraninin mandatlarının təsdiq

[50] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.179-182

edilməsini müdafiə edir. Sovet İttifaqının qəti əleyhdarı Seyid Ziyaya gəldikdə isə o, Seyid Ziyanı başı boş, əhəmiyyətsiz bir fiqur kimi dəyərləndirdi və sovet adamlarının onun rolunu həddindən artıq şişirtdiyini qeyd etdi. F.Fərmanianla söhbətə toxunan H.Həsənov onun Azərbaycandakı mülklərinin taleyindən narahat olduğuna görə, sovetlərlə yaxınlıq göstərdiyini, əslində isə mürtəce bir şəxs olduğunu qeyd edirdi.[51]

Lakin Təbrizdəki Sovet konsulluğuna, əslində isə Sovet Azərbaycanından göndərilən siyasi işçilərə Cənubi Azərbaycanın bir sıra imkanlı şəxsləri tərəfindən edilən müraciətlər içərisində səmimi olanı və milli azadlıq ideyasına bağlı olanları da var idi. Buna misal olaraq, Marağanın imkanlı şəxslərindən sayılan, uzun müddət bir sıra mühüm dövlət vəzifələrində çalışmış Mirzə Rəbi Kəbirinin mövqeyini göstərmək olar. Kəbiri 1944-cü ilin noyabr ayının 13-də H.Həsənovla söhbətində bildirmişdi ki, Azərbaycan xalqının adından şaha ultimatum xarakterli teleqram göndərmək və yazmaq istəyir ki,"əgər 10 gün ərzində Azərbaycan xalqının bütün tələbləri yerinə yetirilməsə, xalq müstəqil şəkildə Azərbaycanı özü idarə edəcəkdir".[52] Noyabr ayının 18-də H.Həsənovla keçirilən görüşdə isə, Kəbiri neft məsələsi ilə bağlı Azərbaycandan göndərilən teleqramları imzalayan imkanlı şəxslərin gözə kül üfürdüyünü dedi və Azərbaycana müstəqillik tələb etməyin vacibliyini vurğuladı. O dedi: "Hətta, bizimlə birlikdə teleqramı imzalayan torpaq sahibkarları, belə, axıra qədər getməyəcəklər. Onlar gözə kül üfürürlər. Ona görə, o, Xalq Partiyasının Təbriz Vilayət komitəsinin rəhbərləri ilə əlaqəyə girib, əsas məqsədin Azərbaycan üçün müstəqilliyin əldə olunmasından ibarət olan amal uğrunda geniş xalq kütlələrini mübarizəyə qaldırmaq məsələsini qoymaq istəyir".[53] Kəbiri noyabr ayının 25-də keçirilən söhbətdə qəti şəkildə bu fikrə gəldi ki, "Azərbaycana öz hökumətini qurmaq lazımdır"[54]

---

[51] Yenə orada, s.187-188
[52] Yenə orada, s.221
[53] Yenə orada, s.233
[54] Yenə orada, s.244

H.Həsənov Mirzə Rəbi Kəbiri ilə keçirdiyi görüşlər və apardığı danışıqlar barədə Bakıya geniş hesabat göndərmişdi.

Əslində, Tehrana göndərilən teleqramların qeyri-səmimiliyi haqqında Kəbirinin fikirləri doğru idi. Bu böhranlı zamanda sovet idarələrinin hədəfinə çevrilməmək üçün hamı özünü sovetlərə yaxın göstərir, Tehrana teleqram vuraraq, neft konsessiyaları əleyhinə M.Said hökumətinin qərarını pisləyir və hökumətin istefa verməsini tələb edirdi. Hətta, Təbrizin tanınmış din xadimlərindən olan Siqqət-ül İslam neft konsessiyaları ilə bağlı Said hökumətinin qərarı əleyhinə şaha və Məclisə teleqram göndərmiş, teleqramın poçt idarəsində təsdiq edilmiş surətini oğlu Musa vasitəsi ilə Təbrizdəki Sovet konsulluğuna yollamışdı.[55] Demək olar ki, Cənubi Azərbaycanın bütün şəhərlərindən Tehrana göndərilən tanınmış şəxslərin bu məzmunda olan teleqramlarının surətləri sovet diplomatik idarələrinə təhvil verilirdi. Təbrizdəki Sovet konsulluğunun göstərişi ilə Azərbaycan ostandarı Dadvər bu teleqramların təşkil olunmasında və mitinqlərin kütləvi xarakter almasında fəal rol oynayırdı. Məhz, onun yardımı ilə Təbrizdə oktyabr ayının 26-dan 30-a qədər "Azadlıq cəbhəsi" təşkilatının hər gün təşkil etdiyi nümayişlər geniş xarakter almağa başlamışdı. Oktyabrın 27-də Gülüstan bağında və Ala qapı meydanındakı mitinqlərdə iştirakçıların sayı 12 min nəfərə çatmışdı. Oktyabrın 30-da isə Azərbaycan siyasi işçilərinin məlumatına görə, Təbrizdə Said hökuməti əleyhinə yönəlmiş mitinqdə 10 mindən çox adam iştirak etmişdi. Məsələ o qədər gərgin xarakter almışdı ki, Azərbaycandakı İran Ordusunun komandanı general Xosrovani nümayişçilərə atəş açmaq əmri vermişdi. Atəş nəticəsində 1 nəfər ölmüş, 3 nəfər isə yaralanmışdı. Oktyabrın 31-də həlak olmuş nümayişçinin dəfnində 50 min təbrizli iştirak edirdi. Dəfn mərasimində Səttarxanın qardaşı Hacı Əzim xan çıxış etmişdi. Oktyabrın 29-da Tehranda təşkil olunmuş mitinqdə 40 min, bir gün əvvəl Rizaiyyədəki mitinqdə 3 min, Məşhəddəki mitinqdə 6 min, noyabrın 1-də Ərdəbildəki mitinqdə 6 min, Sərabdakı mitinqdə 6 min,

[55] Yenə orada, s.193

Qəzvindəki mitinqdə 3 min adam iştirak etdiyi bildirilirdi. Mitinq və nümayişlərdə kütləvi şəkildə Stalinin portretləri peyda olmuşdu, 5 gün ərzində Azərbaycandakı mitinqlərdə 70 minə qədər adam iştirak etmişdi. Said və onun nazirlərinin cinayətə cəlb olunması, Seyid Ziyanın ölkədən qovulması tələbi ilə mitinqçilər adından şaha və məclisə hər gün yüzlərlə teleqramlar göndərilirdi. Təbrizdəki mitinqlərdə çıxış edən Məhəmməd Biriya bildirmişdi ki, əgər mərkəzi hökumət xalqın tələbini yerinə yetirməzsə, Azərbaycanda hakimiyyətin başında durub, Tehrandan asılı olmadan onu idarə etməyə layiq adamlar tapılacaqdır. Mitinqlərdən elə bu məzmunda teleqramlar Tehrana göndərilmişdi. Təbrizdəki vitse-konsul H.Həsənov M.C.Bağırova göndərdiyi arayışda yazırdı ki, "Sovet İttifaqına neft konsessiyası verilməsi ilə bağlı Azərbaycanda keçirilən mitinq və nümayişlər bizim işçilərin yaxından iştirakı ilə təşkil olunur."[56] Bu işdə Xalq partiyasının yerli təşkilatı fəal rol oynayırdı. Neft böhranı başlayandan, demək olar ki, hər gün mitinqlərin təşkili ilə bağlı H.Həsənov tərəfindən S.Padeqan, M.Ə.Şəbüstəri, M.Biriya və Tudənin digər yerli rəhbərlərinə təlimatlar verilirdi.[57]

Maku konsulluq dairəsində də hökumət əleyhinə çıxışlar sovet idarələri tərəfindən təşkil edilirdi. Makudakı vitse-konsul M.Mustafayev, Konsulluğun katibi B.Seyidzadə, Maku, Xoy, Urmiyadəkı mitinqləri müxtəlif yollarla təşkil edirdilər. Said hökumətinə qarşı Makuda keçirilən mitinq və nümayişlər haqqında M. Mustafayev və B. Seyidzadə SSRİ Xarici İşlər Xalq Komissarlığına 1944-cü ilin noyabr ayının 21-də geniş məlumat göndərmişdilər. Eyni zamanda onların 1945-ci ilin yanvar ayının 15-də M. C. Bağırova göndərdikləri "Maku Konsul dairəsi üzrə 1944-cü il üçün siyasi-iqtisadi hesabat"ın 18-ci bölməsi "Said kabineti əleyhinə kampaniyalar" adlanırdı. Makudakı mitinqlərdən şaha göndərilən teleqramda tələb olunurdu: 1.Xalqa qarşı xəyanətkar siyasətinə görə Said və onun əlaltıları məhkəməyə verilsin; 2.İran əleyhinə düşmənçilik fəaliyyə-

[56] H.Həsənov. Cənubi Azərbaycan haqqında arayış. 13.02.1945.// ARPİİ SSA, f.1,s.89, i.108.v.69-73
[57] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.199-214

tinə görə Seyid Ziya ölkədən sürgün edilsin; 3. İran xalqının mənafeyinə uyğun siyasət yeridən, Sovet və İran xalqları arasında dostluğu möhkəmləndirən, SSRİ-yə neft konsessiyası verilməsini müsbət həll edən hökumət yaradılsın. Hətta, noyabrın 1-də Makunun Teymuri və Bayat Maku familiyasından olan xanları Sovet Konsulluğuna yazırdılar: "Saidin düşmən münasibətinin əleyhinə olaraq, onlar SSRİ ilə öz həmrəyliklərini nümayiş etdirmək üçün Qızıl Ordu fonduna 250 min rial vəsait keçirirlər." Bu məlumat "Duste-İran", "Ettelaat", "İrane-ma" qəzetlərində də getmişdi.[58]

Təbrizdəki Sovet konsulluğunun və İrandakı Azərbaycan siyasi işçilərinin rəhbəri H.Həsənovun bilavasitə tapşırığı ilə diplomatik işçilərlə yanaşı hərbi komendantlar da Cənubi Azərbaycanda mitinqlər dalğasının təşkil olunmasında fəallıq göstərirdilər. Təbriz şəhərinin komendantı Ə.Maniyev, Xoy şəhərinin komendantı M.Cəbrayılov, Miandoabın komendantı N.Əliyev, Rizaiyənin komendantı Səfərov, Mərəndin komendantı Əhmədov, Miyanənin komendantı Məhərrəmov, Culfanın komendantı Hüseynov, Şapurun komendantı Qocayev və digərləri Said hökumətinə qarşı mitinq və nümayişlərin təşkilində fəal iştirak edirdilər. Sovet orqanlarının bu prosesdə fəallığına baxmayaraq, yerli əhalinin İran hakimiyyət dairələrindən narazılığı və azadlıq meyli, milli hisslərin baş qaldırması mitinq və nümayişlərin kütləvi xarakter almasında başlıca rol oynayırdı. Oktyabr – noyabr aylarında etiraz dalğasının səciyyəvi cəhətlərindən biri Cənubi Azərbaycan kəndlilərinin siyasi fəallığının yüksəlməsi ilə bağlı idi. Marağanın keçmiş şəhridarı Kəbiri Təbrizdəki vitse-konsul H. Həsənovla görüşündə demişdi: "Əhalinin böyük əksəriyyətini təşkil edən Azərbaycan kəndliləri Sovet İttifaqının hər hansı təklifini müdafiə etməyə hazırdır. Əgər söhbət Azərbaycanın ayrılıb Sovet İttifaqının himayəsi ilə müstəqil dövlət olmasından gedərsə, Cənubi Azərbaycan kəndliləri bu tədbiri ürəkdən müdafiə edəcəklər. Əgər söhbət Şimali və Cənubi Azərbay-

[58] Maku konsulluq dairəsi haqqında M.Mustafayev və B.Seyidzadənin SSRİ XXİK-na məlumat məktubu. 21.11.1944.// ARPİİ SSA, f.1,s.89, i.92.v.2-121

canın birləşməsindən gedərsə, bu təklif Azərbaycan əhalisinin böyük əksəriyyəti tərəfindən müdafiə ediləcəkdir.[59]

Azərbaycanda Said hökumətinə qarşı etiraz dalğasının kütləvi xarakter alması, nəinki, İran hakimiyyət dairələrini, eyni zamanda, bu prosesləri izləyən ingilisləri də ciddi şəkildə narahat etməyə başlamışdı. İngilislər Azərbaycanın ayrılıb, müstəqil dövlət olması, yaxud, Sovet Azərbaycanına birləşməsi fikrindən bərk həyəcanlanmışdılar. Onlar öz adamları vasitəsi ilə bu ideyanın nə dərəcədə gerçək olduğunu və Cənubdakı Sovet işçilərinin bu fikrə münasibətini öyrənməyə çalışırdılar. Bəzən ingilislər ictimai rəyi öyrənmək üçün müəyyən şayiələr də buraxırdılar. Məsələn, Təbrizə 1944-cü ilin iyun ayında gəlmiş Britaniya vitse-konsulu Con Uoll ostandar Dadvər ilə söhbətində bildirmişdi ki, ruslar kürdlərin başçılarını çağırıb, onları ələ almaq məqsədilə Bakıya göndərirlər. İngilis konsulu bu məsələdə bir qədər səhv edirdi. 1944-cü ilin yayından başlayaraq, kürdlərə münasibətdə Sovet İttifaqının siyasəti əsasən dəyişməyə başlamışdı. Makudakı SSRİ vitse-konsulu 1944-cü ilin noyabr ayının 21-də SSRİ Xarici İşlər Xalq Komissarlığına göndərdiyi məlumatda yazırdı: "Məlum olduğu kimi, bizim tərəfimizdən keçirilən tədbirlərə kürdlər cəlb edilmədilər. Törətdikləri quldurluq və soyğunçuluq hərəkətlərinə görə onların nə əhali arasında, nə də hökumət qarşısında bu hadisələrə hər hansı təsir göstərəcək elə bir nüfuzu qalmamışdır. Ona görə, təbii olaraq son hadisələrdə daha çox mütərəqqi və demokratik qüvvə olub, siyasi vəziyyətə təsir göstərə bilən, bizim mənafeyimizlə bağlı real dəyişiklik edə bilən Azərbaycan əhalisinə arxalanırıq".[60]

Azərbaycana ögey münasibət, onun dilinin, mədəniyyətinin təqib edilməsi, hüquqsuzluq, aclıq və yoxsulluq 1944-cü ilin axırlarında ziddiyyətləri son həddə çatdırılmışdı. Bütün bunlar Cənubda əhali arasında Sovet təbliğatı üçün əlverişli şərait yaradırdı. Oktyabr inqilabının 27-ci ildönümü ilə bağlı noyabrın 6-7-də Təbrizdə və

[59] Yenə orada, v.65-66
[60] Yenə orada, v.14-15

digər şəhərlərdə keçirilən mitinqlər Said hökumətinə vurulan sonuncu zərbələr oldu. Təkcə Təbrizdəki 7 noyabr nümayişində 30 mindən artıq adam iştirak etmişdi.

Noyabr ayının 9-da Sovet İttifaqının təzyiqi ilə Məhəmməd Said şaha istefa ərizəsini təqdim etdi və onun hökuməti istefaya getmək məcburiyyətində qaldı, lakin bundan sonra da mitinq və nümayişlər dalğası ara vermədi. Əgər əvvəllər nümayişçilər Said hökumətinin istefasını və Sovet İttifaqına neft konsessiyası verilməsini tələb edirdilərsə, hökumətin istefasından sonra bu tədbirlərdə Məhəmməd Saidin və bir sıra nazirlərin məhkəməyə verilməsini, sovetlərə dost olan hökumətin qurulmasını, Seyid Ziyanın ölkədən qovulmasını tələb edirdilər. Sovet orqanları Məhəmməd Saidin istefasına nail olmuşdularsa da, yeni qurulacaq hökumətin SSRİ-yə neft verilməsi məsələsinə necə yanaşacağı məlum deyildi. H. Həsənovun məlumatına görə, Saidin istefasından sonra Cənubi Azərbaycandakı sovet idarələri yeni mitinqlər dalğasına hazırlaşırdılar.[61] Mətnləri Sovet konsulluqlarında hazırlanan Tehrana göndərilən teleqramlarda yeni hökumətin ölkənin şimal qonşusuna dost olan adamlardan təşkil olunması tələb edilirdi. Tehrandakı Sovet səfirliyinin göstərişi ilə Təbrizdəki vitse-konsul H.Həsənov və Azərbaycan təhlükəsizlik orqanlarının Cənubi Azərbaycandakı rezidenti kimi digər vitse-konsul N.Quliyev ostandar Dadvərlə görüşüb, ona "yaxın qonşu" olan SSRİ-yə məqbul hökumətin yaradılmasını tələbi ilə Azərbaycan əhalisi adından şaha və Məclisə teleqram göndərmək tövsiyə edildi. Dadvər N.Quliyevdən xahiş etdi ki, Tehrandakı demokratik məzmunlu hökumət qurulması və Seyid Ziyaya qarşı mübarizəni gücləndirmək məqsədilə şəhərin bir sıra nüfuzlu şəxsləri ilə danışıb, onları bu işə cəlb etsin.[62] Noyabr ayının 25-də Dadvər Sovet konsulluğuna məlumat verdi ki, Seyid Ziyanın ölkədən qovulması, Said və onun kabinetinin üzvlərinin məsuliyyətə cəlb edilməsi tələbi ilə Azərbaycanın torpaq sahibkarlarının və Təbriz tacirlərinin imzaladığı teleqram Tehrana göndərilmişdir.[63]

---

[61] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.217
[62] Yenə orada, s.222-223
[63] Yenə orada, s.244

İranda yeni hökumət kabinəsinin qurulması iki həftə çəkdi. Noyabr ayının 17-də Azərbaycan SSR-in kəşfiyyat və diplomatik orqanları M.C.Bağırova məlumat verirdi ki, yeni hökumət kabinetini Əhməd Qəvamın quracağı gözlənilir. Onun, İrandakı ingilis və sovet səfirləri ilə görüşdüyü bildirilirdi. Həmin məlumatlarda Xarici İşlər Naziri vəzifəsinə namizədlərdən biri Moskvadakı səfir Məcid Ahinin Tehrana çağırıldığı bildirilirdi.[64] Lakin noyabr ayının 20-də Məclisin qapalı iclasında yeni kabinetin başçılığına Mürtəzaqulu Bayatın namizədliyi irəli sürüldü. Noyabrın 25-də M.Bayat Nazirlər Kabinetinin tərkibini elan etdi. Şahın təqdimatı ilə Məclis noyabr ayının 27-28-də keçirilən iclaslarında yeni hökumətin tərkibini təsdiq etdi. Mürtəzaqulu Bayat (Səham əs-Sultan) Baş nazir, Möhsün Rəis Xarici İşlər naziri, Mustafa Ədl (Mansur əs-Səltənə) Ədliyyə naziri, Seid Malek (Loğman ol-Mülk) Səhiyyə naziri, İbrahim Zənd Hərbi nazir, Əmənulla Ərdalan Maliyyə naziri, Soruri Daxili İşlər Naziri, Hidayət (Naser ol-Mülk) Sənaye və Ticarət naziri, Nadir Mirzə Arəstə Poçt və Teleqraf naziri, İsa Sadıx Maarif Naziri, Nəsrulla Entezam Nəqliyyat Naziri, Fəhim ol-Mülk və Əli Əkbər Siyasi portfelsiz nazir vəzifələrini tutdular.[65]

Yeni qurulan hökumət Sovetlərin ümidlərini doğrultmadı. SSRİ xüsusi xidmət idarələrinin məlumatına görə, Bayat kabinetinin üzvlərinin çoxu Seyid Ziyanın dostları olub, ingilislərə tərəfdar idilər. Baş Nazir Səham əs-Sultan özü Maku vilayətinin əsilzadələrindən olub, iri torpaq mülkiyyətçisi idi. Son bir neçə çağırış İran məclisi sədrinin müavini olmuşdu, 1943-cü ildə Soheyli hökumətində Maliyyə Naziri, Said kabinetində portfelsiz nazir vəzifəsində işləmişdi. O, Rza şahın tərəfdarlarından sayılırdı və 1941-ci ilin şəhrivər hadisələrindən sonra "Ettihade Milli" (Milli Birlik) partiyasını yaratmışdı, lakin onun partiyası kütləviləşmədi.

---

[64] İranın daxili vəziyyəti haqqında 01202 saylı informasiya məlumatı. 17.11.1944.// ARPİİ SSA, f.1,s.89, i.74.v.71-72

[65] İranın daxili vəziyyəti haqqında 01241 saylı informasiya məlumatı. 29.11.1944.// ARPİİ SSA, f.1,s.89, i.74.v.79-80

İran Məclisində yeni yaranan hökumətin mövqeyi elə də möhkəm deyildi. 100 nəfər məclis üzvündən 45-i əleyhinə, 5-i tərəfsiz qalmaqla 50 nəfəri Bayat hökumətinə səs vermişdi. Hökumət böhranına səbəb olan şimal nefti konsessiyası məsələsi hələ, aradan qaldırılmamışdı. Digər tərəfdən, dekabrın 2-də M. Bayat hökumətinin qurulmasından 5 gün sonra məclis neft konsessiyaları barədə danışıqlar aparmağı qadağan edən qanun qəbul etmişdi. İran məclisinin qəbul etdiyi qanunda qeyd edilirdi ki, Baş nazir, nazirlər və onları əvəz edən müavinləri rəsmi və qeyri-rəsmi formada, qonşu və qonşu olmayan dövlətlərlə və xarici kompaniyalarla neft danışıqları apara bilməzlər.[66] Məclisin bu qərarını pozan şəxsləri 3 ildən 8 ilə qədər həbs cəzası gözləyirdi və ömürlük yüksək dövlət vəzifəsi tutmaqdan məhrum edilirdi. Sovet idarələrinin məlumatlarına görə, konsessiyalar haqqında qanunun müəllifi doktor Məhəmməd Müsəddiq idi. Çox məhdud dairədə saray naziri Əli Hüseyn, doktor Müsəddiq, Seyid Ziya və Saidin iştirakı ilə qanun müzakirə edilib, Məclisə çıxarılmışdı. Yeni qanunun Məclisdə böyük üstünlüklə keçməsinə baxmayaraq, səsvermə zamanı 10 nəfər məclis üzvü etiraz əlaməti olaraq, nümayişkaranə şəkildə Məclis zalını tərk etmişdi.[67]

Hökumət kabinəsinin təsdiq edildiyi məclisdə M.Bayat hökumət proqramı ilə çıxış etdi. Proqramda dost və müttəfiq dövlətlərlə əlaqələrin möhkəmləndirilməsi, ölkədə qanunların icrası nəticəsində təhlükəsizliyin təmin edilməsi, yaşayış səviyyəsini, səhiyyə, maarif xidmətini yüksəltmək, Məclisdə əmək haqqında qanunun qəbuluna nail olmaq, dövlət aparatında və seçki sistemində islahat aparmaq, ölkə iqtisadiyyatının hərbi vəziyyətdən tədricən dinc vəziyyətə keçməsi üçün şərait hazırlamaq və s. məsələlər öz əksini tapmışdı. Said hökumətinin istefasına səbəb olan neft məsələsi ümumiyyətlə, hökumət proqramına daxil edilməmişdi.

Yeni hökumət kabinetində ingilislərə yaxın olan siyasi dairələrin üstünlük təşkil etməsi Sovet rəhbərliyi ilə yanaşı, onun nəzarətində olan İran Xalq partiyasının da narahatlığına səbəb olmuşdu. Par-

[66] Bax: R.Bullard. Soviet Policy in Iran. 12.01.1945.// National Archives and Records Administration USA, RG 59, Box: 3398, NND 7600050, Doc.761.91/1-1245.
[67] AR DA, f.28, s.4, i.17, i.16-17

tiyanın Mərkəzi Komitəsi rəhbərlikdə təmsil olunan bir sıra şəxsləri, o cümlədən, Ə.Ovanesyanı yerli vəziyyəti öyrənmək, İran hökumətinə qarşı üsyan qaldırmağın mümkünlüyünü araşdırmaq üçün Azərbaycana göndərmişdi. Təbrizdə H.Həsənovla görüşdə Ə.Ovanesyan tudəçilərin İran rejiminə qarşı xalq üsyanı hazırlamaq planı barədə Moskvaya xəbər verildiyini bildirdi. H. Həsənov soruşdu ki, tudəçilər nə adla bu üsyanı qaldırmaq istəyirlər? Ə.Ovanesyan cavab verdi ki, İranı sosial və müstəmləkə zülmündən azad etmək adı ilə üsyana başlamaq istəyirlər. Həsənov qeyd etdi ki, indiki anda beynəlxalq vəziyyət üsyan qaldırmaq üçün əlverişli deyildir və müttəfiqlər bunun əleyhinə olacaqlar. O, tövsiyə etdi ki, hazırda Xalq partiyası Said hökumətinin satqın üzvlərinin məhkəməyə verilməsi, Seyid Ziya kimi xainlərin ölkədən qovulması və mütərəqqi adamlardan ibarət hökumətin təşkil edilməsi uğrunda mübarizə aparmalıdır. Onun fikrincə, bütün bunlar xalq inqilabının qələbəsi üçün əlverişli şərait hazırlayardı. Məhz, bu işləri sürətləndirmək üçün Moskvadan Təbrizdəki Sovet konsulluğuna gizli maliyyə vəsaiti ayrılmışdı.[68] Eyni zamanda, Xalq partiyasının rəhbərlərindən biri kimi, Ə. Ovanesyan Təbrizdə ayrı-ayrı imkanlı adamlara təzyiq göstərməklə "xalq üsyanının" təşkili üçün maliyyə vəsaiti toplayırdı. 1944-cü ilin dekabr ayının 1-də Təbrizdə Xalq partiyasının və həmkarlar təşkilatının geniş mitinq hazırlanırdı. Əhali arasında belə söz-söhbət yayılmışdı ki, həmin gün Təbrizdə çevriliş olacaqdır və sovetlərin himayəsində olan Tudə partiyası "hakimiyyəti ələ alıb, Azərbaycanı İrandan ayıracaqlar".[69] Şəhərin varlı adamları artıq, Təbrizdən çıxmağın yollarını düşünürdülər. Doğrudan da, dekabr ayının 1-də Təbrizdə 50 min adamın iştirak etdiyi möhtəşəm nümayiş oldu. Orada Şahin Ağazadə, Əli Əmir Xizi, Ərdəşir Ovanesyan, Məhəmməd Biriya və ətraf yerlərdən gələn nümayəndələr çıxış etdilər. Mitinqin adından şaha, Məclisə və Tehran qəzetlərinə teleqram göndərildi. Teleqramda demokratik hökumətin təşkil

[68] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.228-230
[69] Yenə orada, s.276

edilməsi, Said və Seyid Ziyanın məsuliyyətə cəlb edilməsi və sair tələb edilirdi. Mitinqdə 12 nəfərdən ibarət komissiya yaradıldı, əyalət və vilayət əncümənlərinin yaradılması üçün ostandara müraciət edildi. İcazə verilməyəcəyi təqdirdə, komissiya, İran hakimiyyət orqanlarının rəyi nəzərə alınmadan əncümən seçkilərini keçirəcəyini bildirirdi. Dekabrın 6-da Təbrizdəki Baş konsul Matveyev və vitse-konsul Həsənov Xalq partiyasının MK-nin üzvü Ə.Ovanesyanla görüşüb İranda və Cənubi Azərbaycanda yaranmış vəziyyəti müzakirə etdilər. Ə.Ovanesyan dedi ki, Məclisin üzvlərinin əksəriyyəti, hətta, millətçi Məhəmməd Müsəddik belə, xaricilərə satılıb və İran xalqının maraqlarını qurban verib.[10]

SSRİ Xarici İşlər Komissarının müavini S.Kavtaradzenin 1944-cü ilin payızında Tehrandakı neft missiyası uğursuzluğa düçar olduqdan sonra, İrana münasibətdə sovet siyasəti kəskin şəkildə dəyişməyə başladı. Bu barədə Tehrandakı Sovet səfiri artıq Moskvadan təlimat almışdı. Bu təlimata uyğun olaraq o, dekabr ayının 8-də təcili olaraq, Təbrizdəki vitse-konsullar kimi fəaliyyət göstərən H.Həsənov və N.Quliyevi Tehrana dəvət etdi. Dekabrın 9-da Maksimovun Cənubi Azərbaycanda sovet siyasəti haqqında Bakının təmsilçiləri geniş söhbəti oldu. O, 1944-cü ilin payızında keçirilmiş mitinq və nümayişlərin yekunu, habelə, Cənubi Azərbaycanda hadisələrin gələcək perspektivləri barədə Həsənov və Quliyevə bir neçə sual verdi. Səfir bilmək istəyirdi ki, Xalq partiyası Azərbaycanda mitinq və nümayişlərə nə qədər adam çıxara bilir, habelə milli-azadlıq və demokratik hərəkatın inkişafında kim rəhbər rol oynayır? Əhalinin hansı təbəqəsi Sovet İttifaqının neft konsessiyaları təklifi ilə tanışdır və kimlər bu təklifi müdafiə edir? Separatizm ideyasının qığılcımı necə meydana çıxıb, Kəbiri və digərlərini kimlər müdafiə edir? Yerli hakimiyyət bizim neft haqqında təklifimizə necə yanaşır? Bu sualların cavabında Sovet Azərbaycanının nümayəndələri bildirdilər ki, Təbrizdə Xalq partiyası mitinqlərə 20 mindən 50 minə qədər adam toplaya bilir. Həsənov bildirdi ki,

[10] Bax: Yenə orada, s.254-256

sayının az olmasına baxmayaraq, hərəkatda rəhbər rolu fəhlə sinfi oynayır. O, izah etdi ki, Sovet İttifaqının neft haqqında təklifləri ilə demək olar ki, Azərbaycan əhalisinin bütün təbəqələri tanışdır, lakin Həsənov əlavə etdi ki, torpaq sahibkarlara və burjua nümayəndələri arasında bir sıra mürtəce şəxslər İran hökumətinin neft siyasətini müdafiə edir. H. Həsənov və N. Quliyev qeyd etdilər ki, separatizm ideyası kortəbii yaranmışdır və bizim tərəfimizdən heç kimə belə bir göstəriş verilməmişdir. Bu məsələ ətrafında müzakirələrin gedişində H. Həsənov dedi: "Fəlakət həddinə gətirilmiş Azərbaycan xalqı azadlıq və müstəqillik istəyir. Biriya mitinqdə deyəndə ki, - əgər İran hökuməti bizim tələblərimizi yerinə yetirməsə, onda xalq özü ayağa qalxıb, Azərbaycanın idarəçiliyini öz əlinə alacaqdır – mitinq iştirakçıları bu təklifi böyük ruh yüksəkliyi ilə müdafiə etdilər. Kəbiri özü torpaq sahibkarıdır və o, kəndlilərin də, eyni zamanda, bu təklifi müdafiə etdiyini deyir". Azərbaycandakı İran hakimiyyət orqanlarının yerli nümayəndələrinə gəldikdə, Həsənov dedi ki, "onlar ikiüzlülük edir, Dadvər sözdə bizim təklifləri bəyənir və tanınmış adamların adından şaha, habelə, Məclisə teleqramlar göndərir, lakin onun içindəkini bilmək çox çətindir. Ostandarlığın bir sıra işçiləri səmimi olaraq, bizim təklifləri müdafiə edirlər".[71] Bütün bu cavabları dinlədikdən sonra səfir M.Maksimov dekabr ayının 11-də H.Həsənov və N.Quliyevlə görüşdə onlara öz tapşırıqlarını verdi. O, təlimat verdi ki, "bütün vasitələrlə Xalq partiyasının yerli təşkilatını möhkəmləndirmək lazımdır. Möhkəmlənmə həm təşkilati, həm də təbliğat xətti ilə getməlidir. Möhkəm vilayət komitəsi və ilk təşkilatlar yaratmaq lazımdır...Həmkarlar təşkilatının işini gücləndirmək lazımdır. Fəhlələrin, ustaların və xırda sənətkarların arasında nüfuz qazanmaq lazımdır. Mitinq və nümayişlərə daha çox fəhlə cəlb etmək lazımdır. Daha hazırlıqlı adamlar hesabına Azərbaycanda Xalq partiyasının və həmkarlar təşkilatının rəhbərliyini möhkəmləndirmək lazımdır. Azərbaycanda səhiyyə, məktəb, idarəçiliyin vəziyyətini yaxşılaşdırmaq, sənaye və kənd təsərrüfatını yüksəltmək uğrunda

[71] Yenə orada, s. 257-258

kampaniyaya başlamaq lazımdır. İran konstitusiyasına uyğun olaraq əncümənlər yaratmaq uğrunda mübarizə aparmaq lazımdır. Şahsevənlər və kürdlər arasında işlər genişləndirilməlidir". [72]Tehranda olarkən səfirin müşaviri Ə.Yaqubov H.Həsənovu və N.Quliyevi Azərbaycanla bağlı Moskvadan gələn yeni məxfi sənədlərlə tanış etdi. Səfir M.Maksimovun bir qədər mücərrəd xarakter daşıyan göstərişləri Təbrizdən gəlmiş Sovet Azərbaycanı işçilərini elə də məmnun etmədi. Halbuki, onlar milli-azadlıq hərəkatını gücləndirmək istiqamətində səfirdən daha konkret göstərişlər gözləyirdilər.

SSRİ-yə neft konsessiyasının verilməməsini Sovet tərəfi Seyid Ziyanın və onun tərəfdarlarının hökumətə təsiri ilə əlaqələndirirdilər. Dekabr ayının 13-də Sovet səfirliyinin orqanı olan "Duste-İran" qəzetində "Yoldaş Kavtaradze ilə söhbət haqqında" yazı dərc olunmuşdu. Orada Kavtaradze deyirdi: "Konsessiya danışıqlarını qadağan etmək barədə Məslisin təsdiq etdiyi qanun səhvdir. Bu səhv Sovet-İran dostluğunun düşməni olan Said, Seyid Ziya kimilərin təzyiqinin nəticəsidir. Eyni zamanda, konsessiya danışıqlarını qadağan edən qanun İranda mövcud konsessiyaların hazırkı durumuna uyğun gəlmir. Sovet hökuməti belə hesab edir ki, Məclis gərək qərara yenidən baxsın və öz səhvini düzəltsin.[73] Buna bənzər məlumatı o, SİTA-da yaymışdı və Moskva radiosundakı bəyanatında Kavtaradze yuxarıda deyilənləri təsdiq etmişdi. Belə fikirlər digər sovet rəhbərləri tərəfindən də səsləndirilirdi. Məsələn, Kliment Voroşilov qeyd edirdi ki, 1944-cü ilin sentyabrında Sovet İttifaqının İrana etdiyi neft əməkdaşlığı haqqında təklifi İranın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə daim hörmət siyasəti nümayiş etdirən SSRİ ilə İran arasında geniş əməkdaşlığa yol açа bilərdi. Azərbaycandakı etirazların Seyid Ziyaya qarşı çevrilməsi, Sovet rəhbərliyinin müxtəlif çıxışlarında onun düşmən elan edilməsi Seyid Ziyanın səbrini tükəndirmişdi. Dekabr ayının 18-də Yəzddən olan məclis üzvü, keçmiş Baş Nazir Seyid Ziyaəddin Təba-Təbai bütün deyilənlərə öz münasi-

[72] Yenə orada, s. 259-260
[73] «Duste-İran", 1944, 13 dekabr

bətini açıqlayan geniş bəyanatla çıxış etdi. Bəyanatda göstərilirdi: "İrana xoş niyyətlərlə gəlib onu səhv fikirlərlə tərk etmiş SSRİ Xarici İşlər Xalq Komissarının müavini Kavtaradzenin çıxışları məni məcbur etdi ki, bəzi məsələləri aydınlaşdırım. Kavtaradzenin neft konsessiyası danışıqlarının qadağan edilməsi barədə məclisin qanununun Seyid Ziyanın və Saidin təzyiqi ilə qəbul edilməsi fikri çox böyük səhv, böyük siyasi yanlışlıq olub bilavasitə Məclisin ünvanına deyilmiş təhqirdir".[74]

Sovet informasiya vasitələrində belə bir fikir getmişdi ki, guya, neft məsələsi bəhanədir, əsas məqsəd gələcəkdə İranın şimalından Sovetlər üçün yarana biləcək təhlükəni aradan qaldırmaqdır. SSRİ-nin cənub sərhədlərinin mühafizəsini təmin etmək üçün İranın şimal rayonları Sovet İttifaqı üçün "təhlükəsizlik zonası" hesab edilirdi. Seyid Ziya bildirdi ki, "bütün bunlar əsassızdır. İki yüz ildir ki, İran Rusiya üçün heç bir təhlükə törətmir. Rusiya inqilabı zamanı rus mütləqiyyəti general Denikinin şəxsində İran üçün təhlükə təşkil etdiyindən, biz İngiltərə ilə müqavilə bağladıq. Bu təhlükə sovuşan kimi biz həmin müqaviləni ləğv etdik (1919-cu ildə imzalanmış İngilis-İran sazişi nəzərdə tutulur - C.H.). O deyirdi: "Mən şəxsən Sovet səfirini dəvət etmək üçün Moskvaya teleqram göndərdim, birinci Sovet səfiri cənab Rotşteyni Tehranda qarşıladım və qəbul etdim... Tarixin möcüzəsidir ki, 24 il əvvəl Sovet İttifaqı ilə qarşılıqlı münasibətlər qurmağa cəhd göstərdiyim halda, Sovet nümayəndələrinin səhvləri nəticəsində bu gün ölkələrimizin münasibətlərinin yaxşılaşdırılmasını arzu etməyənlərdən hesab edilirəm".[75]

Seyid Ziya İranın şimalının Sovetlər üçün "qoruq zonası" elan edilməsini almanların "həyat sahəsi" uğrunda mübarizəsindən heç nə ilə fərqlənmədiyini bildirirdi. Onun fikrincə, "əgər Sovet sərhədlərinin təhlükəsizliyi üçün İranın şimal rayonlarının "qoruq zonası" elan edilməsi prinsipi bu gün qəbul edilsə, sabah Tehran və İsfahan şimal rayonları üçün "qoruq zonası" elan ediləcək, birisi gün Fars və

[74] «Raad", 1944, 20 dekabr
[75] AR DA, f.28, s.4, i.20, i.155

Kirman Tehran və İsfahan üçün "qoruq zonası" olacaqdır. Nəticədə, iranlılar, əgər onları ora buraxsalar, susuz və yaşayış olmayan Ərəbistan səhralarında azad nəfəs alacaqlar".[76]

Seyid Ziya belə hesab edirdi ki, Çar Rusiyası, Sovet hökumətindən fərqli olaraq İran ilə daha hörmətlə davranırdı. Onun fikrincə, Birinci Dünya müharibəsi dövründə general Baratovun yüzminlik ordusundan, general Ayronsaydın (İngilis generalı - C.H.) otuz minlik ordusundan bir əsgərinin də ayağı Tehrana dəyməmişdi. Bütün səhvlərinə baxmayaraq, həmin dövrdəki İran hökumətləri paytaxtın təhlükəsizliyini təmin edə bilmişdilər. O yazırdı: "Bu gün Tehran qapılarından başlayaraq, İranın bütün Şimal vilayətlərinə Qırmızı ordu nümayəndələri nəzarət edirlər. İranlılar öz torpaqlarında hərəkət etmək üçün icazə almalıdırlar... İran hökuməti təhlükəsizliyi təmin etmək üçün bir sıra yerlərə öz qərarı ilə ordu göndərə bilməz. Bu məsələ ilə bağlı Sovet səfirliyindən və rus ordusunun hərbi komandanlığından qabaqcadan razılıq alınmalıdır. Azərbaycana, Xorasana və Gilana maliyyə məmurunu göndərmək üçün Moskvadan icazə və buraxılış alınmalıdır".[77]

SSRİ Xarici İşlər Xalq komissarının müavini Kavtaradzenin bəyanatında irəli sürülən ideyalar İran Tudə partiyasının əsas fəaliyyət proqramına çevrilmişdi. Tudə mətbuatında və onların buraxdığı vərəqələrdə irəli sürülən tələblərin Sovet səfirliyi tərəfindən hazırlandığı İranın siyasi dairələrə artıq məlum idi. Kavtaradzenin bəyanatını və onun Sovet orqanları vasitəsi ilə geniş təbliğ olunmasını Seyid Ziya nəzakətsiz hərəkət, Said Marağayi hökumətinə qarşı hörmətsizlik hesab edirdi. Sovetlərin fikrincə, guya, danışıqları dayandırmağa əsas səbəb Baş Nazir Saidin SSRİ-yə nəzakətsiz münasibəti olub. O yazırdı: "Doğrudanmı cənab Said nəzakət anlayışına zidd olan nə isə edib? Said Marağayı nə Yəzddən çıxıb, nə Kirmandan, o nə İsfahanda tərbiyə alıb, nə də Şirazda, nə də Fələstin naziri deyildir. Bu adam Marağadan çıxmış Azərbaycanın qeyrətli

[76] «Raad", 1944, 20 dekabr
[77] ARPİİ SSA, f.1,s.89, i.73.v.7

oğullarındandır. Azərbaycan dörd əsrdir ki, İranın müstəqilliyi uğrunda mübarizədə öz cavanlarının qanını qurban verir. Allah özü belə istəyib ki, bu həyəcanlı günlərdə İranın dövlət işlərini azərbaycanlı idarə etsin. Bu həmin Said Marağayıdır ki, 30 il Rusiyada yaşayıb, 7 il İranın Moskvadakı səfirliyində olub, 3 il Xarici İşlər naziri və Baş Nazir olub. Əgər bu azərbaycanlı beynəlxalq nəzakət hisslərinə vaqif olmasaydı, onu başa düşməsəydi, belə yüksək vəzifələri də tuta bilməzdi. Saidin bütün keçmişi, üçtərəfli müqavilənin bağlanmasındakı qətiyyətli mövqeyi, İran - SSRİ münasibətlərinə səmimi tərəfdarlığı bizə əsas verir ki, onun heç bir nəzakətsizliyə yol verməyinə ümidvar olaq. Yalnız onun azərbaycanlı qanı ona icazə vermədi ki, İranın mənafeyinə zidd olaraq, dünyanın qüdrətli dövlətlərindən birinin nümayəndələrinə yazılı, yaxud şifahi vəd versin. Saidin nəzakətsizliyi və cinayəti ondan ibarətdir ki, o, zəif dövlətin nümayəndəsidir. Əgər məsələyə güclülərin və zəiflərin münasibətlərindən yanaşsaq, əlbəttə, zəif gərək nəzakətli olsun - təslim olsun. Lakin Said məğrur idi. Saidin məğrurluğu Leninin vədləri, Çiçerinin imzası, Stalinin bəyanatı ilə bağlı idi. Ruzveltin, Stalinin, Çörçilin bəyanatlarının dumanı Tehran səmasında şəhadətlik edir. Əgər bütün bunlar olmasaydı ola bilsin ki, Said Sovet hökumətinin tələbələrinə güzəştə gedərdi və indi Moskva da ona faşist damğası vurmazdı".

Seyid Ziyanın fikrincə, "Said hakimiyyətdə qala bilərdi. Çünki Məclisin ona etimadı var idi. Tehrana gələn teleqramların da necə təşkil olunmağı Məclisə bəlli idi, l akin İranda ordusu olan bir dövlətin teleqraf agentliyinin və "İzvestiya" kimi hökumət qəzetinin İranda guya faşist hərəkatı haqqında məlumatları dünyaya car çəkməsi bunu mümkünsüz etdi. Said başa düşdü ki, bundan sonra onun hakimiyyətdə qalması İran üçün gözlənilməz nəticələr verə bilər. Ona görə, istefa haqqında öz ərizəsini şaha təqdim etdi". Nəhayət, Kavtaradzenin bəyanatına cavab olaraq Seyid Ziya bildirirdi: "Neft konsessiyaları haqqında Məclisin qərarını səhv adlandırmaq xarici dövlətlərin səlahiyyətinə aid məsələ deyil. Hər hansı qərarı qəbul etmək Məclisin müstəsna hüququdur; Məclisin,

guya, Saidin və Seyid Ziyanın təzyiqi ilə belə qərar qəbul etməsi sovet nümayəndələrinin İranda buraxdıqları səhvlərin, diqqətsizliyinin və İranı hədələmələrinin nəticəsidir. Xatırladılmalıdır ki, bu qərar yalnız xarici orduların İranda olduğu dövr üçün qüvvədədir". O yazırdı: "Mən əminəm ki, əgər Sovet nümayəndələri düşünülmüş siyasət yeritsəydilər, Sovet səfirliyi ilə bağlı olan qəzetlər, SİTA, Moskva radiosu İran üçün müqəddəs olan anlayışları təhqir etməsəydilər, onlar hadisələrin belə gedişi ilə qarşılaşmazdılar".[78] Xarici konsessiyaların İrandakı mövcud vəziyyətlə uyğun gəlməməsi haqda Kavtaradzenin fikrinə etiraz edərək Seyid Ziya qeyd edirdi: "cənab Kavtaradzenin məsləhətçiləri gərək biləydilər ki, onların adlarını çəkmək istəmədikləri cənub neft konsessiyası 1921-ci ilin fevral ayının 26-da Sovet – İran müqaviləsi imzalanan zamanda da, Tehranda Ruzvelt, Stalin və Çörçilin birgə bəyanatları elan ediləndə də fəaliyyət göstərirdi". Məclisin öz səhv qərarını dəyişəcəyini təklif edənlərə Seyid Ziya bəyan edirdi ki, "İran Məclisi səhv etməmişdir və öz qərarını səhv adlandıraraq dəyişilməməlidir... Qoy 24 il əvvəl Rəştdə qurulan qarışıq hökumət (Gilan Sovet respublikası nəzərdə tutulur - C.H.) təhlükəsi ilə bizi qorxutmasınlar... Azərbaycanda üsyan təbliğatı və təhlükəsi, yaxud Təbəristanın (Mazandaranın - Ç.H.) bölünməsi təhlükəsi ilə bizi qorxutmasınlar".[79]

Seyid Ziyanın sovet siyasətini ifşa edən belə kəskin bəyanatı cavabsız qalmadı. 1945-ci ilin yanvar ayının 26-da İ.Volinin imzası ilə "Pravda" qəzetində "Təxribatçı Seyid Ziyaəddinin iç üzü" adlı geniş məqalə çap olundu. Məqalədə Seyid Ziya şeytan və fitnəkar adlandırıldı. Müəllif sovet metodları ilə onun bəyanatında söylənilən fikirlərin, təkzib etməyə cəhd göstərildi, lakin məqalədə gətirilən dəlillər elə də inandırıcı deyildi. İ. Volin yazırdı: "Seyid Ziyaəddinin fəaliyyəti İran tarixinin qara səhifəsini təşkil edir. Məlum olduğu kimi, 1921-ci ilin fevral ayının 21-də baş vermiş çevrilişlə o, milli azadlıq hərəkatının boğulmasının əsas təşkilatçısı olmuşdu və ölkədə

[78] «Raad", 1944, 20 dekabr
[79] Yenə orada

20 il davam edən Rza xanın diktatura rejiminin qurulmasının başlanğıcını qoymuşdu. Çevrilişdən sonra Seyid Ziyanın təşkil etdiyi hökumətdə Rza xan hərbi nazir vəzifəsini tutmuşdu. Lakin iki diktator yola getmədi və Seyid Ziya yeni çevrilişdən sonra İrandan qaçdı. Geniş hazırlıq işlərindən sonra İran irticası, onu 1943-cü ilin sentyabr ayının 29-da təntənəli şəkildə ölkəyə gətirdi və iki gündən sonra isə Yəzd şəhərindən Məclisə nümayəndə seçdirdi".[80]

Sovetlər Seyid Ziyanın Qərblə əlaqəsindən ciddi narahatçılıq keçirdilər. Həlledici məqamda ABŞ və İngiltərənin onu müdafiə etməyəcəyinə Sovet İttifaqı arxayın deyildi. Seyid Ziyanın himayəsində olan "Raad" qəzeti, belə bir məlumat vermişdi ki, guya ABŞ prezidenti F.Ruzvelt Said Marağayinin SSRİ-yə qarşı siyasətini müdafiə edən məktub göndərmişdir. "Keşvər" qəzeti isə bildirmişdi ki, neft konsessiyası mübahisələri SSRİ, İngiltərə və Amerika arasındakı ittifaqı dağıda bilər və kapitalist ölkələrinin Sovet İttifaqı əleyhinə ittifaqını formalaşdıra bilər.[81] Bu məsələ ilə bağlı "Pravda" qəzeti bildirirdi ki, Seyid Ziya müttəfiqlərin arasını qızışdırır. Onun İranın paytaxtını digər yerə köçürmək barədə (Sovetlərdən uzaq yerə - C.H.) təklifi də Sovet tərəfinin hiddətinə səbəb olmuşdu. Tehrandakı Sovet səfirliyinin 3-cü katibi A. Kaçalov S. Kavtaradzeyə yazırdı ki, Seyid Ziyanın bu planları barədə gizli şəkildə bir iranlıdan məlumat almışdır.[82]

1944-cü ilin sonu – 1945-ci ilin əvvəllərində Cənubi Azərbaycanda yaranmış siyasi vəziyyətlə əlaqədar Sovet Azərbaycanından xüsusi tapşırıqla İrana göndərilən işçilərin rəhbəri Həsən Həsənov 1945-ci ilin fevral ayının 13-də M.C.Bağırova 67 səhifəlik "Cənubi Azərbaycan haqqında arayış" göndərmişdi. Arayışın sonunda Cənubi Azərbaycanda həll edilməsi zəruri olan məsələlər sadalanırdı və Sovetlərin siyasətinə aydınlıq gətirilməsi təklif edilirdi. O yazırdı: "Sovet Azərbaycanından göndərilən işçilər çox böyük iş aparıblar,

---

[80] «Pravda", 1945, 26 yanvar

[81] AR DA, f.28, s.4, i.20, i.179

[82] A.Kaçalovun S.Kavtaradzeyə məlumatı. Yanvar 1945. //RF XSA, f.094, s316, qovluğ 351a, i.9, v.41-43

lakin bir sıra tədbirləri keçirən zaman onlar Sovet hakimiyyətinin son məqsədini anlamır və ona görə də, işləri tam həcmdə genişləndirə bilmirlər. Bizim İrandakı rəhbər işçilərə dəqiq və aydın şəkildə deyilməlidir ki, biz Azərbaycan əhalisinə farsların çoxəsrlik zülmündən qurtarmaq işində kömək etməliyik. Ona görə də, bütün işləri bu istiqamətdə qurun. İranın tarixi inkişafının bütün gedişi göstərir ki, Azərbaycan xalqı fars zülmündən qurtarılmalıdır. Belə ki, İran dövləti məhv olmaq və dağılmaq ərəfəsindədir, onun hökuməti ölkənin istiqlaliyyətini və müstəqilliyini saxlamaq iqtidarında deyildir". H.Həsənov bildirirdi ki, bütün cəza, terror və təqiblərə baxmayaraq, Azərbaycan əhalisinin milli hissləri, Azərbaycanın ayrılıb müstəqil dövlət olmaq ideyası çox güclüdür, lakin onun fikrincə, İranda Azərbaycan xalqının azad olması təşəbbüsü Sovet Azərbaycanından göndərilən işçilər tərəfindən qaldırılmalı idi. Həsənov yazırdı: "Biz bu işlə çox yaxından bağlıyıq, çünki, Cənubi Azərbaycan əhalisinin azad olması bizim qardaşlarımızı birdəfəlik məhv olmaq təhlükəsindən xilas edər, bütün Azərbaycan xalqının inkişafı üçün böyük perspektivlər açardı. Biz belə hesab edirik ki, beynəlxalq vəziyyətin indiki durumu bu vacib tarixi vəzifəni həyata keçirmək üçün çox əlverişlidir. İranda Azərbaycan xalqının azad edilməsi Hitler Almaniyasının qəti məğlubiyyəti və faşizmin darmadağın olması ilə eyni vaxta düşməlidir".

H.Həsənovun bu fikirlərindən ingilislər hansı yollasa məlumat almışdılar. Hətta, bütün bunları nəzərə alaraq, Təbrizdəki ingilis konsulu proqnoz verirdi ki, Cənubi Azərbaycanda çevriliş 1945-ci ilin may ayında olacaqdır. Ona görə, o, bir tərəfdən Tehrandakı Britaniya səfirliyini gözlənilən təhlükə barədə məlumatlandirir, digər tərəfdən isə, ingilislərə yaxın olan dairələrə sovet təhlükəsinin real xarakter aldığını bildirirdi. Bütün bunları müşahidə edən H. Həsənov bu məsələdə Müttəfiqlərə inanmadığını yazırdı. O, qeyd edilirdi ki, bu məsələdə diplomatik danışıqlara ümid bağlamaq olmaz, belə ki, ingilislər heç vaxt Azərbaycanın ayrılıb müstəqil dövlət olmasına və orada demokratik cəmiyyət quruculuğuna razı olmayacaqlar. Onun fikrincə, "Azərbaycanın azadlığı və orada tam demokratik dövlətin

qurulması, yaxud, onun Sovet Azərbaycanına birləşməsi xalq üsyanı vasitəsi ilə həyata keçirilməlidir ki, müttəfiqlər baş vermiş fakt qarşısında qalsınlar". H.Həsənov təklif edirdi ki, bu işləri görmək üçün Tehrandakı Sovet səfirliyinin imkanları çox məhduddur. Səfir Tehranla yaxşı münasibətlər saxlamağa borcludur. Nə qədər ki, Tehranın mənafeyi ilə Cənubi Azərbaycanın mənafeyi bir-biri ilə ziddiyyət təşkil edir, bizim hər hansı tədbirimiz mərkəzi İran hakimiyyəti tərəfindən qəzəblə qarşılanacaq. Bu da, öz növbəsində, səfirliyin işini çətinləşdirir və ona görə də, səfir bizim Cənubi Azərbaycandakı tədbirlərimizdən heç də həmişə razı qalmır. Həsənov belə hesab edirdi ki, bilavasitə Cənubi Azərbaycanda bütün bu işlərə rəhbərlik etmək üçün "birbaşa Bakıdan göstərişlər alan rəhbər yoldaşlar qrupu Təbrizdə olmalıdır. Həmin yoldaşların zəruri tapşırıqları almaları üçün Bakıya azad şəkildə gedib-gəlmələrini asanlaşdırmaq məqsədilə onların hərbi xidmətdə olmaları məqsədəuyğundur. Bu məqsədlə A.Atakişiyevin iqamətgahının Qəzvindən Təbrizə gətirilməsi, yoldaşlardan birinin korpus komandirinin müavini və digərinin isə korpusun siyasi şöbəsinin rəisinin müavini təyin edilməsi arzu olunandır". Arayışda bildirilirdi ki, "Cənubi Azərbaycanda yaxşı hazırlıqlı, vicdanlı, xalq işinə sədaqətli işçilər vardır. Onlar həm Xalq partiyasının rəhbərliyində, həm həmkarlar təşkilatında, həm də dövlət orqanlarında işləyirlər. Onlara tam etibar etmək olar, lakin onların sayı çox azdır. Ona görə də, "Ajir" qəzetinin redaktoru Seyid Cəfər Pişəvəri, qəzet redaktoru Şeyləvər, müəllim Maleki kimi azərbaycanlıların Tehrandan Təbrizə gətirilməsinə nail olmaq lazımdır. Zəruri olan anda Sovet Azərbaycanından da bir neçə rəhbər işçini Təbrizə gətirmək lazım gələcək".

1944-cü ilin dekabrında H.Həsənov Tehrana getdikdə Sovet səfiri M.Maksimov işarə etmişdi ki, İran Azərbaycanında burjua demokratik cəmiyyəti qurulması barədə Moskvadan göstəriş verilmişdir. Bu işdə, Maksimovun fikrinə görə, İran Məclisindəki Azərbaycandan olan nümayəndələrə arxalanılmalı idi, lakin H.Həsənov bu fikrin əleyhinə idi. Onun fikrincə, "burjua-demokratik quruluş ideyası Cənubi Azərbaycanda elə də geniş yayılmamışdır. Torpaq məsələsini həll etmədən

kəndliləri Azərbaycanın azadlığı uğrunda mübarizəyə cəlb etmək olmaz". Bu işdə Məclisdəki Azərbaycan nümayəndələrinə arxalanmağı da o, səhv hesab edirdi. Belə ki, nümayəndələrin çoxu iri torpaq sahibkarları idi və İranın digər yerlərində də onların torpaq mülkləri var idi. Ona görə də, onlar Azərbaycanın ayrılıb müstəqil dövlət yaratmaq işinə rəhbərlik edə bilməzdilər. O qeyd edirdi ki, "indiki anda Cənubi Azərbaycanda ən geniş yayılmış şüar azərbaycanlıların farsların zülmündən azad olması, demokratik dövlət qurulması və torpaq məsələsinin həll edilməsidir".[83] Nəhayət, arayışda tövsiyə olunurdu ki, Azərbaycanın azadlığı əhalinin geniş kütlələrinə - fəhlələrə, kəndlilərə, sənətkarlara və ziyalılara söykənən Xalq partiyası vasitəsi ilə həyata keçirilməlidir. Xalq partiyasını və onun rəhbərliyini möhkəmləndirmək üçün H.Həsənov təklif edirdi ki, hər ay ona təxminən on min tümən maddi yardım göstərmək lazımdır.

Tehrandakı hökumət böhranından sonra İranın siyasi dairələri Sovet İttifaqı ilə münasibətləri yaxşılaşdırmaq üçün bir sıra addımlar atdılar. Tehranda olan İranın SSRİ-dəki səfiri Məcid Ahi sovet səfirinin yanına gedərək Məhəmməd Saidin SSRİ-yə qarşı ciddi səhvlərə yol verdiyini dedi. Onun fikrincə, M.Said özünə bəraət qazandırmaq istəsə də, o, danışıqları lazımi səviyyədə aparmamışdı. M. Ahi sovet səfirini əmin etdi ki, o, Moskvaya döndükdən sonra neft məsələsi haqqında yeni danışıqlara başlamaq üçün var gücü ilə çalışacaq və hər iki tərəfi təmin edən ortaq bir forma tapmağa cəhd göstərəcəkdir. Görüş zamanı tərəflər öz mövqelərini axıra qədər açıqlamasalar da, bu görüş barədə Moskvaya məlumat verən sovet səfiri M.Maksimov M.Ahinin onun yanına hökumətin təlimatı əsasında gəldiyini yazırdı. Sovet səfiri belə hesab edirdi ki, Moskvaya dönüş ərəfəsində M. Ahinin onun yanına gəlməsi o deməkdir ki, İran hökuməti neft haqqında danışıqların davam etdirilməsinə ümidini itirməyib və bu danışıqları bilavasitə, onun vasitəsi ilə aparmaq istəyir.[84]

Həqiqətən Moskvaya döndükdən sonra M.Ahi 1945-ci ilin fevral ayının 26-da Xarici İşlər Xalq Komissarı V.Molotov tərəfindən qəbul

---

[83] H.Həsənov.Cənubi Azərbaycan haqqında arayış. 12.02.1945.// ARPİİ SSA, f.1,s.89, i.108, v.82

[84] M.Maksimovun SSRİ XXİK-na məlumatı. Yanvar 1945. //RF XSA, f.094, s316, qovluğ 351a, i.7, v.44-46

edildi. Səfir bildirdi ki, Şimali İranda Sovet İttifaqının neft alması ilə bağlı məsələni tənzimləmək üçün hökumətindən təlimat almışdır, lakin o, əlavə etdi ki, Məclis müharibə dövründə neft konsessiyaları verilməsini qadağan edən qanun qəbul etdiyi üçün SSRİ-yə konsessiya vermək mümkün olmayacaqdır. Bununla belə, M.Ahi ehtiyatlı formada eyham vurdu ki, yollar tükənməmişdir. Məsələn, o, qeyd etdi ki, Şimali İranda neft kəşfiyyatı və hasilatı üzrə Sovet – İran qarışıq cəmiyyəti yaradıla bilər, lakin V. Molotov qəti şəkildə bildirdi ki, "Sovet İttifaqının yalnız bir təklifi vardır, bu, bilavasitə, Şimali İranda konsessiya haqqında təklifdir. Yalnız məsələnin belə həlli Sovet İttifaqının maraqlarını və hüququnu təmin edə bilər..."[85] Molotovun məsələni belə, kəskin qoymasından narahat olan İranın Xarici İşlər naziri Nəsrulla Entezam Məcid Ahi ilə SSRİ Xarici İşlər Xalq Komissarı arasında olmuş söhbətin məzmununu Tehrandakı Amerika səfirliyinə çatdırdı.[86] Amerkalılar regionu yaxşı tanımadıqlarından səhvən bu fikirdə idilər ki, İranın zəngin şimal vilayətlərini ələ keçirməyi planlaşdıran Sovet İttifaqının niyyəti Türkiyə ilə Sovet Azərbaycanı və Türküstan arasında hər hansı əlaqəyə son qoymaqdır. Onların məlumatına görə, ruslar hələ, Almaniya türk legionlarının yaradılmasına böyük maraq göstərəndə bu qənaətə gəlmişdilər.[87]

Beləliklə, 1944-cü ilin martında ayrı-ayrı müttəfiq respublikalarda Xarici İşlər Xalq Komissarlıqlarının yaranması müharibədən sonrakı dünya quruculuğunda Sovet İttifaqının imkanlarını, qonşu dövlətlərə, o cümlədən Türkiyə və İrana təsirini və təzyiqini artırmağa, beynəlxalq təşkilatlarda möhkəmlənməyə hesablanmış ciddi siyasi addım idi. Məlum olduğu kimi, 1922-ci ildə SSRİ yarananda ona daxil olan ayrı-ayrı respublikalar öz hüquqlarının bir hissəsini, xüsusilə xarici siyasət və müdafiə məsələləri ilə bağlı hüquqlarını ittifaq dövlətinə vermişdilər. 1944-cü ilin yazında bu

---

[85] V.Molotovun gündəliyindən. İran səfiri M.Ahinin qəbulu. 26.02.1945.// RF XSA, f.06, s.7, qovluq 33, i.031, v.1-3

[86] Bax: Telegram from Morris to Secretary of State. 06.03.1945.// National Archives and Records Administration USA, RG 59, Box: 3398, NND 7600050, Doc.761.91/3-645.

[87] Bax: From General George Moseley to the State Department. The Soviet Union and Turkey.10.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-1045, p.14

hüquqların yenidən müttəfiq respublikalara qaytarılması SSRİ-nin demokratikləşməsi, onun subyektlərinin hüquqlarının genişləndirilməsi, milli siyasətdə baş verən dəyişikliklərin nəticəsi olmayıb, dünya müharibəsinin sonunda beynəlxalq aləmdə baş verən dəyişikliklər və bu dəyişikliklərdən SSRİ-nin hərbi, siyasi və strateji maraqları üçün daha effektli istifadə etmək zərurətindən irəli gəlirdi. Sovet mətbuatında bu addımı müttəfiq respublikaların suverenliyinin möhkəmləndirilməsi, guya, xarici dövlətlərlə birbaşa əlaqələrin qurulmasının müttəfiq respublikaların milli maraqları, təsərrüfat və mədəni ehtiyaclarından irəli gəlməsi kimi şərh edilməsi sırf deklarativ xarakter daşıyırdı.[88] Əslində isə bu addımdan daha geniş məqsədlər üçün - yeni yaranan Birləşmiş Millətlər Təşkilatında mümkün olduğu qədər daha çox səslə təmsil olunmaq, M.Litvinovun 15 noyabr məruzəsində işarə edilən Ukrayna və Gürcüstanın Boğazlara nəzarət üzrə yaradılması nəzərdə tutulan Qara dəniz dövlətləri komissiyasında iştirakını təmin etmək, Ermənistan və Gürcüstandan Türkiyəyə, Azərbaycandan İrana, Ukrayna və Belorusiyadan Polşaya, Baltikyanı respublikalarından Almaniyaya, hətta, Özbəkistandan, Qazaxıstan və Qırğızıstandan Çinin Şərqi Türküstan əyalətinə qarşı SSRİ tərəfindən irəli sürüləcək ərazi iddialarında istifadə etmək planlaşdırılırdı. Məhz bu məqsədlə sərhədyanı dövlətlərdə baş verən bütün hadisələr, gedən bütün siyasi proseslər Sovet İttifaqının maraq dairəsinə daxil edilmişdi, lakin hələ ki, bu geniş planlardan yalnız Boğazlar rejimini dəyişmək uğrunda mübarizə müttəfiqlərarası münasibətlərdə açıq xarakter almış, Türkiyənin Boğazlara nəzarət hüququnu onun əlindən almaq, və ya, ən azı bu hüquqa şərik olmaq barədə müxtəlif gizli variantlar hazırlanırdı. 1945-ci ilin fevralında keçirilən Krım konfransı ərəfəsində və konfransın gedişində bu iş daha intensiv xarakter almışdı. Eyni zamanda, 1944-cü ilin sonlarından etibarən İranın şimal nefti və Cənubi Azərbaycan məsələsi strateji baxımdan sovetlərin başlıca hədəfinə çevrilmişdi. Tehranı ağır sınaqlar gözləyirdi.

[88] Известия, 1944, 21 декабря

V FƏSİL

II DÜNYA MÜHARİBƏSİNİN SON MƏRHƏLƏSİNDƏ SOVET AZƏRBAYCANININ XARİCİ SİYASƏTİ

§1. 1945-ci ilin yazında və yayında Azərbaycan Xarici İşlər Xalq Komissarlığının fəaliyyətinin genişlənməsi

1945-ci ilin ilk günlərində Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı 1944-cü ilin sonlarından başlayan təşkilatı və diplomatik fəaliyyətini daha da genişləndirir, komissarlığın kadr bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra əməli addımlar atır, ittifaq dövlətinin xarici siyasət, diplomatik və konsulluq işləri ilə bağlı başlıca qanunlarını və hüquqi aktlarını Sovet Azərbaycanının həyatına uyğunlaşdırmağa çalışırdı. Komissarlığın fəaliyyətinə əməli xarakter vermək üçün Mahmud Əliyev 1945-ci ilin yanvar ayında SSRİ Xarici İşlər Xalq Komissarının müavini V.Dekanozovdan xahiş edirdi ki, sənədləri artıq çoxdan Moskvada - mərkəzi aparatda olan Davud Qayıbov respublika Xarici İşlər Xalq Komissarlığının Siyasi şöbəsinin müdiri, Məmməd Əmin Qazıyev komissarın köməkçisi, Məmməd Tağı Orucov Protokol-Konsulluq şöbəsinin müdiri, Tofiq Allahverdiyev Gizli-şifrələmə şöbəsinin müdiri, Məmməd Əfəndiyev isə Kadr şöbəsinin müdiri vəzifəsinə təsdiq edilsinlər.[1] Adları qeyd edilən şəxslər 1944-cü ilin payızından Azərbaycan SSR XİXK-da rəhbər vəzifələrdə işə başlasalar da, rəhbər kadrların təyinatı ilə bağlı Sovet İttifaqında mövcud olan qaydalara görə, onların əmrləri ittifaq komissarlığında təsdiq edilməli idi. Komissarlığın rəhbər heyəti Moskvada təsdiq edildikdən sonra diplomatik işçilərin hərbi səfərbərlikdən möhlət hüququ (bron) haqqında

[1] M.Əliyevin V.Dekanozova məktubu. 24.01.1945.// ARDA, f.28c, s.6c, i.6, v.7

SSRİ XKS yanında komissiyanın 180, 205 və 239 saylı qərarlarına görə, onların siyahısı 1945-ci ilin əvvəllərində respublika Hərbi Komissarlığına təqdim edilmişdi.[2]

1944-cü ildə olduğu kimi, 1945-ci ilin əvvəllərində də, komissarlıqda çalışan işçilərin peşə və xarici dil hazırlığını təkmilləşdirmək və yeni kadrlar hazırlamaq istiqamətində bir sıra addımlar atılmışdı. Azərbaycan SSR Xarici İşlər Xalq Komissarının müavini Ağa Səməd Əlizadənin SSRİ XİXK-in Kadr İdarəsinin rəisi Mixail Silinə 1945-ci ilin mart ayında yazdığı məlumata görə, komissarlığın rəhbər heyətinin xarici dil hazırlığı uğurla davam edir və qərb dilləri (ingilis və fransız) üzrə iki illik kursları bitirənlər 1946-cı ilin iyun – noyabr aylarında, üç illik kursları bitirənlər isə 1947-ci ilin iyun – noyabr aylarında buraxılış imtahanları verməli idilər.[3] Xarici dil üzrə qəbul edilən imtahan və yoxlamaların yazılı nümunələri, onlara qoyulan tələblər SSRİ XİXK-in kadr şöbəsindən hər rübdə bir dəfə göndərilirdi.[4] Həftədə 3 dəfə 2 akademik saat davam edən xarici dil dərsləri ciddi nəzarət altında keçirilir, hər ayın sonunda baş müəllim dərslərin gedişi və mənimsəmənin səviyyəsi barədə öz yekun rəyini jurnalda qeyd edirdi. Dərslərə intensiv xarakter vermək üçün A.Əlizadə SSRİ XİXK-dan xahiş edirdi ki, xarici dilin tədrisinə dair Alabeyovanın redaktorluğu altında nəşr edilmiş kitabdan 12 nüsxə Bakıya göndərilsin.[5] Komissarlığın məlumatına görə, xarici dil kursları 15 nəfəri əhatə edirdi. Bunlardan 7 nəfər rəhbər işçi qərb dillərini fərdi qaydada öyrənir, qalan 8 nəfər isə iki qrupa bölünərək, müvafiq kurslarda xarici dilləri mənimsəyirdilər.[6] Eyni zamanda, M. Silin 1945-ci ilin mart ayının 6-da M. Əliyevə göndərdiyi məktubda bildirirdi ki, SSRİ XİXK-ın rəhbərliyi Azərbaycan SSR XİXK-in

---

[2] SSRİ XXİK yanında komissiyanın 180, 205 və 239 saylı qərarlarına görə, səfərbərlikdən möhlət [illegible]u olan Azərbaycan SSR XXİK-nın əməkdaşlarının siyahısı. 1945.// ARDA, f.28c, s.6c, i.6, v.18

[3] A.Əlizadənin M.Silinə məktubu. 05.03.1945.// ARDA, f.28c, s.6c, i.6, v.19

[4] SSRİ XXİK-in Kadr şöbəsi müdirinin müavini Popovkının M.Əfəndiyevə məktubu. 31.05.1945.// ARDA, f.28c, s.6c, i.6, v.40

[5] Azərbaycan SSR XXİK-ın işçiləri üçün təşkil edilmiş xarici dil kursları haqqında məlumat. 1945.// ARDA, f.28c, s.4c, i.8, v.52-53

[6] SSRİ XXİK-ın Kadrlar şöbəsinə Azərbaycan SSR XXİK-nın məlumatı.30.04.1945.// ARDA, f.28c, s.6c, i.6, v.29

kadr bazasını möhkəmləndirmək üçün Ali Diplomatiya Məktəbinin 1945-ci il qəbulu planında respublika komissarlığına iki yer nəzərdə tutmuşdur. O, xəbərdarlıq edirdi ki, Diplomatiya Məktəbinə göndərilən şəxslərin namizədliyi Azərbaycan K(b)P MK-da təsdiq edilməli və aprel ayının 1-nə qədər onların sənədləri Moskvaya göndərilməlidir.[7] Bu təlimata uyğun olaraq, Azərbaycan SSR XİXK Ali Diplomatiya Məktəbinə göndərmək üçün Kamal Talıbzadə və Seyid Bağırovun namizədliyi üzərində dayandı və bu namizədlər Azərbaycan K(b)P MK-da təsdiq edildikdən sonra, komissarlıq tərəfindən onların sənədləri Moskvaya göndərildi.[8]

Əyani təhsillə yanaşı, diplomatik işdə çalışan işçilərə ali ixtisas təhsili vermək üçün SSRİ Xarici İşlər Xalq Komissarı V. Molotovun əmri ilə 1945-ci ilin yayında Ali Diplomatiya Məktəbində qiyabi şöbə təsis edilmişdi. N. V. Tarasenko qiyabi şöbə üzrə Diplomatiya Məktəbinin direktoru V. M. Xvostovun müavini təyin edilmişdi. Müttəfiq respublikaların Xarici İşlər Xalq Komissarlıqlarına tövsiyə edilirdi ki, qiyabi şöbədə təhsil alan işçilər üçün zəruri olan şəraiti yaratsınlar.[9] Bu əmrə uyğun olaraq, V. Xvostov və N. Tarasenko Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı M. Əliyevə məktubla müraciət edərək, Ali Diplomatiya Məktəbinin qiyabi şöbəsinə dinləyicilər göndərilməsini xahiş edirdilər.[10]

Təhsil məsələləri ilə yanaşı, komissarlığın bir sıra əməkdaşları əvvəllər başladıqları elmi işlərini tamamlamağa çalışırdılar. 1945-ci ilin ortalarında komissarın köməkçisi M.Ə.Qazıyev "İrtica illərində Bakı proletariatının mübarizəsi", Kadr şöbəsinin müdiri M.Əfəndiyev "1805-1813-cü illərdə Rusiya – İran diplomatik münasibətləri" adlı namizədlik dissertasiyalarını başa çatdırmış, Q.Həsənov isə Azərbaycanın xarici siyasəti haqqında dissertasiya işi üzərində araş-

[7] M.Silinin M.Əliyevə məktubu. 06.03.1945.// ARDA, f.28c, s.6c, i.6, v.22
[8] Azərbaycan SSR XXİK üzrə 31 saylı əmr. 08.06.1945.// ARDA, f.28c, s.6c, i.8, v.33; Kamal Talıbzadə sonralar filoloji elmlər üzrə Azərbaycan EA-nın həqiqi üzvü oldu.
[9] SSRİ XXİK üzrə əmr. 21.08.1945.// ARDA, f.28c, s.6c, i.6, v.90
[10] V.Xvostov və N.Tarasenkonun M.Əliyevə məktubu. Noyabr 1945.// ARDA, f.28c, s.6c, i.6, v.89

dırmalarını davam etdirirdi.[11] Hətta, komissarlığın ilk əməkdaşlarından biri olan Həzi Abdullayevə öz elmi araşdırmalarını başa çatdırmaq üçün icazə verilmişdi ki, 1945-ci ilin mart ayının 13-nə qədər günün ikinci yarısı işə gəlsin. Lakin komissarlıq xətti ilə ezam olunub, Moskvada apardığı elmi tədqiqat işlərindən sonra o, diplomatik işdən ayrılmağa üstünlük vermişdi.[12] 1945-ci ilin iyul ayının 28-də öz arzusuna uyğun olaraq, H.Abdullayev Xarici İşlər Komissarlığında tutduğu vəzifədən azad edilmiş və Azərbaycan K(b)P MK aparatında işə keçmişdi. SSRİ XİXK-in Kadrlar İdarəsinin rəisi M.Silin onun yaxşı diplomatik təhsil aldığını nəzərə alaraq, Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığında saxlanması xahişi ilə M.C.Bağırov və M.Əliyevə müraciət etsə də, H.Abdullayev bir müddət partiya orqanlarında çalışdı, sonra isə elmi idarələrdə öz tədqiqatlarını davam etdirdi.[13] Bu tədqiqatların nəticəsi kimi, dissertasiya işini başa çatdıran H.Abdullayevin sonralar Azərbaycanın tarix elmi, xüsusən, xanlıqlar dövrü tarixi üçün bu gün də öz əhəmiyyətini saxlayan "Şimal–şərqi Azərbaycanın tarixindən (XVIII əsrin 60-80-ci illəri)", "Azərbaycan XVIII əsrdə və onun Rusiya ilə qarşılıqlı münasibətləri" adlı maraqlı monoqrafiyaları nəşr olundu.[14]

İranla bağlı məsələlər Azərbaycan Xarici İşlər Xalq Komissarlığının əsas fəaliyyət istiqaməti olduğu üçün öz kiçik elmi potensialı ilə komissarlıq 1945-ci ilin aprel ayında, hələ, 1911-1913-cü illərdə Sankt-Peterburqda nəşr olunmuş "İran hadisələrinə dair diplomatik sənədlər toplusu"nu təhlil edən geniş sənəd hazırladı. Yeddi buraxılışdan ibarət olan sənədlər toplusu 1906-cı ilin sonlarından 1911-ci ilin dekabr ayına qədər İranda, xüsusilə, Cənubi Azərbaycanda baş verən hadisələri əhatə edirdi. M.Əliyev tərəfindən imzalanmış 15 səhifəlik qeydlərdə əsasən, 1906-1911-ci illər İran inqilabı dövründə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı məsə-

---

[11] Azərbaycan SSR XXİK-in 1944-cü ilin noyabrından 1945-ci ilin sentyabrına qədər fəaliyyəti barədə qısa hesabat.// ARDA, f.28c, s.6c, i.6, v.97

[12] M.Əliyevin S.Qafarzadəyə məktubu. 23.05.1945.// ARDA, f.28c, s.8c, i.4, v.33-34

[13] M.Silinin M.C.Bağırova məktubu. Surəti M.Əliyevə. 24.08.1945.// ARDA, f.28c, s.4c, i.7, v.61

[14] Bax: А.С.Сумбатзаде. Азербайджанская историография XIX - XX веков. Баку, 1987, с.132,197

lələrinə geniş yer verilir və "Səttarxan öz müstəqilliyi uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının rəhbəri" kimi qiymətləndirilirdi. Komissarın qeydlərində İran məşrutə inqilabının başında azərbaycanlıların dayandığı, inqilabın başlıca mərkəzinin Təbriz olduğu və 1911-ci ilin aprel ayının 27-də Rusiyanın Tehran səfirliyindən Peterburqa gələn həyəcanlı məlumatda "Azərbaycanın İrandan ayrılmağa hazırlaşdığı haqqında güclü şayiələrin dolaşdığı" bildirilirdi. Sənəddə rus diplomatlarının göndərdiyi məlumatlara əsasən, Təbriz və bütövlükdə, Cənubi Azərbaycan İranın ən narahat əyaləti kimi dəyərləndirilir və belə vəziyyət "bu vilayətin xüsusi etnoqrafik və coğrafi şəraiti ilə" izah edilirdi. Orada deyilirdi: "Cənubi Azərbaycan inqilabçıları İran inqilabı zamanı öz dövlətlərinin müstəqilliyi və Azərbaycanın birləşməsi uğrunda mübarizə aparırdılar".[15] Səttarxanın başçılığı ilə genişlənən məşrutə inqilabının gedişində Təbrizdə yaranmış əncümən (seçkili özünüidarə orqanı) sənəddə Azərbaycan əyalətinin əsas hakimiyyət orqanı kimi təqdim edilirdi. 1908-ci ilin noyabr ayının 24-də rus diplomatı Sablinin Peterburqa göndərdiyi teleqrama istinadən komissarın bəzi qeydlərində deyilirdi ki, "nə şah hakimiyyəti, nə Tehran hökuməti əncümənləri tanımırlar, əncümənlər yalnız, Azərbaycanda hakimiyyət orqanı kimi təmsil olunurlar". Sənəddə qeyd olunurdu ki, məşrutə inqilabı dövründə Azərbaycanda milli-azadlıq hərəkatı çox geniş xarakter aldığı üçün "Məclisdə azərbaycanlı vəkillər böyük rol oynayırdılar" və bu şəraitdə İran hökuməti öz fəaliyyətini, bütövlükdə, Azərbaycana yönəltmiş və Azərbaycanda inqilabi hərəkatı boğmaq üçün xarici imperialistlərə müraciət etməli olmuşdu.[16] "İran hadisələrinə dair diplomatik sənədlər toplusu"nda yer almış çoxlu yazışmalara müraciət etdikdən sonra Xarici İşlər Xalq Komissarı M.Əliyev öz qeydlərində belə nəticəyə gəlirdi ki, "1906-1911-ci illər İran inqilabında Cənubi Azərbaycanın əhalisi öz dövlət müstəqil-

[15] M.Əliyev. İranda 1906-cı ilin sonundan 1911-ci ilin dekabrına qədərki hadisələrə dair 7 cilddə, Sankt-Peterburqda, 1911-1913-cü illərdə hərbi mətbəədə nəşr olunmuş diplomatik sənədlər toplusu haqqında bəzi qeydlər. 07.04.1945.// ARDA, f.28c, s.4c, i.8, v.115

[16] Yenə orada, v.117

liyinə qovuşmaq tələblərində və Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizədə vahid və güclü qüvvə kimi çıxış edirdilər. Cənubi Azərbaycan əhalisinin bu mübarizəsinə xalq qəhrəmanı, Azərbaycan xalqının azadlığı və müstəqilliyi uğrunda mübariz Səttarxan başçılıq edirdi".[17] Bu nəticə 1945-ci ildə Cənubi Azərbaycanda baş verən hadisələrlə səsləşirdi.

"İran hadisələrinə dair diplomatik sənədlər toplusu" haqqında M.Əliyevin bəzi qeydlərinin ikinci hissəsi "Səttarxan - öz müstəqilliyi uğrunda ayağa qalxmış Azərbaycan xalqının rəhbəri kimi" adlanırdı. Bu fikri əsaslandırmaq üçün o, təhlil etdiyi topludan rus diplomatları və hərbiçilərinin İrandan Səttarxan haqqında Peterburqa göndərdikləri çoxsaylı sənədlərə istinad edirdi. Məsələn, Ərdəbil konsulluq dairəsində hadisələrin icmalı haqqında 1909-cu ilin sentyabr ayında tərtib edilmiş məlumatda göstərilirdi: "Sərdari-milli adlandırılan Səttarxan sentyabr ayının 6-da Ərdəbilə gəldi. Ərdəbildə Sərdari-milli onun pişvazına çıxmış əncümən üzvlərinin, digər siyasi xadimlərin və demək olar ki, şəhərin bütün əhalisindən ibarət olan nəhəng kütlənin əhatəsində hərəkət edirdi. Səttarxan onu qarşılamağa çıxanları ruhlandırmağa və sakitləşdirməyə tələsir, tezliklə qayda-qanun yaranacağını, quldurların ram ediləcəyini vəd edirdi".[18] M.Əliyev öz qeydlərində Səttarxanın Cənubi Azərbaycanda mərkəzi Təbriz olan müstəqil bir dövlət qurduğunu əsaslandırmaq üçün rus diplomatlarının yazışmalarından çoxlu nümunələr toplamışdı. Məsələn, bu diplomatlardan biri kimi Paxitonovun 1908-ci ilin may ayının 30-da Peterburqa göndərdiyi teleqramda qeyd edilirdi ki, Səttarxanın hakimiyyəti altında olan ərazidə qayda-qanun hökm sürür. Orada deyilirdi: "Onun blanklarında və rəsmi sənədlərində "Əyaləti Cəlaliyyə Azərbaycan" sözləri yazılırdı ki, onun da tərcüməsi "Yüksək Azərbaycan hökuməti" deməkdir. Son günlər ərzində Təbrizdə "Məclisi-qeybə" (gizli şura) adı altında Komitə yaranmışdır". Bütün bu sənədləri təhlil edərək M. Əliyev yazırdı ki, "Səttarxan xalq kütlələrinə arxalanaraq, öz hakimiyyətini qurmuşdu və Şimali Azərbaycanla çox sıx əlaqə saxlayırdı". Rus diplomatlarının

[17] Yenə orada, v.118
[18] Yenə orada, v.119

məlumatlarına görə, Səttarxanın Cənubi Azərbaycanda şöhrəti elə geniş yayılmışdı ki, onun portretləri dükanlarda satılırdı. M. Əliyevin sözlərinə görə, öz mütərəqqi mübarizəsində Səttarxan Qafqazın əməkçi xalqından və ilk növbədə "yoldaş Stalinin rəhbərlik etdiyi Zaqafqaziya bolşevik təşkilatından hərtərəfli yardım və köməklik alırdı".[19] Sovet Azərbaycanı Xarici İşlər Xalq Komissarı M. Əliyevin təxminən 35 il əvvəl nəşr edilmiş "İran hadisələrinə dair diplomatik sənədlər toplusu" əsasında hazırlayıb, 1945-ci ilin aprel ayının 7-də SSRİ XİXK-ə göndərdiyi qeydlər, bütövlükdə, Cənubi Azərbaycanda planlaşdırılan müstəqillik uğrunda hərəkatın dərin tarixi kökləri olduğuna Moskvanı inandırmaq xarakteri daşıyırdı. İdeya baxımından bu sənədin davamı kimi, M. Əliyev 1945-ci ilin iyun ayının 23-də "Şimali və Cənubi Azərbaycan haqqında arayış"ı Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti Heydər Hüseynovla birlikdə hazırlayıb, SSRİ XİXK-ə göndərdi. Həmin arayışda Cənubi Azərbaycan üçün azadlıq məqamının yetişdiyi haqqında mülahizə, komissarın yeni qeydlərində XX əsrin əvvəllərində İranda fəaliyyət göstərən rus diplomatlarının yazışmalarına əsasən, daha da möhkəmləndirilirdi.[20]

Cənubi Azərbaycanda başlanmış prosesləri sürətləndirmək üçün respublika Xarici İşlər Xalq Komissarlığı Moskvanın, xüsusilə, ümumittifaq orqanlarının İranda planlaşdırdığı təbliğat işlərində yaxından iştirak edirdi. Cənubi Azərbaycanda milli hərəkatın təşkilinə Sovet İttifaqı rəhbərliyi tərəfindən qərar verildikdən sonra təbliğat işlərinin bir hissəsi Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı tərəfindən həyata keçirilirdi. Bu işlərdə 1943-1944-cü illərdə SSRİ Xarici İşlər Xalq Komissarının müavini kimi yüksək diplomatik vəzifədə çalışmış Mahmud Əliyevə Sovet mərkəzi orqanlarının böyük etimadı var idi.[21] 1945-ci ilin yayında SSRİ Xarici İşlər Xalq Komissarının müavini S. Kavtaradze M. Əliyevə yazırdı ki, V. Molotov yoldaş Sovet Respublikalarının (Azərbaycan, Özbəkistan, Tacikistan və,

---

[19] Yenə orada, v. 120-121

[20] Bax: M.Əliyevin SSRİ XXİK-ə göndərdiyi "Şimali və Cənubi Azərbaycan haqqında arayış".23.06.1945.//ARPİİ SSA, f.1, s.89, i.108, v.1-21

[21] Очерки истории Министерства Иностранных Дел России. Том второй, 1917-2002. Москва, 2002, с.273

eyni zamanda, Türkmənistan və Ermənistan) hər biri haqqında ayrıca kitabların İran üçün nəşr olunmasını zəruri hesab etmişdir. V.Molotovun fikirincə, bu kitablar İran əhalisinin geniş dairəsi üçün nəzərdə tutulmalı və hər respublikanın siyasi, iqtisadi və mədəni uğurlarını, habelə zəhmətkeşlərin maddi-məişət vəziyyətini özündə əks etdirməli idi. Nəzərdə tutulan kitabla bağlı S. Kavtaradze yazırdı: "Orada Sovet vətəndaşlarının hüquq və öhdəliklərini, sovet ailəsi və məişəti ilə bağlı məsələləri, SSRİ-də analara və uşaqlara dövlət qayğısı və s. işıqlandırmaq zəruridir. Dinin vəziyyəti məsələsi üzərində xüsusi olaraq, dayanmaq lazımdır. Öz-özlüyündə kitabın əsas ideyaları rəqəmlərlə və faktiki materiallarla, eyni zamanda foto-illüstrasiyalarla möhkəmləndirilməlidir". S.Kavtaradze qeyd edirdi ki, kitabın rus dilində olan hazır mətni və illüstrasiya materialları qabaqcadan baxılmaq üçün iki nüsxədə SSRİ XİXK-ə göndərilməlidir. Onun məlumatına görə, mətn yoxlandıqdan sonra İran nəşriyyatlarının birində fars dilində çap ediləcəkdi.[22] Hər respublikaya həsr edilmiş kitab 5-8 çap vərəqi həcmində olmalı və 1500-2000 tirajla, qalın üzdə, keyfiyyətli kağızda, foto illüstrasiya ilə birlikdə fars dilində nəşr edilməli idi.[23] S. Kavtaradzenin məktubu ilə bağlı M.Əliyev M.C.Bağırova məlumat verirdi ki, artıq, bu istiqamətdə respublika Xarici İşlər Xalq Komissarlığı material toplamaq işinə başlamışdır və 1945-ci ilin oktyabr ayının ortaları üçün kitabın mətnini Moskvaya göndərməyi planlaşdırır.[24]

Bununla yanaşı, respublika Xarici İşlər Xalq Komissarlığı Azərbaycan SSR haqqında Cənubi Azərbaycan əhalisi arasında yayılması məqsədi ilə Azərbaycan dilində daha sanballı bir əsərin nəşr edilməsinə də böyük əhəmiyyət verirdi. Bu məqsədlə Xarici İşlər Xalq Komissarı M.Əliyev 1945-ci ilin avqust ayında SSRİ XİXK-ə məktubla müraciət etmişdi. SSRİ Xarici İşlər Xalq Komissarlığı Cənubi Azərbaycan əhalisi üçün 8-10 çap vərəqi həcmində, Azərbaycan dilində belə bir kitabın nəşr olunmasına etiraz etmədiyini bildirdi.[25]

---

[22] S.Kavtaradzenin M.Əliyevə məktubu. 07.08.1945.// ARDA, f.28c, s.4c, i.9, v.40
[23] M.Silinin M.Əliyevə məktubu. 03.11.1945.// ARDA, f.28c, s.4c, i.7, v.106
[24] M.Əliyevin M.C.Bağırova məktubu.17.08.1945.// ARDA, f.28c, s.4c, i.7, v.69
[25] M.Silinin M.Əliyevə məktubu. 13.09.1945.// ARDA, f.28c, s.4c, i.7, v.68

Cənubi Azərbaycan əhalisi arasında kütləvi-təbliğat işlərini genişləndirmək məqsədilə ora Azərbaycan dilində ədəbiyyat göndərilməsinin zəruriliyi ilə bağlı, hələ, 1945-ci ilin mart ayının 29-da Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı M.Əliyev Ümumittifaq Mədəni Əlaqələr Cəmiyyətinin İdarə Heyətinin sədri Vladimir Kemenova müraciət etmişdi. Bu məktuba cavab olaraq, SSRİ-nin İranda Ümumittifaq Mədəni Əlaqələr Cəmiyyətinin yeni təyin edilmiş nümayəndəsi Hüseyn Şərifova təlimat verilmişdi ki, Bakıdan Cənubi Azərbaycana Azərbaycan dilində ədəbiyyat göndərilməsinin həcmini artırsın. H. Şərifov 1945-ci ilin yanvar ayının ortalarında Təbrizə ezam olunmuşdu.[26] Bütövlükdə, Moskvada bu işin görməsinin çətinliyini nəzərə alaraq, Kemenov xahiş edirdi ki, İran Azərbaycanına ədəbiyyat göndərilməsi işi Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı vasitəsi ilə Bakıda təşkil edilsin. Azərbaycan mahnılarının notlarına, Azərbaycan dilinə dublyaj edilmiş filmlərə və Azərbaycan alim, yazıçı və artistlərinin Təbrizə səfərinə gəldikdə isə, SSRİ XİXK-in Orta Şərq şöbəsinin müdir əvəzi S.Sıçev M.Əliyevə bildirirdi ki, Azərbaycan mahnılarının notları yaxın vaxtlarda diplomatik poçt vasitəsi ilə Təbrizə göndəriləcək. O, eyni zamanda, Azərbaycan dilinə dublyaj edilmiş 4 filmin də İrana göndərilmək üçün hazır olduğunu və yaxın vaxtlarda onların sayının artırılacağını qeyd edirdi. S.Sıçev Sovet Azərbaycanı alim və ziyalılarının Təbrizə göndərilməsi məsələsinin Azərbaycan K(b)P MK katibi M.C.Bağırovla razılaşdırılacağını bildirirdi.[27]

İranda nəzərdə tutulan tədbirlərlə bağlı xaricə gediş-gəliş çoxaldığı üçün Azərbaycan SSRİ XİXK-in mərkəzi orqanların hüquqi aktlarına əsasən, xarici ezamiyyətləri və səfərləri tənzimləyən bir sıra normativ aktlar hazırlamışdı. Komissarlığın Konsulluq şöbəsi tərəfindən hazırlanan və 1945-ci ilin mart ayının 6-da M.Əliyev tərəfindən təsdiq edilən "Xaricə ezam olunan Azərbaycan SSR vətəndaşları üçün qaydalar" adlı sənəd 35 bənddən ibarət idi. Orada göstərilirdi ki, xaricə ezam edilən Azərbaycan SSR vətəndaşları müvafiq təlimat almaq üçün Xarici İşlər Xalq

[26] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.306
[27] S.Sıçevin M.Əliyevə məktubu.10.05.1945.// ARDA, f.28c, s.4c, i.7, v.30-31

Komissarlığının Konsulluq şöbəsinə gəlməli, onlar partiya və həmkarlar ittifaqının sənədlərini müvafiq idarələrə təhvil verməli, özləri ilə heç bir artıq arayış, vəsiqə və sair götürməməli idilər. Qaydaların 4-cü bəndində göstərilirdi ki, xaricə ezam olunan vətəndaşlar özlərinin xarici görünüşlərinə, geyimlərinin səliqəli və təmiz olmasına xüsusi diqqət yetirməli, təmiz kostyum, təmiz yaxalıq geyməli və qalstuk taxmalı, başlarına kepka və digər baş geyimləri deyil, hökmən şlyapa qoymalı idilər. Növbəti bənddə xaricə ezam olunan vətəndaşlar yolda və ezam olunduqları məntəqədə öz söhbətlərinin məzmununa xüsusi diqqət yetirməli idilər. Onlara tövsiyə edilirdi ki, siyasi mövzularda söhbətlər etməsinlər, SSRİ-nin və Azərbaycan SSR-in həyatına və məişətinə aid söhbətlərdən yayınsınlar. Ezam olunanlara müdafiə və ümumiyyətlə, hərbi xarakterli, xarici siyasət məsələləri, XİXK, XDİK, XDTK və partiya həyatı ilə bağlı xaricilərlə hər hansı söhbət aparılması qəti qadağan edilirdi. Onlar təsadüfi tanışlıqdan yayınmalı və öz ünvanlarını, telefonlarını heç kimə verməməli idilər. Qaydalarda qeyd edilirdi ki, xaricə ezam olunan vətəndaşlar tanımadığı şəxslərlə bir kupedə yol getdikdə pul, pasport və digər sənədlərini soyunduğu paltarın cibində saxlamamalı, tanımadığı şəxslərin təklif etdiyi qonaqlıqdan, xüsusilə, içki, papiros, siqaret və digər şeylərdən imtina etməli, xüsusilə, sərhəd rayonlarında onlarla birlikdə şəkil çəkdirməməlidir. Sonrakı bəndlərdə ezam olunan vətəndaşlara gömrük və sərhəd məntəqəsində, mehmanxana və onlar üçün icarə edilmiş evlərdə, ezam olunduqları ölkələrdə onlara verilmiş tapşırıqları yerinə yetirmək üçün necə hərəkət etmələri barədə təlimatlar verilirdi. Ezamiyyətdə olan Azərbaycan vətəndaşlarına şübhəli bar, kafe və restoranlara getmək, antisovet ədəbiyyat oxumaq, antisovet xarakterli kino, teatr tamaşalarına, sərgilərə getmək, rəsmi tədbirlər istisna olmaqla spirtli içkilər qəbul etmək, həmin ölkədə fəaliyyət göstərən xaricilərlə əlaqəyə girmək, tanış olmayan şəxslərlə gecə gəzintilərinə çıxmaq və sair qəti şəkildə qadağan edilirdi. Hər hansı xoşagəlməz hadisələr, hücum və təhqir halları baş verdikdə xaricdə olan Azərbaycan SSR-in vətəndaşı bu haqda dərhal Sovet konsulluq və diplomatik idarələrinə məlumat verməli idi.[28]

[28] "Xaricə ezam olunan Azərbaycan SSR vətəndaşları üçün qaydalar. 06.03.1945.// ARDA, f.28c, s.4c, i.14,

Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsinin 1945-ci ilin aprel ayında hazırladığı digər bir sənəd "Xarici diplomatik nümayəndəliklərin, onların əməkdaşlarının və onlara bərabər tutulan şəxslərin qeydiyyatı haqqında qaydalar"dan ibarət idi. Xarici İşlər Xalq Komissarı M. Əliyev və Daxili İşlər Xalq Komissarı M. T. Yaqubov tərəfindən təsdiq edilən qaydalarda göstərilirdi ki, xarici dövlətlərin Azərbaycan SSR hökuməti yanında akkreditə olunmuş bütün diplomatik nümayəndəliklər, onların üzvləri, həyat yoldaşları və 18 yaşına çatıb, ailə qurmamış qızlar diplomatik korpusun siyahısına daxil edilməli və Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığından diplomatik kart almalıdırlar. Diplomatik kart onlara pasport almadan Azərbaycan SSR-in ərazisində yaşamaq izni verirdi və onlar milis orqanlarında qeydiyyata düşmür, Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsi onların pasportlarına ştamp vurmurdu. Azərbaycanda öz fəaliyyətini başa çatdırdıqda və ya respublikanın ərazisində digər təyinat aldıqda diplomatik korpusun üzvləri öz diplomatik kartlarını Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsinə təhvil verməli idilər. Sənədə görə, Azərbaycan SSR-in diplomatik əlaqə saxladığı dövlətlərin respublikada akkreditə olunan diplomatik nümayəndəliklərinin başçıları və Azərbaycana səfər edən xarici dövlətlərin hökumət üzvləri, nümayəndə heyətlərinin başçıları Azərbaycan SSR ərazisində harada qalmalarından asılı olmayaraq, xaricilərə verilən qeydiyyat sənədini almaqdan azad edilir və milis orqanlarında qeydiyyata düşmür, Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsində onların pasportlarında hər hansı qeydiyyat aparılmırdı. Sənəddə qeyd olunurdu ki, Azərbaycan SSR-də fəaliyyət göstərən diplomatik nümayəndəliklərin üzvü olan xarici vətəndaşlar və onların ailə üzvləri Sovet İttifaqında işə qəbul olunsaydılar, səfirlik və diplomatik missiyaların ərazisindən kənarda yaşadıqları halda, onlar ümumi qaydada xaricilərə verilən yaşayış izni haqqında sənəd alıb, müvafiq orqanlarda qeydiyyata düşməli idilər. Xarici səfirlik və missiyalarda çalışan Azərbaycan SSR vətəndaşları diplomatik nümayəndəliyin ərazisində yaşadığı halda, respublika Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsindən 4 saylı forma alıb, milis orqanlarında qeydiy-

yata düşməli idilər. Həmin ərazidən kənarda yaşadıqları halda, Azərbaycan SSR-də mövcud olan pasport qaydalarına tabe olmalı idilər. Azərbaycan XİXK-in Protokol şöbəsi xarici səfirlik və missiyaların əməkdaşlarını, onların Bakıya gəldikləri gündən başlayaraq, bir gün ərzində pasportla təmin etməli idi. Yeni təsdiq edilən qaydalara görə, Azərbaycanda akkreditə olunan diplomatik nümayəndəliklər ildə iki dəfə (yanvar ayının 1-də və iyul ayının 1-də) özlərinin xarici və yerli işçilərinin tam siyahısını Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsinə təqdim etməli idilər. Qeyd edilən tarixlər arasında diplomatik korpusun şəxsi heyətinin tərkibində baş vermiş dəyişikliklər bu siyahılarda öz əksini tapmalı idi. Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsi səfirliklərin və missiyaların başçılarına verilmiş diplomatik kartlar haqqında məlumatı, bu sənədə əlavə edilmiş pasport məlumatlarını, diplomatların fotoşəkillərini və onlar haqqında zəruri məlumatlarla birlikdə Dövlət Təhlükəsizliyi və Daxili İşlər Xalq Komissarlığına təhvil verməli idi. Eyni zamanda, şöbə səfirlik və missiyalarda yeni işə qəbul olunan əməkdaşlar yuxarıda qeyd edilən komissarlıqlarda qeydiyyatdan keçməli idi.[29] Təxminən buna bənzər bir qaydalar Xarici İşlər Xalq Komissarı M.Əliyev və Daxili İşlər Xalq Komissarı M.Yaqubov tərəfindən 1945-ci ilin aprel ayının 23-də Azərbaycan SSR ərazisində fəaliyyət göstərən konsulluq idarələri üçün də təsdiq edilmişdi. Birinci sənəddən fərqli olaraq, konsulluq idarələri şəxsi heyətin tərkibində baş verən dəyişikliklər haqqında ildə iki dəfə (yanvar ayının 1-i və iyul ayının 1-də) müvafiq qaydada komissarlığa hesabat təqdim etməklə yanaşı, onlar hər ayın 1-də şəxsi heyətin tərkibində baş verən hər hansı dəyişikliklər barədə də Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsini məlumatlandırmalı idilər.[30] Azərbaycan Sovet Respublikasına gələn diplomatik nümayəndəliklər və respublikadan xaricə ezam olunan vətəndaşlar haqqında hüquqi – normativ sənədlərin hazırlanıb, təsdiq edilməsi Xarici İşlər Xalq Komissarlığının, onun Protokol – Konsulluq şöbəsinin fəaliyyətinə əməli xarakter verdi. 1945-ci ilin iyun ayında XİXK-in təklifi üzrə,

[29] Xarici diplomatik nümayəndəliklərin, onların əməkdaşlarının və onlara bərabər tutulan şəxslərin qeydiyyatı haqqında qaydalar. 11.04.1945.// ARDA, f.28c, s.4c, i.14, v.15-18

[30] Azərbaycan SSR-də konsulluq nümayəndəliyinin, onların əməkdaşlarının və onlara bərabər tutulan şəxslərin qeydiyyatı haqqında qaydalar. 13.04.1945.// ARDA, f.28c, s.4c, i.14, v.20-21

SSRİ Daxili İşlər Xalq Komissarlığı sərhəd dairələrinin rəislərinə göstəriş vermişdi ki, Sovet sərhədlərinin pozulması halları, sərhəd sularının bölünməsi zamanı meydana çıxan mübahisələr və qonşu dövlətlərin sərhəd rayonlarında mal-qaranın kütləvi xəstələnməsi və epidemiya halları barədə məlumatları müttəfiq respublikaların Xarici İşlər Xalq Komissarlıqlarına da göndərsinlər.[31]

1945-ci ildə Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı ayrı-ayrı xarici dövlətlərin bir sıra nümayəndə heyətləri və siyasi xadimlərinin respublikaya səfərlərini, onların qəbulu və yola salınma mərasimlərini təşkil etmişdi. Bunlardan ən mühümü 1945-ci ilin fevral ayında Britaniya parlamentinin nümayəndə heyətinin Bakıya səfəri idi. Azərbaycan SSR Ali Sovetinin tapşırığı ilə protokol qaydasında Britaniya parlamentinin üzvlərinin qarşılanması Xarici İşlər Xalq Komissarlığına həvalə edilmişdi. Bu tapşırığa uyğun olaraq, İngiltərə parlamentinin nümayəndə heyətinin Bakıda qarşılanması, onların yola salınması tədbirləri, Respublikada olduqları müddətdə onların görüşlərinin proqramı Protokol şöbəsi tərəfindən qabaqcadan tərtib edilmiş və Komissarlığın rəhbərliyi tərəfindən təsdiq edilmişdi. İdarə və müəssisələrdə keçirilən bütün görüşlərdə, habelə, şəhərlə tanışlıq zamanı respublikanın rəhbər işçiləri ilə yanaşı, Xarici İşlər Xalq Komissarlığının əməkdaşları da britaniyalı qonaqları müşayiət etmişdilər.[32]

1945-ci ilin may ayında İranın SSRİ ilə dostluq cəmiyyətinin nümayəndə heyətinin Azərbaycana on günlük səfərinin bütün proqramı Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsi tərəfindən hazırlanmışdı. Tərkibində Cənubi Azərbaycan ziyalıları, İran Məclisi üzvləri, ölkənin alim, şair, yazıçı, müəllim, həkim, tacir və digər tanınmış şəxsləri olan nümayəndə heyəti Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 25-ci ildönümü tədbirlərində iştirak etmək üçün respublikaya dəvət edilmişdi. Səfər zamanı onlar Bakının bir sıra muzeylərinə baş çəkdilər, teatr tamaşalarına baxdılar, ali

---

[31] S.Kavtaradzenin M.Əliyevə məktubu. 18.06.1945.// ARDA, f.28c, s.4c, i.7, v.69

[32] Azərbaycan SSR XXİK-nın Protokol-Konsulluq şöbəsinin 1945-ci ildə fəaliyyəti haqqında hesabat. 1945.// ARDA, f.28c, s.4c, i.15, v.4-5

təhsil məktəblərində, mədəniyyət və sənaye müəssisələrində görüşlər keçirdilər. Xarici İşlər Xalq Komissarlığı əməkdaşlarının müşayiəti ilə Kirovabada (Gəncə) səfər edən İran ictimaiyyətinin nümayəndələri şəhər ətrafındakı kolxoz və sovxozlarda oldular.[33] Bütün bu görüşlərdən məqsəd Sovet hakimiyyəti illərində Azərbaycanın siyasi, iqtisadi və mədəni sahədə əldə etdiyi uğurları, Azərbaycan Sovet Respublikasının timsalında, bütövlükdə, sovet ictimai quruluşunun üstünlüklərini İranlı qonaqlara göstərmək idi. İran nümayəndə heyətinin Bakıya gəlişi Almaniya üzərində qələbə günlərinə təsadüf etdiyindən, may ayının 12-də nümayəndə heyətinin adından marşal Stalinə təbrik teleqramı göndərildi. Orada deyilirdi: "Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 25-ci ildönümü bayramında iştirak edən İran nümayəndələri faşizmin darmadağın edilməsi və Qırmızı Ordunun bayrağı altında bütün dünyanın xilasına çevrilən azadlıq işinin qəti qələbəsi münasibəti ilə öz sevincini ifadə edir və bu münasibətlə Sovet xalqını, onun qəhrəman dahi rəhbərini salamlayırlar".[34] Teleqramı Məhəmmədəli Səfvət, Səid Nəfisi, Seyid Cəfər Pişəvəri, Sədəqyani, Hacı Məhəmməd Naxçıvanı, Təbatəbai, Hüseyn Qolqolabi, Hüseyn Cövdət, Hüseyn Həriri, Dibac, Quluxan Borçalı, Hüseynqulu Katibi, Mahmud Turabi, Mehdi Ədl, Sədr Qazi, Məhəmməd Biriya və digərləri imzalamışdılar.[35]

Qeyd edilən nümayəndə heyətləri ilə yanaşı, 1945-ci ilin yazında və yayında xarici dövlətlərin ayrı-ayrı siyasi xadimləri, diplomatları və yüksək rütbəli hərbiçilərinin Bakıya və ya Azərbaycan üzərindən Sovet İttifaqına səfərləri olmuşdu. Məsələn, 1945-ci ilin yanvar ayının 13-də Fransanın SSRİ-yə təyin edilmiş səfiri Fransa milli müqavimət hərəkatının fəal iştirakçılarından biri olan general Jorj Katru, məhz, təyinat yerinə - Moskvaya Azərbaycan Xarici İşlər Xalq Komissarlığının əməkdaşlarının müşayiəti ilə Bakıdan hərəkət etməli olmuşdu.

---

[33] Yenə orada, v.5-6

[34] Azərbaycana SSR-ə səfər edən İran nümayəndə heyətinin marşal Stalinə teleqramı. 12.05.1945.// ARDA, f.28c, s.6c, i.4, v.40

[35] İran və Cənubi Azərbaycan ziyalılarının Sovet Azərbaycanına səfəri haqqında ətraflı məlumat üçün bax: Bax: C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.62-65

1945-ci ilin mart ayında Londonda olan Çexoslvakiya mühacir hökumətinin başçısı E.Beneş Moskvada Stalinlə planlaşdırılan danışıqlara Bakıdan hərəkət etmişdi. Bu səfər zamanı E.Beneşi və onu müşayiət edən Çexoslovakiyanın Baş Naziri Zdenek Fierlinqeri, Xarici İşlər Naziri Yan Masariki və digər şəxsləri Azərbaycan Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsi qəbul edib, Moskvaya yola salmışdı.[36]

Bu görüşlərdə qarşılanma və yola salma mərasimlərində aparılan müzakirələr və müşahidələr barədə Xarici İşlər Xalq Komissarlığının əməkdaşları Komissarlığın rəhbərliyinə və respublikanın dövlət və hökumət orqanlarının başçılarına geniş hesabatlar hazırlayırdılar. Həmin hesabatlar əsasında xarici ölkələrin nümayəndə heyətlərinin və ayrı-ayrı siyasi xadimlərinin Azərbaycanda olmaları barədə tərtib edilən ətraflı arayışlar SSRİ XİXK-ə göndərilirdi. Bütün bunlarla yanaşı, yeni yaradılan Azərbaycan SSR XİXK-in əsas fəaliyyət istiqaməti Cənubi Azərbaycana və bütövlükdə, İrana münasibətdə həyata keçirilən Sovet siyasətində fəal iştirak etməkdən ibarət idi.

§2. İran və Türkiyədə Moskvanın siyasətinin fəallaşması və Sovet Azərbaycanı

1945-ci ilin ilk günləri Cənubi Azərbaycanda İran Xalq Partiyasının əyalət təşkilatının gücləndirilməsi ilə başladı. Həmin günlərdə Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığının və respublikadan İrana ezam olunmuş hərbi, siyasi və diplomatik işçilərin qarşısında duran başlıca vəzifə Tudə partiyasının Azərbaycan təşkilatını kütləviləşdirməkdən ibarət idi. 1945-ci ilin əvvəllərində Tehrandakı Sovet səfirliyinin V.Molotov, A.Mikoyan, L.Beriya, G.Malenkov və A.Şerbakova göndərdiyi məlumatda qeyd edilirdi ki, İran Xalq Partiyasının Təbriz təşkilatının 9500 nəfər üzvü vardır və öz üzvlərinin sayına görə, Tudənin Təbriz əyalət təşkilatı, hətta, Tehran şəhər təşkilatından da böyükdür.[37] 1945-ci

---

[36] Bax: Yenə orada, v.5

[37] Tehrandakı Sovet səfirliyinin İran Xalq Partiyasında vəziyyəti haqqında V.Molotov, A.Mikoyan, L.Beriya,G.Malenkov və A.Şerbakova məlumatı" 1945./ RDSSTA, f.17, s.128, i.818, v.202

ilin yanvar ayının 11-də Təbrizdə tudəçilərin Azərbaycan təşkilatlarının birinci əyalət konfransı işə başlamışdı və Sovet Azərbaycanı orqanlarının ciddi şəkildə maraqlandığı bu tədbirdən əsas məqsəd İran Xalq Partiyasının yerli orqanlarını təşkilatlandırmaqdan ibarət idi. Tudəçilərin Təbriz konfransı işə başlayana qədər İran Xalq Partiyasının nə mərkəzi, nə də əyalət təşkilatlarının işi İrandakı Sovet idarələrini qane etmirdi. "Cənubi Azərbaycan haqqında" hazırladığı geniş arayışda H. Həsənov qeyd edirdi ki, Xalq Partiyası təşkilat baxımından Azərbaycan əyalətində hələ zəifdir və partiyanın yerli təşkilatının yetərli sayda siyasi cəhətdən hazırlıqlı rəhbər kadrları, əhali içərisində geniş təbliğat işləri apara biləcək təbliğatçı kadrları, hətta, öz mətbuat orqanı, belə, yoxdur.[38] Bütövlükdə, 1941-ci ilin sonlarında formalaşdırılan Xalq Partiyası intriqalar içərisində boğulurdu. Cənubi Azərbaycanda böyük işlər planlaşdırıldığından, Sovet xüsusi xidmət orqanları müxtəlif gizli yazışmalarında İrandakı köhnə bolşevikləri Qərb dövlətlərin casusu adlandıraraq, onları işə yaxın buraxmamağa üstünlük verirdilər. İlk dövrlərdə köhnə kommunistlərdən daha çox Əbdülsəməd Kambəxşə və Sərtibpur adı altında İranda partiya işi aparmış Artaşes Ovanesyana etibar edilirdi. Onların hər ikisi Moskva ilə bağlı adamlar idi. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Xalq komissarı S.Yemelyanovun A.Ovanesyan haqqında hazırladığı məlumatda bildirilir ki, o, 1924-cü ildə İKP-yə daxil olub, 1926-cı ildə Moskvaya Şərq Zəhmətkeşlərinin Kommunist universitetinə oxumağa göndərilmiş və İrana qayıtdıqdan sonra 1930-cu ildə həbs edilmişdi. Məlumatda qeyd edilirdi ki, 1941-ci ilin noyabrında həbsdən azad edilən Ovanesyan Tudə partiyasının rəhbər heyətinə seçilmişdi. S.Yemelyanov yazırdı: "A.Ovanesyan 1944-cü ildə bizim köməyimizlə İran Məclisinin deputatı olub... Onun fəaliyyətində, Xalq Partiyasının MK-sı adından apardığı tədbirlərdə solçu xarakterli təxribatlar müşahidə edilir".[39] Azərbaycan təhlükəsizlik orqanlarının köhnə bolşeviklərlə ciddi şəkildə maraqlanması qarşıdakı planlarla bağlı idi. 1944-cü ilin avqust ayında İran Xalq Partiyasının I qurultayında partiyanın rəhbər orqanlarına seçilmiş Rza Radmaneş, İrəc

[38] H.Həsənov.Cənubi Azərbaycan haqqında arayış. 13.02.1945.// ARPİİ SSA, f.1,s.89, i.108.v.69-73
[39] S.Yemelyanovun A.Ovanesyan haqqında arayışı. 1945.// ARPİİ SSA, f.1, s.89, i.95, v.69-70

İsgəndəri, Nurəddin Əlamuti, Məhəmməd Bəhrami, Pərvin Qonobadi, Artaşes Ovanesyan, Ehsan Təbəri, Əbdülsəməd Kambəxş, Əli Əmir Xizi, Mürtəza Yəzdi, Nirəddin Kiyanuri, Ziya Əlamuti, doktor Keşavərz, Baqrati və digər Tudə rəhbərləri, xüsusilə, qurultaydan sonra formalaşdırılan İ. İsgəndəri, M.Bəhrami, N. Əlamuti,A. Ovanesyan və Ə.Əmir Xizidən ibarət olan İXP MK-nın Siyasi Bürosu partiyanın Azərbaycan əyalət təşkilatının gücləndirilməsindən bir qədər ehtiyat edirdilər. [40] Lakin Sovet orqanlarının güclü təzyiqləri qarşısında onlar buna mane ola bilmədikdə, elə etmək istəyirdilər ki, Tudənin Azərbaycan əyalət təşkilatı onların rəhbərliyi altında güclənsin. Cənubi Azərbaycana münasibətdə Tudə rəhbərləri ilə İrandakı Sovet idarələri arasında fikir ayrılıqları getdikcə dərinləşirdi. Sovet İttifaqının 1944-cü ilin axırlarından başlayaraq, Xalq Partiyasının Azərbaycan təşkilatının gücləndirilməsi xətti, Tudə rəhbərlərinin ehtiyat etdiyi İranın parçalanması ehtimalından doğulurdu. 1945-ci ilin yanvar ayında Təbrizdə Xalq Partiyasının Azərbaycan əyalət təşkilatının konfransının keçirilməsi Sovet İttifaqının əlaqədar orqanlarının ideyası olduğundan, bu tədbir Bakıdan Cənubi Azərbaycana ezam olunmuş siyasi işçilərin rəhbəri H. Həsənovun və bilavasitə, Təbrizdəki SSRİ Baş konsulu F.Matveyevin nəzarəti altında idi. Baş konsul bu konfrans barədə, konfransın qəbul etdiyi qərarlar barədə SSRİ Xarici İşlər Komissarlığına və M.C.Bağırova geniş hesabat göndərmişdi.[41] Hesabatda hər şey dəqiqliklə verilmişdi. Azərbaycanın müxtəlif şəhər və şəhristanlarından gələn 148 nəfər nümayəndənin iştirak etdiyi əyalət konfransının birinci iclası yanvarın 11-də səhər açılmışdı. Hacı Mirzə Əli Şəbüstəri, Sadıq Padeqan, Əhməd İsfahani, Nurulla Yekani, Mirqasım Çeşmazər konfransın sədri, Əli Əmir Xizi, Məhəmməd Biriya, Xəlil Maleki fəxri sədr və daha beş nəfər katib seçildilər.[42] Konfransın açılışında çıxış edən Əmir Xizi bildirdi ki, Tudə Partiyasının Mərkəzi Komitəsi İran hakimiyyətinin qeyri-qanuni hərəkətlərinə qarşı

---

[40] Tehrandakı Sovet səfirliyinin İran Xalq Partiyasında vəziyyət haqqında V.Molotov, A.Mikoyan, L.Beriya.G.Malenkov və A.Şerbakova məlumatı. 1945.// RDSSTA, f.17, s.128, i.818, v.208-9

[41] F.Matveyevin SSRİ XXİK-na hesabatı. Surəti M.C.Bağırova. 1945.//ARPİİ SSA, f.1, s.89, i.94, v.1-61

[42] Yenə orada, v.1-2

mübarizədə Azərbaycan əyalətinə böyük ümidlər bəsləyir. 1944-cü ilin iyul ayında seçilmiş əyalət komitəsinin 7 aylıq hesabatı ilə komitənin sədri S. Padeqan məruzə etmişdi.[43] Məruzədə və çıxışlarda xeyli tənqidi fikirlər söylənmişdi. Konfransın qətnaməsində Əyalət Komitəsinə tapşırılırdı ki, şəhərlə kənd təşkilatları arasında əlaqələr gücləndirilsin, həmkarlar təşkilatlarında, fabrik və zavodlardakı partiya özəklərində, İran əsgərləri arasında işlər genişləndirilsin. Konfransda irtica və mülkədarların özbaşınalığına qarşı mübarizəni gücləndirmək barədə qətnamə qəbul edildi. Qətnamədə göstərilirdi: "Mərkəzi İran hakimiyyəti orqanları mülkədarların özbaşınalığına qarşı heç bir tədbir görmədikcə, Xalq Partiyasının üzvlərinə qarşı zorakılıq törədən mülkədarları biz özümüz cəzalandıracağıq". Əyalət Komitəsi sədrinin məruzəsindən aydın olur ki, Tudə Partiyasının Mərkəzi Komitəsindən Azərbaycan firqəçilərinin müəyyən narazılıqları vardı. "Cənubi Azərbaycanda vəziyyət haqqında" hazırlanmış arayışda göstərilirdi ki, Xalq Partiyasının Tehrandakı rəhbərliyi və onun Mərkəzi Komitəsində ingilislər tərəfindən qoyulmuş adamlar vardır və onlar, nəinki, Cənubi Azərbaycanda köklü dəyişikliklərə maraqlı deyillər, eyni zamanda Azərbaycan xalqının hər hansı milli xüsusiyyətlərinin əleyhinədirlər. Konfransda verilən məlumata görə, 1944-cü ilin yayı ilə müqayisədə Azərbaycanda Xalq Partiyasının üzvlərinin sayı sürətlə artmışdı. Azərbaycan sovet orqanlarının məlumatına görə, Xalq Partiyasının Azərbaycan təşkilatının 1945-ci ilin əvvəllərində 43 716 nəfər üzvü var idi. Bundan 4 812 nəfəri fəhlə, 31 948 nəfəri kəndli, 2 619 nəfəri sənətkar və ziyalı idi.[44]

Konfrans gizli səsvermə ilə 25 nəfərdən ibarət Əyalət Komitəsini, 7 nəfərdən ibarət Rəyasət Heyətini və 7 nəfərdən ibarət təftiş komissiyasını seçdi.[45] Ən çox səs alan M. Biriya oldu. O, 124 səs, Əmir Xizi – 122 səs, M. Çeşmazər – 121 səs, S. Padeqan – 118 səs, N. Yekani – 115 səs, D. Gevorkyan – 114 səs, Ə. Şəbüstəri – 106 səs, Qulam Yəhya Daneşian – 92 səs və s. almışdılar. Konfransdan sonra H. Həsənov Ərdəbil, Meşkinşəhr, Sərab, Astara, Xoy, Miandab, Miyanə və digər

[43] Bax: ARPİİ SSA f.1, s.89, i.108, v.39
[44] Bax: ARPİİ SSA f.1, s.89, i.94, v.13
[45] H.Həsənov.Cənubi Azərbaycan haqqında arayış. 13.02.1945.// ARPİİ SSA, f.1,s.89, i.108.v.39

yerlərdən gələn nümayəndələrlə görüşüb, yerlərdəki vəziyyəti müzakirə etmiş, onlara tövsiyələr vermişdi. Bu müzakirələrin gedişində azərbaycanlıların bütün İran əhalisinin 1/3-dən çoxunu təşkil etməsinə, 6 milyondan çox olmasına baxmayaraq, öz uşaqlarını ana dillərində oxuda bilməmələrinin acınacaqlı hal olduğu qeyd edilmiş, ana dilində təhsilə nail olmağın zəruriliyi göstərilmişdi.[46]

Təbrizdən F.Matveyevin konfransla bağlı Bakıya göndərdiyi sənədlərlə, xüsusilə, İran Xalq Partiyasının əyalət təşkilatının konfransının protokolu ilə tanış olduqdan sonra M.C.Bağırov müxtəlif rəngli qələmlərlə sənəd üzərində qeydlər aparmışdı. Konfransın gedişində adı çəkilən adamlarla bağlı müəyyən məsələləri öyrənməyi tövsiyə etmişdi.[47] Bakıdan göndərilmiş siyasi işçilərin və Sovet diplomatik idarələrinin bilavasitə, iştirakı ilə Tudə Partiyasının Azərbaycan əyalət konfransında başlanan yeniləşmə işləri 1945-ci ilin avqust-sentyabr aylarında Azərbaycan Demokrat Firqəsinin yaranması ilə tamamlandı.

Cənubi Azərbaycanda siyasi işi gücləndirmək və mədəni-kütləvi tədbirləri genişləndirmək üçün Azərbaycanı K(b)P MK-nın 1945-ci ilin yanvar ayında keçirilən büro iclaslarında bir sıra qərarlar qəbul edildi. Təbrizdə mədəni tədbirləri və təbliğat işlərini gücləndirmək üçün 1944-cü ildə Cənubi Azərbaycana ezam edilmiş Sovet Azərbaycanı işçilərinə əlavə olaraq, büronun qərarı ilə Məmməd Şərifli, Salam Salamzadə, H.Sadıxlı də Təbriz mədəniyyət evinə işləməyə göndərildilər. ÜİK(b)P MK-dan xahiş edildi ki, bu şəxslərin Təbrizə göndərilməsi məsələsini həll etsinlər.

1945-ci ilin yanvar ayının 19-da ÜİK(b)P MK Cənubi Azərbaycandan olan gənclərin Sovet Azərbaycanının ali məktəblərində təhsil almalarına razılıq verən qərar qəbul etmişdi. M.C.Bağırovun tapşırığı əsasında, hələ, 1944-cü ilin noyabrında Azərbaycan Xalq Komissarları Soveti, Xarici İşlər, Maliyyə, Ticarət, Maarif Xalq Komissarlıqları, Tibb İnstitutu, Azərbaycan Dövlət Universiteti, Azərbaycan

---

[46] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.307-313

[47] İran Xalq Partiyasının Azərbaycan Əyalət Komitəsinin rəhbərliyinə seçilən şəxslər haqqında geniş məlumat üçün bax: ARPİİ SSA f.1, s.89, i.85, v. 1-61

Sənaye İnstitutunun rektorları və Bakı Şəhər İcraiyyə Komitəsinin rəhbərliyi ilə birlikdə bu məsələni ətraflı öyrənməyə başlamışdılar. Araşdırmalar nəticəsində qərara gəlmişdilər ki, Sovet Azərbaycanı ali məktəblərində Azərbaycan dilində oxumaq istəyən Cənubi azərbaycanlı gənclərin arzusu təmin edilə bilər. Tehrandakı səfir M.Maksimova məlumat verilmişdi ki, Azərbaycan Tibb İnstitutunun müalicə, pediatriya, sanitariya və farmakologiya, Azərbaycan Sənaye İnstitutunun mühəndis, iqtisadiyyat, geoloji-kəşfiyyat, memarlıq-tikinti fakültələrində, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almaq arzusunda olan cənublu gənclər Moskvadan müvafiq razılıq olan kimi, Bakıya oxumağa gələ bilərlər. Sovet İttifaqında təhsil almaq istəyən İran ermənilərı tələbələri ilə bağlı Azərbaycan SSR XİXK tərəfindən M.Maksimova bildirilmişdi ki, bu məsələni SSRİ Xarici İşlər Xalq Komissarlığı vasitəsi ilə həll edib, onların Ermənistan SSR-in ali məktəblərində oxumasını təmin etsin.

Aparılan müzakirələr nəticəsində qərara alınmışdı ki, Təbrizdən gələn tələbələr kiril əlifbası və rus dilini öyrənmək üçün Azərbaycan Dövlət Universitetinin nəzdində bir illik hazırlıq kurslarında təhsil alıb, sonra ali məktəblərə qəbul olunsunlar. Bu qərarla bağlı komissiya Təbrizdəki vitse-konsul Həsən Həsənova məlumat verilmişdi ki, Bakıda oxumaq istəyən 39 nəfər Cənubi azərbaycanlı gənci və Təbriz valisi Dadvərin iki qızını Azərbaycan ali məktəbləri qəbul etməyə hazırdırlar. Azərbaycan SSR Ticarət Xalq Komissarlığına göstəriş verilmişdi ki, milli mətbəx nəzərə alınmaqla, Cənubi Azərbaycandan gələn gənclərin ərzaqla təmin olunması məsələlərini həll etsin.[48] Azərbaycan K(b)P MK Bürosu ÜİK(b)P MK-nın respublika ali məktəblərinə Cənubi Azərbaycandan tələbə qəbul edilməsi ilə bağlı qərarın icrasının məsuliyyətini Azərbaycan Kommunist Partiyasının katibi Soltan Qafarzadə, Xarici İşlər Xalq Komissarı Mahmud Əliyev, Xalq Komissarları Soveti Sədrinin müavini Əzizağa Əzizbəyov, Maarif Xalq Komissarı Mirzə İbrahimov, Dövlət Təhlükəsizliyi Xalq Komissarı Stepan Yemelyanov və Azərbaycan K(b)P

[48] Təbrizdəki vitse- konsul H.Həsənova məktub. 1945.//ARPİİ SSA f.1, s.89, i.91, v.193-194

MK-nın ali təhsil və məktəblər şöbəsinin müdiri Musa Əliyevin üzərlərinə qoydu.[49]

1945-ci ilin martında Azərbaycan K(b)P MK Bürosu bu məsələ ilə bağlı SSRİ Xarici İşlər Xalq Komissarlığından ziddiyyətli göstəriş aldığından, habelə, Təbrizdəki sovet məktəbi və mədəniyyət evi ilə bağlı bir sıra məsələləri həll etmək üçün Cənubi Azərbaycandakı xüsusi tapşırıqla işləyən siyasi işçilərin rəhbəri, 1945-ci ilin yanvar ayının sonlarında Təbrizdən geri çağırılmış AK(b)P MK katibi H. Həsənovu Moskvaya ezam etdi.[50] O, SSRİ Xarici İşlər Komissarının müavini Sergey Kavtaradze ilə görüşüb, bütün bu məsələləri müzakirə etməli idi.

Lakin Moskvadan xüsusi icazəni gözləmədən Təbrizdən gələn 40 nəfər tələbəyə xidmət göstərmək üçün Azərbaycan K(b)P MK Bürosu xüsusi qərar qəbul etməli oldu. Qərara görə, tələbələr yaşayış yerilə, gündə 700 qram çörək daxil olmaqla, dörd dəfə yeməklə, paltar və ayaqqabı, təqaüdlə və s. təmin edilməli idilər. M.C.Bağırovun göstərişi ilə Cənubi Azərbaycandan gələn qızlar üçün Azərbaycan Sənaye İnstitutunun qızlar yataqxanasında ayrıca otaqlar ayrılmışdı. Bütövlükdə, Cənubdan gələn tələbələri yerləşdirmək üçün müxtəlif yerlər təklif edilsə də, son nəticədə onların təhsil aldığı ali məktəblərə yaxın olan "Şərq" mehmanxanasında 18 otağın ayrılmasına qərar verildi. Ayrıca giriş qapısı olan bu otaqların mehmanxananın ümumi binasından təcrid edilərək, tələbələrin ixtiyarına verilməsi məqsədəuyğun hesab edildi. Bu mehmanxana eyni zamanda cənublu tələbələri nəzarət altında saxlamaq üçün əlverişli hesab edilirdi. M.C.Bağırov iyul ayının sonlarında onun adına

---

[49] Azərbaycan KP MK Bürosunun qərarı. 1945.// ARPİİ SSA f.1, s.220, i.48, v.161

[50] 1945-ci ilin yanvar ayının sonlarında Bakıdan göndərilən şifirli teleqramla H.Həsənov Təbrizdən geri çağırılmışdı. O, yanvar ayının 29-da Cənubi Azərbaycanı tərk etmiş və fevralın 1-də Azərbaycan K(b)P MK-da Cənubi Azərbaycandakı vəziyyət haqqında M.C.Bağırova geniş məlumat vermişdi. Söhbətin gedişində Bağırov ona bildirmişdi ki, UİK(b)P MK onun İrandakı işindən razıdır, lakin onun qayını Teymur Niyazov cəbhədə əsir düşdüyündən və guya, onun almanlar tərəfə keçməsi barədə məlumat olduğundan Moskvada rəhbərlik belə qərara gəlib ki, düşmənlə əməkdaşlıq edən adamın bacısı və onun həyat yoldaşı xaricdə qala bilməz. H. Həsənov Bakıda Azərbaycan KP MK-nın üçüncü katibi kimi fəaliyyətini davam etdirir və bilavasitə, Cənubi Azərbaycan məsələləri ilə məşğul olurdu. Lakin Cənubi Azərbaycanda işlər genişləndikdən sonra, 1945-ci ilin sentyabr ayının sonunda "Bakı üçlüyünün" tərkibində o, M.İbrahimov və A.Atakişiyevlə birlikdə yenidən Təbrizə ezam edildi. Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.319-322

yazılmış bu təkliflə razı olduğunu bildirdi.[51] Xalq Komissarları Soveti Sədrinin müavini Ə.Əzizbəyova tapşırıq verilmişdi ki, Cənubi Azərbaycandan gələn tələbələrə xidmət etmək üçün xüsusi olaraq, bir avtomaşın ayırsın. Bu tələbələrin ideya-siyasi tərbiyə işləri ilə bağlı əlaqədar təşkilatlara müvafiq göstərişlər verilmişdi.[52] Hadisələrin sonrakı gedişi nəticəsində Cənubi Azərbaycandan Bakının müxtəlif ali məktəblərinə təhsil almağa gələn gənclərin bir hissəsi öz talelərini əbədi olaraq, Sovet Azərbaycanı ilə bağlamalı oldular.

Təbrizdə Azərbaycan dilində fəaliyyətə başlamış orta məktəbin 1945/1946-cı dərs ilinə hazırlığı ilə bağlı məsələləri təcili həll etmək üçün Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı Mahmud Əliyev, XKS Sədrinin müavini N.Allahverdiyev, Maarif Xalq Komissarı M.İbrahimov, Azərbaycan K(b)P MK-nın ali təhsil və məktəblər şöbəsinin müdiri Musa Əliyevlə birlikdə tədbirlər planı hazırlamışdılar. 1945-ci ilin yayında Təbrizdəki orta məktəbin direktoru Cəbrayıl Ələsgərov bir sıra təxirəsalınmaz məsələlərin həll edilməsi ilə bağlı M.C.Bağırova müraciət etmişdi. Müraciətdə qaldırılan məsələləri həll etmək üçün Bağırov Mir Teymur Yaqubov, Stepan Yemelyanov, Mahmud Əliyev, Musa Əliyev və Rəsul Rzaya tapşırıq vermişdi ki, Təbrizdə Azərbaycan dilində fəaliyyət göstərən Sovet məktəbinin işini təkmilləşdirmək və Cənubi Azərbaycanın digər şəhərlərində Azərbaycan dilində məktəblər açmaq məqsədilə öz təkliflərini versinlər. M.C.Bağırov onlara yazırdı ki, "görünür nə Daxili İşlər Xalq Komissarlığı, nə Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti, nə də digər ittifaq orqanları bizim müraciətlərin mənasını anlamırlar. Biz deyirik ki, oradakı adamların sayını artırmaq lazımdır, daha artıq məktəblər açmaq lazımdır, Azərbaycanın digər rayonlarından adamları cəlb etmək üçün Təbriz məktəbi yanında internat açmaq lazımdır".[53] M.C.Bağırovun bu narahatlığı onunla bağlı idi ki,

---

[51] H.Həsənovun M.C.Bağırova məktubu. 25.07.1945.// ARDA f.28, s.4c, i.9, v.89

[52] Azərbaycan KP MK Bürosunun qərarı. 1945.// ARPİİ SSA f.1, s.220, i.48, v.6-7; Cənubi Azərbaycandan gələn tələbələrin siyahısı üçün bax: ARPİİ SSA f.1, s.220, i.48, v.11-12

[53] M.C.Bağırovun M.Yaqubov, S.Yemelyanov, Mahmud Əliyev, Musa Əliyev və Rəsul Rzaya təlimatı. 1945.// ARDA f.28, s.4c, i.9, v.84

1945-ci ilin yanvar ayında Tehrandakı Sovet səfiri M.Maksimov İranda sovet məktəb şəbəkəsinin genişləndirilməsinin əleyhinə təklif vermişdi. O, hesab edirdi ki, İranda fəaliyyət göstərən 3 Sovet orta məktəbi (Tehranda, Təbrizdə və Pəhləvidə) yetərlidir. Səfirin təklifində Təbrizdəki orta məktəb İran Azərbaycanı, Pəhləvidəki orta məktəb isə Gilan üçün əsas baza olmalı idi. Səfir yazırdı ki, bu ərazilərdə "yeni məktəb açmağa lüzum yoxdur". M. Maksimov yeni məktəblərin açılmasının və mövcud məktəblərin yanında internat şəbəkələrinin qurulmasının baha başa gəldiyini xatırladırdı. Səfirin fikrincə, internat şəbəkəsi qurulacağı halda, SSRİ-dən hər 20 şagirdə bir tərbiyəçi müəllim göndərmək lazım gələcəkdi. O, təklif edirdi ki, əgər 200 min rial vəsait ayrılarsa, ilk internat məktəbi Tehranda açmaq mümkündür. İranda Sovet orta məktəblərinin qurulması barədə səfir M.Maksimovun mülahizələri 1945-ci ilin yanvar ayının 31-də XİXK-in Kadrlar İdarəsinin rəisi M.Silin tərəfindən ÜİK(b)P MK-nin Kadrlar İdarəsi rəisinin müavini E.Andreyeva çatdırıldı.[54] Bütün bunları nəzərə alaraq, M.C.Bağırov Cənubi Azərbaycanda məktəb şəbəkəsinin genişləndirilməsinin əhəmiyyətini ittifaq orqanlarına izah etmək və bütün vasitələrlə Təbrizdəki Sovet orta məktəbini nümunəvi bir təhsil ocağına çevirmək istəyirdi. M.C.Bağırov tərəfindən verilən təlimata uyğun olaraq, C.Ələsgərovun məktubu ilə bağlı görülən işlər barədə Mahmud Əliyev M.C.Bağırovun adına arayış hazırladı. O, məlumat verirdi ki, Təbrizə müəllimlərin göndərilməsi ilə bağlı SSRİ XİXK-in Kadrlar İdarəsinin rəisi M.Silin və Komissarlığın Təhsil Şöbəsinin müdiri Popovkinlə danışıb məsələləri sürətləndirmək üçün onların razılığını almışdır. Eyni zamanda M.Əliyev qeyd edirdi ki, bu məsələ ilə bağlı Azərbaycan K(b)P MK katibi S.Qafarzadə də ÜİK(b)P MK-nın məsul işçisi N.Şatalinə teleqram göndərmişdir. O, Cənubi Azərbaycana dərslik, dərs vəsaiti və məktəbli forması göndərilməsi ilə bağlı məsələlərin yaxın vaxtlarda həll ediləcəyini bildirirdi.[55] Təbrizdə Sovet məktəbi

[54] M.Silinin E.Andreyeva məktubu. 31.01.1945.// RDSSTA, f.17, s.127, i.766, v.15-15arx.
[55] M.Əliyevin M.C.Bağırov üçün hazırladığı arayış. 1945.// ARDA f.28, s.4c, i.9, v.88

ilə bağlı məsələlər ətraflı müzakirə edildikdən sonra Maarif Xalq Komissarı M.İbrahimov məktəbin direktoru C.Ələsgərova məktub göndərdi. Məktubda 1945/1946-cı tədris ili üçün 200 yeni şagird qəbul edilməsinə razılıq verilir, şagirdlərin qızlar və oğlanlardan ibarət ayrıca qruplara bölünməsi məqsədəuyğun hesab edilmirdi, yaxın vaxtlarda kifayət qədər dərslik və dərs vəsaitlərinin onun sərəncamına göndəriləcəyi bildirilir və digər məsələlərin Təbrizdəki SSRİ Baş konsulu ilə həll edilməsi tövsiyə edilirdi.[56]

Təbrizdəki Sovet məktəbi ilə yanaşı, şəhərdə fəaliyyət göstərən Sovet Mədəniyyət evinin işinin genişləndirilməsi Azərbaycan SSR rəhbərliyinin diqqət mərkəzində idi. Mədəniyyət evinin direktoru Əhəd Bağırzadə, onun əməkdaşları memar Həsən Məcidov, ədəbiyyatşünas Cəfər Cəfərov, tarixçi Məmməd Şərifli, rəssamlar Əmir Hacıyev və Kazım Kazımzadə, bəstəkarlar Cahangir Cahangirov və Hacı Xanməmmədov, rejissor İsmayıl Əfəndiyev və digərləri Azərbaycan mədəniyyətinin təbliği sahəsində böyük iş aparırdılar. Mədəniyyət evi öz ətrafına nəinki Təbrizin, eyni zamanda Cənubi Azərbaycanın digər şəhərlərində əhalinin hörmətini qazanmış qabaqcıl nümayəndələri toplamışdı.[57] Təbrizdə Sovet Mədəniyyət evinin təşkil etdiyi sərgilərdə SSRİ-nin və Sovet Azərbaycanının elm, mədəniyyət və sənət sahəsində əldə etdiyi uğurlar, müharibə cəbhələrində Sovet Ordusunun qazandığı qələbələr nümayiş etdirilirdi. Mədəniyyət evi vasitəsi ilə Təbriz ziyalılarının ədəbiyyatşünas Məmməd Arif Dadaşzadə, şair Rəsul Rza ilə görüşləri keçirilmişdi. 1945-ci ilin avqust ayında Sovet Mədəniyyət evində yeni yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının ilk həqiqi üzvlərindən olan Mirzə İbrahimovla keçirilən görüş tədbir iştirakçılarının böyük marağına səbəb olmuşdu. 1945-ci ilin yanvar ayında Sovet Mədəniyyət evinin nəzdində açılmış kitabxana şəhərin mədəni və mənəvi həyatında mühüm rol oynayırdı.[58]

---

[56] M. İbrahimovun C.Ələsgərova məktubu. 1945.// ARDA f.28, s.4c, i.9, v.86-87

[57] Ətraflı məlumat üçün bax: C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.54-55

[58] Bax: Yenə orada, s.58-60

1945-ci ilin yanvar ayında Azərbaycan Kommunist Partiyasının rəhbərliyi respublikada Sovet hakimiyyətinin qurulmasının 25 illiyini Cənubi Azərbaycanda geniş qeyd etməyi qərara almışdı. Yanvar ayının 15-də Tehrandakı Sovet səfiri M.Maksimov M.C.Bağırova yazdığı məktubda xahiş edirdi ki, respublikanı İran ictimaiyyətinə geniş tanıtmaq üçün "Azərbaycan SSR-in 25 illiyi" adlı foto-sərgi, respublikanın xalq təsərrüfatı, sənət və mədəniyyətinin inkişafı, milli kadrlarının hazırlanması, Azərbaycanın Böyük Vətən müharibəsində iştirakı, ölkənin həyatında qadınların rolu, respublikada dinin vəziyyətini əks etdirən kitab, broşür, məqalə və oçerklər, kinofilmlər və s. İrana göndərilməsinə köməklik etsin.[59] M. Maksimovun məktubu ilə əlaqədar M.C.Bağırov Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığına və digər müvafiq orqanlara tapşırıq vermişdi ki, bu məsələ ilə bağlı tədbirlər planı hazırlansın. Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı M.Əliyevin rəhbərliyi ilə S.Vurğun, S.Rəhimov, Y.Kirsanov və Q.Antelepyanın hazırladığı təkliflərə əsasən Azərbaycan K(b)P MK və Respublika Xalq Komissarları Soveti 1945-ci ilin fevral ayında İranda "Azərbaycan SSR-in 25 illiyi" adlı sərgi təşkil etmək barədə qərar qəbul etdi. Bu məqsədlə büdcədən 120.000 manat məbləğində vəsait ayrıldı. Qəbul olunmuş qərara görə, İranda sərginin təşkilinə hazırlıq işləri 1945-ci ilin aprel ayının 1-nə qədər başa çatmalı idi.[60] Eyni zamanda, Mərkəzi Komitənin Bürosu qərara almışdı ki, Azərbaycan SSR-in 25 illiyi münasibəti ilə Cənubi Azərbaycan şairlərinin Stalin, Sovet İttifaqı, Qırmızı Ordu, Böyük Vətən müharibəsi haqqında iki şeirlər kitabı çap edilsin. Hər iki kitabın hazırlanması Səməd Vurğun, Süleyman Rəhimov və Mirzə İbrahimova tapşırılmışdı. Kitablara M.Biriyanın, M.Bağırın, Ə.Fitrətin, Y.Şeydanın, R. Əliyarzadənin, M.Mehdinin, Aşıq Seyid Həsənin, Q.Səbrinin, Ə.Tudənin və digərlərinin şeirləri daxil edilmişdi. Həmin dövrdə M.Biriyanın ayrıca "Ürək sözü" kitabı çapdan

[59] M.Maksimovun M.C.Bağırova məktubu. Yanvar 1945.// ARPİİ SSA f.1, s.89, i.91, v.1
[60] Azərbaycan K(b)P MK Bürosunun və Xalq Komissarları Sovetinin qərarı. Fevral 1945.// ARPİİ SSA f.1, s.89, i.91, v.5

çıxmışdı.[61] Bu kitab 1941-ci ildə nəşr olunmuş "Bəşər" əsəri ilə müqayisədə onun siyasi, ədəbi və bədii cəhətdən inkişaf prosesini aydın şəkildə özündə əks etdirirdi. M. Biriya öz şeirlərini bir qayda olaraq, Azərbaycan dilində yazırdı. 1945-ci ilin ilk günlərində Tehranda olarkən ondan soruşmuşdular ki, "niyə o, öz şeirlərini fars dilində yazmır, niyə o, yalnız Azərbaycan dilində çıxış edir. Biriya cavab vermişdi ki, ona görə, o, Azərbaycan dilində yazır və danışır ki, bu dil onun doğma dilidir və bu dildə yazmaq, bu dildə danışmaq onun üçün asandır".[62]

1945-ci ilin yazında Sovet Azərbaycanının 25 illiyi Cənubi Azərbaycanın bütün şəhərlərində böyük siyasi kampaniyaya çevrildi. Cənubi Azərbaycanda bu tədbirlər "İranın SSRİ ilə Mədəni Əlaqə Cəmiyyəti"nin Təbriz şöbəsi vasitəsi ilə keçirilirdi. Cəmiyyətin təşkil etdiyi bayram tədbirlərində Sovet Azərbaycanının milli mədəniyyətinin inkişafında əldə etdiyi uğurlar xüsusi şəkildə qeyd edilirdi.[63] Cənubdan göndərilən məlumatlarda 28 Aprel münasibəti ilə təntənəli yığıncaqlar, mitinq və nümayişlərin keçirildiyi göstərilirdi. Bu tədbirlərdə İ.Stalin, M.C.Bağırov və Məhəmməd Rza şahın portretləri qaldırılır, onlar fəxri rəyasət heyətinə seçilirdilər. Mir Cəfər Bağırov, Teymur Quliyev və Mirbəşir Qasımova Makudan göndərilən təbrik teleqramında deyilirdi: "Biz eyni kökdən və eyni qandan olan adamlarıq. Bizim qan qardaşlarımızın tarixi qələbələri ürəyimizi sevinc və milli iftixar hissi ilə doldurur. Biz azərbaycanlı qardaşlarımızın bəşəriyyəti azad etmək naminə faşizmə qarşı döyüş cəbhələrində tökdüyü qanı, göstərdiyi qəhrəmanlığı bölüşürük".[64] SSRİ Xarici İşlər Xalq Komissarlığının Orta Şərq şöbəsinin rəhbəri S.Sıçev Azərbaycan SSR-in 25 illiyi ilə bağlı Bəndər-Şahda keçirilən mitinqdə qəbul edilən təbrik teleqramının mətnini may ayının 8-də respublika

---

[61] Azərbaycan K(b)P MK Bürosunun qərarı. 1945.// ARPİİ SSA f.1, s.206, i.2, v.27-28, 200

[62] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.312

[63] Ətraflı məlumat üçün bax: C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.53

[64] Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə bağlı Makudan M.C.Bağırov, T.Quliyev və M.Qasımova göndərilən təbrik teleqramı. Aprel 1945.// ARPİİ SSA f.1, s.89, i.92, v.229

Xarici İşlər Xalq Komissarı M. Əliyevə göndərmişdi.[65] Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.Qasımov və Xalq Komissarları Sovetinin sədri T.Quliyevə ünvanlanmış təbrik teleqramında deyilirdi: "Biz Sovet Azərbaycanının 25 illiyi münasibəti ilə mitinqə toplanan 3 mindən ibarət Bəndər-Şah əhalisi sizdən xahiş edirik, bizim atəşin təbriklərimizi Azərbaycan xalqına çatdırasınız. Azərbaycan xalqı bizim əsrin dahi adamları olan Lenin və Stalinin göstərdiyi yolla gedərək mədəniyyət, elm və xalq təsərrüfatının bütün sahələrində görünməmiş uğurlar əldə etmişlər. Bizə qardaş olan Azərbaycan xalqının bu uğurları qəlbimizi fərəh hissi ilə doldurur. Bu gün Azərbaycan dünyanın mədəni ölkələrindən biridir, biz onun bütün bəşəriyyəti və demokratiyanı hitlerçi vəhşilərdən xilas edən qəhrəman Qızıl Ordunun sıralarında dahi sərkərdə Marşal Stalinin bayrağı altında şücaət göstərən cəsur döyüşçülərinin qəhrəmanlığından fərəh hissi keçiririk".[66] Qeyd etmək lazımdır ki, təbrik teleqramı Bəndər-Şah ictimaiyyətinin nümayəndələri tərəfindən imzalansa da, onun mətninin şəhərdəki Sovet Konsulluğu tərəfindən hazırlandığı aydın hiss edilirdi.

25 illik yubiley tədbirləri ilə bağlı İrandan və Cənubi Azərbaycandan böyük bir nümayəndəlik Bakıya dəvət edilmişdi. Dəvət edilənlər arasında Məhəmməd Biriya, Seyid Cəfər Pişəvəri, Balaş Azəroğlu, doktor Orəngi, Məhəmməd Rəsuli, Hacı Ələkbər Sədəqyani, Səid Nəfisi, Məlikuşüara Bəhar, Hacı Məhəmməd Naxçıvani, Hüseynqulu Kitabi, Mahmud Turabi, Əli Fitrət, Ə. Dibaian, T. Milani, Hüseyn Həriri, İ. Bəzərqan, İsmayıl Dibac, Quluxan Borçalı, Hüseyn Cövdət, Hüseyn Qolqolabi, Əhməd Təbatəbai, doktor Mürtəzəvi, Samii, Məşquti, Məclis üzvləri Mehdi Ədl, Sədr Qazi və digərləri var idi.[67] İran ictimaiyyəti nümayəndələrinin Bakıya səfəri barədə SİTA-nın məlumatı yayılmışdı. Sovet Azərbaycanı rəhbərləri-

---

[65] S.Sıçevin M.Əliyevə məktubu. 08.05.1945.// ARDA f.28, s.6c, i.4, v.42

[66] SSR-nin Bəndər-Şahdakı vitse-konsulu Novikovun S.Kavtaradzeyə teleqramı. 02.05.1945.// ARDA f.28, s.6c, i.4, v.43

[67] "Azərbaycan", 1945, № 1, s.46-47; Ətraflı məlumat üçün bax: Bax: C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.62

nin nümayəndə heyətinin tərkibində Təbrizdən gələnlərə xüsusi qayğı ilə yanaşması Tehrandan gələnlərin diqqətindən yayınmamışdı.[68] Lakin Sovet təhlükəsizlik orqanları İrandan gələn nümayəndələri daim nəzarətdə saxlayır, onlara münasibətdə ehtiyatlılığı əldən vermirdilər. M.C.Bağırovun 1945-ci ilin aprel ayının 26-da Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 25 illik yubiley tədbirinə son hazırlıq işləri ilə bağlı keçirdiyi operativ müşavirənin protokolunda göstərilirdi: "Cənubi Azərbaycandan gəlmiş nümayəndələri banketdə elə oturtmaq lazımdır ki, onların hər iki tərəfində respublikanın məsul işçiləri otursunlar".[69] May ayının 5-də nümayəndələr respublika Ali Sovetinin Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 25 illiyinə həsr edilmiş yubiley sessiyasında iştirak etdilər. Sessiyada nümayəndə heyəti adından S.Nəfisi çıxış edib, 25 il ərzində qazanılan uğurlar münasibəti ilə Azərbaycan xalqını təbrik etdi. Səfər zamanı İrandan gəlmiş nümayəndə heyəti Azərbaycan Dövlət Universitetinin, Elmlər Akademiyası, Nizami və Şirvanşahlar muzeylərində, tibb müəssisələrindəki görüşlərdən sonra Cənubi Azərbaycanın geriliyini təəssüf hissi ilə qeyd etdilər. İranın müxtəlif yerlərindən gəlmiş ziyalılar səfər müddətində Ü.Hacıbəyovun "Koroğlu", M. Maqomayevin " "Şah İsmayıl", Q. Qarayev və C. Hacıyevin "Vətən" operalarına, S. Vurğunun "Vaqif" dramına, Ü. Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasına, M.S.Ordubadinin "Dumanlı Təbriz" romanı əsasında səhnələşdirilmiş tamaşaya baxdılar.[70] Bu səfər zamanı H.Həsənov S.C.Pişəvəri ilə görüşüb, Cənubi Azərbaycanda demokratik və milli-azadlıq hərəkatının inkişaf yollarını müzakirə etdilər.[71] May ayının 15-də Təbrizdən gələn nümayəndələr, bir gün sonra isə Tehrandan gəlmiş qonaqlar Bakıdan İrana qayıtdılar. Sovet Azərbaycanına səfərdə iştirak etmiş tanınmış İran və Azərbaycan

---

[68] Bax: ARPİİ SSA f.1, s.89, i.107, v.97

[69] Azərbaycan K(b)P MK-da keçirilən operativ müşavirənin materialları. 26.04.1945.// ARPİİ SSA f.1, s.230, i.4, v 146

[70] Bax: C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.62-63

[71] Г Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.321

ziyalıları vətənə döndükdən sonra müxtəlif görüşlərdə və mətbuat səhifələrində səfər təəssüratları haqqında məlumatlar verdilər.[72]

Sovet hərbi, siyasi və diplomatik orqanları Cənubi Azərbaycana ezam edilən Sovet Azərbaycanı siyasi işçilərinin və mədəniyyət nümayəndələrinin hərəkətlərini diqqətlə izləyirdilər. SSRİ Xarici İşlər Xalq Komissarının müavini Sergey Kavtaradzenin Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı Mahmud Əliyevə 1945-ci ilin yanvar ayının 11-də göndərdiyi gizli məktub bunun əyani təsdiqi idi. Azərbaycan K(b)P MK Bürosunun müzakirəsinə çıxarılmış məktubda söhbət İrana ezam edilən konsert briqadasına başçılıq etmiş Mərkəzi Komitə katibinin müavini Ənnağı Babayevin buraxdığı nöqsanlardan gedirdi. Bu barədə Təbrizdəki baş konsul F. Matveyev SSRİ Xarici İşlər Xalq Komissarlığına geniş hesabat göndərmişdi.[73] Hesabatda göstərilirdi ki, 1944-cü ilin payızında M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının, Dövlət Filarmoniyasının artistləri iki ay ərzində Cənubi Azərbaycanda 87, o cümlədən 10 pulsuz konsert vermişdir. Tehran, Təbriz, Qəzvin, Ərdəbil, Mərənd, Maku, Xoy, Marağa, Nəmin, Rəşt, Pəhləvi, Şahpur, Urmiya, Uşnu və digər şəhərlərdə 60 mindən çox adam Azərbaycan artistlərinin konsertlərində iştirak etmişdi. Məlumatda Cənubi Azərbaycanın bütün şəhərlərində, xüsusilə, Təbrizdə konsertlərə böyük maraq göstərildiyi qeyd edilirdi. Sənəddə iri fabrikant Corabçının sözləri misal gətirilirdi. O deyirdi: "Mən dörd dəfə konsertlərdə olmuşam, böyük məmnuniyyətlə bir neçə dəfə də qulaq asaram. İran Azərbaycanında əhalinin 90 faizi doğma Azərbaycan mahnılarını və musiqisini sevir. Fars mahnılarını və musiqisini onlar doğma hesab etmirlər, ondan yetərincə zövq ala bilmirlər. Bizim ailədə, xüsusilə, qadınlar Bakı radiosu ilə verilən konsertləri həmişə dinləyirlər və sizin tanınmış müğənnilərin adlarını demək olar ki, əzbər bilirlər".[74] Qastrol başa çatdıqdan sonra Təbriz ostandarının xahişi ilə Azərbaycan

---

[72] Bax: C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.63-64

[73] S.Kavtaradzenin M.Əliyevə məktubu. 11.01.1945.// ARPİİ SSA f.1, s.220, i.48, v.125

[74] Azərbaycan konsert briqadasının İrana qastrolu haqqında Təbrizdəki Sovet konsulu F.Matveyevin hesabatı. 1945.// ARPİİ SSA, f.1, s.220, i.48, v.127

artistləri daha bir konsert vermişdilər və bu konsertdən gələn gəlir, bütövlükdə, Təbrizin yerli idman cəmiyyətinin fonduna keçirilmişdi. Bütün bunlardan sonra Baş konsulun hesabatında göstərilirdi ki, Maku və Şahpurda biletlərin satılmasında ciddi nöqsanlara yol verilmiş, Ə.Babayevin günahı ucbatından pulsuz verilməli olan biletlər pulla, digərləri isə artırılmış qiymətlərlə satılmışdır. Matveyevin məlumatına görə, bu isə yerli əhalidə müəyyən narazılıq yaratmışdı. Cənubi Azərbaycanda bütün prosesləri diqqətlə izləyən SSRİ Xarici İşlər Xalq Komissarlığının məktubu və Təbrizdəki Baş konsulluğun məlumatına əsasən, Azərbaycan K(b)P MK-nın mart ayında keçirilən büro iclasında isə yarıtmaz siyasi rəhbərliyinə görə Ə.Babayevə töhmət verilmişdi.[75]

Cənubi Azərbaycanda işləri genişləndirmək üçün 1945-ci ilin əvvəllərində Sovet Azərbaycanından göndərilən siyasi, diplomatik, mədəniyyət və təsərrüfat işçilərinin sayı 1000 nəfərə çatdırılmışdı. "Vətən yolunda" qəzetinin tirajı artıq on mini ötmüşdü. Qısa müddətdə 368 min tirajla 32 adda kitab Ərəb əlifbası ilə nəşr edilib, Cənubi Azərbaycan əhalisi arasında yayılmışdı. Səttarxan hərəkatından sonra ilk dəfə olaraq, Cənubi Azərbaycan ziyalıları doğma türk dilində kitab və broşürlar nəşr etdirmişdilər. İranlı uşaqların Sovet məktəblərinə verilməsinə qarşı keçmiş Baş Nazir Məhəmməd Saedin əhaliyə müraciətinə baxmayaraq, Təbrizdə 460 uşaq türk dilində fəaliyyət göstərən Sovet məktəbində çox böyük həvəslə təhsil alırdı. Sovet tibb müəssisələrinə yerli əhalinin müraciətləri çoxalmışdı. Sovet Azərbaycanından göndərilmiş məsul işçilərin məlumatına görə, 1944-cü ildə və 1945-ci ilin birinci üç ayı ərzində Cənubi Azərbaycanda 63 956 nəfər əhaliyə tibbi yardım göstərilmişdi. Təbriz və Rəştdəki Sovet xəstəxanaları yerli əhali arasında çox məşhurlaşmışdı.[76]

Lakin bütün bu hazırlıq işlərinə baxmayaraq, Sovet orqanları hələ ki, Cənubi Azərbaycanda müstəqil burjua-demokratik cəmiyyəti

[75] Azərbaycan K(b)P MK Bürosunun iclasının protokolu. Mart 1945.// ARPİİ SSA, f.1, s.220, i.48, v.119

[76] ARPİİ SSA, f.1, s.89, i.106, v.1

qurmaq, yoxsa İran daxilində muxtariyyət almaq arasında tərəddüd edirdilər. Azərbaycan SSR-in rəhbərliyinin, xüsusilə, respublika Xarici İşlər Xalq Komissarlığının əsaslandırılmış müraciətlərinə, siyasi və tarixi-etnoqrafik məzmunlu arayışlarına baxmayaraq, Moskva qəti qərara gəlməkdə tərəddüd edirdi. Yerli əhali isə Sovet İttifaqının apardığı yarımçıq tədbirlərdən bir şey anlamır və öz gələcək taleyi üçün narahatlıq keçirirdi. Onlar haqlı olaraq, Sovet nümayəndələrinə bildirirdilər: "Siz deyirsiniz ki, irticaya qarşı mübarizə aparın, bizim ardımızca gəlin. Biz siz deyənləri edirik, lakin əvəzində torpaqlarımızı alırlar, bizi fabriklərdən qovurlar, müəssisələri bağlayırlar, özümüzü öldürürlər və eyni zamanda, gələcəkdə də öldürəcəkləri ilə hədələyirlər".[77]

1945-ci ilin əvvəllərində İran hakimiyyət orqanları Cənubi Azərbaycanda laxlamış dayaqlarını möhkəmləndirməyə çalışırdı. İran Daxili İşlər Nazirliyinin Şimal əyalətlərinin valilərinə göndərdiyi direktivdə təlimat verilirdi ki, hökumətin daxili siyasəti ilə bağlı mitinq və yığıncaqlarda çıxış edənlər məsuliyyətə cəlb edilsinlər, dövlət orqanlarında işləyib, sovetlərə rəğbət bəsləyənlər təcili olaraq, işdən azad edilib, həbsə alınsınlar.[78] 1944-cü ilin dekabrında Daxili İşlər Nazirliyi Cənubi Azərbaycanda olan yerli orqanlarına göstəriş vermişdi ki, İranın şimal şəhərlərində fəaliyyət göstərən Sovet hərbi komendantlarına gündəlik raport verilməsini dayandırsınlar. Azərbaycan SSR-in təhlükəsizlik orqanlarının məlumatlarında göstərilirdi ki, İran hökuməti Cənubi Azərbaycanda Sovet təsirinə qarşı bütün vasitələrlə mübarizə aparmaq üçün gizli qərar qəbul etmişdir. Sovet orqanlarının məlumatlarına görə, ingilislər İran hökumətinə vəd vermişdilər ki, Cənubi Azərbaycanda Sovet təsirinə müqavimət göstərən təşkilatlara və ayrı-ayrı şəxslərə maliyyə yardımı göstərəcəklər. Azərbaycan SSR təhlükəsizlik orqanlarının ələ keçirdiyi Tehrandan Şimal vilayətlərinə göndərilən təlimatda qeyd edilirdi ki, yerli hakimiyyət orqanları Sovet

[77] ARPİİ SSA, f.1, s.89, i.107, v.102
[78] Yenə orada, v.98

nümayəndələrinin göstərişi ilə törədilən pozuculuq hərəkətlərinə qarşı yetərincə müqavimət göstərmirlər. General Seyfin imzası ilə yayılmış təlimatda deyilirdi: "Sürgünlər və həbslər haqqında Sovet nümayəndələrinin tələbləri ölkənin daxili işlərinə müdaxilə xarakteri daşıyır, mövcud qanunlarla ziddiyyət təşkil edir. Bu tələblərə əməl etməkdən imtina olunmalıdır və hər dəfə belə hallar olanda onlara cavab vermək lazımdır ki, valiyə və fərmandara müraciət etsinlər. Eyni zamanda, belə hallarda Sovet nümayəndələrinə necə cavab verdiyinizi hər dəfə teleqrafla mənə bildirməlisiniz. Bu göstərişi yerinə yetirməkdən hər hansı formada yayınmaq, günahkarın məsuliyyətə alınması ilə nəticələnəcək və bu əmri yerinə yetirməyən polis rəisləri işdən azad ediləcəklər. Təlimat barədə sizə tabe olan polis işçilərinə də məlumat verin".[79]

Tehrandan gələn bu təlimata uyğun olaraq, Cənubi Azərbaycanın mərkəzi şəhəri kimi, Təbrizdə Sovetlərə loyal münasibət bəsləyən vali Dadvər, polis rəisi Ziyai, şəhər idarəsinin rəisi Rəhimi, polis şöbələrinin bəzi rəisləri və digər məsul şəxslər az sonra vəzifədən azad edilmişdilər. Mərkəzi hökumətin sərt tədbirlərə əl atması yerlərdə Xalq Partiyasına qarşı hücumları gücləndirmişdi. Urmiyada iri torpaq mülkiyyətçisi Əliağa Teymuri Xalq Partiyasına daxil olan kəndlilərin torpağını əlindən almışdı. 1945-ci ilin yanvar ayının 1-də isə Urmiyada Xalq Partiyasının yerli komitəsinin sədri Azad Vətənə qəsd edilmişdi. Miyanədə jandarm rəisi yerli mülkədarlara tüfəng vermişdi ki, öz adamlarını silahlandırıb tudəçilərə qarşı mübarizə aparsınlar. Ərdəbildə mülkədar Nəsrulla xan Yurdçu 1945-ci ilin martında Xalq Partiyasının üzvü olan 80-dən artıq kəndlinin partiya biletini almışdı. Aprel ayında Təbrizdəki Sovet işçilərinin uşaqları, o cümlədən, Baş konsul Matveyevin oğlu döyülmüş və kapitan Novikovun yetkinlik yaşına çatmamış qızı zorlanmışdı. Xalq Partiyası üzvlərinin döyülməsi və təqib edilməsindən, Sovet işçilərinə qarşı törədilən zorakılıq faktlarından ciddi narahatçılıq keçirən M.C.Bağırov İ.Stalinə göndərdiyi teleqramda yazırdı: "Mart ayının

[79] ARPİİ SSA, f.1, s.89, i.95, v.5

30-da iki iranlı ilə birlikdə iki polis işçisi Təbrizdə bizim hərbi hissədə işləyən mühəndis Yakuşenkonu döyüblər. 8 apreldə pozucu qrup çayxana sahibi ilə birlikdə bizim işçilərin uşaqlarına zor tətbiq ediblər. İki oğlanı – onlardan biri Baş konsul Matveyevin oğludur – döyüblər. Bu uşaqlarla birlikdə olan kapitan Novikovun qızını 7 nəfər zorlamışlar. Bizim nümayəndələrimizin hörmətdən salınmasına yönəlmiş belə iyrənc faktlar xarici kəşfiyyatın iştirakı olmadan mürtəce elementlər tərəfindən törədilə bilməz. Görünür, bizim bəzi konsulluq işçilərimiz hələ də bunu anlamırlar".[80] Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Xalq Komissarı S.Yemelyanov hələ mart ayının 3-də M.C.Bağırova göndərdiyi arayışda ingilislərin Cənubi Azərbaycanda fəallaşdıqlarını bildirirdi. Onun məlumatına görə, ingilislər Təbrizdə təbliğat aparırdılar ki, yaxın zamanlarda Cənubi Azərbaycan İrandan qoparılacaq və orada müstəqil respublika qurulacaqdır. Təbrizdə çalışan Azərbaycan SSR təhlükəsizlik işçilərinin əldə etdiyi məlumatlarda qeyd olunurdu ki, şəhərdəki İngilis Bankının direktoru Millerə görə, Cənubi Azərbaycanda çevriliş 1945-ci ilin may ayına qədər baş verməli idi. Bu təhlükəni real hesab edən Miller fevral ayının axırlarında Tehrana məlumat göndərmiş və xahiş etmişdi ki, Bankın əməliyyatlarının məhdudlaşdırılmasına icazə versinlər. İngilislər zəngin adamları başa salırdılar ki, öz sərvətlərini də götürüb, Cənubi Azərbaycandan çıxsınlar. Azərbaycan SSR təhlükəsizlik orqanlarının məlumatına görə, yalnız fevral ayının 19-da Təbrizdəki İngilis Bankı İranın cənubunda yerləşən müxtəlif banklara 2 milyon rial pul köçürmüşdü.[81]

1945-ci ilin mart ayında, xüsusilə, Novruz bayramı günlərində Təbrizdə Sovet İttifaqı və Xalq Partiyası əleyhinə bir sıra kütləvi çıxışlar baş verdi. Bu çıxışlarda xırda və orta tacirlər, fabrik sahibləri, bir sıra mülkədarlar və onlara yaxın olan 2 minə qədər adam iştirak edirdi. Təbriz şəhrdarının timsalında İranın hakimiyyət dairələrinin bu hadisələrin arxasında dayandığı hiss olunurdu. Tudə partiyasına

[80] M.C.Bağırovun İ.Stalinə teleqramı. Aprel 1945.// ARPİİ SSA, f.1, s.89, i.90, v.3

[81] İngilislərin Cənubi Azərbaycanda fəallaşması haqqında S.Yemelyanovun M.C.Bağırova arayışı. 03.03.1945.// ARPİİ SSA, f.1, s.89, i.95, v.7

qarşı yaradılmış "Həqiqət" cəmiyyəti hadisələrdə fəal iştirak edirdi. Təbrizdəki İran ordusunun bir sıra zabitləri mitinqçilər qarşısında Sovet İttifaqı əleyhinə çıxış etmişdilər.[82]

Mart ayının 21-də baş vermiş hadisələrlə bağlı S. Yemelyanov və A.Atakişiyevin M.C.Bağırova göndərdiyi xüsusi məlumatda qeyd edilirdi ki, "Xalq Partiyasının Təbriz əyalət komitəsi baş verənlərə cavab vermək iqtidarında deyildir. Mürtəce qüvvələr bu işlərə böyük vəsait xərclədiyi, adamları satın aldığı halda, Xalq Partiyasının ayrı-ayrı üzvləri gündəlik dolanışıq üçün iş tapmaq məqsədi ilə müxtəlif yerlərə dağılışırlar. Maddi vəsait olmadığından partiyanın Azərbaycan Əyalət Komitəsi vərəqələr, xalqa müraciətlər buraxa bilmir, yerli özəklərdə işi gücləndirmək üçün öz adamlarını rayonlara ezam edə bilmirlər.[83]

Təbrizdəki mart hadisələri ilə bağlı Azərbaycan SSR təhlükəsizlik orqanlarının şəhərdə "Çoban" adı altında fəaliyyət göstərən rezidentinə təlimat verilmişdi ki, bir də belə hadisələrin təkrar olunmaması üçün Baş konsulluq vasitəsi ilə valiyə təsir göstərmək lazımdır.[84] Təlimatda deyilirdi: "Vilayətin və şəhərin rəhbərliyini xəbərdar etmək lazımdır ki, onlar baş verən hadisələrə ciddi reaksiya verməsələr, təxribatçıların qarşısını almasalar, təxribatlara son qoymasalar Sovet Hərbi Komendantlığı şəhərdə qayda-qanun yaratmaq üçün ölçü götürmək məcburiyyətində qala bilər". Yaranmış gərgin vəziyyətlə bağlı rezidentə tapşırıq verilirdi ki, pozucu qüvvələrin hərəkətlərini nəzarətə götürsün və hər hansı siqnal alınan kimi Təbrizdəki Sovet komandanlığının və Qəzvində yerləşən Azərbaycan Dövlət Təhlükəsizliyi Xalq Komissarlığının rəhbər işçilərini təcili

---

[82] Bax: ARPİİ SSA, f.1, s.89, i.95, v.89

[83] Cənubi Azərbaycanda vəziyyət haqqında S.Yemelyanov və A.Atakişiyevin M.C.Bağırova məlumatı. Mart 1945.// ARPİİ SSA, f.1, s.89, i.95, v.10

[84] İkinci Dünya müharibəsi illərində İranın şimali Sovet orduları tərəfindən işğal edildikdən sonra orada SSRİ təhlükəsizlik orqanlarının 40-a qədər rezidentura və kəşfiyyat məntəqəsi fəaliyyət göstərirdi. Bu şəbəkədə 115 əməliyyat işçisi çalışırdı. Tehranda yerləşən baş rezidenturaya İ.İ.Aqayants, digər rezidenturalara isə P.M.Juravlyov və N.P.Lısenko başçılıq edirdilər. Bundan əlavə, həmin dövrdə SSRİ kəşfiyyatı İranda Məclisin deputatları, dövlət aparatının məmurları, İran kəşfiyyatının əməkdaşları, hərbiçilər və tayfa başçılarından ibarət bir neçə yüz nəfərlik agentura şəbəkəsinə malik idi. Bax: KGB in Iran, 1988. // Mitrokhin Collection, Woodrow Wilson Center for Scholars, p. 1-2

məlumatlandırsın. Eyni zamanda, ona tövsiyə edilirdi ki, bu tapşırıqlar Təbrizdəki Korpus Komandanlığının Hərbi Şurasına da çatdırılsın. Təlimata görə, komandanlıq öz növbəsində şəhərdə patrulnəzarət xidmətini gücləndirməli, təkrar ola biləcək hər hansı belə hadisələrin qarşısı vaxtında alınmalı və pozuculuqla məşğul olanlar cəzalandırılmalı idi.[85]

Mart ayının 21-də Təbrizdə baş vermiş hadisələrlə bağlı iki gün sonra, martın 23-də M.C.Bağırov Stalini məlumatlandırdı. Moskvaya, ÜİK(b)P MK-ya göndərdiyi teleqramda M.C.Bağırov yazırdı: "Son zamanlar Cənubi Azərbaycanda, ingilislər tərəfindən qızışdırılan mürtəce ünsürlərin xeyli fəallaşdığı müşahidə edilir. Belə bir şayiə yayılıb ki, guya, Sovet tərəfinin təhrikçiliyi ilə Xalq Partiyası tərəfindən Cənubi Azərbaycanda çevriliş hazırlanır. Bunun nəticəsində tacirlər, fabrik və torpaq sahibləri öz əmlaklarını satır, avadanlıqlarını ölkədən çıxarırlar. İmkanlı dairələr öz vəsaitlərini daha çox Britaniya banklarına keçirirlər. Özlərinə etibarlı hesab etdikləri şəxslərin, mülkədar və tacirlərin polis və jandarm tərəfindən silahlandırılmasına aid faktlar vardır. Təbriz və Rəştdə İran ordusu qərargahı tərəfindən polis işçilərinə mülki paltar paylanmışdır. Onlar həlledici məqamlarda hakimiyyət orqanlarına köməklik etməlidirlər. Hətta, iş o yerə çatıb ki, İran ordu hissələrinin müdafiə etdiyi pozucu ünsürlər Təbrizdə təxribatçı nümayişlər keçiriblər. Belə açıq antisovet çıxışlar, heç 1941-1942-ci illərin gərgin günlərində də baş verməmişdi. Yaranmış şəraitdə bizim sonrakı tədbirlərimizlə bağlı sizin göstərişlərinizi gözləyirik".[86]

Cənubi Azərbaycanda İran hakimiyyət orqanlarına qarşı baş verən çıxışlar Sovet Azərbaycanının rəhbərliyi tərəfindən rəğbətlə qarşılanırdı. Təbriz ziyalılarının və Cənubun işgüzar dairələrinin fəal rol oynadığı etiraz dalğası məqsədyönlü şəkildə milli tələblərin irəli sürülməsi və İran Azərbaycanına siyasi muxtariyyət verilməsi məsə-

[85] Cənubi Azərbaycanda vəziyyət haqqında S.Yemelyanov və A.Atakişiyevin M.C.Bağırova məlumatı. Mart 1945.// ARPİİ SSA, f.1, s.89, i.95, v.11-12

[86] M.C.Bağırovun İ.Stalinə teleqramı. 23.03.1945.//ARPİİ SSA f.1, s.89, i.90, v.1-2

ləsinin irəli sürülməsi ilə müşayiət olunurdu.[87] 1945-ci ilin aprel ayında M.C.Bağırov qarşıdakı dövrdə İran Azərbaycanında görüləcək işlərin ilkin planını hazırlamışdı. Bu planda Cənubi Azərbaycanla bağlı müxtəlif variantlar nəzərdə tutulurdu. M.C.Bağırova görə, birinci variant Cənubi Azərbaycanın Sovet Azərbaycanı ilə birləşməsi idi. İkinci variant kimi o, müstəqil Cənubi Azərbaycan Xalq Respublikasının yaradılması ideyasını irəli sürürdü. Üçüncü variant kimi, Bağırov Cənubi Azərbaycanda müstəqil burjua-demokratik sistemin yaradılmasını da istisna etmirdi. Ən nəhayət, dördüncü variant kimi, o, ən azından İran dövləti daxilində azərbaycanlılar üçün mədəni muxtariyyət alınmasını mümkün hesab edirdi.[88]

1945-ci ilin yazında Sovet-Türkiyə münasibətlərinin gərginləşməsi Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığının Orta Şərqdə yeni bir fəaliyyət istiqamətinin yaranmasından xəbər verirdi. Artıq Türkiyə haqqında SSRİ Xarici İşlər Xalq Komissarlığına daxil olan məlumatlar, xüsusilə, Ankaradakı Sovet səfirliyinin hazırladığı arayışlar müntəzəm olaraq, Bakıya göndərilməyə başlamışdı.[89] 1945-

---

[87] Bax: С.Алиев. История Ирана. XX век. Москва, 2004, с.215

[88] Bax: M.C.Bağırovun Cənubi Azərbaycanla bağlı təkliflərin layihəsi. Aprel 1945.//ARPİİ SSA f.1, s.89, i.104, v.93-103; Fernande Scheid Raine. The İranian Crisis of 1946 and the Originis of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, 2005, p.97; Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History. 2011, Vol. 46, No 1, p.66

[89] 1945-ci ilin yazında və yayında Sovet-Türkiyə münasibətlərinin kəskinləşməsi haqqında geniş məlumat üçün bax: Selim Deringil. Turkish Foreign Policy During the Second World War: An 'Active' Neutrality. Cambridge: Cambridge University Press, 1989; Ayşegül Sever. Soğuk Savaş Kuşatmasında Türkiye, Batı ve Orta Doğu. 1945–1958. Istanbul, 1997; Ekavi Athanassopoulou. Turkey- Anglo - American Security Interests, 1945–1952. London: Frank Cass, 1999; Eduard Mark. The Turkish War Scare. // Melvin P. Leffler and David S. Painter. Origins of the Cold War. An International History. Routledge Taylor and Francis Group, New York and London, 2005, p. 112-133; Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943- 8.// Journal of Contemporary History, 2011, Vol. 46, No 1, pp.70-80; J. Hasanli. Stalin and Turkish Crisis of the Cold War, 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK, 2011; C.Həsənli. SSRİ-Türkiyə: Soyuq müharibənin sınaq meydanı. 1939-1952. Bakı, 2005; C.Hasanlı. Tarafsızlıktan Soğuk Savaşa: Türk-Sovyet İlişkileri. 1939-1953. Ankara, Bilgi Yayınevi, 2011; J.Hasanl. The "Turkish Crisis" of the Cold War Period and the South Caucasian Republic.// The Caucasus and Globalization, Vol. 2, Issue 4, 2008, pp. 114-127; Vol. 3, Issue 1, 2009, pp. 122-133; Дж. Гасанлы. СССР-Турция: от нейтралитета к холодной войне. 1939-1953 гг. Москва, 2008; Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945–1947 гг.// «Новая и новейшая история», 2003, № 3, с.58-77; Н.И.Егорова. Истоки советско-американского соперничества в Иране и Турции, 1944–

ci ilin mart ayının 19-da V.Molotov SSRİ ilə Türkiyə arasında 1925-ci ilin dekabr ayında imzalanmış dostluq və bitərəflik haqqında müqavilənin birtərəfli qaydada ləğv edildiyini bəyan etdikdən sonra Türkiyə haqqında, onun siyasi həyatı və siyasi xadimləri haqqında Bakıya göndərilən gizli sənədlər daha intensiv xarakter almağa başladı. Həmin gün Moskvadakı Türkiyə səfiri Səlim Sarperi qəbul edən V.Molotov bildirmişdi ki, Sovet hökuməti SSRİ ilə Türkiyə arasında dostluq münasibətlərinin inkişafında 1925-ci il müqaviləsini yüksək qiymətləndirir, lakin bununla belə İkinci Dünya müharibəsinin gedişində dərin dəyişikliklər baş verdiyindən bu müqavilə yeni şəraitə uyğun gəlmir və ciddi şəkildə təkmilləşdirilmə tələb edir.[90] Molotov qeyd edirdi ki, 1925-ci il müqaviləsi imzalananda Sovet İttifaqı İngiltərə ilə indiki razılaşma kimi heç bir sazişə malik deyildi, ABŞ ilə isə diplomatik münasibətləri belə yox idi.[91]

1925-ci il Sovet – Türkiyə müqaviləsi birtərəfli qaydada ləğv edilən kimi, SSRİ Xarici İşlər Xalq Komissarının bu məsələ ilə bağlı bəyanatının mətni dərhal Cənubi Qafqaz respublikalarına, o cümlədən, Bakıya göndərilmişdi. Türkiyə tərəfi V. Molotovun bəyanatını ətraflı şəkildə öyrəndikdən sonra aprel ayının 4-də verdiyi cavabında 1945-ci ilin mart ayının 19-da Moskvadakı türk səfiri S. Sarperə təqdim edilmiş nota ilə tanış olduğunu bildirir, yeni müqavilə bağlamaq üçün Sovet hökumətinin nə kimi təklifləri olduğunu soruşur və iki tərəfin də maraqlarına, eyni zamanda dəyişilmiş şəraitə uyğun yeni bir müqavilənin bağlana biləcəyini mümkün sayırdı. Sovet hökumətinin müqaviləni dəyişməklə bağlı fikrinə uyğun olaraq, Türkiyə hökuməti ona təqdim edilmiş bütün təklifləri diqqətlə

1945 гг.// В кн.: Американский ежегодник. 1997; Б.М.Поцхверия. Советско-турецкие отношения и проблема Проливов накануне, в годы Второй мировой войны и послевоенные десятилетия.// В кн. Россия и Черноморские проливы (XVIII–XX столетия). М., 1999.

[90] 1925-ci il Sovet-Türkiyə müqaviləsinin ləğv edilməsi barədə V.Molotovun bəyanatı.19.03.1945.// RFXSA, f.132, s.30, q.109, i.7, v.1; Turco-Soviet Relations. 1945. // National Archives (United Kingdom), Public Records Office, FO 371/48774

[91] J. Hasanli. Stalin and Turkish Crisis of the Cold War, 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK, 2011, p.45

öyrənməyə və irəli sürülən müddəalara diqqətlə yanaşmağa hazır olduğunu açıqlayırdı.[92]

V. Molotovun mart ayının 19-da S.Sarperə təqdim etdiyi bəyanat Türkiyə siyasi dairələri və türk mətbuatı üçün bir qədər gözlənilməz idi. Bir qayda olaraq, belə ciddi dövlətlərarası sənədlərlə bağlı əvvəl məsləhətləşmələr keçirilir və sonra qərar qəbul edilirdi, lakin ilk görüşdəcə Sovet İttifaqının iyirmi illik bir dövrdə iki ölkənin münasibətlərini tənzimləyən müqavilədən belə nümayişkaranə formada imtina etməsi tərəflərin münasibətlərinin gərgin mərhələyə daxil olmasından, Sovetlərin Türkiyəyə yönəlmiş iddialarının ciddiliyindən xəbər verirdi. Bu hadisə ilə bağlı Türkiyə hökumət rəsmiləri tərəfindən türk mətbuatına kəskin yazılar verməmək tövsiyə olunanda, ilk zamanlar xarici mətbuatın və Anadolu agentliyinin məlumatları ardıcıl olaraq, türk qəzetlərində özünə yer alırdı. Türk qəzetlərində xarici mətbuatın belə bir rəyi başlıqlara çıxarılırdı ki, Sovet İttifaqı bu aktla Türkiyə ilə münasibətlərə yenidən baxmaq və Boğazlar haqqında Konvensiyada dəyişikliklər etmək istəyir. Londonda Polşa mühacir hökumətinin çap etdirdiyi "Cennik Polski" qəzetində bu məsələ ilə bağlı yayınlanmış bir məqalə tərcümə edilərək türk qəzetlərinin əksəriyyətində yenidən çap olunmuşdu. Bu məqalədə qırmızı xətt ilə belə bir fikir keçirdi ki, Boğazlar məsələsində Sovet İttifaqı çar Rusiyasının siyasətinə qayıtmışdır. SSRİ Xarici İşlər Xalq Komissarının müavini S.Kavtaradzenin Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı M.Əliyevə göndərdiyi sovet-türk müqaviləsinin ləğv edilməsi ilə bağlı Türkiyə mətbuatının icmalında qeyd edilirdi ki, Türkiyənin aparıcı jurnalistlərindən Falih Rıfkı Atay, Şükrü Esmer, Ahmet Emin Yalman və Hüseyn Cahit Yalçın aprel ayının 5-də türk nümayəndə heyəti ilə birlikdə San-Fransiskoya getdiklərindən bu məsələyə münasibətdə ölkə mətbuatında bir boşluq hiss edilir. Türkiyədəki Sovet səfirliyinin hazırladığı mətbuat icmalına görə, Ankarada və İstanbulda çıxan "Ulus", "Cümhuriyyət", "Yeni Sabah", "Tasvir", "Vakıt", "Tan" və digər qəzetlərdə

---

[92] Türkiyə XİN-nin V.Molotovun 19 mart 1945-ci il tarixli bəyanatına cavabı. 19.03.1945.// RFXSA, f.132, s.30, q.109, i.7, v.2-3

Sovet-Türkiyə münasibətləri haqqında bir qayda olaraq, Sovetlərin milli müstəqillik uğrunda mübarizə dövründə Türkiyəyə göstərdiyi yardımlar xatırlanır, Türkiyənin Sovetlərlə dostluq münasibətlərində sədaqətli olduğu yada salınır və 25 illik bir dövr ərzində onun SSRİ qarşısında olan müqavilə öhdəliklərini dəqiqliklə yerinə yetirdiyi vurğulanırdı. Bu məqalələr Sovet səfirliyinin əməkdaşları tərəfindən rus dilinə tərcümə edilib, türk mətbuatının icmalı ilə birlikdə Moskvaya və Bakıya göndərilirdi. Türkiyənin tanınmış qəzetçilərindən sayılan Asım Us yazırdı ki, "Türkiyə bir tərəfdən ingilis-fransız-türk, digər tərəfdən türk-rus sazişləri yolu ilə Qara və Aralıq dənizlərində kollektiv təhlükəsizlik sistemi yaratmağı arzulayırdı. Əgər Türkiyənin arzuladığı təhlükəsizlik sistemi yaradılsaydı, onda Hitlerin ordusunun Balkanlara müdaxiləsinə və SSRI-yə hücum etməyə cəsarəti çatmazdı. Moskva hökuməti öz təhlükəsizliyini Berlinlə sazişdə axtardı". Eyni zamanda Asım Us təsdiq edirdi ki, Türkiyə müharibə dövründə doğru siyasət yürütdü və bu siyasətin doğruluğu 1942-ci ildə türklərə təqdim olunmuş ingilis-sovet notasında təsdiq edildi. Həmin notada göstərilirdi ki, Türkiyənin bitərəflik siyasəti müttəfiqlərin böyük razılığına səbəb olmuşdur.[93] V.Molotovun notasında toxunulan "dəyişən vəziyyət"ə gəldikdə başqa bir türk qəzetçisi Faik Fenik "Ulus" qəzetindəki məqaləsində qeyd edirdi ki, beynəlxalq aləmdə yalnız Sovet İttifaqının vəziyyəti dəyişməmişdir, eyni zamanda, Türkiyənin də vəziyyəti dəyişmişdir. F.Fenik xatırladırdı ki, 1925-ci il Sovet-Türk müqaviləsi imzalananda Türkiyə Mosul məsələsinə görə, İngiltərə ilə ziddiyyətdə idi, 1939-cu ildən isə o İngiltərənin müttəfiqidir.

Sovet–Türkiyə müqaviləsinin ləğv edilməsi ilə bağlı S.Kavtaradzenin Azərbaycan SSR Xarici İşlər Xalq Komissari M. Əliyevə göndərdiyi Ankaradakı Sovet səfirliyinin hazırladığı mətbuat icmalında deyilirdi: "Türklər mətbuata təlimat veriblər ki, öz ictimaiyyətini və dünya ictimai rəyini onların həmişə Sovet İttifaqı ilə dostluğa can atdığına, indiki anda bu dostluğu möhkəmlən-

[93] S.Kavtaradzedən M.Əliyevə. Türk mətbuatının icmalı haqqında Ankaradakı Sovet səfirliyinin arayışı. 12.04.1945.// ARDA, f.28, s.4, i.22, v.103

dirməyə hazır olduqlarına inandırsınlar. Onlar məsələni belə qoyublar ki, bir halda ki, Sovet İttifaqı bu məsələni qaldırıb, onda müəyyən təkliflər də ondan gəlməlidir və Sovet təkliflərinin dostluğu möhkəmləndirməyə uyğunluğunu mühakimə etmək hüququ türklərin əlində qalmalıdır". Türkiyədəki Sovet səfirliyinin birinci katibi Moskvanı məlumatlandırırdı ki, türk təbliğatı ictimai fikirdə Sovet-Türkiyə münasibətlərinin gələcəyi üçün məsuliyyəti Sovet İttifaqının üzərinə qoymağa cəhd göstərir.[94]

1925-ci il sovet-türk müqaviləsinin ləğvi məsələsi ortaya çıxandan düz bir ay sonra, 1945-ci il aprel ayının 19-da İ.Stalin bütün ermənilərin katolikosunu əvəz edən, arxiyepiskop Gevorq Çorekçiyanı qəbul etdi. Bu bir tərəfdən bütün ermənilərin katolikosunun qarşıdakı seçkiləri ilə bağlı idisə, digər tərəfdən, ermənilərin Türkiyə əleyhinə yönəlmiş təbliğatına və tələblərinə əməli xarakter vermək niyyətindən irəli gəlirdi.[95] Ermənistanda 1938-ci ildən başsız qalan xristian kilsəsində katolikos seçkilərinə, hələ, 1944-cü ilin payızından hazırlıq gedirdi. Həmin ilin sentyabr ayının 4-də SSRİ Dövlət Təhlükəsizliyi Xalq Komissarlığının təqdimatı ilə ÜİK(b)P MK-nın Siyasi Bürosu "Erməni–qriqorian kilsəsinin yığıncağının çağrılmasına icazə verilməsi haqqında" qərar qəbul etmişdi. Qərarda deyilirdi: "Katolikos seçilməsi üçün xarici yeparxiya nümayəndələrinin iştirakı ilə 1945-ci ilin əvvəllərində Eçmiədzində (Ermənistan SSR) erməni-qriqorian kilsəsinin yığıncağının keçirilməsi haqqında SSRİ DTXK-nın təklifi qəbul edilsin".[96] Siyasi Büronun bu məsələ ilə bağlı qərarından çıxarışlar Molotov, Malenkov, Beriya, Merkulova və Ermənistan Mərkəzi Komitəsinə göndərilmişdi. Sovet təhlükəsizlik orqanlarının təqdimatı ilə bütün ermənilərin katolikosu seçiləçək Çorekçiyan bilavasitə Stalinin qəbulunda söhbətdən keçərkən, Eçmiədzinin bərpa olunması, dini akademiyanın açılması, keçmiş dini akademiyanın

---

[94] Yenə orada, v.105

[95] J. Hasanli. Stalin and Turkish Crisis of the Cold War. 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK, 2011, p.71

[96] "Erməni – qriqoryan kilsəsinin yığıncağının keçirilməsinə icazə verilməsi haqqında" ÜİK(b)P MK-nın Siyasi Bürosunun qərarı. 04.09.1944.//RDSSTA, f.17, s.162, i.37, v.135

kitabxanasının Eçmiədzinə qaytarılması, Eçmiədzinə mətbəə saxlamağa icazə verilməsi, bir sıra binaların ona qaytarılması, katolikosun zəmanəti ilə bir sıra dindarların Sovet Ermənistanına gəlməsinə icazə verilməsi, xaricdən yepiskop və yeparxiya rəhbərlərinin dəvət edilməsinə icazə verilməsini və s. məsələləri Sovet dövlətinin başçısından xahiş etdi. Bütün bunlar barədə o, hələ 1945-ci il aprel ayının 3-də İ.Stalinə yazılı müraciət etmişdi.[97] Moskvada İ. Stalinin erməni kilsəsi rəhbərlərindən birini qəbul etməsindən az sonra ABŞ-dakı Erməni Milli Şurası Birləşmiş Millətlərin San-Fransisko konfransına və konfransın iştirakçısı olan ayrı-ayrı nümayəndələrə "Erməni xalqının işi" adlı memorandumu təqdim etdi. Orada göstərilirdi ki, erməni məsələsinin ədalətli həlli erməni diasporasının nümayəndələrinə imkan verər ki, öz doğma yurdlarına qayıtsınlar.[98]

Memorandumda Amerikadakı Erməni Milli Şurası erməni xalqının təmsilçisi kimi təqdim edilir və bu təşkilatın, sənəddə yazıldığı kimi, "kiçik faşist partiyası sayılan daşnaklar istisna olmaqla", bütün erməni dini və milli cəmiyyətlərini birləşdirdiyi göstərilirdi. Sənəddə Birinci Dünya müharibəsi dövründə ermənilərin müttəfiqlərlə birlikdə vuruşduğu bildirilir və Sevr müqaviləsinin şərtlərinin dünya tərəfindən qəbul edilməsini tələb edirdilər. Sevr müqaviləsi ilə onlara verilməsi nəzərdə tutulan torpaqların türklərdə qalmasına görə, milyon yarım ermənin mühacirətdə yaşadığına toxunan Erməni Milli Şurası yazırdı: "Hətta bizim xalqımızın iftixarı və şərəfi sayılan, onun arzu və ümidlərinin simvolunu daha qabarıq ifadə edən Ararat dağı (Ağrı dağı nəzərdə tutulur – C.H.) türklərin hakimiyyəti altında qalmaqdadır". Daha sonra memorandumda qeyd edilirdi ki, "müstəqil və azad" Sovet Ermənistanından ayrılmış Türkiyənin erməni vilayətlərinin yenidən Ermənistanla birləşməsi və xaricdəki ermənilərin də "öz xoşbəxt qardaşları"na qovuşması erməni xalqının həyatının yenidən qurulmasına, onun

---

[97] İ.Stalinin bütün ermənilərin katolikosunun müavini Q.Çorekçiyanla söhbəti. 19.04.1945.// RFDA, f.9401, s.2, i.94, v.61; İ.Stalinin Q.Çorekçyanı qəbul etməsi və erməni kilsəsinin təklifləri haqında əlavə məlumat üçün bax: Bütün ermənilərin katolikosu İ Vazqenin N.Bulqaninə məktubları. 12.05.1956.// Ermənistan Respublikası Dövlət Tarix Arxivi (ERDTA), f.409, s.1, i.5787, v.4-7

[98] J. Hasanli. Stalin and Turkish Crisis of the Cold War, 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK, 2011, p.71

canlanmasına və Sovetlərdə xoşbəxtlik tapmasına gətirib çıxara bilər. Orada deyilirdi: "Zaman gəlib çatıb ki, Türkiyənin ağalığı altında olan Ermənistan Sovet İttifaqının sərhədləri daxilində müstəqil və azad şəkildə mövcud olan Ermənistana birləşsin və xaricdə yaşayan ermənilərə də öz vətənlərinə qayıtmaq icazəsi verilsin". Sənədin məzmunu və orada istifadə edilən ifadələr onun Sovet nümayəndələri tərəfindən hazırlandığını təsdiq edirdi. Memorandum az sonra SSRİ Xarici İşlər Xalq Komissarlığının Yaxın Şərq şöbəsinin əməkdaşı İ.Tsasulin tərəfindən rus dilinə tərcümə edilib, Ermənistan SSR Xarici İşlər Xalq Komissarlığına göndərilmişdi.[99]

Erməni Milli Şurası ilə yanaşı, daşnakları birləşdirən Erməni Milli Komitəsi də 1945-ci ilin aprel ayında "Erməni məsələsi ilə bağlı Memorandum" çap edərək San-Fransisko konfransının iştirakçıları arasında yaymışdı. Birinci sənəddən fərqli olaraq, daşnakların memorondumunda Türkiyə ilə yanaşı, Azərbaycana qarşı da torpaq iddiaları irəli sürülmüşdü. Burada "erməni məsələsi"nin tarixi bir qədər sonrakı dövrdən, XIX əsrin əvvəllərindən başlayırdı. Memorandumda Birinci Dünya müharibəsinin Yaxın Şərq cəbhəsi, bütövlükdə, ermənilərlə əlaqələndirilir, həmin cəbhədə alman-türk blokunun məğlubiyyətini türklərin ən yaxşı qüvvələrini Qafqaz və Azərbaycan cəbhəsinə, "Bakını türklərdən müdafiə edən Rusiya ermənilərinə qarşı" yeritmələri ilə izah edilirdi. Sənəddə ermənilərin böyük müttəfiqlərin "kiçik müttəfiqi" olması vurğulanır, Lloyd Corc, Jorj Klemanso, Vudro Vilsonun erməni işi üçün çalışdıqları, "Lenin və Stalinin 30 dekabr 1917-ci il dekreti ilə Ermənistanın müstəqilliyi və özünüidarə hüququnu tanıdıqları" və sonra bunun Sovet Rusiyasının birinci Konstitusiyasında təsbit olunduğu yada salınırdı. Memorandumun sonunda yeni formalaşan Millətlər Təşkilatının erməni məsələsinə ədalətli münasibət bəsləyəcəyinə və ermənilərin öz vətənlərinə qayıtması üçün şərait yaradılacağına ümid ifadə olunurdu. Bu memorandum da eynilə Moskvada İ.Tsasulin tərəfindən rus dilinə tərcümə edilib Yerevana

[99] ABŞ-dakı Erməni Milli Şurasının Birləşmiş Millətlərin San-Fransisko konfransına erməni məsələsi ilə bağlı təqdim etdiyi "Erməni xalqının işi" adlı Memorandum. 02.08.1945.// Ermənistan Respublikası Mərkəzi Dövlət İctimai Siyasi Təşkilatların Sənədləri Arxivi (ERMDİSTSA), f.1, s.034, i.28, v.45-53

göndərilmişdi.[100] Bu sənədlər haqqında Ermənistan SSR Xarici İşlər Xalq Komissarlığının hazırladığı arayışda göstərilirdi ki, İkinci Dünya müharibəsinin başlanmasına qədər Daşnak, Sağ Ramkavar və Qnçak mürtəce siyasi partiyaları Sovet quruluşu əleyhinə mübarizələrində Ermənistanın SSRİ-dən ayrılmasını tələb edirdilərsə, müharibə zamanı bu təşkilatların bir hissəsi öz təbliğatını dəyişmiş, açıq antisovet mübarizəyə son qoymuş, Sovet İttifaqına və Sovet Ermənistanına münasibətdə loyal mövqe tutmağa başlamışdılar. Arayışda qeyd edilirdi ki, erməni torpaqlarına münasibətdə onlar da Türkiyədən alınacaq torpaqların Sovet Ermənistanına birləşdirilməsi tələblərinə qoşulmuşlar.[101] Lakin Ermənistan Xarici İşlər Xalq Komissarlığının arayışında Erməni Milli Komitəsinin memorandumunda Türkiyə ilə yanaşı Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ bölgələrinə qarşı ərazi iddiaları irəli sürülməsinin üzərindən sükutla keçilirdi. Erməni Milli Komitəsinin Memorandumunda qaldırılan məsələlər təkcə Türkiyənin deyil, Cənubi Qafqaz sovet respublikalarının da maraqlarına toxunduğundan, Azərbaycan SSR Xarici İşlər və Dövlət Təhlükəsizliyi Xalq komissarlıqları beynəlxalq aləmdə erməni təşkilatlarının fəallaşması ilə ciddi şəkildə maraqlanırdılar. Qeyd etmək lazımdır ki, respublika orqanlarının bu istiqamətdə fəaliyyətləri SSRİ-nin müvafiq komissarlığının ümumi strateji xəttinə uyğun idi.

Azərbaycan SSR Təhlükəsizlik Komissarlığının əməkdaşı, SSRİ-nin Təbrizdəki Baş Konsulluğunun katibi K.B.Aruşanov tərəfindən hazırlanıb, 1945-ci il aprel ayının 9-da Bakıya göndərilmiş geniş arayışda İran Azərbaycanında 17 min erməni əhalisinin yaşadığı və bunun 12 mininin Təbriz konsulluq dairəsinə düşdüyü bildirilirdi. Arayışda qeyd edilirdi ki, erməni əhalisinin əsas hissəsi SSRİ-yə və Sovet Ermənistanına yaxşı münasibətdədir və Sovet İttifaqına böyük maraq göstərirlər. Onlar hər il Ermənistanda Sovet hakimiyyətinin qurulmasını və digər sovet bayram günlərini qeyd edirlər. Lakin bununla bərabər K.Aruşanov daşnakların SSRİ əleyhinə təbliğat apardıqlarına da toxunur, bütün er-

[100] Erməni Milli Komitəsinin "Erməni məsələsi ilə bağlı Memorandumu". 02.08.1945.//ERMDİSTSA, f.1, s.034, i.28, v.54-64

[101] Erməni Milli Komitəsinin Memorandumu. Aprel 1945.//ERMDİSTSA, f.1, s.26, i.17, v.190-191

mənilərin katolikosunun qarşıdakı seçkisi ilə bağlı yazırdı: "Onlar təbliğat aparırlar ki, Sovet hökuməti öz adamını katolikos seçəcək, xarici nümayəndələrin çağırılması isə görüntü üçündür. Xaricdən olan nümayəndələr orada heç nə edə bilməyəcəklər".[102]

San-Fransisko konfransına ünvanlanan bu sənədlərin ardınca 1945-ci ilin iyununda bütün ermənilərin katolikosu seçkiləri ilə bağlı Ermənistana gəlib və hətta, köhnə dostu kimi Stalin tərəfindən Moskvada qəbul edilən Kenterberi kilsəsinin başçısı Hyullet Consonun bəyanatı səsləndirildi. Kilsə müzakirələrində qaldırılan erməni ərazilərinin qaytarılması məsələsini şərh edən Conson iyun ayının 24-də Yerevanda keçirdiyi mətbuat konfransında qeyd etmişdi ki, mən Türkiyə tərəfindən zorla alınmış vilayətlərin nə qədər mümkünsə, tez bir zamanda Ermənistana qaytarılması ilə tamamilə razıyam. Əhalisi indiyə qədər qeyri-mütənasib olaraq azlıq təşkil edən, qanuni sakinləri bütün dünyaya səpələnmiş, zorla ələ keçirdiyi vilayətlərin iqtisadi inkişafını Türkiyə qəsdən yubadır.[103] Eyni zamanda o, Amerika ermənilərinin San-Fransisko konfransına tələblərini ədalətli hesab etdiyini bildirdi. Sovet rəhbərliyi Britaniya siyasi rəhbərliyində "qırmızı keşiş" adlandırılan Consonun çıxışından öz tələblərinin "haqlılığını" sübut etmək üçün faydalanmaq istəyirdi.

San-Fransisko konfransına ünvanlanan hər iki sənəddə söhbət Türkiyənin Şərq vilayətlərinin Ermənistan SSR-ə birləşdirilməsindən və "xaricdəki ermənilərin öz doğma ölkələrinə qayıtmasından" gedirdi. Sovet dövlətinin nöqteyi-nəzərini ifadə edən SİTA-nın erməni məsələsi ilə bağlı məlumat yayması, "Sovetskaya Armeniya" qəzetində Türkiyəyə ərazi iddiaları qaldıran D.Dəmirçiyanın məqaləsinin nəşr olunması xaricdə yaşayan ermənilər xeyli fəallaşdırmışdı. Azərbaycan Dövlət təhlükəsizliyi orqanlarının Təbrizdən verdiyi məlumatda göstərilirdi: "Sovetskaya Armeniya" qəzetinin həmin nömrəsi Təbriz ermənilər

---

[102] K.Aruşanov. Təbriz konsulluq dairəsinin erməni koloniyası haqqında arayış. 1945.// Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi (ARMTNA), i.862, I cild, v.59; Дж.Гасанлы. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны. 1941-1946. Москва, 2006, с.229

[103] Bax: J. Hasanli. Stalin and Turkish Crisis of the Cold War, 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK, 2011, p.90; К.Хачатрян. Армянский вопрос и репатриация армян в 1945–1949.// «Вертикали истории», Тбилиси, 2003, № 5, с.109–110.

arasında əldən-ələ gəzir. Bu məsələyə böyük maraq olduğunu görən yerli "Antifaşist" qəzeti "Sovetskaya Armeniya"dakı məqaləni təkrar nəşr etmişdi. Həmin məqalə ayrıca vərəqə şəklində nəşr olundu və bir neçə saat ərzində yayıldı. Bütün həftə ərzində yerli erməni icmasının əsas müzakirə mövzusu San-Fransisko konfransına təqdim edilmiş sənədlər idi. Təbriz ermənilərinin fikrincə, onların milli məsələsi yalnız Sovet İttifaqının rəsmi müdaxiləsi ilə həll edilə bilər. Təbrizdəki erməni kilsəsinin başçısı arxiyepiskop Nerses Melik-Tanqiyan deyirdi: "Moskvanın hesabına biz sərhədlərimizin genişləndirilməsinin və xaricdən Ermənistana qayıdışın şahidi oluruq. İndi artıq bunun vaxtıdır, bir neçə on ildən sonra xarici həyat tərzinə öyrənmiş yeni nəsil yaranar və bu iş mümkünsüz olardı. Stalinə teleqram göndərmək çox ağıllı fikirdir. Bizim üçün nə edəcəksə, bu adam edəcək". Təbrizdəki daşnakların lideri H. Əcəmyanın fikrincə, həm San-Fransisko konfransına təqdim edilmiş sənədlər, həm Eçmiədzin kilsə yığıncağının Stalinə teleqramı Sovet hökuməti ilə razılaşdırılmışdır. H. Əcəmyan erməni məsələsi ilə bağlı bütün baş verənləri Sovet İttifaqının siyasətinin nəticəsi hesab edirdi.[104] İranda Tudə Partiyasının üzvü olan ermənilər də bu ideyanı ürəkdən bəyənirdilər. İran Xalq Partiyasının üzvü H. Ovanesyan daha irəli gedərək "erməni məsələsini" Bakı neft mədənlərinin təhlükəsizliyi ilə əlaqələndirirdi. O, deyirdi: "Bakı neft sənayesinin təhlükəsizliyi tələb edir ki, sərhədlər Leninakandan bir qədər geri çəkilsin. İndiki anda "erməni məsələsinin" meydana çıxması bu zərurətlə bağlıdır. Sovet hökuməti Bakının təhlükəsizliyi məsələsində həddindən artıq maraqlıdır".[105] Xalq Partiyasının digər üzvü L.Çuxasızyan (Qnçak partiyasının keçmiş üzvü-C.H.) göstərirdi ki, "San-Fransisko konfransına təqdim edilən bəyannamə, Eçmiədzin yığıncağının Moskvaya müraciəti Yerevan qəzetlərindəki D.Dəmirçiyanın, Medxasyanın məqalələri, İngilis kilsə başçısının Ermənistandakı çıxışı bir zəncirin həlqələridir. İndiki vaxt türklərlə bütün həll olunmamış məsələləri, o cümlədən, sərhəd məsələsini həll etmək baxımından Moskva üçün çox əlverişlidir. Tezliklə biz görə-

[104] ARPİİ SSA f.1, s.89, i.95, v.176-178
[105] Yenə orada, v.178

cəyik ki, Türkiyə ilə dostluq haqqında müqaviləni ləğv etmək barədə Molotovun notası elə-belə verilməmişdir. Təbriz ermənilərinin fikrincə, "əgər Moskvanın razılığı olmasaydı, Amerika ermənilərinin bəyannaməsi meydana çıxa bilməzdi".[106]

Azərbaycan təhlükəsizlik orqanlarının məlumatlarına görə, 1945-ci ilin yazından başlayaraq, İrandakı ermənilər əməli cəhətdən "Böyük Ermənistan" qurmaq planlarına hazırlaşırdılar. İranın müxtəlif yerlərindən onlar 1945-ci ilin ortalarından etibarən Urmiya ətrafına köçməyə başlamışdılar. Sovetlərin tələbi ilə Türkiyənin Şərq vilayətləri Ermənistana birləşdirildikdən sonra, birinci addım kimi ermənilər "Böyük Ermənistan"la sərhəddə İran daxilində muxtariyyət almağı planlaşdırırdılar. 1945-ci ilin iyulunda məlum oldu ki, "Böyük Ermənistan" və "kiçik muxtariyyət" yaratmaq üçün Təbrizdəki erməni məktəbinin və erməni kilsəsinin zirzəmilərində çoxlu sayda silah və sursat gizlədilmişdir. Ən maraqlısı isə, bu silah anbarından İran Xalq Partiyasının üzvü olan ermənilərlə, daşnak və Qnçaq partiyasının üzvü olan ermənilərin birgə məlumatlı olması idi. İstintaq zamanı Xalq Partiyasının Azərbaycan əyalət təşkilatının fəallarından biri olan David Gevorkyan təsdiq etmişdi ki, erməni məktəbinin zirzəmisində daşnaklara məxsus silah olduğundan, hələ, 1944-cü ildə onun xəbəri var imiş. O, guya, ona görə, bu faktı gizlədib ki, Xalq Partiyasının üzvlərini silahlandırmaq lazım gələrdisə, tudəçilər bu silah anbarından istifadə etsinlər. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Xalq Komissarlığının hazırladığı arayışda göstərilirdi ki, silah anbarı daşnakların nəzarətində olmuşdur və onlar bu silah və sursatdan istədikləri yerlərdə istifadə etmək imkanına malik olmuşlar.[107] İstintaq zamanı Təbrizdəki erməni kilsəsinin başçısı Məlik-Tanqiyan SSRİ təhlükəsizlik orqanlarına şəxsən bildirmişdi ki, o, həmişə daşnakları himayə etmişdir, silah və sursatı da kilsənin zirzəmisində o, gizlətmişdir. Azərbaycan təhlükəsizlik orqanlarının məlumatına görə, yepiskop Nerses Məlik-Tanqiyan hələ 1929-cu ildən ingilis kəşfiyyatı ilə bağlı olmuşdur.[108] Göründüyü kimi,

[106] Yenə orada, v.179-180
[107] ARPİİ SSA f.1, s.89, i.95, v.183
[108] Yenə orada, v.184

qonşu Sovet respublikaları, Türkiyə və qismən Cənubi Azərbaycanın hesabına "Böyük Ermənistan" yaratmaq iddialarına əməli xarakter verilməsi Sovet İttifaqının İran və Türkiyə ilə münasibətlərinin gərgin bir mərhələyə daxil olmasından xəbər verirdi.

1945-ci ilin iyun ayının 7-də Moskvadakı türk səfiri Səlim Sarper ilə görüşündə V. Molotov Türkiyəyə qarşı Sovet tələblərini rəsmən bəyan etdi. O, bildirdi ki, Türkiyə 1921-ci ilin Moskva və Qars müqavilələri ilə "ələ keçirdiyi" Şərq vilayətlərini Sovetlərə qaytarmalıdır, Bosfor və Dardanel boğazlarına birgə nəzarət haqqında SSRİ-nin təklifləri ilə razılaşmalı və Boğazlar rayonunda Sovet İttifaqına hərbi baza yaratmaq üçün ərazi verməlidir.[109] Bu danışıqlar barədə Londona məlumat göndərən Britaniyanın Ankaradakı səfiri M.Peterson yazırdı ki, Türkiyənin şərq sərhədlərinə yenidən baxılması barədə Molotovun tələbləri yeni bir təhlükəsizlik sisteminin yaradılması ilə ziddiyyət təşkil edir.[110] Təxminən 10 gün sonra, iyun ayının 18-də Sovet Xarici İşlər Xalq Komissarı ilə türk səfiri arasında keçirilən ikinci görüşdə V.Molotov iyunun 7-də bəyan etdiyi tələblərində təkid etdi.[111] Britaniya Xarici İşlər Nazirliyinin dəyərləndirməsinə görə, türk səfiri ilə keçirilmiş bu iki görüş zamanı Molotovun irəli sürdüyü tələblər kəşfiyyat məzmununa malik olub, qarşı tərəfin baxışlarını öyrənilməsi xarakteri daşıyırdı.[112] Hər iki görüşdə Molotov Sovetlərin Türkiyəyə qarşı torpaq tələblərini Ermənistan və Gürcüstan Sovet respublikalarının iddiaları ilə əlaqələndirməyə çalışırdı.

---

[109] Bax: V.Molotovun gündəliyindən. Türkiyə Respublikasının səfiri Səlim Sarperin qəbulu. 07.06.1945.// RF XSA, f.06, s.7, q.2, i.31, v.1– 11; Turco-Soviet Relations. 1945.// National Archives (United Kingdom), Public Records Office, FO 371/48774; J.Hasanl. The "Turkish Crisis" of the Cold War Period and the South Caucasian Republic.// The Caucasus and Globalization, Vol. 2, Issue 4, 2008, pp.120-121

[110] From M. Peterson to Foreign Office. 14.06.1945.// National Archives (United Kingdom), Public Records Office, FO 371/48774

[111] Bax: V.Molotovun gündəliyindən. Türkiyə Respublikasının səfiri Səlim Sarperin qəbulu. 18.06.1945.// RF XSA, f.06, s.7, q.2, i.31, v.30– 37; Department of State. Memorandum of Conversation Acting Secretary Joseph Grew with British Charge John Balfour. Subject: Soviet - Turkish Relations. 18.06.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/6-1845; Əlavə məlumat üçün bax: J. Hasanli. Stalin and Turkish Crisis of the Cold War, 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK, 2011, p.82-85

[112] From Foreign Office to Washington. 05.07.1945.// National Archives (United Kingdom), Public Records Office, FO 371/48774

Sovet İttifaqının Türkiyəyə qarşı torpaq tələbləri Qərb Müttəfiqlərinin müqaviməti ilə qarşılaşdıqca, Moskva bu tələbləri Yerevan və Tiflisin timsalında əyalətlərin arzusu kimi təqdim etməyə çalışırdı. 1945-ci ilin avqust ayının ortalarında SSRİ Xarici İşlər Xalq Komissarlığının hazırladığı arayışa görə, Türkiyədən 26 min kv.km. ərazi alınmalı idi, bunun 20,5 min kv.km. Ermənistan, 5,5 min kv.km.-i isə Gürcüstan Sovet respublikalarına verilməli idi. Sovetlərin hesablamalarına görə, bu aksiya həyata keçirildikdən sonra Sovet Ermənistanının ərazisi əvvəlki illə müqayisədə 80 faiz, Sovet Gürcüstanının ərazisi isə 8 faiz artmalı idi.[113]

Türkiyə səfiri ilə danışıqlardan bir neçə gün sonra, iyun ayının 22-də ÜİK(b)P MK-nın Siyasi Bürosu əsasən, uyğurların yaşadığı Şərqi Türküstanda (Çinin Sinzian əyalətində - C.H.) separatist hərəkatı müdafiə etmək üçün gizli qərar qəbul etdi. Qərara görə, Sovet Ordusunda xidmət edən Mərkəzi Asiya millətlərindən olan 2500 nəfər zabit, çavuş və əsgər ordudan tərxis edilib uyğur adı ilə Şərqi Türküstana göndərilməli idi.[114]

Bu qərarlarla Moskva 1945-ci ilin iyun-iyul aylarında Yaxın və Orta Şərq sərhədləri boyunca özünün genişlənmə siyasətini müəyyənləşdirdi və Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı, bütövlükdə, respublika rəhbərliyi SSRİ-nin İran və Türkiyə, xüsusilə, Cənubi Azərbaycandakı hadisələrə yönəlmiş siyasətində fəal rol oynamağa başladı. Almaniya üzərində qələbədən sonra sovetlərin Cənubi Azərbaycanda möhkəmlənmək siyasəti strateji baxımdan Türkiyəyə qarşı irəli sürülən tələblərin gerçəkləşdirilməsinə köməklik göstərməli idi.

---

[113] Sovet – Türkiyə münasibətlərinə dair SSRİ XXİK-nın arayışı. 18.08.1945.// RF XSA, f. 06, s.7, q. 47, i.
762, v. 15; J.Hasanl. The "Turkish Crisis" of the Cold War Period and the South Caucasian Republic.// The Caucasus and Globalization, Vol. 2, Issue 4, 2008, pp.123-124; J.Hasanli. La "crisi turca" nella guerra fredda.// Ventesimo Secolo, Anno VIII, Giugno 2009, #19, pp.154-155

[114] Sincan (Şərqi Türkistan) haqqında ÜİK(b)P MK-nın Siyasi Bürosunun gizli qərarı. 22.06.1945// RDSSTA, f.17, s.162, i. 37, v. 145; Əlavə məlumat üçün bax: J.Hasanli. Der Kampf um das Erdöl im Nahen und Mittleren Osten.// Walter M. Ilber, Peter Ruggenthaler. Stalins Wirtschaftspolitik an der sowjetischen Peripherie. Ein Uberblick auf der Basis sowjetischer und osteuropaischer Quellen. Studien Verlag, Innsbruck, Wien, Bozen, 2011, pp.322-326

VI FƏSİL

İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCAN MÜHACİRƏTİNİN ALMANİYA İLƏ ƏLAQƏLƏRİ

§1. Üçüncü Reyxin Qafqaz mühacirlərini təşkilatlandırmaq cəhdləri

İkinci Dünya müharibəsinin ilk dövrlərindən Qafqaz faşist Almaniyasının hərbi-siyasi və strateji planlarında yer alırdı. Sovet-alman hərbi başlandıqdan sonra bu məsələ Berlin üçün əməli xarakter almağa başladı. 1940-cı ilin dekabr ayının 18-də təsdiq edilmiş "Barbarossa" planına görə ildırım sürətli hərbi əməliyyatlar nəticəsində Sovet İttifaqı təslim olduqdan sonra işğal edilmiş ərazilərin idarəçiliyi həyata keçirilməli idi. 1941-ci ilin iyul ayının 16-da Hitlerin yanında keçirilən müşavirədə sovet ərazilərinin işğalının başa çatdırılması, işğal olunacaq ərazilərinin idarə edilməsi və ələ keçiriləcək yeni rayonların istismarı ilə bağlı məsələlər müzakirə edilmişdi. Bilavasitə Hitler tərəfindən hazırlanmış "Ost (Şərq) Baş plan"ına görə Sovet Azərbaycanının ərazisi mərkəzi Tiflis olan Qafqaz reyxskomissarlığına daxil edilmiş, onun paytaxtı Bakı şəhəri isə "Almaniya reyxinin" bir hissəsi kimi verilmişdi. Almaniyadan qənimət kimi götürülmüş gizli arxiv sənədləri əsasında sonralar Amerika tarixçisi A.Dallin nasist hökumətinin ələ keçirdiyi və işğal edəcəyi Sovet ərazilərinin inzibati xəritəsini tərtib etmişdi. Həmin xəritədə Sovet Azərbaycanının ərazisində bəzi dəyişiklik edilmiş, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ermənistanın hüdudlarına daxil edil-

mişdi.[1] Hələ, Almaniyanın SSRİ-yə hücumundan 2 ay əvvəl yaradılmış Oldeburq İqtisadi Qərargahı Sovet Azərbaycanının təbii sərvətlərini, ilk növbədə isə Bakı neftini ələ keçirmək üçün müxtəlif planlar hazırlayırdı. Faşist liderləri bəyan edirdilər ki, "biz öz planlarımızı Ukrayna piyi və Bakı nefti hesabına quracağıq və həyata keçirəcəyik".[2] Sovet İttifaqına hücum ərəfəsində Vermaxtın operativ qərargahının 1941-ci ilin may ayının 4-də hazırladığı memorandumda Bakı neft rayonunun tutulmasının zəruriliyi göstərilirdi. Bu məqsədlə 1941-ci ilin yazında Oldeburq qərargahının nəzdində Vestfalen xüsusi idarəsi yaradılmışdı. 1941-ci ilin mart ayının 27-də imzalanmış xüsusi sərəncamla Bakı neftinin emalı və nəqli Almaniyanın "Ost-oyl" və "Kontnent-oyl" şirkətlərinə tapşırılırdı. 1942-ci ilin iyul ayında təsdiq edilmiş "Edelveys" planına görə Bakının işğalı 1942-ci ilin sentyabr ayının 25-də başa çatdırılmalı idi. Almaniyanın hərbi əməliyyat planlarında şimal-şərq istiqamətindən Bakıya qəfil desant çıxarılması nəzərdə tutulurdu ki, sovet orqanları neft mədənlərini məhv etməyə macal tapmasınlar.[3] 1941-ci ilin iyun ayının 11-də Almaniya Baş qərargahının hazırladığı 32 saylı direktivə görə Üçüncü Reyxin Yaxın Şərqə gedən yolu məhz, Qafqazdan keçməli və Qafqaz regionu işğal edildikdən sonra alman orduları buradan Yaxın Şərqə hərəkət etməli idilər.[4] Ona görə də Almaniyanın hərbi, siyasi, diplomatik və kəşfiyyat idarələri Qafqazın işğalına böyük əhəmiyyət verir və bu məqsədlə Qafqaz mühacirlərindən istifadə etməyi nəzərdə tuturdular. 1942-ci ilin payızında Bakının işğalı haqqında məlumatlar təhlükəli xarakter aldığından, Bakı-Batum neft kəmərinin sökülməsi ÜİK(b)P MK-nın nəzarətinə götürülmüşdü. Mərkəzi Komitə katibi A.Andreyev sentyabr ayının 15-də Azərbaycan və Gürcüstan rəybərliyinə teleqram göndərmişdi ki, kəmərin sökülməsi işlərinin gedişi barədə hər beş gündən bir ona məlumat versinlər.[5]

---

[1] Известия, 1959, 24 июня
[2] İsmayıl Musa. Azərbaycanın xarici siyasəti. İkinci hissə. Bakı, 2010, s.351
[3] Yenə orada, s.352-353
[4] Известия, 1959, 24 июня
[5] A.Andreyevin Çeplakov və Çarkvianiyə teleqramı. 15.09.1942.// RDSSTA, f.17, s.167, i.64, v.27-28

İlk dövrlərdə Faşist Almaniyasının SSRİ-yə qarşı kəşfiyyat işlərində erməni və gürcü mühacirlərinə daha çox üstünlük verilirdi. Xüsusilə, Almaniya və Avstriyada yaşayan ermənilər Sovet İttifaqına qarşı kəşfiyyat işlərinə cəlb etmək məqsədilə erməni millətçi partiyalarının üzvlərindən istifadə edilirdi. Məsələn Türkiyə ermənisi Alfred Muradyan Berlində İmperiya Təhlükəsizliyi SD-nin VI Baş İdarəsinin gizli əməkdaşı olaraq kəşfiyyat işlərinə cəlb edilmişdi. O, Avropada yaşayan erməni koloniyaları içərisində iş aparmalı idi. Muradyan daşnaklarla Almaniya rəsmi dairələri arasında əlaqələr yaratmalı idi. 1941-ci ilin sonlarında Muradyan artıq Dro və daşnaklarla sıx əlaqə saxlayır, onlarla Almaniya gestaposu arasında əlaqələr qururdu.[6] Əslən Türkiyədən olan Doktor Fruncyan Gestaponun IV idarəsi, rus ermənisi olan Baqdasaryan Şərq nazirliyinin erməni bölməsində işləyir, Qrant Zadayan SD-nin VI idarəsinin Vyanada agenti kimi kəşfiyyat işlərinə cəlb edilmiş, xüsusi tapşırıqlarla Bolqarıstan və İrana göndərilmişdi. Misir ermənisi Edvard Papazyan da SD-nin VI darəsinin Vyanada əməkdaşı idi və erməni koloniyası arasında iş aparırdı. Madam Diarbekiryan "Abver"in (Almaniyanın hərbi kəşfiyyat və əks-kəşfiyyatı) Rumıniyada agenti olaraq daşnaklarla, xüsusilə Dro ilə SD-ni əlaqələndirirdi. Gürcü mühacirlərindən olan Data Vaçnadze Almaniya Xarici İşlər nazirliyinin agenti olaraq çalışırdı. O, daşnak Arşak Camalyanla birlikdə SSRİ-yə qarşı mübarizə aparmaq üçün "Erməni-Gürcü itifaqı"nı yaratmışdı. Gürcü mühacirlərində Teymuraz Baqration, Sadataraşvili, knyaz Maqlakelidze bilavasitə "Abver"lə, professor Axmeteli SD-nin VI idarəsi ilə əməkdaşlıq edirdilər. [7]

P.Qamsaraqanın ifadələrində Njde və onun "İrqçi" qrupu haqqında ayrıca bölmə vardır. O, yazırdı ki, Njde Türkiyədə "erməni məsələsinin sülh yolu ilə nizamlanmasını rədd edir. Digər tərəfdən o, mənə Hitlerin hərəkətlərindən çox vəcdə gəldiyini dedi, keçmiş və indiki Almaniyaya çox hörmət və ehtiram göstərdiyini bildirdi, dünyanı yenidən bölüşdürəcəyini və erməni məsələsini həllini Al-

[6] Erməni və gürcü mühacirləri arasında Almaniya kəşfiyyatının agenturası. Keçmiş Almaniya ordusunun hərbi əsiri Pyotr Qamsaraqanın ifadəsi. 10.01.1949. // RFDA, f.P-9401, s.2, i.234, v.202-204

[7] Yenə orada, v.204-210

maniyadan gözlədiyin açıqladı. O, ümid edirdi ki, nasist Almaniyası vasitəsi ilə onlarla sıx bağlı olan Ermənistan yaradacaq".[8] Belə bir müzakirələrə Qamsaraqan hələ, Almaniya kəşfiyyatına yeni cəlb olunduğu 1940-cı ildə başlamışdı. Həmin ilin aprel ayında o, Buxarestdə daşnak partiyasının liderləri Sarkis Araratyan və Dro Kanyanla birlikdə müzakirə etmişdi. Daşnak liderləri Almaniya kəşfiyyatı ilə əməkdaşlığa böyük həvəslə razılıq vermiş və özlərinin SSRİ, Mərkəzi Amerika və İngiltərədəki komitələri vasitəsi ilə Almaniya kəşfiyyatına lazım olan məlumatları toplamağa vəd vermişdilər. S.Araratyan zəruri olduğu halda daşnakların həmin ölkələrdə fəaliyyət göstərən alman nümayəndələri ilə birbaşa əlaqələr quracağını bildirmişdi, lakin bütün bunların müqabilində faşist Almaniyası SSRİ ilə müharibəyə girəcəyi təqdirdə daşnakların idarə etdiyi müstəqil Ermənistan dövlətinin yaradılmasına köməklik etməli idi. Türkiyənin erməni rayonları ilə yanaşı, eyni zamanda, Almaniyanın yardımı ilə yaranan Ermənistan dövləti şərqdə Azərbaycanın Dağlıq Qarabağ, şimalda isə Gürcüstanın Borçalı rayonunun birləşdirilməsi hesabına öz ərazilərini genişləndirməli idi.[9] Qamsaraqanın məlumatına görə Almaniyanın SSRİ-yə hücumundan sonra 1941-ci ilin avqustunda daşnak liderləri Sarkis Araratyan, Dro Kanyan və Vahan Papazyanın bu şərtlər daxilində Berlində SD nümayəndəsinin iştirakı ilə "Abver"lə əməkdaşlıqları rəsmiləşdirildi.[10] Daşnak liderləri belə hesab edirdilər ki, Almaniya dünyanın ədalətli bölünməsi uğrunda mübarizəyə başlayıb və çox yaxşı olardı ki, ermənilər almanlar vasitəsi ilə öz istəklərinə çatsınlar, türklərlə aralarında ilə olan mübahisəli məsələlərini Berlinin köməkliyi ilə tənzim etsinlər.[11] 1941-ci ilin ortalarından etibarən Dro Almaniya xüsusi xidmət orqanlarının yaratdığı "Dromedar" kəşfiyyat qərargahının rəhbəri

---

[8] Yenə orada, v.211

[9] Keçmiş Almaniya ordusunun hərbi əsiri Pyotr Qamsaraqanın ifadəsi. 21.10.1948. // RFDA, f.P-9401, s.2, i.201, v.204

[10] S.Kruqlovun İ.Stalin, V.Molotov, G.Malenkov və L.Beriyaya məlumatı. 18.10.1948.// RFDA, f.P-9401, s.2, i.201, v.185-186

[11] Keçmiş Almaniya ordusunun hərbi əsiri Pyotr Qamsaraqanın ifadəsi. 21.10.1948. // RFDA, f.P-9401, s.2, i.201, v.198

təyin edilmiş və almanlar tərəfindən ona general rütbəsi verilmişdi. 1942-ci ildə Dro işğal olunmuş Kuban və Armavirdə fəaliyyət göstərərək orada daşnak təşkilatını yaratmış və Şimali Qafqazda erməniləri Almaniya kəşfiyyat orqanlarına cəlb etməklə məşğul olmuşdu.[12]

1942-ci ilin yanvar ayının 20-də Almaniyanın Xarici İşlər nazirliyində Qafqaz xalqları və Türküstan regionuna cavabdeh olan Verner Otto fon Henting erməni məsələsi ilə bağlı İmperiya Xarici işlər nazirliyinə xidməti məlumat hazırladı. O, yazırdı ki, sovetlərin Türkiyəyə hücumu ilə bağlı Ermənistanda hərbi hazırlıqları erməni məsələsini yenidən gündəliyə gətirmişdir və bu məsələ Parisdə yerləşən erməni milli partiyalarını ciddi şəkildə qayğılandırır. Fon Henting yazırdı: "Daşnaklar danışıqsız olaraq özlərini alman hökumətinin və ilk növbədə hərbi idarələrin sərəncamına vermişlər. Onlar əks-kəşfiyyat işləri üçün general Dronun rəhbərlik etdiyi hərbi mütəxəssisləri şərqə göndərmişlər. Mən işləri qiymətləndirən bir adam kimi general Dronun və onun rəhbərlik etdiyi komitənin rus cəbhəsində müstəsna dərəcədə faydalı olduğunu şəxsən ondan və onun adamlarından eşitmişəm. Rusların arxa cəbhəsində baş verən hadisələr haqqında son məlumatların əhəmiyyətli hissəsi ondan gəlir. O və komitənin digər üzvü Papazyan bu gün mənimlə görüş zamanı Türkiyənin müharibəyə cəlb ediləcəyi təqdirdə onları narahat edən məsələləri mənim qarşımda qoydular. Onlar hər şeydən əvvəl qorxurlar ki, Türkiyə indi müharibəyə daxil olsa Almaniya kompensasiya kimi Ermənistan vilayətinin ona vəd edilməsinə cəhd göstərəcək. Bizim şərq siyasətimiz baxımından mən erməni vilayətinin verilməsini doğru hesab etmirəm. Biz də, Türkiyə də bütün gücümüzü qoymalıyıq ki, Rusiya ilə Türkiyə arasında bufer zona yaradılsın və belə bir bufer zona yalnız birləşmiş Qafqaz dövlətləri birliyinin yaradılacağı təqdirdə ola bilər. Ermənistan öz əhalisinin sayı, ziyalıları, eyni zamanda dünyanın bütün ölkələri ilə saxladığı əlaqələri ilə bu birlikdən kənarda saxlanıla bilməz. Praktiki siyasət

[12] P.Fitinin V.Molotova. Kanyan Drastamat Martirosoviç (Dro) haqqında arayışı. 17.07.1944.// RDSSTA. f.82, s.2, i.1090, v.134

baxımından ermənilərı sakitləşdirməyin tək yolu onları sovet-rus təsirindən çıxarmaqdır. Ermənilərdən ehtiyat etmək lazımdır, çünki onlar nə qədər başıpozuq dəstə ola bilərlərsə, bir o qədər də müttəfiq kimi gərəkli ola bilərlər".[13]

Qamsaraqan qeyd edir ki, Stalinqradda alman ordu qruplaşmasının məğlubiyyətdən sonra Almaniya kəşfiyyatının ermənilərdən istifadə etmək məsələsi yenidən gündəliyə gəlmişdi.[14] Njdenin ətrafında "Abver"lə və Almaniya hərbi kəşfiyyatı ilə əməkdaşlıq edən dəstəyə Bakı ermənisi Sarkis Afanasyan, tanınmış erməni yazıçısı Leon Şantın oğlu Şant, İran ermənisi Badal, Rusiya ermənisi Hayk Yaqdaşyan, Türkiyə ermənisi Boloyan və digərləri var idi. 1943-cü ilin payızında Njde tərəfindən hazırlanmış erməni dəstəsi Almaniya kəşfiyyatı tərəfindən Sovet Ermənistanına göndərilmək üçün Krıma gətirilmişdi, lakin az sonra sovet-alman cəbhəsində vəziyyət dəyişdiyindən onlar Berlinə qaytarıldı. [15]

1941-ci ilin payızında Türkiyədə yaşayan Azərbaycan mühacirləri sovet-alman müharibəsinin başlanması və Almaniyanın qazandığı hərbi uğurların təsiri altında xeyli fəallaşmışdılar. Sentyabr ayında onlar necə hərəkət etmək barəsində türk hökumətinə müraciət etdikdə, Ankara onlara gözləmə mövqeyində dayanmağı məsləhət görmüşdü.[16] Sovet-alman hərbi başlandıqdan sonra, 1941-ci ilin avqust ayının 5-də Ankaradakı Almaniya səfiri fon Papen etibarlı bir mənbənin məlumatlarına əsasən İmperiya Xarici İşlər nazirliyi üçün "Pantürkist hərəkat" adlı geniş bir məruzə hazırlamışdı. Məruzənin mərkəzində Azərbaycan məsələsi dayanırdı. Orada göstərilirdi ki, "Almaniyanın Rusiyada hərbi uğurları ilə bağlı Türkiyə hakimiyyət dairələri rus-türk sərhəddinin o biri tərəfində yaşayan həmvətənlərinin, xüsusilə Azərbaycan türklərinin taleyi haqqında daha çox maraqlanmağa başlayırlar. Bu dairələrdə 1918-ci ilin vəziyyətinə

---

[13] Otto fon Hentingin Imperıya Xarici İşlər nazirliyinə xidməti məlumatı. 20.01.1942.// RFDA, f.P-9401, s.2, i.97, v.393-394

[14] Erməni və gürcü mühacirləri arasında Almaniya kəşfiyyatının agenturası. Keçmiş Almaniya ordusunun hərbi əsiri Pyotr Qamsaraqanın ifadəsi. 10.01.1949.// RFDA, f.P-9401, s.2, i.234, v.220

[15] Yenə orada, v.223

[16] Fon Papenin Almaniya Xarici İşlər nazirliyinə teleqramı.// RFDA, f.P-9401c, s.2, i.100, v.68

qayıtmaq və bu vilayətləri, xüsusilə böyük əhəmiyyətə malik Bakı neft rayonunu özünə birləşdirməyə cəhdlər müşahidə olunur".[17] Fon Papen bildirirdi ki, bu prosesə əməli xarakter vermək üçün həm Türkiyədə yaşayan Azərbaycan mühacirlərindən məlumatlar toplanır, həm də ölkə xaricində, ilk növbədə isə Türkiyənin şərq sərhədlərindən Xəzər dənizinə qədər türk əhalisinin məskunlaşdığı İran Azərbaycanında adamlar bu işə cəlb edilir. Almaniya səfiri bu məqsədlə yaradılmış qrupların birinə İstanbuldan olan millət vəkili, əslən tatar türklərindən olan Şükrü Yenibaxçanın başçılıq etdiyini, bura 1918-ci ildə İslam Ordusunun Bakı yürüşünə komandanlıq etmiş Nuru paşa, İstanbul Universitetinin professoru Zəki Vəlidi Toğan, Cəfər Seyidəhməd Krımer, Əhməd Cəfəroğlu, bir vaxtlar kamalçı Türkiyənin Azərbaycanda diplomatik nümayəndəsi, daha sonra isə Kabulda böyük elçi işləmiş Memduh Şevket Esendal, Hüseyn Hüsnü Emir Erkilet və digərlərinin daxil olduğunu yazırdı. Azərbaycan istisna olmaqla, Volqa türkləri, tatarlar, türkmənlər və digərlərinə münasibətdə Papenin fikrincə, Ankara hökumət dairələrinin indiki planı bu türkləri zahirən müstəqil, siyasi və mədəni münasibətlərdə qərb türklərinin "məsləhətçi" rolu oynadığı müstəqil "şərqi türk imperiyasında" birləşdirməkdən ibarətdir. Öz dəyərləndirməsində Papen tez-tez müzakirəyə çıxarılan Təbriz türkləri ilə Bakı türklərinin eyni dildə danışan və eyni qandan olan Azərbaycan türkləri olduğunu vurğulayır və onların hərəkatının liderinin "Müsavat" partiyasının qurucusu Məhəmməd Əmin Rəsulzadə olduğunu bildirirdi.[18] Fon Papen Sovet İttifaqında yaşayan türklər içərisində azərbaycanlıların daha çox müstəqil dövlət yaratmağa qadir olduqlarını yazırdı və əlavə edirdi ki, "Almaniya rusların niyyətlərinə hər vaxt dolayı yolla mane olmaq üçün cənub-şərqdə güclü dövlət yaratmağın imkanlarına xüsusi diqqət yetirməlidir. Ukrayna bu məqsəd üçün daha az yararlıdır. Ukraynalılar slavyandır və bolqarlar,

---

[17] Fon Papen. Pantürkist hərəkat. 05.08.1941.// RFDA, f.P-9401c, s.2, i.97, v.337

[18] Yenə orada, v. 338-339; Əlavə məlumat üçün bax: Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.578; Selim Deringil. Denge Oyunu: İkinci Dünya Savaşında Türkiyenin Dış Politikası. Baskı I, İstanbul, 1994, s.167

serblər kimi istənilən vaxt özlərinin Rusiya ilə ümumi keçmişlərini xatırlaya bilərlər. Türklərə münasibətdə bu istisnalıq təşkil edir. Mənim təəssüratlarıma görə İran hökuməti Azərbaycan türkləri ilə fövqəladə dərəcədə maraqlanır, mənim mənbəm deyir ki, bu tamamilə təbiidir. Bugünkü İranda eyni sayda fars və türk yaşayır. Şah özü türk ailəsindən çıxıb".[19] Papenin fikrincə, şah istərsə və bu dəyişikliyin üstünlüyü ona sübut edilsə, o, öz siyasi müstəqilliyi üçün təhlükə görməzsə, bir dəfə qələmi fırlatmaqla çox rahatca özünün İran - Ərəb dövlətini, qarışıq əhalisi olan bir dövlətə çevirə bilər. Təxminən beş ay sonra İmperiya Xarici İşlər nazirliyinə göndərdiyi "Turan məsələsinə dair" başqa bir dəyərləndirməsində fon Papen Sovet Rusiyasından azad olacaq türk xalqlarının dövlət quruluşu haqqında ayrı-ayrı fikirləri Berlinə çatdırırdı. O, Türkiyədən gedən müzakirələrə toxunaraq yazırdı ki, Zəki Vəlidi Toğan başda olmaqla bir qrup pantürkist federal prinsiplərə üstünlük verir və onlar "Türkiyə ilə federativ əlaqələrdə olan muxtar Azərbaycan, Şərqi Türküstanı da öz içinə alan muxtar Türküstan ideyasına üstünlük verirlər. Əksinə, general Erkilet isə, Bakı paytaxt olmaqla türk xalqları dövlətlərinin böyük ittifaqını nəzərdə tutur. Pantürkistlərin xüsusi türk vilayəti hesab etdikləri Azərbaycan daha mühüm əhəmiyyət kəsb edir. Səciyyəvidir ki, hələ Atatürkün sağlığında uzun illər Türkiyədə Azərbaycan muxtariyyəti ideyasını ifadə edən "Odlu yurd" jurnalı nəşr olunurdu".[20] General Erkiletlə yanaşı, Türkiyənin hərb məktəbi rəisi general Ali Fuat Erdenin Rusiya türkləri ilə bağlı maraqlı fikirləri var idi. Onun Qafqazda və Rusiyanın türk xalqlarının yaşadığı digər bölgələrində müstəqil türk dövlətlərin yaradılmasının zəruriliyi haqqında fikirlərini səfir fon Papen hələ, 1941-ci ilin iyul ayının 14-də Berlinə çatdırmışdı.[21]

1942-ci ilin may ayında Türkiyənin Azərbaycan siyasəti ilə bağlı fon Papen 1918-ci ildə Bakının azad olunması əməliyyatına rəhbərlik etmiş Mürsəl Baku paşa ilə görüşmüşdü. Mürsəl paşa demişdi ki,

---

[19] Yenə orada, v.341
[20] Fon Papen. Turan məsələsinə dair. 05.01.1942.// RFDA, f.P-9401c, s.2, i.97, v.345
[21] Selim Deringil. Denge Oyunu: İkinci Dünya Savaşında Türkiyenin Dış Politikası, s.165

Türkiyə ordusunda öz ölkələri haqqında yaxşı məlumatlara malik olan çoxlu sayda Qafqaz, xüsusilə Azərbaycan mənşəli zabitlər xidmət edirlər və onlardan gələcək işlərdə istifadə etmək olar. Sonra Mürsəl paşa M.Ə.Rəsulzadənin müavini, Türkiyədə Azərbaycan milli hərəkatının rəhbərlərindən olan Kərim Odərin memorandumunu fon Papenə təqdim etmişdi.[22] Kərim Odərin memorandumu, əsasən Qafqaz xalqlarını Rusiyaya qarşı mübarizə tarixini özündə əks etdirirdi. Orada XI əsrdən başlayaraq qafqazlıların rus hücumlara qarşı mübarizəsi, onların "mənim evim vətəndir, mənim allahım azadlıqdır" devizi ilə yaşadıqları vurğulanırdı. Memorandumda Qafqazda azadlıq uğrunda mübarizənin əsas hadisələri sadalanır, rus işğallarında, sonra qafqazlıların vəziyyəti təsvir edilirdi.[23]

Sovet ərazilərini işğal etdikdən sonra Rusiya və Ukraynadan fərqli olaraq Almaniya Qafqaz və Orta Asiyada yerli nüfuzlu şəxslərdən istifadə etməyi planlaşdırırdı. Bu məqsədlə onlar Almaniyanın "Yeni Avropa" planında Türkiyəyə böyük önəm verir və orada yerləşən Qafqaz və Orta Asiya mühacir qruplarının fəallaşdırılmasını zəruri hesab edirdilər. Almaniyanın şərq siyasətinə məsul bir sıra şəxslərin fikrincə, Rusiyadan azad ediləcək türk-müsəlman xalqlarının gələcəyini təmin etmək üçün onların gəncləri Almaniya və Türkiyə universitetlərinə oxumağa göndərilməli idilər. Alman rəsmilərinin fikrincə, Almaniya Qafqazı tutduqdan sonra burada yerli adamlardan ibarət hökumət yaradılmasını mümkün sayır, əslində isə hakimiyyətin alman müşavirlər tərəfindən idarə olunmasını nəzərdə tuturdu. Şərq işğal vilayətləri üzrə nazirliyin nümayəndəsi professor Gerhard fon Mende, SS briqadenfürer Simmerman və digərləri bu məqsədlə mühacirlərlə əlaqələr qururdular. Bir sıra mühacirlərin Almaniyanın Sovetlərin türk xalqlarına müstəqillik vermək niyyəti yoxdur fikri ilə Berlindən bədbin qayıtması Üçüncü Reyxin bəzi dairələrini narahat etməyə başlamışdı. Onlar mühacir təşkilatlarını inandırmağa çalışırdılar ki, "ruslar tezliklə əzildiyi halda qeyri-rus azlıqların bizdən azadlıq

[22] Fon Papen. Türkiyənin Qafqazda maraqları barədə. 13.05.1942.// RFDA. f.P-9401c, s.2, i.97, v.347
[23] Kərim Odər. Qafqazın əhəmiyyəti və qafqazlıların vəziyyəti. Memorandum. 13.05.1942.// RFDA. f.P-9401c, s.2, i.97, v.348-354

gözlədiklərini bilirik. Biz onların bu ümidlərini boşa çıxarmamalıyıq, öz növbəsində azlıqlar da bizi məyus etməməlidir".[24] Almaniya Xarici işlər nazirliyində şərq və Qafqaz məsələsi üzrə əsas ekspert SSRİ-dəki keçmiş səfir Fridirix Verner fon der Şulenburg idi. Birinci Dünya müharibəsinə qədər o, Almaniyanın Tiflisdə vitse-konsulu işləmiş və 1918-ci ildə milli respublikalar yarananda Gürcüstandakı Almaniya diplomatik missiyasına rəhbərlik etmişdi. Sovet–Almaniya müharibəsi başlandıqdan sonra qraf Şulenbur Almaniyanın Qafqaz siyasətini hazırlayan başlıca fiqur idi. Fon der Şulenburg belə hesab edirdi ki, konseptual baxımdan azad olunmuş ərazilərlə, o cümlədən Qafqaz məsələləri ilə Şərq nazirliyi deyil, Almaniya Xarici İşlər nazirliyi məşğul olmalıdır. Belə yanaşma bilavasitə Xarici İşlər naziri Ribbentrop tərəfindən müdafiə edilirdi. Şərq nazirliyinin yanaşması ilə XİN-nin yanaşmasında prinsipial fərq Rusiyanın idarə olunması və onun inzibatı bölgüsü ilə bağlı idi. Rozenbergə görə qeyri-rus xalqların müstəqilliyini müdafiə etmək lazım idi, Ribbentrop – Şulenburgə görə isə milli azlıqlar rus ittifaq dövlətinin tərkibində yer ala bilərdilər. Almaniya Xarici İşlər nazirliyinin Turançılıq üzrə xüsusi müşaviri Henting belə hesab edirdi ki, Sovetlərdən azad olunmuş Krıma muxtar bir idarəçilik hüququ verilərsə, bu Almaniyanın digər türk cümhuriyyətlərinə və Cənubi Azərbaycanın yerləşdiyi İrana yönəlik siyasətini asanlaşdırmış olardı. Lakin Alfred Rozenbergin Şərq nazirliyi nə Krıma müstəqillik verilməsi, nə də Qafqaz respublikalarının muxtar idarəçilik hüquqları haqqında heç nə eşitmək istəmirdi.[25] Almaniya Xarici işlər nazirliyinin hazrladığı başqa bir sənəddə göstərilirdi ki, Türkiyə böyük çoxluğu müsəlmanlardan, mənşə etibarı ilə qismən türklərdən ibarət olan Qafqazın Almaniya tərəfindən tutulacağını və Qafqaz xalqlarının taleyinin Berlin tərəfindən müəyyən ediləcəyini ehtimal edir. Bu Türkiyənin maraqlı olduğu Xəzərdən şərqə doğru

[24] Papen. Siyasi hesabat. Türkiyənın yeni baş nazirinin türk azlıqları və Rusiyanın gələcəyi məsələləri haqqında fikirləri. 27.08.1942.// RFDA, f.P-9401c, s.2, i.100, v.63

[25] Bax: Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010, s.181-182; Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.378-380

yerləşən türklərin taleyinə təsir etməyə bilməz. Sənəddə qeyd edilirdi ki, Türkiyə hələ ki, ərazi ələ keçirməyin heç bir təzahürünü nümayiş etdirmir. Amma belə hesab edilirdi ki, onu bu işə maraqlandırmaq lazımdır. Məsələn, qeyd edilirdi ki, "İranın şimalında yaşayan azərbaycanlıların inqilabi hərəkatında Türkiyənin təsirini gücləndirmək olar. Ümumiyyətlə, söhbət Krımda, Qafqazda, Rusiya Azərbaycanında və analoji olaraq Xəzər dənizinin şərqində müstəqil, heç olmasa zahirən müstəqil türk dövlətləri yaradılması ideyasına tərəfdarlar tapılmasından getməlidir".[26]

Almanların Turançılıq planlarına Türkiyənin rəsmi dairələri ehtiyatla yanaşırdılar. Onların müttəfiqlər qarşısındakı öhdəlikləri də Ankaranı ehtiyatlı olmağa vadar edirdi. Adolf Hitler Berlindəki türk səfiri Hosrov Gerede ilə söhbətində onun diqqətini Rusiyanın müsəlman torpaqlarına və türk xalqlarına cəlb etdikdə, səfir bildirmişdi ki, "Türkiyə bütövlükdə öz torpaqlarını inkişaf etdirməklə məşğul olduğundan, ərazilərini genişləndirməyə yönəlik ən kiçik bir addım atmaqda belə həvəsli deyildir.[27] Ankaradakı alman səfiri fon Papenlə 1942-ci ilin aprel ayındakı söhbətində Baş nazir Saracoğlu Turançılıq məsələsində Türkiyənin Almaniyanı rəsmi olaraq dəstəkləyə bilməyəcəyini ifadə etmiş, lakin rəsmi vəzifəsi olmayan ayrı-ayrı şəxslər vasitəsilə bu məsələdə alman hökuməti ilə əlaqələrin qurulmasına etiraz etmədiyini də bildirmişdi. Tanınmış bir Turançı kimi təqaüdə çıxmış general Erkilet və general Ali Fuat Erdenin Almaniya Xarici İşlər nazirliyinin müşaviri Henting ilə əlaqələri bu qeyri-rəsmi razılığın nəticəsi idi. Şamdakı türk konsulu ehtiyatsızlıq edərək 1942-ci ilin avqust ayında ingilislərə eyham vurmuşdu ki, Türkiyə gözünü Şərqə və Şimal-Şərqə, Azərbaycana və Qafqazdakı türklərə çevirmişdir.[28]

Lakin Berlin səfir fon Papenin Rusiyanın türk-müsəlman milli azlıqları ilə bağlı həm Ankara rəsmiləri, həm də mühacirət nümayəndələri ilə apardığı danışıqları isti qarşılamadı. 1942-ci ilin sentyabr ayında Berlindən səfirə təlimat gəldi ki, bu məsələlərdə

---

[26] General Varlimont üçün qeydlər. 23.01.1942.// RFDA, f.P-9401, s.2, i.97, v.294-295.
[27] The Middle East in the War. London, 1952, p. 449
[28] Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010, s.183-184

təmkinli hərəkət etsin. Berlində belə hesab edirdilər ki, səfir Papenin apardığı müzakirələr Almaniyanın Qafqazdakı hərbi əməliyyatlarla bağlı Türkiyə ilə sıx əlaqələr qurmaq istəkləri kimi güman edilə bilər və Vermaxtın Qafqaz əməliyyatına, bütövlükdə bu regionun gələcək taleyinə mənfi təsir göstərə bilər.[29] Ribbentropun imzası ilə Fon Papenə göndərilmək üçün hazırlanmış və Hitlerin təsdiqinə verilmiş "Şəxsən səfirə" adlı təlimatda göstərilirdi ki, "sizin 26 və 28 avqust 1942-ci il tarixli teleqramlarınızdan bəlli olur ki, Türkiyə dövlət xadimləri ilə danışıqlarda siz dəfələrlə Qafqazın türk xalqlarına Türkiyənin maraqları mövzusuna toxunmusunuz. Bu məsələlərdə maraqlı olduqlarını nümayiş etdirən həm cənab Numan, həm cənab Saracoğlu, ya birbaşa məsləhət vermək, ya da üçüncü bir etibarlı şəxs vasitəsi ilə bizə konkret kömək vəd etmirlər. Onlar bir tərəfdən türklərin arzu və tələblərini bəyan etməyə hazır olduqlarını bildirir, digər tərəfdən ciddi cəhdlə məlum türk bitərəfliyini qeyd edirlər. Biz hazırda bu məsələ ilə bağlı türk hökuməti ilə hər hansı müzakirələr aparmaq və qabaqcadan hadisələrin hansı istiqamətdə cərəyan edəcəyini müəyyən etməkdə maraqlı deyilik. Bizim bu məsələdə türkləri əmin edəcək hər hansı dəlilimiz yoxdur və onlara imkan verə bilmərik ki, bu məslə ilə bağlı onlar öz istək və tələblərini irəli sürsünlər. Türklərin bu məsələdə maraqları hər halda elə də uzağa getmir ki, onlar vuruşan ölkələrə münasibətdə bizim düşündüyümüz mənada öz ümumi siyasi mövqelərini dəyişsinlər".[30] Ribbentrop tərəfindən səfirə təlimat verilirdi ki, Turançılıq məsələsində türk hökuməti ilə ehtiyatlı olsun və Türkiyə hökuməti Almaniyaya münasibətini dəyişməyincə, Almaniya bu məsələdə Türkiyənin istəklərini yerinə yetirməkdə qərarlı deyildir.[31] Ona görə Ribbentrop təlimat verirdi ki, səfir Papen bu istiqamətdə olan danışıqları dayandırsın və əgər Türkiyə tərəfi yenidən Sovet İttifaqının türk xalqları

[29] Fürer üçün arayış. 12.09.1942.// RFDA, f.P-9401c, s.2, i.100, v.75; Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010, s.184

[30] Yoaxim fon Ribbentropun fon Papenə təlimatı. Şəxsən səfirə. 12.09.1942.// RFDA, f.P-9401c, s.2, i.100, v.76; Əlavə məlumat üçün bax: Türkiyedeki Alman Politikası 1941-1943. Alman Dış İşleri Dairesi Belgeleri, Havass Yayınları, İstanbul, 1977, s.81

[31] Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010, s.184

məsələsinə toxunsa tam təmkinlilik nümayiş etdirsin. Türkiyənin Turançılığa marağının elə də böyük olmaması baxımından Ribbentropun təxminləri doğru idi. Bunu Ankaradakı Britaniya səfirliyinin hazırlayıb 1942-ci ilin iyun ayında Forin Offisin Şərq departamentinə göndərdiyi raport da təsdiq edirdi. Orada göstərilirdi ki, Türkiyədə Turançılıq yayğındır və bu düşüncəyə yaxın olanlar İranda və Sovet İttifaqında türklüyün yayılmasını arzulayırlar, lakin bu hərəkətlər gizli həyata keçirilir və hökumətdən hansısa bir dəstək almır, bununla belə hökumət də bu hərəkətləri aradan qaldırmaq üçün öz imkanlarından axıra qədər istifadə etmir.[32] Rəsmi olaraq hökumət bir tərəfdən neytrallığa sədaqətli olduğunu nümayiş etdirir, digər tərəfdən isə türk xalqlarının məskunlaşdığı Sovet İttifaqı ilə ehtiyatlı davranmağa üstünlük verirdi. Hətta bacarıqlı bir diplomat hesab edilən Berlindəki səfir Hosrov Gerede 1942-ci ilin aprel ayının 23-də Türk klubunda keçirilən toplantıda yaxın vaxtlarda - Sovet İttifaqını nəzərdə tutaraq - Türkiyənin tarixi düşməninin məğlub olacağını dilə gətirdiyi üçün geri çağırılmış və onun yerinə Saffet Arıkan yeni səfir təyin edilmişdi.[33]

1942-ci ilin avqustunda İ.Stalin U.Çörçil və ABŞ səfiri Averal Harrimanın iştirakı ilə keçirilən Moskva konfransında ikinci cəbhənin Qafqazdan açılması barədə müttəfiqlərin təklif irəli sürməsi barədə xəbərlər yayılmış və xəbərlər Qafqaz mühacirətinə marağı daha da artırmışdı. Belə bir xəbərlərin yayılması Türkiyənin də narahatçılığına səbəb olmuş və bu narahatçılığı Türkiyənin yeni Xarici İşlər naziri Numan Menemençioğlu 1942-ci ilin avqust ayının sonlarında Ankaradakı Almaniya səfiri fon Papenlə görüşdə ifadə etmişdi. İkinci cəbhənin Qafqazdan açılması barədə N.Menemençioğlu haqlı olaraq bu fikirdə idi ki, bu təklif dəfələrlə müttəfiqlər tərəfindən səsləndirilsə də, ruslar xarici ordulardan öz ərazilərində istifadə etmək istəmirlər. Ona görə Türkiyə Xarici İşlər naziri belə hesab edirdi ki, ruslar bu dəfə də xarici orduların Cənubi Qafqaza daxil olması təklifin-

[32] Selim Deringil. Denge Oyunu: İkinci Dünya Savaşında Türkiyenin Dış Politikası. İstanbul, 1994, s.187

[33] Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.591

dən yayınacaqlar.[34] Almaniya Britaniyanın ikinci cəbhə adı ilə Cənubi Qafqaza daxil olacağını hələ 1941-ci ilin avqust ayında ehtimal edirdi. Bunun qarşısını almaq üçün Hitler avqust ayının 22-də İran şahına müraciət etmişdi. Fürer ümid edirdi ki, şah İran ərazisinin hərbi əməliyyat meydanına çevrilməsinin əleyhinə olacaq və ingilis ordularını öz ərazisindən Qafqaza buraxmayacaqdır. Ribbentrop avqustun 22-də Tehrandakı Almaniya səfiri Ettelə teleqramında Hitlerin bu fikirlərini şaha çatdırmağı tapşırırdı.[35]

Sovet İttifaqının xüsusi xidmət orqanları 1918-ci ildə Osmanlı ordusunun Bakının qurtuluşunda iştirak etmiş yüksək rütbəli zabitlərin pantürkist hərəkətlərini həssaslıqla izləyirdilər. 1945-ci ildə Berlin əməliyyatı zamanı Almaniya Xarici İşlər nazirliyinin qənimət kimi müsadirə edilmiş sənədlərinin içərisində vaxtilə Bakı əməliyyatına rəhbərlik etmiş Nuru paşanın 1943-cü ilin sentyabr ayının 14-də Almaniya Xarici işlər nazirliyinin məsul əməkdaşları ilə apardığı danışıqların materialları da var idi.[36] Sovet xüsusi xidmət orqanlarının məlumatlarına görə, məhz, Almaniya ilə əlaqələrin nəticəsi kimi Nuru paşa sovetlər əleyhinə təbliğat aparan "Çinaraltı" və "Akbaba" jurnallarını buraxmağa başlamışdı. Sovet orqanlarının fikrincə, "Çinaraltı" adı altında jurnal buraxmaq Rusiyanın bütün türk xalqlarını "bir çinar altına" toplamaq anlamına gəlirdi.[37] Jurnalda Sovet İttifaqının cənubunda yaşayan türk əhalisi, ilk növbədə Azərbaycan türkləri adından SSRİ-yə qarşı təbliğat aparılırdı. Pantürkizm həmin dövrdə SSRİ-yə qarşı mübarizədə daha cəlbedici görünürdü və bunun mərkəzi siması da 1918-ci ildə fon Kress ilə birlikdə Bakıya yürüşdə iştirak etmiş Nuru paşa idi. Nuru paşa hələ, 1941-ci ilin avqust ayının ortalarında Leypsiq yarmarkasına gedəndə Almaniya Xarici İşlər nazirinin müavini Ernest fon Veyzsökker onunla əlaqəyə girib, SSRİ-də yaşayan türklərin Moskvaya qarşı qaldırılması imkanlarını müza-

---

[34] N.Menemençioğlu ilə görüş barədə fon Papenin Almaniya Xarici işlər nazirliyinə məlumatı. 26.08.1942.// RFDA, f.P-9401c, s.2, i.100, v.73

[35] Ribbentropun Ettelə teleqramı. 22.08.1941.// RFDA, f.P-9401c, s.2, i.95, v.159.

[36] L.Beriya və S.Kruqlovun İ.Stalinə məlumatı. 16.10.1945 / RFDA, f.P-9401c, s.2, i.100, v.76

[37] Türkiyədə Almaniya təbliğatı. 15.07.1944.// RDSSTA, f.17, s.128, i.9, v.23

kirə etmişdi.[38] Nazirliyin dövlət katibi Ernest Voermann ilə söhbətində Nuru paşa bildirdi ki, Qafqazda vəziyyəti yaxşı bildiyindən təxminən 100 min adamı əhatə edəcək bir üsyanın başladılmasına təminat verə bilər və bu işdə alman hakimiyyət orqanlarına öz məsləhətləri ilə köməklik göstərməyə hazırdır. Nuru paşa İran və Sovet Azərbaycanı daxil olmaqla Dağıstan, Krım, Tatarıstan, Volqa və Ural ərazilərini əhatə edən, siyasi quruluş etibarı ilə Türkiyə yaxın müstəqil Turançı bir dövlətin yaranmasını vacib hesab edirdi. Voermann vaxtilə Mustafa Kamal Atatürkün milli dövlət anlayışlarının Turançılığın əleyhinə olduğunu bildirdikdə, Nuru paşa dedi ki, Atatürk Sovetlərin qorxusundan Turançılıq əleyhinə idi və Almaniya Rusiyanı əzdiyi halda bu qorxu aradan qalxacaqdır. Voermann türk xalqı və hökumətinin bu görüşlərə münasibətini soruşduqda, Nuru paşa bildirdi ki, bunun üçün Türkiyədə uyğun bir vaxtda Turançı hökumət hakimiyyətə gəlməlidir. O, təklif edirdi ki, Sovet İttifaqının Almaniya tərəfindən tutulan türk bölgələrində yerli türklər idarəçiliyə gətirilməli, əsir düşən türklərdən ibarət legionlar təşkil edilməli və bu legionlar SSRİ-yə qarşı müharibə başa çatdıqdan sonra Turançılıq uğrunda savaşı davam etdirməli idilər. Nuru paşa Berlində onun və dostlarının idarə edəcəyi Turançı bir təbliğat mərkəzinin yaradılmasını da zəruri hesab edirdi.[39] Rusiyanın əleyhinə olsa da, Voermann Türkiyə ilə sıx ittifaqda olan Turan imperiyasının yaranmasına ehtiyatla yanaşır, Bakı neft mədənlərinin və Batum terminallarının Türkiyə tərəfindən idarə olunmasını Almaniya üçün mümkünsüz sayırdı. Nuru paşanın təklifləri sırasından o, əsir düşən türklərdən ibarət hərbi hissələrin yaradılmasını Almaniyanın Şərq və islam siyasətinə uyğun hesab edirdi.[40]

---

[38] Fon Papenin məktubundan çıxarış. 17.08.1941.// RFDA, f.P-9401, s.2, i.97, v.287-288.

[39] Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010, s.179-180; Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi. Istanbul, 2003, s.510-511; Nuru paşanın Berlində apardığı danışıqlar barədə ətraflı məlumat üçün bax: Documens on German Foreign Policy, 1918-1945, Series D, v.13. The War years. Washington: U.S. Government Printig Oficce, 1964, pp.571-575

[40] Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010, s.181; Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.589

Milli legionların yaradılması işinə sovet-alman cəbhəsində ilk əsir dəstələri ələ keçirildikdən sonra başlanmışdı. Almaniyanın Sovet İttifaqına hücumundan 4 gün sonra, Buxara Xalq Respublikasının Berlində keçmiş nümayəndəsi, daha sonra İmperiya Xarici İşlər nazirliyi siyasi idarəsinin referenti Alimcan İdris "Rusiyada türk-tatarlar" adlı geniş bir arayış hazırladı. Burada Rusiyada yaşayan türk xalqlarının sayının 27-30 milyon olduğu bildirilir və hərbi əməliyyatlarda əsir alınacaq türk xalqlarının nümayəndələrindən bolşevizmə qarşı mübarizədə istifadə edilməsi tövsiyə edilirdi.[41] A.İdris bu arayışa əlavə olaraq Berlin, Paris, Buxarest, İstanbul və Ankarada yaşayan Qafqaz və türk əsilli, separatçı əhvali-ruhiyyəli mühacirlərin siyahısını bu arayışa əlavə etdi. O, ilk növbədə bu dairələrə "Prometey" təşkilatında birləşmiş mühacirləri aid edir və onların polyak və fransız yəhudilərindən maliyyə yardımı alaraq Berlin, İstanbul və Rumıniyada jurnallar nəşr etdiklərini bildirirdi. Bura Xəlil Münşi ilə birlikdə "Kurtuluş" jurnalını buraxmış "Azərbaycan müstəqillik ideyasının tərəfdarı M.Ə.Rəsulzadə", Türküstan müstəqillik ideyasının tərəfdarı Mustafa Çokayev, Volqa-Ural müstəqil respublikasının tərəfdarları Ayaz İshaki və Rəşid Rəhməti, Başqırdıstan müstəqil respublikasının tərəfdarı Zəki Vəlidi Toğan və Krım müstəqil respublikasının tərəfdarı Cəfər Seyidəhməd daxil idilər.[42] Sovet xüsusi xidmət orqanlarının məlumatına görə Zəki Vəlidi 1932-1939-cu illərdə Almaniyada yaşamış və şərq dilləri sahəsində elmi fəaliyyətlə məşğul olmuşdu. Onun 1943-cü ildə Türküstan mühacirlərini təşkilatlandırmaq məqsədi ilə Almaniya və Rumıniya, habelə işğal olunmuş sovet ərazilərinə səfər etməsi haqqında məlumatlar SSRİ Dövlət Təhlükəsizliyi Xalq Komissarlığının arayışında yer almışdı.[43] Eyni məlumatlar sovet xüsusi orqanları tərəfindən Krım tatar mühaciri Cəfər Seyidəhməd haqqında da toplanmışdı. Onun Rumıniyada yaşayan Krım tatarlarının Türkiyəyə köçürülməsi əley-

---

[41] Alimcan İdris. Rusiyada türk-tatarlar. 25.06.1941.// RFDA, f.P-9401c, s.2, i.97, v.374-379

[42] Alimcan İdris. Əlavə. 25.06.1941.// RFDA, f.P-9401c, s.2, i.97, v.380

[43] P.Fitinin V.Molotova. Zəki Vəlidi Toğan haqqında arayışı. 13.07.1944.// RDSSTA, f.82, s.2, i.1090, v.147

hinə çıxış etdiyi, Almaniya ilə sıx əməkdaşlıq etdiyi bildirilir və 1942-ci ildə Berlinə səfər etdiyi bildirilirdi.[44] Fon Hentingin tapşırığı ilə Alimcan İdris eyni zamanda nazirlik üçün Qafqaz və Türküstan broşurlarını da hazırlamışdı.

§ 2. Milli legionların yaranması və Azərbaycan mühacirəti

Almaniyanın SSRİ-yə hücumundan az sonra, 1941-ci ilin iyul ayının 17-də işğal olunmuş şərq vilayətləri üzrə nazirlik yaradıldı və ona Alfred Rozenberg rəhbərlik etməyə başladı. Bu nazirliyin yaradılması haqqında Hitlerin imzaladığı "Yeni işğal edilmiş vilayətlərin mülki idarəçiliyi haqqında" fərmana uyğun olaraq onun tərkibində siyasi, inzibati və iqtisadi idarələr formalaşdırıldı. Siyasi idarəyə Rozenbergin köhnə tanışı olan Leibbrandt başçılıq edir və bu idarə üç bölməyə ayrılırdı. İdarənin tərkibində olan Baş siyasi bölməyə Otto Brautigam, Ukrayna bölməsinə Vilhelm Kinkel, Qafqaz bölməsinə isə professor Gerhard fon Mende başçılıq edirdi. Qafqaz və Orta Asiya mühacirləri ilə əlaqələr də, məhz fon Mendenin rəhbərlik etdiyi bölmədən keçirdi.[45] Avropada olan keçmiş Rusiya mühacir hökumətləri zəminində milli komitələr yaratmaq ideyası da məhz bu nazirliyin şefi Rozenbergə məxsus idi. Onun nazirliyi yaranan gün, iyul ayının 17-də Qafqaz Konfederasiya Şurasına daxil olan mühacir nümayəndələri kimi Ermənistanın adından A.Xatisyan, Azərbaycanın adından Adəm Əlibəy, Gürcüstanın adından A.Çxenkeli, Şimali Qafqazın adından A.Namitoq Sovet İttifaqına qarşı mübarizədə Qafqaz mühacirlərinin "böyük alman xalqına" və alman silahlı qüvvələrinə rəğbətlərini ifadə edirdilər. Onlar yazırdılar ki, "Moskva bolşeviklərinin həmləsi ilə bizim xalqlar 20 il əvvəl öz siyasi və milli müstəqilliklərini itirdilər. Artıq 20 ildir onlar bu qəddar rejimin zülmü altında əzab çəkirlər...Ötən 20 il müddətində biz heç vaxt öz xalqlarımızla maddi və mənəvi əlaqələri

[44] P.Fitinin V.Molotova. Cəfər Seyidəhməd haqqında arayışı. 15.07.1944.// RDSSTA, f.82, s.2, i.1090, v.148-149

[45] Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi. İstanbul, 2003, s.484

kəsmədik. Biz məlum səviyyədə təsdiq edə bilərik ki, öz xalqlarımızın istək və arzularının həqiqi ifadəçiləriyik və bizim xalqlarımız heç vaxt bolşevik rejiminə uyğunlaşa bilmədilər... Biz əminik ki, xalqlarımız 23 il əvvəl olduğu kimi indi də müzəffər alman ordusunu səmimi şəkildə qəbul edəçək, bütün sahələrdə ona öz yardımını təklif edəcəklər"[46] 1941-ci ilin avqust ayında Rozenbergin nazirliyinin nəzdində hərbi əsirlərin işi üzrə komissiya yaradıldı, lakin nasional-sosialist xadimləri və bir sıra yüksək rütbəli hərbi dairələr bu təşəbbüsə qarşı ciddi müqavimət göstərirdilər.[47] Şərq nazirliyinin rəhbərliyinə daxil olan Otto fon Brautigam və professor Gerhard fon Mende bu komissiyanın işində fəal rol oynayırdılar. Fon Brautigam Azərbaycanı və Qafqazı yaxşı tanıyırdı, o, Rapallo müqaviləsindən sonra Bakıda və Tiflisdə Almaniya konsulu vəzifəsində işləmişdi.[48] Azərbaycan hərbi əsirləri ilə işləmək üçün Məmməd Tuğay, ermənilərlə işləmək üçün Arutunyan qardaşları, gürcülərlə işləmək üçün Togonidze və Şimali Qafqaz xalqlarından olan hərbi əsirlərlə işləmək üçün Əlixan Kantəmir komissiyanın işinə cəlb edildi. Komissiyaya nasional-sosialist partiyasının SA dəstəsində xidmət edən fəalı Geibel başçılıq edirdi və ilk vaxtlar bu komissiyaya onun adı ilə bağlı Geibel komissiyası da deyirdilər.[49] Azərbaycanlılardan ibarət olan ilk "könüllülər" 1941-ci ilin avqust ayında Almaniya ordusuna cəlb edildi və onlar daha çox cəbhə bölgəsində alman kəşfiyyatının xüsusi komandanlığında xidmət edirdilər. Lakin bu kütləvi xarakter daşımır, almanlar buna "sınaq" müddəti kimi baxır, əslində isə Azərbaycan "könüllülərindən" ucuz yardımçı qüvvə kimi daha təhlükəli məntəqələrdə istifadə edilirdilər. Kütləvi aclığın tüğyan etdiyi ölüm düşərgələrindən xilas olmaq üçün heç bir seçim imkanı olmayan adamlar bu "könüllü" dəstələrə yazılırdılar. [50]

---

[46] A.Xatisyan, A.Əlibəy, A.Çxenkeli və A.Namitoqun Almaniya Xarici İşlər nazirliyinə müraciəti. 17.07.1941.// RFDA. f.P-9401c, s.2. i.97, v.372-373

[47] Bax: İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, p.6

[48] Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.516

[49] Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.495

[50] İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, p.4

Hələ, Rozenbergin təşəbbüsü ilə 1941-ci ilin aprel ayında Almaniya protektoratlığı altında Qafqazın geosiyasi konsepsiyası işlənib hazırlanmışdı. Bu sənəddə qeyd olunurdu ki, Qafqaz və onun zəngin neft ehtiyatları Almaniya üçün müstəsna əhəmiyyətə malikdir. Rozenbergə görə yaradılacaq Qafqaz reyxskomissarlığı 5 baş komissarlığı və iki vilayəti əhatə etməli idi. Azərbaycan, Gürcüstan, Şimali Qafqaz, Kuban və Terek baş komissarlıq, Ermənistan və Kalmıkıya isə daha aşağı status sayılan vilayət hüququnda Qafqaz reyxskomissarlığına daxil olmalı idi. Məhz, onun təqdimatı ilə A.Hitler 1941-ci ildə Baltik mənşəli Arno Şikedansı Qafqazın imperiya komissarı təyin etmişdi.[51] Bu təyinata baxmayaraq, Rozenberg belə hesab edirdi ki, Qafqazın idarəçiliyində iştirak edən alman məmurlarının sayı minimuma endirilməli və yerlərdə hakimiyyəti yerli əhaliyə verilməlidir. Onun fikrincə, yerli xalqlar arasında münaqişələr olacağı təqdirdə Almaniya tərəfi mübahisələrin həllində arbitraj hüququnu özündə saxlamalı idi.[52] Qafqazın gələcəyinə münasibətdə həm Hitlerin, həm də Rozenbergin fikirləri üst-üstə düşürdü. Onlar belə hesab edirdilər ki, bütün hallarda hərbi, siyasi və iqtisadi mülahizələr baxımından Qafqaz həmişəlik olaraq Rusiya hakimiyyətindən azad olmalı idi. Qafqaza münasibətdə hər iki tərəf, həm Ribbentrop, həm də Rozenberg Qafqaz mühacirətinin müxtəlif qruplarına arxalanır və onlarla işləməyə üstünlük verirdilər.[53] Bu qarşıdurmada Alfred Rozenberg qələbə çaldı və SSRİ xalqlarına münasibətdə Almaniya siyasətinin həyata keçirilməsi Şərq nazirliyinə tapşırıldı. İmperiya Xarici İşlər nazirliyi isə fon der Şulenburgun timsalında yeridilən siyasət haqqında məlumat almaq hüququnu özündə saxlayırdı.

1941-ci ilin noyabr ayının 24-də Ankaradakı Almaniya səfiri fon Papen Türkiyədəki Azərbaycan mühacirləri rəhbərliyinin Qafqazın azad olunması və gələcək siyasi inkişafı haqqında geniş məruzəni Berlinə, Xarici İşlər nazirliyinə göndərdi. Sənədin aşağısında onun müəllifinin adı göstərilməsə də, onun Xosrov bəy Sultanov tərəfindən hazırlandığı aydın olur, çünki

[51] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.381-382

[52] Bax: A.Dallin. German Rule in Russia 1941-1945. A study of Occupation Politicies. London, New York, 1957, p. 230-231

[53] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.386-387

məruzənin mətnində onun "müstəqil Azərbaycanın ilk hərbi naziri və Qarabağın general-qubernatoru" tərəfindən hazırlandığına işarə vardır. Orada qeyd olunurdu ki, Almaniya – Sovet müharibəsinin başlanması Qafqaz xalqlarının köləlikdən azad olunmasına ümidlər yaratmışdır...20 ildir ki, biz Azərbaycan milli muxtariyyətçiləri xalqımızın kommunizmin yaratdığı dözülməz vəziyyətdən qurtarması üçün çıxış yolu axtarırıq".[54] Məruzədə Türkiyədə yaşayan Azərbaycan mühacirlərinin Qafqaza yaxınlaşan alman komandanlığı ilə Azərbaycan xalqı arasında əlaqələr qurmaq, həm də Türkiyə daxilində zəruri olan işləri görməyə hazır olduqları bildirilirdi. Sənəddə ilk növbədə Türkiyədə olan azərbaycanlı qüvvələrin fəallaşdırılmasından söhbət gedirdi. Xosrov bəy yazırdı ki, Qafqazın Rusiyadan ayrılıb öz müstəqilliyini bərpa etməsi Türkiyənin gələcəkdə şimal təhlükəsinə qarşı ən yaxşı təminatı olardı və "bu təminatı türklər alman ordusunun gücü hesabına əldə etməyə ümid bəsləyirlər. Bununla da Türkiyənin öz vacib həyatı mənafeləri onu Almaniya ilə əməkdaşlığa diktə edir və bu da bizim arzularımız, Azərbaycanın millətçi vətənpərvərlərinin istəkləri ilə tamamilə üst-üstə düşür".[55] Məruzədə qeyd olunurdu ki, bütün bunlardan sonra əgər Türkiyə siyasətində qətiyyətsizlik müşahidə edilirsə, bu bir tərəfdən ehtiyatlı hərəkət etməyə üstünlük verən Türkiyə prezidentinin xarakteri, digər tərəfdən isə İngiltərə təsirinin güclü olması ilə bağlıdır, lakin Xosrov bəy alman ordusunun əhəmiyyətli uğurlarının təsiri altında Türkiyə hökumətinin Berlinlə əməkdaşlığının gücləndiyinin müşahidə edildiyini bildirir və bu prosesdə Türkiyə ictimaiyyətinin Azərbaycana bəslədiyi rəğbətin mühüm rol oynadığını vurğulayırdı. O, yazırdı: "Bu rəğbəti Azərbaycan 20 il əvvəl mövcud Türkiyəni xilas etmək naminə öz müstəqilliyini itirmək, eyni zamanda, 1914-1918-ci illərin müharibəsi zamanı Bakının xeyriyyə cəmiyyətlərinin Türkiyənin Rusiya tərəfindən işğal olunmuş vilayətlərində yaşayan on minlərlə türk əhalisini bir tərəfdən dəhşətli aclıqdan, digər tərəfdən erməni quldur dəstələrindən xilas olmaqda göstərdikləri maddi və mənəvi yardıma görə qazanmışdır".[56] Xosrov bəy bolşevik işğalından sonra

[54] Azərbaycan türklərinin rəhbəri Qafqazın azadlığı haqqında. 24.11.1941.// RFDA, f.P-9401c, s.2, i.97, v.382

[55] Yenə orada, v.383

[56] Yenə orada, v.383-384

Türkiyəyə çoxlu sayda azərbaycanlıların gəldiyini yazır və Arpa çay vadisində 5 min nəfər əhalidən ibarət 60 azərbaycanlı kəndinin olduğunu, Qars rayonunda dislokasiya edilmiş azərbaycanlılardan ibarət 300 nəfərlik partizan dəstəsinin, türk ordusunda 60 nəfər azərbaycanlı zabitin xidmət etdiyini bildirirdi. Bundan başqa o, Türkiyəyə keçmiş çoxsaylı azərbaycanlı, çərkəz və abxaz mühacirlərin səfərbər edilməsi hesabına kifayət qədər böyük hərbi təşkilat yaratmağın mümkünlüyünü və bu təşkilatdan alman ordusunun Qafqaz əməliyyatının həlledici məqamında mühüm rol oynaya biləcəyini bildirirdi. X.Sultanov ümidvar olduğunu bildirirdi ki, "Moskvanın çökməsi və almanların Qafqaz sərhədlərinə yaxınlaşması, Qafqaz məsələsinin həlli və bizim müstəqilliyimizin bərpası məqsədilə Almaniya ilə əməkdaşlıq istiqamətində türk siyasətinin dəyişilməsində həlledici amil olacaqdır. Bizim suverenliyimizin tanınması, biz, Azərbaycan muxtariyyətçilərinə görə, almanlarla əməkdaşlığımızın mühüm şərtidir. Müstəqil Qafqaz, qaliblərin hüququna görə, əlbəttə ki, Almaniya nüfuz dairəsində olmalıdır, lakin Qafqazı Almaniyanın müstəmləkəsi formasında təsəvvür etmək Qafqaz xalqlarının bütün milli arzularının məhv olması deməkdir. Bu halda yeni ağa peyda olacaq, yəni bir düşməni başqa düşmən əvəz edəcək, hətta ikincisi müqayisəyəgəlməz dərəcədə yaxşı və mədəni olsa da, ağa hər necə olursa olsun ağadır. Azadlıqsevər Qafqaz xalqları bütün öz tarixləri boyu nökər olmayıblar və azadlıqları uğrunda mübarizə aparıblar. Biz əminik ki, Almaniya bizim müstəqilliyimizi tanıyacaq və biz bu məruzə əsasında onunla əməkdaşlıq etməyə hazırıq".[57] Göründüyü kimi, Fransa təslim olduqdan və Almaniyanın SSRİ-yə hücumundan sonra xaricdə yaşayan Azərbaycan mühacirləri Almaniyaya meyillənməyə başladılar, onunla əməkdaşlığa üstünlük verməyə başladılar. Azərbaycan mühacirətinin tanınmış nümayəndələrindən olan İsmayıl Əkbər qeyd edir ki, "Almaniya – Sovet müharibəsinin başlanması ilə vəziyyət dəyişdi. İngiltərə, Fransa və digər dövlətlər avtomatik olaraq Almaniya hücumuna məruz qalmış SSRİ-nin müttəfiqi oldular, biz isə Sovet İttifaqına hücum etmiş Almaniyanın müttəfiqinə çevrildik".[58]

---

[57] Yenə orada, v.385

[58] İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin. Box 6. Folder 6. p.3

Hərbi əməliyyatların gedişində əsir alınmış Qafqaz, Orta Asiya və Rusiyanının müsəlman xalqlarının nümayəndələrindən ibarət legionlar təşkil etmək məsələsi hələ SSRİ-yə qarşı müharibə başlanmazdan əvvəl müzakirə edilmişdi. Hələ 1938-ci ilin yazında admiral V.Kanaris şərq məsələsi üzrə mütəxəssis Teodor Oberlenderə təlimat vermişdi ki, Rusiyada ağqvardiyaçıların məğlub olmasının səbəblərini araşdırsın. Oberlender hazırladığı tədqiqatda bu məğlubiyyətinin başlıca səbəblərindən biri kimi ağqvardiyaçı hökumətlərin milli məsələyə yetərincə diqqət yetirmədiklərini göstərmişdi. Kanaris bu tədqiqatı elə həmin vaxt Almaniya rəhbərliyinə təqdim etmişdi. Bu istiqamətdə Almaniyanın hələ Birinci dünya müharibəsindən təcrübəsi var idi və müharibədə əsir düşən müsəlmanlar həmin vaxt Berlin yaxınlığında Vyunsdorfda müsəlman hərbi əsirləri üçün yaradılmış böyük hərbi əsir düşərgəsində saxlanılırdı. Bir qayda olaraq bu düşərgədə Rusiyadan, Fransa və İngiltərə müstəmləkələrindən əsir alınmış müsəlmanlardan əsarət altında olduqları ölkələrə qarşı vuruşan hərbi birliklər hazırlayırdılar. Faşistlərin hakimiyyətə gəlməsindən sonra Almaniyada olan mühacir təşkilatları tədricən Nasional Sosialist partiyasının Xarici siyasət şöbəsinin nəzarətinə düşməyə başladı və 1939-cu ilin aprel ayının 1-də Almaniya silahlı qüvvələrinin ali komandanlığında "Vermaxt – Təbliğat" adlı bölmə yaradıldı və Sovet İttifaqına hücum ərəfəsində Təbliğat nazirliyi yanında doktor Eberhard Taubert başda olmaqla "Şərq hüdudları" Baş referentliyi təsis edildi. 1943-cü ildə referentlik "Şərq" şöbəsinə çevrilmişdi. Artıq müharibə başlayan kimi Vermaxt, Şərq əraziləri üzrə nazirlik və SS Baş idarəsi Orta Asiya və Qafqaz xalqları nümayəndələrindən xüsusi təyinatlı hissələr formalaşdırmaqda maraqlı idilər. Onların hazırladığı plana görə, SSRİ işğal edildikdən sonra azərbaycanlılardan ibarət xüsusi təyinatlı batalyonlar Rusiya ərazisində, erməni batalyonları Azərbaycanda, kalmıklar isə Özbəkistanda xidmət etməli idilər.[59] Milli respublikalarda təbliğat aparmaq üçün Drezdendə xüsusi institut açılmış və həmin institutda Türküstan, Şimali Qafqaz, Krım, Tatar, Azərbaycan, Gürcüstan və Ermənistan milli komitələrində işləmək üçün təbliğatçı kadrların hazırlığına başlanmışdı. Bu

[59] С.Г.Чуев. Кавказская карта Германии.// Военно-исторический Архив, 2004. № 1, с.35-36

işlər tibb doktoru Rayner Oltsşinin rəhbərliyi altında aparılırdı. Hətta, institutda türk və müsəlman xalqları üçün molla məktəbi açmaq da yaddan çıxmamışdı. Göttingen və Drezdendə açılan iki mədrəsənin başlıca vəzifəsi işğal altına alınacaq islam və türk xalqları üçün təbliğatçılar hazırlamaq idi. Keçmiş Qüds müftisi Hacı Emin əl-Hüseyni İslamçılığı və Turançılığı təbliğ etmək məqsədilə Almaniyaya dəvət edilmişdi.[60] Bu mədrəsələrdə müsəlman hissələri üçün dini qulluqçular hazırlayırdılar. Azərbaycan legionlarında dini ayinləri yerinə yetirmək və könüllülərin mənəvi tərbiyəsi üçün cəmi 116 molla xidmət edirdi ki, onların da 17-si axund hesab edilirdi.[61]

Hələ müharibə ərəfəsində alman xüsusi xidmət orqanlarının nümayəndələrinin Azərbaycan mühacirət nümayəndələri arasında əlaqələri qurulmuşdu. Qafqaza zərbə endirmək üçün "Abver" İranın Xəzər dənizi sahillərində yerləşən liman şəhərlərində hazırlıq keçmiş Azərbaycanda əməliyyatlar keçirəcək diversantlar yerləşdirmişdi. Vermaxın tərkibində Azərbaycan hərbi hissələrinin yaradılmasında türk generalı Erkilet paşa da səy göstərirdi. 1941-ci ilin sentyabr ayında onun başçılığı ilə Türkiyənin hərbi nümayəndə heyəti Şərq cəbhəsinin cənub məntəqəsində olanda o, alman komandanlığına tövsiyə etmişdi ki, müsəlman hərbi əsirləri, xüsusən, azərbaycanlılarla yaxşı rəftar etsinlər.[62] Bu istiqamətdə A.Rozenberg tərəfindən də Hitlerə müəyyən təkliflər verilmişdi. O, təklif etmişdi ki, bu qədər insanları öldürməkdənsə, onları legionlara cəlb etmək daha doğru olardı. Qeyd edək ki, yalnız 1941-ci ilin sentyabrın 12-dən etibarən SD birlikləri tərəfindən əsirlərə, o cümlədən azərbaycanlı əsirlərə qarşı olan sərt münasibət yumşalmağa başladı.[63] Müharibənin ilk illərində Sovet hərbi əsirlərinin, o cümlədən Orta Asiya və Qafqazdan olan Qırmızı Ordu döyüşçülərinin sayı o qədər çox idi ki, onları saxlamaq Almaniya üçün ciddi sosial və iqtisadi problemə çevrilmişdi. İsmayıl Əkbərin məlumatına görə müharibə dövründə düşmən tərəfə keçən və əsir düşən azərbaycanlı-

---

[60] Olaf Caroe. Soviet Empire. The Turks of Central Asia and Stalinism. New York, 1954, p. 250

[61] Bax: İsmayıl Əkbər. İkinci dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, p.19

[62] С.Г.Чуев. Кавказская карта Германии.// Военно-исторический Архив, 2004, № 1, с.38-39; Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.511

[63] N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005, s.89

ların sayı 150 min nəfərə bərabər idi.[64] Amerika tarixçisi Olaf Karou yazır: "Bir ara alman əsir düşərgələrində bu insanların sayı bir milyondan çox idi. Bir çoxu öldü, fəqət bir çoxu da Rusiyaya qarşı legioner olaraq xidmət etmək üçün yaşadı. Onlar Orta Asiyanın bütün beş cümhuriyyətindən, Azərbaycandan, Gürcüstan və Ermənistandan, Şimali Qafqazdan, Volqadan, Uraldan və Krımdan idilər".[65]

Legionların yaradılmasının hüquqi tərəfləri ilə bağlı hələ 1941-ci ilin oktyabr ayının 3-də Lauts Almaniya rəhbərliyinə yazdığı xidməti məlumatda təşəbbüs qaldırmışdı.[66] Noyabr ayında türk-tatar və Qafqaz legionlarının yaradılmasına qərar verildi. Həmin ilin dekabr ayının 17-də isə Silahlı qüvvələrin çevik əməliyyat qərargahında hazırlanmış təqdimatda sovet hərbi əsirlərinin içərisindən Qafqaz legionunun yaradılması məqsədəuyğun sayıldı. Eyni zamanda, Qafqazlı hərbi əsirlərin bir hissəsinin hərbi təsərrüfatlarda istifadə edilməsi, digər bir hissəsindən isə partizanlara qarşı mübarizə məqsədilə silahlı dəstələr yaradılması mümkün sayılırdı.[67] Bu təqdimatları nəzərə alaraq Almaniya silahlı qüvvələrinin baş komandanlığı 1941-ci ilin dekabr ayının 22-də sovet hərbi əsirlərindən könüllü birliklər yaradılması haqqında öz əvvəlki qərarında dəyişiklik etdi və yeni qərarı Xarici İşlər nazirliyinə göndərdi. Almaniya rəhbərliyinin bu məsələdə "yumşalması" Hitlerin "ildırım sürətli müharibə" planının 1941-ci ilin dekabrında Moskva altında ilk dəfə ağır məğlubiyyətə uğraması ilə izah edilə bilər. Bilavasitə bu şərait legionların yaradılmasına müqavimət göstərən bir sıra hərbi dairələrin görüşlərində dönüş məqamına çevrildi və nəticədə 1942-ci ilin əvvəllərində legionların yaradılması məsələsi alman dairələrində demək olar ki, gündəlik müzakirə mövzusuna çevrildi".[68] Yeni qərara görə piyada qüvvələrin baş komandanlığı milli legionların yaradılması işinə başlamalı idi. Yeni qərara görə yaradılan Türküstan legionuna

---

[64] Bax: İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, p.3

[65] Olaf Caroe. Soviet Empire. The Turks of Central Asia and Stalinism. New York, 1954, p. 246

[66] Bax: Lauts. Xidməti məlumat. 03.10.1941.// RFDA, f.P-9401c, s.2, i.97, v.357-358

[67] Bax: Kramarjdan Silahlı qüvvələrin çevik əməliyyat qərargahına.17.12.194.// RFDA, f.P-9401c, s.2, i.97, v.359

[68] İsmayıl Əkbər. Ikinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, p.7

türkmən, özbək, qazax, qırğız, qaraqalpaq və tacik hərbi əsirləri daxil edilməli idilər. Qafqaz müsəlman legionuna azərbaycanlı, dağıstanlı, inquş, ləzgi və çeçen əsirlər toplanmalı, bunlardan əlavə əlahiddə Gürcüstan və Ermənistan legionları da yaradılmalı idi. Legionlar üçün hərbi qulluqçuların seçilməsi Xarici İşlər nazirliyi və İşğal olunmuş ərazilər üzrə nazirlik ilə razılaşdırılmalı, legionlar öz fərqləndirici milli nişanları daşımaqla alman əsgər və zabitlərinin formasını geyinməli idilər.[69] Azərbaycan legionerlərinin hərbi formasının qolunda olan tanınma nişanlarında əvvəlcə zərdüştlükdə olan atəşpərəstlik əks olunurdusa, sonra bundan imtina edilib, üçrəngli bayrağın əks olunmasına keçildi, lakin ilk dövrlərdə bu bayrağın fonunda pantürkizm simvolu hesab edilən ay və ulduzun təsviri qadağan olunsa da, 1943-cü ilin sonunda Azərbaycan legionerləri öz formalarında milli bayrağın tam təsvirini daşımağa nail oldular.[70]

Bu əmrə uyğun olaraq 1942-ci ilin yanvar ayının 16-da Krım tatarlarının əsirlikdən azad olunması haqqında işğal olunmuş ərazilər üzrə nazirliyin sərəncamı elan olundu. Sərəncama görə silahlı qüvvələrin ümumi işlər üzrə idarəsinə tapşırılırdı ki, 1942-ci ilin mart ayının 15-nə qədər Krım tatarlarının əsirlikdən azad edilməsi başa çatdırılsın.[71] Bundan az sonra silahlı qüvvələrin ümumi işlər üzrə idarəsinin əmrinə görə azərbaycanlı və digər Qafqaz, Volqaboyu və Orta Asiya xalqlarından olan hərbi əsirlərin düşərgələrə göndərilməsinə qədər onlar əsirlikdə saxlanılır, lakin onların ərzaq təminatı və saxlanma şəraiti yaxşılaşdırılırdı.[72]

Azərbaycan mühacir könüllüləri ilk legioner dəstələri 1942-ci ilin mart ayında yaradıldı. Bu zaman Almaniya hərbi əsir düşərgələrində 50 minə qədər azərbaycanlının saxlandığı və onların böyük bir hissəsinin məhv olduğu təxmin edilirdi. Legionların yaradılması ilə bir tərəfdən alman ordusu ucuz döyüşçülər əldə edirdisə, digər tərəfdən isə bu birliklərə

---

[69] Kramarj.Sovet hərbi əsirlərindən könüllü birliklərin yaradılması haqqında. 30.12.1941.// RFDA, f.P-9401c, s.2, i.97, v.360-361

[70] Bax: Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.412-413

[71] Krım tatarlarından olan sovet hərbi əsirlərinin azad edilməsi və vəziyyətlərinin yaxşılaşdırılması haqqında. 16.01.1942. RFDA, f.P-9401c, s.2, i.97, v.363

[72] Azərbaycan və digər Qafqaz, Volqaboyu, Orta Asıya xalqlarından olan hərbi əsirlərin vəziyyətinin yaxşılaşdırılması haqqında. 1942.// RFDA, f.P-9401c, s.2, i.97, v.365

yazılmaqla gerçək ölümlə üz-üzə dayanan azərbaycanlı əsirlər faşist düşərgəsindən həyatlarını xilas edirdilər.[73] Vermaxtın yaratdığı "Berqmann" şərq birləşməsində xidmətə başladılar. Bu xüsusi təyinatlı Qafqaz batalyonunun bir rotası azərbaycanlı mühacirlərdən ibarət idi. Az sonra bu batalyonun tərkibində 2-ci Azərbaycan rotası yaradıldı və "Berqmann" alaya çevriləndə bu rotalar bazasında Azərbaycan batalyonu yaradıldı. Ona Rusiya İmperator ordusunun sabiq polkovniki, Milli Azərbaycan ordusunun sabiq alay komandiri M.İsrafilov komandanlıq edirdi.[74] Alayın tərkibində gürcü və Şimali Qafqaz batalyonları da var idi. Onun komandanı kapitan T.Oberlender, müavini isə rus və Azərbaycan dillərini yaxşı bilən fon Kuqenbax idi. 1941-ci ildə Polşanın Yedlina şəhərində Qafqaz müsəlman legionu təsis edildi, onun tərkibində Azərbaycan, Şimali Qafqaz və digər müsəlman xalqlarının nümayəndələri iştirak edirdi. 1942-ci ilin martında bu legion Azərbaycan legionuna çevrildi. Orada xidmət edən Dağıstan xalqlarının nümayəndələrindən "Şimali Qafqaz legionu" təsis edildi. İlk dövrlərdə Azərbaycan legionunun rəhbər komanda heyəti almanlardan təyin olunurdu. Legona komandanlık edən mayor Ridel özü Yaponiya üzrə mütəxəssis idi və hətta, onun adına Rixard Zorge ilə bağlı yazılmış kitablarda da təsadüf edilir. Ondan sonra legiona podpolkovnik Boyme komandanlıq etmişdi. Üç il ərzində Polşada 8 Azərbaycan batalyonu təşkil edildi və onlar Ukraynanın Poltava vilayətində yerləşdirildilər. Bu ərazilərdə yerləşdirilən Azərbaycan legionlarının qərargah rəisi Rusiya və müsəlman şərqi üzrə ən yaxşı bilicilərdən biri sayılan "Abver"in general-mayoru Oskar fon Niedermayer idi.[75] Lakin Niedermayer legionerlər arasında milli ideyanın yayılmasının əleyhinə idi. Azərbaycan Milli Birlik Məclisinin rəisi mayor Fətəlibəyli və Türküstan komitəsinin rəhbəri Vəli Kayyumxanın təkidi ilə o, 162-ci diviziyanın rəhbərliyindən uzaqlaşdırıldı və bu vəzifədə onu general fon Haygendorf

---

[73] Bax: İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, pp.7-9

[74] Р.Абуталыбов. Свои среди чужих, чужие среди своих. М., 2007, с.8

[75] С.Г.Чуев. Кавказская карта Германии.// Военно-исторический Архив, 2004, № 1, с.40; Р.Абуталыбов. Свои среди чужих, чужие среди своих. М., 2007, с.7

əvəz etdi. Fətəlibəyli öz hesabatında general Haygendorfu azərbaycanlıların dostu kimi xarakterizə edirdi.[76]

1943-cü ilin fevral ayında mayor Qloqer və mayor Fətəlibəyli-Düdənginskinin komandanlığı altında 804-cü Azərbaycan batalyonu Kuban rayonunda döyüşlərdə fərqləndiyinə görə ona "Aslan" adı verildi. Bundan öncə 806-cı batalyona da "İgid" adı verilmişdi. 1943-cü ildə hər iki batalyon Krımda xidmət etdilər. Azərbaycan legionlarının hərbi döyüş ruhunu yüksəltmək üçün onlara milli adlar verilirdi. "Aslan" və "İgid" batalyonlarından başqa "Cavad xan", "Dönməz" və "Qorxmaz" adlı batalyonlar da yaradılmışdı. Azərbaycan legionerlərinin içərisində təbliğat işlərinə Fuad Əmircan rəhbərlik edir və 1943-cü ildə nəşrə başlayan "Azərbaycan" qəzetinin ilk nömrəsi onun redaktorluğu ilə çıxsa da, qəzetin sonrakı nömrələri Bakı universitetinin məzunu Məcid Musazadənin (Karsalani) redaktorluğu ilə nəşr edildi. Qəzet yalnız legioner həyatından deyil, milli-mənəvi mövzularda da materiallar verirdi. Məsələn, 1943-cü ilin 7 noyabr sayında "Azərbaycan" öz səhifələrində "Dil işi – millət işi" adlı maraqlı bir məqalə vermişdi. Orada göstərilirdi ki, elm aləmi nə Azərbaycan dili adında bir dil, nə də Azərbaycan adında bir millət tanımır. Əsil elm aləmində, həqiqətlər meydanında isə azəri türkü və azəri türkcəsi vardır. Azəri türkcəsi demək ümumi türkcənin Azərbaycanda işlədilən bir şəkli deməkdir. Tək bir ananın döşündən süd əmən qardaşlar arasında az-çox fərq olduğu kimi, azəri türkcəsi ilə ümumi türkcə arasında da kiçik fərqlər vardır. Müxtəlif siyasi, coğrafi və təsərrüfat şəraitində yaşamaqdan doğan bu əhəmiyyətsiz fərqlər bizi bir-birimizi anlamayacaq və ya güc (çətin – C.H.) anlayacaq dərəcələrə hələ ki, gətirib çıxarmamışdır. Ümumi türkcənin fonetikasına, morfolojisinə, sintaksisinə - bir sözlə qramerinə və lüğətinə tamamilə ekiz qardaş olan azəri türkcəsi, Azərbaycanda yaşayan türklərin danışdığı bir dildir. Bu dilin taleyi çox təbii olaraq, Azərbaycan türkinin taleyi kimi olmuşdur. Millətlə bərabər doğub, onunla bərabər yaşayan və onun keçdiyi mübarizə yollarından keçən azəri türkcəsi – qısa desək öz türkcəmiz xalqımızla bərabər çox sıxıntılı və qara günlər görmüşdür... Bir zamanlar fars-ərəb əlində "giriftar" olan

[76] А.Фаталибейли. Отчет азербаджанскому народу о борьбе его сынов за независимость Родины в период второй мировой войны.// Азербайджан (Мюнхен), 1951, № 1, с.19

türkcəmiz bu dəfə Kirovlar, Alyoşalar (Əli), Saşalar (Səlim)lər pəncəsində "plen" (əsir) olmuşdur... Kim yabançı dili Qəndahar şəkərindən şirin olan öz türkcəmizdən üstün tutur? Rus uşaqlarından başqa heç kim!"[77] Qəzetin həmin sayında "Yollar üstündə bir keçid: odlar, alovlar ölkəsi" adı ilə verilmiş məqalədə Azərbaycanın təbiəti və coğrafiyası təsvir edilirdi. 1943-cü ilin noyabr ayının 21-də çıxan sayında qəzet 1923-cü ilin noyabr ayının 8-də baş vermiş Münxen hadisələrinin 20 illiyi ilə bağlı Hitlerin həmin şəhərdə sabiq partiyadaşları qarşısında çıxışının tam mətnini vermiş və Türkiyə Cümhuriyyətinin 20 illiyi ilə bağlı geniş yazı vermişdi.[78] 1943-cü ilin son saylarında "Azərbaycan" qəzeti SSRİ Xarici İşlər Xalq komissarlığında bir təyinata maraqlı münasibət bildirirdi. Bu M.Əliyevin V.Molotovun müavini təyin olunması haqqında məlumat idi. Qəzet yazırdı ki, "bu yeni "təyinat" SSRİ dövləti rəhbərliyi tərkibində bir nəfər də türkün olmadığını və bunun səbəblərini yaxşıca bilən Rusiya əsilli türkləri aldatmaq və Yaxın Şərqdə, xüsusilə Türkiyə və İranda öz istilaçı siyasətini qüvvətləndirməkdən başqa nə məqsəd güdə bilər?"[79] Rəsmi məlumatlar istisna olunmaqla, siyasi mövzulara "Azərbaycan" qəzetinin səhifələrində az yer verilirdi. Almaniya hakimiyyət orqanları qəzetin materiallarını diqqətlə yoxlayır və onun səhifələrində Azərbaycanın müstəqilliyinin bərpa olunması ilə bağlı yazıların getməsinə içazə verilmirdi. İsmayıl Əkbər qeyd edir ki, nasional-sosialist doktrina "Azərbaycan" qəzeti redaksiyasının hüquqlarını məhdudlaşdırır, xüsusilə ilk dövrlərdə onu ciddi senzura altında saxlayırdı. O, əlavə edir ki, "1943-cü ildə "Azərbaycan"da nəşr olunan bir yazıda ölkənin milli simvolu kimi üçrəngli bayrağın, "aypara və ulduzun" olmaması kəskin tənqid edilmişdi. Buna görə redaksiya dəfələrlə sorğu-suala tutuldu, məqalənin müəllifini isə həbs düşərgəsinə salmaq istəyirdilər. Doğrusunu desək Almaniya milli sosializmi ümumiyyətlə, milli ziyalılara yad idi".[80] Bundan əlavə Berlində "Hücum" adlı qəzet, "Milli birlik" adında aylıq jurnal, 162-ci türk diviziyasında "Bizim döyüşümüz" adlı həftəlik bülleten, 2-ci legionda

---

[77] Azərbaycan, 1943, 7 noyabr
[78] Azərbaycan, 1943, 21 noyabr
[79] Azərbaycan, 1943, 19 dekabr
[80] İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, p.21

rus dilində "Svobodı" adlı qəzet, ayrı-ayrı legioner birliklərində müxtəlif mətbuat orqanları nəşr olunurdu. "Svobodı" istisna olmaqla, qalan mətbuat orqanları Azərbaycan dilində nəşr olunurdu.[81] Bu qəzetlərdən əlavə legioner birlikləri üçün 300 min tirajı olan ona yaxın kitab və broşurlar, 25 min tirajla "Azərbaycan – almanca lüğət" və 150 müxtəlif vərəqələr nəşr olunmuşdu. Bu vərəqələrin bir hissəsi sovet ordu hissələrinin arxasında, hətta Azərbaycan ərazisində belə yayılmışdı. 1943-cü ilin sonlarından başlayaraq Almaniya dövlət radiosu hər axşam 20:15-dən 20:30 arasında Azərbaycan türkcəsində 15 dəqiqəlik Almaniya Baş Komandanlığının cəbhə məlumatlarını verirdi. Radionun redaksiyasında 5 nəfər çalışır və onun verilişləri Keniqvyusterhauzen radiostansiyasından yayılırdı.[82]

Azərbaycanlıların iştirak etdiyi legioner birliklərdən biri də fon Xeyqendorfun komandanlıq etdiyi 162-ci piyada diviziyası idi. Bu diviziya bütövlükdə türklərdən təşkil edilmişdi və 180 min türk cəbhədə savaşan SS birliklərinin əmrinə tabe edilmişdi. Almaniyanın Şərq siyasəti qeyri-müəyyən olduğundan legionlardakı türk əsgərləri müxtəlif cəbhələrə səpələnmişdi. Onların bir hissəsi Qafqazda vuruşur, bir hissəsi Şimali İtaliyada xidmət edir, digər bir hissəsi "son əsgərə qədər" Stalinqrad ətrafında canını fəda edir, altı bölüyü isə Berlində sərəncamda saxlanılırdı.[83] Bu diviziyanın tərkibində 6 Azərbaycan batalyonu var idi və onların bazasında həmin diviziyanın tərkibində az sonra 314-cü Azərbaycan alayı təşkil edildi. Avropada müharibə başa çatdıqdan sonra bu alayın taleyi acınacaqlı oldu. Onlar Sovet orqanlarına təhvil verildi və dəniz yolu ilə Odessaya gətirildilər. Buna etiraz əlaməti olaraq alayda xidmət etmiş din xadimi gəmidə özünü yandırdı, çoxları həyatları hesabına onların Sovet İttifaqına təhvil verilməsinə etiraz olaraq özünü gəmidən dənizə atırdı. Sağ qalanlar 20 illik katorqa cəzasına məhkum edildilər və həyatları hesabına Donetsk kömür mədənlərini bərpa etdilər.[84]

---

[81] Yenə orada, v.21-22; Azərbaycan mühacirlərinin və legionerlərinin Almaniyadakı mətbuat orqanları haqqında geniş məlumat üçün bax: N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005, s.125-135

[82] Azərbycan, 1943, 19 dekabr; İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, pp.22-23; Р.Абуталыбов. Свои среди чужих, чужие среди своих. М., 2007, с.9-10

[83] Lothar Krecker. Deutchland und die Turkei im Zweiten Weltkrieg. Frankfurt, 1964, p. 220

[84] С.Г.Чуев. Кавказская карта Германии.// Военно-исторический Архив, 2004, № 1, с.41-42

Legioner birliklərində nə qədər Azərbaycanlı döyüşürdü? Bununla bağlı müxtəlif rəqəmlər səsləndirilir. İsmayıl Əkbərin məruzəsində 1944-cü ilin oktyabr ayının 1-nə görə İkinci dünya müharibəsi dövründə Almaniya tərəfində vuruşan azərbaycanlıların sayının 37 913 nəfər olduğu göstərilir. Bunlardan 10 975 nəfəri 11 müstəqil hərbi piyada batalyonlarında, 927 nəfəri dağ-atıcı batalyonunda, 1824 nəfəri 353-cü alman diviziyasının tərkibində, 2990 nəfəri 162-ci türk diviziyasının tərkibindəki alayda, 3968 nəfəri legionlar yanında arxa piyada batalyonlarında, 4809 nəfəri fəhlə batalyonlarında, 2851 nəfəri Osttürk SS birliyinin tərkibində, 1090 nəfəri Qafqaz SS birliyinin tərkibində və sair xidmət edirdi. Müxtəlif hissələrdə xidmət edən könüllülər də nəzərə alınarsa, bütövlükdə onların sayı 38 598 nəfərə çatırdı ki, onların da 169 nəfəri polkovnik rütbəsinə qədər yüksəlmiş yüksək çinli zabitlər, 3721 nəfəri isə kiçik rütbəli zabitlər idi.[85] Bundan əlavə 1944-cü ilin axırlarında 11 min azərbaycanlının əsir düşərgələrində saxlandığı, 275 nəfərin isə "etibarsız" könüllülər kimi düşərgələrə qaytarıldığı haqqında məlumatlar vardır.[86] "Almaniya vermaxtında Qafqaz könüllü birlikləri haqqında" 1945-ci ilin mart ayının 25-də hazırlanmış hesabatda göstərilirdi ki, legionlarda və piyada batalyonlarda 13 600, tikinti və təchizat hissələrində 4795 azərbaycanlı xidmət etmişdir. Bundan əlavə alman ordusunda xidmət edən 25, SS, SD və Lyuftvaffe hərbi hissələrində xidmət edən 7 min qafqazlı əsgər və zabitin də bir hissəsi azərbaycanlılar idilər.[87] Ə.Fətəlibəyli isə bütövlükdə Almaniya tərəfində vuruşan azərbaycanlıların sayının 150 min nəfərə yaxın olduğunu bildirirdi.[88] Azərbaycan könüllü birliklərində alman personalının sayı təxminən 14-15 faiz qədər idi və onlar əsasən komanda heyətində təmsil olunurdular.[89]

---

[85] Bax: İsmayıl Əkbər. İkinci dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, pp.10-11

[86] Yenə orada, v.24

[87] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж. 2012, с.539

[88] Ə.Fətəlibəyli -Düdənginskı. General Biçeraxova açıq məktub. // Sabah. 1992, 15-30 may

[89] Bax: İsmayıl Əkbər. İkinci dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, p.12

Almaniya orduları Qafqaz əməliyyatına başlayanda Vermaxtın Quru orduları qərargahının hazırladığı xüsusi arayışda sovetlərin Qafqaz hərbi birlikləri həm maddi təchizat, həm də şəxsi heyətin döyüş qabiliyyətinə görə "keyfiyyətsiz ordu" hesab edilirdi. Orada göstərilirdi ki, Qafqaz mənşəli döyüşçülər Sovet hakimiyyətinə münasibətdə əgər düşmən deyildilərsə də, açıq-aydın biganə idilər. 1942-ci ilin avqust ayının 12-də Vermaxtın qərargah rəisi F.Halder Qafqazdakı vəziyyəti təhlil edərək belə qənaətə gəlirdi ki, "rusların Qafqaz ordusu...tamamilə dağılmağa doğru gedir".[90] Alman komandanlığının fikrincə, hərbi vəziyyətin çətinliyi, sovet hərbi hissələrində məişət şəraitinin ağırlığı, Üçüncü Reyxin təbliğatının təsiri altında Qafqazdakı sovet döyüşçüləri kütləvi şəkildə əsir düşməyə meyilli olacaqdılar. Bu fikir qismən özünü doğrultdu. 1942-ci ilin oktyabr-noyabr aylarında Nalçik uğrunda gedən hərbi əməliyyatda 16 min sovet döyüşçüsü əsir düşdü. Onların böyük əksəriyyəti Qafqaz xalqlarından olan döyüşçülər idi. İşğal olunmuş Qafqaz ərazilərində fəaliyyət göstərmək və xüsusilə, Cənubi Qafqazın işğalını asanlaşdırmaq üçün 1942-ci ilin yayında gürcü mühaciri M.Kediya başda olmaqla "Zonderştab Qafqaz" qrupu yaradılmışdı. Onun işində Azərbaycan mühacirləri adından Ə.Əlibəyov, Şimali Qafqazdan Əlixan Kantemir və A.Maqoma, erməni mühacirlərindən A.Camalyan iştirak edirdilər.[91] 1942-ci ilin sonlarında "Zonderştab" Qafqazın idarə olunması ilə bağlı Almaniya rəsmilərinə təkliflər hazırlamışdı. Həmin təkliflərə görə Almaniyanın himayəsi altında dörd ayrı-ayrı Qafqaz dövləti yaradılmalı idi və Gürcüstan, Azərbaycan, Ermənistan, habelə Şimali Qafqazı əhatə edəcək bu dövlətlər Üçüncü Reyxin siyasi sisteminə uyğun formada qurulmalı idi. "Zonderştab" rəhbəri M.Kediya 1942-ci ilin noyabr ayında Almaniya hakimiyyət orqanlarına göndərdiyi memorandumda yazırdı ki, əgər Berlin Şərq xalqlarının istiqlaliyyətini tanımasa, Üçüncü Reyxin sovetlərlə müharibədə məğlub olması qaçıl-

---

[90] А.Ю.Безугольный. Кавказские национальные форимрования в политических дискуссиях в период обороны Кавказа.// Военно-исторический Архив, 2004. № 10, с.63

[91] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.407

mazdır.[92] "Zonderştab"la yanaşı, 1942-ci ilin avqust ayında Şərq nazirliyinin nəzdində "Qafqaz qrupu" adlı digər bir qurum da yaradıldı. Ora hər birində 150 nəfər olmaqla Azərbaycan, gürcü, Şimali Qafqaz və erməni rotaları daxil edildi. Bu qurumun əsas vəzifəsi işğal olunmuş Qafqaz ərazilərində polis və mühafizə xidmətini həyata keçirməkdən ibarət idi.[93]

Qafqazın gələcəyinə münasibətdə bu qurumlar arasında fikir ayrılıqları var idi. Gürcü və erməni legionları sovet işğalından azad olunacağı təqdirdə Qafqazda Türkiyə təsirinin güclənməsini istəmirdilər. Onlar hər iki respublikada yaşayan müsəlman əhalisini bu baxımdan arzuolunmaz hesab edir, 1918-ci ilin təkrar oluna biləcəyindən ehtiyatlanır və regionun Almaniya təsirinə tabe edilməsini üstün tuturdular. Turançılıq ideyaları alman rəsmilərini maraqlandırsa da, Hitlər Bakı neftini heç kəsə güzəşt etmək fikrində deyildi və o, Qafqazda, bilavasitə alman idarəçiliyi qurmağa üstünlük verirdi. Ona görə Hitler bildirirdi ki, neftini almaq istəyiriksə, Qafqazı çox ciddi nəzarət altında saxlamalıyıq.[94] Yazışmalarda müxtəlif təkliflərin müzakirə edilməsinə baxmayaraq, Almaniyanın Qafqazın idarəçiliyi ilə bağlı öz gizli planları var idi. Səfir fon Papen sonralar öz xatirələrində yazırdı ki, 1943-cü ildə "iki yüksək rütbəli nasist" Ankaraya gələrək özlərini Azərbaycan və Gürcüstan qaulyayterləri (valiləri) kimi təqdim etmələri onu çətin vəziyyətə salmışdı.[95] Hətta, Çörçil 1942-ci ilin sentyabr ayının 30-da Stalinə göndərdiyi son dərəcə məxfi məlumatda Xəzər dənizində hərbi əməliyyatlar aparmaq üçün admiral təyin etdiyini və alman hərbi-dəniz bazasının Mahaç-Qalada yerləşəcəyini bildirirdi. Bu təhlükəyə qarşı müttəfiqlər Stalinin xahişi ilə Xəzər hövzəsi Qafqaz hərbi əməliyyatlar meydanına hərbi-hava qüvvələri göndərməyə hazır olduqlarını bildirmişdilər.[96] Noyabr ayının 8-də Çörçil əlavə məlumat verdi ki, almanlar Xəzər dənizində donanma yaratmaq fikrindən daşınıblar.[97] Bunula belə, Britaniya Baş naziri elə həmin gün Stalini məlumatlandırırdı ki, əgər Hitler Bakını tutmağa ümidini itirsə, o, hava hücumları vasitəsilə

[92] Yenə orada, s.410
[93] Yenə orada, s.410-411
[94] Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010, s.181
[95] Franz von Papen. Memoirs. London, 1952, p.503
[96] U.Çörçilin İ.Stalinə məktubu. 30.09.1942.// RDSSTA, f.82, s.2, i.1102, v.136
[97] U.Çörçilin İ.Stalinə məktubu. 08.11.1942.// RDSSTA, f.82, s.2, i.1102, v.138

şəhəri dağıtmağa cəhd göstərəcəkdir.[98] Bir gün sonra Stalin bu məlumata görə Çörçilə təşəkkür etdi və Bakıya hücumu dəf etmək üçün lazımi tədbirlərin görüldüyünü bildirdi.[99]

Sovet ordusu daxilində milli ayrıseçkilik, Qafqaz, xüsusilə müsəlman xalqlarının aşağılanması ciddi narazılıqlar yaradırdı. Sovet rəhbərliyi bu narazılıqları milli diviziyaların yaradılması hesabına bir qədər səngitsə də, lakin həmin hərbi hissələrin komanda heyətinin əsasən slavyan xalqlarının nümayəndələrindən ibarət olması milli etimadsızlığa son qoymadı. 1942-ci ilin sentyabr ayında sovet-türk münasibətlərində gərginlik yarananda 402-ci Azərbaycan atıcı diviziyası Türkiyə sərhədlərindən çıxarıldı və onun orada saxlanması məqsədəuyğun hesab edilmədi. Milli diviziyaların komanda heyətinin yalnız rus dilini bilən zabitlərdən təşkil olunmasını Azərbaycan KP MK katibi M.C.Bağırov "təxribatçılıq və natəmiz" əməllər hesab edirdi. Milli diviziyalarda xidmət edən orta və aşağı rütbəli azərbaycanlı zabitlər öz komandirlərinin başı üzərindən azərbaycanlı döyüşçülərin milli hisslərinin təhqir edilməsi haqqında M.C.Bağırova məktublar göndərir və belə faktlar Bağırovla cəbhə komandanlığı arasında ciddi ixtilaflara gətirib çıxarırdı. Məhz, Azərbaycan partiya təşkilatının rəhbəri Mir Cəfər Bağırov, Dağıstan Partiya Təşkilatının başçısı Əziz Əliyev və Dağıstan Xalq Komissarları Sovetinin sədri Abduraxman Daniyalov birinci və sonuncu əyalət rəhbərləri idilər ki, Qırmızı Ordu hissələrində milli ayrıseçkilik əleyhinə açıq şəkildə birgə çıxış etmişdilər.[100]

Almaniya ordularının Stalinqrad ətrafında məğlubiyyətindən sonra Azərbaycan legionerlərinin sovet ordusu tərəfinə keçməsi halları çoxalmağa başladı. Sovetlər tərəfə keçməyə cəhd edən legionerlər alman komandanlığı tərəfindən sərt şəkildə cəzalandırılsa da, 1943-cü ildə Krım yarımadasında 60 azərbaycanlı legiondan qaçaraq Mir Cəfər Bağırov adına partizan dəstəsini yaratmışdılar. Belə hallar Qərbi Avropa ölkələrində də müşahidə olunurdu. Məsələn, keçmiş legioner Mehdi Hüseynzadə

---

[98] U.Çörçilin İ.Stalinə məktubu. 08.11.1942.// RDSSTA, f.82, s.2, i.1102, v.148
[99] İ.Stalinin U.Çörçilə məktubu. 09.11.1942.// RDSSTA, f.82, s.2, i.1102, v.149

[100] Ү А.Ю.Безугольный. Кавказские национальные форимрования в политических дискуссиях в период обороны Кавказа.// Военно-исторический Архив, 2004, № 10, с.71

Yuqoslaviya partizan hərəkatının, Məmməd Bağırov İtaliya, Əhmədiyyə Cəbrayilov, Nuru Abdulov, Mirzəxan Məmmədov, Hüseynrza Məmmədov və digərləri Fransa müqavimət hərəkatının sıralarında rəşadətli döyüş yolu keçmişdilər.[101] Sovet-alman cəbhəsində əsaslı dönüş baş verdikdən sonra şərq işğal ərazilərində qeyri-rus xalqların dəstəklənməsinə üstünlük verən Rozenberg qrupunun mövqeləri bir qədər möhkəmlənmiş oldu. Professor fon Mende, professor Hans Koch, professor Theodor Oberlander, diplomat Otto Brautigam və general Oskar fon Niedermayer bu qrupun aparıcı nümayəndələri idi.[102] Fon Niedermayer Yaxın Şərqi yaxşı tanıyan bir general idi. O, Birinci Dünya müharibəsi illərində Türkiyədə, İranda olmuş, Əfqanıstana göndərilən alman hərbi ekspedisiyasına rəhbərlik etmiş, daha sonra isə həbs edilərək Xəzər dənizinin Bakı yaxınlığındakı Nargin adasında saxlanılmışdı. Yalnız bolşevik inqilabından sonra o, həbsdən azad olub Almaniyaya qayıda bilmişdi.[103]

İkinci Dünya müharibəsi illərində Azərbaycan mühacirətinin mərkəzi siması M.Ə.Rəsulzadə idi. 1939-cu ilin sentyabrında Polşa faşist Almaniyası tərəfindən tutulduqdan sonra o, Fransaya gəlmişdi, lakin Fransa 1940-cı ilin yazında Vermaxt tərəfindən işğal edildiyindən Rəsulzadə İsveçrəyə getməli oldu. 1939-cu ilin sentyabr ayının 30-dan Polşa hökuməti Londonda yerləşdiyindən, bilavasitə mühacir Polşa hökumətinin birinci sədri Vladislav Sikorski tərəfindən Rəsulzadə Britaniyaya dəvət edildi, lakin Almaniyanın SSRİ-yə hücumu ərəfəsində o, Londonu tərk edib Buxarestə gəlmişdi və sovet orduları ora yaxınlaşana qədər Rumıniya paytaxtında yaşamışdı.[104] Almaniya hakimiyyət orqanları hələ SSRİ-yə hücum ərəfəsində Azərbaycan mühacirətinin lideri kimi Rəsulzadə ilə maraqlanırdılar. 1941-ci ilin may ayında Berlindən əməkdaşlıq təklifi aldıqda o, bir sıra şərtlər irəli sürmüşdü. Rəsulzadə belə hesab edirdi ki, Azərbaycan mühacirlərindən ibarət yaradılacaq hərbi dəstələr azərbaycanlı komandirlərin rəhbərliyi altında müvafiq hərbi hazırlıq keçməli və yalnız bundan sonra cəbhəyə göndərilməli idilər. Onun fikrincə, Azərbaycan milli komi-

---

[101] Р.Абуталыбов. Свои среди чужих, чужие среди своих. М., 2007, с.14-15
[102] Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkıstan Mücadelesi, s.488
[103] Yenə orada, s.534
[104] Bax: А.Балаев. Мамед Эмин Расулзаде (1884–1955). М., 2009, с.254

təsi azərbaycanlıları hərbi əsir düşərgələrindən çıxarmaq hüququna malik olmalı, Almaniyada yaşayan azərbaycanlılar bir komitədə birləşməli və onların azad mətbuat haqqı təmin edilməli idi. Rəsulzadəyə görə, Azərbaycan almanlar tərəfindən azad olunacağı təqdirdə, həm daxili, həm də xarici siyasət məsələlərində azad fəaliyyət imkanı əldə etməli idi. Azərbaycan mühacirətinin tanınmış nümayəndələrindən olan A.Atamalıbəyov qeyd edirdi ki, Hitler Rəsulzadə tərəfindən irəli sürülən bu şərtləri rədd etmişdi.[105]

1941-ci ilin avqust ayında SSRİ-yə hücumdan az sonra Ankaradakı alman səfiri fon Papen hazırladığı "Pantürkist hərəkat" adlı geniş arayışda yazırdı ki, Rəsulzadə "köhnə rus baqajlı inqilabçı kimi Stalinlə sıx dostluq münasibətlərində olub. Stalin bolşevizmə meyil edəndə onların yolu ayrılıb və M.Ə.Rəsulzadə menşevik kimi qalıb, müstəqil Azərbaycan Respublikasının prezidenti olub, bolşeviklərin gəlişindən sonra həbsxanaya salınıb, lakin Stalin tərəfindən azad edilərək onun xüsusi qatarında Moskvaya aparılıb. Moskvadan o, Berlinə və Varşavaya yollanıb. Varşavada o, Polşa Baş qərargahının filialı kimi fəaliyyət göstərən "Prometey" hərəkatına qoşulub. Rəsulzadə İsveçrəyə köçürülmüş Baş qərargahın (Pilsudski fondu deyilən təşkilatın) hesabına yaşayıb. Bu Polşanın işğalından sonra da davam edib. 1940-cı ildə o, Londonda Sikorskinin siyasi missiyasında olub, son vaxtlar digər Polşa mühacirləri ilə birlikdə Buxarestdə yaşayır. Maliyyə məsələlərini kənara qoysaq, demək olar ki, o, irimiqyaslı siyasi xadimdir".[106] Bəzi mühacir liderlərindən fərqli olaraq M.Ə.Rəsulzadə Almaniya ilə məsafə saxlamağa üstünlük verirdi. Bu məsafə açıq şəkildə hiss edildiyindən, sovet xüsusi xidmət orqanları onun haqqında hazırladıqları arayışda Rəsulzadəni Polşa, Türkiyə, hətta, uzaq Yaponiya kəşfiyyat orqanları ilə əlaqələndirdikləri halda, onun "Abver"lə bağlılığı haqqında bir şey yazmırdılar.[107] Belə ehtiyatlılıq Almaniya

---

[105] Bax: A.Alibekov. The Aserbaydzhani and the War. Interview. Hoover Institution Archives, A.Dallin's collection, Box 6, p.1

[106] Fon Papen. Pantürkist hərəkat. 05.08.1941 // RFDA, f.P-9401c, s.2, i.97, v.337

[107] P.Fitinin V.Molotova. M.Ə.Rəsulzadə haqqında arayışı. 17.07.1944.// RDSSTA, f.82, s.2, i.1090, v.142

rəhbərliyinin işğalçılıq niyyətləri haqqında Rəsulzadənin daha geniş məlumatlara malik olması ilə bağlı idi. Ankara və Berlindəki mənbələrdən ona bəlli idi ki, SSRİ ilə müharibədə qalib gələcəyi təqdirdə belə Almaniya Qafqaz xalqlarının, o cümlədən Azərbaycanın müstəqilliyini bərpa etmək niyyətində deyildir.[108] Lakin Azərbaycan mühacirətinin lideri kimi Rəsulzadə Almaniya rəsmi dairələrinin diqqətindən kənarda qalmadı. 1942-ci ilin aprel ayında A.Rozenbergin nazirliyinin "Adlon" mehmanxanasında keçirdiyi Qafqaz mühacirəti nümayəndələrinin qurultayında iştirak etmək üçün o, almanlar tərəfindən Berlinə dəvət edildi. Azərbaycan adından Xəlil Münşi qurultayın hazırlıq işlərinə cəlb edilmişdi. Rəsulzadədən başqa Azərbaycan mühacirət nümayəndələrindən Mir Yaqub Mehdiyev, Xəlil bəy Xasməmmədov, Fuad Əmircan "Adlon" toplantısına dəvət olunmuşdular.[109] Qurultayda Şimali Qafqaz xalqlarının nümayəndələri Heydər Bammat, Seid Şamil və Əlixan Kantemir, gürcülərin nümayəndəsi Spiridon Kediya, Mixail Sereteli, Leo Kereselidze və Aleksandr Manvelişvili, Türküstan nümayəndəsi Vəli Kayyum xan və digərləri iştirak edirdilər. Bu konfrans ərəfəsində orada iştirak edən mühacirət liderləri Berlinin qeyri-rəsmi formada Qafqazın müstəqilliyinin tanınacağı haqqında Almaniya Xarici İşlər nazirliyindən təminat almışdılar.[110]

M.Ə.Rəsulzadə "Adlon" konfransından sonra 1942-ci ilin sonlarında yaradılan "Azərbaycan Milli Komitəsi"nə rəhbərlik etməyə razılıq verdi. Əsasən keçmiş mühacirlərdən təşkil edilən 5 nəfərlik rəhbərlik Rəsulzadə başda olmaqla əsir düşmüş azərbaycanlılardan ibarət "milli legionların" yaranması prosesində iştirak edib, minlərlə əsir həmvətənlərin həyatını qurtardı.[111] Rəsulzadə komitənin işi ilə bağlı yazırdı:

---

[108] Bax: N.Yaqublu. Müsavat partiyasının tarixi. Bakı. 1997,s. 209; Р.Абуталыбов. Свои среди чужих, чужие среди своих. М., 2007, с.11

Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.518-519

[109] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.395; N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005, s.96; Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.518-519

[111] P.Fitinin V.Molotova. M.Ə.Rəsulzadə haqqında arayışı. 17 07.1944.// RDSSTA, f.82, s.2, i.1090, v.142

"1943-cü ildir. İkinci Cahan hərbi əsnasında Alman Xariciyyə Nazirliyindən fon Şulenburgin (sonradan Hitlerə yapılan sui-qəsd işi ilə ilgili olaraq edam edilən) dəvəti üzərinə Berlində idim. Milli Azərbaycan Komitəsi təşəkkül etmişdi; bu komitə Milli Azərbaycan davasının əsaslarını alman məqamlarına qəbul etdirmək üzrə fəaliyyətə keçmişdi".[112] M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Milli Azərbaycan Komitəsi aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirdi: "Azərbaycanın milli haqqlarını qorumaq, vətənin xilası və istiqlalı üçün mübarizə etmək, qafqasiyalı millətlərin dostluqları və siyasətcə bir yerdə yaşamaları üçün çalışmaq və Almaniya ilə sıxı surətdə işbirliyi təmin etmək".[113]

Amma Rəsulzadənin Berlindəki fəaliyyəti uzun sürmədi. Milli komitə bir sıra məsələlərdə, xüsusilə Azərbaycanın müstəqilliyinin tanınması məsələsində Almaniya hakim dairələri ilə razılığa gələ bilmədilər. Bu səbəbdən də təşkilat fəaliyyətini dayandırmalı oldu. 1942-ci ilin oktyabr ayının 7-də Almaniya rəsmiləri ilə aparılan danışıqlar fayda vermədiyindən Rəsulzadə Buxarestə dönmüşdü. Onun Azərbaycanın siyasi müstəqilliyinin Almaniya tərəfindən tanınması haqqında tələbləri Berlini təmin etmirdi və Almaniya rəhbərliyi Azərbaycanın müstəqilliyinin tanınacağı barədə qabaqcadan vəd verməyə hazır deyildilər. Almanlar onun ölkədə qalması üçün Şərq nazirliyində müşavirlik və Drezden məktəblərinin birində Rəsulzadəyə müəllimlik təklif etsələr də, lakin o, bununla razılaşmamışdı.[114] SS Mərkəzi idarəsi onu 1943-cü ildə yenidən aramış və işbirliyinə dəvət etmişdi. Bu müzakirələr bir ilə yaxın davam etsə də bir nəticə verməmişdi. 1943-cü ildə onun Azərbaycan legionerləri qarşısındakı çıxışları alman komandanlığını təmin etmirdi. Rəsulzadə Azərbaycan legionerlərini öz azadlığı uğrunda mübarizəyə qalxmış xalqlara qarşı silah qaldırmamağa çağırırdı. Bu çıxışlarda o, qeyd edirdi ki, "çoxlu xalqların azad dövlət həyatını və müstəqilliyini əlindən almış, onların dövlət müstəqilliyinə qəsd etmiş Almaniya kommunist işğalı altında

---

[112] Azərbaycan, 1954, №9 (33), s.11

[113] Kavkasya, 1952, № 9, s.26

[114] N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005, s.99; Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.521

olan Azərbaycana heç vaxt müstəqillik verə bilməz".[115] Məhz, bu çıxışdan sonra 1943-cü ilin noyabrında guya "qeyri-qənaətbəxş işinə" görə M.Ə.Rəsulzadə almanlar tərəfindən "Azərbaycan milli mərkəzinin" rəhbərliyindən uzaqlaşdırıldı və yenidən Buxarestə qayıtdı. M.Ə.Rəsulzadə yazırdı: "1942 və 1943-cü illərdə Almaniyanın Xarici İşlər Nazirliyinin dəvəti ilə digər Qafqazlı siyasi emiqrantlarla birlikdə Berlinə getdiyim zaman biri mənfi, digəri müsbət iki şeyə şahid oldum. Hitler Almaniyasının mövqeyi bütün milli məsələlərdə olduğu kimi, Qafqazya məsələlərinə olan münasibətdə də mənfi idi. Berlindən milli mübarizəmizin əsaslarını tanımasını gözləmək əbəsdi. "Ali irq"in nəzəriyyəçiləri ilə Polşadakı, Ukraynadakı və işğal olunan başqa məmləkətlərdəki alman praktikləri ən kiçik ümidə belə yer vermirdilər. Üzərimizə düşən yeganə vəzifə milli haqlarımızı tanımayan və istiqlal davamızı tanımayan bir hökumətlə birgə fəaliyyətin baş tutmayacağını təsdiq edərək meydandan çıxmaqdı. Elə də etdik. 1943-cü il 5 avqust tarixli bir memorandum imzalayaraq Berlini tərk etdik".[116] Azərbaycan nümayəndələrinin Almaniyadan narazılığı hələ "Adlon" qurultayının gedişində yaranmışdı. Onlar Rozenbergin mühacirlərdən yalnız məmur kimi istifadə etmək fikrindən çox məyus olmuşdular. Şərq nazirliyinin Rusiya komitəsinin müşaviri Dittmann Xarici işlər nazirliyinin siyasi şöbəsinin məsul əməkdaşı Tippelskriçə yazırdı ki, mühacirlər içərisindən xüsusilə azərbaycanlılar çox narazı idilər, onlar Almaniyada özlərinə uyğun bir fəaliyyət sahəsi görmədiklərindən dərhal Türkiyəyə dönmək istəyirdilər və mən çətinliklə onları bu fikirdən döndərdim.[117]

Sovet orduları Rumıniyaya yaxınlaşana qədər M.Ə.Rəsulzadə Buxarestdəki türk səfiri Həmdullah Sübhi Tanrıöverin yardımı ilə burada yaşadı. Sovet xüsusi xidmət orqanlarının məlumatına görə Rəsulzadə həmin vaxt "Rumıniyadakı türk səfiri vasitəsi ilə Türkiyə hökumətindən maliyyə yardımı alırdı".[118] Sovet orduları Şərqi Avropa ölkələrinə daxil olanda o, Rumıniyanı tərk edib Avstriyaya, ora-

---

[115] А.Балаев. Мамед Эмин Расулзаде (1884–1955). М., 2009, с.257

[116] N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005, s.99-100

[117] Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.520-521

[118] P.Fitinin V.Molotova. M.Ə.Rəsulzadə haqqında arayışı. 17.07.1944.// RDSSTA, f.82, s.2, i.1090. v.143

dan da müttəfiq orduların nəzarətində olan Münhenə keçdi. Burada "Azəraycan demokratik birliyi" adlı yeni təşkilat yaradaraq Rəsulzadə azərbaycanlı hərbi əsirlərinin Sovet İttifaqına qaytarılması əleyhinə çıxış etdi. Stalini yaxından tanıdığından o, hərbi əsirləri hansı fəlakətlər gözlədiyini yaxşı bilirdi.[119]

§ 3. Azərbaycan Milli Birlik Məclisi və Fətəlibəyli-Düdənginski

M.Ə.Rəsulzadə Berlini tərk etdikdən sonra Almaniya Azərbaycan mühacirətinin digər tanınmış nümayəndələri kimi Xəlil bəy Xasməmmədov, Abbas bəy Atamalıbəyov, Fuad Əmircan, Əbdürrəhman Fətəlibəyli-Düdənginski və başqaları ilə əməkdaşlıq etməyə üstünlük verdi. 1943-cü ilin may ayının sonlarında Berlinin "Viktoriya" pansionatında X.Xasməmmədovun rəhbərliyi ilə müşavirə keçirildi. Orada köhnə və yeni mühacirət nümayəndələri, bir sıra tanınmış ziyalılar, legionların nümayəndələri iştirak etdilər. Müşavirə geniş müzakirələrdən sonra qərara gəldi ki, "nasional-sosialistlər qarşımızda hansı şərtləri qoysalar və bizə hansı münasibət göstərsələr də, bizim həmvətənlərimizi taleyin ümidinə buraxmağa mənəvi haqqımız yoxdur. Bütün vasitələrlə onların şərəf və ləyaqətini, həyatını müdafiə etmək lazımdır".[120] Müşavirədə qərara alındı ki, bütün Azərbaycan legioner hissələri barədə məlumatlar toplansın və milli qərargah başda olmaqla vahid orqanizm yaradılsın. Bu məqsədlə Şərq nazirliyi yanında Azərbaycan qərargahı yaradıldı və qərargah alman idarələri qarşısında azərbaycanlıların hüquqlarını müdafiə etməli idi. Müşavirədə qərara alındı ki, azərbaycanlıların tələblərini alman hökumətinə təqdim etmək üçün konqres çağrılsın. Berlində olan azərbaycanlılar konqresin hazırlıq işlərinə başladılar.

---

[119] Ətraflı məlumat üçün bax: N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991, s.229-231; А.Балаев. Мамед Эмин Расулзаде (1884–1955). М., 2009, с.258-259

[120] İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, pp.25-26

Azərbaycan konqresinin çağırılmasına ciddi maneələr var idi. 1943-cü ilin noyabr ayından bütün Azərbaycan legionlarının rəhbərliyi Fətəlibəyli-Düdənginskiyə keçdi. O, Azərbaycan legionlarının ümumi rəhbərliyini qəbul etdikdən sonra yalnız hərbi deyil, Almaniya ilə Azərbaycan mühacirəti arasında siyasi münasibətlərin qurulmasının mərkəzi simasına çevrildi. 1943-cü ilin noyabr ayının 6-da Berlinin "Kayzerhof" mehmanxanasında 300 nəfər mühacir və legioner nümayəndələrin iştirakı ilə Milli Azərbaycan qurultayı işinə başladı. Bu qurultayın çağırılması 3 dəfə Almaniya hakimiyyət orqanları tərəfindən təxirə salınmışdı. Vermaxtın təbliğat idarəsi və Şərq nazirliyində ayrı-ayrı rəhbər işçilər azərbaycanlıların qurultayının keçirilməsinin əleyhinə idilər. General Ritter fon Niedermayer və bəzi yüksək rütbəli alman zabitləri müxtəlif yollarla qurultayın çağırılmasını sabotaj edirdilər. Almaniyanın rəsmi dairələri Azərbaycan mühacirəti rəhbərlərindən tələb edirdilər ki, İngiltərə, Amerika və digər Qərb ölkələrini Azərbaycan xalqının düşməni elan etsinlər, lakin bu tələblər mühacirət liderləri tərəfindən rədd edildi.[121] Qurultayı Azərbaycan keçmiş milli ordusunun zabiti Cahangir bəy Kazımbəyov açdı. O, dedi ki, bolşevizmə qarşı mübarizə hər millətin müqəddəs borcudur və biz azərbaycanlılar bu borcumuzu yerinə yetirməkdən xoşbəxtlik hiss edirik. Sonra Cahangir bəy qurultayı idarə edəcək rəyasət heyətinin seçilməsini təklif etdi. Abbas bəy Atamalıbəyov rəyasət heyətinin sədri seçildi. Abbas bəy öz çıxışında təklif etdi ki, Azərbaycan istiqlal hərəkatında böyük rolu olan Məmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədov, Mustafa bəy Vəkilli, Mir Yaqub bəy Mehti, Şəfi bəy Rüstəmbəyli, Adil xan Ziyadxan, Abduləli bəy Əmircan qurultayın fəxri üzvləri seçilsinlər. O, qeyd etdi ki, "azərbaycanlıların müstəqil həyat sürmək və doğma torpaqlarının azad sahibləri olmaq tələbi müqəddəs və parçalanmaz bir haqdır...Azərbaycanlılar heç bir zaman unutmamış və unutmazlar ki, türk irqinə və türk qanına mənsub xalqdır. Bunun üçün də qohumluq və

[121] Ə.Fətəlibəyli -Düdənginski. General Biçeraxova açıq məktub. // Sabah, 1992, 15-30 may; İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, pp.26-27

hüsn-rəğbət hissləri onları digər türk xalqları ilə də bağlayır. Bu xalqlar içərisində Türküstan, İdil-Ural və Krım xalqları da bizim kimi eyni şərait daxilində bolşevik zülmündən azad olmaq və öz istiqlaliyyəti uğrunda mübarizə edirlər. Biz bu mübarizədə onlara ürəkdən müvəffəqiyyətlər diləyirik".[122] Qurultay öz işini Azərbaycan Xalq Cümhuriyyətində nazir vəzifəsini tutmuş Xəlil bəy Xasməmmədovun sədrliyi ilə davam etdirdi. Qurultayda Almaniya tərəfindən bir sıra yüksək rütbəli zabitlər və sivil dəvətlilər iştirak edirdilər. Onların sırasında general-leytenant Helmix, ober leytenant Ridel, ober leytenant Bohme, böyük müfti Əmin əl-Hüseyn, Qafqaz və Türküstan xalqlarının nümayəndələri Əhməd Nəbi Maqoma (Şimali Qafqaz), Givi Qabliani (Gürcüstan), Arşak Camalyan (Ermənistan), Vəli Kayyum xan (Türküstan), Şəfi Elmas (İdil-Ural)və digərləri var idi. Onlar təmsil etdikləri xalqlar adından qurultayı təbrik etdilər. Almaniya qəzetləri yazırdı ki, dövlət və ordunun bir sıra nümayəndələri ilə bərabər Beytülmüqəddəsin baş müftisi, Qafqaz xalqlarının, İdil-Uralın və Türküstanın nümayəndələri Azərbaycan qurultayının fəxri qonaqları sırasında idilər.[123] Qurultayda mayor Fətəlibəyli-Düdənginski geniş bir nitq söylədi. Nitqinin əvvəlində o, Azərbaycan tarixinin qısa xülasəsini verdi. Bu xülasədə Fətəlibəyli XII əsrdən 1918-ci ilə qədərki dövrü əhatə edir, daha çox rus işğalları və Azərbaycan ziyalılarının müstəmləkə əsarətinə qarşı mübarizəsi üzərində dayanırdı. Nitqin ikinci hissəsi "1918-1920-ci illərdə müstəqil Azərbaycan dövləti" adlanırdı. 1918-ci ilin 28 May istiqlalı haqqında o, deyirdi: "Bugün Azərbaycanın ən parlaq günü oldu. Bugün azərbaycanlılar dünyanın ən xoşbəxt insanları oldular. Qoca Qaspinin oqşayıcı dalğaları ilə xəfif-xəfif və bütün bir qürurla dalğalanan milli Azərbaycan bayrağı həmin zaman yüksəklərə qaldırıldı. Azərbaycan övladları canlarını əsirgəmədən bugün üçün verirdilər".[124] Sonra mayor Fətəlibəyli "23 il bolşevik zülmü altında" baş verən hadisələrdən bəhs edirdi. O, qeyd edirdi ki, "üzərimizə düşən vəzifə vətəndaşlarımızın üstünə bulaşmış bu qalın, kirli və köhnəlmiş bolşevik tərbiyəsini silmək

[122] Azərbaycan, 1943, 14 noyabr
[123] Der Angriff, 1943, 9 November
[124] Azərbaycan, 1943, 7 noyabr

və onlarda yenidən ata-babalarımızın böyük ruhunu oyatmaqdır. Qafqazlıların qanı təmiz və saf qalmışdır. Bolşeviklər bunu zəhərləməyə müvəffəq olmadıqlarından bu vəzifəni yerinə yetirmək asan olacaqdır. Onlar bizim milli hisslərimizi, azadlığa və istiqlala olan əbədi istəyimizi öldürməyə müvəffəq olmadılar". Nitqin növbəti hissəsi "Almanların bolşevizmə qarşı mübarizəsi və Qafqaz xalqları" adlanırdı. Fətəlibəyli bildirirdi ki, "legionerlərin müsəlləh mübarizəsi...Azərbaycana və bütün Qafqaza azadlıq və istiqlal gətirəcək olan mübarizələrin ən yüksək və qəti mərhələsidir".[125] O, öz nitqində "Qafqaz xalqlarının qarşılıqlı münasibətləri və Qafqaz birliyi məsələsi"nə də toxunur, azərbaycanlı – erməni, azərbaycanlı – gürcü, habelə Şimali Qafqaz xalqlarının Azərbaycanla münasibətləri tarixindən maraqlı nümunələr gətirirdi. Onun çıxışında panislamizm keçmişin hadisəsi kimi dəyərləndirilir və qeyd edirdi ki, ölmüş olan panislamizm fikirlərindən indi yalnız siyasi provakatorlar və spekulyantlar istifadə etməkdədir, lakin panislamizmdən fərqli olaraq Fətəlibəyli mütərəqqi ideoloji istiqamət kimi panturanizmi təqdir edir və deyirdi: "Panturanizm öz müsbət rolunu oynamış, o türk xalqlarının milli özünüidarə, milli istiqlal əsaslarında durmasına, panislamizm xülyalarından qurtulmasına yardım etmişdir. Panturanizm özünün sonrakı inkişafında irqi ideolojidən milli ideolojiyə, yəni türkizmə keçir. Türkizm öz mədəniyyətini mühafizə etmək, öz xüsusi qüvvələrinə əsaslanaraq öz xüsusi siyasətini yürüdən müstəqil və milli türk dövlətləri yaratmaq uğrunda mübarizə deməkdir". Bu mübarizədə o, Azərbaycanın yerini Almaniya ilə ittifaqda olan turançılıqda görürdü. Fətəlibəyli bəyan edirdi ki, "millətimizin səadəti üçün Azərbaycanı azərbaycanlılar idarə etmiş və yenə də idarə edəcəklər. Biz Qafqaz xalqları ailəsində yaşamışıq və yenə də yaşayacağıq. Biz məğrur Qafqazın müqəddəs sərhədlərinin toxunulmazlığını mühafizə etdik və yenə də edəcəyik... Biz qafqazlılar öz növbəmizdə böyük Almaniya ilə sıx ittifaqda olan və böyük alman xalqı dostluğuna istinad edən yeni Avropa xalqları ailəsinə daxil olacaq möhkəm və müstəqil Qafqaz yaradacağıq". Bolşevizmin məhvi və müttəhid Qafqaza daxil olan müs-

[125] Yenə orada

təqil Azərbaycan dövlətinin bərpası, bütün Qafqaz xalqları və böyük Almaniya ilə dostluqda bolşeviklərsiz və istismarçılarsız yeni Azərbaycan yaratmaq Azərbaycan Milli Birlik məclisinin başlıca vəzifəsi hesab edilirdi. Bu yeni Azərbaycan aşağıdakı prinsiplər üzrə yaradılmalı idi:

1. Bütün zəhmətkeşlərə azad əmək çəkmək və şəxsi namuslu əmək əsasında varlanmaq imkanı təmin etmək;
2. Kolxozları ləğv etmək və torpaqları kəndlilərə vermək;
3. Elm sahəsini genişləndirmək və bütün elm, incəsənət, texnika adamları üçün azad yaradıcılıq imkanları yaratmaq;
4. Azərbaycan Elmlər Akademiyasını təsis etmək. Bütün əhalinin ibtidai, orta və ali məktəblərdə pulsuz oxuya bilmələrini təmin etmək. Tələbələri dövlət stependiyası ilə təmin etmək;
5. Bolşeviklər tərəfindən bərbad hala salınmış milli kültürü, milli dili və milli əlifbanı bərpa etmək;
6. Mətbuat, söz, din, vicdan və yaradıcılıq azadlığını təmin etmək;
7. Müharibə əlillərinin ailəsini və əmək qabiliyyətini itirmiş zəhmətkeşləri təmin etmək;
8. Ən kiçik istismar əlamətlərini təqib etmək;
9. Şəhər və kəndləri abadlaşdırmaq, kurortlar, yollar, su elektrik stansiyaları inşa etmək və mədəniyyətin qəti yüksəlişinə, xalqın rifahına xidmət edə biləcək və az zamanda Azərbaycanı çiçəklənən xoşbəxt ölkəyə çevirə biləcək bütün tədbirləri həyata keçirmək.[126]

Mayor Fətəlibəylinin təsəvvür etdiyi yeni Azərbaycanda qardaşın qardaşı öldürməsi, yəni sinfi mübarizə qadağan edilir, köhnə haqq-hesabların çəkilməsinin yolverilməz olduğu, bütün incikliklərin unudulduğu bəyan edilirdi. O, deyirdi, "yeni Azərbaycanda öz aralarında düşmənçilik edən siniflər ola bilməz. Yalnız vahid, zəhmətkeş Azərbaycan xalqı olacaqdır. Biz başqa millətdən olub Azərbaycanda yaşayan zəhmətkeşlərə özümüzə yaraşan bir qonaqsevərliklə yanaşacağıq, kifayətdir ki, onların bizimlə bərabər işləməyə azacıq istəkləri olsun. Azərbaycanda yaşayan digər millətlərin milli namus və milli

[126] Yenə orada

dəyərinə toxunula bilməz və toxunulmamalıdır da. Bütün Qafqazlılar isə yeni Azərbaycanda özlərini öz evlərindəki kimi hiss edəcəklər.

Biz azərbaycanlılar yaxşı bilirik ki, bu vəzifələri yalnız dönməz iradə və yorulmaz fədakar işlə həyata keçirmək mümkündür. Biz əminik ki, Azərbaycanın və ümumiyyətlə Qafqazın xilası yalnız əldə silah olaraq bütün Qafqaz xalqlarının birləşmiş qüvvələri ilə mümkündür... Bütün Qafqazlıların öz müqəddəs borclarını ifa edəcəklərinə, qanlarının son damlasına qədər böyük Almaniya ilə birlikdə insanlıq düşməni olan bolşevizm əleyhinə çarpışaraq, Qafqaz xalqlarını içində boğulduqları bolşevik bataqlığından xilas edəçəklərinə heç şübhə yoxdur".[127]

Qurultayın açıldığı gün mayor Fətəlibəyli onun iştirakçıları adından A.Hitlerə təbrik teleqramı göndərdi. Orada deyilirdi ki, "öz vətənlərinin və bütün Qafqazın azadlığı və istiqlalı üçün çarpışan azərbaycanlılar alman silahının qələbəsinə, yeni ədalətli nizamın qurulacağına əmindirlər. Bütün azərilər son nəfəsimiz qalıncaya qədər vəzifələrimizi şərəflə yerinə yetirəcəyimizə və sizin yüksək etimadınızı doğruldacağımıza inanmanızı arzu edirlər". [128] Bu təbrikə cavab olaraq Hitlerin adından Meyssiner Fətəlibəyliyə təbrik teleqramı göndərdi. O, yazırdı ki, legionerlər və Azərbaycan vətənsevərləri adından göndərdiyiniz təbrik teleqramına qarşı təşəkkür izhar etməyi və sizi qəlbdən təbrik etməyi fürer mənə tapışırdı". Milli Azərbaycan qurultayına A.Hitlerin adından göndərilən təbriki ober leytenant Ridel oxudu.[129] Bununla yanaşı Azərbaycan legionunun komandanı ober leytenant Böhmen qurultayda geniş çıxış etdi. O, dedi ki, azərbaycanlılar yaxşı bilirlər ki, vətən və istiqlal uğrunda vuruşmalar daim yaxın yerlərdə deyil, bəzən uzaq da ola bilir. Legioner harada olur olsun şərqdə, qərbdə cənubdamı, qarşısına çıxan ingilismi, amerikalımı, o bilir ki, qarşısında vətənini və azadlığını ona vermək istəməyən düşmən durur. Azərbaycan legionunun komandanı sifəti ilə mən və alman heyəti inanırıq ki, azəri türkləri

[127] Yenə orada
[128] Azərbaycan, 1943, 14 noyabr
[129] Yenə orada

harada olur olsun öz əsgəri vəzifələrini Şərqdəki kimi layiqlə yerinə yetirəcəklər".[130]

Qurultayda Fətəlibəlinin məruzəsi ətrafında tanınmış azərbaycanlılardan Fuad Əmircan, Məmməd bəy İsrafilov, Cahangir bəy Kazımov və digərləri çıxış etmişdi. Məruzə və çıxışlar əsasında qurultay 5 bənddən ibarət qətnamə qəbul etmişdi. Orada göstərilirdi ki, 1918-1920-ci illərdə Xalq Cümhuriyyətinin dövrü Azərbaycan tarixinin ən şanlı dövrü sayılır. Qətnamənin 2-ci bəndində göstərilirdi ki, 1920-ci ilin aprel işğalından sonra istər ölkə daxilində və istərsə də onun hüdudlarından kənarda Azərbaycan xalqı 23 ildir ki, öz istiqlalının bərpası uğrunda mübarizə aparır. 3-cü bənddə Azərbaycanın azadlığı yolunda canını fəda etmiş şəhidlərin xatirəsi yad edilir, 4-cü bənddə isə İkinci Dünya müharibəsinin istiqlalın bərpası üçün əlavə imkanlar yaratdığı qeyd edilir, bolşevizmə qarşı mübarizədə "tarix böyü türk xalqlarının dostu olan Almaniyanın" yanında olmaq zəruri hesab edilirdi. Qətnamənin 5-ci bəndində Azərbaycanın Qafqaz və türk xalqları ilə əməkdaşlığının vacibliyi qeyd edilirdi. Bu bəndləri əsas tutaraq mayor Fətəlibəylinin məruzəsi azərbaycanlıların siyasi xətti kimi qəbul edilir, vətənə dönənə qədər milli azadlıq hərəkatına ümumi rəhbərlik üçün Milli Birlik Məclisinin və onun mərkəzi icraiyyə orqanının yaradılmasını zəruri hesab edir, icraiyyə orqanın təmsil etmək haqqını mayor Fətəlibəyliyə verirdi.[131] Bununla yanaşı, Milli Azərbaycan Qurultayı Azərbaycan əlifbasındakı rus təsirini atmaq və əsil milli əlifbaya keçmək haqqında da 5 bənddən ibarət qətnamə qəbul etmişdi. Qurultayda 50 nəfərdən ibarət Azərbaycan Milli Birlik Məclisi yaradıldı. Azərbaycanlıların xidmət etdiyi bütün legioner hərbi hissələrinin və xaricdəki Azərbaycan mühacir təşkilatlarının, demək olar ki, hamısının Məclisdə nümayəndələri var idi. Onların arasında Əbdürrəhman Fətəlibəyli-Düdənginski, Abbas bəy Atamalıbəyov, Ceyhun bəy Hacıbəyli, Vəli Ələkbərov, İslam Əliyev, Cahangir bəy Kazımbəyov, Zahid xan Xoyski, Fuad Əmircan, Nuşi bəy

[130] Yenə orada

[131] Azərbaycan, 1943, 21 noyabr; Milli Azərbaycan qurultayı haqqında geniş məlumat üçün bax: N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005, s.111-125

Zülqədərov, Məcid Karsalan, Cəmil İsgəndərli, Hacı Hacınski, Məmməd bəy İsrafilov, Ənvər Qazıyev və digərləri var idi.[132] M. Ə. Rəsulzadə Ə.Fətəlibəyli-Düdənginskinin hərbi və siyasi fəaliyyətini yüksək qiymətləndirir və onunla Berlindəki görüşünü belə xatırlayırdı: "Hərarətli və anlayışlı bir əsgərlə qarşılaşmışdım. Milli davanın əsaslarını və mücadilə kadrosunun proqramını məndən duymuş, məmnun olmuşdu. Milli Azərbaycan Komitəsi, nasist alman məqamlarına məram anlada bilmədi. Hitler "heç bir komitə istəmirəm" demiş, təşkil olunan milli legionlarla ordu qərargahı arasında rabitə vəzifəsini aparan məhdud və müəyyən işlərlə bağlı olan "Rabitə Heyətləri" qurulmasını əmr etmişdi. Azərbaycan Rabitə Heyətinin başına da mərhum Fətəlibəyli gətirilmişdi. İş bu şəkil alınca, mayor Fətəlibəyliyə müvəffəqiyyətlər təmənna edərək, fəaliyyət sahəsindən çəkilmiş və milli əsaslarımıza sadiq qaldığı müddətcə, onu mənən dəstəkləyəcəyimizi vəd etmişdik".[133]

Azərbaycan Milli Birlik Məclisi təsis edildikdən sonra onun Parisdə və Varşava şəhərlərində filialları fəaliyyətə başladı. 1944-cü ilin yanvar ayının 24-də Parisdə yaşayan azərbaycanlılarla MBM-nin rəisi Fətəlibəylinin görüşü oldu. O toplantı iştirakçıları qarşısında çıxış edib Azərbaycan legionerlərinin fəaliyyəti haqqında məlumat verdi. Onun çıxışından sonra Fransada yaşayan Azərbaycan mühacirləri 25 illik mühacirət həyatının ağırlığı, Azərbaycan azadlıq hərəkatında iştirakları, indiki mərhələdə azadlıq missiyasının əsgərlər üzərinə düşdüyü barədə maraqlı mülahizələr söylədilər. Vətənə qovuşmaq arzusu ilə çıxış edən Parisdə yaşayan azərbaycanlılar MBM-nə yaxından yardım göstərəcəklərini bildirdilər.[134] 1942-ci ilin fevral ayının 29-da yaranmış Azərbaycan legionunun iki illiyi münasibəti ilə Milli Birlik Məclisinin rəisi mayor Fətəlibəyli fevral ayının legionerlərə təbrik ünvanladı. O, yazırdı ki, "millətimizin azadlığını alaraq, onu hər bir səadətdən məhrum etmək istəyən tarixi və qəddar düşmənimizə - rus bolşevizminə qarşı apardığınız qəhrəmanlıq mübarizəsinin 2-ci ildönümü münasibəti ilə sizi qəlbən

[132] Р. Абуталыбов. Свои среди чужих, чужие среди своих. М., 2007. с.13
[133] M.Ə.Rəsulzadə. Azərbaycan davası. Bakı, 1998, s. 64.
[134] Azərbaycan, 1944, 5 fevral

təbrik edirəm".[135] Bu münasibətlə Fətəlibəyli Hitler tərəfindən könüllülərə məxsus ən yüksək ordenlə təltif edilmişdi. Alman baş komandanlığının binasında ordeni ona Şərq orduları generalı fon Haygendorf təqdim edərək dedi ki, "cəbhələrdə göstərdiyiniz qəhrəmanlığa, sonralar da öz vətəninizi yəhudi bolşeviklərdən azad etmək üçün dağınıq halda olan azəri türk orqanlarını birləşdirməkdə və onların vətən uğrunda haqlı mübarizəsində özünüzü göstərdiyinizə görə, alman xalqının füreri Adolf Hitler sizi könüllülərə məxsus ən yüksək ordenlə təltif etmişdir. Mən, bu ordeni onun adından sizə təqdim edir və az bir zamanda bu dərəcəyə layiq olmağınıza görə sizi qəlbən təbrik edirəm". Fətəlibəyli cavab nitqində bildirdi ki, arxalandığım bütün azəri türk orqanları adından Fürerin mənə verdiyi bu yüksək təltifə görə, alman xalqına və onun fürerinə səmimi təşəkkür edirəm. Mən sizi əmin edə bilərəm ki, biz öz vətənimizi yəhudi bolşeviklərdən xilas etmək üçün böyük alman xalqı ilə etdiyimiz silah arkadaşlığına sona qədər sadiq qalaçağıq".[136]

1944-ci ilin may ayının 17-də Azərbaycan Milli Birlik Məclisinin rəhbərliyi Berlinin "Esplanad" otelində peyxsministr Alfred Rozenberqlə görüşdü. Görüş zamanı Fətəlibəyli ona bildirdi: "əgər biz bilsək ki, rusların yerinə almanlar Azərbaycanda ağalıq edəcəklər, biz sizinlə bir addım da atmayacağıq. Biz yalnız Azərbaycanın müstəqilliyi uğrunda vuruşuruq". Azərbaycan nümayəndələrinin müraciətə Rozenberq cavab verdi ki, "Reyx öz sözünü tutmalıdır (Das Rayx muss zain Bort erxalten)", bu sözlərlə o, nəyi nəzərdə tuturdusa qaranlıq qaldı" və əlavə etdi ki, "müstəqillik sədəqə deyil, onu mübarizə və qanla qazanırlar".[137]

1944-cü ilin iyun ayında Milli Birlik Məclisi adından Fətəlibəyli maraqlı bir əmr imzalamışdı. Əmrdə xarici ölkələrdə yaşayan azərbaycanlıların xaricilərlə evlənməsi qadağan edilirdi. "Azərbaycan" qəzetində dərc olunmuş qərarda deyilirdi: "İndiki görünməmiş müharibədə biz

---

[135] Azərbaycan, 1944, 13 mart

[136] Yenə orada

[137] İsmayıl Əkbər. İkinci Dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin. Box 6, Folder 6, pp.28-29

öz sevimli Azərbaycanımızın azadlığı və xalqımızın ölüm fəlakətindən xilas edilməsi uğrunda mübarizə edirik. Arzumuz türk kültürümüzü, adət və ənənələrimizi mühafizə edə bilmək, türk qanımızı təmiz saxlamaqdan ibarətdir. Odur ki, bütün qüvvələrimiz bu müqəddəs arzulu mübarizədə qalib gəlmək üçün səfərbərliyə alınmışdır, lakin çox əfsus ki, bəzi yurddaşlarımız bu odlu mübarizə içərisində xaricilərlə evlənmək fikrinə düşür və öz türklük ənənəmizi pozurlar. Bunu nəzərə alaraq əsli türk olmayanlarla evlənməyi Azərbaycan Milli Birlik Məclisi adından hər bir azəri türkünə qadağan edirəm. Türk qanı təmizliyini mühafizə etmək hər bir azəri türkünün müqəddəs borcudur".[138] Azərbaycan Milli Birlik Məclisinin istinad etdiyi Turançılıq ideyası müharibənin sonuna yaxın artıq öz cazibədarlığını itirirdi. Türkiyədə Turançılıq düşüncələri 1944-cü ilin ortalarına qədər davam etmişdi. Həmin vaxt Türkiyə Almaniyanın dünya müharibəsində məğlubiyyətini hiss edib Turançılıqdan rəsmən imtina etmişdi. 1944-cü ilin may ayının 19-da gənclik və idman bayramında prezident İsmət İnönü demişdi ki, "Turan düşüncəsi bizə zərər verir. Milli qurtuluşumuzdan bəri sovetlərlə dotluq bağlarımız var. Milli siyasətimiz ölkə xaricində macəra arayan ruha tamamilə ziddir. Turançılar vicdansız fəsadçılardır və gəncliyi başdan çıxarmaqdadırlar. Bizə fəlakət gətirən düşüncələrə qarşı bütün gücümüzü qoyacağıq".[139] Bu çıxış turançıları həbs və təqib etmək üçün dövlət orqanlarına bir işarə oldu. 1944-cü ilin may və iyun aylarında ölkədə turançıların müdhiş bir təqibi başlandı. 1944-cü ilin iyun ayında İstanbul Universitetinin solçu tələbələri "Ən böyük təhlükə" adlı bir broşur hazırlayıb yaymağa başladılar. Orada Pantürkist hərəkatlar tənqid edilir və onların arxasında xarici dövlətlərin dayandığı bildirilirdi. Onlar fikrincə, Turançıların məqsədi Türkiyənin neytrallığını pozmaq və onu Almaniya tərəfindən müharibəyə daxil etmək idi. Broşurda Zəki Vəlidi Toğan, Məmməd Əmin Rəsulzadə, Ayaz İshaki, Əhməd Cəfəroğlu və digərləri Pantürkist hərəkatların liderləri kimi təqdim edilir və onların fəaliyyətlərinin Türkiyənin xarici siyasətinə zərər verdiyi iddia olunurdu. Broşurun qısa

---

[138] Azərbycan, 1944, 12 iyun

[139] Fahir Armaoğlu. İkinci Dünya Harbinde Türkiye. Siyasal Bilgiler Fakültesi Dergisi, cilt 12, no 2, Haziran 1958, s.172

müddətdə rus dilinə tərcümə edilib Moskvada "Pravda" qəzetində dərc edilməsi Türkiyə cəmiyyətində böyük hay-küyə səbəb oldu və hətta, Xarici İşlər naziri Numan Menemençioğlu bu barədə Türkiyə Böyük Millət Məclisində izahat verməli oldu.[140] Araşdırmalar zamanı broşurun Sovet İttifaqına yaxın olan Zəkəriyyə Sertel və onun həyat yoldaşı Sabiha Sertel tərəfindən hazırlandığı məlum olmuşdu.[141] Türkiyədə başlanan bu təqiblərin gedişində dağıdılan türkçü cəmiyyətlərin və həbs edilən Turançılar keçmiş rus mənşəli olanları sovet hakimiyyət orqanlarına təslim edildilər, lakin bu şəraitdə belə 1944-cü ilin iyun ayında sovetlərin rəsmi dövlət orqanı kimi "İzvestiya" qəzeti Türkiyə hökumətinin turançılara qarşı mübarizəsini yetərli hesab etmirdi. Beynəlxalq mövzuda yazılmış bu yazı "Müşahidəçi" imzası ilə nəşr edilsə də, lakin hamıya bəlli idi ki, "İzvestiya" qəzeti Sovet dövlətinin rəsmi mövqeyini ifadə edir. Yazıda pantürkistlərin may ayının 3-də Ankarada keçirdikləri nümayiş kəskin tənqid edilir, onun təşkilatçılarına faşist damğası vurulur, onların Almaniyaya casusluq etdiyi bildirilirdi. Məqalədə Türkiyədə nəşr olunan "Böyük Doğu", "Devrim", "Çinaraltı" kimi türkçü jurnallar faşist nəşrləri kimi xarakterizə edilir, Oğuz Türkkanın "Millətçilik yollarında", Namık Orkunun "Dünyanın bütün türklərinə" kitabçalarının almanların pulları ilə çap olunduğu bildirilirdi. "İzvestiya" qəzeti qeyd edilən yazısında general Erkiletlə yanaşı, türk siyasətinin tanınmış simaları olan Celal Bayar və Receb Pekerin Hitler Almaniyasına rəğbət bəslədiklərini yazmaqdan çəkinmirdi. "Müşahidəçi" müəllif tövsiyə edirdi ki, "Türkiyədə hitlerçilərin gizli agenturasının kökünü kəsməyə çağıran türk ictimaiyyətinin daha geniş dairələri bu fikrə gəlirlər ki, "panturnizm", "pantürkizm" və irqçiliyin digər sinonimləri altında gizlənmiş pantürkizmə qarşı qəti və barışmaz mübarizə aparılmalıdır".[142] 1944-cü ilin avqust ayında Türkiyə Almaniya ilə əlaqələrini kəsdikdən sonra Turançılıq rəsmən qadağan edildi və bu dalğada orada üstünlük təşkil

---

[140] Bax: Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.600-601

[141] 1950-ci ildə Serteller Türkiyəni tərk etdi və xaricdə türk kommunist qruplarına qoşuldular. Sabiha Sertel həyatının son illərini Bakıda yaşadı və 1968-ci ildə Azərbaycanda vəfat etdi. Məzarı Fəxri Xiyabanda yerləşir.

[142] Известия, 1944, 1 июня

edən Azərbaycan mühacirləri də ciddi təzyiqlərə məruz qaldılar. Turançı dalğada həbs edilən 23 nəfərin içərisində Azərbaycan mühacirlərindən professor Əhməd Cəfəroğlu da var idi. Bir vaxtlar Türkiyənin Bakıda diplomatik nümayəndəsi olmuş Cümhuriyyət Xalq Partiyası baş katibi Memduh Şevket Esendal işə qarışdıqdan sonra böyük mütəfəkkir Əhməd Ağayevin oğlu, gənc vəkil Səməd Ağaoğlu və həbs siyahısında yer almış böyük əksəriyyəti Rusiya türklərinin nümayəndələri olan digər 47 nəfəri tutulmaqdan xilas etmək mümkün oldu.[143]

İkinci Dünya müharibəsinin gedişində Qafqaz və Türküstan legionları böyük itki verdilər. İstər Şərq və istərsə də Qərb cəbhələrindəki hərbi əməliyyatlarda onlar bəzən şəxsi heyətinin 70-80 faizini itirirdilər. Məsələn, 805-ci Azərbaycan batalyonu öz döyüşçülərinin 85 faizini, azərbaycanlılardan ibarət 806-cı batalyon isə şəxsi heyətinin 70 faizini hərbi əməliyyatlarda itirmişdi.[144] İsmayıl Əkbər Huver institutunun arxivində saxlanılan 36 səhifəlik arayışında 1945-ci ilin aprel ayının 1-nə qədər Azərbaycan könüllü hissələrinin 1943-1945-ci illərdə həm cəbhələrdə, həm də partizanlara qarşı yerli döyüşlərdə 13 100 nəfər itki verdiyini, o cümlədən 2810 nəfərin öldüyünü, 7350 nəfərin yaralandığını, 2940 nəfərin isə itkin düşdüyünü yazır.[145] Bu itkilər milli mühacir komitələrinə və legion döyüşçülərinə mənəvi haqq verirdi ki, öz milli və siyasi arzularını dilə gətirsinlər. Bu məqsədlə legion hissələrinin Qafqaz qərargahının rəhbərləri 1944-cü ilin avqust ayının 28-də A.Rozenbergin adına kollektiv müraciət göndərdilər. Orada qafqazlıların Almaniya hakimiyyəti ilə sonrakı əməkdaşlığının şərti kimi bu tələblər irəli sürülürdü: Almaniya hökuməti tərəfindən Qafqaz dövlətlərinin müstəqilliyinin tanınması; Almaniya tərəfindən döyüşən Qafqaz birliklərinin Qafqaz azadlıq ordusu kimi tanınması; Dörd Qafqaz xalqının Almaniyanın müttəfiqi elan olunması; Qafqaz qərargahının onların xalqlarının milli nümayəndəliyinə çevrilməsi. Əks təqdirdə

---

[143] Samet Ağaoğlu. Babamın Arkadaşları. İstanbul, 1958, s.116

[144] Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.542

[145] Bax: İsmayıl Əkbər. İkinci dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallin, Box 6, Folder 6, p.34

legioner qərargahlarının nə Qafqaz xalqları, nə də Almaniya qarşısında heç bir məsuliyyət daşımayacağı bildirilirdi.[146] Bu sənədi imzalayanlardan biri Azərbaycan Milli Birlik Məclisi idi.

Azərbaycan Milli Birlik Məclisi yarandığı gündən etibarən Sovet İttifaqı ilə yanaşı, general A.Vlasovun başçılıq etdiyi Rusiya Azadlıq Ordusuna (RAO) qarşı da mübarizə aparmalı olmuşdu. Reyxsfürer SS H.Hitler və Almaniyanın digər yüksək hakimiyyət orqanları tərəfindən himayə olunana RAO milli komitələri öz xalqlarının təmsilçiləri kimi qəbul etmək istəmir, bütün könüllü birlikləri rus bayrağı altında birləşdirməyə cəhd göstərirdi. Burada məqsəd rus millətçiliyini Stalin rejiminə qarşı qoymaq, bolşevizmə qarşı mübarizənin ağırlıq mərkəzini rus legionlarının üzərinə keçirmək idi. 1944-cü ilin sentyabr ayında Hitlerlə görüşən general Vlasov milli azlıqların müstəqilliyi ideyasını inkar edərək, bolşevizmin devrilməsindən sonra SSRİ xalqları yenidən könüllülük əsasında Rusiya ilə birləşəcəklərini bildirmişdi. Bu məqsədlə Hitler 1944-cü ilin oktyabr ayında Qafqaz və Türküstan könüllü birliklərinin komandanı general E.Kestringlə görüşərək bütün Şərq, o cümlədən Qafqaz könüllü birliklərinin A.Vlasovun komandanlığı altında birləşdirilməsi haqqında məsələ qaldırmışdı. Lakin general Vlasov üçün Rusiya imperiyası və SSRİ-nin hüdudları, dövlət-siyasi anlayışları eyni məzmuna malik olduğuna görə Qafqaz qərargahı ilə onun arasında ciddi ixtilaflar yaranmışdı. Sovet İttifaqı ilə müharibənin əvvəllərində qeyri-rusların milli komitələri 1942-ci ildə Moskva üzərində qələbəyə ümid bəslədiklərindən general Vlasovun Smolenski manifestini müdafiə etsələr də, 1944-cü ildə onlar müstəqillik ideyasından geri çəkilmək fikrində deyildilər. 1944-cü ilin oktyabr ayının 4-də Şərq nazirliyində Qafqaz şöbəsinin rəisi professor fon Mendenin iştirak etdiyi söhbətdə Azərbaycan milli komitəsi adından Ə.Əlibəyov, gürcülərin adından Mixail Kediya, Şimali Qafqaz dağlıları adından Əlixan Kantemir, ermənilərin adından Arşak Camalyan general Vlasovun Rusiya Xalqlarının Azadlığı Komitəsinə münasibətdə

[146] Kaukasische Verbindungsstabe an Rosenberg. 28.08.1944 // Hoover İnstitution Archives, A.Dallin's collection. Box 6, Folder 6

bildirdilər ki, "əsrlər boyu Qafqaz xalqları öz müstəqillikləri uğrunda Rusiyaya qarşı mübarizə aparıblar. Onların məqsədlərinin rus xalqının nümayəndəsi kimi general Vlasovun güddüyü məqsəddən başlıca fərqi də bundadır".[147] Mayor Fətəlibəylinin Milli Türküstan Birliyi Komitəsi sədrinin yardımçısı Baymirza Hayitla birlikdə Şərq nazirliyinin məsul əməkdaşlarından olan general Bergerlə apardığı danışıqlar bir nəticə vermədi. O, qərarı ləğv etməyin mümkünsüz olduğunu bildirdi.[148] Bundan sonra Milli komitələrin yuxarıda adları çəkilən nümayəndələri A.Rozenberg vasitəsi ilə reyxskansler M.Borman və feldmarşal V.Keytelə də etiraz məktubu göndərdilər. Orada deyilirdi ki, qafqazlılar bolşevizmə qarşı mübarizədə general Vlasovun Rus Azadlıq hərəkatı ilə tərəfdaş olmağa məmnuniyyətlə hazırdırlar, lakin rəhbər kimi ona tabe olmağı heç vaxt düşünmürlər.[149] Nə Rozenbergin Rusiya Xalqlarının Azadlığı Komitəsinin rəhbərliyinin hər altı aydan bir rotasiya qaydasında dəyişməsi təklifi, nə də İmperiya təhlükəsizliyi idrəsinin rəisi E. Kaltenbrunnerin Qafqaz komitələrini Vlasova tabe etmək cəhdləri bir nəticə vermədi. Əksinə Türküstan milli komitəsinin rəhbəri Vəli Kayyumxan, Ukrayna və Belarus nümayəndələrinin qafqazlılara birləşməsi milli azlıqların mövqeyini daha da birləşdirdi.[150] Yalnız bundan sonra Almaniya rəsmi orqanları Vlasovla SSRİ-nin kiçik xalqlarının nümayəndələrinin münasibətlərini tənzimləməyə qərar verdilər və Qafqaz xalqlarının aparıcı siyasi təşkilatı kimi Qafqaz milli şurası təsis edildi. Onun üzvləri M.Kediya, Ə.Əlibəyov, Ə.Kantemir və A.Camalyan, katibi isə Mixail Alşibiya seçildi. Qafqaz azadlıq ordusunun formalaşmasını həyata keçirmək və hərbi əməkdaşlıq məsələlərini tənzimləmək üçün Milli Şuranın yanında Qafqaz hərbi şurası yaradıldı. Belə qərara gəlindi ki, Qafqaz legioner hissələri Sovet cəbhələrindən çıxarılıb Danimarka və Şimali İtaliya kimi daha təhlükəsiz yerlərə gətirilsinlər. Almaniya komandanlığının planı üzrə

---

[147] Г Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.431

[148] Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.568

[149] Bax: J.Thorwald. Die Illusion. Rotarmisten in Hitlers Heeren. Zürich, 1974, s.284

[150] Г Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.432

keçmiş çar ordusu zabiti, 1918-ci ildə Bakı əməliyyatında iştirak etmiş ağqvardiyaçı general Lazar Biçeraxov Qafqaz azadlıq ordusunun komandanı vəzifəsinə gətirildi.[151] Lakin bu addım Azərbaycan Milli Birlik Məclisinin və digər mühacir təşkilatlarının etirazına səbəb oldu. Onlar bildirdilər ki, Biçeraxov 1918-ci il hadisələri zamanı yerli azərbaycanlı əhaliyə qarşı qəddarlığını göstərmişdir. Həmin vaxt Biçeraxov rus mühacirlərinin "Naş put" xəbər bülletenində "Əsarət altına alınmış xalqların mühacirətinə açıq məktub"la çıxış etmişdi. Buna cavab olaraq Azərbaycan MBM-nin rəisi Ə.Fətəlibəyli L.Biçeraxova sərt bir açıq məktub göndərmişdi. O, yazırdı ki, bir sıra rus mühacir dairələri qeyri-rus xalqların azadlıq hərəkatının həmin xalqlara söykənmədiyi və guya Himler və Rozenberg tərəfindən uydurulduğu haqqında Qərb mərkəzlərində şaiyələr yayırlar. Fətəlibəyli Biçeraxovun keçmiş əməllərini yada salaraq yazırdı ki, Azərbaycan və Şimali Qafqaz oğulları böyük nifrət hissi ilə çar polkovnikinin o dövrdəki fəaliyyətini xatırlayırlar. O, əlavə edirdi ki, "Sizin dəstənizin azğınlığından xilas olmağımıza göstərdiyi köməkliyə görə biz türk xalqına minnətdarıq. Bakıdan çıxarkən siz xəzinəni də ələ keçirməyi unutmadınız. Siz Bakıdan qovulan zaman Dərbəndə hərəkət etdiniz və şimali qafqazlılara qarşı qanlı döyüşlərdə Petrovski ələ keçirdiniz...Dağıstanlı deputatları öldürdünüz. Sonra türklər qafqazlılara köməyə gəldilər, sənin dəstəni dağıdıb Petrovskdan qovdular, Şimali Qafqazı sizin azğınlığınızdan azad etdilər".[152]

Fətəlibəyli Azərbaycan xalqının 1918-1920-ci illərdə apardığı milli azadlıq hərəkatının Lazar Biçeraxova yaxşı məlum olduğunu vurğulayır və bolşevizmin hansısa böyük xarici qüvvənin müdaxiləsi ilə devriləcəyini, elə bu niyyətlə də 1939-cu ildə Stalinlə Hitler arasında ittifaq müqaviləsi bağlandıqda Azərbaycan xalqının rəğbətinin Qərb müttəfiqləri tərəfində olduğunu bildirirdi. O, yazırdı: "Stalin Hitlerlə birlikdə Polşanı böləndə, Baltik ölkələrini müstəqillikdən məhrum edəndə, Finlandiyanı dağıdanda, biz səbirsizliklə İngiltərə, Fransa, Skandinaviya

---

[151] A. Jeloschek, Fr. Richter, E. Schütte. J. Semler. Freiwillige vom Kaukasus. Georgier, Armenier, Aserbaidschaner, Tschetschenen u.a. auf deutscher Seite. Der «Sonderverband Bergmann » und sein Gründer Theodor Oberländer. Graz-Stuttgart. 2003, s. 292.

[152] Ə.Fətəlibəyli -Düdənginski. General Biçeraxova açıq məktub. // Sabah. 1992, 15-30 may

və digər Avropa ölkələrinin SSRİ-yə müharibə elan edəcəyini gözləyirdik. Həmin vaxt biz həm Stalinin, həm də Hitlerin əleyhinə onların təbii müttəfiqləri idik, lakin...əksinə alındı. Vətənpərvərlik borcu Qərb ölkələrini SSRİ ilə, bizi isə Almaniya ilə birləşdirdi".[153] Fətəlibəyli öz açıq məktubunda legionların yaranmasının maraqlı məqamına toxunaraq yazırdı ki, Rusiyaya qarşı müharibəni 1941-ci ilin qışında yekunlaşdırmağı düşünən Hitler legioner birlikləri yaratmağı planlaşdırmırdı. O, açıqca yazırdı ki, "nasional-sosialistlər 1942-ci ilin əvvəllərində yaradılan legioner birliklərinə ucuz yardımçı qüvvə kimi baxırdı. O ucuz əsgərlərdən biri də mən idim. Adamlar legionlara gəlirdilər ki, ölüm aclığından qurtarsınlar və heç olmasa ucuz əsgər kimi ölümdən qisas alsınlar. Əgər siz və digər rəhbərlər bunu milli şərəfin rüsvayçılıq məqamı hesab edirdinizsə, onda hərbi əsirlərə bu çağırışla müraciət etməli idiniz: legionlara getməyin, mən də sizinlə birlikdə ölməyə həbs düşərgələrinə gəlirəm".[154]

Qeyri-rus xalqların, xüsusilə Qafqaz mühacirəti nümayəndələrinin etirazları öz nəticəsini verdi. 1944-cü ilin noyabr ayının 18-də Rusiya xalqları Azadlıq Komitəsinə alternativ olaraq Rusiya tərəfindən əsarət altına alınmış xalqların Məclisi yaradıldı. Bura Ukrayna, Belorusiya, Qafqaz, Türküstan, Krım və Volqa tatarlarının nümayəndələri daxil oldular. Öz daxili işlərində fəaliyyət azadlığını saxlayan ayrı-ayrı millətlərin nümayəndələri daha çox xarici aləmlə əlaqələrini koordinasiya edib və bu məqsədlə müvafiq komissiya yaratmışdılar. Məclisin təsis sənədi imzalanan gün bu təşkilatın müxtəlif millətlərdən olan rəhbərləri A.Vlasovun tərəfdarlarına qarşı birgə məktub imzalayıb A.Rozenbergə göndərmişdilər.[155]

1945-ci ilin əvvəllərində Almaniyanın məğlubiyyəti aydın görünməkdə idi. Həmin ilin fevral ayında keçirilən müttəfiq dövlət

---

[153] Yenə orada

[154] Yenə orada

[155] A. Schafi-Almag, A. Djamalian, A. Alibekoff, M. Kedia, A. Kantemir, E. Kirimal, Dr. Scharimli, A. Melnik, R. Astrowsi. An den Herrn Rechsminister für die besetzen Ostgebietes, Reichsleiter Alfred Rosenberg. Berlin, 18.11.1944.// Hoover Institution Archives, A. Dallin's collection, Box 6; Г.Мамулиа. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012, с.438-439

başçılarının Krım konfransında müttəfiqlərin əlinə düşən sovet vətəndaşlarının SSRİ-yə təhvil verilməsi, o cümlədən zərurət olarsa məcburi qaydada sovetlərə göndərilməsi barədə Stalinin təklifi ilə razılığa gəlinmişdi. Bu razılaşma legionlarda döyüşmüş keçmiş sovet vətəndaşlarının həyatını sual altına alırdı. Gözlənilən təhlükəni nəzərə alaraq Qafqaz, Ukrayna və Türküstan komitələrinin rəhbərləri 1945-ci ilin fevral ayında Cenevrədə Allen Dalleslə görüşdülər və ona izah etməyə çalışdılar ki, müharibə başa çatdıqdan sonra legionlarda xidmət etmiş qeyri-rus xalqların nümayəndələri Qərb ölkələrinə gərəkli ola bilərlər. Dalles onlara məsləhət gördü ki, Almaniya ilə əməkdaşlıq edən Milli komitələr Berlin tərəfindən müstəqil mühacir hökumətlər kimi tanınsa, bu onlara yardım göstərmək işini yüngülləşdirə bilər. Bununla yanaşı, 1945-ci ilin fevral ayının 23-də Türkiyənin Almaniyaya müharibə elan etməsi legioner birliklərin türk hissələrinin döyüş qabiliyyətinə mənfi təsir göstərdi. Şimali İtaliyada dislokasiya edilən 162-ci piyada diviziyasının komandanı general Heygendorf həyəcanlı şəkildə hərbi hissələrdə Almaniya əleyhinə əhvali-ruhiyyənin güclləndiyini yazırdı. Diviziyada ruh düşkünlüyünün qarşısını almaq və döyüş ruhunu bərpa etmək üçün qərara alındı ki, Ə.Fətəlibəyli-Düdənginski İtaliyaya ezam edilsin. 1945-ci ilin mart ayının 7-də Rusiya tərəfindən əsarət altına alınmış xalqların Məclisinin sədri M.Kediya Şərq nazirliyinin yetkilisi, SS generalı Q.Bergerə bildirdi ki, Fətəlibəylinin Şimali İtaliyaya ezam edilməsinin o halda mənası olar ki, Qafqaz xalqlarının müstəqilliyi Almaniya tərəfindən rəsmən tanınmış olsun.[156] Məğlubiyyət ərəfəsində olan Üçüncü Reyx bu addımı atmaq qərarına gəldi və 1945-ci ilin mart ayının 17-də Alfred Rozenberg Almaniya hökuməti adından gələcək müstəqil Azərbaycanın müvəqqəti hökuməti kimi Azərbaycan Milli Birlik Məclisini tanıdı. Azərbaycanla yanaşı digər, Qafqaz Milli Komitələri də milli hökumətlər kimi tanındı. Martın 24-də isə Milli Türküstan Birlik

[156] Das Kaukasische Komitee an Berger, über Arldt, 7. 3. 1945.// Hoover Institution Archives, A. Dallin's collection, Box 6

Komitəsi Türküstan milli hökuməti olaraq tanındı.[157] Fətəlibəyli bu aktı yüksək qiymətləndirirdi. O, yazırdı: "Bu tanınma aktının imperiyanın məhvindən ay yarım və ya 5 dəqiqə əvvəl baş verməsi prinsipial əhəmiyyətə malik deyil. Məsələ bundadır ki, oğullarının qanı və zəhməti hesabına əldə edilmiş bu tanınma Azərbaycan xalqının böyük nailiyyəti idi".[158] Mayor Fətəlibəyli qeyd edirdi ki, bu aktı imzalamaqla Alfred Rozenberg özünün irqçilik nəzəriyyəsinin doğru olmadığını, türklərin və qafqazlıların müstəqillik ruhunun sönməz və əbədi olduğunu etiraf etdi.[159]

1945-ci ilin may ayının 8-də faşist Almaniyası təslim aktını imzaladı. Avropada müharibə başa çatdı. Vermaxtın tərkibində vuruşmuş keçmiş sovet hərbi əsirlərinin, o cümlədən Azərbaycan legionerlərinin taleyində ağır bir dövr başladı. Müttəfiqlərin Krım konfransındakı razılığına əsasən onların bir hissəsi Sovet İttifaqına qaytarıldı, bir hissəsi böyük çətinliklə Türkiyədə yerləşdi, üçüncü bir hissəsi isə müxtəlif Qərb ölkələrinə səpələndilər. Təxmini hesablamalara görə Almaniya təslim olanda Qərb müttəfiqlərinin əlində 28 min azərbaycanlı legioner var idi. Bunlardan yalnız 800 nəfəri Qərb ölkələrində daldalana bildi, qalanları Qərb müttəfiqləri tərəfindən Sovet hərbi və hakimiyyət orqanlarına təslim edildi.[160] Təslim aktını imzalamazdan öncə Almaniya rəhbərliyi Milli Komitə başçılarının müxtəlif ölkələrə getmələri üçün gərəkli sənədlərin hazırlanmasına köməklik göstərmişdi. Azərbaycan Milli Birlik Komitəsinin başçısı Fətəlibəyli-Düdənginski Misirə yola salınmış, Şimali Qafqaz komitəsinin sədri Əli xan Kantemir və gürcü komitəsinin sədri Kediya İsveçrəyə keçirilmiş, Türküstan Milli Komitəsinin lideri Vəli Kayyumxan isə Almaniyada qalmağa üstünlük vermişdi.[161] Avropada

---

[157] Bax: Baymirza Hayit. Sovyetler Birliğindeki Türklügün ve İslamın bazi Meseleleri. İstanbul, 1987, s.200

[158] Р.Абуталыбов. Свои среди чужих, чужие среди своих. М., 2007, с.16

[159] Ə.Fətəlibəyli -Düdənginski. General Biçeraxova açıq məktub. // Sabah, 1992, 15-30 may

[160] Bax: İsmayıl Əkbər. İkinci dünya müharibəsində Azərbaycan legionerləri müstəqillik uğrunda mübarizədə. 1951.// Hoover Institution Archives, Stanford, USA. Collection A.Dallın, Box 6, Folder 6, pp.35-36

[161] Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi, s.569

müharibə başa çatdıqdan sonra Türkiyəyə sığınan hərbi və mülki mühacirlərin bir hissəsinin aqibəti acınacaqlı oldu. Türkiyə Xarici İşlər nazirliyinin 1945-ci ilin may ayının 22-də hökumətə yazdığı bir raporda müttəfiqlərə məxsus vətəndaşların onlara təslim edilməsinin uyğun olması göstərilirdi. Bu rapor hökumətdə müzakirə edildikdən sonra Sovet hərbi mühacirlərinin 195 nəfərlik ilk dəstəsi 1945-ci ilin avqust ayının 6-da SSRİ-yə təslim edildi. Onların böyük əksəriyyəti azərbaycanlılar idi. Hətta, Türkiyəyə pənah gətirmiş Ənvər Qazıyev və Adəm Qardaşbəyli adlı iki azərbaycanlı zabitin bu siyahıya daxil edilməsinin doğru olmadığı sonralar Böyük Millət Məclisində müzakirələrə səbəb olmuşdu.[162]

Müttəfiqlərin səyi ilə SSRİ-yə qaytarılan keçmiş hərbi əsirlərin aqibəti çox ağır oldu. Onlar faşist əsir düşərgələrindən sonra yenidən sovet həbs düşərgələrinin ağır həyatını yaşamalı oldular. Sovet İttifaqının İkinci Dünya müharibəsində qələbəsi Azərbaycan siyasi mühacirəti üçün də ciddi çətinliklər yaratdı. Onların bir hissəsi Sovet xüsusi xidmət orqanları tərəfindən ələ keçirilib SSRİ-yə gətirildi və Stalin repressiyalarının qurbanı oldu. Digər bir hissəsi isə müxtəlif Qərb ölkələrində gizli yaşamaq məcburiyyətində qaldı. Yalnız soyuq müharibə dövrünün başlanması ilə onlar yenidən Sovet İttifaqına qarşı fəal siyasi mübarizəyə qoşuldular.

[162] Türkiye Böyük Millet Meclisi Tutanak Dergisi, Cilt 9, Birleşim 101, 18.07.1951, s.204-205

VII FƏSİL

MOSKVANIN GENİŞLƏNMƏ SİYASƏTİ VƏ AZƏRBAYCAN

§1. Avropada müharibənin başa çatması və SSRİ-nin İran siyasətində Sovet Azərbaycanının fəallığının artması

1945-ci ilin mayında Avropada müharibə başa çatdı. Müttəfiqlər faşist Almaniyası üzərində qələbə çaldılar. Mayın 8-də İngiltərə, Sovet və Amerika radiolarının məlumatlarında Almaniyanın danışıqsız təslim olduğu açıqlandı. Qələbə Azərbaycanda da böyük sevinclə qarşılandı. Sovet Azərbaycanı ilə yanaşı Qələbə bayramı, demək olar ki, Cənubi Azərbaycanın da bütün şəhərlərində qeyd edildi.

Qələbə bayramını İran hökuməti böhran şəraitində qeyd edirdi. Mürtəzaqulu Bəyat hökuməti 1945-ci ilin aprelində istefa vermişdi. Sovetlər yaranmış vəziyyətdən istifadə edib, Əhməd Qəvamı hakimiyyətə gətirməyə cəhd göstərirdilər. Bu məqsədlə müxtəlif siyasi dairələrlə gizli danışıqlar aparılırdı. Eyni zamanda 1945-ci ilin mart-aprel aylarında S.Kavtaradze Qəvamın hakimiyyət ugrunda mübarizəsində ona yardım göstərmək üçün İ. Stalin və V. Molotovun adına sovet planını özündə əks etdirən iki raport hazırlamışdı, lakin bu planı həyata keçirmək mümkün olmadı.[1] Uzun müzakirələrdən sonra yeni hökumətin təşkil edilməsi 76 yaşlı Ebrahim Həkimiyə (İbrahim Həkim-ül Mülk) tapşırılmışdı. Mayın 13-də yeni hökumətin tərkibi elan edildi. O, yeni hökumətdə Baş Nazir və Daxili İşlər naziri vəzifələrini tutdu. E. Həkimi Seyid Həsən Tağızadə ilə birlikdə İranda "Tərəqqi" partiyasının yaradıcılarından biri olmuşdur. Sovet

[1] S.Kavtaradzenin V. Molotova raportu. 21.03.1945.// RF XSA, f.094, s.31, q.351a, i.3, v. 29-30; S.Kavtaradzenin İ.Stalinə raportu. 21.04.1945.// RF XSA, f.094, s.31, q.351a, i.3, v. 41-43

tərəfi orduların İrandan vaxtından əvvəl çıxarılması məsələsinin müzakirəsindən yayınmışdı.[5] Müttəfiqlərin ciddi cəhdlərinə baxmayaraq Krım konfransı zamanı V.Molotov xarici orduların İrandan çıxarılmasına dair A.İden və E.Stettinius ilə birgə bəyanat imzalamaqdan imtina etdi.[6]

Müharibənin sonunda xarici orduların İrandan çıxarılması məsələsi tez-tez müzakirəyə gəldiyindən, Sovet İttifaqı İranda möhkəmlənmək, onun şimalında, xüsusilə, Cənubi Azərbaycanda öz təsirini yaymaq istiqamətində müəyyən addımlar atırdı. Moskvanın bu istiqamətdə planlaşdırdığı bütün addımlarda Sovet Azərbaycanı mühüm rol oynayırdı. Müharibənin sonunda SSRİ-nin qonşu dövlətlərə doğru öz sərhədlərini genişləndirmək niyyətləri olduğu üçün ölkədə müxtəlif etiqadlara məxsus dini qurumların yaranmasına icazə verilmiş və dini təşkilatlardan xarici siyasətdə təbliğat vasitəsi kimi istifadə etmək nəzərdə tutulmuşdu. Sovet rəhbərliyinin bu qərara gəlməsi, ilk növbədə, SSRİ-nin dinsiz bir cəmiyyət olmadığı görüntüsünü qonşu xalqlara nümayiş etdirmək xarakteri daşıyırdı. Qarşıda Cənubi Azərbaycanla bağlı mühüm işlər planlaşdırıldığından, ÜİK(b)P MK-nın Siyasi Bürosu 1944-cü ilin mart ayının 6-da SSRİ Dövlət Təhlükəsizliyi Xalq Komissarı V.Merkulovun təklifi üzrə Şimali və Cənubi Qafqaz Müsəlman Ruhani İdarəsinin yaradılması haqqında qərar qəbul etmişdi. Qərara görə, Şimali Qafqaz Müsəlman (sünni təriqəti) Ruhani İdarəsi Dağıstan MSSR-nin Buynaksk şəhərində yerləşməli, Cənubi Qafqaz Müsəlman (şiə və sünni təriqətlərindən ibarət) Ruhani İdarəsi isə Azərbaycan SSR-nin Bakı şəhərində yerləşməli idi. Siyasi Büronun qərarından çıxarışlar V. Molotov, G.Malenkov, V.Merkulov, M.C.Bağırov və Əziz Əliyevə göndərilmişdi.[7] Bu qərardan az sonra Bakıda Ruhani İdarəsinə başçılıq etmək

---

[5]Sovet-İran münasibətlərinin qısa icmalı (1917-1955). SSRİ XİN-nin Arxiv idarəsi. İyun 1956.// RDƏYTA, f.5, s.30, i.171, v.76

[6] Müttəfiq orduların İrandan çıxarılması haqqında aparılan müzakirələr barədə geniş məlumat üçün bax: В.Т.Юнгблюд, А.В.Чучкалов. Политика США в Иране в годы Второй мировой войны. Киров, 2011, с.164-174

[7] Şimali və Cənubi Qafqaz Müsəlman Ruhani İdarəsinin yaranmasına icazə verilməsi haqqında ÜİK(b)P MK-nin Siyasi Bürosunun qərarı. 06.03.1945.// RDSSTA, f.17, s.162, i.37, v.114

üçün seçkilər keçirilmiş və Axund Ağa Əlizadə 8-ci Şeyxülislam seçilmişdi. O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şeyxülislam olmuş tanınmış din xadimi idi.

1944-cü ilin martında ÜİK(b)P MK-nın və SSRİ Xalq Komissarları Sovetinin "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımı gücləndirmək tədbirləri haqqında" qərarına uyğun olaraq, hazırlanmış iş planında qeyd olunurdu ki, əhaliyə təsir vasitəsi kimi dinə və din xadimlərinə xüsusi diqqət yetirilməlidir. Bu plana müvafiq olaraq 1945-ci ilin mayında Cənubi Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyxülislam Axund Ağa Əlizadənin Cənubi Azərbaycan şəhərləri və Tehrana səfəri təşkil olundu. Səfərin bütün proqramı və onun təşkili Azərbaycan SSR Xarici İşlər və Dövlət Təhlükəsizliyi Xalq Komissarlıqları tərəfindən hazırlanmışdı.[8] Səfər barəsində qabaqcadan İranın çox tanınmış din xadimi, İran Məclisinin üzvü Şeyxülislam Məlayeriyə teleqrafla məlumat verilmişdi. Onun göstərişinə əsasən İran hakimiyyət orqanlarına tapşırıq verilmişdi ki, Şeyxülislam Əlizadəni qarşılayıb, onu Tehrana qədər müşayiət etsinlər. Sovet Azərbaycanının maraqları, xüsusilə, Cənubda planlaşdırılan işlər baxımından bu çox mühüm səfər hesab edilirdi. Hələ, səfərə qədər də Ağa Əlizadə nüfuzlu bir din xadimi kimi İranda yaxşı tanınırdı. Vaxtilə Bağdad və Nəcəfdə onunla birlikdə ilahiyyat təhsili almış İran üləmaları onun haqqında çox yüksək fikirdə idilər. Digər tərəfdən, 1944-cü ilin ortalarında onun dünya müsəlmanlarına müraciəti fars dilinə tərcümə edilərək, İranda geniş yayılmışdı. Bir sıra İran qəzetləri müraciətin mətnini nəşr etmiş, Təbriz, Tehran, Məşhəd və digər şəhərlərin böyük məscidlərində onu oxumuşdular.[9]

Mayın 22-də Şeyxülislam Axund Ağa Əlizadənin başçılığı ilə Axund Əbdül Rəhim Axundzadə, Axund Molla Müzəffər Mirzəcan-

---

[8] Şeyxülislam Axund Ağa Əlizadənin İrana səfəri barədə hesabat. İyun, 1945.// ARPİİ SSA f.1, s.89, i.95, v.22-43; Bu səfər haqqında geniş məlumat üçün bax: C.Həsənli. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı, 1998, s.171-181

[9] Şeyxülislam Axund Ağa Əlizadənin dünya müsəlmanlarına müraciətinin İran məscidlərində oxunması haqqında məlumat. 1944.//ARPİİ SSA f.1, s.89, i.91, v.83

zadə və onları müşayiət edən Əli Səmədovdan ibarət nümayəndə heyəti xüsusi qatarla Bakı-Culfa-Təbriz-Zəncan-Qəzvin-Tehran marşrutu ilə İrana yola düşdülər. Mayın 23-də saat 19-da nümayəndə heyəti Təbrizə çatdı. Təbrizin məşhur din xadimi Əbül Həsən Siqqətülislam başda olmaqla Təbrizin bütün din xadimləri, valini əvəz edən Nikçu, dövlət aparatının yüksək məmurları, xan, bəy, tanınmış tacir və ziyalılar qarşılanma mərasimində iştirak edirdilər. Təbrizdəki SSRİ Baş konsulu M.Matveyev, konsulluğun katibi R.Quliyev də Şeyxülislamı qarşılayanlar arasında idilər. Ostandarı əvəz edən Nikçu dəmir yol vağzalındakı qısa çıxışında Ağa Əlizadənin İrana səfərini yüksək qiymətləndirdi. Onun gəlişi şərəfinə şəhərdə qurbanlar kəsildi. Şəhərin mərkəzi küçəsində toplaşan əhali yol boyu bir neçə dəfə Şeyxülislamın maşınını saxlatdırıb, onu səmimi salamlamışdılar. Sovet Azərbaycanından gələn din xadimləri Təbrizdə "Şeyxi" təriqətinin başçısı Siqtətülislamın evində qaldılar. Təbrizdə digər güclü təriqət olan "Mütəşərre"lərin başçısı Hacı Mirzə Xəlil Ağa Müctəhidi bu səbəbdən Şeyxülislamdan incidi. O, bunu Şeyxülislamın onun təriqətinə hörmətsizliyi kimi qəbul edir və onu ziyarət etməyəcəyini bildirirdi. Lakin Sovet orqanlarının gördüyü tədbirlər nəticəsində bu ziddiyyət aradan qaldırıldı və Müctəhidi də Şeyxülislamın görüşünə gəldi.

Siqtətülislamın evində böyük qəbul keçirildi. İraqın şəhərdəki vitse-konsulu Doceyli də Şeyxülislamı ziyarət edənlər arasında idi. Sovet orqanlarının təsiri altında olan Təbriz və Tehranın müxtəlif mətbuat orqanları Cənubi Qafqaz Müsəlman Ruhani İdarəsi başçısının İrana səfərinə böyük maraq göstərirdi. "İran-e ma" qəzeti Ağa Əlizadəni müsəlman dünyasının tanınmış şəxslərindən biri hesab edərək, İran hökumətinin bu səfərə böyük əhəmiyyət verdiyini yazırdı.[10] "Eqdam" qəzeti öz səhifələrində Şeyxülislamı İran müsəlmanları adından salamlayır və səfərin Cənubi Qafqaz müəlmanları arasında islam etiqadının möhkəmlənməsinə kömək edəcəyini bildirirdi. İran paytaxtında fransız dilində çıxan "Jurnal de-Teqeran"ın

[10] "İran-e ma", 1945, 25 may

yazdığına görə, Şeyxülislam Sovetlər Birliyinin ən nüfuzlu şəxslərindən biri hesab edilirdi. Nümayəndə heyətinin İranın məşhur dini mərkəzləri sayılan Qum və Məşhədi ziyarət edəcəyi qeyd edilirdi. "Vətən yolunda" qəzeti həmin günlərdə Axund Ağa Əlizadənin böyük portretini və islamın SSRİ-də "çiçəklənməsi" haqqında geniş yazı vermişdi.[11] Mayın 26-da Təbrizdə çıxan "Xavəre nou" qəzeti bu səfərə böyük əhəmiyyət verərək yazırdı ki, "İran xalqı ölkəmizə gəlmiş cənab Şeyxülislamı və onu müşayiət edən şəxsləri ürəkdən salamlayır. Ötən çərşənbə günü Şeyxülislamın təşrifindən xəbər tutan əhali saat 6-da dəmiryol vağzalına toplanmışdı. Ostandar və Siqqətül İslam başda olmaqla bütün nüfuzlu şəxslər hörmətli qonağın pişvazına çıxmışdı. Hörmət əlaməti olaraq, Şeyxülislam onu qarşılayan əhalinin içərisinə gələrək, onlarla görüşdü. Bütün yol boyu on minlərlə şəhər əhli A.Əlizadəni salamlayırdı. Gülüstan bağının yanında böyük izdiham var idi".[12] Qəzetin elə həmin nömrəsində Məhəmməd Biriyanın Şeyxülislama həsr etdiyi şeiri dərc edilmişdi.

Din xadimləri və ictimaiyyətin xahişi ilə mayın 27-də Ağa Əlizadə Təbriz məscidində moizə oxumuşdu. Moizədən əvvəl Sovetlərə rəğbəti olmayanlar və xüsusilə, Seyid Ziyanın adamları deyirdilər ki, Şeyxülislam Stalin tərəfindən təbliğat aparmaq üçün İrana göndərilib və o, rus dilində moizə edəcəkdir. Əlbəttə, Şeyxülislam türk (Azərbaycan) dilində moizə etdi və onun çıxışı öz məzmunu və səviyyəsinə görə çoxlarının diqqətini cəlb etdi. SSRİ-nin Tehrandakı səfirliyinin hesabatında əsl sovet təbliğatı üslubunda yazılırdı ki, moizəyə qulaq asanlar deyirdilər: "Çox təəssüf ki, bizdə maarifi, elmi və təhsili belə gözəl vəz edən güclü və hazırlıqlı din xadimləri yoxdur".[13] Şeyxülislamın Təbriz məscidində min nəfərin qarşısında belə güclü moizə etməsi onun haqqında aparılan əks təbliğatın təsirini xeyli zəiflətdi. Halbuki, onun haqqında belə bir şayiə yayırdılar ki, ümumiyyətlə, Şeyxülislam molla deyil, din

[11] "Vətən yolunda", 1945, 25 may
[12] Xavər-e nou", 1945, 26 may
[13] Şeyxülislam Axund Ağa Əlizadənin İrana səfəri ilə bağlı Ə.Yaqubovun S.Kavtaradze və M.C.Bağırova hesabatı. 1945.//ARPİİ SSA f.1, s.89, i.91, v.85

xadimi paltarı geyinmiş agentdir. Bununla bağlı Mirzə Xəlil Ağa Müctəhidi bildirmişdi ki, "bütün deyilənlər yalandır. Mən Əlizadəni Nəcəfdən tanıyıram, biz birlikdə oxumuşuq. O, əsl din adamıdır və buna heç bir şübhə ola bilməz".[14] Mayın 28-də Təbriz ticarət palatasının sədri, Azərbaycanın tanınmış mülkiyyətçilərindən olan Sədəqiani öz evində Şeyxülislamın şərəfinə böyük ziyafət verdi.

Təbrizdəki müzakirələrdə 25 illik fasilədən sonra Bakıdan yüksək rütbəli din xadiminin İrana səfəri birmənalı qarşılanmırdı. Vaxtilə, 30-cu illərin ortalarından Sovet Azərbaycanından İrana sürgün edilənlərin çoxu bolşeviklərin dinə qarşı necə amansız mübarizə apardıqlarını görmüşdülər. Şeyxülislamın görüşünə gələn Yadulla xan Alarlı mülkədarların fikrini ifadə edərək deyirdi: "Bolşeviklər yaxın zamanlarda İranda ictimai quruluşu dəyişdirmək istəyirlər. Ona görə, din xadimlərini göndəriblər ki, İranın din xadimləri ilə əlaqə yaratsınlar, bununla əhaliyə güclü təsir göstərib, fəhlə firqələri ilə birlikdə bizim hökuməti yıxsınlar, öz qaydalarını bərqərar etsinlər".[15] Diş həkimi S. Şəbüstəri Ağa Əlizadənin səfərini belə yozurdu: "Ruslar gördülər ki, onlar digər vasitələrlə iranlıları öz tərəflərinə çəkə bilmədilər, indi də ruhaniləri işə salıblar".[16]

Sovetlərin bir tərəfdən Tudə Partiyasını müdafiə etməsi, digər tərəfdən isə din xadimlərini Cənubi Azərbaycana göndərməsi millətçi qüvvələrin narazılığına, bəzi dairələrin tərəddüdlərinə səbəb olmuşdu. Təbrizin Maarif İdarəsi rəisinin müavini Səfvət deyirdi: "Mən SSRİ-nin İranda yeritdiyi siyasəti heç cür başa düşə bilmirəm. Biz görürük ki, onlar bir tərəfdən, Xalq Partiyasını müdafiə edirlər və bu bizə Sovet İttifaqının İranda çevriliş hazırladığını fikirləşməyə əsas verir. Digər tərəfdən, onlar müsəlman ruhanilərini İrana göndərirlər. Halbuki, din xadimləri ilə Xalq Partiyasının tədbirləri bir-biri ilə ziddiyyət təşkil edir. İranda, demək olar ki, böyük din xadimlərinin hamısı, eyni zamanda iri torpaq mülkiyyətçiləridirlər. Bu səbəbdən

---

[14] Şeyxülislam Axund Ağa Əlizadənin İrana səfəri barədə hesabat. İyun, 1945.// ARPİİ SSA f.1, s.89, i.95, v.28

[15] Yenə orada, v.30

[16] Yenə orada, v.30

də onlar Xalq Partiyasına qarşı mübarizə aparırlar. Sovet İttifaqı bu iki qüvvədən birinə söykənməlidir".[17]

Mayın 30-da Təbriz valiliyində Şeyxülislamla vida görüşü təşkil edildi və elə həmin gün nümayəndə heyəti Miyanəyə yola düşdü. Miyanə bəxşidarı Seyid Şafi Təbatəbai, şəhərin ruhani başçısı Seyyid Mir Mehdi başda olmaqla on nəfər din xadimi, altı yüz nəfərə qədər şəhər əhalisinin nümayəndələri Şeyxülislamı şəhərin iki kilometrliyində təntənəli şəkildə qarşıladılar. Bir gündən sonra onlar Zəncana yola düşdülər.[18] Səfərdən bir gün əvvəl Sovet qarnizonunun rəhbərliyi, şəhridar Rza Fəhimi, prokuror Şoruxi, üç yüzdən artıq kəndin sahibi olan iri mülkədar Sultan Mahmud xan Zülfüqari ilə birlikdə Şeyxülislamın qarşılanma mərasimini müzakirə edərkən, şəhridar gözlənilmədən Sovet hərbi rəhbərliyindən soruşmuşdu: "Zəhmət olmasa deyin, Şeyxülislam və onu müşayiət edən şəxslərin rütbəsi nədir? Mən gərək bunu bilim və buna uyğun olaraq, onun şərəfinə nitq söyləyim. Kimdir o, polkovnikdir, yoxsa general?"[19] Rza Fəhimi bu sözlərin ona baha başa gələcəyini tez də anladı. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Xalq Komissarı S.Yemelyanov SSRİ Təhlükəsizlik Xalq Komissarlığına göndərdiyi xüsusi məlumatda yazırdı: "Şeyxülislamın vağzal vestibülündə görünməsi ilə bir neçə min adam onun qarşısında təzim etdi. Çoxları Şeyxülislamın üstünə atılır, onun əlini, ayağını, ətəyini öpür və sevincdən ağlayırdılar. Şəhridar Rza Fəhmin də ağlayanların sırasında idi".[20]

Şəhər vağzalında qarşılanma mərasimindən sonra Şeyxulislam Zəncan əsilzadələrindən Sultan Mahmud xanın ayırdığı avtomobildə Müctəhid Ağa Seyid Əbülfəz Musəvinin evinə getdi. Şəhər küçələri insanlarla dolu olduğundan Musəvinin evinin ətrafına polislər qoyulmuşdu, lakin avtomobil dayanan kimi adamlar onun üstünə atıldılar. Bəziləri yerə yıxılıb yalvardı ki, Şeyx mübarək ayaqlarını onların üzərinə qoyub yerisin. Müctəhid Musəvi A.Əlizadənin şərə-

[17] Yenə orada, v.32
[18] Yenə orada, v.29
[19] Yenə orada, v.35
[20] Yenə orada, v.36

finə böyük qəbul keçirdi. İyunun 1-də Zəncan məscidində Şeyxülislamın on iki İmam haqqında oxuduğu moizə böyük diqqətlə dinlənildi, çoxları göz yaşlarını saxlaya bilmədi. Zəncanda Xalq Partiyasının keçmiş rəhbəri, hazırda şəhridarın tərcüməçisi işləyən Əbdül Əlizadə hörmətli qonağın moizəsinə qulaq asdıqdan sonra deyirdi: "Şeyxülislam məsciddə moizə edənə qədər biz onun həqiqi din xadimi olduğuna inanmırdıq. İndi çoxları gördülər ki, Şeyxülislam əsl böyük müctəhiddir. Əvvəllər inanmırdıq ki, Cənubi Qafqazda molla var. Əgər var idisə də burada hesab edilirdi ki, onlar allahsız mollalardır. İndi biz bunun əksini gördük".[21]

İyunun 2-də Ağa Əlizadə və onu müşayiət edənlər Qəzvinə gəldilər. Şəhər vağzalında onları şəhridar Fəqihzadə, şəhər idarəsinin rəisi Qiyas Nizami, təhsil şöbəsinin rəisi Qütve, məhkəmənin sədri və Sovet - İran dostluğu cəmiyyətinin rəhbəri Əcəmi, Maliyyə İdarəsinin rəisi Azəri, bankın direktoru Sopeyki, altı torpaq mülkiyyətçisi (o cümlədən Raşfənd və Ələmuti), tacirlər qrupu (o cümlədən, Əbrişəmi və Moini), "Novruz" qəzetinin redaktoru Novruzi, iyirmi yeddi nəfər din xadimi – ümumiyyətlə, dörd yüz nəfər qarşıladı. Qəzvindəki SSRİ Konsulu Çivilev və Sovet İdarələrinin nümayəndələri də Şeyxülislamın qarşılanma mərasimində iştirak edirdilər. Ağa Əlizadə Qəzvində iki gün yerli orta məktəbin direktoru Moininin evində qaldı. Şəhərin tanınmış din xadimləri, İmam Cümə, Tudə Partiyasının yerli filialının sədri, hakimiyyət orqanlarının nümayəndələri və b. onu ziyarət etdilər. İyunun 3-də generalmayor Ağasəlim Atakişiyev və konsul Çivilevin başçılığı ilə yüksək rütbəli Sovet hərbçilərinin Şeyxülislamın görüşünə gəlməsi onun nüfuzunu daha da artırdı.[22]

İyunun 4-də Bakıdan gələn din xadimləri Tehranda çox yüksək səviyyədə qəbul edildilər. İran Məclisinin üzvləri Şeyxülislam Məlayeri, Fətəli İpəkçian, Sədr Qazi, Firuzabadi, Fərman Fərmaian, Mehdi Ədl və digərləri Tehran vağzalına gəlmişdilər. Axund Ağa Əlizadə və onunla gələn din xadimləri Şeyxülislam Malayerinin evində qaldılar. Bir neçə

[21] Yenə orada, v.38
[22] Yenə orada, v.39-40

gün ərzində minlərlə adam, çoxlu din xadimləri, keçmiş Baş nazirlər Mürtəzaqulu Bəyat, Əli Soheyli, Ebrahim Həkimi, Qəvam əs-Səltənə, yeni hökumət başçısı təyin edilmiş Möhsün Sədr (Sədr-ül-Əşrəf) və müxtəlif hökumət kabinələrində işləmiş nazirlər, Məclisin sədri Təbatəbai, Məclisin üzvləri, alimlər və müəllimlər, tudəçilər və digər siyasi təşkilatların nümayəndələri, mətbuat işçiləri Şeyxülislamın görüşünə gəldilər.[23] İyun ayının 7-də SSRİ-də dinin vəziyyəti haqqında "İran-e ma" və digər paytaxt qəzetlərinin müxbirlərinin suallarına Ağa Əlizadənin cavabları dərc olundu.[24] Elə həmin gün Şeyxülislam Məlayerinin müşayiəti ilə Məhəmməd Rza şah Axund Ağa Əlizadəni qəbul etdi. Bir saatdan artıq davam edən söhbətdə şah əsasən, SSRİ-də islam dininin vəziyyəti, Qafqazda müsəlmanların sayı və s. məsələlərlə maraqlandı.[25] Şeyxulislamın şah tərəfindən qəbul edilməsi İranın din xadimlərində və dindar əhalisində xoş təsir buraxdı. Tehran mətbuatı, demək olar ki, hər gün bu səfər haqda yazılar dərc edirdi. "Dad" qəzeti hələ 30 il əvvəl Şeyxülislamın Quranı türk (Azərbaycan) dilinə tərcümə etməsini çox yüksək qiymətləndirir, onun bir neçə xarici dil bilməsini, iki oğlunun həkim işləməsini, Şeyxin elmə və maarifə yaxın olmasını yüksək qiymətləndirirdi.[26] "İrane ma" qəzetinin müxbiri yazırdı: "Şeyxülislamı görən zaman mən hiss etdim ki, o, məhz, elə mənim arzu etdiyim adamdır. Onun gözəl, ağ çalmasının altında bütün bəşəriyyətin xeyiri üçün fikirləşən dərin ağlı və sağlam zəkası vardır".[27] Şeyxülislamın İran din xadimləri ilə görüşlərindən yazı verən "Mozəffər" qəzetinin fikrincə, "özünün yüksək dini vəzifəsindən başqa Ağa Əlizadə böyük elm xadimidir. 30 il əvvəl o, Quranı türk (Azərbaycan) dilinə tərcümə etmişdir. Ərəb və fars dillərini qibtə ediləcək qədər əla bilir".[28]

---

[23] Şeyxülislam Axund Ağa Əlizadənın Irana səfəri ilə bağlı Ə.Yaqubovun S.Kavtaradze və M.C.Bağırova hesabatı. 1945.//ARPİİ SSA f.1, s.89, i.91, v.88

[24] "İrane ma", 1945, 7 iyun

[25] Şeyxülislam Axund Ağa Əlizadənin İrana səfəri ilə bağlı Ə.Yaqubovun S.Kavtaradze və M.C.Bağırova hesabatı. 1945.//ARPİİ SSA f.1, s.89, i.91, v.88

[26] "Dad", 1945, 5 iyun

[27] "İrane ma", 1945, 7 iyun

[28] "Mozəffər", 1945, 9 iyun

İyunun 8-də Axund Ağa Əlizadə Şeyxülislam Məlayeri ilə birlikdə Quma səfər etdi. Həzrəti Məsumənin məzarının ziyarətindən sonra o, İranın əsas din və ilahiyyat mərkəzində işləyən tanınmış din xadimləri ilə görüşdü. Görüş zamanı Ağa Əlizadə İrana səfərinin məqsədini açıqladı, şəriət elmi ilə bağlı bəzi məsələlər ətrafında fikir mübadiləsi apardı. Qumdan qayıdandan sonra Şeyxülislam iyunun 12-də Tehran universitetinin İlahiyyət fakültəsində mühazirə oxudu. Baş nazir Möhsün Sədr, Maarif Naziri, yüksək rütbəli din xadimləri, professorlar, Sovet səfirliyinin işçiləri və b. Şeyxülislamı dinləyənlər arasında idilər. Elə həmin gün Ağa Əlizadə məşhur din xadimi Hacı Ağa Rza Rəfiyi ilə görüşdü. O, Ruhulla Bəyayinin kitabına yazılmış beş cildlik təfsiri Şeyxə hədiyyə etdi.

İyunun 13-də "Dad" qəzetinin redaktoru Əmidi Nuri Bakıdan gələn qonaqların şərəfinə böyük ziyafət verdi. Beş saatdan artıq davam edən ziyafətdə Şeyxülislam "Dad" qəzetinə müsahibə verdi və dəvətlilər qarşısında geniş çıxış etdi. Həmin axşam Tehran radiosu ilə Şeyxülislamın çıxışı oldu. O, deyirdi: "İndi Sovet hökuməti millətindən və dinindən asılı olmayaraq, hamını oxudur. Kəndlərdə tək-tük savadsız adama rast gəlmək olar. Azərbaycan Respublikasında bir çox institut və texnikumlar fəaliyyət göstərir. Bizdə Mirqasımov kimi akademiklər, Əfəndiyev, Abdullayev, Qarayev, Məmmədəliyev kimi məşhur professorlar, yüksəkixtisaslı yerli kadrlar vardır."[29]

İyunun 14-də Axund Ağa Əlizadə Məlayeri ilə birlikdə Məşhədə yola düşdü. O, hava limanından birbaşa İmam Rzanın məqbərəsinin ziyarətinə yollandı. Ziyarətdən sonra tanınmış Məşhəd ülaması Kafayinin evinə yollandı və iki gün ərzində bir çox adamla görüşdü. Vali və keçmiş Baş Nazir Əli Mənsur Şeyxin görüşünə gəldi. İyunun 17-də Ağa Əlizadə onu müşayiət edən şəxslərlə birlikdə Xorasanda Əbülqasim Firdovsinin məqbərəsini ziyarət etdi və Məşhəd muzeyində oldu. İyunun 18-də o, yenidən Tehrana döndü. Əvvəlki gərgin görüşlər, çoxsaylı müraciət edənlərin qəbulu daha beş gün davam etdi. İyunun 23-də Azərbaycanın din xadimləri Rəştə gəldilər.

[29] ARPİİ SSA f.1, s.89, i.105, v.29-30

Rəştdə Hacı Ağa Həsənin evində olduğu bir gün ərzində çox sayda ziyarətçi Şeyxülislama baş çəkdi. İyunun 24-də Həzrəti Əlinin mövludu münasibəti ilə Axund Ağa Əlizadənin Rəştdə oxuduğu moizəni dörd mindən çox adam dinlədi. Bakıya dönərkən, nümayəndə heyəti daha bir gün Pəhləvi şəhərində İmam Cümə Pişvazinin evində qaldı. Pəhləvi məscidində o, üç mindən artıq dindarın qarşısında moizə oxudu. İyunun 26-da bir aydan artıq davam edən səfər başa çatdı. Şeyxülislam və onu müşayiət edən şəxslər Bakıya döndülər. Bu səfər Sovet Azərbaycanının İranda, xüsusilə, Cənubi Azərbaycanda tanıdılması baxımından əhəmiyyətli hadisə oldu. Səfər haqqında Tehrandakı Sovet səfirliyinin müşaviri Əhəd Yaqubov SSRİ Xarici İşlər Xalq Komissarının müavini S.Kavtaradze və M.C.Bağırova göndərdiyi hesabatda yazırdı: "Öz dərin biliyi ilə Şeyxulislam Ağa Əlizadə İran ictimaiyyətində, din xadimlərində və etiqad sahiblərində böyük təəssürat yaratdı. Onun İrana səfəri, Tehranda olması, Qum və Məşhədi ziyarət etməsi SSRİ-də dinin vəziyyəti haqqında şayiələr yayan ingilispərəst mürtəce dairələrə və xarici ölkələrin casuslarına ağır zərbə oldu. Onun səfəri bizim uçun zəruri olan İran din xadimləri ilə əlaqələr qurmaq işində son dərəcə əhəmiyyətli oldu. Səfərin nəticələri gələcəkdə bizim burada din xadimlərinə təsirimizi gücləndirmək üçün faydalıdır".[30]

İrandakı Sovet idarələri Şeyxülislamın səfərini çox diqqətlə izləyirdi. Onun olduğu şəhərlərdə fəaliyyət göstərən Sovet orqanları Axund Ağa Əlizadənin keçirdiyi görüşlər və apardığı danışıqlar barədə Bakıya və Moskvaya geniş hesabatlar və məlumatlar göndərirdilər. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Xalq Komissarı S.Yemelyanovun bu səfər barədə xüsusi məlumatı 22 səhifədən, Tehrandakı Sovet səfirliyinin müşaviri Ə.Yaqubovun hesabatı isə 14 səhifədən ibarət idi. İranda fəaliyyət göstərən ayrı-ayrı Sovet idarələri də öz növbəsində Şeyxülislamın görüşləri barədə Bakıya müxtəlif məlumatlar göndərmişdilər. Ə.Yaqubov geniş

[30] Şeyxülislam Axund Ağa Əlizadənin İrana səfəri ilə bağlı Ə.Yaqubovun S.Kavtaradze və M.C.Bağırova hesabatı. 1945.// ARPİİ SSA f.1, s.89, i.91, v.94

hesabatında təklif edirdi ki, Qafqazdan və xüsusilə, Orta Asiyadan İrana din xadimləri göndərdikdə, yerli əhalinin şiə olduğu nəzərə alınmalıdır. O, təklif edirdi ki, Axund Ağa Əlizadənin İrana səfərinə cavab olaraq, Şeyxülislam Məlayerini Bakıya dəvət etmək lazımdır. Ə.Yaqubovun fikrincə, İran səfərinin yekunları barədə Şeyxülislamın çıxışı fars və ərəb dillərində Bakı radiosu ilə səsləndirilməli idi, hətta, o, Tehran, Qum, Məşhəd, Təbriz kimi böyük şəhərlərin məscidlərində Cənubi Qafqaz Müsəlman Ruhani İdarəsinin nümayəndəliyinin açılmasını məqsədəuyğun hesab edir və Şeyxülislamın Bağdad və Qahirə kimi dini mərkəzlərə səfərlərinin təşkil edilməsini təklif edirdi. Ən nəhayət, Ə.Yaqubov təklif edirdi ki, Şeyxülislam Axund Ağa Əlizadənin İrana səfərinin nəticələri, onun müxtəlif şəhərlərdəki moizələri, Tehran Universitetində oxuduğu mühazirə fars dilində ayrıca kitab kimi nəşr olunmalıdır.[31] Belə bir kitabın nəşr edilməsini Tehrandakı "Dad" qəzetinin redaktoru Əmidi Nuri öz üzərinə götürmüşdü. Bununla bağlı İrandakı Sovet səfiri M. Maksimov M.C.Bağırovdan xahiş edirdi ki, Nurinin Şeyxülislamın İrana səfəri haqqında hazırladığı kitab üçün Qafqazda islamın vəziyyətinə dair fars dilində material göndərilməsinə köməklik etsin. Məktuba cavab olaraq, Ağa Əlizadənin "Sovet İttifaqında islam dininin vəziyyəti haqqında həqiqətlər" adlı geniş məqaləsi səfir Maksimova göndərildi.[32]

Şeyxülislam Axund Ağa Əlizadənin və digər din xadimlərinin Cənubi Azərbaycan, Tehran, Qum, Məşhəd və digər İran şəhərlərinə təşkil olunmuş səfərinin arxasında dayanan siyasi məqsədlərə əsasən, nail olundu. Böyük hadisələr ərəfəsində Cənubi Azərbaycan əhalisinə Sovet Azərbaycanında islam dininin olduğu görüntüsünü yaratmaq mümkün oldu. Bu səfərlə Şeyxülislam Ağa Əlizadə Sovetlərə qarşı təbliğ edilən "Allahsız cəmiyyət" xofunu cənubluların canından müəyyən qədər çıxara bildi. Bununla da, Cənubi Azərbaycanda yaxın vaxtlarda baş verəcək hadisələrə o, öz xidmətini göstərmiş oldu.

---

[31] Yenə orada, v.95-96

[32] ARPİİ SSA f.1, s.89, i.91, v.113-115

§2.Moskvanın qərarları və Bakının xarici siyasətində iki Azərbaycanın birləşdirilməsi ideyasının üstün istiqamətə çevrilməsi

1945-ci ilin iyununda Cənubi Azərbaycanda işlər ciddiləşdi. İranda yeni hökumət böhranı dərinləşməyə başladı. Bir tərəfdən Ebrahim Həkimi hökuməti istefa vermişdi, digər tərəfdən yeni təyin edilmiş Baş nazir, 70 yaşlı Mohsen Sədr (Sədr ül-Əşrəf) Məclisdən etimad ala bilməmişdi. Məclisin müxalifət azlığı və Xalq Partiyası Mohsen Sədrin namizədliyini Baş nazir vəzifəsinə müdafiə etmirdilər. Onlar sədri irticaçı şəxslərdən biri hesab edirdilər. Seyid Ziya tərəfdarlarının və müxalifət çoxluğunun ciddi-cəhdlərinə baxmayaraq Məclisdən etimad almaq məsələsi iki aya qədər yubandı. Mohsen Sədr Rza şah dövründə Ədliyyə naziri işləmişdi. Onun dövründə Mazandaran düzənliyinin Rza şaha verilməsi hüquqi cəhətdən əsaslandırılmışdı. O, Məhəmmədəli şah dövründə konstitusiya və demokratiya uğrunda mübarizə aparıb Rusiyanın köməkliyi ilə həbs edilmiş demokratların istintaq işini aparmışdı. Məhz, sədrin köməkliyi ilə həbs olunanların çoxu Tehrandakı şah bağında güllələnmişdi. Məhəmməd Rza şahın Məclisin müxalifət nümayəndələri ilə görüşündə doktor Müsəddiq açıq şəkildə bildirmişdi ki, "Məclisdə müxalifət vəkilləri qeyri-sağlam işlərlə məşğul olub, tez-tez hökumət kabinetlərini dəyişirlər. Biz əlahəzrətdən xahiş edirik ki, Sədrə öz namizədliyini geri götürmək barədə əmr versin".[33]

1945-ci ilin yazında M.C.Bağırovun Kremlə və Respublika Xarici İşlər Xalq Komissarı M.Əliyevin SSRİ XİXK-ə çoxsaylı müraciətləri öz nəticəsini verdi. Bir sıra Qərb tədqiqatçıları haqlı olaraq, yazırlar ki, M.C.Bağrovun Moskva ilə yazışmaları "rəsmi Bakının Stalinin İran siyasətində mühüm rol oynadığını ortaya

[33] Ə.Ənnağıyevin Bağırova məktubu. 22.05.1945.// ARPİİ SSA. f.1, s.89, i.105, v.18

qoyurdu".[34] Almaniya üzərində qələbədən bir ay sonra, iyun ayının 10-da SSRİ Xalq Komissarları Sovetinin sədri İ.Stalin "İranın Şimalında Sovet sənaye müəssisələri təşkil edilməsi haqqında" gizli qərarı imzaladı. Qərarda söhbət Təbrizdə və Cənubi Azərbaycanın digər şəhərlərində Sovet Azərbaycanı sənaye müəssisələrinin filiallarının yaradılmasından gedirdi. Bakı Karamel fabrikinin filialı kimi Cənubi Azərbaycanda şəkər zavodu, Bakı Ayaqqabı fabrikinin filialı kimi Təbrizdə ildə yüz min cüt ayaqqabı istehsal edən ayaqqabı fabriki, Bakı Toxuculuq kombinatının filialı kimi Təbrizdə Toxuculuq-iplik fabriki, Azərbaycan Trikotaj kombinatının filialı kimi Təbrizdə Corab-trikotaj fabriki, Şəki İpək kombinatının filialı kimi Rəştdə İpək fabriki qurulmalı idi. Qərara görə, bu müəssisələrin tikilməsi, onların mühəndis-texniki işçilər, ixtisaslı fəhlə kadrları, istehsalat rəhbərləri ilə təmin edilməsi SSRİ və Azərbaycan SSR-in müvafiq komissarlıqlarına tapşırılırdı. Qeyd edilən müəssisələr üçün avadanlıq göndərilməsi işi 1 oktyabr 1945-ci ilə qədər başa çatmalı idi. SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Azərbaycan SSR Torpaq Komissarı Salman Cəfərova, Yeyinti Sənayesi Komissarı Petros Adamyana tapşırılırdı ki, təcili olaraq, şəkər zavoduna lazım olan xammal ehtiyatını öyrənmək, şəkər çuğunduru əkin sahələrini müəyyənləşdirmək və genişləndirmək üçün Cənubi Azərbaycana mütəxəssislər göndərsinlər. Qərarda Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Teymur Quliyevə tapşırılırdı ki, Təbrizdə və Cənubi Azərbaycanın digər şəhərlərində tikiləcək müəssisələr üçün torpaq sahəsi ayrılması məsələsini həll etmək məqsədilə öz nümayəndələrini İrana ezam etsin. İttifaq Komissarlıqlarından tələb edilirdi ki, 1945-ci ilin avqust ayının 1-dən gec olmayaraq, tikiləcək müəssisələrin smetasını hazırlayıb, SSRİ Maliyyə Xalq Komissarlığının təsdiqinə versinlər. Qərara görə, bir ay ərzində şəkər zavodunun istehsal gücü ilə bağlı SSRİ Yeyinti Sənayesi Xalq Komissarlığı öz təkliflərini Xalq Komissarları Sovetinə təqdim etməli idi.

[34] Fernande Scheid Raine. Stalin and the Creation of the Azerbaijan Democratic Party in Iran, 1945. // Cold War History, vol.2, №1, October 2001, p.3; Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, 2005, p.95

Sənəddə SSRİ Maliyyə Komissarı A.Zveryevə tapşırılırdı ki, təsdiq edilmiş smetalar üzrə qərarda nəzərdə tutulan müəssisələrin maliyyələşdirilməsini həyata keçirsin. SSRİ Mərkəzi hökumətinin tapşırığına əsasən, Dövlət Plan Komitəsinin sədri N.Voznesenski üçüncü və dördüncü rüblərdə Cənubi Azərbaycanda tikiləcək obyektlər üçün lazım olan bütün avadanlıq və texnikanı Azərbaycan SSR üçün ayırmalı idi. Bu qərarın icrası üçün Daxili İşlər və Dövlət Təhlükəsizliyi Xalq Komissarlıqlarının üzərinə də bəzi vəzifələr qoyulurdu. Orada qeyd edilirdi ki, Sovet Azərbaycanı Daxili İşlər Xalq Komissarlığı bu qərardan irəli gələn vəzifələrin həyata keçirilməsini sürətləndirmək üçün onun icrası ilə bağlı İrana ezam olunan şəxslərin yol sənədlərini Dövlət Təhlükəsizliyi Komissarlığı və Azərbaycan Partiya təşkilatı ilə razılaşdırıb həll etsin. Ən nəhayət, bu qərarın icrasına rəhbərlik etmək Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Teymur Quliyevin üzərinə qoyulurdu.[35] SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 10 iyun tarixli qərarı ilə Təbrizdə və digər şəhərlərdə böyük sürətlə Sovet sənaye müəssisələrinin filiallarının tikintisinə başlanması Cənubi Azərbaycanın yaxın gələcəkdə Sovet Azərbaycanına birləşdirilməsindən xəbər verirdi.

Xalq Komissarları Sovetinin bu qərarından bir neçə gün əvvəl, iyun ayının 6-da Cənubi Azərbaycan da daxil olmaqla İrandakı vəziyyət ÜİK(b)P MK-nın Beynəlxalq İnformasiya şöbəsində geniş müzakirə edilmişdi. Məsələ barədə MK-nın məsul əməkdaşı Kozlov geniş məlumat vermişdi. O, qeyd etmişdi ki, yanacaq mənbəyi kimi İran nəinki dəniz, eyni zamanda hava donanması və habelə motoatıcı ordu üçün mühüm əhəmiyyət kəsb edir. Kozlov İranın neft sənayesinin ingilislərin nəzarətində olduğunu və son vaxtlar amerikalıların da bu ölkəyə böyük maraq göstərdiyini bildirirdi. O, qeyd edirdi ki, İngiltərə İranda möhkəmlənməklə Britaniya imperiyasının təhlükə-

[35] "İranın Şimalında Sovet sənaye müəssisələrinin yaradılması haqqında"SSRİ XKS-nın qərarı. 10.06.1945.//ARPİİ SSA, f.1, s.89, i.106, v.8-10; Əlavə məlumat üçün bax: J. Hasanli. At the Dawn of the Cold War: The Soviet–American Crisis over Iranian Azerbaijan, 1941–1946. Rowman and Littlefield Publishers, INC. Lanham, Boulder, New York, Toronto, Oxford, 2006, p.63; J. Hasanli. Iranian Azerbaijan: The Epicenter of a Cold War. // "The Caucasus and Globalization", Vol. 2, Issue 1, 2008, pp. 10-11

qoyurdu".[34] Almaniya üzərində qələbədən bir ay sonra, iyun ayının 10-da SSRİ Xalq Komissarları Sovetinin sədri İ.Stalin "İranın Şimalında Sovet sənaye müəssisələri təşkil edilməsi haqqında" gizli qərarı imzaladı. Qərarda söhbət Təbrizdə və Cənubi Azərbaycanın digər şəhərlərində Sovet Azərbaycanı sənaye müəssisələrinin filiallarının yaradılmasından gedirdi. Bakı Karamel fabrikinin filialı kimi Cənubi Azərbaycanda şəkər zavodu, Bakı Ayaqqabı fabrikinin filialı kimi Təbrizdə ildə yüz min cüt ayaqqabı istehsal edən ayaqqabı fabriki, Bakı Toxuculuq kombinatının filialı kimi Təbrizdə Toxuculuq-iplik fabriki, Azərbaycan Trikotaj kombinatının filialı kimi Təbrizdə Corab-trikotaj fabriki, Şəki İpək kombinatının filialı kimi Rəştdə İpək fabriki qurulmalı idi. Qərara görə, bu müəssisələrin tikilməsi, onların mühəndis-texniki işçilər, ixtisaslı fəhlə kadrları, istehsalat rəhbərləri ilə təmin edilməsi SSRİ və Azərbaycan SSR-in müvafiq komissarlıqlarına tapşırılırdı. Qeyd edilən müəssisələr üçün avadanlıq göndərilməsi işi 1 oktyabr 1945-ci ilə qədər başa çatmalı idi. SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Azərbaycan SSR Torpaq Komissarı Salman Cəfərova, Yeyinti Sənayesi Komissarı Petros Adamyana tapşırılırdı ki, təcili olaraq, şəkər zavoduna lazım olan xammal ehtiyatını öyrənmək, şəkər çuğunduru əkin sahələrini müəyyənləşdirmək və genişləndirmək üçün Cənubi Azərbaycana mütəxəssislər göndərsinlər. Qərarda Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Teymur Quliyevə tapşırılırdı ki, Təbrizdə və Cənubi Azərbaycanın digər şəhərlərində tikiləcək müəssisələr üçün torpaq sahəsi ayrılması məsələsini həll etmək məqsədilə öz nümayəndələrini İrana ezam etsin. İttifaq Komissarlıqlarından tələb edilirdi ki, 1945-ci ilin avqust ayının 1-dən gec olmayaraq, tikiləcək müəssisələrin smetasını hazırlayıb, SSRİ Maliyyə Xalq Komissarlığının təsdiqinə versinlər. Qərara görə, bir ay ərzində şəkər zavodunun istehsal gücü ilə bağlı SSRİ Yeyinti Sənayesi Xalq Komissarlığı öz təkliflərini Xalq Komissarları Sovetinə təqdim etməli idi.

[34] Fernande Scheid Raine. Stalin and the Creation of the Azerbaijan Democratic Party in Iran, 1945. // Cold War History, vol.2, №1, October 2001, p.3; Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, 2005, p.95

Sənəddə SSRİ Maliyyə Komissarı A.Zveryevə tapşırılırdı ki, təsdiq edilmiş smetalar üzrə qərarda nəzərdə tutulan müəssisələrin maliyyələşdirilməsini həyata keçirsin. SSRİ Mərkəzi hökumətinin tapşırığına əsasən, Dövlət Plan Komitəsinin sədri N.Voznesenski üçüncü və dördüncü rüblərdə Cənubi Azərbaycanda tikiləcək obyektlər üçün lazım olan bütün avadanlıq və texnikanı Azərbaycan SSR üçün ayırmalı idi. Bu qərarın icrası üçün Daxili İşlər və Dövlət Təhlükəsizliyi Xalq Komissarlıqlarının üzərinə də bəzi vəzifələr qoyulurdu. Orada qeyd edilirdi ki, Sovet Azərbaycanı Daxili İşlər Xalq Komissarlığı bu qərardan irəli gələn vəzifələrin həyata keçirilməsini sürətləndirmək üçün onun icrası ilə bağlı İrana ezam olunan şəxslərin yol sənədlərini Dövlət Təhlükəsizliyi Komissarlığı və Azərbaycan Partiya təşkilatı ilə razılaşdırıb həll etsin. Ən nəhayət, bu qərarın icrasına rəhbərlik etmək Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Teymur Quliyevin üzərinə qoyulurdu.[35] SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 10 iyun tarixli qərarı ilə Təbrizdə və digər şəhərlərdə böyük sürətlə Sovet sənaye müəssisələrinin filiallarının tikintisinə başlanması Cənubi Azərbaycanın yaxın gələcəkdə Sovet Azərbaycanına birləşdirilməsindən xəbər verirdi.

Xalq Komissarları Sovetinin bu qərarından bir neçə gün əvvəl, iyun ayının 6-da Cənubi Azərbaycan da daxil olmaqla İrandakı vəziyyət ÜİK(b)P MK-nın Beynəlxalq İnformasiya şöbəsində geniş müzakirə edilmişdi. Məsələ barədə MK-nın məsul əməkdaşı Kozlov geniş məlumat vermişdi. O, qeyd etmişdi ki, yanacaq mənbəyi kimi İran nəinki dəniz, eyni zamanda hava donanması və habelə motoatıcı ordu üçün mühüm əhəmiyyət kəsb edir. Kozlov İranın neft sənayesinin ingilislərin nəzarətində olduğunu və son vaxtlar amerikalıların da bu ölkəyə böyük maraq göstərdiyini bildirirdi. O, qeyd edirdi ki, İngiltərə İranda möhkəmlənməklə Britaniya imperiyasının təhlükə-

[35] "İranın Şimalında Sovet sənaye müəssisələrinin yaradılması haqqında"SSRİ XKS-nin qərarı. 10.06.1945.//ARPİİ SSA, f.1, s.89, i.106, v.8-10; Əlavə məlumat üçün bax: J. Hasanli. At the Dawn of the Cold War: The Soviet–American Crisis over Iranian Azerbaijan, 1941–1946. Rowman and Littlefield Publishers, INC. Lanham, Boulder, New York, Toronto, Oxford, 2006, p.63; J. Hasanli. Iranian Azerbaijan: The Epicenter of a Cold War. // "The Caucasus and Globalization", Vol. 2, Issue 1, 2008, pp. 10-11

sizliyini təmin etdiyi halda, sovetlərlə qonşu olan ölkədə irticaçı qüvvəllərin fəallaşması ilk növbədə SSRİ-nin neft rayonu üçün ciddi təhlükə təşkil edir. Kozlov əlavə edirdi ki, İranda "neft hər yanda, o cümlədən şimalda da var" və MK-da keçirilən müzakirədə Sovet İttifaqının Şimal neftinin istehsalında mühüm rol oynaya biləcəyi vurğulanırdı.[36] İrandakı siyasi qüvvələrin təhlilinə gəldikdə Kozlov bildirirdi ki, İran həmkarlar təşkilatı öz sıralarında 150 min insanı birləşdirir, lakin ölkədə ən kütləvi təşkilat Xalq Partiyasıdır və onun 20 min üzvü vardır.[37] Kozlovun məlumatının ən maraqlı məqamı milli məsələ ilə bağlı idi. O, qeyd edirdi ki, "milli mənada İranın çox mürəkkəb mənzərəsi vardır. Farslar öz ölkələrində cüzi üstünlüyə malikdirlər, onlar əhalinin təxminən 55 faizindən ibarətdirlər. Sonra müxtəlif türk xalqları gəlir, onlar əhalinin 35 faizinə qədərdirlər. Bunun ardınca müxtəlif tayfalar: kürdlər, bəxtiyarilər, qaşqaylar və digərləri əhalinin 10 faizini, erməni, aysor və başqaları isə kiçik bir faizini təşkil edirlər...Türklərlə farslar arasında, əgər düşmənçilik deyilsə də, hər halda, çox ciddi ixtilaflar mövcuddur".[38] Sovet həmkarlar şurasının beynəlxalq şöbəsində hazırlanmış arayışda isə 5 milyon əhalisi olan İran Azərbaycanını öz ərazisinə görə Avropanın İrlandiya və Bolqarıstan kimi dövlətləri ilə müqayisə edirdilər.[39] Bu müzakirədən az sonra Cənubi Azərbaycanda rəsmi xarakter alan sovet siyasətinin çıxış nöqtəsini də, məhz, ölkənin iki başlıca xalqı arasında gündən-günə dərinləşən ziddiyyətlər təşkil edirdi. Bu ziddiyyətlərin dərinləşməsində heç şübhəsiz ki, sovet təbliğatının müəyyən rolu var idi.

Artıq SSRİ və Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlıqlarına, habelə Azərbaycan K(b)P MK-ya tapşırılmışdı ki, Cənubi Azərbaycan məsələsini həll etmək üçün təkliflər hazırlasınlar. Bu tapşırığa uyğun olaraq, 1945-ci ilin iyun ayının 11-də ÜİK(b)P MK-nın Cənubi Azər-

---

[36] ÜİK(b)P MK-nın beynəlxalq informasiya şöbəsi. İranda vəziyyət haqqında yoldaş Kozlovun məlumat. Stenoqramma. 06.06.1945.// RDSSTA, f.17, s.128, i.748, v.56-60

[37] Yenə orada, v.70-71

[38] Yenə orada, v.84

[39] İran Azərbaycanında hadisələrə dair. 15.02.1946.// RFDA, f.5451, s.72, i.861, v.12

baycan və İranın şimalının digər əyalətlərində separatist hərəkatın təşkil edilməsi haqqında hazırlanan qərarının layihəsi baxılmaq üçün V.Molotov, M.C.Bağırov və S.Kavtaradzeyə verilmişdi.[40] İlkin müzakirələrdən sonra qərar layihəsi yaxın vaxtlarda müzakirə edilmək üçün Kreml rəhbərlərinə paylanmışdı.

Bununla bərabər Dövlət Müdafiə Komitəsi SSRİ Xarici İşlər Xalq Komissarlığı, Sovet Azərbaycanı rəhbərliyi, Sovet İttifaqı Neft Xalq Komissarlığı və Azneftin məsul işçilərinə göstəriş vermişdi ki, İranın şimalında neftlə bağlı geoloji-kəşfiyyat işlərinin görülməsi üçün təcili olaraq, öz təkliflərini versinlər.[41] Mərkəzi və respublika orqanlarından alınan təkliflər əsasında İ.Stalin 1945-ci ilin iyun ayının 21-də "İranın şimalında neftlə bağlı geoloji-kəşfiyyat işləri haqqında" Dövlət Müdafiə Komitəsinin 9168 saylı qərarını imzaladı.[42] "Son dərəcə məxfi" qrifi ilə qəbul edilmiş bu sənəddə aşağıdakı tədbirlərin həyata keçirilməsi qərara alınırdı: İranın şimalında neftli sahələrdə geoloji-kəşfiyyat işlərini aparmaq üçün SSRİ Neft Sənayesi Xalq Komissarlığı "Azneft" Birliyinin nəzdində hidrogeoloji idarə yaratsın; İranın şimalında neft geoloji-kəşfiyyat işlərini görmək üçün neft sənayesi Xalq komissarı Nikolay Baybakova və "Azneftin" rəhbəri Süleyman Vəzirova tapşırılsın ki, neft sənayesi işçiləri arasından lazım olan sayda qazma və kəşfiyyat briqadaları təşkil edib, onları Qəzvindəki Sovet ordusu qərargahında yaradılmış hidrogeoloji bölmə adı altında İranda müəyyən olunmuş iş yerlərinə göndərsinlər.[43]

---

[40] Cənubi Azərbaycan və Şimali İranın digər əyalətlərində separatist hərəkatın təşkil edilməsi tədbirləri haqqında" ÜİK(b)P MK-nın qərarının layihəsi. 11.06.1945.// ARPİİ SSA, f.1, s.89, i.90, v.6-8

[41] SSRİ-nin İranda neft siyasəti haqqında ətraflı məlumat üçün bax: J.Hasanli e V.Zubok. La prima crisi della gurra fredda: Mosca e il petrolio İraniano (1943-1946).// Ventesimo Secolo, Anno VI, Giugno 2007, #13, pp.11-44; J. Hasanli. At the Dawn of the Cold War: The Soviet–American Crisis over Iranian Azerbaijan, 1941–1946. Rowman and Littlefield Publishers, INC. Lanham, Boulder, New York, Toronto, Oxford, 2006, p.44-60; J.Hasanli. Der kampf um das Erdöl im Nahen und Mittleren Osten.// Walter M. Ilber, Peter Ruggenthaler. Stalins irtschaftspolitik an der sowjetischen Peripherie. Ein Überblick auf der Basis sowjetischer und osteuropaischer Quellen. Studien Verlag, Innsbruck, Wien, Bozen, 2011, pp.300-304; С.Алиев. История Ирана. XX век. Москва, 2004, с.210-214

[42] Bax: Fernande Scheid Raine. The Iranian Crisis of 1946 and the Originis of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, 2005, p.98

[43] "Şimali İranda neft geoloji-kəşfiyyat işləri haqqında" Dövlət Müdafiə Komitəsinin qərarı. 21.06.1945.// RDSSTA, f.644, s.2, i.507, v.144; Əlavə məlumat üçün bax: Дж.Гасанлы. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны. 1941-1946. Москва, 2006, с.89-92

Dövlət Müdafiə Komitəsinin qərarına əsasən, İrana hidrogeoloji bölmə adı altında göndərilən neftçi briqadaları qazma, geoloji çəkiliş və geofiziki kəşfiyyat işləri aparmalı idilər. Dərin qazma işlərini aparmaq üçün 10 dəzgah, o cümlədən, 3 stasionar dəzgah Şahi, Bəndər-Şah, Miyanəyə, dərin süxurlarda qazma işlərini aparmaq üçün 4 stasionar dəzgah Şahi, Bolqar-çay, Xoya, 3 hərəkət edən qazma aqreqatı Bəndər-Şah, Babolsər, Pəhləviyə göndərilməli idi. Dərin süxurlarda geoloji çəkilişləri aparmaq üçün tərkibində 10 dəstə olan böyük bir ekspedisiya Qorqan çölündə, Əşrəf, Şahi, Amol, Xorrəmabad, Bolqar-çay, Cülfa, Zəncan, Təbriz və Ərdəbildə işləməli idi. Geofiziki kəşfiyyat işlərini aparmaq üçün tərkibində 3 dəstə olan bir ekspedisiya Türkmənistan sərhədindən tutmuş Azərbaycan sərhədinə qədər Qorqan çölündə, Mazandaran və Rəşt düzənliyində işləməli idi. Nikolay Baybakov və Süleyman Vəzirova qəti olaraq, tapşırılırdı ki, 1945-ci ilin sentyabr ayının 1-dən gec olmayaraq, nəzərdə tutulan texnika və avadanlıq qeyd edilən yerlərə aparılmalı, sentyabr ayında qazma və kəşfiyyat işləri başlamalıdır. SSRİ Neft Sənayesi Xalq Komissarlığı avqust ayının 1-nə qədər qazma və geoloji kəşfiyyat briqadalarını Qəzvinə ezam etməli, avqust ayı ərzində avadanlıq İrana göndərilməli idi. SSRİ Xarici Ticarət Xalq Komissarı Anastas Mikoyana göstəriş verilmişdi ki, İran vasitəsilə Sovet İttifaqına gələn yardımlardan 150 yük avtomaşını və 15 traktoru iyun-iyul aylarında hidrogeoloji dəstə üçün ayırsın. Zaqafqaziya cəbhəsinin komandanı İvan Tülenev Cənubi Azərbaycana ezam edilən neftçiləri Qəzvində və digər yerlərdə xidməti və yaşayış binaları ilə təmin etməli idi. Eyni zamanda İranın şimalında qazma, geoloji kəşfiyyat, kartoqrafiya işçilərinin təhlükəsizliyinin təmin edilməsi məsələsi də general Tülenevə tapşırılırdı. Bütün bu işləri aparmaq üçün Dövlət Müdafiə Komitəsinin qərarına əsasən, SSRİ Maliyyə Komissarlığı 1945-ci ilin üçüncü və dördüncü kvartalları üçün "Azneft" Birliyinin hidrogeoloji İdarəsinə 8 milyon manat, o cümlədən 2 milyon 400 min manat məbləğində İran rialı

ayırmalı idi.[44] Azərbaycan SSRİ Daxili İşlər Komissarlığına icazə verilmişdi ki, neft işi ilə bağlı İrana ezam edilən işçilərin xarici ezamiyyət, yol və sərhəd sənədlərini təcili olaraq, həll etsin. İ.Stalinin sərəncamı ilə V. Məlik Paşayev hidrogeoloji İdarənin rəisi, Nəzər Heydərov Qəzvindəki Sovet ordusu qərargahı nəzdində Hidrogeoloji bölmənin rəisi, A.Kornyev isə onun müavini təsdiq edilmişdi. Hidrogeoloji bölmənin fəhlə qüvvəsinin mühəndis-texniki işçilərinin komplektləşdirilməsi, onun İranın şimalında qazma və geoloji kəşfiyyat işlərinin aparılması üçün dəzgah və materiallarla təmin edilməsinin bütün məsuliyyəti N. Baybakov və S. Vəzirovun üzərinə qoyulurdu. Dövlət Müdafiə Komitəsinin 1945-ci il 21 iyun tarixli qərarının sonuncu - 11-ci bəndində deyilirdi: "Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırova bir vəzifə olaraq tapşırılsın ki, "Azneft" Birliyinin Hidrogeoloji İdarəsinə hərtərəfli köməklik göstərsin və İranın şimalında neftlə bağlı geoloji-kəşfiyyat işlərinə nəzarəti həyata keçirsin".[45]

Qısa müddətdə aparılan geoloji-kəşfiyyat işləri nəticəsində Qorqan çölündə, Mazandaran və Rəşt düzənliyində böyük neft və qaz ehtiyatının olduğu təsdiq edildi. M.C.Bağırov üçün hazırlanmış arayışda göstərilirdi: "Cənubi Azərbaycanda neft özünü büruzə vermədi, lakin geoloji-kəşfiyyat işləri nəticəsində müəyyən olundu ki, Cənubi Azərbaycanda öyrənilən süxurlar Türkiyə, İraq və Cənubi İranın neftli sahələrinin süxurları ilə eynidir. Cənubi Azərbaycanın ərazisinin ilkin olaraq, müxtəlif geoloji tədqiqatlara, hərtərəfli kəşfiyyat işlərinə çox böyük ehtiyacı vardır.[46]

İranda neft axtarışı məsələsində sovetləri tələsdirən amillərdən biri 1945-ci ilin aprelində ingilislərin Tehranın şimalında və şimal-şərqində topo-geoloji axtarış işlərinə başlamaları olmuşdu. Dəmavənd dağından 16 km. şərqdə Lar və Cacarud çayları vadisində ingilislərin apardıqları

---

[44] "Şimali İranda neft geoloji-kəşfiyyat işləri haqqında" Dövlət Müdafiə Komitəsinin qərarı. 21.06.1945.// RDSSTA, f.644, s.2, i.507, v.145

[45] Yenə orada, v.146-147

[46] Şimali İranda neft geoloji-kəşfiyyat işləri haqqında . Sentyabr, 1945.// ARPİİ SSA, f.1, s.89, i.104, v.103-104

topo-geoloji, hidroloji axtarışlar rəsmən Tehranın su ilə təchiz edilməsi ilə əlaqələndirilirdi. Axtarış işlərini 1944-cü ilin oktyabr ayında İran hökumətinin dəvət etdiyi "Aleksandr Qibb" ingilis şirkəti aparırdı. İranda olan Britaniya aviasiyasının köməkliyi ilə bir tərəfdən Tehranın şimalının geoloji xəritəsi dəqiqləşdirilir, digər tərəfdən geoloji tədqiqatlar aparmaq üçün dörd ingilis qurğusu ilə qazma işləri aparılırdı. İşlərə rəhbərlik etmək məşhur ingilis geoloqu, Britaniya Kral Cəmiyyətinin vitse-prezidenti, Britaniya geoloji axtarışlar departamentinin keçmiş direktoru Eduard Beyliyə tapşırılmışdı, lakin Sovet kəşfiyyatı məlumat verirdi ki, Britaniya ordusu tərəfindən Tehran rayonunun topoqrafik işlərinin və aerofoto çəkilişlərin "Aleksandr Qibb" firmasına qətiyyən dəxli yoxdur. Lor və Cacarud vadilərindəki tədqiqat işlərində ingilis ordusunun və Beyli kimi məşhur geoloqun iştirakı Sovet xüsusi idarələrinin fikrincə, heç də adları çəkilən çayların su ehtiyatının öyrənilməsi ilə bağlı deyildi. Bunu Sovet hərbi kəşfiyyatı ingilislərin Tehrandan şimal-şərqə doğru Xəzər dənizinin neftlə zəngin cənub sahillərinə nüfuz etməsinin başlanğıcı kimi qiymətləndirirdi.[47]

Öz növbəsində ABŞ və Britaniyanın Tehrandakı diplomatik dairələri Sovetlərin İranda neft maraqlarını diqqətlə izləyirdilər. 1945-ci ilin mart ayında ABŞ-ın Tehrandakı səfirliyi İranın Xarici İşlər Naziri Nəsrulla Entezamın Moskvada V. Molotovla səfir Məcid Ahi arasında fevral ayının sonlarında keçirilmiş görüşün nəticələrindən narahat olduğu barədə Vaşinqtona məlumat verirdi. Məlumatda göstərilirdi ki, danışıqlar zamanı Molotov Məclisin konsessiyaları qadağan edən qanunun Sovet İttifaqına qarşı deyil, bilavasitə, İranın özünə qarşı yönələcəyini xüsusi şəkildə qeyd etmişdi.[48] Hələ, Kommunist İnternasionalı dövründən ÜİK(b)P MK-nın İranda əsas informatoru kimi fəaliyyət göstərən mənbə 1945-ci ilin fevral ayının 19-da məlumat vermişdi ki, Məclisin belə qərarı ingilispərəst qüvvələrin İranda fəallaşması ilə bağlıdır. Moskvanın etibarlı mənbəsi xəbər verirdi ki, İran Məclisi ingilislərin itaətkar

[47] ARPII SSA, f.1, s.89, i.101, v.96-98

[48] Telegram from Leland B. Morris to the Secretary of State. 06.03.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 3398, NND 7600050, Doc. 761.91/3-645

alətinə çevrilib və məhz, bu alət vasitəsi ilə İngiltərə Sovet İttifaqının iqtisadi maraqlarının genişlənməsinə yönəlmiş birinci cəhdinə - konssesiya təkliflərinə qarşı güclü müqavimət göstərir.[49] Britaniya səfiri Rider Bullard 1945-ci ilin yanvarında S.Kavtaradzenin 1944-cü ilin payızında Tehrana səfərinin yekunlarına dair "İranda Sovet siyasəti" adlı geniş hesabat hazırlayıb, Forin Offisə göndərmişdi. Həmin hesabatın surəti Tehrandakı Amerika səfirliyinin birinci katibi Riçard Ford tərəfindən ABŞ Dövlət Katibinə çatdırılmışdı. Orada açıq şəkildə qeyd edilirdi ki, Sovet İttifaqı Britaniya hökumətinin neft məsələsi ilə bağlı Sovet-İran danışıqlarına mənfi münasibətinin üzərindən sükutla keçməyəcək və onların guya Sovet İttifaqına konsessiya verilməsi məsələsinin İranın suverenliyinə təsir edəcəyi ilə bağlı geniş yaydıqları fikirlə barışmayacaqdır.[50] Ser Bullardın hesabatı və Dövlət Müdafiə Komitəsinin 1945-ci il iyun ayının 21-də verilmiş qərarının təhlili və bu qərarla bağlı atılan əməli addımların ardıcıllığı belə bir fikir söyləməyə əsas verir ki, İkinci Dünya müharibəsinin sonunda neft məsələsi Sovet İttifaqının Cənubi Azərbaycanla və ümumilikdə, İranla bağlı siyasətində mühüm amilə çevrilmişdi. Bu məsələlərlə bağlı maraqlı araşdırmaların müəllifi Fernande Şeidə görə, "Stalin yaxşı bilirdi ki, müharibə başa çatandan 6 ay sonra Sovet orduları İranı tərk etməlidir. Əgər o, İranın şimalını öz təsirində saxlamaq istəyirdisə, Moskva yaxın günlərdə fəaliyyətə keçməli, ya neft konsessiyaları əldə etməli, ya Azərbaycanda dost hökumət qurulmasına nail olmalı, ya da bunların hər ikisini həyata keçirməli idi".[51] Stalin siyasətinin Qərbdə çox tanınmış araşdırmaçısı

---

[49] Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам // «Новая и новейшая история». 1994, №3, с.28; Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History, 2011, Vol. 46, No 1, p.66

[50] From Richard Ford to the Secretary of State. Enclosing Copy of Statement Concerning Soviet Policy in İran. 12.01.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 3398, NND 7600050, Doc. 761.91/1-1245; Müttəfiqlərin İranda neft siyasəti haqqında əlavə məlumat üçün bax: В.Т.Юнгблюд, А.В.Чучкалов. Политика США в Иране в годы Второй мировой войны. Киров, 2011,с.252-259

[51] Fernande Scheid Raine. The İranian Crisis of 1946 and the Originis of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, 2005, p.96

hesab edilən Geoffrey Robertsə görə, həmin vaxt Moskva neft konsessiyası əldə etmək üçün Tehrana təzyiq etməyi zəruri hesab edirdi və Qırmızı Ordunun nəzarətində olan İranın şimal rayonlarının - Cənubu Azərbaycanın Sovet Azərbaycanına millətçilik zəminində birləşdirilməsi prosesində Sovet lobbiçiliyi Kremlin neft maraqları ilə üst-üstə düşürdü.[52]

İranda neft siyasətinin və Cənubi Azərbaycanda separatizm meyllərinin gücləndiyi bir vaxtda Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığına və yeni yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasına göstəriş verildi ki, Şimali və Cənubi Azərbaycan haqqında təcili olaraq, geniş arayışlar hazırlasın. Elmlər Akademiyası ilə birlikdə Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığında hazırlanıb, 1945-ci ilin iyun ayının 23-də Mahmud Əliyev və Heydər Hüseynovun imzası ilə SSRİ Xarici İşlər Xalq Komissarlığına göndərilən 21 səhifəlik arayışda həm Şimali, həm də Cənubi Azərbaycanda eyni xalqın yaşadığı, onların eyni mədəniyyətin və tarixin varisləri olduğu, hər iki Azərbaycanda yaşayan xalqın eyni əxlaq, məişət, mənəviyyat və ədəbiyyatın daşıyıcısı olduğu, dil eyniliyi və sair məsələlər ətraflı şəkildə əsaslandırılmışdı.[53] Arayışda qeyd edilirdi ki, Azərbaycanın həm şimalında və həm də cənubunda yaşayan vahid Azərbaycan xalqının çoxəsrlik tarixi vardır. Orada azərbaycanlıların qədim əcdadlarının midiyalılar adı ilə tarixdə məşhur olan tayfalara gedib çıxdığı göstərilirdi.[54] Arayışda Makedoniyalı İsgəndər tərəfindən Əhəməni dövlətinin dağıdılmasından sonra antik tarixçilərin Midiya-Atropaten adlandırdığı və əhalisi atropatenlərdən ibarət olan Atropaten dövlətinin yarandığı qeyd edilirdi. Onların fikrincə, qədim fars-pəhləvi dilində Atropaten

---

[52] Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History, 2011, Vol. 46, No 1, p.66

[53] M.Əliyevin SSRİ XXİK-na göndərdiyi "Şimali və Cənubi Azərbaycan haqqında arayış". 23.06.1945.//ARPİİ SSA, f.1, s.89, i.108, v.1-21

[54] Arayışda Azərbaycanın və azərbaycanlıların Midiyaya bağlanması məsələsi həmin dövrdə onların türk mənşəyinin inkar edilməsinə yönəlmiş Stalin təliminin tarixşünaslığa daxil olması ilə bağlı idi. Az sonra SSRİ-də dərinləşən antitürkçülük fonunda azərbaycanlıların Midiya mənşəyi ilə bağlı elmi tədqiqatlar daha geniş xarakter almağa başladı.

Aderbiqan, tədricən Ərəb işğalçıları dövründə isə Azərbaycan kimi səslənib, oranın əhalisi tarixən azərbaycanlılar adlanmağa başlayıb.[55]

Arayışda Ərəb xilafəti dövründən başlayaraq, Azərbaycan xalqının müxtəlif dövlət birliklərinin tərkibində keçdiyi yol təhlil edilir, Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu dövlətlərinin tarixinə toxunulur və XVI əsrdə Səfəvi dövlətinin bütün Azərbaycan ərazisini əhatə etdiyi göstərilirdi. Orada yazılırdı: "I Şah Abbas dövründən Səfəvi dövləti öz siyasi xarakterini dəyişməyə başladı, dövlətdə ön plana həmin dövrə qədər tabeçilikdə olan İran feodalları çıxmağa başladı. Bu dövrdən Səfəvi dövləti Azərbaycan dövlətindən İran dövlətinə çevrilməyə başladı və hakimiyyət İran feodallarının əlində cəmləşdi. Məhz, bu zaman Azərbaycan İran şahına tabe olan bəylərbəyləri tərəfindən idarə olunan əyalətə çevrildi".[56] Lakin qeyd etmək lazımdır ki, bu arayış hazırlanan zaman Səfəvi dövləti haqqında, hələ, Azərbaycanda fundamental elmi tədqiqatlar aparılmamışdı və ona görə də, Səfəvi tarixinin bəzi məqamları ilə bağlı arayışda müəyyən səhvlərə yol verilmişdi.

M.Əliyev və H.Hüseynovun imzaladığı arayışda Mərkəzi İran hökumətinin zəifləməsindən sonra Azərbaycanın şimalında və cənubunda yaranmış xanlıqlardan, onların müstəqillik uğrunda mübarizəsindən söhbət açılırdı. Azərbaycan xanlıqlarının müstəqilliyi haqqında etibarlı mənbə kimi müəlliflər II Yekaterinanın gürcü çarı İraklinin yanına göndərdiyi elçisi Burnaşevin 1786-cı ildə Kurskda nəşr olunmuş "Persiyada Adrebijan vilayətinin təsviri" kitabına istinad edilirdi. Bu tarixi mənbədə Azərbaycan vilayətlərinin təsviri verilir, həmin dövrdə Şuşanın İbrahim xan, İrəvanın Məhəmməd xan, Naxçıvanın Cəfərqulu xan tərəfindən idarə olunduğu göstərilirdi. Müəlliflər Burnaşevin II Yekaterinaya belə bir məlumatını mühüm hesab edirdilər ki, Bakı, Quba, Şamaxı, Gəncə, Qarabağ, Qaradağ, Təbriz və digər torpaqlar tamamilə doğru olaraq, Azərbaycan ölkəsi adlanır və hətta, Burnaşevin fikrincə, bu ölkənin bir hissəsi Persi-

[55] M.Əliyevin SSRİ XXİK-na göndərdiyi "Şimalı və Cənubi Azərbaycan haqqında arayış". 23.06.1945.//ARPİİ SSA, f.1, s.89, i.108, v.1-2
[56] Yenə orada, v.2-3

yanın hakimiyyəti altında idi ki, həmin ərazilər İranın əsas vilayətlərindən fərqlənirdi.[57]

Arayışda Gülüstan və Türkmənçay müqavilələrinə, bu müqavilələr nəticəsində Dərbənd, Quba, Bakı, Şamaxı, Şəki, Gəncə, Qarabağ, Talış, Naxçıvan və İrəvan xanlıqlarının, İlisu sultanlığının, Car camaatlığının Rusiyaya keçməsinə geniş yer verilirdi. Sənəddə yazılırdı: "Türkmənçay müqaviləsinə görə, qurulan sərhədlər ilə Azərbaycan iki yerə bölündü, onun şimal hissəsi Rusiya imperiyasının tərkibinə daxil oldu, cənub hissəsi isə İranın tərkibində qaldı".[58] Əslində, Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı və Respublika Elmlər Akademiyasının bu sənəddə başlıca hədəfləri Azərbaycanın iki yerə bölünməsi məsələsini tarixi sənədlərin işığında Moskvaya anlatmaq idi. Arayışın belə müfəssəl hazırlanması, məhz, Cənubi Azərbaycan məsələsinin gündəliyə gəlməsi ilə bağlı idi.

Arayışın bir hissəsi Rusiya İmperiyasının tərkibində Şimali Azərbaycanın keçdiyi yola, onun iqtisadi həyatı və milli-mədəni inkişafına həsr edilmişdi. Rusiya-İran müharibələrindən sonra Cənubi Qafqazda cərəyan edən hadisələr, inzibati idarəçilik formaları, rus inqilabçı demokratlarının Azərbaycanın mədəni həyatına təsiri və bu təsirin nəticəsində A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, C.Məmmədquluzadə kimi mütəfəkkirlərin yetişməsi, bütövlükdə, ədəbiyyatın inkişafı və milli həyatın canlanması arayışda təsvir edilirdi.

Arayışın böyük bir hissəsi Türkmənçay müqaviləsindən sonra Cənubi Azərbaycanın İranın tərkibində keçdiyi sosial-siyasi və mədəni həyatın uğursuz yekunları haqqında idi. Sənəddə Cənubi Azərbaycanın sosial-siyasi və iqtisadi geriliyi, mədəni cəhətdən Şimali Azərbaycandan kəskin şəkildə fərqlənməsi daha çox M.F.Axundovun "Kəmalüddövlə məktubları" fonunda təqdim edilirdi. Sənədin müəllifləri 1906-1911-ci illər İran inqilabının və Şeyx Məhəmməd Xiyabani hərəkatının Təbrizdən başlamasını Cənubi Azərbaycan əhalisinin acınacaqlı vəziyyəti, şah hökumətinin feodal təbiəti ilə

[57] Yenə orada, v.6-7
[58] Yenə orada, v.8

izah edirdilər. Arayışda yazılırdı: "Cənubi Azərbaycan zəhmətkeşlərinin milli azadlıq mübarizəsinin rəhbəri Səttarxanın hərəkatı milli-azadlıq xarakteri daşıyırdı".[59]

Arayışın son hissəsi Cənubi Azərbaycanın müasir durumu haqqında idi. Orada qeyd olunurdu ki, "Pəhləvi sülaləsi nümayəndələrinin başçılıq etdiyi şah hökumətinin yeritdiyi milli zülm, xüsusilə, farslaşdırma siyasəti vəziyyəti daha da kəskinləşdirmişdir. İndiki şah hökuməti onsuz da azsaylı olan məktəblərdə Azərbaycan dilinin tədrisinə qəti şəkildə yol vermir, hətta, məktəblərdə şagirdlərə öz doğma ana dilində danışmağı belə, qadağan etmişdir".[60] Bütün bu acınacaqlı vəziyyətə baxmayaraq, M.Əliyev və H.Hüseynovun fikrincə, Cənubi Azərbaycan əhalisi "Stalin Konstitusiyasının ağ günə çıxardığı" şimallı qardaşlarına böyük ümid bəsləyir və onların qurtuluşu üçün əlverişli şəraitin yetişdiyini düşünürlər.

Şah irticası şəraitində Cənubi Azərbaycanın ağır sosial-siyasi vəziyyəti, milli zülmə məruz qalması Moskvada hazırlanan bəzi sənədlərdə də qeyd edilirdi. SSRİ XİXK-in Orta Şərq Şöbəsinin əməkdaşı Şpedko tərəfindən hazırlanmış məlumatda göstərilirdi ki, "Cənubi Azərbaycan İranın ən zəngin əyalətidir. Burada ölkə əhalisinin 1/4 hissəsini təşkil edən, öz milli mədəniyyətini, dilini və ənənələrini saxlayan azərbaycanlılar məskunlaşmışlar, lakin İran hakim dairələri əsrlər boyu azərbaycanlıların milli özünəməxsusluğunu inkar etmiş və onları hüquqsuz xalq kimi tabe vəziyyətində saxlamışlar. Rza şah dövründə azərbaycanlılara qarşı güclənən milli zülm siyasəti onun despotik rejimi dağıldıqdan sonra da aradan qaldırılmayıb. İran Azərbaycanında iqtisadiyyatın, ticarətin, maarif və səhiyyənin inkişafına heç bir diqqət yetirilmir. Azərbaycan idarələrinə ən mürtəce məmurları, polis və jandarmları təyin edirlər ki, bütün vasitələrlə əhalini əzsinlər".[61]

---

[59] Yenə orada, v.19

[60] Yenə orada, v.20

[61] SSRİ XXİK-nın əməkdaşı Şpedkonun məlumatından çıxarış. 1946.// RDSSTA, f. 17, s.128, i.1111, v.25

1945-ci ilin iyun ayında Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı "Türkmənçay müqaviləsi üzrə Azərbaycanın bölünməsi haqqında məsələyə dair" adlı ikinci sənəd hazırladı. Komissar M.Əliyevin imzalayıb, Moskvaya göndərdiyi sənəddə qeyd edilirdi ki, "1826-1828-ci illər Rusiya-İran müharibəsindən sonra 1828-ci ilin fevral ayının 10-da Türkmənçay müqaviləsi bağlanmışdır. Çarizm və İranın şah hökuməti tərəfindən Azərbaycan xalqına ədalətsizcəsinə qəbul etdirilən bu müqavilə, Azərbaycan xalqının maraqlarını və tarixi həqiqətin əksinə olaraq, iki yerə parçalamış, vahid xalq arasında süni maneələr törətmişdir. Azərbaycan xalqının indiyə qədər davam edən faciəsi özünü onda göstərir ki, Rusiya dövlətinin tərkibinə daxil olan Azərbaycanın şimal hissəsi rus mədəniyyətinin, XIX-XX əsrlərin qabaqcıl mədəniyyətinin təsiri altında inkişaf edir, mütərəqqiləşir, bununla eyni vaxtda, əsasən, azərbaycanlılardan ibarət olan Cənubi Azərbaycanın 4 milyona yaxın əhalisi geridə qalmış İran şahının feodal-patriarxal zülmü altında iqtisadi və mədəni cəhətdən geri qalır, aclıq və dilənçilik şəraitində yaşayır, daimi olaraq, milli zülmə məruz qalır. Beləliklə, Türkmənçay müqaviləsi üzrə Rusiya və İran arasında sərhədə çevrilmiş Araz çayı sünü şəkildə vahid Azərbaycan xalqının, onun arzu və istəklərinin əksinə olaraq, iki yerə parçalamış və Azərbaycan xalqının bu gün də davam edən faciələrinin başlanğıcını qoymuşdur".[62] Sənədin sonunda göstərilirdi ki, zülmün bütün təzahürlərindən azad olan Şimali Azərbaycanın azərbaycanlılarının ən yaxın vəzifəsi öz qan qardaşlarının İran zülmündən azad olunmasına, suverenlik və milli azadlıq əldə edib, öz qan qardaşları ilə birləşməsinə kömək etməsindən ibarətdir.[63] Öz fikirini əsaslandırmaq üçün M.Əliyev İ.Stalinin "Marksizm və milli-müstəmləkə məsələsi" əsərinə istinad edirdi. Stalin həmin əsərdə yazırdı:"SSRİ-nin tərkibində Ukrayna vardır. Lakin digər dövlətin tərkibində olan digər Ukrayna da vardır. SSRİ-nin tərkibində Belorusiya vardır, lakin digər dövlətin tərkibində olan

[62] Türkmənçay müqaviləsi üzrə Azərbaycanın bölünməsi haqqında məsələyə dair. İyun, 1945.// ARPII SSA, f.1, s.89, i.108, v.94

[63] Yenə orada, v.102

digər Belorusiya da vardır. Siz necə təsəvvür edirsiniz, Ukrayna və Belorusiya dilləri ilə bağlı məsələ bu özünəməxsus şərait nəzərə alınmadan həll edilə bilərmi? Yaxud götürün Azərbaycandan Qazaxıstana və Buryat-Monqolustana qədər cənub sərhədləri boyunca yerləşən SSRİ millətlərini. Onların hamısı Ukrayna və Belorusiya ilə eyni vəziyyətdədirlər. Aydındır ki, burada həmin millətlərin inkişafının özünəməxsus şəraiti nəzərə alınmalıdır. Milli mədəniyyət və milli dillərlə bağlı bu və buna bənzər məsələlər bir dövlət çərçivəsində, SSRİ-nin çərçivəsində həll edilə bilməzmi, bütün bunlar aydın deyilmi?"[64] Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı M.Əliyev İ.Stalinin bu müddəası fonunda nəzəri, Qərbi Ukrayna və Qərbi Belarusiyanın müvafiq Sovet respublikasına birləşdirilməsi nümunəsində praktiki baxımdan iki yerə parçalanmış Azərbaycanın da birləşdirilməsini zəruri hesab edirdi.

Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı artıq, 1945-ci ilin iyun ayının sonlarında Cənubi Azərbaycanın sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı sənədləri hazırlayıb, Moskvaya göndərmişdi. Sərhədlərin müəyyənləşdirilməsi zamanı ilk istinad nöqtəsi etnoqrafik amillər götürülmüşdü. Bununla yanaşı, müxtəlif dövrlərdə İranın inzibatı bölgüsündə baş verən dəyişikliklər də nəzərə alınmışdı. "Azərbaycanın sərhədləri" haqqında arayışda Azərbaycanın sərhədləri ilk növbədə Samsam-əs-Səltənə və Rza şah dövrünün inzibati bölgüsündə araşdırılmış və İran vilayətlərə bölündükdən sonra onun sərhədlərində baş verən dəyişikliklər nəzərə alınmışdı.[65] Azərbaycanın ərazisi və sərhədləri, habelə əhalisi ilə bağlı ən real rəqəmi 1949-cu ildə Moskvada "İran xalqlarının müstəqillik və demokratiya uğrunda mübarizəsi (1941-1948-ci illər) adlı doktorluq dissertasiyası müdafiə etmiş P.Miloqradov irəli sürmüşdü. O yazırdı ki, İran Azərbaycanının ərazisi 170.250 kv.km., əhalisi 4,5 milyon nəfərdir. P.Miloqradova görə, Cənubi Azərbaycanının ərazisi və əhalisi İran coğrafiyasında kompakt şəklində yerləşmişdir və millət

[64] Yenə orada, v.102-103
[65] Bax: Azərbaycanın sərhədləri. İyun, 1945.//ARPİİ SSA, f.1, s.89, i.108, v.104-106

haqqında Stalin təliminin bütün tələblərinə cavab verir. O yazırdı ki, bu təlimə görə, millət olmanın əsas şərtlərini təşkil edən dil, ərazi, mədəniyyət və iqtisadi həyatın ümumiliyi İran Azərbaycanında mövcud idi.[66] Miloqradov qeyd edirdi ki, "Azərbaycan dili Azərbaycan xalqının müstəqil danışıq dilidir və müstəqil yazı xüsusiyyətlərinə görə, bu dilin nə struktur, nə də leksiki baxımdan fars dili ilə heç bir ümumi əlaqəsi yoxdur. Bu fars dilinin hər hansı bir ləhcəsi deyildir. Bu Azərbaycan xalqının tarixən formalaşmış dilidir və azərbaycanlılar, məhz, bu dildə danışır, yazır və oxuyurlar".[67] P. Miloqradovun bu mülahizəsi yeni deyildi. Hələ, 1887-1888-ci illərdə Təbrizə və bütün İrana səyahət etmiş ingilis şərqşünası Edvard Broun yazırdı ki, "ölkənin şimal-qərbində yerləşən və Persiya imperiyasının bir hissəsini təşkil edən Azərbaycan əyalətinin əhalisi dil fərqliliklərinə görə ayrı bir irqdir. Onlar Osmanlı türklərinin dilindən o qədər də, uzaq olmayan, lakin onların danışığından müəyyən qədər fərqlənən türk dialektindən istifadə edirlər. Əgər Azərbaycanın şəhərlərinin yüksək təbəqələri arasında və kəndlərdə kimlərsə fars dilini anlayır və bu dildə danışırsa, bu onlar üçün təhsil və səyahət zamanı mənimsənilmiş xarici dil kimidir... Qəzvindən Tehrana doğru cənuba endikcə fars dili türk dili üzərində üstünlük kəsb etməyə başlayır, lakin buna baxmayaraq, paytaxtdan cənubda yerləşən müqəddəs Qum şəhərində, belə, türk dilini anlayırlar".[68]

P.Miloqradovun dissertasiya işində əhəmiyyətli məsələlərdən biri İran azərbaycanlılarının millət olma xüsusiyyətləridir. Bu məsələ ilə bağlı o, maraqlı bir məqama toxunaraq, qeyd edirdi ki, "millət olma məsələsində Sovet Azərbaycanının mövcudluğunun İran azərbaycanlılarına böyük siyasi və psixoloji təsirini nəzərə almaq lazımdır. İran hakim dairələrinin Cənub azərbaycanlılarını bir millət kimi yox etmək istəklərindən asılı olmayaraq, Sovet Azərbaycanının mövcud-

---

[66] P.Miloqradov. İran xalqlarının müstəqillik və demokratiya uğrunda mübarizəsi (1941-1948-ci illər). Doktorluq dissertasiyasının əlyazması. 1949.// RDSSTA, f. 17, s.128, i.1188, v.392-394

[67] Yenə orada, v.392

[68] Edward G. Browne. A Year amongst the Persians. London, Adam and Charles Black, 1893, p.46-47

luğu şəraitində bu mümkün deyildir. Onlar İran azərbaycanlılarını millət üçün zəruri olan bütün xüsusiyyətlərdən məhrum etməyə cəhd göstərirlər, lakin onların cəhdlərinin əksinə olaraq, Sovet Azərbaycanında Azərbaycan milləti inkişaf edir və möhkəmlənir. İran azərbaycanlıları Sovet Azərbaycanından dövlət sərhədi ilə ayrılsalar da, onlar görür və hiss edirlər ki, Sovet dövləti şəraitində azərbaycanlılar həyatın bütün sahələrində necə parlaq uğurlar qazanırlar. Tarixi, sosial və siyasi şərtlər daxilində Sovet Azərbaycanının uğurları inkişaf edən və formalaşan millət kimi, Azərbaycan xalqının mövcudluğunun daşıyıcısı və ideya təminatçısıdır."[69] Əlbəttə, məsələnin belə qoyuluşu ilə razılaşmayanlar da var idi və həmin dairələrə İranın tanınmış siyasi xadimləri ilə yanaşı, Xalq Partiyasının rəhbərliyi də daxil idi. 1945-ci ilin payızında İXP MK-nın və Tudə partiyasından İran Məclisinin üzvü olan A. Ovanesyan Moskvaya göndərdiyi "Partiyada böyük dönüş və bundan irəli gələn təhlükələr" adlı geniş yazısında qeyd edirdi ki, Tudə Xalq Partiyasının "Azərbaycan Əyalət Komitəsinin orqanı olan "Xavər-e nou" qəzetlərində hər yerdə Azərbaycan milləti yazmağa başlayıblar, halbuki, Azərbaycan xalqı yazmaq daha doğru olardı. Azərbaycan milləti yazılması o deməkdir ki, azərbaycanlılar bir millətdir, İranın yerdə qalan əhalisi ayrı millətdir".[70]

Cənubi Azərbaycan əhalisini farslardan ayrı millət kimi qəbul edən Sovet rəhbərliyinin iki mühüm qərarından sonra Təbrizdə mərkəzi İran hakimiyyətinə qarşı etiraz dalğası yüksəlməyə başladı. Xalq Partiyası və həmkarlar təşkilatları tərəfindən təşkil olunmuş kütləvi tədbirlərdə demokratik azadlıqlar və milli bərabərlik tələb olunurdu. 1945-ci ilin iyun ayının sonlarında Təbrizdə keçirilən ümumşəhər mitinqində 30 min adam toplanmışdı. Mitinqdə "Azərbaycan azadlıq və rifah istəyir", "Bizim ana dilimizə eşq olsun" kimi şüarlar irəli sürülmüşdü. Mitinqin möhtəşəm olması indiyə qədər

---

[69] P.Miloqradov. İran xalqlarının müstəqillik və demokratiya uğrunda mübarizəsi (1941-1948-ci illər). Doktorluq dissertasiyasının əlyazması. 1949.// RDSSTA, f. 17, s.128, i.1188, v.398

[70] A.Ovanesyandan ÜİK(b)P MK-ya. "Partiyada böyük dönüş və bundan irəli gələn təhlükələr". 22.09.1945.// RDSSTA, f. 17, s.128, i.819, v.50

azərbaycanlıların hüquqları məsələsində tərəddüd edən "Azadlıq cəbhəsi" cəmiyyətini də Azərbaycan xalqının milli hüquqlarının təmin edilməsini tələb edənlərin cərgəsinə qoşmuşdu.[71]

Bütün bu hazırlıq tədbirlərindən sonra, 1945-ci ilin iyulunda Sovetlər Birliyi Cənubi Azərbaycanda siyasətini qəti olaraq müəyyənləşdirdi. İyulun ilk günlərində Azərbaycan K(b)P MK-nın katibi M. C. Bağırov Moskvaya dəvət edildi. Ayın 6-da Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu uzun tərəddüdlərdən sonra "Cənubi Azərbaycanda və İranın şimalının digər vilayətlərində separatçı hərəkatın təşkili üzrə tədbirlər haqqında" gizli qərar qəbul etdi.[72] Qərarda İranın tərkibində Azərbaycan əyalətlərinə geniş hüquqlu milli muxtariyyət verilməsi üzrə hazırlıq işlərinə başlanması məqsədəuyğun sayılırdı. Eyni zamanda Gilan, Mazandaran, Qorqan və Xorasan vilayətlərində separatçı hərəkatın genişləndirilməsi nəzərdə tutulurdu. Cənubi Azərbaycanda separatçı hərəkata rəhbərlik etmək məqsədilə "Azərbaycan Demokrat Firqəsi"nin yaradılması zəruri hesab edilirdi. Bu firqənin yaradılması İran Tudə Xalq Partiyasının Azərbaycan Əyalət təşkilatının köklü şəkildə dəyişdirilməsi və əhalinin bütün təbəqələri hesabına separatçı hərəkatın sosial bazasının genişləndirilməsi, firqəyə yeni qüvvələr cəlb edilməsi hesabına olmalı idi. Siyasi Büronun qərarının 3-cü bəndində eyni ilə belə siyasətin Şimali İranın kürd əhalisi içərisində aparılması və kürd vilayətlərində Milli Muxtariyyət yaradılması uğrunda separatçı hərəkatın təşkili və himayə edilməsi nəzərdə tutulurdu.[73] Sovet rəhbərliyi ingilislərin kürdlər arasında fəallaşmasından ehtiyat edir və mərkəzi Mehabad

---

[71] Bax: SSRİ XXİK-nın əməkdaşı Şpedkonun məlumatından çıxarış. 1946.// RDSSTA, f. 17, s.128, i.1111, v.26

[72] Bax: Fernande Scheid Raine. The İranian Crisis of 1946 and the Originis of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, 2005, p.98; J.Hasanli e V.Zubok. La prima crisi della gurra fredda: Mosca e il petrolio İraniano (1943-1946) .// Ventesimo Secolo, Anno VI, Giugno 2007, #13, pp.18-19: Дж.Гасанлы. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны. 1941-1946. Москва, 2006, с.92-94

[73] Cənubi Azərbaycanda və Şimali İranın digər vilayətlərində separatist hərəkatın təşkil edilməsi tədbirləri haqqında" ÜK(b)P MK-nin Siyasi Bürosunun qərarı. 06.07.1945.// RDSSTA, f.17, s.162, i. 37, v. 147

olmaqla kürd əhalisini öz nəzarətində saxlamağa cəhd göstərirdi. Bu qərardan az sonra Tehran hökuməti İran Kürdüstanında sabitliyi qorumaq adı altında oraya əlavə hərbi qüvvələr göndərməyə cəhd etsə də, Sovet komandanlığı buna imkan vermədi. 1945-ci ilin avqust ayının 8-də SSRİ Xarici İşlər Xalq Komissarının müavini S. Kavtaradze ilə görüşdə İran səfiri M.Ahi belə bir icazənin alınmasına çalışsa da, Sovet tərəfi buna etiraz etdi. S.Kavtaradze Kürdüstandakı narahatçılığın səbəblərini soruşduqda, M.Ahi bu hərəkətlərin ingilislərin işi olduğunu bildirdi. O, dedi: "İngilislər kürdləri üsyana qaldırıb "Kürd dövləti" deyilən qurumu yaratmaq istəyirlər. Bununla onlar İranla Türkiyə, İraq və digər Ərəb ölkələri arasına ingilis pazı vurub, Yaxın və Orta Şərqdə özlərinə sərfəli olan şərait yaratmaq istəyirlər".[74]

ÜİK(b)P MK Siyasi Bürosunun qərarının 4-cü bəndində göstərilirdi ki, Azərbaycanda separatçı hərəkata rəhbərlik etmək üçün Təbrizdə məsul işçilərdən ibarət qrup yaradılmalı və həmin qrup öz fəaliyyətini SSRİ-nin Təbrizdəki Baş konsulluğu ilə əlaqələndirməli idi. Bu qrupa ümumi rəhbərlik etmək vəzifəsi M.C.Bağırova və Tehrandakı Sovet səfirliyinin müşaviri Əhəd Yaqubova tapşırılırdı. Siyasi Büronun 6 iyul tarixli qərarının 5-ci bəndində Azərbaycan K(b)P MK-na (M.C.Bağırov və M.Ə.İbrahimova) tapşırılırdı ki, 15-ci çağırış İran Məclisinə seçkilərin Cənubi Azərbaycanda keçirilməsi üzrə hazırlıq işlərini genişləndirsinlər və aşağıdakı şüarlar əsasında separatçı hərəkatın tərəfdarlarının deputat seçilməsini təmin etsinlər: "a) dövlət və iri mülkədar torpaqları hesabına kəndlilərə torpaq payı ayrılması və onlara uzunmüddətli ucuz kreditlər verilməsi; b) müəssisələrdə işin bərpası və genişləndirilməsi, eyni zamanda yol çəkilişinin genişləndirilməsi, habelə digər ictimai işlər vasitəsi ilə işsizliyin ləğv edilməsi; c) şəhərlərin abadlaşdırılması və əhalinin su ilə təmin edilməsi; ç) səhiyyə xidmətinin yaxşılaşdırılması; d) dövlət vergilərinin ümumi məbləğinin 50 faizdən az olmayan hissəsinin yerli ehtiyaclar üçün istifadə edilməsi; e) milli azlıqların və tayfaların hüquq bərabərliyi: Azərbaycan, kürd, erməni və aysor dillərində məktəb-

[74] S.Kavtaradzenin gündəliyindən. İran səfiri Məcid Ahinin qəbul edilməsi. 08.08.1945.// RF XSA, f 094, s.31, q.351a, i.6, v.28

lər açılması, kitab və qəzetlər nəşr edilməsi; məhkəmə və yerli müəssisələrin kargüzarlıq işlərinin ana dilində aparılması; əyalət idarələrinin yaradılması, o cümlədən, polis və jandarmanın yerli milli qüvvələrdən təşkil edilməsi; yerli özünüidarə orqanı kimi əyalət, vilayət və şəhər əncümənlərinin yaradılması; ə) Sovet-İran münasibətlərinin köklü şəkildə yaxşılaşdırılması".[75]

ÜİK(b)P MK-nın Siyasi Bürosu qərarının 6-cı bəndində nəzərdə tutulurdu ki, separatçı hərəkat fəallarının, sovetlərə tərəfdar olan şəxslərin, demokratik cəmiyyətlər və partiya təşkilatlarının özünümüdafiəsi məqsədilə döyüşçü dəstələri yaradılsın və onlar xaricdə istehsal olunmuş silah və sursatla təmin edilsinlər. Qərarın bu bəndinin icrası M.C.Bağırovla birlikdə Nikolay Bulqaninə tapşırılırdı. Sonrakı 7-ci bənddə Cənubi Azərbaycanda mədəni-təbliğatı işləri gücləndirmək üçün Azərbaycan SSR-in İranla Mədəni Əlaqə Cəmiyyətinin yaradılması zəruri hesab edilirdi. Qərarın 8-ci bəndində göstərilirdi ki, əhalinin geniş kütlələrini separatçı hərəkata cəlb etmək üçün Təbrizdə "Sovet Azərbaycanının Dostları Cəmiyyəti" təsis edilsin və onun filialları Cənubi Azərbaycanın bütün rayonlarında və Gilanda yaradılsın. Qərarın 9-cu bəndi ilə Azərbaycan K(b)P MK-ya tapşırılırdı ki, İranda yayılmaq üçün Bakıda aylıq illüstrasiyalı jurnal və daha üç yeni qəzetin nəşrini təşkil etsin. Onuncu bəndlə SSRİ Nəşriyyat və Poliqrafiya Birliyinə (Pavel Yudinə) göstəriş verilirdi ki, Cənubi Azərbaycan Demokrat Firqəsinin mətbəə bazasını yaratmaq üçün Azərbaycan K(b)P MK-nın sərəncamına üç düz səthli çap maşını versin. Qərarın 11-ci bəndi ilə, SSRİ Xarici Ticarət Xalq Komissarlığına (Mikoyana) tapşırılırdı ki, Bakıda nəşr ediləcək illüstrativ jurnalı və Cənubi Azərbaycanda çıxacaq ümumi tirajı 30 mindən az olmamaq şərtilə üç yeni qəzeti keyfiyyətli kağızla təmin etsin. Siyasi Büronun gizli qərarının 12-ci bəndində M. C. Bağırovun nəzarəti ilə Azərbaycan SSR Daxili İşlər Xalq Komissarlığına icazə verilirdi ki, nəzərdə tutulan tədbirləri həyata keçirmək üçün İrana

[75] Cənubi Azərbaycanda və Şimali İranın digər vilayətlərində separatist hərəkatın təşkil edilməsi tədbirləri haqqında" ÜK(b)P MK-nin Siyasi Bürosunun qərarı. 06.07.1945.// RDSSTA, f.17, s.162, i. 37, v. 147

ezam ediləcək və tez-tez gedib-gələ biləcək şəxslərə buraxılışlar versin. Ən nəhayət, 13-cü bənddə son olaraq, göstərilirdi ki, Cənubi Azərbaycanda separatçı hərəkatı maliyyələşdirmək və 15-ci çağırış İran Məclisinə seçkiləri keçirmək üçün Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi yanında bir milyon manat (altı milyon səksən altı min dörd yüz iyirmi yeddi rial, otuz beş dinar) həcmində xüsusi fond təsis edilsin. Siyasi Büronun qərarının ayrı-ayrı bəndlərindən çıxarışlar təcili olaraq, Molotov, Beriya, Bulqanin, Mikoyan, Yudin, Krutikov və Zveryevə paylandı, qərarın tam mətni isə şifrlə Bağırova göndərildi.[76]

Cənubi Azərbaycanda separatçı hərəkatı maliyyələşdirmək məqsədilə M. C. Bağırov hələ Moskvada olanda SSRİ Dövlət Bankı Siyasi Büronun qərarında nəzərdə tutulan bir milyon manat pulu Bankın Azərbaycan Kontoruna, 24011 nömrəli valyuta hesabına köçürmüşdü. SSRİ Dövlət Bankı Azərbaycan Kontorunun müdiri M.A.Petrov iyulun 17-də M.C.Bağırova yazırdı: "Valyuta verilməsi yalnız Sizin yazılı göstərişiniz, yaxud sizin vəkalət verdiyiniz şəxsin sərəncamı ilə mənim tərəfimdən həyata keçiriləcəkdir. Bu hesabda olan valyuta əməliyyatı son dərəcə məxfi qaydada aparılacaqdır".[77]

Siyasi Büronun gizli qərarından üç gün sonra S.Vladimirovun 1945-ci ilin iyulun 9-da "Pravda" qəzetində "İranda mürtəce ünsürlərin fəaliyyətinin güclənməsi" adda geniş məqaləsi dərc olundu. Məqalə Siyasi Büronun 1945-ci ilin iyul ayının 6-da qəbul etdiyi qərarının ruhundan irəli gəlirdi və onun reallaşmasına ideoloji hazırlıq idi. "Pravda" qəzetinin həmin yazısı İranda böyük əks-səda doğurdu. Tehranda çıxan "Nəbərd", "Zəfər", "Rəhbər", "Dad", "Fərman", "Ajir" qəzetləri onu fars dilinə tərcümə edərək nəşr etdilər. İran hökumətinə yaxın olan qəzetlər "Pravda"nı Tehranın daxili işlərinə qarışmaqda günahlandırır, İran Xalq Partiyasının yeganə demokratik qüvvə hesab etməsini Vladimirovun səhvi hesab edirdilər. İran mətbuatının bu məzmunlu yazılarını orada çalışan

---

[76] Yenə orada, v.147-148

[77] M.Petrovun M.C.Bağırova məktubu. 17.07.1945.//ARPİİ SSA, f.1, s.89, i.107, v.59

azərbaycanlı işçilər təcili şəkildə toplayıb, M.C.Bağırova göndərirdilər. Onların məlumatlarına görə, "İrade-yi Milli" partiyasının orqanı olan "Rəəd-e emruz" qəzeti yazırdı: "Sovet hökuməti İranın daxili quruluşundan elə də razı deyil. Əgər İran qəzetləri SSRİ-nin ictimai quruluşunu tənqid etməyə başlasa, bu Sovet İttifaqının narazılığına səbəb olar. Ona görə də, İran xalqı İran hökumətini tənqid edən "Pravda" qəzetindən şikayətlənməkdə haqlıdır. "Pravda" qəzeti bir qayda olaraq, Sovet hökumətinin siyasətini və mövqeyini əks etdirir".[78] Siyasi işçi kimi İrana göndərilmiş Ə.Əhnağıyevin Bağırova məlumatına görə, bir sıra qəzetlər belə hesab edirdilər ki, S.Vladimirovun məqaləsi Sovet ordularının İrandan çıxarılması barədə İran hökumətinin notasına Sovet hökumətinin ilk rəsmi cavabıdır. Bunun əksinə olaraq, İran hökumətindən narazı və Sovetlərlə yaxşı münasibətdə olan qəzetlər S.Vladimirovun məqaləsini haqlı sayırdılar. Onların fikrincə, bu məqalə İran hökumətinin SSRİ-yə qeyri-səmimi münasibətinin, Seyid Ziyanın antisovet, təxribatçı bəyanatının nəticəsi idi. Seyid Cəfər Pişəvərinin redaktoru olduğu "Ajir" qəzeti bildirirdi: "Sovet dairələri İrandakı vəziyyətdən narazıdır. Onlar indiki İran rəhbərlərinin səmimi, loyal münasibətinə şübhə edirlər. "Pravda" qəzeti Baş Nazir Mohsen Sədri İranın məşhur irticaçısı, antisovet işlərin fəal iştirakçısı adlandırmaqda haqlıdır. Onun Baş Nazir təyin edilməsi İranla SSRİ arasında dostluq münasibətləri ilə ziddiyyət təşkil edir. Sovet dairələri İranın iç işlərindən narazı qalmaqda tamamilə haqlıdırlar. Əli Soheylinin istefasından sonra İran hökuməti SSRİ ilə qarşılıqlı anlaşmanı möhkəmləndirmək üçün kiçik bir addım, belə, atmamışdır". İranın nüfuzlu qəzetlərindən olan "Keyhan" da, "Ajir"in mövqeyini müdafiə edirdi. "Keyhan" qəzeti "Pravda"nın belə bir fikrinə haqq qazandırırdı ki, 1943-1944-cü illərdə İran Məclisinə keçirilən seçkiləri demokratik seçki hesab etmək olmaz. Qəzet yazırdı: "Gərək "Pravda" deyəydi ki, satqınlar və oğrular qrupu xalqın bütün haqqını öz əllərinə keçiriblər".[79]

---

[78] Ə.Əhnağıyevin Bağırova məktubu. 22.05.1945.// ARPİİ SSA, f.1, s.89, i.105, v.12-13

[79] Yenə orada, v.15

"Pravda" qəzetinin məqaləsi və Azərbaycandan gələn gizli məlumatlar İranın siyasi dairələrinin ciddi narahatçılığına səbəb olmuşdu. 1945-ci ilin iyul ayının 17-də İranın Xarici İşlər Naziri Ə.Sepəhbodi Tehrandakı Sovet səfiri M.Maksimovla görüşüb, İran Azərbaycanındakı vəziyyəti müzakirə etdi. O, Azərbaycanda demək olar ki, hər gün mitinq və yığıncaqların keçirildiyini, dövlət hakimiyyətinin sürətlə zəiflədiyini bildirdi və dedi: "Bu çıxışlar hökumət əleyhinə xarakteri daşıdığından, hökumət Azərbaycana elə bir qubernator göndərmək istəyir ki, o, orada ictimai fikri sakitləşdirə bilsin". M.Maksimov belə bir qubernatorun Dadvər ola biləcəyi haqqında əvvəlki fikrini təkrar edib, öz müsbət keyfiyyətləri ilə seçilən Dadvəri tezliklə Azərbaycana qubernator göndərməyin zəruriliyini vurğuladı. Ə.Sepəhbodi qeyd etdi ki, Məclisdə Dadvərin əleyhinə olduqca çox deputat çıxış edir və onun Azərbaycana göndərmək hökumət üçün çətin olacaq. M.Maksimov Sovetlər üçün prinsipial əhəmiyyət daşıyan bu mühüm məsələdə öz fikrində qaldığını bəyan etdi.[80]

Azərbaycandan gələn həyəcanlı xəbərlərin təsiri altında 1945-ci ilin iyun ayından davam edən hökumət böhranına son qoymaq üçün Məclisin təcili iclası çağırıldı. Məclisin sədri Təbatəbai deputatlara vəziyyətin ciddiliyini, Sədr ül-Əşrəf hökumətinə səs verməyin zəruriliyini izah etdi. İran Xalq Partiyası fraksiyasından başqa bütün fraksiyalar Möhsün Sədr hökumətinə səs verdi. Beləliklə, hökumət parlamentdən etimad aldı. Məhəmməd Rza şah öz iqamətgahında Baş Nazir Sədr ül-Əşrəfi və onun nazirlərini qəbul edib, İrandakı vəziyyəti müzakirə etdi. Bu müzakirədən sonra Möhsün Sədr hökumətinin ilk addımlarından biri Azərbaycanda hökumət orqanlarını möhkəmləndirmək oldu. Azərbaycana nəzarəti gücləndirmək üçün onun sərəncamı ilə Sovetlərin əleyhdarı kimi tanınan Möhtəşəmi Təbrizə şəhridar təyin edildi. Bununla İran hökuməti Azərbaycanda mərkəzi hakimiyyət tərəfdarı olan qüvvələri birləşdirmək, Tehranın əleyhinə olan hərəkatı zəiflətmək istəyirdi.[81]

---

[80] M.Maksimovun gündəliyindən çıxarış. İranın Xarici İşlər Naziri Ə.Sepəhbodinın qəbul edilməsi. 17.07.1945.// RF XSA, f.094, s.31, q.351a, i.9, v.51-52

[81] "Правда", 1945, 19 avqust

Mərkəzi İran hökuməti Təbrizdə öz mövqelərini gücləndirmək üçün müəyyən əməli addımlar atdığı bir dövrdə, 1945-ci ilin yayında Bakıda Cənubi Azərbaycan üzrə xüsusi tapşırıqların gerçəkləşdirilməsi barədə tədbirlər planı müzakirə edilirdi. İyul ayının ortalarında M.C.Bağırov ÜİK(b)P MK-nın katibi G.Malenkova birbirinin ardınca iki teleqram göndərmişdi. İyulun 14-də göndərilən birinci teleqramda o, xahiş edirdi ki, Cənubi Azərbaycanda işləri genişləndirmək üçün Tehrandakı Sovet səfirliyinin birinci katibi, Dərbənd şəhər partiya komitəsinin keçmiş katibi Əli Əliyev Təbrizə Baş konsul təyin edilsin. O yazırdı: "Mən Moskvada olanda Xarici İşlər Xalq Komissarlığının Kadr İdarəsinin rəisi Mixail Silin işə zəif rəhbərlik etdiyinə, verilən tapşırıqların öhdəsindən gələ bilmədiyinə görə Təbrizdəki Baş konsul M. Matveyevin dəyişdirilməsi məsələsini qaldırdı. O, Matveyevi əvəz edəcək bir neçə nəfər namizədin, o cümlədən, Tehranda bizim səfirliyimizin birinci katibi Ə. Əliyevin adını çəkdi. Sözsüz ki, çox uğurlu namizəddir."[82] Bunun ardınca göndərilən ikinci teleqramda M.C.Bağırov Malenkovdan xahiş edirdi ki, ÜİK(b)P MK-nın Təbliğat və Təşviqat İdarəsinin rəisi Q.F.Aleksandrovu qısa müddətə Bakıya ezam etsin. O yazırdı: "Cənubi Azərbaycanla bağlı Siyasi Büro, Dövlət Müdafiə Komitəsi və Xalq Komissarları Sovetinin məlum qərarları Sovet Azərbaycanının üzərinə mühüm vəzifələr qoymuşdur. Bütün bu vəzifələri reallaşdırmaq istiqamətində Azərbaycan partiya təşkilatı tədbirlər planı hazırlamışdır."[83] M.C.Bağırov istəyirdi ki, Q.Aleksandrov Moskvanın nümayəndəsi kimi bu planın müzakirəsində iştirak etsin.

Sovet Azərbaycanı rəhbərliyinin respublika Xarici İşlər Xalq Komissarlığının iştirakı ilə hazırladığı tədbirlər planında Azərbaycan Demokrat Firqəsinin yaranması, 15-ci çağırış İran Məclisinə deputat seçkilərinin təmin edilməsi, "Sovet Azərbaycanının Dostları Cəmiyyəti"nin yaradılması, separatçı hərəkatın təşkil edilməsi, Azərbaycan əyalət əncüməninin yaradılması, mətbuat orqanlarının təşkili və s.

[82] M.C.Bağırovun G.Malenkova teleqramı. 14.07.1945.//ARPİİ SSA, f.1, s.89, i.90, v.16
[83] M.C.Bağırovun G.Malenkova teleqramı. 14.07.1945.//ARPİİ SSA, f.1, s.89, i.90, v.17

məsələlər öz əksini tapmışdı. Sənəddə göstərilirdi: "Təcili olaraq, Seyid Cəfər Pişəvəri və Əbdülsəməd Kambəxşin danışıqlar üçün Bakıya gətirilməsi təmin edilsin. Danışıqların nəticəsindən asılı olaraq, İran Xalq Partiyasının Azərbaycan Əyalət Komitəsinin sədri Sadıq Padəqanın da Bakıya gətirilməsi nəzərdə tutulsun".[84] Tədbirlər planında qeyd edilirdi ki, bir ay ərzində Təbrizdə və yerlərdə Azərbaycan Demokrat Firqəsinin Təşkilat Komitəsini yaratmaq üçün müxtəlif demokratik partiyalarda olan nüfuzlu ziyalılar, tacirlər, kiçik və orta mülkədarlar, ruhanilər içərisindən, habelə heç bir partiyaya üzv olmayan bitərəflər içərisindən namizədlər seçilməlidir. Təbrizdə yaradılan Təşkilat Komitəsi Azərbaycan Demokrat Firqəsinin qurulması barədə çağırışı "Xavare nou", "Ajir", "Cövdət" qəzetlərində və ayrıca vərəqə formasında nəşr etməli idi. Çağırışın meydana çıxmasından sonra yerlərdə təşəbbüs qrupları mətbuatda çıxış edib, onu müdafiə etməli, Xalq Partiyasının və digər partiyaların fəal üzvləri hesabına Azərbaycan Demokrat Firqəsinin yerli komitələri təsis edilməli idi. Tədbirlər planında Xalq Partiyasının yerli təşkilatlarının mexaniki olaraq, ADF-nin yerli komitələrinə çevrilməsi yolverilməz hesab edilirdi. Xalq Partiyasının Təbriz Əyalət Komitəsinə tövsiyə edilirdi ki, ADF-nin çağırışını müzakirə edib, müdafiə etsin və Xalq Partiyası təşkilatlarının buraxılması haqda qərar qəbul etsin. Yalnız bundan sonra köhnə firqəçilər ADF-nin üzvü ola bilərdilər. Tədbirlər planına görə, Təbrizdə ADF-nin təşkilat komitəsi yaradıldıqdan sonra Ərdəbil, Rizaiyyə, Xoy, Miyanə, Zəncan, Marağa, Mərənd, Mahabad, Maku, Qəzvin, Rəşt, Pəhləvi, Sarı, Şahi, Qorqan və Məşhəddə də təcili olaraq, onun yerli komitələri təsis edilməli idi. Bu müddətdə ADF-nin proqram və nizamnaməsi hazırlanmalı, Təşkilat Komitəsi Təbrizdə partiyanın "Azərbaycanın səsi" adlı qəzetini yaratmalı idi.[85] Tədbirlər planında əsas dəlil ondan ibarət idi ki, "ADF Azərbaycanın milli və inqilabi

[84] Cənubi Azərbaycan və İranın şimal vilayətlərində xüsusi tapşırıqların həyata keçirilməsi üzrə tədbirlər planı. 14.07.1945.// ARPİİ SSA, f.1, s.89, i.90, v.9

[85] Yenə orada, v.9-10

ənənələrini özündə birləşdirməli" və milli maraqların ifadəçisi kimi formalaşmalı idi.[86]

Bakıda hazırlanan plana görə, Cənubi Azərbaycanda separatçı hərəkatın inkişafı Azərbaycana geniş milli muxtariyyət verilməsi uğrunda mübarizəyə söykənməli idi. Sənəddə "Sovet Azərbaycanının Dostları Cəmiyyəti"nin yaradılmasında Azərbaycan SSR-in 25 illik yubileyində Bakıya gəlmiş nümayəndələrdən istifadə edilməsi nəzərdə tutulurdu. Tədbirlər planına görə, Cənubi Azərbaycanda olan Sovet konsul, hərbi komendant və qarnizonların işçiləri də Cəmiyyətin işinə yaxından cəlb edilməli idi. Sənəddə tövsiyə edilirdi ki, əhalinin geniş təbəqələrini "Sovet Azərbaycanının Dostları Cəmiyyəti"nə yaxınlaşdırmaq üçün mətbuatdan istifadə edilsin və Sovet Azərbaycanında xalq təsərrüfatı, mədəniyyət və incəsənət sahəsində əldə edilmiş uğurlar, habelə Cənubi və Şimali Azərbaycan əhalisinin tarixi eyniliyi barədə mətbuatda yazılar verilsin.[87]

1945-ci ilin iyul ayının sonunda Bakıda hazırlanmış tədbirlər planının həyata keçirilməsi istiqamətində ilk əməli addımlar atılmağa başladı. Azərbaycan K(b)P MK Moskvada qəbul olunmuş 6 iyul qərarına uyğun olaraq, avqust ayından başlayaraq, Cənubi Azərbaycanda yayılmaq üçün ərəb əlifbası ilə aylıq ədəbi-ictimai illüstrasiyalı "Azərbaycan" jurnalının nəşri barədə qərar qəbul etdi. Jurnalın məsul redaktoru həmin dövrdə artıq, Azərbaycan ədəbi və mədəni mühitində geniş tanınan şair Rəsul Rza təyin edildi. Mərkəzi Komitənin tövsiyəsi ilə Mehdi Hüseyn redaktor müavini, Səməd Vurğun, Mirzə İbrahimov, Əhəd Yaqubov, Həsən Həsənov, Rza Quliyev isə jurnalın redaksiya şurasının üzvləri təsdiq edildilər. 1946-cı ilin yanvar ayının 1-nə qədər jurnal üçün 276 min manat həcmində büdcə ayrıldı. Mərkəzi Komitənin qərarı ilə "Azərnəşr"in direktoru A.Sultanova tapşırıldı ki, "Azərbaycan" jurnalının vaxtında və keyfiyyətlə çıxmasını təmin etsin. Jurnal Cənubi Azərbaycanda "Vətən

---

[86] Fawcett Louise L'Estrange. Iran and the Cold War: the Azerbaijan crisis of 1946. Cambridge Univercity Press. 1992. pp.5-6

[87] Cənubi Azərbaycan və İranın şimal vilayətlərində xüsusi tapşırıqların həyata keçirilməsi üzrə tədbirlər planı. 14.07.1945.// ARPİİ SSA, f.1, s.89, i.90, v.10

yolunda" qəzeti redaksiyası vasitəsilə yayılmalı idi.[88] 1945-ci ilin avqust ayında "Azərbaycan" jurnalının ilk sayı çapdan çıxdı. Bu sayda Səməd Vurğun, Mirzə İbrahimov, Cəfər Cabbarlı, Məlikülşüarə Bahar, Məhəmməd Biriya, Balaş Azəroğlu, Əli Fitrət, Yəhya Şeyda, Mir Mehdi Çavuşi, Mirvarid Dilbazi, Mədinə Ələkbərzadə (Gülgün), Nigar Rəfibəyli, Süleyman Rüstəm, Əliağa Vahid, İlyas Əfəndiyev, Rəsul Rza və Əvəz Sadığın əsərlərindən nümunələr verilmiş, filosof Heydər Hüseynovun "Azərbaycanda elmi fikrin inkişaf tarixindən" adlı çox maraqlı məqaləsi çap olunmuşdu.[89] 1945-ci ildə "Azərbaycan" jurnalının 5, 1946-cı ildə 12 nömrəsi nəşr olunmuşdu. Birinci say ilə müqayisədə tədricən jurnalın siyasi yönümü daha da gücləndirilmişdi. 1945-ci ildə çapdan çıxmış 3-cü sayda jurnalın məsul redaktoru Rəsul Rza "Milli şüur və milli iftixar" məqaləsində yazırdı: "Milli şüur bir xalqın öz istedad və bacarığını dərk etmək, millətin ümumi mənafeyi və ziyanını görmək, ümummillətin rifah və səadəti üçün çalışmaq yolunda hər cür fədakarlığın zəruri olduğunu dərk etmək deməkdir. İran Azərbaycanında yaşayan Azərbaycan xalqının yetirdiyi alim, yazıçı və inqilabçılar bu xalqın milli şüurunun artmasında, onun azadlıq və istiqlaliyyət yolunda apardığı mübarizədə çox böyük xidmət göstərmişlər". Jurnalın sonrakı saylarında Məmməd Səid Ordubadi, Firudin İbrahimi, İsmayıl Hüseynov, Həmid Araslı, Məhəmmədəli Abbasi, Cəfər Xəndan, Hacı Məhəmməd Naxçıvani, Nüsrətulla Cahanşahlı və Qulam Məmmədlinin son dərəcə maraqlı yazıları dərc olunmuşdur. 1945-46-cı illərdə çap olunmuş "Azərbaycan" jurnalı Sovet hakimiyyətinin mövcud olduğu bütün dövrdə ən maraqlı və milli mənafe baxımından ən əhəmiyyətli nəşr orqanı idi. Əvvəla, bu jurnalın hər sayında Cənubi və Şimali Azərbaycanın ictimai-siyasi, mədəni, ədəbi həyatı, tarixi birlikdə əhatə olunurdu. İkincisi isə, jurnal Cənubi Azərbaycan üçün çap olunduğundan Sovet Azərbaycanında hökm sürən hakim bolşevik ideologiyasının tələblərindən bir qədər yayına bilir, Azərbaycan xalqının köklü mənafeyi, taleyi və tarixi ilə

[88] "Cənubi Azərbaycanda yayılmaq üçün illüstrasiyalı jurnalın nəşri haqqında" Azərbaycan KP MK Bürosunun qərarı. 28.07.1945.//ARPİİ SSA, f.1, s.220, i.48, v.73-74

[89] "Azərbaycan", 1945, avqust, № 1, s.2-57

bağlı əsaslı məsələlərə toxuna bilirdi. Bütöv vətən, eyni xalq, vahid millət məramı, demək olar ki, "Azərbaycan"ın hər sayından duyulurdu. Jurnalın müxtəlif saylarında "Sərdari Milli Səttarxan", "Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətai", "İran Azərbaycanının görkəmli demokratı Şeyx Məhəmməd Xiyabani", "Qırx il bundan əvvəl nəşr olunmuş "Azərbaycan" məcmuəsi haqqında", "Şəmsəddin Təbrizi və onun elmə dair nəzəriyyələri", "Qövsi Təbrizinin nəşr olunmamış şeirləri", "Xətib Təbrizi və onun əsərləri", Urmiya Came məscidinin mehrabı haqqında", "Mirzə Məhəmməd Bağır Xalxali", "Hacı Mehdi Şükuhi" kimi çox dəyərli məqalələr dərc olunmuşdu. Təsadüfi deyildir ki, Cənubdakı uğursuzluqdan sonra, 1946-cı ilin dekabrında "Azərbaycan" jurnalının nəşri də dayandırıldı. 1945-1946-cı illərdə nəşr olunmuş "Azərbaycan" jurnali ikiyə bölünmüş xalqın ədəbi, milli və mənəvi həyatının ilk bütövlük məqamı idi və onun elmi cəhətdən zəngin, ədəbi cəhətdən rəngarəng, mədəni cəhətdən təkrarsız yazıları bu gün də öz əhəmiyyətini saxlayır.

1945-ci ilin iyul ayında Cənubi Azərbaycanla bağlı mətbuat işinin texniki cəhətlərini və kağız təchizatını təşkil etmək üçün Səməd Vurğun və Süleyman Rəhimov Moskvaya ezam edildilər. M.C.Bağırov ÜİK(b)P MK-ya, İttifaq Komissarlıqlarına, RSFSR Dövlət Nəşriyyat Birliyinin direktoruna yazdığı məktublarda partiya Mərkəzi Komitəsinin son qərarına uyğun olaraq, Cənubi Azərbaycanda nəşriyyat poliqrafiya bazasını təşkil etmək üçün təcili şəkildə 3 düz səthli çap maşını, hər kvartal üçün 29 ton qəzet kağızı, 4,5 ton jurnal kağızı, 1200 vərəq üz qabığı, bədii işləri görmək üçün 1200 vərəq litoqrafiya kağızı və s. göndərilməsini xahiş edirdi.[90] Ezamiyyət müddətində S.Vurğun və S.Rəhimov Cənubi Azərbaycan üçün nəzərdə tutulmuş nəşriyyat texnikası, kağız və digər texniki avadanlığın Bakıya göndərilməsinə nail oldular. M.C.Bağırovun N.Bulqaninə məktubuna cavab olaraq, Qırmızı Ordunun Baş Siyasi İdarəsi iyul ayında Cənubi Azərbaycanda istifadə edilməsi üçün 30 radioqəbul-

[90]M.C.Bağırovun ÜİK(b)P MK-na – Q.F.Aleksandrova məktubu. 24.07.1945.// ARPİİ SSA, f.1. s.89, i.106, v.3-5

edici, 15 radiogücləndirici, 100 reproduktor, 500 patefon və s. texniki avadanlıq göndərdi. Eyni zamanda, Qırmızı Ordu Baş Qərargahı qarşısında məsələ qaldırıldı ki, Cənubi Azərbaycan üçün öz ştat vahidləri ilə birlikdə hərəkət edən səyyar avto-kino qurğuları da ayrılsın.[91]

1945-ci ilin iyul ayında Cənubi Azərbaycan haqqında qəbul olunmuş gizli qərara əməli xarakter vermək üçün M.C.Bağırov Moskvadan qayıtdıqdan dərhal sonra İran Xalq Partiyası MK-nın üzvü, İran Məclisinin deputatı Əbdülsəməd Kambəxş, Xalq Partiyasının Təbriz Əyalət Komitəsinin sədri Sadıq Padəqan, yazıçı və publisist Hacı Mirzə Əli Şəbustəri, "Ajir" qəzetinin redaktoru Seyid Cəfər Pişəvərini gizli şəkildə Bakıya dəvət etdi. 1945-ci ilin avqust ayında Bakıda aparılan müzakirələr zamanı qərara alındı ki, yeni yaradılacaq ADF-yə müvəqqəti olaraq, Pişəvəri rəhbərlik etsin. Qərara alındı ki, müvəqqəti olaraq, İran Azərbaycanı demokratik hərəkatının mərkəzi Bakıya köçürülsün.[92] M.C.Bağırov Bakıda keçirilmiş görüş barədə Stalinə yazırdı: "Onlarla şəxsi söhbətdən sonra birinci dövr üçün Azərbaycan Demokrat Firqəsinə rəhbərlik etmək demokratik dairələrdə böyük nüfuzu və hörməti olan, Tehrandakı "Ajir" qəzetinin redaktoru Seyid Cəfər Pişəvəriyə tapşırıldı".[93] Pişəvəri təcrübəli siyasətçi və jurnalist idi. Görünür bu seçimdə, hələ, Cəngəli hərəkatı dövründən Pişəvərinin Stalinlə olan

---

[91] Vesyolovun Bağırov və Yeqorova məktubu. 11.08.1945.// ARPİİ SSA, f.1, s.89, i.106, v.6

[92] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.321

[93] M.C.Bağırovun İ.Stalinə məktubu.// 06.09.1945.// ARPİİ SSA, f.1, s.89, i.90, v.19; Seyid Cəfər Pişəvərinin həyatı və siyasi fəaliyyəti, xüsusilə, 21 Azər hərəkatında rəhbər rolu haqqında geniş məlumat üçün bax: Mirqasım Çeşmazər. S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan Milli Hökumətinin yaranması uğrunda mübarizədə rolu haqqında.// Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1991; Mirqasım Çeşmazər. Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan 1945-1946-cı illərdə). Bakı, 1986; Əkrəm Rəhimli (Bije). Mübarizə burulğanında keçən ömür: Seyid Cəfər Pişəvəri (Həyatı və ictimai-siyasi fəaliyyəti). Bakı, 2009, 400 s.; C.Həsənli. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı, 1998, 324 s.; C.Həsənli. Soyuq müharibənin başlandığı yer: Güney Azərbaycan (1945-1946). Bakı, 1999, 353 s.; C.Həsənli. Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946). Bakı, 2001, 576 s.; Cemil Hasanlı. Soğuk Savaşın ilk çatışması: İran Azərbaycanı. İstanbul, Bağlam, 2005, 580 s.; C.Həsənli. Azərbaycane İran. Ağaze cənge sərd. Tehran, Şiraze. 1387, 582 s. (fars dilində); J. Hasanli. At the Dawn of the Cold War: The Soviet–American Crisis over Iranian Azerbaijan, 1941–1946. Rowman and Littlefield Publishers, INC. Lanham, Boulder, New York, Toronto, Oxford. 2006, 409 p.; Дж.Гасанлы. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны. 1941-1946. Москва, 2006, 560 с.

şəxsi tanışlığı da az rol oynamadı.[94] Lakin maraqlıdır ki, bu qərardan az sonra, 1945-ci ilin sentyabrında Tudə rəhbərlərindən olan A.Ovanesyan Bakıya çağırılan adamların əksəriyyətinin, xüsusilə, Pişəvəri və Şəbüstərinin əleyhinə Moskvaya məlumat göndərmişdi. 1920-ci ilin Gilan hadisələrindən tutmuş - XIV İran Məclisinə keçirilən seçkilərə qədərki dövrdə, xüsusilə, həbs müddətində o, Pişəvərini təxribatçı kimi təqdim edir və yazırdı:"Azərbaycanda ciddi şəxslər yoxdur. Bundan əlavə onların bəziləri təhlükəli adamlardır. Həbsdə və sürgündə olanda, mübarizə aparıb, azadlıqdan məhrum olanda düz adamlar işləyirlər, qələbə yaxınlaşanda müxtəlif yaramaz adamlar peyda olurlar ki, maddi imkanlardan istifadə etsinlər. Bax, indi, Azərbaycanda, məhz, belə adamlar toplanmışlar".[95] Hacı Mirzə Əli Şəbüstəri ilə bağlı o, belə bir məlumatı Moskvaya çatdırırdı ki, 1945-ci ilin may ayında Bakıya səfərdən sonra Şəbüstəri öz yaxın əhatəsində deyib: "O şeyləri ki, mən Sovet Azərbaycanında gördüm, Hitler bunlardan daha yaxşıdır".[96] Lakin A. Ovanesiyanın Pişəvəri və Şəbüstəri haqqında yazdıqları Moskvada təşkil edilmiş komissiyanın topladığı materiallarda öz təsdiqini tapmadı. M.C.Bağırov bu məsələdən məlumatlı idi və əslində, onun A.Ovanesyana düşmən münasibətinin və onun haqqında Moskvaya tez-tez Azərbaycan təhlükəsizlik orqanlarının topladığı ifşaedici məlumatlarını göndərməsi bununla bağlı idi.

İrandan dəvət edilən şəxslərlə Bakıda aparılan danışıqlar barədə M.C.Bağırov İ.Stalinlə yanaşı Siyasi Büronun 1945-ci ilin iyul ayının 6-da qəbul olunmuş qərarının yerinə yetirilməsinə məsul olan digər Sovet rəhbərləri V.Molotov, L.Beriya və G.Malenkova da hesabat göndərmişdi. Hesabatda göstərilirdi: "Seyid Cəfər Pişəvəri İran Azərbaycanında doğulub. Kommunist Partiyasının keçmiş üzvüdür.

---

[94] С.Алиев. История Ирана. XX век. Москва, 2004, с.216; Ətraflı məlumat üçün bax: Kavə Bəyat. Rza şah dövründə kommunist fəaliyyətləri (1300-1310/ 1921-1931).Tehran, 1370 (1991), s.111-171(fars dilində); Rəhim Rəisniya. Axərin Sənqə-re azadi. Məcmue-ye məqalət-e Mir Cəfər Pişəvəri. Tehran, 1377(1998), 507 s.

[95] A.Ovanesyandan ÜİK(b)P MK-ya. "Partiyada böyük dönüş və bundan irəli gələn təhlükələr". 22.09.1945.// RDSSTA, f. 17, s.128, i.819, v.57-58

[96] Yenə orada, v.59

Sovet Azərbaycanında uzun müddət məsul partiya-sovet vəzifələrində çalışıb. 1927-ci ildə Komintern tərəfindən İrana göndərilib. Rza şah hökuməti tərəfindən həbs edilən Pişəvəri 10 il həbsdə yatmış və Sovet orduları 1941-ci ildə İrana daxil olduqdan sonra azad edilmişdir. M.C.Bağırov yazırdı: "Onun iki doğma qardaşı Sovet İttifaqında yaşayır. Onlardan biri Qırmızı Orduda tibbi xidmət kapitanıdır".[97] Görünür, bütün digər keyfiyyətləri ilə bərabər bu fakt da Tehrandan və Təbrizdən çağırılan adamlar içərisindən ADF rəhbərliyinə Pişəvərinin seçilməsində müəyyən rol oynamışdı.

Cənubi Azərbaycanla bağlı ÜİK(b)P MK Siyasi Bürosunun 1945-ci ilin iyul ayının 6-da qəbul olunmuş qərarına uyğun olaraq, Təbrizdə və digər şəhərlərdə işləri genişləndirmək və yerli işçilərə operativ yardım göstərmək üçün 1945-ci ilin avqust ayında Bakıda M.İbrahimov, H.Həsənov və general A.Atakişiyevdən ibarət "üçlük" yaradıldı. "Üçlük" öz iqamətgahını sentyabrın ilk günlərindən Təbrizə köçürməli idi. Formal cəhətdən üçlüyün üzvləri Cənubi Azərbaycanda yerləşən Sovet Ordusunda hərbi xidmətdə hesab edilirdilər.[98] Bakı "üçlüyü"nün Təbrizdə fəaliyyətə başlaması ilə yanaşı Tehrandakı Sovet səfəri M. Maksimov İXP MK-nın rəhbər heyətini səfirliyə dəvət edib onlara bir sıra göstərişlər verdi. Səfir dedi ki, "bundan sonra SSRİ İranın bütün işlərinə müdaxilə edəcək və bizim iştirakımız olmadan bu ölkədə heç nə baş verə bilməz. Bizdən başqa heç kəsin İranın işlərinə müdaxilə etməyə hüququ yoxdur". Həmin söhbətdə iştirak edən səfirliyin katibi Ə. Əliyev az sonra Tudə rəhbərlərinə izah etdi ki, "bu səfirin öz sözləri deyil, bunun Moskvanın fikri olduğunu nəzərə alın".[99]

Bakıdan Cənubi Azərbaycanda fəaliyyət göstərən siyasi işçilərə təlimat verilmişdi ki, Tudə Partiyasının ADF-yə çevrilməsində bir saat da yubanmasınlar. Təbrizdə "Çoban" adı altında fəaliyyət

---

[97] M.C.Bağırovun V.Molotov, L.Beriya və G.Malenkova məktubu. 23.11.1945.// ARPİİ SSA, f.1, s.89, i.90, v.67

[98] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.321

[99] A.Ovanesyandan ÜİK(b)P MK-ya. "Partiyada böyük dönüş və bundan irəli gələn təhlükələr". 22.09.1945.// RDSSTA, f. 17, s.128, i.819, v.61

göstərən Azərbaycan SSR təhlükəsizlik orqanlarının rezidentinə göndərilən şifrəli teleqramda qeyd edilirdi ki, bizim orduların yerləşdiyi ərazidə, xüsusilə, Təbriz valiliyi tərəfindən Sovet tədbirlərinə qarşı ehtimal ola biləcək bütün maneələr aradan qaldırılmalıdır. Təlimatda tövsiyə edilirdi ki, ilk gündən mütərəqqi ruhani, mülkədar, tacir və ziyalıları öz tərəfinizə çəkin. Teleqramda yazılırdı: "Bütün tədbirlər elan edilənə qədər Xalq Partiyası Mərkəzi Komitəsi tərəfindən heç kimi yaxına buraxmayın. Tehrandakı bizim təşkilatlar vasitəsi ilə hər şeyi edin ki, bizim tədbirlər elan edildikdən sonra Xalq Partiyasının MK-i sizin Cənubi Azərbaycanda və Şimali İranda həyata keçirdiyiniz tədbirləri, o cümlədən, Azərbaycan Demokrat Firqəsinin yaranmasını tamamilə müdafiə etsin".[100] Rezidentə göstəriş verilirdi ki, teleqramı Ə.Yaqubov, S.Yemelyanov, M.Matveyev, A.Atakişiyev və 4-cü ordunun hərbi şurasının üzvü general-mayor Russova məruzə etsin. Eyni zamanda, Mirzə Məmmədov, Bağır Seyidzadə, Əhəd Bağırzadə, Rza Quliyev, Məmməd Şərifov və İranda olan digər Sovet işçilərinin məlumatlandırılması, onların həyata keçirilən tədbirlərə cəlb edilməsi istiqamətində təlimatda göstəriş verilirdi.

İşlərin qısa müddətdə belə geniş vüsət alması, Bakı və Moskvadan birdən-birə çoxlu gizli göstərişlərin və təlimatların gəlməsi Cənubi Azərbaycanda xüsusi tapşırıqla işləyən siyasi işçilər, yüksək rütbəli hərbçi və təhlükəsizlik orqanlarının əməkdaşları üçün gözlənilməz olmuşdu. Xüsusilə, müharibənin əvvəlindən İranda xidmət edən hərbçilər və Sovet Ordusunun şəxsi heyəti Avropada müharibə qurtardıqdan sonra SSRİ-yə qayıdacaqlarını səbirsizliklə gözləyirdilər.

Cənubi Azərbaycanda başlanmış işlər və ilk növbədə, ADF-nin yaradılması ilə bağlı məsələlər tudəçilərin güclü müqaviməti ilə qarşılaşdı. İran Xalq Partiyasının Mərkəzi Komitəsi bütün vasitələrlə Təbrizdə başlanmış işləri pozmağa çalışırdı. ADF-nin rəhbər heyə-

---

[100] Bakıdan Təbrizdə fəaliyyət göstərən rezident "Çoban"a təlimat. Avqust 1945.// ARPİİ SSA, f.1, s.89, i.95, v.59; Sənədlərin araşdırması göstərir ki, Təbrizdə "Çoban" adı ilə fəaliyyət göstərən rezident Azərbaycan SSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığının əməkdaşı,Təbrizdəki vitse-konsul Nurməmməd (Nuru) Quliyev idi.

tinə daxil olacaq şəxslərin təhlükəsizliyini təmin etmək məqsədilə 1945-ci ilin avqust ayında keçirilmiş Bakı görüşündə razılıq əldə edilmişdi ki, Pişəvəri, Şəbüstəri, Padəqan və digər mühüm şəxslər həyatlarına ola biləcək təhlükə ilə bağlı Təbrizdən kənara çıxmasınlar, lakin buna baxmayaraq, Tudənin MK-ı ilə yaranmış ziddiyyətləri tənzimləmək məqsədilə Sadıq Padəqanın Tehrana getməsi barədə əməliyyat məlumatı alınmışdı. İlk dövrlərdə Cənubi Azərbaycanda işlərin zəif təşkil olunması, Xalq Partiyası rəhbərliyi ilə bağlı yaranmış münaqişə, S.Padəqanın məlumat vermədən Tehrana getməsi M.C.Bağırovu hövsələdən çıxarmışdı. S.Yemelyanov, H.Həsənov və M.İbrahimova göndərdiyi teleqramda o yazırdı: "Görünür Əhəd Yaqubov, Ağasəlim Atakişiyev, general Russov və Nurməmməd Quliyev başa düşmürlər ki, indi hər saat qiymətlidir və ona görə çevik hərəkət etmək lazımdır. Şübhə yoxdur ki, bizim tədbirlərin qatı əleyhdarı İran Xalq Partiyasının Mərkəzi Komitəsi deyilən qurum olacaqdır. Onlar qəsdən hər cür münaqişə, ziddiyyət törədəcəklər ki, adamları bizdən uzaqlaşdırsınlar. Bu barədə yuxarıda adları çəkilən yoldaşlara bildirmək lazımdır və onlardan tələb edilməlidir: 1. Təcili olaraq Padəqan Tehrandan Təbrizə sağ və salamat gətirilməlidir; 2. Bizim tərəfimizdən rəhbərlik üçün nəzərdə tutulmuş şəxslərdən heç birisi kimin tərəfindən çağırılmasından asılı olmayaraq, Tehrana getməməlidir (təminat yoxdur ki, onları orada məhv etməyəcəklər); 3.Yeni hərəkatın bütün rəhbər işçiləri mühafizə edilməlidirlər; 4. Danışıqlar üçün Təbrizdən Ərdəbil, Xoy, Maku, Urmiya, Marağa, Pəhləvi, Rəşt, əgər mümkün olsa digər şəhər və rayonlara mümkün olduğu qədər tez çoxlu sayda adamlar göndərilməlidir; 5.Tudə partiyasının yenidən qurulması, Azərbaycan Demokrat Firqəsinin, təşkili və sənədləşdirilməsi işi sürətləndirilməlidir; 6. Yeni qəzetlərin nəşri işi sürətləndirilməlidir; 7.Siz özünüz, yəni, H.Həsənov, M.İbrahimov və S.Yemelyanov - sizə tapşırılan tədbirlərin hazırlanmasını sürətləndirməlisiniz".[101]

[101] M.C.Bağırovun Yemelyanov, Həsənov və İbrahimova məktubu. 17.08.1945 / ARPİİ SSA, f.1, s.89, i.107, v.121

1945-ci ilin avqustunda artıq, İranda şayiələr yayılmağa başlamışdı ki, ADF-nin yaradılması ilə bağlı Sovet İttifaqı İran Xalq Partiyasına yardımları dayandırır və "ruslar Xalq Partiyasını ləğv edirlər". Tudə rəhbərlərinin fikrincə, əgər SSRİ-nin Demokrat Firqəsini müdafiə edib, Tudəni taleyin ümidinə buraxması faktının doğruluğuna düşmən əmin olsaydı, İXP-ni tamamilə məhv edəcəkdi. Ona görə, Tudə liderləri bütün vasitələrlə ADF-in yaranmasına qarşı mübarizə aparırdılar. Onlar belə məlumatlar yayırdılar ki, Azərbaycanda Sovetlərin müdafiə etdiyi ayrı bir partiyanın yaranması İranın parçalanmasına gətirib çıxaracaq. A.Ovanesyan qeyd edirdi ki, "ümumi İran xarakteri daşımayan bir partiyanın meydana çıxması artıq, separatizm deməkdir".[102] Yalnız Sovet səfirliyinin ciddi müdaxiləsi və hətta, bəzi məqamlarda hədələri nəticəsində ADF-nin yaranmasına qarşı İXP rəhbərliyinin müqavimətini qırmaq mümkün oldu. Səfir M. Maksimov SSRİ XİXK-nə yazırdı ki, İXP MK-nın üzvü A. Ovanesyanın Azərbaycan Demokrat Firqəsinin yaranmasına və onun rəhbərlərinə qarşı düşmən münasibəti haqqında faktlar bizə məlumdur və bizim xəbərdarlığımıza baxmayaraq, o, açıq təxribatçı fəaliyyətini davam etdirir, Azərbaycan Demokrat Firqəsinin demək olar ki, bütün işçilərinin üzərinə çirkab atır. Səfir qeyd edirdi ki, Ovanesyan, eyni zamanda, səfirliyin rəhbərliyini yeni partiyanın yaradılmasına yardım göstərtərməkdə, Xalq partiyasını dağıtmaqda ittiham edir və səfirliyin başı üzərindən özünün Moskva ilə birbaşa əlaqəsinin olduğunu bildirir. M. Maksimov A. Ovanesyanın Moskvada ÜİK(b)P MK-ın məsul işçisi Kozlovla əlaqəli olduğunu Xarici İşlər Xalq Komissarlığına bildirir və yazırdı: "Ovanesyan İXP MK-ı Azərbaycan Demokrat Firqəsinin əleyhinə açıq bəyanat verməyə sürükləyirdi və yalnız səfirliyin müdaxiləsi ilə bu çıxışın qarşısını almaq mümkün oldu. Biz yoldaş Kozlova məsləhət gördük ki, Ovanesyana özünün MK-da pozuculuq işinə son qoymağı təklif etsin, əgər o, buna son qoymasa, biz Ovanesyanın təcrid olunması məsələsini müzakirə etməli olacağıq".[103]

---

[102] A.Ovanesyandan ÜİK(b)P MK-ya. "Partiyada böyük dönüş və bundan irəli gələn təhlükələr". 05.10.1945.// RDSSTA, f. 17, s.128, i.819, v.73

[103] Дж.Гасанлы. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны. 1941-1946. Москва, 2006, с.105-106

İyul ayında cərəyan edən hadisələr İrandakı Böyük Britaniya, ABŞ diplomatik və hərbi dairələri tərəfindən diqqətlə izlənilirdi. Təbrizdəki İngiltərə Baş konsulluğu və ABŞ Konsulluğu öz fəaliyyətlərini xeyli gücləndirmişdilər. Sovetlər tərəfindən hazırlanan tədbirlər nə qədər məxfi aparılsa da, Amerika və İngiltərənin bölgədə olan nümayəndələri, xüsusi xidmət orqanları Cənubi Azərbaycanda gedən proseslərdən məlumatlı idilər.[104] Onlar dəfələrlə hakimiyyət dairələri ilə Azərbaycandakı vəziyyəti müzakirə etmişdilər. Başlanan prosesləri diqqətlə izləyən Britaniya və ABŞ siyasi dairələri Cənubi Azərbaycanda müstəqil dövlətin yaradılması və ya, onun Sovet Azərbaycanına birləşdirilməsi ilə bağlı addımları artıq, gözləyirdilər. Hələ, 1945-ci ilin yanvar ayında ABŞ səfirliyi, xüsusilə, polkovnik Norman Şvarskopf başda olmaqla İran jandarmeriyasında xidmət edən Amerika zabitləri Sovet ordu və diplomatik orqanlarının ölkənin şimalında İranın daxili işlərinə müdaxiləsi barədə məlumatlar toplayırdılar. Sovet nəzarəti altında olan Şahi şəhərindən Şvarskopfun verdiyi məlumatlar bunun aydın ifadəsi idi.[105] Yaxud, 1945-ci ilin iyul-avqust aylarında Amerika konsulluğunun əməkdaşları Təbriz, Marağa və digər şəhərlərdə Sovet qarnizonlarının bütün fəaliyyətini izləyir, Cənubi Azərbaycan şəhərlərində Sovet komendantları tərəfindən həbs olunan adamlar haqqında məlumatlar toplayırdılar.[106] Hətta, Sovet Azərbaycanı ilə sərhəddə yerləşən Astaranın polis və jandarm idarəsinə Sovet nümayəndələri tərəfindən verilən təlimat və göstərişlər, belə, Amerika diplomatik xidmət orqanlarının diqqət mərkəzində idi.[107]

---

[104] Amerika misyonerlərinin Təbrizdə apardıqları kəşfiyyat işləri barədə ətraflı məlumat üçün bax: В.Т.Юнгблюд, А.В.Чучкалов. Политика США в Иране в годы Второй мировой войны. Киров, 2011,с.92-93

[105] From Embassy of the USA in Tehran to the Secretary of State. Reported Soviet İnterference üith İranian Genarmes at Shahi.05.01.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 3398, NND 7600050, Doc. 761.91/1-545

[106] The Decode of Cypher Received from Tabriz. 25.09.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 3398, NND 7600050, Doc. 761.91/9-2545

[107] From American Embassy, Tehran. Confidential Report. 25.09.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 3398, NND 7600050, Doc. 761.91/9-2545

Sovet planlarına mane olmaq üçün vəziyyətdən çıxış yolu kimi Qərb müttəfiqləri xarici orduların İrandan çıxarılması ideyasına üstünlük verirdilər. 1945-ci ilin iyun ayının 1-də Britaniya Xarici İşlər naziri A.İden "rusların İrandan çıxarılması" üçün əlverişli məqamın yetişdiyini öz müavini A. Kadoqana bildirmişdi.[108] Hələ, Krım konfransı zamanı Britaniya Baş Naziri U.Çörçil və Xarici İşlər naziri A.İden bu təşəbbüslə çıxış etmişdilər.[109] Lakin Sovet İttifaqı bu ideyanı müsbət qarşılamamışdı. May ayının 24-də V.Molotovun adına hazırladığı xidməti məlumatda S.Kavtaradze izah edirdi ki, orduların İrandan vaxtından əvvəl çıxarılması Sovet İttifaqının maraqlarına uyğun deyildir. Onun fikrincə, ingilispərəst qüvvələrin bütün vasitələrlə dövriyyəyə buraxdıqları bu təklif İranda Sovet təsirinin zəiflədilməsinə və görülən işlərin nəticələrinin heçə endirilməsinə yönəlmişdi. Ona görə, Kavtaradze təklif edirdi ki, "maraqlarımız təmin olunana qədər, xüsusilə, neft konsessiyası alana, ən azından, bizim üstün iştirakımızla səhmdar cəmiyyətin yaradılmasına nail olana qədər ordularımızın İrandan çıxmasını yubatmalıyıq".[110] 1945-ci ilin may ayının 31-də Britaniya Xarici İşlər Nazirliyi Moskvadakı ingilis səfiri Arçibald F.Kerrə təlimat vermişdi ki, müttəfiq orduları İrandan vaxtından əvvəl çıxarılması ilə bağlı SSRİ XİXK-a müraciət etsin. İyun ayının 14-də ABŞ-ın SSRİ-də səfiri Averell Harriman da belə bir təkliflə XİXK-ə müraciət etmişdi. Lakin hər iki müraciət Sovet hökuməti tərəfindən sükutla qarşılanmışdı.[111] Potsdam konfransı zamanı bu məsələ yenidən gündəliyə gəldi. İyulun 21-də Böyük Britaniya nümayəndələri müttəfiq orduların İrandan çıxarılması barədə konfransa memorandum təqdim etdilər. Memorandumda deyilirdi: "Əlahəzrət kral hökuməti və Sovet hökuməti öz ordularını İranda 1942-ci ilin yanvar ayının

---

[108] Bax: Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам // «Новая и новейшая история». 1994, №3, с.30

[109] Bax: Sovet – İran münasibətlərinin qısa icmalı (1917-1955). SSRİ Xarici İşlər Nazirliyinin arxiv idarəsi. İyun, 1956.// RDƏYTA, f.5, s.30, i.171, v.76

[110] S. Kavtaradzenin V. Molotova xidməti məruzəsi. 24.05.1945.// RF XSA, f.06, s.7, q.33, i.466, v.11

[111] Bax: Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам // «Новая и новейшая история». 1994, №3, с.31

29-da imzalanmış İngiltərə-Sovet-İran müqaviləsinə əsasən saxlayır. Həmin müqavilənin 5-ci bəndinə görə, müttəfiqlər öz ordularını İrandan "Müttəfiq dövlətlərlə Almaniya və onun əlaltıları arasında hərbi əməliyyatlar başa çatdıqdan sonra altı aydan gec olmayaraq" çıxarmalıdırlar. Əlahəzrət hökuməti Sovet hökumətinə təklif edir ki, müttəfiq silahlı qüvvələri paritet qaydada, həmin müddət başa çatmazdan əvvəl İrandan mərhələlərlə çıxa bilərlər".[112] Britaniya hökuməti təklif edirdi ki, ilk mərhələdə ordular İranın paytaxtı Tehrandan çıxarılsın. İngilislərin fikrincə, ikinci mərhələdə onlar Abadanda və cənubun neft rayonlarında, Sovetlər isə İranın şimal-şərqində, yaxud şimal-qərbində ordu saxlaya bilərdilər. Üçüncü mərhələdə hər iki ölkənin orduları bütövlükdə İrandan çıxarılmalı idi. 1945-ci ilin fevralında başa çatmış Krım konfransı zamanı Molotovun müqavimətinə baxmayaraq, müttəfiqlər belə güman edirdilər ki, xarici orduların müharibədən sonrakı altı ay müddətində İrandan çıxarılması haqqında götürdüyü öhdəliyə Sovet İttifaqı əməl edəcəkdir, çünki, 1942-ci ildən ötən üç il ərzində bu məsələ ilə bağlı müttəfiqlər arasında elə ciddi bir fikir ayrılıqları meydana çıxmamışdı, lakin "1945-ci ilin yayında İranın şimalında separatçı hərəkatın əsasının qoyulması bütün mənzərəni dəyişmişdi".[113]

1945-ci ilin iyul ayının 23-də Britaniyanın təşəbbüsü ilə İran məsələsi Potsdam konfransının gündəliyinə çıxarıldı. Prezident Trumen ABŞ-ın öz ordularını İrandan çıxarmağa hazır olduğunu bəyan etdi. Stalin isə cavabında bildirdi ki, "hər halda Tehranı azad etmək olar". Britaniya Baş Naziri bu məsələni yekunlaşdıraraq, təklif etdi ki, "təcili olaraq, ordu Tehrandan çıxarılsın, orduların çıxarılmasının sonrakı mərhələləri isə sentyabr ayında Xarici İşlər Nazirləri Şurasında müzakirə edilsin".[114] Potsdam konfransındakı müzakirələr barədə, hələ, konfrans başa çatmazdan əvvəl Britani-

[112] Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав – СССР, США и Великобритании (17 июля – 2 августа 1945 г.). Сборник документов. Москва, 1984, с.323-324

[113] Fernande Scheid Raine. Stalin and the Creation of the Azerbaijan Democratic Party in Iran, 1945. // Cold War History, vol.2, №1, October 2001, p.2

[114] Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав – СССР, США и Великобритании (17 июля – 2 августа 1945 г.). Сборник документов. Москва, 1984, с.155-156

yanın Moskvadakı səfirliyinin əməkdaşı Frank Roberts SSRİ Xarici İşlər Xalq Komissarının müavini V.Dekanozova müraciət etdi. O, xatırladırdı ki, konfransın qərarları barədə, xüsusilə, müttəfiq orduların İrandan çıxarılması barədə Tehrandakı Sovet səfirini məlumatlandırmaq lazımdır. O, belə bir təlimatın artıq, Tehrandakı Britaniya səfirinə verildiyini bildirdi.[115] Potsdam konfransı, bütövlükdə, yeni Sovet iddialarının nümayişi fonunda keçdi. Konfrans ərəfəsində və onun gedişində artan Sovet tələbləri açıq müstəviyə qədəm qoydu. Şərqi Avropa və Uzaq Şərqdəki Sovet iddialarına Türkiyədən torpaq tələbləri və Boğazlara birgə nəzarət istəkləri, habelə, İrandan çıxmamaq arzuları da əlavə edildi.[116]

Potsdam konfransı başa çatdıqdan bir gün sonra İranın Saray Naziri Hüseyn Əla Sovet səfiri M.Maksimovla görüşdü. O, İran hökumətinin fəaliyyəti ilə bağlı bir sıra məsələləri Sovet səfiri ilə müzakirə etdi. H.Əla söhbətin sonunda çox ehtiyatlı formada müttəfiq orduların İrandan çıxması barədə hər hansı bir məlumatın olub-olmamasını Maksimovdan soruşduqda, Sovet səfiri bu barədə yeni bir məlumata malik olmadığını bildirdi.[117] Bundan az sonra Moskvadakı İran səfiri Məcid Ahi avqust ayının 8-də S. Kavtaradze ilə görüş zamanı Berlin konfransının müttəfiq ordularının İrandan çıxarılmasına dair Xarici İşlər Xalq Komissarlığının hər bir hansı yeni məlumata malik olmamasını soruşduqda, S. Kavtaradze Potsdam konfransının məlum qərarı haqqında səfiri məlumatlandırdı. S. Kavtaradze yazırdı: "Ahi bu məsələyə xüsusi maraq göstərmədi və aydınlaşdırıcı suallar vermədi. Onun bu məsələyə belə passiv və qeyri-müəyyən münasibətini mən onunla izah edirəm ki, bizim orduların çıxarılmasının İran üçün yaxşı və ya pis olacağına Ahi əmin deyildir".[118] Əslində, 1945-ci ilin yazından fərqli olaraq, həmin

---

[115] Frank Robertsin V.Dekanozova xatırlatması. 31.07.1945.// RF XSA, f.0431, s.1, q.8, i.50, v.11

[116] В.Печатнов. Сталин, Рузвельт, Трумэн: СССР и США в 1940-х гг. Документальные очерки. М., 2006, с.339

[117] M.Maksimovun V.Molotov və S.Kavtaradzeyə məlumatı. 03.08.1945.// RF XSA, f.094, s.31, q.351a, i.8, v.68a-68b

[118] S.Kavtaradzenin gündəliyindən. İran səfiri Məcid Ahinin qəbul edilməsi. 08.08.1945.// RF XSA, f.094, s.31, q.351a, i.6, v.28

ilin yayında Tehran müttəfiq ordularının İrandan vaxtından əvvəl çıxacağına ümidini üzmüşdü. İndi bütün yayı onlar müttəfiqlərdən xarici orduların İranı vaxtında tərk etməsi xəbərini gözləyirdilər.[119]

Britaniya səfirliyinin müraciətindən sonra SSRİ Xarici İşlər Xalq Komissarının müavini S.Kavtaradze avqust ayının 8-də xarici orduların İrandan vaxtından əvvəl çıxarılmasının yolverilməzliyi haqqında Sovet rəhbərliyi üçün arayış hazırladı. Orada göstərilirdi ki, "Sovet ordularının İrandan vaxtından əvvəl çıxarılması irticanın güclənməsi, demokratik təşkilatların dağıdılması və bütövlükdə SSRİ-nin mövqelərinin İranda zəifləməsinə gətirib çıxara bilər". S. Kavtaradzenin fikirincə, "belə bir addım Sovetlərin Şimali İranda neft axtarışı ilə bağlı başladığı işlərə mane olar və muxtariyyat hərəkatının genişlənməsi ilə bağlı qərarların yerinə yetirilməsini təhlükə altına qoya bilər". O, belə hesab edirdi ki, "bütün vasitələrlə Sovet ordularının İrandan çıxarılmasını yubatmaq lazımdır".[120] Eyni zamanda, Kavtaradze yazırdı ki, "Sovet ordularının Yaponiyanın təslim olmasından 6 ay sonrakı müddətə qədər İranda qalması Britaniyanın bu ölkədəki nüfuzuna ağır zərbə olardı və daha çox ingilislərə ümid bəsləyən İran hakim dairələrini Sovetlərlə hesablaşmağa məcbur edərdi".[121] Sovetlərin öz ordularını İranda yubatmaq cəhdləri, ilk növbədə, Moskvanın qərarları əsasında Cənubi Azərbaycanda başlanmış işlər və SSRİ-nin neft maraqlarının təmin olunması ilə bağlı idi.

S.Kavtaradzenin bu təkliflərindən sonra Sovet xarici siyasət idarəsi müttəfiq dövlətlərlə yazışmalarında bütün vasitələrlə xarici orduların İrandan çıxarılması mövzusundan yayınmağa çalışırdı. Bu məsələ ilə bağlı Britaniyanın Moskvadakı səfiri Arçibald Kerrin 1945-ci il 10 avqust tarixli məktubunda irəli sürülən xarici orduların İrandan çıxarılmasının zəruriliyi haqqında fikirlərinə cavab olaraq, V.Molotov yazırdı ki, avqust ayının 9-da İrandakı Sovet səfiri müttəfiq orduların Tehran-

---

[119] Bruce R.Kuniholm. The Origins of the Cold War in the Near East: Great Power Conflict and Diplomacy in Iran, Turkey, and Greece. Princeton. 1980, p.271

[120] S.Kavtaradze. Sovet ordularının İrandan çıxarılması məsələsinə dair. 08.08.1945.// RF XSA, f.0431, s.1, q.8, i.50, v.12

[121] Yenə orada, v.13

dan çıxarılması ilə bağlı Berlin konfransının qərarı barədə şah hökumətinə məlumat vermişdir. Orduların çıxarılmasının təfsilatına gəldikdə, Molotov bu barədə yaxın vaxtlarda Sovet hərbi komandanlığına göstəriş veriləcəyini bildirirdi.[122]

Azərbaycanda hadisələrin gərginləşməsi fonunda İrandan orduların çıxarılması ilə bağlı müttəfiqlərin təzyiqləri artdığından, vəziyyətdən çıxış yolu kimi S.Kavtaradze təklif edirdi ki, orduların İrandan çıxarılmasını yubatmaq üçün 1942-ci il İngiltərə-Sovet-İran müqaviləsinin 5-ci maddəsinə istinad etmək lazımdır. O, belə hesab edirdi ki, həmin maddəyə görə, Almaniya və Yaponiya ilə sülh müqaviləsi imzalanana qədər Sovet orduları İranda qala bilərdi. S. Kavtaradze öz təkliflərini belə yekunlaşdırırdı:"Bütün hallarda biz, Yaponiyanın təslim olmasından sonrakı 6 ay müddətində öz ordularımızın İranda qalmasında təkid etməliyik".[123] Bu müddətdə Sovet İttifaqı 1945-ci ilin iyun və iyul aylarında Moskvada qəbul edilmiş partiya və hökumət qərarlarının Cənubi Azərbaycanda həyata keçirilməsini sürətləndirməli idi. M.C.Bağırovun Təbrizdəki rəhbər işçilərə teleqramında "hər saatın qiymətli olmasını" xatırlatması, məhz, bununla bağlı idi. Hadisələrin inkişafı aydın şəkildə göstərirdi ki, 1945-ci ilin yayında müttəfiqlər arasında münasibətlərin gərginləşməsi bilavasitə İran, ilk növbədə isə, Azərbaycan məsələsi ilə bağlı idi. Avropada müharibə başa çatan kimi müttəfiqlərarası münasibətlərdə Azərbaycan böhranının yaranması soyuq müharibənin başlanması və dərinləşməsini şərtləndirən əsas amillərdən birinə çevrildi.[124] Şəxsən, ABŞ prezidenti Trumənə görə, Azərbaycan böhranı Moskvanın qonşu ölkələrə, o cümlədən, İrana münasibətdə təcavüzkar niyyətlərinin açıq bir göstəricisi idi. Trumən Stalinin Azərbaycan və Şərqi Avropada hərəkətlərini təhlil edərək, belə

---

[122] V.Molotovun Arçibald Kerrə məktubu. 17.08.1945.// RF XSA, f.0431, s.1, q.8, i.50, v.13

[123] Sovet ordularının İrandan çıxarılması məsələsinə dair S.Kavtaradzenin V.Molotova təklifləri. 17.08.1945.// RF XSA, f.0431, s.1, q.8, i.50, v.16

[124] Fawcett Louise L'Estrange. Iran and the Cold War: the Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992. p.177

qənaətə gəlirdi ki, beynəlxalq öhdəliklərin yerinə yetirilməsində artıq, Kremlə etibar etmək olmaz.[125]

Məhz, belə bir böhranlı şəraitdə Sovet rəhbərliyi Cənubi Azərbaycanla bağlı niyyətlərini həyata keçirmək üçün İrana yönəlmiş siyasətinə intensiv xarakter verdi. Tehrandakı Sovet səfirliyinin müşaviri Əhəd Yaqubov SSRİ Xarici İşlər Xalq Komissarlığının təlimatı ilə böhranlı avqust günlərində Cənubi Azərbaycandakı prosesə nəzarət etmək üçün Təbrizə ezam edildi. Vəziyyətin ciddi xarakter aldığını hiss edən İran hökuməti Moskvadakı səfiri Məcid Ahiyə təlimat verdi ki, münasibətləri normallaşdırmaq üçün Sovet İttifaqının istəklərini öyrənsin. Bu məqsədlə o, avqust ayının 30-da SSRİ Xarici İşlər Xalq Komissarının müavini V.Dekanozovla görüşdü. İlk növbədə, Ahi xahiş etdi ki, sabitliyi təmin etmək üçün ölkənin Şimal rayonlarına əlavə ordu qüvvələri göndərilməsinə icazə verilsin. V. Dekanozov bu məsələni İrandakı Sovet ordularının komandanlığı və Tehrandakı Sovet səfiri ilə müzakirə etməyi tövsiyə etdi. Sonra səfir iki ölkənin münasibətlərini yaxşılaşdırmaq üçün İranın nə edə biləcəyi haqqında V. Dekanozovdan məsləhət istədi. Dekanozov neft konssesiyaları ilə bağlı SSRİ-nin əvvəlki tələblərini təkrar etdi. M. Ahi "neft konsessiyalarını qadağan edən qanun buna imkan vermir" dedikdə, Dekanozov qanunları insanlar yaradır cavabını verdi. O, əlavə etdi ki, "digər dövlətlərin analoji maraqlarının təmin edilməsinə qanun formasında maneələr törədilmədiyi halda, bu və ya digər qanunların mövcudluğu Sovet İttifaqının qanuni maraqlarının təmin edilməsinə manə olmamalıdır". M.Ahi eyham vurdu ki, Sovet İttifaqı öz tələblərindən "konsessiya" ifadəsini çıxarsın, konsessiya adı altında nəyi istəyirsə, biz onu Sovetlərə verək. Lakin V.Dekanozov bu mövzuda danışıqlar aparmağa səlahiyyətli olmadığını bildirdi.[126] II Dünya müharibəsinin başa çatması astanasında bu

---

[125] Bax: Mohammad Mosaddeg and the 1953 Coup in Iran. Ed. By M.J.Gasiorowski and M.Byrne. New York, 2004, p.205

[126] V.Dekanozovun gündəliyindən. İran səfiri Məcid Ahinin qəbul edilməsi. 30.08.1945.// RF XSA, f.094, s.31, q.351a, i.6, v.30-32

sonuncu müzakirə oldu. Cənubi Azərbaycanda gündən-günə kəskinləşən hadisələrin və Sovet İttifaqının neft tələblərinin təsiri altında İran çarəsiz bir vəziyyətə düşmüşdü.

1945-ci ilin sentyabr ayının 2-də Yaponiya təslim aktını imzaladı. İkinci Dünya müharibəsi başa çatdı. Bundan bir gün sonra, sentyabr ayının 3-də Cənubi Azərbaycanın, demək olar ki, bütün şəhərlərində Azərbaycan Demokrat Firqəsinin yaradılması, onun məqsəd və vəzifələri haqqında müraciət yayıldı. Bununla da, Cənubi Azərbaycanda 1944-cü ilin yazından aktivləşmiş Sovet siyasətinə əməli xarakter verildi və Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığı soyuq müharibənin ilk hadisəsi sayılan "Təbriz epopeyasında" fəal rol oynamağa başladı.

VIII FƏSİL

CƏNUBİ AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİ MOSKVA VƏ BAKININ SİYASƏTİNDƏ

§ 1. Azərbaycan Xalq Konqresini və muxtariyyət ideyasının real prosesə çevrilməsi

Noyabr ayının 12-dən etibarən başlanan hadisələrin təsiri altında Tehran dərin təlaş içərisində, Təbriz isə Xalq Konqresinin açılışı astanasında idi. Noyabrın 19-dan 20-nə keçən gecə Bakı və Təbriz "üçlükləri" sabah çağrılacaq Azərbaycan Xalq Konqresinin gündəliyini müzakirə etdilər. Qərara alındı ki, Konqresdə seçiləcək Milli Komitəyə Hacı Mirzə Əli Şəbüstəri başçılıq etsin, Rəfiyi və Qiyami isə onun müavinləri olsunlar.[1] Noyabrın 20-də səhər saat 10-da Təbrizin "Şir-Xurşid" teatrının binasında Azərbaycan Xalq Konqresi işə başladı. Bütövlükdə 700-ə yaxın nümayəndə seçilsə də, havaların yağışlı, yolların çətin olması ucbatından konqresin işinə 646 nümayəndə gəlib çıxmışdı. Dağ aşırımını qar basdığından Ərdəbil və Sarab nümayəndələri Xalq Konqresinin açılışına yetişə bilməmişdilər.[2] Azərbaycan xalqının bütün təbəqələrinin təmsil olunduğu

---

[1] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.381

[2] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 21.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.9; Əlavə məlumat üçün bax: Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992, p.35. Fernande Şeyid səhv olaraq Azərbaycan Xalq Konqresinin nümayəndələrinin sayının 546 nəfər olduğunu bildirir. Bax: Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, p.101. Bir sıra azərbaycanlı müəlliflər isə konqresdə 724 nümayəndənin iştirak etdiyini yazırlar. Bax: Mirqasım Çeşmazər. S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan milli hökumətinin yaranması uğrunda mübarizədə rolu.// Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1989, s. 38; Şövkət Tağıyeva, Əkrəm Rəhimli, Səməd Bayramzadə. Güney Azərbaycan. Bakı, 2000, s.219. Lakin Azərbaycan Xalq Konqresi nümayəndələrinin sayı barədə

ümumxalq məclisində 37 qonaq və mətbuat işçisi də iştirak edirdi. İclas zalı Səttar xan, Bağır xan, Şeyx Məhəmməd Xiyabani və Heydər Əmioğlunun portretləri ilə bəzədilmişdi. İlk olaraq səhnəyə Səttar xanın qardaşı, Hacı Əzim xan və Demokrat Partiyasının sədri Seyid Cəfər Pişəvəri çıxdılar. Hacı Əzim xan nümayəndələrin ən yaşlısı olduğundan və XX əsrin əvvəllərində məşrutə hərəkatının iştirakçısı kimi Azərbaycan Xalq Konqresinin birinci iclasını açdı. Açılış nitqindən sonra o, xahiş etdi ki, iclasa Pişəvəri sədrlik etsin və 17 nəfərdən ibarət Rəyasət Heyəti seçildi. Konqresin Rəyasət Heyətinə Pişəvəri, Rəfiyi, Şəbüstəri, Cavid, Biriya, Qiyami, Hacə Əzim xan, Said Divan, Şeyx Musa Keyvani, Cövdət, Camal xan Teymuri, Visuq, Mir Musa Basminci, Hacı Mustafa Davudi, Dilmaqani, Mükkərəm Turabi, Ziyayi seçildilər. Firudin İbrahimi, Əhmədi Mirrəhim Vilayi, Ataş Bayat Maku konqresin katibləri oldular. Pişəvərinin və Biriyanın nitqlərindən sonra Azərbaycanın müxtəlif şəhərlərindən və İranın digər əyalətlərindən gələn çoxsaylı təbriklər elan edildi. Bir-birinin ardınca söz alan çıxışçılar Cənubi Azərbaycanın muxtariyyatının elan edilməsini zəruri hesab edirdilər. Azərbaycan ruhaniləri adından Şeyx Musa, torpaq sahibkarları adından ADP MK sədrinin müavini Rəfiyi, həmkarlar təşkilatı adından Biriya, Azərbaycan qadınları adından Suğra Qədiri konqresi təbrik etdilər. Xalq Konqresinin birinci iclası böyük ruh yüksəkliyi ilə keçdi. Üç saatlıq fasilədən sonra Şəbüstərinin sədrliyi ilə ikinci iclas işə başladı və bu iclasda Pişəvəri "Hazırkı vəziyyət haqqında" geniş məruzə ilə çıxış etdi. İranda və Azərbaycanda mövcud vəziyyət məruzədə dərindən təhlil edildi. Birinci Dünya müharibəsindən sonra İran hakimiyyətinin siyasətini təhlil edərək o, deyirdi: "Tehran mürtəceləri Azərbaycana münasibətdə xüsusi siyasət yeridirlər. Onlar Azərbaycan ərazilərinin birliyini pozaraq, onu müxtəlif ostanlar arasında bölüşdürürlər. Onlar azərbaycanlıların doğma dilini ləğv etməyə cəhd

---

nə Şaydın, nə də azərbaycanlı müəlliflərin göstərdikləri fərqli rəqəmlə sənədlərlə təsdiq olunmur. Hadisələrin bilavasitə iştirakçısı olan H.Həsənov öz gündəliyində "700-ə qədər" iştirakçı olduğunu yazır. Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.381

göstərir, onu təqib edib məsxərəyə qoyurdular".[3] Sonra Pişəvəri öz məruzəsində Azərbaycan xalqının İran hökumətindən tələbləri üzərində dayanaraq bildirdi: "Biz Azərbaycanda milli hökumət yaradacağıq, biz xalqın normal həyat şəraiti ilə təminatına nail olacağıq. Ümumxalq müzakirəsi üçün biz öz proqramımızı elan edəcəyik, nə bəyənilsə onu həyata keçirəcəyik, nə qəbul edilməsə onu proqramımızdan çıxaracağıq". Milli muxtariyyətin mahiyyətini Pişəvəri belə şərh edirdi:"Biz Azərbaycan üçün muxtariyyətə nail olacağıq, bunu reallaşdırmaq məqsədilə silah və zorakılığa ələ atmayacağıq, elə ki, biz Azərbaycan muxtariyyətini qazandıq, onun dağılmış şəhər və kəndlərini bərpa etməyə başlayacağıq, ali təhsil müəssisələri və məktəblər açacağıq. Azərbaycan milli hökuməti kəndlilərlə torpaq sahibkarları arasında mübahisələri ədalətli şəkildə həll edəcək, biz bütün İran üçün nümunə olacağıq. Biz qan tökülməsinin əleyhinəyik, lakin bizə hücum etsələr müdafiə olunacağıq, necə ki, bu gün Azərbaycan kəndlisi ona qarşı yönəlmiş soyğunçuluğa, qarətçiliyə, zorakılığa qarşı mübarizə aparır". Pişəvərinin məruzəsinin qurtarmasına bir neçə dəqiqə qalmış iclas zalında işığı söndürdülər. Pişəvəri məruzəsini belə yekunlaşdırdı: "Qoy hamı bilsin, bizi qaranlıqda saxlasalar da, biz öz yolumuzu tapacağıq, ona görə ki, o yol ürəyimizin odu ilə işıqlanır".[4] ADP MK-nın sədrinin məruzəsi ilə Xalq Konqresinin noyabrın 20-də olan iş günü başa çatdı və iclasdan sonra Pişəvəri hadisələrin gedişini izləyən Təbrizdəki sovet nümayəndələrinin yanına gəldi. O, konqresin gedişi haqqında "Bakı üçlüyü"nə müfəssəl məlumat verdi və orada qəbul ediləcək qərar layihəsini onlarla müzakirə etdi. Sovet Azərbaycanının Təbrizdəki nümayəndələri hadisələrin həlledici məqama daxil olduğunu nəzərə alaraq bir daha Pişəvəriyə xəbərdarlıq etdilər ki, demokratik hərəkatın müəyyən olunmuş xəttini qəti şəkildə başa çatdırmaq zəruridir, ondan geri çəkilmək və ya onun zəifləməsi ölümə bərabərdir. Bu zaman artıq, proseslərə, bilavasitə nəzarət

[3] S.Yemelyanovun M.C.Bağırova xidməti məruzəsi. "İran Azərbaycanı üzrə tədbirlərin həyata keçirilməsinin gedişi haqqında". 20.12.1945.//ARPİİSSA, f.1, s.89, i.97, v.171

[4] Yenə orada, v.172

etmək üçün Azərbaycan SSR Daxili İşlər komissarı Mirteymur Yaqubov da gizli şəkildə Təbrizə gəlmişdi. "Bakı üçlüyü" ilə görüşdə o, dedi ki, Azərbaycan KP MK bütövlükdə, İran Azərbaycanında işlərin gedişindən razıdır. Yaqubov "Bakı üçlüyü"nün fəaliyyətinin konspriyasiya şəraitində saxlamağı tövsiyə etdi ki, onun ADP ilə əlaqələri gözə görsənməsin. O, qeyd etdi ki, İran Azərbaycanında heç bir halda qarışıqlıq yaranmasına, iğtişaşlara yol vermək olmaz.[5]

Noyabrın 21-də Xalq Konqresinin üçüncü iclası keçirildi. ADP MK sədrinin müavini Rəfiyinin sədrlik etdiyi iclasda 20 nəfərə qədər nümayəndə Pişəvərinin məruzəsi ətrafında çıxış etdi və məruzədə irəli sürülən ideyalar onlar tərəfindən müdafiə edildi. Konqresin birinci günü haqqında xarici mətbuatın, xüsusilə London radiosunun həqiqətə uyğun olmayan məlumatları nümayəndələri hiddətləndirmişdi. Konqresin sonuncu iclasına sədrlik edən Pişəvəri məlumat verdi ki, Tehran hökuməti Azərbaycan xalqının səsinə qulaq asmaq əvəzinə, Azərbaycan məsələsinin öz xeyrinə həllinə yardım göstərmək üçün xarici dövlətlərə müraciət etmişdir. O, dedi: "Bizim iclas təsdiq edir ki, Azərbaycan məsələsi burada, Təbrizdə həll edilməlidir. Azərbaycanın taleyi Türkiyədə və yaxud Londonda həll edilə bilməz, bizim taleyimiz yalnız Azərbaycanın özündə, ümumxalq konqresində həll edilə bilər".[6]

Xalq Konqresinin noyabrın 21-də keçən toplantısında bir sıra nümayəndələr təklif etdilər ki, qəbul edilən qərarlara hüquqi məzmun vermək üçün konqres özünü Müəssisələr Məclisi elan etsin. Onların fikrincə, Xalq Konqresi təsis qurultayından heç nə ilə fərqlənmir və orada təmsil olunan nümayəndələr 5 milyonluq Azərbaycan xalqını təmsil edirdilər. Ona görə də təklif edildi ki, Xalq Konqresini təsis qurultayı elan edib, milli muxtariyyətin əsası kimi Azərbaycan məclisinə nəzərdə tutulan seçkilərə qərar vermək olar.[7] Bu təklif nümayəndələr tərəfindən bəyənildi.

---

[5] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.383

[6] M.İbrahimov, H.Həsənov və A.Atakişiyev. "Azərbaycanın təsis məclisi". 27.11.1945.// ARPİİSSA, f.1, s.89, i.96, v.159; Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005. p.101

[7] Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History, 2011, Vol. 46(1), p. 66

Sonuncu iclasda konqresin qətnamələrini hazırlamaq üçün Pişəvəri, Şəbüstəri, Qiyami, Padeqan və İbrahimidən ibarət komissiya yaradıldı. Komissiyanın hazırladığı Xalq Konqresinin Azərbaycan Məclisi Müəssisanına çevrilməsi haqqında qərar, İran şahına, Məclisinə və hökumətinə bəyannamə, Azərbaycan millətinə və İran xalqına müraciət, Azərbaycan Milli Məclisinə seçkilər haqqında əsasnamə və digər sənədlər nümayəndələr tərəfindən qəbul edildi.[8] Konqresdə 39 nəfərdən ibarət Milli Komitə seçildi və Milli Məclis seçkiləri başa çatıb, Azərbaycan hökuməti yaradılana qədər qərarların icrası Komitəyə tapşırıldı. Milli Komitəyə Pişəvəri, Rəfiyi, Qiyami, Şəbüstəri, Cavid, Biriya, İlhami və digər tanınmış xadimlər daxil edildi.[9] Noyabr ayının 21-də Milli Komitənin iclası keçirildi və Şəbüstəri bu müvəqqəti qurumun sədri seçildi. Rəfiyi, Biriya və Şəhər İdarəsinin rəisi İlhamı isə sədrin müavinləri olmaqla Milli Komitənin Rəyasət Heyətində təmsil edildilər. Milli Komitə Azərbaycan məclisinə seçkilərin keçirilməsi haqqında qərar qəbul etdi və Zeynalabdin Qiyami başda olmaqla 19 nəfərdən ibarət seçki komissiyasının tərkibini təsdiq etdi. Azərbaycan məclisinə seçkilərin keçirilməsində bir sıra dəyişikliklər edildi. Yeni qəbul edilmiş əsasnaməyə görə, İran məclisinə keçirilən seçkilərdən fərqli olaraq Azərbaycan məclisinə keçirilən seçkilərdə seçki dairələrinin sayı artırıldı və ayrı-ayrı şəhərlərdə müstəqil seçki dairələri yaradıldı. Bundan əlavə, seçkilərin keçirilmə müddəti azaldılıb 5 günə endirildi və ilk dəfə olaraq Azərbaycan qadınları seçki hüququ əldə etdilər. Əsasnaməyə görə 20 yaşına çatmış, Azərbaycan ərazisində yaşayan bütün vətəndaşlar seçkilərdə iştirak etmək hüququna malik idi. 27 yaşından 80 yaşına qədər türk dilində danışmağı və yazmağı bacaran bütün vətəndaşların seçilmək hüququ var idi. Bütövlükdə, Azərbaycan Milli Məclisinin müstəqim, gizli və proporsional yolla seçilmiş 100 nəfərdən ibarət olması nəzərdə tutulurdu.[10]

---

[8] M.C.Bağırov və İ.Maslennıkovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 23.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.49

[9] İ.Maslennıkovun M.C.Bağırova məlumat. 23.11.1945.// ARPİİSSA, f.1, s.89, i.101, v.148; Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.32

[10] SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevın ÜİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.//

Azərbaycan Xalq Konqresi başa çatdıqdan az sonra orada qəbul olunmuş qərar və qətnamələr, bəyanat və müraciətlər mətbuatda dərc edildi. Pişəvərinin məruzəsi üzrə konqres "Hazırkı vəziyyət haqqında" 14 bənddən ibarət qətnamə qəbul etmişdi.[11] Orada göstərilirdi: Azərbaycan xalqı vahid millət kimi çıxış edərək, öz gücü ilə öz tarixi hüquqlarını əldə etmək istəyir və onun əsl məqsədlərini düzgün başa düşmək istəməyənlərə bildirir ki, bu xalq öz taleyinin sahibi olacaq, onun İrandan ayrılmaq fikri yoxdur, habelə İranın digər xalqları ilə qardaşlıq əlaqələrinin saxlanmasını özünün borcu hesab edir. Qətnamədə qeyd edilirdi ki, Azərbaycan Xalq Konqresi Azərbaycanın İrandan ayrılıb guya hansısa bir dövlətə birləşməsi haqqında yayılan böhtanları qəti şəkildə rədd edir. İran konstitusiyasının əsas prinsiplərinə sədaqətli olmaqla yanaşı qətnamədə Azərbaycan xalqının daxili işlərini idarə etmək məqsədilə milli muxtariyyət qazanacağı, əyalət əncüməninin hüquqlarını genişləndirib onu Milli Məclisə çevirəcəyi, İranın ərazi bütövlüyünü və müstəqilliyini heç bir halda pozmadan öz milli hökumətini yaradacağı bildirilirdi. Orada yazılırdı ki, siyasi, iqtisadi, maliyyə və mədəni muxtariyyət olmadan milli muxtariyyət ola bilməz. Ona görə də milli hökumətin yaradılması zəruri hesab edilir və məmurlardan tələb edilirdi ki, Müəssislər Məclisinin seçdiyi Milli Komitənin qərar və göstərişlərinə əməl etsin. Qətnamədə Milli Komitənin qərarlarına tabe olmaq istəməyən məmurların dövlət orqanlarından uzaqlaşdırılması məqsədəuyğun hesab edilirdi. Müəssislər Məclisi Milli Komitəyə tapşırırdı ki, bütün dövlət idarələrində və məktəblərdə türk dilinin işlədilməsini təmin etsin. Sənəddə bu tədbirlərin həyata keçirilməsinə müqavimət göstərənlər Azərbaycan xalqının düşməni və satqını hesab edilirdilər. Müəssislər Məclisi polis, jandarm və ordu hissələrini, onların zabit və şəxsi heyətini buraxmaq istəmirdi, lakin bu orqanlar Azərbaycan muxtariyyətinə qarşı durmaq fikrinə düş-

---

RDSSTA, f.17. s.128, i.93, v.11; Elections in Azerbaijan.1945. // National Archives (United Kingdom), Public Records Office, FO 371/52663

[11] Bax: Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992. p.35

səydilər, Milli Komitəyə səlahiyyət verilirdi ki, onların rəhbərləri haqqında ciddi tədbirlər görsün.[12]

Azərbaycan Xalq Konqresinin mühüm sənədlərindən Məhəmməd Reza şaha, İran məclisinin sədri Məhəmməd Sadıq Təba-Təbayiyə, Baş nazir İbrahim Həkimiyə ünvanlanmış Bəyannamə idi. Sənədin başlıca qayəsi İran dövləti daxilində Azərbaycana milli muxtariyyət verilməsindən ibarət idi.[13] Bu sənədlə bağlı noyabrın 22-də Bakıdan M.Yaqubova teleqram gəlmişdi ki, Bəyannamə şah, məclisin sədri və hökumət başçısı ilə yanaşı beş xarici dövlətin İrandakı nümayəndiliklərinə də verilsin. Stalinin göstərişinə əsasən Bəyannamə elə həmin gün təcili olaraq Təbrizdəki Amerika, İngiltərə, SSRİ konsulluqlarına və digər diplomatik idarələrə çatdırılmışdı.[14] Sənədi alanda ingilis konsulu soruşmuşdu ki, sizin əncümən nəyinizə lazımdır, siz İrandan ayrılmaq istəmirsinizmi? Milli Komitənin üzvləri onların belə bir fikrinin olmadığını bildirmişdilər. Bununla belə, konsul könülsüz də olsa bəyannaməni qəbul etmiş və bildirmişdi ki, baş vermiş hadisələrlə bağlı onun sənədi Tehrandakı səfirliyə göndərmək imkanı yoxdur. lakin əgər sənədi qəbul edibsə, onu təyinatı üzrə göndərəcəkdir.[15] Şəhərdəki Amerika konsulu isə bütün baş verənlərin İran konstitusiyasına uyğun olub-olmaması ilə maraqlanmış, Xalq Konqresində ADP üzvü olmayan adamların iştirak edib-etmədiyini soruşmuşdu. Ona bildirilmişdi ki, konqresdə əhalinin istər firqə üzvü olan və istərsə də olmayan bütün təbəqələrinin nümayəndələri iştirak etmişdir.[16] Lakin noyabrın 22-dən 23-nə keçən gecə saat 4-də general Atakişiyev təcili olaraq M.İbrahimov və H.Həsənovu yuxudan oyadıb, onlara bildirdi ki, Bakıdan zəng edib Bəyannamənin xarici dövlətlərə göndərilməsini

---

[12] Azərbaycan xalqının birinci milli məclisinin qərarı. 21.11.1945.// ARPİSSA, f.1, s.89, i.90, v.111-113

[13] C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.72

[14] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 24.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.59; Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War, p.33

[15] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 26.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.66

[16] Yenə orada, v.66

məqsədəuyğun hesab etmirlər. Bu gecikmiş göstəriş idi, çünki sənəd Təbrizdə olan konsulluqlara artıq təqdim edilmişdi. Bununla belə, "Bakı üçlüyü"nün üzvləri təcili olaraq mətbəəyə gedib Bəyannamənin qəzetlərə verilmiş mətnindən xarici dövlətlərin adlarını çıxardılar.[17] Azərbaycan xalqının İran hökumətindən tələblərini özündə əks etdirən Bəyannamədə deyilirdi:

1. Azərbaycan xalqı tarixi inkişafa uyğun olaraq özünün milli xüsusiyyətlərinə, dilinə, adət və ənənələrinə malikdir. Bu xüsusiyyətləri ona hüquq verir ki, İranın müstəqilliyini və ərazi bütövlüyünü pozmadan, Atlantik xartiyasının prinsipləri əsasında dünyanın bütün xalqları kimi öz müqəddəratını təyin etmək üçün azad və muxtar olsun;

2. Konqres Azərbaycan xalqının İranın digər vilayətlərindəki xalqlarla mədəni, iqtisadi və siyasi əlaqələrini nəzərə almaq ilə bərabər, bu xalqın indiki İran dövlətinin təsisi haqqında göstərdiyi fədakarlıqların (vaqiən indiki İran dövləti azərbaycanlılar vasitəsi ilə təsis olunmuşdur) nəzərə alınmadığına rəğmən, milli muxtariyyətə olan qanuni haqqını həyata keçirərkən heç bir halda separatizmə və İranın ərazi bütövlüyünün pozulmasına can atmayacaqdır;

3.Azərbaycan xalqı İran konstitusiyasında təsbit olunmuş demokratik quruluşun qəti tərəfdarıdır. İranın bütün əyalət və vilayətlərində olduğu kimi Azərbaycan milləti də öz nümayəndələrini İran məclisinə göndərəcəkdir və adilanə maliyyət verməkdə iştirak edəcəkdir;

4. Azərbaycan xalqı rəsmən bəyan edir ki, bütün dünyanın qabaqcıl millətləri kimi (İranın tamamiyyət və istiqlalını gözləməklə) özünün daxili işlərini idarə etməkdə özü milli hökumət yaramağa haqlıdır və o bacarıb İranın istiqlal və tamamiyyətini gözləməklə Azərbaycanı demokratiya və hakimiyyəti milli üsul ilə idarə edə bilər;

5. Azərbaycan xalqı azadlıq və demokratiya yolunda böyük zəhmətlər çəkib, çoxlu qurbanlar verdiyinə görə, öz milli hökumətini də həqiqi demokratik əsasda qurmaq arzusundadır. Buna görə konqres bəyəndiyi əsasnaməyə uyğun öz Milli Məclisini seçmək, Azərbaycan

---

[17] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.384; M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 24.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.59

milli hökumətini həmin məclisə seçilmiş vəkillərdən təşkil etmək istəyir ki, hökumət məclis qarşısında cavabdeh olsun;

6. Azərbaycan xalqının öz milli ana dili ilə əlaqəsi vardır. Özgə dilinin zorla qəbul etdirilməsi onu tərəqqi və təməddün karvanından dala salmış və onun milli mədəniyyət və maarifin yolunu bağlamışdır. Bu tarixi ədalətsizliyi aradan qaldırmaq üçün Xalq Konqresi Milli Komitəyə tapşırıq vermişdir ki, bütün dövlət idarələrində yaxın vaxtlarda Azərbaycan dilini tətbiq etsin, bütün mədrəsələrdə (dövləti və milli) onun tədrisinə əməl etsin;

7. Yüz əlli min nəfərin imzası və yeddi yüz nəfər nümayəndənin iştirakı ilə təşkil tapan Milli konqresi Azərbaycan xalqının iradəsi və tələbi ilə özünü Müəssislər Məclisi elan edib və Azərbaycanın daxili işlərini idarə etmək üçün 39 nəfərdən ibarət Milli Heyət seçmişdir. Bu heyətə hüquq verilmişdir ki, xalqın milli tələblərini həyata keçirmək üçün səlahiyyətli dairələr ilə danışıqlar aparsın və eyni zamanda, Azərbaycan Milli Məclisinə, həmçinin Məclisi Şurayi milliyə seçkiləri keçirsinlər.[18] Bütün bunlarla yanaşı, Bəyannamədə İran dövlətinin və dünyanın demokratik dövlətlərinin nəzərinə çatdırılırdı ki, "yuxarıdakı tələblərin yerinə yetirilməsinin gedişində müstəsna olaraq təbliğat və təşkilati metodlardan istifadə ediləcək, qardaş qanının tökülməsinə və daxili zorakılığa yol verməyəcəkdir. Əgər mərkəzi hökumət Azərbaycan xalqının qanuni hüquqlarına qarşı silah tətbiq etməyə cəhd göstərsə, onda o bütün vasitələrlə öz haqlarını qorumaq məcburiyyətində qalacaq, öz milli muxtariyyəti uğrunda mübarizəsini sonuncu azərbaycanlı sağ qalana qədər davam etdirəcəkdir". Orada deyilirdi: "Biz bütün dünyanın diqqətinə çatdırırıq: Yer kürəsində bir millət mövcuddur və o öz hüququnu bütün

---

[18] İran Azərbaycanı Xalq Konqresinin Bəyannaməsi. 21.11.1945.// RFDA, f.5451, s.72, i.861, v.38-39; "Azərbaycan", 1945, 23 noyabr; Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967, pp.64-65; Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, p.102; Professor Abrahamian və professor Svietoxovski öz əsərlərində Bəyannamənin 8 bənddən ibarət mətnini verirlər. Bu fərqlilik sənədin 3-cü bəndinin iki ayrı-ayrı bəndlər kimi verilməsi nəticəsində yaranmışdır. Bax: Ervand Abrahamian. Communizm and Communalism in Iran: The Tudah and the Firqah-i Dimukrat.// International Journal of Middle East Studies, October 1970, 1(4), p. 309; Tadeusz Swietochowski. Russia and Azerbaijan: A Borderland in Transition. Columbia University Press, New York, 1995, pp.144-145

vasitələrlə qorumağa qəti qərar vermişdir. Asiya qitəsinin bir guşəsində bu millət öz azadlığı naminə demokratiya bayrağını qaldırmışdır".[19]

Noyabr ayının 23-də axşam Mirteymur Yaqubov konqresin qəbul etdiyi sənədləri və onların tərcüməsini də götürüb Bakıya yola düşdü. "Bakı üçlüyü"nün üzvləri ondan xahiş etdilər ki, Azərbaycan KP MK fədai dəstələri üçün silah göndərilməsi işini sürətləndirsin və Təbrizlə ticarət əlaqələrini genişləndirmək üçün Tehrandakı sovet ticarət müvəkkilinə müvafiq göstərişlər verilsin. Onlar xahiş edirdilər ki, İran Azərbaycanında milli-azadlıq hərəkatının hansı istiqamətdə inkişafı üçün Bakıdan dəqiq təlimatlar verilsin, çünki dekabr ayının 3-də Azərbaycan Milli Məclisinə seçkilər başa çatmalı idi və "Bakı üçlüyü"nün fikrincə dekabr ayının 5-7-si arasında məclis Təbrizdə toplanıb Azərbaycanın muxtariyyətini elan etməli və əyalətin idarəçiliyini öz əlinə almaq üçün dövlət idarəçilik orqanlarını yaratmalı idi. Əks təqdirdə, onlar belə hesab edirdi ki, "bütün bu tədbirlər "uşaq oyunu" təsiri bağışlayacaqdır".[20]

M.Yaqubov Bakıya gələn kimi Bəyannamə və Xalq Konqresinin digər sənədləri təcili olaraq rus dilinə tərcümə edilib Stalin, Molotov, Beriya və Malenkova göndərildi. Ümumilikdə, konqres başlayandan bəri Bağırov və Maslennikov mütəmadi olaraq Kremli və XİXK-nı İran Azərbaycanında cərayan edən hadisələrin gedişi ilə məlumatlandırır, bəzən gündə bir neçə dəfə sovet rəhbərliyinə teleqramlar göndərirdilər.[21] Bu məsələlərə toxunan Amerika tarixçisi Vladislav Zubok yazır: "Sovet Azərbaycanı respublikasının birinci katibi Mir Cəfər Bağırov dəfələrlə Stalini sovet və İran azərbaycanlılarının "birləşdirilməsi" üçün hərbi şəraitdən və sovet ordusunun İranda olmasından istifadə etməyə çağırmışdı".[22] Bakıdan və Təbrizdən gəlmiş

---

[19] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı. 25.11.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.101-102

[20] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.385

[21] Вах: Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.33

[22] Vladislav M.Zubok. A Failed Empire The Soviet Union in the Cold War from Stalin to Gorbachov. The University of North Carolina Press. 2007, p.41; Владислав Зубок. Неудавшаяся империя: Советский Союз в холодной войне от Сталина до Горбачова. Москва, 2011, с.72

materiallarla tanış olduqdan sonra SSRİ Xarici İşlər Xalq Komissarlığının idarə rəisi Mixail Silin İrandakı sovet səfirini əvəz edən Əhəd Yaqubova göstəriş verdi ki, Azərbaycan Xalq Konqresinin Bəyannaməsi və digər materialları hələlik Tehran mətbuatında çap edilməsin.[23] Bunun ardınca Bakıdan M.İbrahimov və H.Həsənova teleqram gəldi ki, şaha ünvanlanan Bəyannamə çox sərt tonda yazılıb və onu dəyişmək lazımdır, lakin gec idi və Bəyannamə şaha, habelə digər hakimiyyət orqanlarına artıq göndərilmişdi. Eyni zamanda, teleqramda deyilirdi ki, Milli Komitə hələlik fəaliyyətə başlamamalıdır. Bu isə öz-özlüyündə məclisə elan olunmuş seçkiləri dayandırmaq demək idi. Hadisələrin belə xarakter alması ADP-nin dağılmasına və geniş vüsət almış hərəkatın iflasına gətirib çıxara bilərdi. Ona görə, M.Ibrahimov sovet ordusunun Təbrizdəki korpusunun qərargahına gəlib oradakı hərbi rabitə xətti ilə Bağırovla əlaqə saxlayıb İran Azərbaycanında yaranmış vəziyyət haqqında məlumat verdi. O, qeyd etdi ki, Cənubi Azərbaycan Milli Məclisinə artıq elan olunmuş seçkiləri heç bir halda dayandırmaq olmaz.[24] Bağırov onunla razılaşdı və Stalinlə əlaqəyə girib Bəyannamənin Tehran qəzetlərində nəşrinə icazə aldı. Yalnız bundan sonra Ə.Yaqubova Moskvadan təlimat verildi ki, Bəyannamənin tam mətni Tehran qəzetlərində dərc edilsin.

Azərbaycan Xalq Konqresi başa çatdıqdan sonra Təbrizdə gərgin bir vəziyyət yaranmışdı. Noyabr ayının 21-də Milli Heyətin seçilməsi və işə başlaması ilə əyalətdə ikihakimiyyətlilik yaranmışdı. Hətta, 21 Azər hərəkatının iştirakçısı və tədqiqatçısı Mirqasım Çeşmazər 1991-ci ildə dərc edilmiş məqaləsində Milli Heyətin "müvəqqəti inqilabi hökumət adlandırmağın" mümkünlüyünü irəli sürmüşdü.[25] Milli Heyət təsis edildikdən sonra Təbrizdə böhranlı bir vəziyyət yaranmışdı, heç kim sabah nə baş verəcəyini bilmirdi. Səttar xanın qardaşı Hacı Əzim xanın təşəbbüsü ilə şəhərin adlı-sanlı adamları noyabr ayının

---

[23] M.Silinin Ə.Yaqubova təlimatı. 24.11.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.79

[24] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.386

[25] Bax: Mirqasım Çeşmazər. S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan milli hökumətinin yaranması uğrunda mübarizədə rolu.// Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1989, s. 38

25-də tanınmış din xadimi Siqqət-ül İslamın evində toplaşıb Azərbaycandakı vəziyyəti müzakirə etdilər. ADP rəhbərləri və Pişəvəri toplantıya dəvət edilsə də o, bu dəvətdən imtina etdi və belə qərara gəldilər ki, partiyanın üç nəfər nümayəndəsi müzakirələrə qatılsın. Onlara təlimat verilmişdi ki, şəhərin tanınmış adamlarının nə istədiklərin öyrənsinlər, lakin prinsipial məsələlərin həllinə vəkalətlərinin olmadığını da məclis əhlinə bildirsinlər. Firqə adından görüşdə Şəbüstəri, Rəfiyi, doktor Cavid və Biriya iştirak etdilər. Görüşü açan Siqqət-ül İslam toplantıda iştirak edənlərin adından bildirdi ki, onlar Azərbaycan məsələsinin dinc yolla həllini istəyirlər. O, təklif etdi ki, Azərbaycanın tanınmış adamları və ADP nümayəndələrindən ibarət bir heyəti Tehrana göndərmək lazımdır. Lakin bundan öncə Siqqət-ül İslam fədai dəstələrinin tərkisilah edilməsini vacib sayırdı. ADP-nin görüşdə iştirak edən nümayəndələri bildirdilər ki, onlar da Azərbaycan məsələsinin dinc yolla həll edilməsinə tərəfdardırlar, lakin istəyirlər İran hökuməti ilə danışıqlar Tehranda deyil, Təbrizdə aparılsın. Fədai dəstələrinin tərkisilah edilməsinə gəldikdə isə, onlar bunu etmək imkanına malik olmadıqların bildirdilər və dedilər ki, Azərbaycan üçün muxtariyyət alınana qədər fədailər çətin ki, silahı yerə qoysunlar.[26] Bu görüşlə bağlı M.C.Bağırov və İ.Maslennikov Stalinə yazırdılar ki, toplantıda iştirak edən İran diviziyasının komandiri Təbrizin tanınmış adamlarını silahlanmağa və demokratlar hücum edəcəyi təqdirdə onların qarşısını almağa hazır olmaq lazımdır. Deraxşani deyib ki, "əgər ruslar xalqı silahlandırır və demokrat partiyasına kömək edirsə, onlarla mübarizədə bizə də İngiltərə və Amerika kömək edəcəkdir".[27]

Cənubi Azərbaycandakı vəziyyət ciddi xarakter aldıqdan sonra Pişəvəri və digər siyasi xadimlər üzərində nəzarət sovet rəhbərliyini xüsusi şəkildə qayğılandırırdı. Müəyyən məsələlərə münasibətdə onun şəxsi mövqeyinin olması və bir sıra məsələlərdə israr etməsi sovet nümayəndələri tərəfindən yaxşı qarşılanmırdı. Sovet xüsusi xidmət orqanlarında məlumat var idi ki,

---

[26] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.387-388

[27] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 29.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.72-74

Pişəvəri İran daxilində Azərbaycanın muxtariyyət almasını perspektivsiz hesab edir. O, daha çox Sovet İttifaqının himayəsi altında Monqolustan formasında Azərbaycan Xalq Demokratik Respublikası adı ilə müstəqil bir dövlətin yaradılması, sonrakı mərhələdə onun Sovet Azərbaycanı ilə birləşməsini məqbul hesab edirdi. Əslində, Mir Cəfər Bağırov da hadisələrin gedişini belə təsəvvür edir və prosesləri bu məcraya yönəltməyə çalışırdı. Bu məsələləri araşdıran tarixçi Fernando Şayd haqlı olaraq yazır ki, "Bağırovun İranda başlıca marağı neft deyildi, sovet idarəçiliyi altında Azərbaycanı birləşdirmək idi".[28] London İqtisadi və Siyasi Elmlər Məktəbinin Soyuq Müharibə Araşdırmaları Mərkəzinin direktoru Odd Arne Vestad bu fikri davam etdirərək belə qənaətə gəlir ki, "Azərbaycan millətçisi Bağırov ola bilsin ki, Sovet və İran Azərbaycanının birləşməsinə ümid bəsləyirdi, lakin Stalin görünür ki, sovet təhdidi vasitəsi ilə İranın parçalanmasına dəstək verməklə, ölkə burjuaziyasına təzyiq göstərib onu Moskva ilə neft sövdələşməsinə çəkmək, habelə İranı sovet təsir dairəsinə salmaq niyyətində idi".[29] Professor Svietoxovski belə hesab edir ki, bir sıra Qərb müəllifləri və bəzi xatirə ədəbiyyatında Cənubi Azərbaycan məsələsində Mir Cəfər Bağırovun rolu haqqında intriqa xarakterli mübahisəli mülahizələr irəli sürürlər. Bu müəlliflərin fikrincə, Moskvanın İrandakı məqsədləri çərçivəsində etimadlı satrap kimi Bağırov qeyri-məhdud fəaliyyət imkanlarına malik idi və muxtariyyət hərəkatının başlanmasında həlledici rol oynayırdı.[30] Svietoxovski haqlı olaraq yazır: "Şübhəsiz, Bağırov sərhədin cənubunda öz şəxsi nüfuzundan istifadə edirdi, lakin Moskvanın müəyyən etdiyi hüdudlarda".[31]

---

[28] Fernande Raine Scheid. Stalin's Reluctant bid for Iranian Azerbaijan, 1941-1946: A View from the Azerbaijani. Archives // Paper for the Conference. "Stalin and the Cold War. 1945-1953". September, 1999, p.9

[29] Odd Arne Westad. The Global Cold War. Third World Interventions and the Making of Our Times. Cambridge University Press, 2007, p.61

[30] Bax: Touraj Atabaki. Azerbaijan: Ethnicity and Autonomy in Twentieth-Century Iran. London: British Academic Press, 1993, p.142-143; Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992, p.97; Xaterat doctor Nüsrətulla Cahanşahlu Afşar. Sərgozəşt. Ma va biganegan. Düsseldorf, 1973 s.306-308. 2001-ci ildə Berlində bu bu kitabın yeni nəşri çıxmışdır. Bax: Xaterat doctor Nüsrətulla Cahanşahlu Afşar. Sərgozəşt. Ma va biganegan. Berlin, 2001,773 s.

[31] Tadeusz Swietochowski. Russia and Azerbaijan: A Borderland in Transition. Columbia University Press, New York, 1995, p.153

Pişəvəri üzərində nəzarəti gücləndirmək üçün onun Bakıya oxumağa gətirilmiş oğlundan bir vasitə kimi istifadə olunurdu. Bu məqsədlə M.C.Bağırov Azərbaycan SSR Xalq Komissarları soveti sədrinin müavini Əzizağa Əzizbəyova, Daxili İşlər Xalq komissarı Mirteymur Yaqubova və Təhlükəsizlik komissarı Stepan Yemelyanova müvafiq tapşırıqlar vermişdi. Daryuş Cavadzadə azyaşlı olduğundan belə qərara gəlinmişdi ki, o, Bakıda yaşayan əmisi, tibb xidməti kapitanı Mir Xəlil Cavadzadənin ailəsində qalsın. Bu məqsədlə ona yeni mənzil verilmiş və bu 3 otaqlı mənzildə mebel ilə təmin edilmiş bir otaq xüsusi olaraq Daryuş Cavadzadə üçün ayrılmışdı. Eyni zamanda, ona ərzaq təminatı ilə bağlı birinci dərəcəli güzəştli vəsiqə verilmiş və bu vəsiqə ilə o, yüksək vəzifəli dövlət qulluqçularının istifadə etdiyi 9 nömrəli mağazaya təhkim edilmişdi.[32]

Noyabr ayının 23-də Milli Komitənin iclasında Azərbaycan Milli Məclisinə seçkilərin noyabr ayının 27-də başlanması və onun 5 gün ərzində başa çatdırılması haqqında qərar qəbul edildi. Azərbaycan parlamentinin açılışı dekabr ayının 5-nə və ya 6-na, Məhərrəmlik təziyəsinin başlanmasından bir-iki gün əvvələ təyin edildi. Seçkilərlə bağlı sənədlər və vilayətlərə təhkim edilmiş adamlar yerlərə göndərildi. Hər yerdə dairə seçki komissiyaları formalaşdırıldı və deputatlığa namizədlərin adları elan edildi, lakin Moskvadan göstəriş gəldi ki, Azərbaycan Milli Məclisinə elan olunmuş seçkilər dayandırılsın. Bu göstəriş ADP rəhbərliyinin və Təbrizdə fəaliyyət göstərən "Bakı üçlüyü"nün sözün tam mənasında həyəcanına səbəb oldu. M.İbrahimov Bağırovla əlaqəyə girib vəziyyətdən çıxış yolu aramağı xahiş etdi. M.C.Bağırov Stalinlə əlaqəyə girib onu bu fikirdən daşındırmağa çalışdı. O, yazırdı: "Seçkilərin dayandırılması partiyanın nüfuzuna ağır zərbə olar. Onun dayandırılmasını münasib hesab etmirəm, mən onlara razılıq vermişəm, lakin xəbərdarlıq etmişəm ki, sizin göstərişiniz alınana qədər parlament işinə başlamasın".[33]

Seçkilər başlanana qədər sovet idarələrinin yazışmalarında hələ ki, partizanlar adlandırılan fədai dəstələri bir sıra mühüm uğurlar qazan-

---

[32] Bax: ARPİİSSA, f.1, s.89, i.96, v.9

[33] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məktubu. 25.11.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.78

mışdılar. Noyabrın 17-də Nəmin, 23-də Zəncan, 26-da Germi, 27-də Astara və Biləsuvar hökumət qüvvələrindən təmizlənmişdi.[34] Təbriz şəhəri bütövlükdə Demokrat Firqəsinin nəzarəti altında idi. Azərbaycanın digər şəhər və kəndlərində olan hökumət qüvvələri demək olar ki, müqavimət göstərmirdilər. Bir çoxları fədailərin qorxu xofu altında silahı ataraq qaçır, digərləri silahı ilə birlikdə təslim olur, müqavimət göstərənlər isə tərk-silah edilirdilər. M.C.Bağırov və İ.Maslennikov Stalin və digər sovet rəhbərlərinə yazırdılar: "Havaların soyuması və yağan güclü qar partizanların fəaliyyətinə təsir göstərmişdir. Onların isti paltara və pula ehtiyacları vardır. Maddi cəhətdən onlara hansı formadasa yardım etmək lazımdır"[35] Noyabr ayının 21-də Moskvaya göndərdikləri ikinci teleqramda Bağırov və Maslennikov yazırdılar: "Partizanlar jandarm postlarına xəbər göndərirlər ki, silahı yerə qoyub evlərinə dağılsınlar. Bu təcrübə bəzi yerlərdə uğur qazanır. Onlar Azərbaycandakı İran ordusunun və Tehrandan göndərilən yeni qüvvələrin hərəkət edə biləcəyi yolları bağlayıblar".[36] Noyabrın 22-də Moskvaya göndərdikləri teleqramda onlar bildirirdilər ki, "bizim sərhədçilərin məlumatlarına görə Ərdəbilin şəhridarı şəhəri qoyub Tehran istiqamətinə yollanmışdır. Ərdəbil partizanlar tərəfindən mühasirə edilmişdir və şəhər qarnizonunun zabit heyəti içərisində həyəcan başlanmışdır".[37]

Təbrizdəki Britaniya konsulu Uoll Azərbaycandakı İran ordusunun komandanı general Deraxşaniyə şikayət edirdi ki, o, Azərbaycandakı vəziyyət barədə Tehrandakı ingilis səfirliyinə vaxtında məlumat göndərə bilmir. Onun fikrincə, məhz bunun nəticəsi idi ki, London radiosu İran Azərbaycanında baş verən hadisələr haqqında doğru məlumatlar verə bilmir. Uoll Deraxşaniyə bildirdi ki, İran hökuməti Azərbaycanda silahlanmış əhaliyə qarşı real heç nə edə bilmir. O,

---

[34] Zəncan hadisələri haqqında ətraflı məlumat üçün bax: Xaterat doctor Nüsrətulla Cahanşahlu Afşar. Sərgozəşt. Ma və biganegan. Berlin, 2001, s.317-333

[35] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 21.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.10

[36] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı. 21.11.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.60-62

[37] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 22.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.12

generala məsləhət gördü ki, kömək üçün sovet konsulluğuna müraciət etsin. Bütün hadisələr sovet zonasında baş verdiyindən, onun fikrincə, ruslar qayda-qanun yaratmağa cavabdehdirlər. Deraxşani Uolla bildirdi ki, Təbrizin adlı-sanlı əsilzadələri kömək üçün ingilis konsulluğuna müraciət etmək istəyirlər. Uoll buna etiraz etmədi, lakin praktiki baxımdan kömək edə bilməyəcəyini də bildirdi.[38] Noyabr ayının 20-də Londondakı İran səfiri Seyid Həsən Tağızadə Azərbaycandakı hadisələrlə bağlı Britaniya Xarici İşlər naziri Ernest Bevin tərəfindən qəbul edilmişdi. Görüşlə bağlı keçirdiyi mətbuat konfransında Tağızadə demişdi ki, "biz öz ölkəmizdə öz ordumuzun azad hərəkət imkanına malik deyilik".[39] Azərbaycan məsələsi gündəliyə gəldikdən sonra E.Bevin İngiltərə parlamentinin icmalar palatasında çıxış edib Britaniyanın öz ordularını tədricən İrandan çıxaracağını bildirmişdi. Eyni zamanda, Bevin Azərbaycandakı hadisələrlə bağlı deputatların suallarına cavab olaraq demişdi ki, muxtariyyət almağa can atan bir siyasi qrup İranın şimalında fəaliyyətə keçmiş və silaha əl atmışdır, lakin bu rayonda sovet ordusunun olması üsyançılarla mübarizədə İran hökuməti üçün çətinliklər yaratmışdır.[40]

Azərbaycanda vəziyyət gərginləşdikdən sonra İranın Vaşinqtondakı səfiri Hüseyn Əla noyabr ayının 20-də ABŞ-ın Dövlət katibi Ceyms Birnislə görüşüb, əyalətdəki vəziyyəti müzakirə etmişdi. Görüş zamanı səfir Azərbaycandakı vəziyyəti İranda xarici orduların mövcudluğu, Qafqazla sərhədlərin açıq olması və bu sərhədlərə nəzarətin mümkün olmaması ilə izah edirdi. O, qeyd edirdi ki, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi baxımından İran məsələsi məhək daşına çevrilmişdir və İran hökuməti bu məsələdə müttəfiqlərin ciddi ölçü götürəcəyinə, ABŞ-ın SSRİ-yə təsir göstərəcəyinə ümid bəsləyir və inanmaq istəyir ki, Moskva rəhbərliyinin baş vermiş hadisələrin sona çatması arzusunda olduğunu nümayiş etdirəcəkdir. Səfirin məlumatını

---

[38] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 23.11.1945 // RDSSTA, f.558, s.11, i.99, v.51

[39] Baxtər, 1945, 21 noyabr

[40] İran, 1945, 22 noyabr

dinlədikdən sonra Birns dedi: "Nə qədər ki, İrandakı hadisələr barədə Tehrandakı Amerika səfirliyindən müvafiq məlumat alınmayıb, o, heç bir qərar qəbul edə bilməz".[41] Dövlət katibi ilə görüşdən sonra, noyabrın 28-də Hüseyn Əla Dövlət Departamentinə müraciət etdi ki, ABŞ İranın BMT Təhlükəsizlik Şurasının dəyişən üzvlüyünə İranın namizədliyini müdafiə etsin.[42] Bu müraciət Azərbaycandakı hadisələrin yaxın vaxtlarda BMT TŞ-nın müzakirəsinə çıxarılma ehtimalı ilə bağlı idi. Bir gün sonra, noyabr ayının 29-da prezident Trumenə öz etibarnaməsini təqdim edərkən səfir Hüseyn Əla məsələni daha açıq şəkildə qoydu və dedi: "Bu böhranlı məqamda, cənab prezident, mən acizanə şəkildə sizdən xahiş edirəm ki, İranın hüquqlarını qorumaqda davam edəsiniz...Yalnız sizin ölkəniz bizi xilas edə bilər. Ona görə ki, siz həmişə mənəvi idealları və prinsipləri müdafiə etmişiniz, sizin əlləriniz təmizdir".[43] Azərbaycandakı hadisələr başlandıqdan sonra Moskvadakı İran səfiri Məcid Ahi də öz xahişi ilə V.Molotov tərəfindən qəbul edilmişdi. Söhbət zamanı Molotov Ahini əmin etmişdi ki, Sovet İttifaqı İranın suveren hüquqlarına və müstəqilliyinə hörmətlə yanaşacaqdır.

Cənubi Azərbaycanda proseslərin gedişini izləyən Təbrizdəki Amerika konsulu Ebelinq general Deraxşani ilə söhbətdə bildirmişdi ki, Demokrat Firqəsinin qaldırdığı məsələlər İran konstitusiyasında yoxdur. Onun fikrincə, əgər Azərbaycan konstitusiya ilə hesablaşmayıb öz milli hüquqlarına nail olmaq istəyirsə, bunu gərək zor gücünə deyil, Tehranla danışıqlar yolu ilə əldə etsin. Konsul dedi ki, Azərbaycandakı vəziyyəti ətraflı öyrəndikdən sonra o, öz fikrini Vaşinqtona bildirəcəkdir. Noyabr ayının 24-də Tehrandakı Amerika səfirliyi İran diviziyasının rabitə xətti

---

[41] Ettelaat, 1945, 21 noyabr; Əlavə məlumat üçün bax: Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967, p.67

[42] The Ambassador in USA (Ala) to the State Departament. 28.11.1945. // Foreign Relations of the United States. Diplomatic Papers 1945. Volume VIII. The Near East and Africa. Wash., 1969. pp.462-463; И.В.Гайдук. ООН и Иранский кризис 1946 года.// «Новая и новейшая история». 2011, №5, с.72

[43] The Iranian Ambassador (Ala) Presenting his Credentials to President Trumen.29.11.1945. // Foreign Relations of the U.S. 1945. Vol.VIII, pp.464; Əlavə məlumat üçün bax: Н И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.34

vasitəsi ilə Ebelinqə təlimat vermişdi ki, Azərbaycandakı hadisələr Amerika ictimaiyyətini dərindən maraqlandırır və ona görə səfirlik təcili olaraq Təbrizdəki vəziyyət barədə məlumat tələb edir. [44]

Azərbaycan Milli Məclisinə seçkilər başlayan gün, noyabr ayının 27-də Tehrandakı Amerika hərbi attaşesi mayor Qarver təyyarə ilə Təbrizə, onun köməkçisi kapitan Qaqarin isə avtomobillə Qəzvinə gəlmişdi, bilavasitə V.Molotovun göstərişi ilə Tehrandakı sovet konsulu Kaçalov Azərbaycana gəlmək üçün onlara buraxılış vəsiqəsi vermişdi. Ebelinq və Qarver həmin gün general Qlinski ilə görüşüb ümumi məsələləri müzakirə etdilər. Eyni zamanda, ABŞ hərbi attaşesi Təbrizdə İran diviziyasının komandanı general Deraxşani və jandarm rəisi Hümayunla da görüşdü. Danışıqlar zamanı onu əsasən üç məsələ maraqlandırırdı: 1. Partizanlar silahı haradan alırlar və doğrudanmı onları ruslar silahlandırırlar; 2. Azərbaycan Demokrat Partiyası Mərkəzi Komitəsinin partizan hərəkatı ilə nə kimi əlaqəsi vardır; 3. Doğrudanmı Sovet İttifaqından göndərilmiş 10 min sovet vətəndaşı partizanlara qoşulmuşdur. Təbrizdəki İran rəsmiləri birinci məsələ ilə bağlı ona bildirdilər ki, partizanların ruslar tərəfindən silahlandırılması barədə şayiələr dolaşır, lakin bunu təsdiq edən sübut hələ ki, yoxdur. İkinci məsələ ilə bağlı "Azərbaycan" qəzetinin partizanlara rəğbətinin olduğu qeyd edildi, lakin Demokrat Firqəsi MK-nın onlarla əlaqəsini təsdiq edən faktın olmadığı bildirildi. Üçüncü məsələ ilə bağlı Deraxçani bildirdi ki, onlarda belə bir məlumat yoxdur. Amerika hərbi attaşesi maraqlanırdı ki, nə üçün Azərbaycan demokratları öz tələblərini Tehranla danışıqlar yolu ilə deyil, silahlı qarşıdurma yolu ilə həll etmək istəyirlər. Təbrizdəki güc strukturlarının rəhbərləri bu suala cavab tapa bilmədilər.[45] Stalinə göndərdiyi təcili məlumatda Bağırov amerikalıların bu məsələlərlə maraqlanmalarını, onların və ingilislərin iştirakı ilə Tehranın Azərbaycanda muxtariyyət hərəkatına və sovetlərə qarşı hansısa bir təxribat hazırlaması ilə əlaqələndirirdi.

Mayor Qarverdən az sonra onun köməkçisi kapitan Qaqarin də Qəzvindən Təbrizə gəldi. O, Təbrizdəki erməni kilsəsinin başçısı

---

[44] S.Yemelyanov. Təbrizdən Atakişiyevın teleqraf məlumatları üzrə arayış. 29.11.1945.// ARPİİSSA, f.1, s.89, i.96, v.121

[45] Amerikanın Tehrandakı səfirliyinin hərbi attaşesi mayor Qarverin Təbrizə səfəri barədə məlumat. 27.11.1945.// ARPİİSSA, f.1, s.89, i.101, v.160

yepiskop Məlik Tanqiyanla görüşüb Azərbaycandakı vəziyyət barədə ondan ətraflı məlumat aldı. Qaqarin kəndlilərin silahı haradan alması, rusların Türkiyəyə hücuma hazırlaşması və istiqamətdə hansı işlərin aparıldığı ilə maraqlanırdı. O, öyrənmək istəyirdi ki, əgər Qars, Ərdahan, Van, Sarıqamış Sovet Ermənistanına birləşdirilərsə ermənilər ora gedəcəklərmi?[46] Çünki Sovet hökumətinin xaricdə yaşayan ermənilərin SSRİ-yə köçməsinə icazə verən qərarı elan edildikdən sonra Təbrizdə də böyük hay-küy yayılmışdı.

Təbrizdəki Amerika konsulluğunun katibi M.Aprik Birləşmiş Ştatların Tehrandakı səfirliyinin əməkdaşlarının tez-tez Azərbaycana səfər etmələrini ABŞ hökumətinin oradakı vəziyyət haqqında doğru və dürüst məlumat almaq istəkləri ilə izah edirdi. Onun fikrincə, amerikalılar bu hadisələrlə bağlı iranlılara və Tehranın hər gün yaydığı şayiələrə etibar etmirlər. Aprik qeyd edirdi ki, "Azərbaycan demokratlarının tacir və mülkədarları həbs etmələri barədə Tehranda bar-bar bağırırlar, məhz, amerikalıların bura gəlmələrinin səbəbi də vəziyyəti yerində yoxlamaqla bağlıdır, lakin yerlərdə yoxlamalar zamanı aydın oldu ki, bütün bunlar şayiədir, yalandır. Yaxın vaxtlarda Tehrandakı Amerika səfirinin özünün də Təbrizə səfəri gözlənilir".[47] Görünür, noyabrın 27-nə təyin edilmiş Milli Məclis seçkilərin dayandırılması barədə Moskvanın göstərişi ABŞ və İngiltərənin Azərbaycandakı hadisələrə ciddi maraq göstərmələri ilə bağlı imiş.

§ 2.Azərbaycan Milli Məclisinə seçkilər və Təbrizdəki "Bakı üçlüyü"nün fəaliyyəti

Noyabr ayının sonuncu on günlüyünü Tehran böyük həyəcan içərisində yaşayırdı. Azərbaycandakı hadisələr İran məclisinin üzvlərini bərk qorxutmuşdu. Noyabr ayının 21-də briqada generalı Deraxşanin Təbrizdən göndərdiyi teleqram "Baxtər" qəzetində dərc edildikdən

[46] Amerikanın Tehrandakı səfirliyinin hərbi attaşesinin köməkçisi kapitan Qaqarinin Təbrizə səfəri barədə məlumat. 28.11.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.144-145

[47] Amerikanın Təbrizdəki konsulluğunun katibi M.Aprikin fəaliyyəti haqqında məlumat. 28.11.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.189-190

sonra vəziyyət daha gərgin xarakter aldı. Deraxşani yazırdı: "Əgər bu gün axşama qədər əlavə kömək gəlməsə o, Azərbaycanda qayda-qanun yaratmağa görə məsuliyyəti öz üzərindən atacaqdır".[48] Həmin günlər iclas oldu-olmadı deputatlar məclisin binasında toplanır və Azərbaycandakı vəziyyəti müzakirə edirdilər. Bir sıra deputatlar hökumətin ünvanına bəzi tənqidi fikirlər söyləməklə Azərbaycan məsələsini dinc yolla həll etməyi təklif edirdilər. İranın tanınmış siyasətçilərindən olan doktor Şəfəq öz çıxışında deyirdi ki, Azərbaycan Demokrat Firqəsini təşkil edənlərin bir neçəsini o, şəxsən tanıyır və belə hesab edir ki, onlar vətənpərvər adamlardırlar və ölkənin mənafeyinin əleyhinə çıxış etməzlər. "Lakin digərlərini mən tanımıram, bilmirəm onlar haradan peyda oldular və nə istəyirlər. Onların indi oxuduqları mahnı ölkənin maraqlarının əleyhinə yönəlmişdir".[49] Doktor Şəfəq təsdiq edirdi ki, bir sıra məsələlərlə bağlı azərbaycanlılar hökumətdən narazıdırlar, lakin onun fikrincə, Azərbaycanda olan çatışmazlıqlar ölkənin hər yerində vardır və bunlar ölkənin mənafeyinə ziyan vurulmasına gətirib çıxarmamalıdır. O, qeyd edirdi ki, Azərbaycan məsələsi Sovet-İran münasibətləri ilə sıx surətdə bağlıdır və əlavə edirdi ki, "biz Sovet Rusiyası ilə səmimi münasibətlərdə olmalıyıq, bütün ictimai, iqtisadi, mədəni münasibətlərdə tam əməkdaşlıq etməliyik. Budur, bir neçə aydır ki, İranda sovet səfiri yoxdur, bir çox məsələlər həll olunmamış qalmışdır. Ola bilsin ki, Sovet Rusiyasına Baş nazirin rəhbərliyi ilə nümayəndə heyətinin getməsinə ehtiyac vardır...Axı indi Çexoslavakiyadan Beneş, Fransadan de Qoll və digər ölkələrin nümayəndələri öz problemlərini həll etmək üçün Moskvaya gəlirlər".[50] Doktor Şəfəq San-Fransisko konfransında iştirak etmişdi və yeni dünya düzənində SSRİ-nin rolunun nə qədər artdığını yaxşı anlayırdı. O, məclisin qapalı iclasının çağırılmasını və Sovet İttifaqı ilə münasibətlərin ətraflı şəkildə müzakirə olunmasını təklif edirdi. Bütün bu təklifləri nəzərə alaraq

---

[48] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova teleqramı. 24.11.1945.// RDSSTA, f.558, s.11, i.99, v.58

[49] Əhəd Yaqubovun "Tehran mətbuatı Azərbaycandakı son hadisələr haqqında" Mahmud Əliyevə göndərdiyi arayış. 25.11.1945.// ARPİİSSA, f.1, s.89, i.93, v.6

[50] Yenə orada, v.7

Həkimi hökuməti öz anti-ingilis mövqeyi ilə tanınan Qəvam əs-Səltənə də daxil olmaqla üç nəfərlik xüsusi bir heyəti danışıqlar üçün Moskvaya göndərmək istəyirdi. Əslində, bu ideya İran diplomatları və siyasi dairələri vasitəsi ilə Tehrandakı Amerika səfirliyi tərəfindən gizli şəkildə hökumətə ötürülmüşdü. Amerika diplomatlarının fikrincə, danışıqlar uğursuzluğa düçar olacağı təqdirdə, onun məsuliyyəti SSRİ-nin üzərində qalacaqdı. [51]

Parlamentin noyabr ayının 20-də keçirilən iclasında Azərbaycandan olan məclis üzvü iri torpaq sahibkarı Fərma Fərmaian keçmiş Baş nazir Möhsün Sədr hökumətinin və ingilislərin adamı kimi tanınan Seyid Ziyaəddinin qarışdırıcı fəaliyyətini kəskin tənqid etdi. O, qeyd etdi ki, azərbaycanlılar bir sıra tələblərində haqlıdırlar və 1941-ci ilin şəhrivərindən başlayaraq İran hökumətinə rəhbərlik edənlərin heç biri Azərbaycana yetərincə diqqət yetirmir və qayğı göstərmirlər. Onun fikrincə bu siyasət indiyə qədər də davam etməkdə idi. Fərmaian dedi ki, "yalnız dünən Tehranla Təbriz arasında simsiz rabitə xətti qurulub. Təəssüf ki, indiyə qədər bu yox idi". O, bu sözləri deyəndə Seyid Ziyaəddin yerindən replika atdı ki, sovet nümayəndələri icazə vermirdi. Bu replika onu bərk əsəbiləşdirdi və Fərmaian üzünü Ziyaəddinə tutaraq dedi: "Sizin sovet nümayəndələrində nə işiniz var? Niyə siz bu işlərə müdaxilə edirsiniz? Nə üçün böhtan atırsınız, nə üçün belə şeylər danışırsınız? Siz bütün ölkəni məhv edirsiniz". Seyid Ziyaəddin "mənim dediklərim sizin üçün sərfəli deyildir" replikasını səsləndirdikdə, Fərmanian daha da hövsələdən çıxaraq dedi: "Bilmirəm kimin üçün bu sərfəli deyil, mənim üçün, yoxsa yalnız bir çamadanla əbədi olaraq köç edən (o, Seyid Ziyaəddinin uzun müddət müxtəlif ölkələrdə sürgündə yaşamasını nəzərdə tuturdu – C.H.) birisi üçün".[52] Bu qarşıdurmadan sonra o, sözünü davam etdirərək dedi ki, "hökumətin aydın və uzaqgörən siyasəti olmalıdır. Ordu ilə xalqı qorxutmaq olmaz, ordunun

---

[51] The Ambassador in Iran (Murray) to the Secretary of State. 23.11.1945. // Foreign Relations of the United States. Diplomatic Papers 1945. Volume VIII. The Near East and Africa. Wash., 1969. p.444; Н И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.34

[52] Əhəd Yaqubovun "Tehran mətbuatı Azərbaycandakı son hadisələr haqqında" Mahmud Əliyevə göndərdiyi arayış; 25.11.1945.// ARPİİSSA, f.1, s.89, i.93, v.8

öz vəzifəsi vardır. Bütün dünyada ordunun işi polis və jandarmanın funksiyasından fərqlənir. Bu əsgərlər bizim övladlarımızdır, xalqı narahat edən məsələləri həll etmək onların işi deyil. Söhbət bizim evimizdən gedirsə biz hamımız birləşməliyik, parçalanmaya yol verməməliyik". Fərma Fərmaian bununla Tehran qəzetlərinin Azərbaycandan seçilmiş deputatlara qarşı başladığı kampaniyanı nəzərdə tuturdu. Paytaxtda çıxan "Baxtər" qəzeti belə bir məlumat yaymışdı ki, guya Təbrizdən Tehrana gələn bir nəfər həbs edilmiş və onun cibindən Azərbaycan Demokrat Firqəsinin Fətəli İpəkçiana və Fərma Fərmaina məktubu tapılmışdır. Tehran mətbuatı həmin günlər Azərbaycan hadisələri barədə çoxsaylı məqalələr və məlumatlar dərc edirdi. Həmin materiallar Əhəd Yaqubov tərəfindən toplanıb noyabr ayının 25-də və sonralar daha geniş həcmdə dekabr ayının 31-də Azərbaycan SSR Xarici İşlər naziri Mahmud Əliyevə göndərildi.[53]

Deputatların tələbi ilə Baş nazir İbrahim Həkimi çıxış edib bəzi məsələlərə aydınlıq gətirdi. O, dedi ki, "son günlər 3-cü və 4-cü ostanların bəzi məntəqələrində xoşagəlməz hadisələr baş vermişdir. Vətənpərvərliklə bir araya sığmayan bu hadisələri bizim azərbaycanlı qardaşlarımızdan gözləmək olmazdı. Hökumət heç kimə icazə verməz ki, ölkənin hər hansı yerində kimsə öz tələblərini ona və məclisə ultimatum formasında göndərsin. Avantüristlər ölkənin şərəfini alçaltmağa cəhd göstərirlər. Onlar cəzalarını almalıdırlar. Hökumət məclisə arxalanaraq ölkənin təhlükəsizliyinin bərpası və qayda-qanun yaratmaq üçün zəruri addımlar atacaqdır. Azərbaycanlı qardaşlarımız həmişə öz həyatları bahasına öz ölkəsinin şərəfini müdafiə ediblər. Əlbəttə, ümidvaram ki, indiki şəraitdə də, onlar öz dost və qardaş əlini hökumət başçısı kimi mənə, öz dostlarına və qardaşlarına uzadacaqlar".[54] Noyabr

---

[53] Həmin dövrdə Azərbaycanda baş verən hadisələrə İran mətbuatının münasibəti haqqında ətraflı məlumat üçün bax: Əhəd Yaqubovun "Tehran mətbuatı Azərbaycandakı son hadisələr haqqında" (25.11.1945) və "Tehran mətbuatı İran Azərbaycanındakı hadisələr və Sovet-İran münasibətləri haqqında" (31.12.1945) Mahmud Əliyevə göndərdiyi arayışlar.// ARPİİSSA, f.1, s.89, i.93, v.1-157; Ervand Abrahamian. İran Between Two Revolutions. Princeton: Princeton University Press, 1982, pp.218-219

[54] Əhəd Yaqubovun "Tehran mətbuatı Azərbaycandakı son hadisələr haqqında" Mahmud Əliyevə göndərdiyi arayış. 25.11.1945.// ARPİİSSA, f.1, s.89, i.93, v.11; Baş nazir Hakiminin noyabr ayının 20-

ayının 24-də Xarici İşlər nazirinin müavini Homayun, noyabrın 25-də Daxili İşlər naziri Fəhimi İran məclisində Azərbaycan hadisələri barədə deputatlara məlumat vermişdilər. Hökumət dairələrində keçmiş Baş nazir Mürtəzaqulu Bayatın Azərbaycana vali təyin edilməsinə böyük əhəmiyyət verilirdi, lakin kifayət qədər təcrübəsi olan yeni vali, hətta, sovet idarələrinin etiraz etməməsinə baxmayaraq Azərbaycana getməyə tələsmir, hadisələrin durulmasını, hökumətin siyasətinin müəyyənləşməsini, "Azərbaycan səmasında üfiqin aydınlaşmasını" gözləyirdi.[55]

İran siyasi dairələrin çıxışlarında, Britaniya və Amerika informasiya vasitələrində, habelə Tehran mətbuatının səhifələrində SSRİ-yə qarşı hücumlar gücləndiyindən sovetlərin başlıca partiya və dövlət orqanları sayılan "Pravda" və İzvestiya" qəzetləri bu hücumlara cavab verməli oldular. "İzvestiya" qəzeti bütün qeyd edilən hücumlara qarşı yazırdı: "Məlum olduğu kimi İran Azərbaycanının əhalisi son zamanlara kimi doğma dildə məktəb açmaq, kitab nəşr etmək və mətbuat buraxmaq haqqından məhrum idi. Xalqın hüququnun bərpa edilməsi tələbi ilə çıxış edən Demokrat Partiyası böyük uğurlar qazanır. London radiosu Azərbaycanda "separatçıların üsyanı"və "rus yük maşınları" haqqında böhtanlar yaymaqla ingilislərin Fələstin, Misir və İndoneziyadakı əməllərindən diqqəti yayındırmağa çalışır. "İzvestiya"nın fikrincə, London radiosu Azərbaycanda başlanmış hərəkatın hüquqi və demokratik xarakterini təhrif edir.[56] Noyabr ayının sonuncu dekadasında "Pravda" və "İzvestiya" qəzetləri, demək olar ki, hər gün Tehran hakimiyyətinin azərbaycanlılara qarşı yeritdiyi repressiya əməllərindən məlumatlar dərc edirdilər.

Azərbaycan məsələsinin məcrasından çıxmasından ehtiyatlanan Baş naziri İbrahim Həkimi noyabr ayının 27-də Tehrandakı sovet səfirini əvəz edən Əhəd Yaqubovu görüşə dəvət etdi. Sovet səlahiyyətli nümayəndəsi ilə danışıqlarda o, təkid edirdi ki, İran orduları ölkənin şimal ərazilərinə

---

də İran məclisində çıxışı haqqında əlavə məlumat üçün bax: Report on condition in Azerbaijan.26.11.1945. // National Archives (United Kingdom), Public Records Office, FO 371/52663

[55] Əhəd Yaqubovun "Tehran mətbuatı Azərbaycandakı son hadisələr haqqında" Mahmud Əliyevə göndərdiyi arayış. 25.11.1945.// ARPİİSSA, f.1, s.89, i.93, v.15

[56] Известия, 1945, 20 ноября

buraxılsın, hətta bunun müqabilində Baş nazir hökumətin siyasətinin bütövlükdə Sovet İttifaqının mənafeyinə tabe edəcəyini vəd edirdi.[57] Lakin rədd cavabı aldıqda Həkimi bildirdi ki, yaxın günlərdə istefaya getməkdən başqa onun ayrı çarəsi qalmır. Noyabr ayının 22-də və 23-də ABŞ-ın Moskvadakı səfiri Harriman orduların 1946-cı ilin yanvar ayının 1-nə kimi təcili olaraq İrandan çıxarılması haqqında Molotova notalar göndərdi.[58] Noyabr ayının 25-də Britaniyanın Moskvadakı səfiri Klark Kerrin İranın suverenliyinə hörmət etmək barədə Molotova göndərdiyi notanın, noyabr ayının 26-da isə Həkimi hökumətinin İrandakı vəziyyətdən narahatçılıq ifadə edən notasının da elə bir ciddi nəticələri olmadı. Noyabrın 29-da Vaşinqtona, 30-da Londona, dekabrın 1-də isə Tehrana göndərdiyi cavablarda sovet tərəfi İran Azərbaycanındakı vəziyyəti və orada başlanmış milli-demokratik hərəkatı dəyərləndirir, belə bir şəraitdə İran ordularının ölkənin şimalına buraxılmasını məqsədəuyğun hesab etmirdi.[59] Bununla bağlı SSRI Xarici İşlər komissarı V.Molotov ABŞ-ın Moskvadakı səfiri A.Harrimana yazırdı: "Hörmətli cənab səfir. İran məsələsi üzrə Birləşmiş Ştatlar hökumətinin məlumatını özündə əks etdirən Sizin 24 noyabr (Harrimanın noyabr ayının 23-də göndərdiyi nota bir gün sonra XİXK-da qeydiyyatdan keçmişdi – C.H.) tarixli məktubunuz ilə bağlı mən aşağıdakıları Sizin nəzərinizə çatdırıram: Bu məlumatda Şimali İranda silahlı üsyanın başlanması haqqında bəyanat Sovet hökumətinin əlində olan məlumatlara görə həqiqətə uyğun deyildir. Şimali İranda son günlər baş verən hadisələr nəinki silahlı üsyan deyildir, eyni ilə bu hadisələr İranın şahənşah hökumətinə qarşı yönəlməmişdir. Şimali İranın Xalq məclisinin Bəyannaməsi elan olunan zaman bəlli oldu ki, burada söhbət İran dövləti hüdudlarında milli muxtariyyətə can atan və

---

[57] S.Yemelyanov. Təbrizdən Atakişiyevin teleqraf məlumatları üzrə arayış. 29.11.1945.// ARPİİSSA, f.1, s.89, i.96, v.120

[58] Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War An International History. Second Edition. Routledge, New York and London,2005, p.104

[59] Sovet – İran münasibətlərinin qısa icmalı (1917-1955). SSRİ XİN-nin Arxiv İdarəsi. İyun 1956.// RDƏYTA, f.5, s.30, i.171, v.79; SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevin ÜİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.// RDSSTA, f.17. s.128, i.93, v.38; И.В.Гайдук. ООН и Иранский кризис 1946 года.// «Новая и новейшая история». 2011, №5, с.71

fars dilindən fərqli olaraq öz xüsusi dilinə malik Şimali İranın azərbaycanlı əhalisinin demokratik hüquqlarının təmin olunmasından gedir. Xalq məclisinin noyabr ayının 20-21-də Təbriz şəhərində tərtib edilmiş qeyd olunan Bəyannaməsinin məzmunundan aydın olur ki, Xalq məclisi İran konstitusiyasına arxalanaraq öz arzu və istəklərini şaha, Məclisə və İran hökumətinə ünvanlamışdır. Son hadisələr ölkənin şimalının ayrı-ayrı məntəqələrində Şimali İran əhalisinə milli hüquqların verilməsi əleyhinə olan mürtəce ünsürlərinin arzuolunmaz çıxışlarına gətirib çıxarmışdır. Yeri gəlmişkən yerli əhalinin bu istəklərində demokratik dövlət üçün qeyri-adi heç nə yoxdur".[60] Eyni zamanda, Molotov bütün sovet notalarında olduğu kimi bu notada Şimali İranda baş verənlərin SSRİ-yə aidiyyəti olmadığını bildirir, Azərbaycan hadisələrini İranın daxili işi hesab edirdi. Dekabr ayının 1-də sovet notası ilə tanış olduqdan sonra Baş nazir Həkimi Amerika səfiri Mörreylə söhbətində deyirdi ki, Rusiya İran işlərinə müdaxiləsini inkar edir və "sanki İrandakı sovet orqanları Rusiya hökumətinin xəbəri və icazəsi olmadan hərəkət edirlər".[61] Sovet İttifaqının bu notası ilə bağlı Vaşinqtondakı İran səfiri Hüseyn Əla noyabr ayının 29-da mətbuat konfransı keçirdi və Azərbaycan hadisələrinin bilavasitə sovet müdaxiləsi ilə bağlı olduğunu bildirdi. O, qeyd etdi ki, Birləşmiş Ştatlarla İranı əsl dostluq telləri bağlayır və yalnız ABŞ hazırda dünya kommunikasiyasının ən həssas məntəqəsi olan Orta Şərqə əmin-amanlıq və çiçəklənmə gətirə bilər.[62] Səfirin bu açıqlaması Sovet İttifaqı xarici siyasət orqanları tərəfindən beynəlxalq xarici əlaqələrin daha da gərginləşdirilməsi kimi şərh edilirdi.

---

[60] V.Molotovun A.Harrımana məktubu. 29.11.1945.// RFXSA, f.07, s.10, q.31, i.412, v.96-98; 1945-ci ilin noyabr ayının sonlarında Moskvadakı Britaniya və ABŞ səfirlərinin Molotovla yazışmaları haqqında məlumat üçün bax: Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967,pp.71-74; Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, pp.104-105; Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War, p.32-33

[61] The Ambassador in Iran (Murray) to the Secretary of State. 02.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-245

[62] SSRİ Xarıcı İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevın ÜİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.// RDSSTA, f.17. s.128, i.93, v.41

Cənubi Azərbaycan Milli məclisinə seçkilər başlandıqdan sonra noyabr ayının 28-də əyalətə yeni təyin edilmiş vali Mürtəza Bayat beş nəfər yüksək vəzifəli məmurun müşayiəti ilə Təbrizə gəldi. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Xalq komissarı S.Yemelyanov M.C.Bağırova yazırdı ki, "bu beş nəfərin içərisində bizim bir nəfər inanılmış adamımız vardır".[63] Lakin valinin gəlişi seçkilərin keçirilməsinə mane olmadı. Fədai dəstələrinin mövcudluğu muxtariyyət əleyhdarlarını öz qınına çəkilməyə məcbur etmişdi. Onlar, hətta seçkilər əleyhinə təbliğat aparmağa belə cəsarət etmirdilər. Bayat Təbrizə gələn gün İran Azərbaycanında milli-demokratik prosesin gedişi haqqında Bağırovu məlumatlandırmaq üçün M.İbrahimov Bakıya yola düşdü.

Noyabr ayının 30-da Mürtəza Bayat Azərbaycandakı vəziyyəti müzakirə etmək üçün sovetlərin etibar etdiyi bir nəfərlə təkbətək görüşdü. Görüş zamanı o, Demokrat Partiyası rəhbərləri ilə danışıqlara girmək, onların son məqsədlərini öyrənmək və firqəçilərlə mümkün güzəştlər axtarmaq fikrində olduğunu açıqladı. Danışıqların nəticəsini Bayat şəxsən şaha və hökumətə məruzə edəcəyini bildirdi. O, SSRİ ilə münasibətlərin pozulmasının günahkarı kimi Said Marağayi və Möhsün Sədr hökumətlərinin fəaliyyətini lənətlədi, Baş nazir Həkimini Sovet İttifaqının əleyhdarı olan Həjir və Fəhimi kimi adamları hökumətə daxil etdiyinə görə günahlandırdı. Bayat şahın, nüfuzlu dairələrin və özünün İranda yaranmış gərgin vəziyyətdən çıxış yolunu SSRİ ilə münasibətlərin köklü şəkildə yaxşılaşdırılmasında gördüklərini bildirdi.[64] Söhbət zamanı o, Pişəvərini Ala qapıda görmək və onunla Azərbaycandakı vəziyyəti müzakirə etmək arzusunda olduğunu ifadə etdi.

Dekabr ayının 1-də Bayat SSRİ-nin Təbrizdəki konsulluğuna gəlib, yeni təyin edilmiş Baş konsul Krasnıx ilə görüşdü. O, dedi ki, Demokrat Firqəsinin rəhbərləri ilə birbaşa danışıqlara girmək istəyir və firqənin

---

[63] S.Yemelyanov. Təbrizdən Atakişiyevin teleqraf məlumatları üzrə arayış. 29.11.1945.// ARPİİSSA. f.1, s.89, i.96, v.122

[64] S.Yemelyanov. Təbrizdən Atakişiyevin teleqraf məlumatları üzrə arayış. 01.12.1945.// ARPİİSSA, f.1, s.89, i.97, v.1

qaldırdığı məsələləri müstəqil, yaxud İran hökuməti ilə danışıqlara girmək yolu ilə həll etmək fikrindədir. O, bildirdi ki, hökumət demokratlara böyük güzəştlərə getməyə hazırdır. Səham əs-Sultan (Bayatın titulu – C.H.) Pişəvəri ilə görüşmək arzusunda olduğunu və bu arzunun Rövşəni vasitəsi ilə ona çatdırıldığını da dedi. O, sovet konsulundan xahiş edirdi ki, bu görüşün baş tutmasına öz köməkliyini göstərsin, lakin Krasnıx diplomatik qaydada bu xahişi yerinə yetirə bilməyəcəyini vurğuladı. Söhbətin sonunda Səham əs-Sultan bildirdi ki, Azərbaycanda qayda yaratmaq və Sovet-İran münasibətlərini yaxşılaşdırmaq üçün hökumət ona geniş səlahiyyətlər vermişdir.[65]

Dekabr ayının 3-dəTəbrizin nüfuzlu şəxslərindən sayılan İyrəc Əmir Zəkaəldövlənin evində Pişəvəri ilə Bayatın görüşü baş tutdu. Görüşdən sonra Pişəvəri Təbrizdə olan sovet nümayəndələrinin (Həsənov və Atakişiyev) yanına gəlib Bayatla söhbət barədə onlara məlumat verdi. Bu söhbətin məzmununu onlar təcili olaraq Bakıya, Bağırov isə öz növbəsində Stalin və digər sovet rəhbərlərinə çatdırdı. O, yazırdı: "Bir sıra maraqlı məqamlarını nəzərə alaraq Bayatın Pişəvəri ilə danışıqları barədə Təbrizdən alınmış teleqraf mətnini xüsusi dəyişiklik etmədən sizə göndərirəm. Söhbət iki saata yaxın davam edib. Qarşılıqlı salamlaşma və ümumi söhbətdən sonra Bayat Pişəvəridən xahiş etdi ki, o, Azərbaycan demokratlarının İran hökumətinə tələbləri barədə danışsın. Pişəvəri Azərbaycan xalqının təsis qurultayının mətbuatda dərc olunmuş qərarlarında və Bəyannamədə əks olunmuş başlıca tələblərini Bayata geniş izah etdi. Bayat məlumat verdi ki, o, bütün məsələləri həll etməyə səlahiyyətlidir, əgər hər hansı çətin bir məsələ meydana çıxsa Tehrana müraciət etmək olar. Pişəvəri Azərbaycanın muxtariyyəti ilə bağlı xalqı siyasi, mədəni və iqtisadi tələblərini irəli sürdükdə, Bayat qeyd etdi ki, o, xalqın tələbləri ilə əsasən razıdır, lakin arzu edərdi ki, demokratlar bu məsələlərin həlli üçün daha dinc yol tutsunlar və ziddiyyətləri dərinləşdirməsinlər. Bayat bildirdi ki, əncümənlərin yaradılması və türk

[65] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı.03.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.145-146

dili məsələlərinin həlli ilə bağlı elə bir çətinlik yoxdur. Bu məsələləri o, özü həll edə bilər, lakin muxtariyyət məsələsi ona aydın deyil və açıq şəkildə konstitusiya ilə ziddiyyət təşkil edir. Pişəvəri bildirdi ki, Azərbaycan xalqı muxtariyyət tələbləri üzərində möhkəm dayanacaq və heç bir güzəştə getməyəcəkdir. Əgər hökumət əvvəlki kimi güc tətbiq etməyə cəhd göstərsə, xalq son nəfəsinə qədər öz hüququnu müdafiə edəcəkdir. Pişəvəri sözbəsöz belə deyib: "Biz istəyirik ki, muxtariyyət məsələsi dinc yolla həll edilsin, əgər siz bunun əksini düşünürsünüzsə, sizin yalnız bir yolunuz qalır ki, bütün Azərbaycan xalqını qırasınız, mən sizin ayrı çıxış yolunuzu görmürəm". Bununla bağlı Pişəvəri Təbrizdə dekabrın 2-dən 3-nə keçən gecə yeni baş vermiş hadisəni Bayata xatırlatdı. Belə ki, həmin axşam İran diviziyasının əsgərləri məhərrəmlik təziyəsi ilə əlaqədar dini ayinləri yerinə yetirmək üçün məscidə gedən vətəndaşlara pulemyotdan atəş açmışdılar. Bayat Pəşəvərini inandırmağa çalışdı ki, belə əmrlər mərkəzdən gəlmir və o, bütün vasitələrlə görüşə dostluq xarakteri verməyə çalışırdı. Danışıqların gedişində Bayat və Dövlətşahi zarafatyana Azərbaycan SSR-ə birləşməyin mümkünlüyü məsələsinə toxundu. Pişəvər bu atmacaya münasib qaydada cavab verdi.[66] Bayat əsaslandırmağa çalışdı ki, Azərbaycan Milli məclisinin yaradılması İran konstitusiyasında nəzərdə tutulmayıb. Pişəvəri qeyd etdi ki, İran konstitusiyası artıq çoxdan pozulub. O, nümunə gətirdi ki, İran konstitusiyasında yalnız "Qacar sülaləsinin" nümayəndələrinin İran şahı ola biləcəyi yazılıb, lakin Reza oradan "Qacar" sözünü pozub, onun yerinə "Pəhləvi" sözünü yazdı. Pişəvəri əlavə etdi ki, konstitusiya xalq tərəfindən yaradılır və xalq yeni konstitusiya yazar. Azərbaycanın muxtariyyəti maddəsini də oraya əlavə edər. Sonra Bayat bir sıra məsələlərlə maraqlandı və soruşdu: 1.Azərbaycanda dövlət müəssisələri kimə tabe olacaq; 2.Azərbaycan parlamenti ilə İran məclisi arasında qarşılıqlı münasibətlər necə olacaq. Bütün bu suallara Bayat müvafiq cavablar aldı.[67]

---

[66] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı.04.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.149-151

[67] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.398

Təbrizdəki sovet nümayəndələri belə hesab edirdilər ki, Bayat "dinc" kəlməsi və "dostluq" nəvazişi ilə demokratik hərəkatın liderlərini aldatmaq və hərəkatı düşkünləşdirmək, heç olmasa azərbaycanlıların qaldırdıqları məsələlərin həllini yubatmaqla vaxt udmaq istəyir. O, Pişəvəri ilə vidalaşanda ikinci dəfə görüşmək, rəsmi danışıqlar aparmaq arzusunda olduğunu bildirmişdi. "Bakı üçlüyü" Pişəvəriyə məsləhət gördü ki, ikinci dəfə də Bayatla görüşsün, lakin Demokrat Firqəsi və Xalq Konqresinin sənədlərində qaldırılan tələblər üzərində möhkəm dayansın.

Azərbaycan Milli Məclisinə keçirilən seçkilər Təbrizdə dekabr ayının 3-də, digər yerlərdə isə bir qədər gec başa çatdı.[68] Pişəvəri, Biriya, Qiyami, Padeqan, Cavid, Şəbüstəri, Rəfiyi, İlhami, Nikçu, İpəkçian, Maşınçı, Əzima və digərləri böyük səs çoxluğu ilə Təbrizdən Azərbaycan Milli Məclisinə seçildilər. İlk dəfə olaraq Cənubi Azərbaycanda qadınlar seçki məntəqələrinə gəlmişdilər. Yalnız Təbrizdə 3172 qadın səsvermədə iştirak etmişdi.[69] Bu seçkiləri və bütövlükdə, Cənubi Azərbaycanda gedən prosesləri işıqlandırmaq üçün dekabr ayının 3-də SİTA-nın müxbiri Medvedyev Təbrizə ezam olunmuşdu. "Bakı üçlüyü"nün üzvləri onunla razılaşmışdılar ki, hər gün İran Azərbaycanı hadisələrindən Moskva üçün məlumatlar hazırlansın. Məhz, bu tarixdən etibarən SİTA-nın müxbirləri Cənubi Azərbaycan milli hərəkatı barədə bilavasitə, hadisələrin mərkəzindən sistemli məlumatlar hazırlamağa başladılar və bu iş 1946-cı ilin sonuna qədər davam etdi.[70] Azərbaycan Milli Məclisinə keçirilən

---

[68] Azərbaycan tədqiqatçıları Mirqasım Çeşmazər və Cavanşir Vəkilov öz əsərlərində Azərbaycan Milli Məclisinə seçkilərin 1945-ci ilin noyabr ayının 27-dən dekabr ayının 1-nə qədər keçirildiyini yazırlar. M.Çeşmazər qeyd edir ki, "seçkilər dekabr ın 1-də hər yerdə böyük müvəffəqiyyətlə qurtardı". Bax: Mirqasım Çeşmazər. S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan milli hökumətinin yaranması uğrunda mübarizədə rolu.// Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1989, s. 39; C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.72

[69] I.Maslennıkovun M.C.Bağırov və S.Yemelyanova məlumatı.12.12.1945.// ARPİİSSA, f.1, s.89, i.101, v.181; ADP rəhbərliyinə verilən səslərin sayı haqqında məlumat üçün bax: Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967. p.75

SİTA-nın İran Azərbaycanı ilə bağlı materialları üçün bax: İran Azərbaycanındakı hadisələr və həmkarlar hərəkatı haqqında materiallar. Arayışlar, proqram, müraciət, nizamnamə. 1946.// RFDA, f.5451, s.72, i.861, v.1-51; İran Azərbaycanı. 01.01.-13.04.1946.// RFDA, f.4459, s.27, i.5323, v.1-

seçkilərin nəticələri SİTA tərəfindən ümumiləşdirildi və bütün dünyaya bəyan edildi. Bu məlumatlarda göstərilirdi ki, İran Azərbaycanı əhalisi artıq özünü bir millət kimi hiss etməyə başlamış, milli muxtariyyət və milli dövlət yaratmaq istiqamətində iradə nümayiş etdirmişdir. Yaxud seçkilərin gedişini müşahidə etmək üçün Marağaya gedən H.Həsənov yol böyu 8 fədai məntəqəsindən keçmiş, Kəbiri başda olmaqla Demokrat Firqəsinin vəziyyətə nəzarət etdiyini müşahidə etmişdi. Dekabrın 1-də şəhərin sovet komendantlığında N.Bağırov, Arutyunov, Qoşqarlı və Hüseynovla görüşən zaman o, maraqlı mənzərənin şahidi olmuşdu. Bəlli olmuşdu ki, mürtəce ünsürlərin ləğv edilməsi məsələsində Nüsrət Bağırovla Arutyunov arasında fikir ayrılıqları vardır. Söhbət zamanı Arutyunov bildirmişdi ki, onlar mürtəce ünsürlərin öldürülməsi üzrə planı yerinə yetirə bilməyiblər. O, bunu Bağırovla əlaqələndirməyə çalışırdı. H.Həsənov yazır: "Arutyunovun belə bəyanatı mənim heç xoşuma gəlmədi. Mən dedim ki, nahaq yoldaş Arutyunov bundan narahat olur. Əgər ADP-nin işi yaxşı gedirsə və partiyanın tədbirlərinə mane olan adamlar yoxdursa, bu halda adamları öldürmək lazım deyildir".[71] Həsənov Bağırov və Arutyunova xəbərdarlıq etmişdi ki, dostcasına işləsinlər, seçki dövründə Marağa ətrafında fədai nəzarət məntəqələrinin sayını azaltsınlar və şəhərdə sakitliyi, habelə ADP-nin yerli komitəsinin fədai dəstələri ilə əlaqələrinin gizliliyini təmin etsinlər. Ayrı-ayrı vilayətlərdən də məlumatlar daxil olmuşdu ki, ADP-nin yerli komitələri fədai dəstələrinin işinə müdaxilə edərək, onlarla əlaqələrini leqallaşdırırlar. Dekabrın 2-də ADP-nin yerli komitələrinə təlimat verildi ki, bundan çəkinsinlər. Məsələn, Mərənddən məlumat daxil olmuşdu ki, fədailər irticaçı hesab edilən Sərtiblə yanaşı, onun iki azyaşlı oğlunu da öldürmüşlər və bu hadisə yerli əhalinin ciddi narazılığına səbəb olmuşdur. Yaxud Miyanədə Tehrana yağ aparan bir maşın saxlanılmış və bütün yük fədailər tərəfindən müsadirə edilmişdir. Müsadirə müqabilində sürücüyə qəbz verilmiş, lakin

400; : İran Azərbaycanı.14.04.-07.06.1946.// RFDA, f.4459, s.27, i.5324, v.1-403; İran Azərbaycanı. 07.06.-31.12.1946.// RFDA, f.4459, s.27, i.5325, v.1-451

[71] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.395

qəbzə latın əlifbası ilə imza atılmış və rus təqvimi üzrə tarix qoyulmuşdur. Əslində, bu sənəd fədailərin ruslarla bağlılığının birbaşa təsdiqi idi. Bu məsələlərlə bağlı "Bakı üçlüyü"nün üzvləri Azərbaycanda yaranmış vəziyyət və sovet qarnizonlarının vəzifələri mövzusunda general Qlinski ilə müzakirələr apardılar. Sovet hərbi və siyasi orqanlarının nümayəndələri belə qərara gəldilər ki, qarnizonlar İranın daxili işlərinə müdaxilə edilməməsi prinsipinə riayət etsinlər, lakin bununla yanaşı, elə etsinlər ki, irticaçı qüvvələr milli-azadlıq hərəkatına mane ola bilməsinlər.[72]

Seçkilərin gedişində bəzi diqqəti çəkən məqamlar da oldu. Məsələn, noyabrın 29-da Pişəvəri Təbriz dairəsi seçki komissiyasının sədrinə göstəriş verdi ki, Babken və Davud adlı erməni namizədlərin səsverməsini dayandırsın. ADP rəhbərliyi və Milli Komitə üzvləri ilə məsləhətləşmədən onun belə bir addım atması sovet nümayəndələri üçün gözlənilməz oldu. Sovet konsulluğunun əməkdaşları və "Bakı üçlüyü"nün üzvləri təcili toplanıb hər iki ermənidən xahiş etdilər ki, onlar özləri ərizə yazıb namizədliklərini geri götürsünlər və sonra ermənilər toplantı keçirib öz aralarından daha uyğun adamların namizədliyini irəli sürsünlər. Bu gözlənilməz hərəkətinə görə Pişəvəri sovet nümayəndələri tərəfindən məzəmmət edildi.[73]

Bütün çətinliklərə baxmayaraq vilayətlərdə də seçkilər əhalinin siyasi fəallığı ilə müşayiət edildi. Ərdəbildən Həsən Cövdət, Məmməd Cəlili, Hacı Tağı Vahabzadə, Məcid xan Xosrovi, Astaradan Zamani, Nəmindən Qüdsi, Biləsuvardan Nüsrət bəy Şahin, Meşkindən doktor Rəfizadə, Germidən Nünəkərani Azərbaycan məclisinə vəkil seçildilər. Azərbaycanın bütün şəhər və kəndlərinin Milli Məclisdə təmsilçisi var idi və bütövlükdə, məclisə seçilməsi nəzərdə tutulmuş 100 millət vəkilindən 95-i mandatını əldə etmişdi. S.C.Pişəvəri seçkilərlə bağlı firqəçilərə müraciətində deyirdi ki, "milli parlament bizim vicdanımızdır, biz onun ləkələnməsinə imkan verməmərik. Qoy Demokrat Firqəsinin üzvü olmayan seçilsin, bunun

[72] Yenə orada, s.397-399
[73] Yenə orada, s.391

fərqi yoxdur, təki o, doğru yolla, demokratik əsaslarla seçilsin. Heç bir vəchlə xalqın əl-qolunu bağlamaq olmaz. Əmin olun ki, sizin yolunuz doğru, məqsədiniz müqəddəsdir. Qoy xalq inansın ki, siz vicdanla ona xidmət edirsiniz, siz onun əsl xidmətçilərisiniz".[74]

Seçkilər başa çatdıqdan sonra Azərbaycan Milli Məclisinin ilk sessiyasının açılışına Moskvadan razılıq almaq lazım idi. Bu məqsədlə Bağırov və Maslennikov hələ, dekabr ayının 2-də sessiyanın Təbrizdən təklif olunmuş gündəliyini Stalin, Molotov, Beriya və Malenkova göndərmişdilər. "Bakı üçlüyü", Demokrat Firqəsinin Mərkəzi Komitəsi və Milli Komitə Azərbaycan Milli Məclisinin birinci sessiyasının açılmasını dekabr ayının 10-na müəyyən etmişdi.[75] Sessiyanın gündəliyində aşağıdakı məsələlər var idi:

1. Sədrin və onun müavinlərinin seçilməsi;
2. Nazirlər kabinetinin tərkibinin təsdiq edilməsi;
3. Məclisin nəzdində daimi komissiyaların təşkili;
4. Hökumət proqramının müzakirəsi və təsdiqi.

Milli Komitə və ADP MK milli hökumətin təşkilini Seyid Cəfər Pişəvəriyə həvalə etmək fikrində idi. Azərbaycan milli hökumətinin 10 nazirdən ibarət olması nəzərdə tutulurdu. Hökumətin tərkibi təsdiq edildikdən sonra İran inzibati idarəçilik vahidi kimi ostandarlıq sistemi müvafiq nazirliklərlə əvəz edilməli idi. Bağırov yazırdı ki, ADP MK və Milli Komitənin fikrincə, əgər Azərbaycana yeni İran ordusu göndərilməzsə, hazırda orada olan ordu, polis və jandarm qüvvələri ilə onlar özləri bacara bilərdilər. Üç gündən sonra Bağırov və Maslennikovun müraciətinə Moskvadan cavab gəldi. Orada göstərilirdi: "Bakıya, yoldaş Bağırova və Maslennikova. Sizin 2 dekabr, 339 saylı telefonoqramınıza cavab olaraq bildirirəm: Milli Komitə və Demokrat Partiyası Mərkəzi Komitəsinin təklifləri ilə razılaşmaq olar. Molotov, 5.XII.45. Saat 02:55".[76]

---

[74] M.İbrahimov, H.Həsənov və A.Atakişiyev. Azərbaycan Milli Məclisinə seçkilərin yekunları. 30.12.1945.// ARPİİSSA, f.1, s.89, i.97, v.233-234

[75] Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, p.102

[76] V.Molotovun M.C.Bağırova və I.Maslennikova teleqramı. 05.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.137

Elə həmin gün Bakıdan təlimat gəldi ki, Bayatla ikinci görüşdə Pişəvəri ADP və Xalq Konqresinin Azərbaycan muxtariyyəti tələbi üzərində möhkəm dayanmalıdır. Bu təlimatdan Təbrizdəki məsul işçilər başa düşdülər ki, Sovet İttifaqı İran Azərbaycanında milli-azadlıq və demokratik hərəkatı qəti şəkildə müdafiə edir. Dekabrın 6-da axşam Mirzə İbrahimov Təbrizə qayıtdı və bildirdi ki, Bakı "üçlüyün" işindən razıdır və onlardan xahiş edilir ki, bu istiqamətdə işlər davam etdirilsin, lakin eyni zamanda Bakıda hesab edirlər ki, bir sıra məsələlərdə Moskvanın razılığını gözləmək vacibdir. Nəhayət dekabr ayının 7-də Bakıdan təlimat gəldi ki, Azərbaycan Milli Məclisini çağırmaq və orada İran Azərbaycanının Nazirlər kabinetini formalaşdırmaq zəruridir. Təlimatda göstərilirdi ki, şahın və İran hökumətinin hansı mövqe tutmasından asılı olmayaraq Azərbaycan hökuməti ADP-nin proqramında nəzərdə tutulan addımları həyata keçirməyə başlamalı idi. Bu məlumat demokratik hərəkatın liderlərinin və Cənubda iş aparan Sovet Azərbaycanından olan işçilərinin böyük ruh yüksəkliyinə səbəb oldu. Onlar başa düşdülər ki, bütün bu məsələlər Moskva ilə razılaşdırılıb. H.Həsənov gündəliyində yazırdı: "Bu o deməkdir ki, İran Azərbaycanı xalqı öz məsələlərini özü həll edəcək, iqtisadiyyatın və mədəniyyətin inkişafı üçün tədbirlər görəcəkdir. Bu gündən etibarən Azərbaycan xalqının həyatında yeni bir dövr başlayır. Öz iqtisadiyyatını və mədəniyyətini inkişaf etdirmək üçün xalqın qarşısında böyük perspektiv açılır. İndi bizim başlıca vəzifəmiz elə bir Nazirlər kabineti təşkil etməkdir ki, həmin kabinet başlanmış böyük xalq işini sona çatdıra bilsin".[77] Bu məlumatdan ruhlanan Pişəvəri həmin böhranlı günlərdə yazırdı: "Biz öz haqqımızı öz millətimizin gücü ilə əldə etməliyik...Biz Xiyabani mərhumun iştibahlarını təkrar etməyəcəyik. Xainlərə ölümdən başqa cavabımız ola bilməz. Xalq öz haqqını almaq üçün qurban verməkdən qorxmaz. Qurban verməyə hazır olmayan bir millət azad yaşamağa haqlı deyildir".[78]

---

[77] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.403

[78] S.C.Pişəvəri. İran Azərbaycanı demokratik hərəkat tarixi. I cild, Bakı, 1947, s.200-201 (əlyazma hüququnda)

"Bakı üçlüyü"nün razılığı ilə Pişəvəri dekabr ayının 8-də səhər saat 10-da İyrəc Əmir Zəkaəldövlənin evində yenidən Bayat ilə görüşdü. Görüşdə demokratlar tərəfindən Şəbüstəri və Biriya hökumət tərəfindən Həsən Dövlətşahi iştirak edirdi. Saat yarımlıq müzakirələr gərgin bir şəraitdə keçdi. Bayat istəyirdi ki, Azərbaycan demokratlarını muxtariyyət məsələsindən çəkindirsin və o, belə hesab edirdi ki, qaldırılan məsələləri əyalət əncüməni çərçivəsində həll etmək olar, muxtariyyət elan etməyə heç bir ehtiyac yoxdur. Muxtariyyət məsələsi ilə bağlı Pişəvəri izah etdi ki, bu tələb Azərbaycanın öz məclisinin və öz hökumətinin olmasını özündə ehtiva edir, xarici siyasət isə İran hökumətinin səlahiyyətində qalacaqdır, bu da o deməkdir ki, Azərbaycan İran dövlətinin hüdudlarında qalacaqdır. Muxtariyyət sözünün mahiyyətinə gəldikdə, Pişəvəri Bayata izah etdi ki, "Azərbaycanın muxtariyyətini Amerika Birləşmiş Ştatları və İsveçrənin ştatları hüququnda təsəvvür edir".[79] O, qeyd etdi ki, bu Azərbaycan Xalq Konqresinin qərarıdır və onlar bu qərardan geri çəkilə bilməzlər. Sonda belə bir razılığa gəlindi ki, Pişəvəri demokratların mətbuatda dərc olunmuş tələblərini Bayata təqdim etsin və onun yaxın günlərdə Tehranda İran hakimiyyət orqanları ilə aparacağı müzakirələrdə həmin sənədlər ona lazım ola bilər. Pişəvəri xəbərdarlıq etdi ki, Xalq Konqresinin tələblərinin Tehran tərəfindən təmin edilib-edilməməsindən asılı olmayaraq Azərbaycan Milli Məclisi bu günlərdə işə başlayacaqdır. Muxtariyyət məsələsində Şəbüstəri və Biriya da Pişəvərini müdafiə etdilər. Bütün bunları dinlədikdən sonra Bayat eyham vurdu ki, "siz muxtar formada mövcud ola bilməzsiniz".[80] Pişəvəri bu danışıqlarla

---

[79] İrane ma. 1945, 14 dekabr; İranın ABŞ və İsveçrə formasında federal əsaslarla qurulması ideyasını hələ 1920-ci illərdə Azərbaycan valisi, ötən əsrin 50-ci illərində isə ölkənin baş naziri olmuş XX əsrin tanınmış millətçisi Məhəmməd Müsəddiq irəli sürmüşdü. O, etiraf edirdi ki, narazılıq üçün Azərbaycanın əsası vardır və xəbərdarlıq edirdi ki, gözəl günlərin birində İran ABŞ və İsveçrə kimi federal dövlətə çevrilə bilər. Lakin Müsəddiq ölkənin bir hissəsinin muxtar rejim, digər bir hissəsinin isə mərkəzi hökumət tərəfindən idarə olunmasını məqbul hesab etmirdi. Bax: Touraj Atabaki. Azerbaijan: Ethnicity and Autonomy in Twentieth-Century Iran. London: British Academic Press, 1993, p.139; Tadeusz Swietochowski Russia and Azerbaijan: A Borderland in Transition Columbia University Press, New York, 1995, p.147

[80] S.Yemelyanov. Təbrizdən Atakişiyevin teleqraf məlumatları üzrə arayış. 09.12.1945.// ARPİİSSA, f.1, s.89, i.97, v.68

bağlı yazırdı: "Ağayi Bayat şəxsən bizim haqqımızı etiraf edib, əsl fikrimizin və prinsiplərimizin səhih olduğunu qeyd etdiyi halda, onun ətrafında aydın və açıq söz deyə bilmirdi. O, istəyirdi ki, sözlə bizim əsl məqsədimizi yuyub təmizləyib milli muxtariyyət ünvanını aradan aparsın. Onun danışıqları qətiyyən öz vicdanının səsası deyildi. İxtiyaratı məhdud, əl və ayağı bağlı bir adam kimi çapalayıb durduğu yerdə qalır, vaxtı tələf etmək üçün cüziyyət üzərində uzun-uzadı mübahisəyə girişirdi. Nəhayət, nümayəndələrimiz vəziyyəti olduğu kimi təsvir edib, aydın bir lisan ilə millətin öz haqqını almağa qadir olduğunu və bu haqqı almaq yolunda tamam varlığı ilə mübarizəyə girişdiyini ona anladaraq dedilər: Bu gün-sabah məclisimiz açılacaq, qanuni və rəsmi hökumətimiz təşkil tapacaq, İrandan ayrılmamaq şərtilə Azərbaycanın daxili işlərini idarə etməyə şüru edəcəkdir. Tehrana vaxtında ittila verilmişdi. O gün qazanmaq, vaxt tələf etməklə işi ört-basdır etmək fikrindədir. Bu isə çox səfihanə bir siyasətdir. Mərkəzi hökumət bu gün bizim uzatdığımız əli dala qaytarmaq istərsə, artıq o əl bir daha uzanmaz, bu da mərkəzi hökumətin böyük və əsas xəyanətlərindən olub qalar".[81] Bu danışıqlar barədə Bağırov dekabr ayının 10-da Stalin və digər sovet rəhbərlərinə yazırdı: "Bayatla ikinci görüş bir daha təsdiq etdi ki, o, İran hökumətinin tapşırığı ilə hərəkət edərək sonsuz danışıqlar yolu ilə əsas və başlıca məqsəd olan Azərbaycanın muxtariyyəti məsələsinin həllini yubatmağa çalışır. Görünür, Azərbaycan məsələsinin həllini xarici hökumətlərin müzakirəsinə çıxarmaq istəyirlər. Bütün bunları nəzərə alaraq biz göstəriş verdik: 1. Məclisin birinci sessiyasının iclası bir daha təxirə salınmasın və dekabr ayının 12-də keçirilsin; 2.İstər məclis, istərsə məclisdə təsdiq olunmuş hökumət təcili olaraq Xalq Konqresində və məclisin birinci sessiyasında qəbul olunmuş qərarların həyata keçirilməsinə başlasın; 3. Məclisin birinci sessiyası başa çatana qədər Bayatla növbəti görüşlərdən imtina edilsin".[82]

Bayatla görüş keçirildikdən sonra həmin gün axşam Sovet Azərbaycanının nümayəndələri ilə (M.İbrahimov, H.Həsənov, A.Atakişi-

---

[81] S.C.Pişəvəri. Iran Azərbaycanı demokratik hərəkat tarixi. I cild, s.214-215

[82] M.C.Bağırovun I.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı.10.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.197-198

yev və N.Quliyev) demokrat liderlərin (S.C.Pişəvəri, M.Ə.Şəbüstəri və M.Biriya) toplantısı keçirildi. Orada Azərbaycan Milli Məclisinin açılması, onun rəhbər heyətinin seçilməsi, hökumət kabinetinin formalaşdırılması ilə bağlı məsələlər müzakirə edildi. Məclisin sədri vəzifəsinə Şəbüstərinin namizədliyi irəli sürülsə də, o, bundan imtina etdi və rəsmi bir vəzifə tutmaq istəmədiyini, sıravi firqəçi kimi fəaliyyət göstərmək arzusunda olduğunu bildirdi, lakin istər Bakının nümayəndələri, istərsə də Pişəvəri məclisin sədrliyinə, məhz, Şəbüstərinin namizədliyi üzərində israr etdilər. Bundan sonra M.Biriya hökumət kabinetinin sədri vəzifəsinə Pişəvərinin namizədliyini irəli sürdü. Sovet Azərbaycanı nümayəndələri bu təklifə Şəbüstərinin münasibətini öyrənmək istədikdə, o, qeyd etdi ki, Pişəvərinin namizədliyinin əleyhinə deyildir, lakin onun bir sıra çatışmayan cəhətləri vardır və Pişəvəri onları islah etməlidir. Şəbüstəri qeyd etdi ki, o, öz yoldaşlarına münasibətdə kobuddur və bəzən öz təmkinini saxlaya bilmir. Bu sözləri eşitdikdən sonra Pişəvəri sözün tam mənasında özündən çıxdı və dedi ki, "mən Nazirlər sovetinin sədri işləməyəcəyəm. Mən yalnız "Azərbaycan" qəzetinin redaktoru olmaq istəyirəm. Yoldaşlar mənim əməyimi qiymətləndirmirlər. Əgər mən kobudluq edirəmsə, bu yalnız işin naminədir".[83] Sovet nümayəndələri böyük çətinliklə Pişəvərini sakitləşdirə bildilər və bundan sonra məclisin rəhbər heyəti, hökumətin tərkibi, hüquq mühafizə orqanlarının başçıları barədə ümumi razılığa gəlindi. Azərbaycanda olan İran ordusunun müqavimətini qırmaq üçün sovet kəşfiyyatı zabit heyəti arasında işi gücləndirdi. Dekabr ayının 10-da Azərbaycan təhlükəsizlik orqanlarının Təbrizdə olan əsas rezidenti N.Quliyev "Bakı üçlüyü"nə məlumat verdi ki, əgər Pişəvəri kabineti formalaşdırdıqdan sonra Deraxşanini öz yanına çağırıb yeni hökumətə tabe olmağı ona təklif etsə, o, bundan imtina etməyəcəkdir.[84]

Azərbaycanda cərəyan edən hadisələr artıq böyük dövlətlərin siyasi dairələrinin və informasiya vasitələrinin müzakirə obyektinə

[83] Г Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007. с.405
[84] Yenə orada, s.407

çevrilmişdi. Xüsusilə, İran hökumətinin Azərbaycana yeni ordu hissələrini göndərə bilməməsi, Təbrizə yollanmaq üçün Qəzvin yaxınlığında dayanan hərbi hissələrin Həmədana göndərilməsi barədə qərargah rəisi Həsən Ərfənin təklifi ictimai rəyi azdırmağa hesablanmışdı. Tehrandakı Amerika səfiri Uolles Mörrey dekabr ayının 8-də dövlət katibinə göndərdiyi gizli məlumatda yazırdı: "İranın belə hərəkətlərinə çox təəssüf edirəm. Bu o deməkdir ki, onlar Sovet İttifaqının onları Təbrizə buraxmaması ilə razılaşırlar. Dünən polkovnik Beykerlə danışan Ərfə vəziyyət haqqında çox bədbin fikirdə olduğunu bildirib. O, deyib ki, Tehranın indi İranın şimal sərhədi olduğunu fikirləşir və rusların köməyi ilə "demokratların" paytaxta gələn ərzaq təchizatını kəsəcəyini təxmin edir. O, qeyd edib ki, mərkəzi qərargah "demokratların" Tehrana qarşı gözlənilməz hücumunu dəf etmək üçün sutkanın 24 saatı ərzində hazır vəziyyətdə dayanır".[85] Bütün bunları nəzərə alaraq Tehrandakı Amerika səfirliyi özünün mətbuat katibi Kayler Yanqı təcili olaraq Təbrizə göndərdi və dekabr ayının 9-da Yanq ADP MK-nın sədri Pişəvəri ilə görüşdü. Söhbət zamanı o, Azərbaycanın muxtariyyəti, fədai hərəkatı, Demokrat Partiyasının strukturu, onun sinfi və milli tərkibi, Xalq Konqresinin sənədləri, firqənin silahlı fədai dəstələrinə münasibəti, bu dəstələrin haradan silah alması və sair məsələlərlə maraqlanmışdı. Xüsusilə, rus (sovet – C.H.) emissarlarının milli hərəkatın təşkilində iştirakına dair Yanq Pişəvəriyə çoxlu suallar vermişdi. Bağırov sovet rəhbərliyinə göndərdiyi məlumatda qeyd edirdi ki, "Pişəvəri ona ünvanlanmış sualların hamısına əsaslandırılmış cavablar vermişdir. Xüsusilə, amerikalının "axı Bəyannamə İran konstitusiyası ilə ziddiyyət təşkil edir" sualına cavab olaraq o, bildirib ki, konstitusiya xalqın qanuni tələblərinin və hüququn ifadəsidir, bir vaxtlar Amerika xalqının olduğu kimi, Azərbaycan xalqının da öz qanuni demokratik hüquqlarına nail olması üçün ədalətli tələbləri və tarixi haqqı vardır.

[85] Foreign Relations of the United States. Diplomatic Papers 1945. Volume VIII. The Near East and Africa. Wash., 1969. p.486

Amerika xalqının demokratiyaya doğru yoluna həmin dövrün fəaliyyətdə olan konstitusiyası mane olmadı. Azərbaycan xalqı dünyanın demokratik xalqlarının, xüsusilə bu gün onun dərdini daha dərindən duya bilən Amerika xalqının yardımına böyük ümid bəsləyir. Söhbətin sonunda amerikalı gözlənilməz şəkildə bəyan edib ki, Pişəvərinin fikirlərini bölüşür və onun dəlilləri ilə razıdır, lakin Yanq Pişəvəridən xahiş edib ki, nə qədər ki, o, öz səfirinə məruzə etmək üçün Tehrana qayıtmayıb onun bu fikirləri "Azərbaycan" qəzetində dərc edilməsin".[86] Yanq Təbrizdəki müşahidələrini, müxtəlif dairələrin nümayəndələri ilə görüşlərini dekabr ayının 12-nə qədər davam etdirdi.

İran Azərbaycanında vəziyyətin ciddi xarakter aldığını hiss edən Böyük Britaniya Moskvadakı səfiri vasitəsi ilə dekabr ayının 8-də İrandakı xarici orduların ən yaxın vaxtda çıxarılması məsələsini müzakirə etməyi Molotova təklif etmişdi. Bu məsələ ilə bağlı səfirin SSRİ XİXK-na yazdığı məktub Molotovla Britaniya Xarici İşlər naziri Ernest Bevin arasında Xarici İşlər nazirlərinin London görüşündəki razılaşmalarına və Molotovun Bevinə yazdığı 20 sentyabr tarixli məktubuna əsaslanırdı. Azərbaycan böhranı ilə bağlı Tehrana gəlmiş ingilis jurnalistləri Britaniya səfirliyinin mətbuat katibinin müşayiəti ilə Baş nazir İbrahim Həkimi ilə görüşdülər. Dekabr ayının 10-da "Ettelaat" qəzeti bu görüşdən geniş reportaj dərc etdi. İngilis mətbuatının nümayəndələri Azərbaycan böhranından çıxış yolu haqqında İran hökumətinin fikrini soruşduqda Baş nazir dedi: " Müha-ribə artıq çoxdan qurtarmışdır. Müttəfiq dövlətlərin ordularının İranda qalması üçün heç bir lüzum yoxdur. Əgər üç böyük dövlət ordularını İrandan çəkərsə, hökumət zəruri olan fəaliyyət azadlığı əldə edər, ölkədə islahatlar həyata keçirər və əmin-amanlığı təmin edər. O zaman İran hökuməti Sovet İttifaqına və bütün dünyaya sübut edər ki, o SSRİ ilə dostluq münasibətləri yaratmağa hazırdır". Britaniya jurnalistləri Azərbaycanda vəziyyəti öyrənmək üçün İran hökumətinin xüsusi komissi-

[86] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı.13.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.249

yanın göndərilməsi barəsində Birləşmiş Millətlərə müraciət etmək arzusunda olub-olmadığını soruşduqda, Baş nazir yaranmış böhranı Sovet İttifaqı ilə danışıqlar yolu ilə həll edəcəyinə ümidvar olduğunu bildirdi. Eyni zamanda, o, əlavə etdi ki, BMT tərəfindən problemin həllinə yönəlmiş hər hansı diqqəti İran hökuməti üçün məqbul sayır. Son olaraq, Həkimi böyük dövlətlərin 1942-ci ilin yanvar ayının 29-da imzalanmış üçtərəfli müqaviləyə və Tehran bəyannaməsinə əməl edib İranın suveren hüquqlarına hörmətlə yanaşacaqlarına ümid etdiyini bildirdi.[87] Britaniya tarixçisi, II Dünya müharibəsi və müharibədən sonrakı dövrün sovet xarici siyasəti haqqında maraqlı əsərlərin müəllifi professor Geofrey Roberts haqlı olaraq yazır ki, Amerika və İngiltərə yardımına arxalanmaqla İran Azərbaycan böhranını Birləşmiş Millətlərinin müzakirəsinə çıxarmaqla məsələni beynəlmiləlləşdirmək istəyirdi.[88]

Xarici İşlər nazirlərinin Moskva görüşü ərəfəsində İranın Vaşinqtondakı səfiri Hüseyn Əla dekabrın 10-da Tehrandan aldığı təlimata əsasən dövlət katibi Ceyms Birnsdən xahiş edirdi ki, Moskva görüşündə müttəfiqlər İranla bağlı məsələləri, xüsusilə xarici orduların təxirə salınmadan İrandan çıxarılması və ölkəyə tam özünüidarə azadlığı verilməsi məsələlərini qaldırsınlar. O, yazırdı: "Bu bizə ölkədə qayda-qanun yaratmaq və Azərbaycanda dövlət müəssisələrini dağıdan, dövlət məmurlarını öldürən mühacirlərin (vaxtı ilə SSRİ-dən İrana mühacirət etmiş adamlar nəzərdə tutulurdu – C.H.), habelə naməlum şəxslərin qarşısını almağa imkan verərdi. Əgər iflic vəziyyəti davam edərsə, biz gələcəkdə də öz yolumuzda maneələrlə qarşılaşsaq, onda İran Azərbaycanında və şimal vilayətlərində təhlükəsizlik qüvvələri kəskin şəkildə zəifləyəcək, kütlənin və pozucu ünsürlərin təsiri altına düşəcəkdir".[89] Xarici orduların İrandan çıxarılması məsələsi ABŞ-ın SSRİ-yə göndərdiyi notada əks olunmuşdu, lakin Moskva Birləşmiş Ştatların "bütün müttəfiq ordularının

---

[87] Ettelaat, 1945, 10 dekabr

[88] Bax: Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History, 2011, Vol. 46(1), p. 66

[89] The Iranian Ambassador (Ala) to the Secretary of State. 10.12.1945. // Foreign Relations of the U.S. 1945. Vol.VIII, pp.487-488

yanvarın 1-nə qədər İrandan çıxarılması" təklifini qəbul etmədi.[90] Elə həmin gün mətbuat üçün verdiyi açıqlamada Əla bəyan edirdi ki, üç nazirin qarşıdakı konfransı ikinci Münxen olmamalıdır və necə olursa-olsun İranın suverenliyi təmin edilməlidir.[91] Bütün diplomatik yazışmalarda "İranın suverenliyi" dedikdə, həmin vaxt, məhz, Azərbaycan hərəkatının boğulması nəzərdə tutulurdu.

Lakin bütün təzyiqlərə baxmayaraq Moskva orduların İrandan vaxtından əvvəl çıxarılması ilə razılaşmadı. Sovet hökuməti adından Dövlət Departamentinə göndərilmiş cavabda göstərilirdi ki, xarici orduların İrandan vaxtından əvvəl çıxarılmasına xüsusi bir zərurət yoxdur. İran Azərbaycandakı böhrandan ABŞ-ın narahatçılığına gəldikdə isə sovet notasında deyilirdi: "Şimali İranın Ümumxalq Məclisinin Bəyannaməsi dərc olunduqdan sonra aydın olmuşdur ki, İranın şimalında yaşayan Azərbaycan əhalisinin demokratik hüquqlarının təmin edilməsi, onların İran dövləti daxilində muxtariyyət alması (özünüidarə və milli dildən istifadə sahəsində) Azərbaycan xalqının milli iradəsinin təzahürü məsələsidir".[92] Sovet İttifaqının öz ordularını İrandan çıxarmağa tələsməməsi və bu məsələ ilə bağlı müttəfiqlərin təzyiqlərinə məhəl qoymaması nə ilə bağlı idi? Şübhəsiz ki, burada Kremlin strateji maraqları var idi və ən yaxın məqsəd isə neft konsessiyası almaq üçün İran hökumətinə təzyiq imkanlarını saxlamaq, İran məclisinə keçiriləcək seçkilərə təsir göstərmək, ən nəhayət isə, İranın şimalında milli-azadlıq hərəkatını müdafiə etməkdən ibarət idi. Ümumiyyətlə, professor Vladimir Peçatnov müharibə başa çatdıqdan sonra SSRİ-nin Şimali İranda fəallığının güclənməsini, Moskvanın bu ölkəni sovet təsir zonasına çevirmək arzuları ilə izah edir və sovet rəhbərliyinin buna müharibəyə verdiyi töhfəyə görə qanuni "payı" kimi baxdığını yazırdı.[93] Digər rus alimi professor Nataliya Yeqorova isə

---

[90] Time, 1945, 17 December, p.38

[91] SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevin ÜİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.// RDSSTA, f.17. s.128, i.93, v.38; Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967, p.83

[92] Current History, 1946, №54, p.164

[93] Владимир Печатнов. Сталин, Рузвельт, Трумэн: СССР и США в 1940-х гг. Москва, 2006, с.339

İranın şimalında Sovet İttifaqının fəallığının bu ərazidə yaşayan etnik azərbaycanlılarla bağlı olduğunu bildirirdi. Onun fikrincə "şimal vilayətlərində bu hərəkatın xüsusi tarixi kökləri var idi və bu da İran Azərbaycanında azərbaycanlı çoxluğunun dəfələrlə yerli xanlar və mərkəzi hökumətin jandarm qüvvələri tərəfindən boğulmuş çıxışlarında öz ifadəsini tapırdı".[94]

Kayler Yanq Təbrizdəki beş günlük ezamiyyətdən Tehrana dönən kimi dekabr ayının 12-də səfir Mörrey onun məruzəsini Moskvaya yola düşməyə hazırlaşan dövlət katibi Birnsə göndərdi. O, yazırdı: "Bu gün Təbrizin "demokratlar" tərəfindən tutulması gözlənilir. Azərbaycan valisi Bayat və Təbrizdəki İran ordusunun komandanı Ələkbər Deraxşani Yanqa bəyan ediblər ki, onlar şəhəri müdafiə edə bilməyəcəklər və gücləri valinin evi ilə ordu kazarmalarını qorumağa ancaq yetər. Təbrizdə "Azərbaycan məclisinin birinci iclası keçiriləcək və iclasda 10 nazirdən ibarət kabinet seçiləcək. Müdafiə və Xarici İşlər nazirlərindən başqa bu nazirlərin hamısı İran hökumətindəki kimi portfellərə sahib olacaqlar...Demokratların Təbrizdə keçirdikləri iclaslar sovet uniforması geymiş əsgərlər tərəfindən qorunur. Yanq öz gözləri ilə görüb ki, Təbrizdən çıxmaq istəyən İran hərbi hissələri ruslar tərəfindən nəzarət edilən yol gözətçi məntəqələrindən necə buraxılmayıb. Bundan başqa o, Ərdəbildən yenicə alınmış İran ordusunun rəsmi raportu ilə tanış olmuşdur. Raportda deyilir ki, orada yerləşən sovet ordusu hücuma məruz qalmış jandarm məntəqəsinə köməyə tələsən ordu maşınının qarşısını kəsib onu geri qayıtmağa məcbur etmişdi. Sovet komandanlığı İran ordusunun komandanlığına öz ordularının yerdəyişməsini qadağan etmişdir. Rezaiyyə istisna olmaqla Azərbaycanın bütün yaşayış məntəqələrinə de-fakto demokratlar nəzarət edir. İran dövlət məmurları Yanqa etiraf ediblər ki, onlar artıq heç nəyə nəzarət etmirlər. Dövlət məmurları təsdiq edirlər ki, "demokratların" son hərəkətləri gözlənildiyindən müqayisəyə gəlməz dərəcədə fəal olmuşdur".[95]

---

[94] Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.31

[95] The Ambassador in Iran (Murray) to the Secretary of State. 12.12.1945. // Foreign Relations of the U.S. 1945. Vol.VIII. pp.490-491

Hadisələrin artıq gərgin xarakter aldığı dekabr ayının 10-da SSRİ-nin Tehrandakı Müvəqqəti işlər vəkili Əhəd Yaqubov gizli şəkildə İranın tanınmış siyasətçisi Mirzə Əhməd Qəvam əs-Səltənə ilə görüşdü. Qəvam dedi ki, Britaniya səfirliyinə yaxın olan bir adam səfirlikdəki mənbəyə istinadən ona deyib ki, əgər Qəvam hakimiyyətə gəlsə Birləşmiş Krallığın İranda mövqeləri zəifləyəcək. Həmin adam ona məsləhət görüb ki, britaniyalıların münasibətini yumşaltmaq üçün İngiltərə səfiri ilə görüşməyə cəhd etsin. Eyni zamanda, Qəvam bildirdi ki, Azərbaycan məsələsində məsləhət almaq üçün dekabr ayının 9-da Baş nazir onu, Motamon ol-Mülkü, Əli Mənsuru, Mostaşar od-Dövləni, Bahar ol-Mülkü yanına çağırıb və geniş müzakirə keçirib. Həmin görüşdə Qəvam Həkimülmülkə deyib ki, Azərbaycana ordu göndərilməsini səhv iş hesab edir. Daha sonra Qəvam qeyd etdi ki, o, hakimiyyətə gələndən sonra ölkədə vəziyyəti sabitləşdirmək iqtidarında olmayan məclisi buraxmaq fikrindədir. Söhbət zamanı o, hakimiyyətə gəlmək üçün şansının gün-gündən artdığını vurğuladı.[96] Eyni zamanda, Yaqubovun həmin gün görüşdüyü İran XİN-nin yüksək vəzifəli əməkdaşı Həmid Səyyah ilə olan söhbət də Qəvamın hakimiyyətə gəlmək ehtimalının böyük olduğunu təsdiq edirdi. Söhbətin gedişində Səyyah vicdanlı İran xadimlərinin Qəvamın hakimiyyətə gəlməsini zərurət hesab etdiklərin bildirmişdi, lakin əlavə etmişdi ki, ingilis səfiri ser Bullard qəti şəkildə onun əleyhinədir və öz yaxın adamları vasitəsi ilə Qəvamın əleyhinə təbliğat aparır.[97] Əlbəttə, Britaniya səfiri ilə bağlı hər iki görüşdə sovet Müvəqqəti işlər vəkilinə ötürülən məlumat Azərbaycan hadisələri fonunda hakimiyyətə can atan və İran cəmiyyətində ingilislərin adamı kimi tanınan Qəvamın daha çox öz oyunu idi və bu oyun Sovet İttifaqından effektli yardım almağa hesablanmışdı.

Əhəd Yaqubov dekabrın 10-da Tehrandakı Amerika səfiri Mörreylə də görüşdü. ABŞ səfiri məlumat verdi ki, indi İranda qalan Amerika əsgərlərinin sayı 2500 nəfərdən çox deyildir və dekabrın

---

[96] Ə.Yaqubovun Qəvam əs-Səltənə ilə söhbəti. 10.12.1945.// RFXSA, f.094, s.37, q.5, i.357a, v.4-6
[97] Ə.Yaqubovun H.Səyyahla söhbəti. 10.12.1945.// RFXSA, f.094, s.37, q.5, i.357a, v.32

sonuna qədər general Ridl başda olmaqla kiçik rütbəli zabit heyəti istisna olmaqla bütün Amerika əsgərləri İrandan çıxarılacaqdır. Eyni zamanda Mörrey dedi ki, bir neçə gün əvvəl Tehrandakı Amerika səfirliyinin keçmiş əməkdaşı cənab Maynor gəlib və o, yaxın günlərdə Təbrizə getmək istəyir. Səfirin sözlərinə görə Maynor oradan qayıdandan sonra o, Azərbaycandakı vəziyyət haqqında Dövlət Departamentinə məruzə hazırlamalıdır.[98] İngilislər də Azərbaycandakı vəziyyəti öyrənməyə ciddi maraq göstərirdilər. Bu məqsədlə dekabr ayının 12-də Təbrizdəki Britaniya konsulu Uoll şəhər ətrafında vəziyyəti öyrənmək məqsədilə Marağa yoluna çıxmışdı, lakin onun maşını fədailər tərəfindən saxlanmış və özünə Təbrizə qayıtmaq təklif edilsə də, o, bundan imtina etmiş və fədai dəstələrinin başçısı ilə görüşmək istədiyini bildirmişdi. Üsküyə aparılarkən Uoll öz tərcüməçisi vasitəsi ilə fədailərin silahı haradan alması, fədailərin sayı və sair məsələlərlə bağlı çoxlu suallar vermişdi. Söhbət zamanı o, demişdi: "Tehran Azərbaycana muxtariyyət verməz. Sizin pulunuz yoxdur, siz ayrı yaşaya bilməzsiniz".[99] Üsküdə fədai dəstəsinin başçısı Uollu dərhal azad etmiş və gecə o, Mehabad istiqamətində yoluna davam etmişdi.

§3. Cənubi Azərbaycanda ADP-nin qələbəsində Sovet Azərbaycanının rolu

Dekabr ayının 11-də kiçik istisnalarla artıq bütün Cənubi Azərbaycan ADP-nin nəzarəti altında idi. Marağa, Sərab, Bostanabad, Mərənd və Sofiyan fədailər tərəfindən ələ keçirilmişdi. Təbriz mühasirəyə alınmış, oradakı İran ordusunun Tehran və digər yerlərlə əlaqələri tamam kəsilmişdi. Milli Məclisinin sessiyasının açılması və milli hökumətin təşkili üçün son hazırlıq işləri görülürdü. Şəhərdə yaranmış vəziyyət, sabahkı tədbirlərə hazırlıq işlərinin səviyyəsi, hökumət proqramının son variantı, Pişəvəri və Şəbüstərinin təklifi ilə

[98] Ə.Yaqubovun U.Mörrey ilə söhbəti. 10.12.1945.// RFXSA, f.094, s.37, q.5, i.357, v.7-9
[99] I.Maslennıkovun M.C.Bağırov və S.Yemelyanova məlumatı.13.12.1945.// ARPİİSSA, f.1, s.89, i.101, v.185

məclisdə əlavə olaraq büdcə və xalq qanunvericiliyi komissiyasının yaradılması və sair məsələlər barədə "Bakı üçlüyü" Bağırova müfəssəl məlumat göndərdi.[100] Dekabr ayının 11-də Bakıdan birbaşa rabitə xətti ilə sabah elan olunacaq hökumət proqramına Moskva ilə razılaşdırılmış son tövsiyələr göndərildi. Ümumiyyətlə, məclisin açılışı ərəfəsindəki son iki gün ərzində Təbriz, Bakı və Moskva arasında fasiləsiz olaraq davam edən teleqramlarda yeni Azərbaycan hökumətinin proqramına axırıncı əlavələr və düzəlişlər edildi.[101] Burada xüsusi mülkiyyətin dövlət tərəfindən qorunması, dinin insanların öz şəxsi işi olması, dini inanclara görə insanların təqib edilməsinin yolverilməz olması, sənaye və kənd təsərrüfatının inkişafı istiqamətində ayrı-ayrı şəxslərin təşəbbüslərinin yeni hökumət tərəfindən müdafiə edilməsi, Azərbaycanın İranın hüdudlarında qalması və İran hökumətinin bütün qanuni tələblərinin yerinə yetirilməsi kimi əlavələr yer almışdı.[102] Bağırovun təlimatlarında göstərilirdi ki, əvvəlcədən nəzərdə tutulanlardan başqa heç bir yeni parlament komissiyası yaradılmasın. Eyni zamanda, o, tövsiyə edirdi ki, məclisin iclası zamanı Təbrizdə əhali arasında heç bir çaxnaşmaya yol verilməsin və hakimiyyətin qan tökülmədən dinc yolla yeni Azərbaycan hökumətinin əlinə keçməsi təmin edilsin. Dekabr ayının 11-də Bağırov Azərbaycan Milli Məclisinin açılışı ilə bağlı son hazırlıq tədbirləri haqqında Moskvanı məlumatlandırdı.[103]

Milli Məclisin sessiyasının işə başlaması ərəfəsində ÜİK(b)P MK Siyasi Bürosunun 6 iyul 1945-ci il tarixli qərarının yerinə yetirilməsinin gedişi haqqında Təbrizdəki "Bakı üçlüyü"nün üzvü M.İbrahimov, Daxili İşlər Xalq komissarı M.Yaqubov və Dövlət Təhlükəsizlik Xalq komissarı S.Yemelyanov hadisələrin sonrakı

---

[100] M.İbrahimov, H.Həsənov və A.Atakişiyevin M.C.Bağırova məlumatı. 11.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.216-222

[101] Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, p.102

[102] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.408

[103] Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, p.102

inkişafı ilə bağlı öz təkliflərini Bağırova təqdim etdilər. Onlar yazırdılar ki, dekabr ayının 12-də Azərbaycan Milli Məclisinin birinci sessiyasının açılışı və Azərbaycan muxtar hökumətinin təşkili nəzərdə tutulur. Onların fikrincə, dekabr ayının 15-20-si arasında yerli hakimiyyətin irticaçı İran məmurlarından yeni Azərbaycan hökumətinə keçməsi prosesi təmin edilməli və bununla da Azərbaycanda milli-azadlıq hərəkatının birinci mərhələsi başa çatmalı idi. Sənəddə göstərilirdi ki, ADP MK-nın rəhbərləri və Milli Komitənin liderləri İran Azərbaycanında milli muxtariyyət hərəkatının sonrakı gedişindən, onun hansı istiqamətdə inkişaf edəcəyindən qayğılanırlar. Milli-azadlıq hərəkatının birinci mərhələsinin təhlili əsasında qeyd olunurdu ki, əgər şah və İran hökuməti Azərbaycan muxtariyyətini rəsmən tanısalar belə, sovet ordusu Şimali İran hüdudlarından çıxdıqdan sonra vəziyyət köklü şəkildə dəyişə bilər, ADP liderlərinin fikrincə, İranda istənilən hökumət sovet ordusunun çıxarılmasından istifadə edib silah gücünə Azərbaycan muxtariyyətini ləğv edəcəkdir. Sovet Azərbaycanının Təbrizdə olan rəhbər işçiləri demokratların bu fikrini bölüşürdülər. Azərbaycanın milli hüquqlarının tanınmamasını onlar İran hökumət dairələrinin, ölkənin həyatında fəaliyyət göstərən ictimai-siyasi qüvvələrin böyük dövlətçilik azarına, fars şovinizminə tutulmaları ilə izah edirdilər. M.C.Bağırova məktubda hər üç məsul şəxs bu fikrə gəlirdilər ki, "İran Azərbaycanında yaşayan əhalinin milli hüquqlarının müdafiə olunmasının yeganə təminatı Monqolustan Xalq Respublikası formasında müstəqil xalq demokratik dövlətinin yaradılmasıdır". Onların fikrincə, hadisələrin inkişafı və irticaçı Tehran hökumətinin Azərbaycan xalqının tələblərinə anlamaz münasibəti İran Azərbaycanında müstəqil xalq demokratik hökumətinin yaradılmasını qaçılmaz zərurətə çevirir. Sənəddə deyilirdi: "Tarixi ədalətsizliyi ləğv etmək, Azərbaycan xalqının bir əsrlik arzu və istəklərini təmin etmək məqsədilə biz Milli Komitə və ADP MK-nın İran Azərbaycanında milli-azadlıq hərəkatının ikinci mərhələsinin başlıca vəzifəsi kimi Monqolustan Xalq Respublikası formasında

dövlət yaradılmasını düzgün təklif hesab edirik".[104] Lakin sovet rəhbərliyi İran Azərbaycanı məsələsində daha dərinə getməyə qərarlı idi. Sovet Azərbaycanına etnik tellərlə bağlı olan İran Azərbaycanına muxtariyyət alınacağı təqdirdə SSRİ-nin İranda və bütün Orta Şərqdə siyasi nüfuzu əhəmiyyətli dərəcədə güclənə bilərdi. Bununla belə, sovet diplomatiyası Bakı və Təbrizin millətçilik dalğasında İran Azərbaycanına daha çox SSRİ-nin bir hissəsi kimi baxırdı.[105] Azərbaycandakı hadisələrin təxminən bu istiqamətdə cərəyan edəcəyini İran siyasi və hərbi dairələri də güman edirdilər. Baş qərargah rəisi general Həsən Ərfə sonralar Nyu Yorkda nəşr etdirdiyi xatirələrində yazırdı: "Bu regionun İrandan ayrılıb Sovet Azərbaycanına ilhaq edilməsi prosesi başlanmışdı".[106]

Nəhayət, ciddi hazırlıq tədbirlərindən və Sovet Azərbaycanı rəhbərliyi ilə razılaşmadan sonra 1945-ci ilin dekabr ayının 12-də (İran təqvimi ilə 1324-cü ilin Azər ayının 21-də) səhər saat 10-da Təbrizin "Didibani" kinoteatrının binasında Azərbaycan Milli Məclisinin ilk sessiyası açıldı. Azərbaycan xalqının tarixində və taleyində mühüm hadisə olan "21 Azər" günü tarixə qovuşdu. Həmin gün Azərbaycan Teleqraf Agentliyinin Təbrizdən Bakıya göndərdiyi məlumatda göstərilirdi: "Hər bir adamın bioqrafiyasında unudulmaz tarixlər olur, hər bir xalqın və dövlətin tarixində belə günlər daha çoxdur. 21 Azər (12 dekabr) günü Şimali İranda yaşayan beş milyon azərbaycanlıların yaddaşına həmişəlik həkk olunacaqdır".[107] Hələ sessiya işə başlamazdan əvvəl sovet nümayəndələrinə məlumat gəldi ki, şəhərdə atışma gedir. Təbrizin sovet komendatlığının köməkçisi məlumat verdi ki, fədai dəstələri şəhərə daxil olmaq istəyirlər, lakin jandarm qüvvələri müqavimət göstərdiyindən tərəflər arasında atışma

---

[104] M.İbrahimov, M.Yaqubov və S.Yemelyanovun "İran Azərbaycanı milli-azadlıq hərəkatının ikinci mərhələsinin başlıca vəzifələri haqqında" M.C.Bağırova təklifləri. 11.12.1945.// ARPİİSSA, f.1, s.89, i.97, v.76-78

[105] Ətraflı məlumat üçün bax: RFXSA, f.06, s.7, q.33, i.476, v.6; Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.332

[106] Hasan Arfa. Under Five Shah's. New-York, 1965, p.347

[107] V.Çernışev. Arazın o tayında. 20.12.1945.// ARPİİSSA, f.1, s.89, i.111, v.165

başlayıb. Məclisin açılması günündə Bakının sabitlik tələb etdiyi bir məqamda bu hadisənin baş verməsi Təbrizdə olan Sovet Azərbaycanı nümayəndələrini ciddi şəkildə narahat etdi. Onların planına görə fədai dəstələri indi şəhərə daxil olmamalı idilər, onlar işarə gözləməli və zərurət yarandığı məqamda Təbrizə girməli idilər.[108]

Azərbaycan Milli Məclisinin ilk sessiyasında əyalətin müxtəlif yerlərindən seçilmiş 95 vəkildən 76-sı iştirak edirdi. Məclisin tarixi iclasını ən yaşlı millət vəkili, iri torpaq sahibkarı Nizamüddövlə Rəfiyi açdı. Onun işində Təbrizdəki bir sıra diplomatik idarələrin nümayəndələri, dövlət idarələrinin təmsilçiləri, tanınmış tacirlər, SSRİ-nin İranla mədəni əlaqə cəmiyyətinin Təbriz filialının rəhbərliyi və digər şəxslər iştirak edirdilər. Louis Favsett yazır ki, Təbrizdəki yüksək rütbəli diplomatlardan yalnız sovet Baş konsulu demokratların dəvətini qəbul edib məclisin açılış mərasimində iştirak etmişdi.[109] İclasın Rəyasət Heyəti formalaşdırıldıqdan sonra Məclisin daxili nizamnaməsi və hökumətin tərkibi haqqında gərgin müzakirələr oldu. Bir sıra deputatlar Nazirlər Kabinetinin tərkibində Xarici işlər nazirliyinin olmasını da tələb edirdilər, lakin Pişəvəri izah etdi ki, Azərbaycan öz muxtariyyətini İran dövlətinin hüdudlarında elan etdiyindən, Xarici İşlər nazirliyi yaratmağa heç bir zərurət yoxdur. Böyük səs çoxluğu ilə iclas hökumətin tərkibində Xarici İşlər nazirliyini yaratmağı lazım bilmədi. Bundan sonra Mirzə Əli Şəbüstəri Azərbaycan Milli Məclisinin sədri, Sadıq Padeqan, Nizamüddövlə Rəfiyi və Həsən Cövdət məclis sədrinin müavinləri seçildilər.[110] Qəbul olunmuş nizamnaməyə əsasən Şəbüstəri Azərbaycan hökumətinin təşkilini məclis seçkilərində səs çoxluğu qazanmış ADP-nin lideri Pişəvəriyə tapşırdı. Elə iclasın gedişində Təbriz şəhər jandarm idarəsinin iki nümayəndəsi içəri girib dünən fədailərin tərksilah olunmaq barədə onlara verdiyi ultimatumu qəbul etdiklərini bildirdilər. Məclis Qulam Yəhya Daneşian və Mirrəhim Vilayiyə

---

[108] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.409

[109] Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaıjan crisis of 1946. Cambridge Univercity Press, 1992, p.35

[110] Xaterat doctor Nüsrətulla Cahanşahlu Afşar. Sərgozəşt. Ma və biganegan. Berlin, 2001, s.400-402

tapşırdı ki, jandarm idarəsini və silahları rəsmi şəkildə sənədləşdirib qəbul etsinlər. Bununla da sessiyanın səhər iclası başa çatdı. "Didibani" kinoteatrı qarşısında toplanmış çoxsaylı Təbriz sakinləri fasiləyə çıxan məclis üzvlərini alqışlarla qarşıladılar.[111] Dekabr ayının 7-də Miyanədən Təbrizə çağırılmış Qulam Yəhya öz xatirələrində yazır: "Pişəvəri təklif etdi ki, əmniyyə rəisi ilə danışmaq Qulam Yəhya və Mirrəhim Vilayiyə tapşırılsın. Hamı razılıq verdi. Biz yerimizdən qalxıb, tapşırığı icra etməyə gedərkən həyətdə Babkinə (sovet zabiti – C.H,) rast gəldik. O, dedi ki, maşınım hazırdı, hara getsəniz apara bilərəm. Biz haraya getdiyimizi ona dedik, lakin onun getməsini məsləhət görmədik. O, bizdən ayrılmaq istəmədi. Bizimlə jandarm idarəsinə getdi. Daha doğrusu bizi oraya apardı".[112]

Dekabrın 12-də gündüz "Bakı üçlüyü"nün üzvləri Moskvadan yenicə qayıtmış Təbrizdəki sovet ordusunun hərbi şurasının üzvü general Russovun iştirakı ilə Atakişiyevin evində toplanıb hadisələrin gedişini müzakirə edirdilər. Onlar ümumi şəkildə hökumətin təxmini iş planını tərtib etdilər və qərara aldılar ki, bu planı axşam Pişəvərinin iştirakı ilə müzakirə etsinlər. Qeyd edilən iclasda razılığa gəlindi ki, əgər general Deraxşani silahı yerə qoyub Tehrana getmək arzusunu bildirsə, onun arzusunu təmin etmək lazımdır. Təbrizdəki sovet rezidenti N.Quliyev başda olmaqla kəşfiyyat orqanları Deraxşani ilə bunu gizli şəkildə razılaşdırmışdılar. Atakişiyevin evində müzakirələr zamanı Baş konsul Krasnıx "Bakı üçlüyü"nə məlumat verdi ki, Bayat qan tökülməsinə yol verməmək üçün ordu, polis və jandarm qüvvələrinə fədai dəstələrinə qarşı müqavimət göstərməmək haqqında sərəncam verdiyini Rövşəni vasitəsi ilə ona çatdırıb. Bir müddət sonra isə Bayat sovet konsuluna xəbər göndərmişdi ki, o, Tehrana getmək istəyir və xahiş edirdi ki, onun uçuşunu təmin etsin. Məclisin axşam iclasından əvvəl Pişəvəri də "Bakı üçlüyü"nün toplantısına qatıldı və hökumətin

---

[111] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı.12.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.240-242; Təbriz qarnizonunun təslim olma prosesi haqqında ətraflı məlumat üçün bax: Genaral Qulam Yəhya. Xatirələr. Bakı, 2006, s. 46-48

[112] Genaral Qulam Yəhya. Xatirələr. Bakı, 2006, s. 46-47

tərkibi haqqında son dəqiqləşmələr aparıldı. Pişəvəri bildirdi ki, o, öz hökuməti adından Bayat və Deraxşanin yanına nümayəndə göndərib ki, onlar milli hökumətə tabe olsunlar. Bayat deyib ki, onun Azərbaycan milli hökuməti əleyhinə heç bir iddiası yoxdur və sabah Tehrana uçur. Deraxşani isə bildirib ki, o, indiyə qədər ADP-yə qarşı heç bir addım atmayıb, əksinə əsgərlərə əmr verib ki, fədai dəstələrinə müqavimət göstərməsinlər. Deraxşanı xahiş edib ki, sabah onu milli hökumətin başçısı Pişəvəri qəbul etsin. Pişəvəri buna razılıq verdiyini "Bakı üçlüyü"nə bildirdi.[113]

Dekabr ayının 12-də keçirilən axşam iclasının başlıca məsələsi Azərbaycan milli hökumətinin təşkil edilməsi idi.[114] Pişəvərinin təqdimatı üzrə hökumət kabineti aşağıdakı tərkibdə təşkil edildi: Seyid Cəfər Pişəvəri – Baş nazir, Salamulla Cavid – Daxili İşlər naziri, Qulamrza İlhami – Maliyyə naziri, Rza Rəsuli – İqtisadiyyat və Ticarət naziri, Cəfər Kavian – Xalq orduları naziri, Həsən Orəngi – Səhiyyə naziri, Mirzə Rəbi Kəbiri – Poçt və teleqraf naziri, Yusif Əzima – Ədliyyə naziri, Cavid Məhtaş – Kənd təsərrüfatı naziri, Məhəmməd Biriya – Maarif naziri.[115] Axşam iclasında Zeynalabdin Qiyami Ali

---

[113] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.411

[114] Krestin Bleyk öz kitabında Azərbaycan milli hökumətinin təşkilinə toxunaraq, orada "Azərbaycan Muxtar Respublikası"nın yarandığını yazır. Bax: Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War, p.33

[115] İran Azərbaycanı milli hökumətinin tərkibi haqqında SİTA-nın məlumatı. 12.12.1945.// RFDA, f.5451, s.72, i.861, v.46; SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevin UİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.// RDSSTA, f.17. s.128, i.93, v.13; Faramraz S.Fatemi. The USSR in Iran. New-York-London, 1980, pp.89-90; G.Lenczowski. Russia and the West in Iran, 1918-1948. New-York, 1948. p.289; William O. Douglas. Strange Lands and Friendly People. New York: Harper and Brothers,1951, p.43; Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967, p.77; Azərbaycan milli hökumətinin üzvləri haqqında bioqrafik məlumat üçün bax: Xaterat doctor Nüsrətulla Cahanşahlu Afşar. Sərgozəşt. Ma və biganegan. Berlin, 2001, s. 370-390; Ervand Abrahamian. Communizm and Communalism in Iran: The Tudah and the Firqah-i Dimukrat.// International Journal of Middle East Studies, October 1970, 1(4), pp.309-310; Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992, pp.45-49. Lakin müəllifin verdiyi bioqrafik məlumatlarda bəzi qeyri-dəqiqliklərə də vardır. Məsələn, Pişəvərinin 1880-ci illərin sonu - 1890-cı illərin əvvəllərində Təbrizdə doğulması haqqında Favsettin məlumatları həqiqətə uyğun deyildir. Bax: Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992, p.51. Kristen Bleyk də Pişəvərinin Təbrizdə doğulduğunu yazır. Bax: Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War. University Press of America. Lanham, Boulder, New York, Toronto, Plymouth, UK. 2009, p.29. Halbuki, Pişəvəri 1892-ci ilin avqust ayının 26-da Xalxal mahalının Zeyvə kəndində doğulmuşdur. Bax: Əkrəm Rəhimli. Mübarizə burulğanında keçən ömür: Seyid Cəfər Pişəvəri. Bakı, 2009, s.20

Məhkəmənin sədri, Firudin İbrahimi isə Azərbaycan Prokuroru təyin edildi.[116] Kabinet formalaşdırıldıqdan sonra Pişəvəri hökumət proqramı ilə çıxış etdi. 19 bənddən ibarət olan hökumət proqramında Azərbaycan muxtariyyətinin mövcudluğu haqqında bütün dünya bəyan edilir, bu muxtariyyətin İranın ərazi bütövlüyünü pozmadığı bildirilir, Azərbaycan hökumətinin demokratik əsaslarla qurulduğu qeyd edilirdi. Hökumət milli büdcənin yaradılması və maliyyə ehtiyatlarının ölkənin maraqlarına tabe edilməsi, Azərbaycan muxtariyyətinin qorunması və onun mövcudluğunun təmin edilməsi üçün hazırda fəaliyyət göstərən dəstələrin bazasında xalq ordusunun təsis edilməsini vacib sayırdı. Xalq maarifi ilə bağlı iki vəzifənin yaxın vaxtlarda həll edilməsi hökumətin qarşısında dayanırdı. Bunlardan birincisi, Azərbaycan dilini dövlət dili kimi yubanmadan bütün məktəblərdə tətbiq etmək, ikincisi isə, məktəb yaşına çatmış bütün uşaqların pulsuz icbari təhsilə cəlb edilməsi yolu ilə savadsızlığın ləğvi uğrunda mübarizəyə başlamaqdan ibarət idi. Əhalinin sənaye malları ilə təmin edilməsi üçün hökumət yeni müəssisələrin açılması, fabrik və zavodların fəaliyyətini nizamlamaq, ticarəti inkişaf etdirmək və sair məsələləri nəzərdə tuturdu. Bütün rabitə vasitələrinin işində qayda yaratmaq, şose yollarının təmir edilməsi təxirəsalınmaz vəzifə kimi elan olunurdu. Kəndlilərlə mülkədarlar arasında ziddiyyətlərin həlli, onların hər ikisinin maraqlarının təmin edilməsi üçün qanunların qəbul edilməsi zəruri hesab edilirdi. İşsizliyin ləğvi, əmək qanunvericiliyinin hüquqi bazasının yaradılması, ölkənin həyatında xüsusi mülkiyyətin tanınması, iqtisadiyyatın inkişafına yönəlmiş şəxsi təşəbbüslərin müdafiə edilməsi, pulsuz tibbi xidmətin təmin edilməsi, vicdan azadlığı və dini etiqad azadlığına hörmətlə yanaşılması, azərbaycanlılarla yanaşı, Azərbaycanda yaşayan bütün xalqların bərabərliyinin təmin edilməsi hökumət proqramında nəzərdə tutulurdu. Hökumət proqramında göstərilirdi ki, İran Azərbaycanının milli hökuməti mərkəzi İran hökumətini tanıyır və onun Azərbaycan muxtariyyəti,

[116] Qiyami və İbrahimi haqqında bax: Xaterat doctor Nüsrətulla Cahanşahlu Afşar. Sərgozəşt. Ma va biganegan. Berlin, 2001, s.391-392

Xalq Konqresinin Bəyannaməsi, Milli Məclisinin qərarları ilə ziddiyyət təşkil etməyən bütün tədbirlərini həyata keçirəcəkdir.[117] Hökumət proqramı elan edildikdən dərhal sonra yerli hakimiyyət orqanlarının qurulması prosesi başlandı. Bu məqsədlə hökumət vilayət, mahal, bölük və şəhər əncümənlərinə (özünüidarə orqanlarına) seçkilər keçirdi. Seçkilər gizli, müstəqim, ümumi və bərabər səsvermə yolu ilə həyata keçirilirdi.[118] Bu addım yerlərdə hakimiyyət orqanlarının formalaşmasında mühüm hadisə oldu. Amerikalı hüquqşünas Uillyam Duqlas milli hökumətin proqramını təhlil edərək yazırdı ki, Pişəvərinin proqramı sosialist məzmununa malik idi.[119] Azərbaycan milli hökumətinin qurulması ilə bağlı məsələlərə toxunan professor Svietoxovski bu mühüm hadisəni bir qərinə əvvəl sərhədin şimalında təşəkkül tapmış dövlətlə müqayisə edir. O, yazır: "Bu qurumlar arasında başlıca fərq 1918-ci ildə Bakının muxtariyyətinin müstəqilliyə yönəlməsi ilə səciyyələndiyi halda, 1945-ci ildə Təbrizin muxtariyyətindən sonrakı addım onun SSRİ tərəfindən udulmasında idi".[120]

Azərbaycan milli hökuməti təşkil edilən axşam Bayat Təbrizdəki Amerika konsulu ilə görüşüb Azərbaycandakı vəziyyəti müzakirə etmiş, sabahı isə sovet konsulu Krasnıxdan xahiş etmişdi ki, "İnturist" vasitəsi ilə onu Tehrana yola salsın. Baş konsul onun bu xahişini yerinə yetirmiş, "İnturist" vasitəsi ilə ona təyyarə ayırtdırmışdı. Yola düşərkən Bayat sovet konsulundan xahiş etmişdi ki, Qırmızı ordu şəhərdə qayda-qanun yaratmaq işinə öz köməyini əsirgəməsin. Krasnıxın Bayata müsbət cavabı Bağırovu hövsələdən

---

[117] İran Azərbaycanı milli hökumətinin proqramı. 12.12.1945.// RFDA, f.5451, s.72, i.861, v.40-42; SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevin ÜİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.// RDSSTA, f.17. s.128, i.93, v.14-15; Н И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.32; Bir sıra arxiv sənədlərində və xarici nəşrlərdə milli hökumətin proqramının 19 bənddən ibarət olduğu göstərilir. Lakin Pişəvərinin həyatından kitab yazmış azərbaycanlı müəllif öz əsərində proqramın 20 bənddən ibarət tam mətnini vermişdir. Bax: Əkrəm Rəhimli. Mübarizə burulğanında keçən ömür: Seyid Cəfər Pişəvəri. Bakı, 2009, s.213-216

[118] C.M.Vəkilov. Azərbaycan Respublikası və İran:40-cı illər. Bakı, Elm, 1991, s.72

[119] William O. Douglas. Strange Lands and Friendly People. New York: Harper and Brothers,1951, p.44

[120] Tadeusz Swietochowski. Russia and Azerbaijan: A Borderland in Transition. Columbia University Press, New York, 1995, p.148

çıxarmışdı. O, Stalinə yazırdı ki, "Krasnıxın cavabını məqbul hesab etmirik və bizim hərbçi yoldaşlara yenidən göstəriş verildi ki, gedən proseslərə müdaxilə etməsinlər, xüsusilə, o halda ki, şəhərdə qayda-qanun demokratların özləri tərəfindən təmin edilir".[121]

Azərbaycan milli hökuməti yarandıqdan sonra Bayatın vali kimi Təbrizdə qalması öz əhəmiyyətini itirmişdi. Pişəvərinin fikrincə, Səham əs-Sultanın Təbrizdə qalması ilə "Milli Məclis, milli hökumət və milli muxtariyyət düz gəlməyəcək idi... Ona görə Azərbaycanda Milli heyətin qərarı üzrə ağayi Bayatın yanına rəsmi bir heyət göndərib onun Azərbaycanı tərk edib getməsi lüzumunu bildirdik. O, isə heç bir qüdrət və köməyə dayana bilmədiyi halda özünün orada qalmasını israr etməsini zərərli hesab etdiyinə görə, bizim pişnəhadımızı qəbul etdiyini bildirdi".[122]

Dekabr ayının 13-də Tehran qəzetlərinin altı jurnalisti ilə birlikdə Azərbaycanda cəmisi 16 gün qalmış Bayat Təbrizi tərk etdi.[123] Yola düşməzdən əvvəl o, Pişəvəriyə zəng edib onunla vidalaşmaq istədiyini bildirdi. Pişəvəri və Şəbüstəri sovet konsulluğunun katibi ilə birlikdə Bayatı hava limanına qədər müşayiət etdi. Hava limanı yolunda fədailər onu saxlamaq istədilər, lakin maşında Pişəvərini gördükdə yolu onlar üçün açıdılar.[124] Bayatı yola salması ilə bağlı Pişəvəri yazırdı: "Biz kamilən biqərəz olduğumuz üçün onu təyyarə meydanınadək müşayiət etdik. Mən şəxsən təyyarə meydanında ona tələbatımızı qəbul etmək şərti ilə Tehran hökuməti ilə hər gün müzakirəyə hazır olduğumuzu bildirdim. Ona dövlətin silah gücü ilə Azərbaycanda nəzarət yaratmağın zərərlərini sayıb söylədim".[125] Bayat getdikdən sonra milli hökumətin üzvləri valinin iqamətgahına gəlib işə başladılar.

Milli hökumət fəaliyyətə başladıqdan sonra onun birinci addımı Təbrizdəki İran ordusunu tərk-silah etmək oldu. General Deraxşani vəd

---

[121] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı.13.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.244

[122] S.C.Pişəvəri. İran Azərbaycanı demokratik hərəkat tarixi. I cild, s.223

[123] Fakhreddin Azimi. Iran: the Crisis of Democracy. New-York, 1989, p.138

[124] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.412

[125] S.C.Pişəvəri. İran Azərbaycanı demokratik hərəkat tarixi. I cild, s.224

etdiyi vaxtda Pişəvərinin yanına gəlmədi. Onun danışıqlar üçün ayırdığı adamları isə Pişəvəri qəbul etmədi. Belə olduqda o, Azərbaycan hökumət başçısının yanına gəlib, fikirləşmək üçün ondan saat yarım vaxt istədi. Pişəvəri bununla razılaşdı, lakin vaxt tamam olduqda Deraxşanı xahiş etdi ki, ona daha bir gün vaxt verilsin. Pişəvəri bundan imtina etdi və bildirdi ki, o, fədai dəstələrinə sərəncam vermişdir ki, hərbi şəhərciyi mühasirəyə alsınlar və kazarmaları hücumla alsınlar. Vəziyyətin belə xarakter alması Təbrizdəki "Bakı üçlüyü"nü ciddi şəkildə narahat etdi. M.İbrahimov dedi ki, Deraxşani fədai qüvvələrinin gücünü yoxlayır, əgər görsə ki, fədailərin sayı çox deyil, o, Pişəvərinin sərəncamını yerinə yetirməkdən imtina edəcəkdir. Eyni zamanda, təhlükənin yaxınlaşdığını görən Deraxşani sovet ordularının komandanı general Qlinskiyə məktub yazaraq bildirmişdi ki, fədai dəstələri kazarmalara hücum edəcəyi təqdirdə, İran sərbazları müdafiə olunacaqlar. Yaranmış vəziyyəti müzakirə etmək üçün "Bakı üçlüyü"nün üzvləri, general Russov və Təbrizdəki korpusun qərargah rəisi general Lobov təcili olaraq Qlinskinin kabinetinə toplandılar. Onlar belə qərara gəldilər ki, fədai dəstələri kazarmaları hücumla almalı və İran əsgərlərini tərk-silah etməlidir. Fədailərin hücum əməliyyatı planı general Lobov tərəfindən hazırlandı və onlar şəhərin cənub-qərbində yerləşən kazarmalara dörd tərəfdən həmlə etməli idilər. Həmin gün məclisin axşam iclasında Pişəvəri yaranmış vəziyyət haqqında deputatlara məlumat verdi və xahiş etdi ki, Təbrizdəki İran qarnizonunun ləğv edilməsi işində deputatlar onun hökumətinin tədbirlərini müdafiə etsinlər. Məclis bu məsələdə yekdilliklə hökuməti müdafiə etdi.[126] Təbrizdə yerləşən 4-cü ordunun komandanlığından xahiş edildi ki, İran diviziyasının tərk-silah edilməsi üçün fədai dəstələrinin başçılarına kömək məqsədilə 4 sovet hərbi təlimatçısı verilsin, lakin Bakı Hərbi Dairəsinin komandanı, ordu generalı İvan Maslennikov bunu qadağan etdi. Onun əmrində göstərilirdi ki, fədai dəstələri üçün "heç bir təlimatçı ayrılmasın, Qlinski baş verən hadisələrə müdaxilə etməsin və bilavasitə mənim şəxsi göstərişlərimə uyğun olaraq

[126] Г. Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.412

korpusun döyüş hazırlığı ilə məşğul olsun. Atakişiyev bütün digər imkanlara malikdir, mənim icazəm olmadan, heç bir halda ona nə bir əsgər, nə bir zabit verilməsin".[127] Bundan az sonra general Atakişiyevə göstəriş verildi ki, Təbriz qarnizonuna qarşı hərbi əməliyyat aparılmasın, kazarmalar ətrafdan təcrid edilsin, onların ərzağı və suyu kəsilsin. Hərbi məsləhətçilərin fikrincə, bu halda əsgərlər silahı yerə qoyub təslim olacaqdılar. Deraxşani ona verilmiş vaxt ərzində Tehranla münasibətləri aydınlaşdıra bilmədi. O, Baş nazirə teleqrafla məlumat göndərmişdi ki, əgər dekabrın 13-ü axşam saat 9-a qədər təslim olmasaq, sovet qüvvələrinin yardımı ilə demokratlar hərbi düşərgələrə hücum edəcəklər. Həkimi hərbi nazir general Riyaziyə tapşırıq verdi ki, Baş qərargah rəisi Ərfə ilə birlikdə diviziyanın təslim olması haqqında əmri hazırlasınlar. Uzun müzakirələrdən sonra "rüsvayçı" əmri Baş özü imzalayıb Deraxşaniyə göndərdi.[128] Lakin gec idi, bu əmrin alınmasından iki saat əvvəl artıq Deraxşanı təslim olmuşdu. Belə ki, hadisələrin gərginlik məcrasına daxil olduğu bir məqamda vitse-konsul və xüsusi xidmət orqanlarının Təbrizdəki əsas rezidenti N.Quliyev "Bakı üçlüyü"nə məlumat vermişdi ki, onun adamları general Deraxşanini yola gətiriblər və o, axşam saat 8-də Pişəvərinin qəbuluna gələcək.[129]

Dekabr ayının 13-də axşam saat 8-də doğrudan da Deraxşani Azərbaycan hökumətinin iqamətgahına gəldi. Şəbüstəri, Cavid və Biriyanın iştirakı ilə Pişəvəri onu qəbul etdi. Deraxşani Təbriz qarnizonunun milli hökumətə tabe edilməsinə razılıq verdi və bir sıra zabitlərin sağ-salamat Tehrana getmələri üçün təminat istədi. Onun bu xahişi nəzərə alındı, lakın o, belə bir əmri Rezaiyyə və Ərdəbil briqadaları üçün verə bilməyəcəyini bildirdi. Bunu o, həmin briqadaların birbaşa Tehrana tabe olmaları ilə əsaslandırdı. Bütün məsələləri hüquqi müstəviyə keçirmək üçün Pişəvəri ilə Deraxşani arasında 7 bənddən ibarət müqavilə imzalandı.[130] Müqaviləyə görə Təbrizdəki

---

[127] Maslennikov və Klokovun Bağırov və Yemelyanova məlumatı.14.12.1945.// ARPİİSSA, f.1, s.89, i.101, v.187-188

[128] Hasan Arfa. Under Five Shah's. New-York, 1965, p.347-348

[129] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.413

[130] Təbrizdəki İran ordusunun təslim olması haqqında ətraflı məlumat üçün bax: Xaterat doctor Nüsrətulla Cahanşahlu Afşar. Sərgozəşt. Ma və biganegan. Berlin, 2001, s.338-341

İran ordusu Azərbaycan hökumətinə tabe edilir, ordunun silahları fədailərin nəzarətində olan anbarlara verilir, hökumətin icazəsi olmadan ordu kazarmadan çıxmırdı, zabitlərin hamısının bir aylıq əmək haqqı verilirdi, Təbrizdə xidmət etmək istəməyən zabitlərin Tehrana getmələrinə icazə verilir, Azərbaycanda qalıb xidmət etmək istəyən əsgər və zabitlərin silahı hərbi and qəbul edildikdən sonra onlara qaytarılırdı.[131] Sənəd imzalandıqdan sonra Deraxşani bildirdi ki, o, bir daha diviziyaya qayıtmaq istəmir və Pişəvəridən xahiş etdi ki, hökumətin binasında gecələmək üçün ona icazə verilsin. Deraxşaniyə icazə verildi ki, Azərbaycan Milli Məclisinin sədri Şəbüstərinin evində gecələsin.

Silahları təhvil almaq üçün Azərbaycan hökumətinin Daxili İşlər naziri Salamulla Cavid və Maliyyə naziri Qulamrza İlhami kazarmalara göndərildilər. Vəziyyət gərgin olduğu üçün "Bakı üçlüyü"nün üzvü H.Həsənov həmin axşam öz gündəliyində yazırdı: "Bu axşam saat 3-ə qədər biz yatmadıq. Gecə saat 3-də Pişəvəri bizim yanımıza gəldi və bildirdi ki, silahların təhvil verilməsi tədbirlərinə uyğun olaraq əsgərlər kazarmalardan evlərə buraxılırlar. Fədai dəstələri kazarmaları qoruyur. Bundan sonra biz sakitləşdik və yatağa uzandıq".[132]

Pişəvəri ilə Deraxşani arasında imzalanmış müqavilənin mətnini alan kimi Bağırov elə həmin axşam "Bakı üçlüyü"nün üzvlərinə göstəriş verdi ki, bütövlükdə Azərbaycanda olan İran ordusu, xüsusilə Rezaiyyə və Ərdəbil briqadaları tərk-silah edilmədən Təbriz diviziyasının əsgərlərinə silah paylanılmasın. O, qeyd edirdi ki, əgər general Deraxşani özünü düzgün aparırsa və həqiqətən İran hökumətinin repressiyalarından ehtiyat edirsə, ona köməklik göstərilsin və o, Tehranın təqiblərindən müdafiə edilsin.[133]

---

[131] Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967, pp.80-81; M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı.13.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.255; Təbriz qarnizonunun təslim olma prosesi haqqında ətraflı məlumat üçün bax: Genaral Qulam Yəhya. Xatirələr. Bakı, 2006, s. 48

[132] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.414

[133] M.C.Bağırovun A.Atakişiyev, H.Həsənov və M.İbrahimova təlimatı. 13.12.1945.//ARPİİSSA, f.1, s.89, i.97, v.256

Dekabr ayının 14-də səhər Təbriz ətrafında dayanan fədai dəstələrinin qalan hissəsi də mütəşəkkil şəkildə şəhərə daxil oldu. Səhər saat 8-dən 11-ə qədər Təbrizdə fədai dəstələrinin atəşfəşanlığı keçirildi, bəzi soyğunçuluq halları baş verdi, lakin hökumət tezliklə bunun qarşısını aldı. Təcili olaraq M.İbrahimov, H.Həsənov, A.Atakişiyev, Pişəvəri, Padeqan və doktor Cavid "Bakı üçlüyü"nün qərargahında toplanıb şəhərdə qayda-qanunun bərpa edilməsi məsələsini müzakirə etdilər. Qərara alındı ki, fədai dəstələri Təbrizdən çıxarılıb şəhərin ətrafını qorusunlar, onlara kiçik həcmdə əmək haqqı verilsin, vilayət və qəzalarda fərmandarların və bəxşdarların təyin edilməsi işi sürətləndirilsin. Baş nazir Pişəvəri bəyan etdi ki, bütün idarə və müəssisələr milli hökumətin əlindədir. Bununla da Sovet İttifaqının, ilk növbədə isə Sovet Azərbaycanın yaxından iştirakı, siyasi, diplomatik, milli və mənəvi yardımı ilə Cənubi Azərbaycan milli-azadlıq hərəkatının birinci mərhələsi – hakimiyyətin ələ alınması prosesi başa çatdı.

Təbriz hadisələrindən sonra Ərdəbildə İran briqadasının təslim olması prosesi çox çəkmədi. Dekabrın 14-də Məhəmməd Vəndin rəhbərlik etdiyi fədai dəstələri Meşkinşəhri aldılar, bundan az sonra Ərdəbil briqadası silahı yerə qoydu. Rezaiyyədə isə vəziyyət bir qədər mürəkkəb xarakter aldı. Bakıdan gələn təlimata uyğun olaraq Həsənov və İbrahimov maşınla, Maslennikovdan gələn əmrə əsasən general Russov hərbi təyyarə ilə Rezaiyyəyə yola düşdülər. Bakının nümayəndələri yol boyu Mərənd, Xoy və Şapurda fədai dəstələrinin köməyi ilə demokratların dinc yolla hakimiyyəti ələ aldıqlarının şahidi oldular. Bu şəhərlərdə fədai dəstə başçılarına ADP-nin yerli komitələrinin rəhbərlərinə bir sıra zəruri tövsiyələr verildi. Rezaiyyədə isə yerli irticaçıların yardımı ilə İran briqadasının komandiri Zənginə fədailərlə qarşıdurmada ağır hərbi texnikadan istifadə edərək onları şəhərdən çıxara bilmişdi. Rezaiyyə küçələrində ağır hərbi texnika saxlanılır və şəhərdə hərbi vəziyyət hökm sürürdü. Dekabr ayının 17-də Sovet Azərbaycanının nümayəndələri şəhərə yetişdilər. Həmin vaxt Rezaiyyəyə yetişmiş general Russov və buradakı sovet diviziyasının komandiri general Slepov onlara bildirdi ki, şəhərdə ağır vəziyyət yaranmışdır. Russov dedi ki, Bakının tapşırığına

uyğun olaraq o, general Slepovla birlikdə Zənginəni öz yanlarana çağırıb şəhərdə silahsız adamların öldürülməsinə son qoymağı ondan tələb etmişlər. Zənginəyə deyilmişdi ki, əgər o, fədailərə qarşı müharibə aparmaq istəyirsə, onu fədailərin yerləşdiyi şəhər ətrafında həyata keçirsin. Bu xəbərdarlıqdan sonra Zənginə əsgərlərin dinc adamlara qarşı hücumuna son qoymağa göstəriş vermişdi.[134]

Dekabr ayının 17-də axşam general Russov və Atakişiyev şəhərin sovet komendantlığının zabiti Əhmədovla birlikdə Rezaiyyədəki İran briqadasının ləğv edilməsi ilə bağlı əməliyyat planını hazırladılar. Bu plan dekabrın 18-dən 19-na keçən gecə həyata keçirilməli idi, lakin müzakirələrin gedişində məlum oldu ki, Mərənddən və Xoydan gələn 700 fədai artıq Rezaiyyə ətrafında əmr gözləyir. Təbrizdən fədai dəstələri üçün fasiləsiz olaraq tüfəng və hərbi sursat göndərilirdi. Bütün bunlar haqqında məlumat alan Zənginə general Slepovdan xahiş etdi ki, onu qəbul etsin. Söhbət zamanı o, bildirdi ki, Tehranla danışıq aparmaq üçün ona 48 saat vaxt verilsin və bu müddət ərzində fədailər briqadanın kazarmalarına hücum etməsinlər. General Slepov bildirdi ki, bununla bağlı o, heç bir təminat verə bilməz, çünki fədai dəstələrinin ruslara heç bir aidiyyəti yoxdur. Çarəsiz qalan Zənginə dekabr ayının 18-də Rezaiyyə ezam olunmuş Ədliyyə naziri Yusif Əzima ilə təslim olmaq haqqında müqavilə imzaladı. Bu Təbrizdə Deraxşani ilə imzalanmış sənədin eynisi idi. Bundan sonra Yusif Əzima valiliyin binasına gəlib dövlət idarəsini qəbul etdi və general Russovun təkidi ilə 400 nəfərlik fədai dəstəsi kazarmaları mühasirəyə alıb şəhərin vacib obyektlərinin mühafizəsini öz nəzarətinə aldı. İmzalanmış müqaviləyə uyğun olaraq İran briqadası dekabr ayının 19-da səhər saat 8-də silahı yerə qoydu. Bununla da Rezaiyyədə hakimiyyət Demokrat Firqəsinin yerli komitəsinin əlinə keçdi. Dekabrın 21-də şəhərdə olan Sovet Azərbaycanı nümayəndələri Mehabada yola düşdülər.[135]

Axşam onları Mehabadda öz evində Qazi Məhəmməd qarşıladı. O, Mehabbaddakı vəziyyət haqqında sovet nümayəndələrinə məlumat

---

[134] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.416-419
[135] Yenə orada, s.420-428

verdi və qeyd etdi ki, artıq 39 nəfərdən ibarət kürd əncüməni, 400 nəfərdən ibarət xalq ordusu yaradılıb, lakin orduya yazılmaq istəyən çoxdur, silah olmadığından adamlar orduya qəbul edilmir. Sovet nümayəndələri vəd verdilər ki, kürd hərbi birləşmələri üçün silah gətiriləcək. Sonra Qazi Məhəmməd qeyd etdi ki, Kürdüstan Demokrat partiyasının nüfuzu gün-gündən artır və demək olar ki, bütün kürd tayfa başçıları KDP-yə daxil olurlar. Sovet nümayəndələri təklif etdilər ki, Sulduzda azərbaycanlılarla kürdlər arasında yaranmış ziddiyyəti aradan qaldırmaq lazımdır. Onların fikrincə, Sulduzda azərbaycanlılar ADP-yə, kürdlər isə KDP-yə daxil ola bilərdilər. Qazi bununla razılaşdı və bildirdi ki, "kürdlər onun icazəsi olmadan Sulduzun mərkəzi olan Naqade şəhərinə kürd bayrağı sancıblar və sovet komendantı Bibin çox doğru hərəkət edərək şəhərə kürd bayrağı sancmağa icazə verməyib". Sonra Qazi məlumat verdi ki, hakimiyyət orqanlarının təşkili ilə bağlı bu günlərdə Təbrizdən məktub alıblar və bir çox kürdlər buna kürd muxtariyyətinin məhdudlaşdırılması kimi yanaşırlar. Bu məsələni dəyərləndirərkən Qazi dedi: "Kürdlər narahat olmamalıdırlar, onların baş məsləhətçisi (sovet məsləhətçisini nəzərdə tutur – C.H.) kürdlərlə necə hərəkət etməyi bilirlər. Əgər o, lazım bilsə Azərbaycanın tərkibinə girərik, əgər lazım bilsə ki, müstəqil olaq, elə də hərəkət edərik". Sovet nümayəndələri qeyd etdilər ki, Təbrizdən gəlmiş məktub anlaşılmazdır, onlar belə hesab edirlər ki, daxili məsələlərdə kürdlər öz Milli Komitələri tərəfindən idarə olunmalı, öz muxtariyyətlərinə malik olmalı və azərbaycanlılarla sülh və dostluq şəraitində yaşamalıdırlar.[136] Ümumi razılıq əsasında Qazi Məhəmməd 5 kürd nümayəndəsini Azərbaycan Milli Məclisində Kürdüstan Demokrat Partiyasını təmsil etmək üçün Təbrizə göndərdi, lakin kürd nümayəndələr Azərbaycan məclisində qalmağın onlar üçün elə bir mənası olmadığını anlayıb tezliklə Mehabada qayıtdılar. [137] Dekabr

[136] Yenə orada, s.428-429; İranda kürd hərəkatı ilə bağlı məlumat üçün bax: Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967, pp.87-90

[137] Bax: Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War, p.33; Tadeusz Swietochowski. Russia and Azerbaijan: A Borderland in Transition. Columbia University Press, New York, 1995, p.147

ayının 22-də Həsənov və Atakişiyev Mehabaddan Miandoaba gəldilər və burada şəhər komendantı Namazəliyevlə görüşdülər. O, məlumat verdi ki, Miandoabda İran ordusunun tərk-silah edilməsi dinc yolla başa çatdı və bu məsələdə ADP-nin yerli təşkilatı və onun rəhbəri Qulu xan Borçalı böyük rol oynadı. Həmin gün axşam Sovet Azərbaycanının nümayəndələri Təbrizə döndülər.

Dekabrın 14-də İran məclisinin Azərbaycan hadisələri ilə bağlı qapalı iclası keçirildi. Təbrizdən yeni qayıtmış Bayat baş vermiş hadisələr barədə məclisə məruzə etdi. O, 16 gün müddətində Azərbaycanda müşahidə etdiyi bütün məsələlər ətrafında məclisə geniş məlumat verdi və dedi ki, azərbaycanlılar öz səadətlərini "Şiri-Xurşid" bayrağı altında görürlər. Onların İrandan ayrılmaq niyyətləri yoxdur. Buna misal olaraq o, Pişəvərinin təşkil etdiyi hökumətdə Xarici İşlər və Hərbi nazir portfellərinin olmamasını gətirdi. Bayat hökumət üzvlərindən doktor Cavid və İlhami ilə görüşündən, habelə Pişəvərinin onu yola salmasından danışdı. Təbriz qarnizonundan söhbət açan Bayat qeyd etdi ki, qarnizon müqavimət göstərmək və Azərbaycanda vəziyyətə nəzarət etmək gücünə malik deyildir. Onun fikrincə, qarnizonun təslim olmaqdan başqa yolu qalmamışdı. Məclisdə şayiə yayılmışdı guya demokratların 70 minlik silahlı qüvvəsi vardır. Məclisdə odlu-alovlu çıxışlar edən deputatların çoxu bu məlumatdan həyəcanlandılar.[138]

Dekabrın 15-də Tehranda çıxan "Dariya" qəzetinin Azərbaycan hadisələrinə həsr olunmuş xüsusi nömrəsi çıxdı. Bu nömrədə Təbrizin demokratlar tərəfindən mühasirə edilməsi, Bayatın Təbrizdə sovet Baş konsulu ilə görüşü, fədai dəstələrinin polis və jandarmanı tərk-silah etməsi, hökumət binalarının tutulmasından söz açılır, dövlət orduları ilə demokratların silahlı qüvvələri arasında heç bir toqquşma baş vermədiyi bildirilirdi.[139] Dekabrın 17-də "Fərman" qəzetində Azərbaycandakı İran diviziyasının komandanı general Deraxşani ilə müsahibə dərc olundu. Müsahibədə qarnizonun mərkəzi hökumətin icazəsi, yaxud onun əmri ilə təslim olduğunu

[138] İran məclisinin qapalı iclasında Mürtəzaqulu Bayatın hesabatı.14.12.1945.//ARPİİSSA, f.1, s.89, i.93, v.109-110
[139] Dariya, 1945, 15 dekabr

soruşduqda general bildirdi ki, bu əsasən onun əmri ilə olmuşdur və əlavə etdi ki, o, qan tökülməsini Azərbaycan üçün faciə hesab edir. Deraxçani Azərbaycan demokratik hərəkatında əhalinin bütün təbəqələrinin iştirak etdiyini, təslim olduqdan sonra onun və digər diviziya zabitlərinin hər hansı təqibə məruz qalmadığını, əsgər və zabitlərlə çox nəzakətli rəftar olunduğunu bildirdi.[140] Elə həmin gün "İrane ma" qəzeti "Azərbaycan" qəzetinin materialları əsasında xüsusi nömrə buraxdı və burada Azərbaycan hökumətinin tərkibi, Pişəvəri ilə Deraxşani arasında imzalanmış müqavilə və digər sənədlər Tehran oxucularına çatdırıldı.[141] Lakin hökumətə yaxın olan qəzetlər Azərbaycandakı hadisələri "qiyam", onun iştirakçılarını isə xəyanətkarlar adlandırırdılar. "Ettelaat" qəzetinin fikrincə, Demokrat Firqəsinin məqsədi Azərbaycanı İrandan ayırmaq idi.[142] Azərbaycan milli hökumətinin yaranmasından sonrakı az müddətdə İrandakı sovet diplomatları istər hökumət və istərsə də Tehrandakı diplomatik korpuslar tərəfindən Sovet İttifaqının Azərbaycanda separatçı hərəkatı dəstəkləməsində şübhələrlə dolu ciddi ittihamlarla qarşılaşmışdılar. Sovet diplomatları həmin günlərdə həm İran hökumətini, həm də xarici həmkarlarını inandırmağa çalışırdılar ki, onların ölkəsinin, yəni SSRİ-nin Azərbaycandakı hərəkatla heç bir əlaqəsi yoxdur. Fernando Şaydın yazdığı kimi, Sovet İttifaqı bu prosesi son dərəcə konspirasiya şəraitində aparmağa cəhd göstərirdi və çox az sayda adam Moskvanın Azərbaycan hadisələrində faktiki iştirakından məlumatlı idi.[143] O, haqlı olaraq yazırdı ki, İrana münasibətdə Stalin Qərb müttəfiqləri ilə münasibətləri pozmağa risk etmədən, daha çox şey ələ keçirmək üçün Azərbaycan millətçiliyindən ənənəvi güc nümayişində bəhanə kartı kimi istifadə etməyi qərara almışdı".[144]

---

[140] Fərman, 1945, 17 dekabr

[141] İrane ma, 1945, 17 dekabr

[142] A.Voroninin "Tehran mətbuatı İran Azərbaycanındakı hadisələr və Sovet-İran münasibətləri haqqında"M.Silin və M.C Bağırova arayışı. 31.12.1945.//ARPİİSSA, f.1, s.89, i.93, v.36-37

[143] Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, p.103

[144] Fernande Raine Scheid. Stalin and the Creation of the Azerbaijan Democratic Party in Iran, 1945.- Cold War History, vol.2, №1, October 2001, p.3

Beləliklə, Azərbaycan Xalq Konqresinin qərarları öz real nəticələrini verdi. Dekabr ayının 12-də milli hökumət fəaliyyətə başladı və az müddət ərzində, dekabrın 20-də bütün Azərbaycan əraziləri ADP-nin nəzarətinə keçdi. Bununla da 1945-ci ilin sentyabr ayında Sovet İttifaqının siyasi dəstəyi və Azərbaycan SSR-in yaxından iştirakı ilə genişlənən milli-azadlıq hərəkatının birinci mərhələsi uğurla başa çatdı. Dünya İranda baş vermiş hadisələrinin psixoloji şokunu yaşayır, Azərbaycan muxtariyyəti isə ilk kövrək addımlarını atırdı. Qarşıda Təbrizi və Bakını böyük sınaqlar gözləyirdi.

IX FƏSİL

CƏNUBİ QAFQAZ SOVET RESPUBLİKALARININ ƏRAZİ İDDİALARI VƏ AZƏRBAYCAN MƏSƏLƏSİNİN BEYNƏLXALQ MÜZAKİRƏYƏ ÇIXARILMASI

§ 1. 1945-ci ilin payızında Cənubi Qafqaz sovet respublikaları arasında ərazi iddialarının meydana çıxması

İran Azərbaycanında baş verən hadisələr və onun Sovet Azərbaycanına birləşmə ehtimalının güclənməsi, Türkiyəyə qarşı ərazi tələblərinin gündən-günə real xarakter alması Gürcüstan və Ermənistan rəhbərliyinin yaranmış vəziyyətdən daha çox faydalanmaq meylini doğurmuşdu. 1945-ci ilin payızında xaricdə yaşayan ermənilərin "vətənə dönməsi" (repatriasiya) məsələsi Ermənistan rəhbərliyi tərəfindən yenidən gündəliyə gətirildi. Ermənistan K(b)P MK-nın birinci katibi Q.Arutinov İ.Stalinə 27 oktyabr 1945-ci il tarixli məktubunda yazırdı ki, son vaxtlar xaricdə yaşayan ermənilər arasında vətənpərvərlik hərəkatının güclənməsi xaricdəki erməni koloniyalarında yaşayan ermənilər arasında Sovet İttifaqının təsirini genişləndirməyə imkan verir. Bu məsələnin həll edilməsi xeyli dərəcədə hazırda Sovet İttifaqına düşmən olan təşkilatların təsiri altına düşmüş xaricdəki ictimai və dini birliklərin imkanlarından istifadə etməyimizdən asılı olacaqdır.[1] 1945-ci ilin noyabr ayının ilk günlərində Q.Arutinov repatriasiyanın təşkil edilməsi məsələsi üzrə son qərarın qəbul edilməsinin zəruriliyi barədə ikinci dəfə İ.Stalin və G.Malenkova müraciət etdi. Xaricdəki ermənilərin repatria-

[1] Q.Arutinovun İ.Stalinə məktubu. 27.10.1945.// Ermənistan Respublikası Mərkəzi Dövlət İctimai Siyasi Təşkilatların Sənədləri Arxivi (Ermənistan Respublikası MDİSTSA), f.1, s.034, i.27, v.54-56

siyasına icazə verilməsi barədə SSRİ Xalq Komissarları Sovetinin Yerevanda hazırlanan qərarının layihəsi də məktuba əlavə edildi.[2]

1945-ci ilin noyabr ayının 21-də ÜİK(b)P MK-nın Siyasi Bürosu bu müraciətləri əsas tutaraq Ermənistan K(b)P MK-nın müraciətlərini müzakirəyə çıxarıb geniş qərar qəbul etdi. Siyasi Büronun qərarında göstərilirdi ki, xarici ölkələrdə yaşayan ermənilərin vətənə, Sovet Ermənistanına qayıtmasına icazə verilməsi ilə bağlı Ermənistan K(b)P MK-nın təkliflərinə razılıq verilsin və SSRİ Xalq Komissarları Sovetinin bu məsələ ilə bağlı qərar layihəsi təsdiq edilsin.[3] Siyasi Büroda təsdiq edildikdən sonra SSRİ Xalq Komissarları Sovetinin xaricdəki ermənilərin Sovet Ermənistanına repatriasiyası haqqında qərarı elə həmin gün qəbul edildi. Qəbul edilmiş qərara uyğun olaraq bir sıra əməli addımlar atıldı. ÜİK(b)P MK Siyasi Bürosunun bu gizli qərarından altı gün sonra bütün ermənilərin katolikosu VI Gevorq SSRİ, ABŞ və Böyük Britaniyanın dövlət başçılarına Türkiyə tərəfindən zorla alınmış ərazilərin Sovet Ermənistanına birləşdirilməsi tələbi ilə müraciət etdi. Siyasi Büronun 21 noyabr qərarına uyğun olaraq SSRİ Xalq Komissarları Soveti "Ermənilərin xaricdən Ermənistan SSR-ə köçürülməsi üzrə əməli tədbirlər haqqında" ayrıca qərar hazırlayıb Stalinin təsdiqinə verdi. SSRİ Xarici İşlər Xalq Komissarlığı ilə birgə hazırlanmış altı bənddən ibarət olan bu qərara görə Bolqarıstan, Yunanıstan, İran, Livan, Rumıniya və Suriyada yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi ilə bağlı işlərə kömək göstərmək Xarici İşlər Xalq Komissarlığına tapşırılırdı. SSRİ Xarici İşlər Xalq Komissarlığı köçürülənlərə yardım üzrə Erməni Komitəsi ilə birlikdə Sovet İttifaqına köçmək istəyən ermənilərin siyahısını hazırlamalı və eyni zamanda Sovet Ermənistanına köçməyi təbliğ etməli idilər. Qərara görə, ABŞ, Fransa, Misir, Türkiyə və İraqda olan müvafiq nümayəndələrə tapşırılırdı ki, Sovet Ermənis-

[2] Q.Arutinovun İ.Stalin və G.Malenkova məktubu. Noyabr1945.// Ermənistan Respublikası MDİSTSA, f.1, s.034, i.27, v.73-75

[3] ÜİK(b)P MK Siyasi Bürosunun iclası. Ermənistan K(b)P MK-nın məsələsi. 21.11.1945.// RDSSTA, f.17, s.3, i.1054, v.32

tanına köçmək və sovet vətəndaşlığını qəbul etmək istəyən ermənilərin siyahılarını tərtib etmək üçün hazırlıq işlərinə başlasınlar. Daha sonra qərarda tövsiyə olunurdu ki, köçmək istəyən əhali içərisində üstünlük iş qabiliyyəti olan ermənilərə və onların ailələrinə verilsin. Artıq 1945-ci ilin dekabr ayının 28-də Sovet konsulluğuna istinadən Beyrutdakı Amerika konsulu dövlət katibinə məlumat verirdi ki, burada ermənilərin repatriasiyası ilə bağlı hazırlıq işləri başlamışdır. Kasıb ermənilərin Sovet Ermənistanına köçürülməsi ilə bağlı heç bir qeydiyyat aparılmır, texniki cəhətdən hazırlıqlı olan orta siniflərin qeydiyyatı Moskvadan təlimat gələn kimi başlayacaq, imkanlı ermənilərə gəldikdə onların vətənə dönüşü nəzərdə tutulmur, lakin onlara təklif ediləcək ki, "bəxti gətirmiş" qardaşlarının Ermənistana getmələrinə maliyyə cəhətdən yardım göstərsinlər.[4] Bir gün sonra belə bir məlumatı Dəməşqdəki Amerika konsullu Uilyam Porter də dövlət katibinə göndərmişdi. O, yazırdı ki, rəsmən "burada hələ ermənilərin qeydiyyata alınması başlamamışdır, ondan soruşmamağıma baxmayaraq, mənim sovet həmkarım bir müddət əvvəl dedi ki, "onlar nə Dəməşqdə, nə Suriyanın digər şəhərlərində ermənilər arasında iş aparmırlar". Sovet müvəqqəti işlər vəkili əlavə etdi ki, türklər gərək Birinci Dünya müharibəsindən sonra qırdıqları ermənilərin əvəzini ödəsinlər. Bu baxımdan Türkiyənin şərq vilayətləri onlar üçün ikinci dərəcəli əhəmiyyətə malikdir, onun ölkəsi əsl həqiqətdə boğazlar məsələsində maraqlıdır. Bəzi erməni qrupları Sovet Ermənistanına qayıtmaq üçün qeydiyyata alınacaqlarına ümid bəsləyirlər. Onların bu istəkləri ermənilərə yaxşı baxılan Suriyada hər hansı təzyiqə məruz qalmaq qorxusundan irəli gəlmir. Onlar əmindirlər ki, öz vətənlərində uşaqlarının gələcəyi daha yaxşı olacaqdır".[5] Sovetlərin repatriasiya haqqında qərarı İraq ermənilərı arasında da geniş əks-səda doğurmuşdu. Dekabr ayının 21-də Bağda-

[4] From Gordon Mattison (Beirut) to the Secretary of State. Top Secret. 28.12.1945.// National Archives and Records Administration of the USA. RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-2845

[5] From William Porter (Damascus) to the Secretary of State. Top Secret. 29.12.1945.// National Archives and Records Administration of the USA. RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-2945

ddakı erməni kilsəsində keçirilən toplantıda sovet səfirliyinin attaşesi Səfərov çıxış edərək məlumat vermişdi ki, Sovet hökuməti xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına və SSRİ-nin digər ərazilərinə buraxılmasına icazə vermişdir. Bu iş yaxın gələcəkdə həyata keçiriləcəkdir". Attaşe demişdi ki, "vətənə dönmək istəyən" İraq ermənilərinin qeydiyyata alınması üçün hələ ki, vaxt yetişməmişdir. İraqdakı Amerika müvəqqəti işlər vəkilinin məlumatına görə bu ölkədə təxminən 14 min erməni yaşayırdı və bunun 3 mininin daxmalarda yaşadığı bir şəraitdə, 5-6 min ermənin İraqdan Sovet Ermənistanına köçürülməsi sovetlər üçün bir problem deyildi.[6] Belə məlumatlar yalnız şərq ölkələrindən deyil, çoxsaylı erməni icmalarının fəaliyyət göstərdiyi bir sıra Qərb ölkələrindən də gəlirdi. Məsələn, Parisdəki Amerika səfirliyi Vaşinqtona yazırdı ki, 1945-ci ilin dekabr ayından Fransada bəzi kommunist təşkilatları ermənilər Sovet Ermənistanına qayıtmağa həvəsləndirirlər, ola bilsin bəzi adamları Sovet Ermənistanına göndərmək mümkün olacaq, lakin Ermənistana böyük miqyasda immiqrasiyanın heç bir əlaməti yoxdur. Səfirliyin məlumatına görə, Fransada 75 min nəfərə qədər erməni vardır, onların böyük bir hissəsi xırda ticarətçi və müxtəlif peşə sahibləridir.[7]

Repatriasiya prosesinə əməli xarakter vermək uçun 1945-ci ilin dekabr ayında Ermənistan Xalq Komissarları Soveti yanında Xaricdə yaşayan ermənilərin köçürülməsi və yerləşdirilməsi üzrə komitə yaradılmışdı. Bu komitənin prezidenti Babken Advazadoryan, vitse-prezidentləri Haykaz Marçanyan və Martiros Saryan, üzvləri Saak Karapetyan və Artaşes Melikatamyan idilər. Komitə dekabr ayının 25-də xaricdə yaşayan ermənilərə Sovet Ermənistanına köçmək üçün həvəsləndirici məktublar göndərmişdi. Orada deyilirdi: "Xaricdə yaşayan ermənilərin vətənə qayıtmaq barədə güclü istəklərini nəzərə alaraq Ermənistan hökumətinin müdaxiləsindən sonra SSRİ höku-

---

[6] From Edwin Schoenrich (Baghdad) to the Secretary of State. Top Secret. 25.01.1946.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/1-2546

[7] From Jefferson Caffery (Paris) to the Secretary of State. Secret. 15.01.1946.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/1-1546

məti noyabr ayının 21-də Sovet Ermənistanına immiqrasiya etmək arzusunda olan xaricdə yaşayan bütün ermənilərin qayıtmasına icazə vermişdir. Eyni zamanda, SSRİ hökuməti vətənə dönən bütün ermənilərə özləri üçün xüsusi evlərinin tikilməsinə icazə vermişdir və bu məqsədlə hökumətin ayırdığı kreditlər həmin evlərin dəyərinin 50 faizini təşkil edir. Hökumətin qərarı ilə Sovet Ermənistanına dönən ermənilər özləri ilə gətirdikləri bütün şəxsi əşyalar üçün gömrük vergisindən azad edilirlər".[8] Repatriasiya komitəsinin yaranması və onun Yaxın Şərq ölkələrinə göndərdiyi bu məktubu, habelə "vətənə dönüş" üçün Ermənistandan erməni milli şuralarına göndərilmiş müxtəlif təlimatları həmin dövrdə Beyrutda çalışan Amerika diplomatı Gordon Mattison əldə edib Vaşinqtona göndərmişdi.

Ermənilərin "vətənə dönüşü" haqqında qərarı qəbul etməkdə İ.Stalinin başlıca məqsədi Türkiyəyə qarşı ərazi tələbləri ilə bağlı qətiyyətli mövqeyini qərb müttəfiqlərinə və bütün dünyaya nümayiş etdirmək idi, çünki repatriasiya oyunu Sovetlər tərəfindən elə ona görə ortalığa atılmışdı ki, köçürülən ermənilərin Türkiyədən alınacağı ərazilərdə də yerləşdirilməsi beynəlxalq rəydə formalaşdırılsın. Sovet orqanlarının təbliğatında məsələ belə qoyulurdu ki, Ermənistan SSR-nin ərazisi ora köçmək istəyən ermənilər yerləşdirmək üçün yetərli deyildir. ABŞ və Böyük Britaniyanın siyasi dairələri, diplomatik idarələri Türkiyənin şərq vilayətlərinə aid irəli sürülmüş Sovet iddiaları ətrafında cərəyan edən hadisələri diqqətlə izləyirdilər. Qərb mətbuatı Türkiyəyə qarşı ermənilərin ərazi tələblərinin Sovet İttifaqı rəhbərliyinin təhriki ilə baş verdiyini hələ 1945-ci ilin yayından arasıra vurğulayırdı. 1945-ci ilin iyul ayının 24-də "Tayms" qəzetində dərc olunan yazıda göstərilirdi ki, Boğazlar rejimi haqqında məsələ öz ardınca Sovet İttifaqının Qars və Ərdahan rayonlarının ona qaytarılması tələbini doğuracaqdır. "Nyu-York Tayms" isə 1945-ci ilin avqust ayının 8-də yazırdı ki, son aylar Rusiya bütün Yaxın Şərqdə ermənilərin millətçi təbliğatının güclənməsini şirniklərdirir.

[8] From Gordon Mattison (Beirut) to the Secretary of State. Top Secret. 23.01.1946.// National Archives and Records Administration of the USA, RG 59, Box: 3398, NND 7600050, Doc. 761.90E/1-2346

Röyter agentliyi 1945-ci ilin dekabr ayının 9-da Türkiyədə vəziyyətlə bağlı yaydığı məlumatda bildirirdi ki, Türkiyədə vəziyyətin əsas amillərindən biri onun şimal-şərq ərazilərinin Sovet Ermənistanına birləşdirilməsinə yönələn erməni təbliğatıdır. Türklər bu təbliğata Boğazlarda Sovet İttifaqına baza verilməsi, Qars və Ərdahanın güzəştə gedilməsi, Türkiyənin daxili rejiminin dəyişdirilməsi üçün təzyiq aləti kimi baxırlar. Röyter agentliyinin bu məlumatını dəyərləndirən Ermənistan SSR Xarici İşlər Xalq Komissarlığı məlumatı hazırlayan müxbirin bu məsələdə türklərin nöqteyi-nəzərini bölüşdüyünü yazırdı.[9]

İran Azərbaycanında başlanan prosesləri müşahidə edən Tehrandakı türk səfiri hələ iyun ayında Ankaraya göndərdiyi teleqramlarda orada Türkiyəyə təsir edəcək hadisələrin gözlənildiyindən narahatlığını ifadə etmişdi. Səfirin göndərdiyi birinci teleqramda məlumat verilirdi ki, Sovet hakimiyyət orqanları Şimali İranda üsyan qaldırılmasına çalışırlar və əgər bu baş versə, Sovetlər İran hökumətinin asayişi bərpa etməsinə mane olacaq. Bir neçə gün sonra gələn ikinci teleqramda artıq məlumat verilirdi ki, əgər üsyan həqiqətən də baş versə, bu SSRİ-nin Türkiyənin şərq əyalətlərinin Ermənistana birləşdirmək üçün hazırlıq tədbiri kimi qiymətləndirilməlidir. Türkiyə Xarici İşlər Nazirliyinin rəsmiləri belə hesab edirdilər ki, 1945-ci ilin payızında teleqramlarda göstərilən hadisələrin ilk addımları artıq müşahidə edilməkdədir. Onlar bunu əsəb savaşının növbəti mərhələsi və ya ondan da ciddi bir şey kimi qiymətləndirirdilər.[10]

Ermənistan və Gürcüstanın timsalında Cənubi Qafqaz sovet respublikalarının 1945-ci ilin payızında Türkiyəyə qarşı ərazi iddiaları açıq müstəviyə keçdiyi üçün Moskvadakı Amerika səfirliyi prosesi nəzarət altında saxlamağa çalışırdı. 1945-ci ilin oktyabr ayının əvvəllərində ABŞ-ın SSRİ-dəki səfirliyinin əməkdaşı David Sitkin

---

[9] Türkiyənin ələ keçirdiyi qədim erməni torpaqlarının Sovet Ermənistanına birləşdirilməsi haqqında ermənilərin tələblərinə xarici xadimlərin və xarici mətbuatın rəylərinin icmal arayışı. 29.05.1945.// Ermənistan Respublikası MDİSTSA, f.1, s.26, i.47, v.161-162

[10] The Ambassador in the Soviet Union (Harriman) to the Secretary of State. 24.10.1945 // FRUS, 1945, vol. VIII, p.1258,1282.

Ankaradan Moskvaya gəlmək adı altında oktyabr ayının 1-də Türkiyə paytaxtından təyyarə ilə Ərzuruma, okyabrın 4-də qatarla Qarsa, oktyabrın 6-da avtomobillə Leninakana, oktyabrın 8-də qatarla Tbilisiyə, oktyabr ayının 10-da isə təyyarə ilə Moskvaya hərəkət etmişdi. Sitkin yol boyu Türkiyə-Ermənistan sərhədində apardığı müşahidələr barədə hesabat hazırlamış və həmin hesabat oktyabr ayının 20-də Moskvadakı Amerika səfiri Harriman tərəfindən dövlət katibi Birnsə göndərilmişdi. Sitkin yazırdı ki, o, sərhədi keçərkən Qırmızı Ordunun nümayəndəsinə deyəndə ki, Qarsdan gəlir, sovet zabiti "ora erməni şəhəridir" deyə əlavə etmişdi. Leninakan və Tiflisdə söhbətləşdiyi bir sıra milli hissli ermənilər Sitkinə demişdilər ki, Türkiyə Ermənistanı Sovet Ermənistanına "qaytarılmalıdır". Sitkin öz hesabatında Leninakanda Moskva və Odessa ilə müqayisədə daha çox ordu saxlandığını yazırdı.[11] Sitkinin keçdiyi marşrut üzrə belə bir "səyahəti" oktyabr ayının sonlarında Moskvadakı Amerika səfirliyinin əməkdaşları Klerk Drabek və Margaret Reynolds da etmişdilər. Onlar Ankaradan çıxıb oktyabrın 27-də Ərzurumda, bir gün sonra Qarsda, elə həmin gün Leninakanda olub, noyabrın 2-də isə Tbilisidən Moskvaya yola düşmüşdülər. Səfər məlumatında onlar qeyd edirdilər ki, Leninakan stansiyası tamamilə ordu ilə dolu idi və Tbilisi ilə Moskva arasında cənub istiqamətində hərəkət edən dəmir yol platformalarında "çoxlu maşınlar və tanklar" var idi.[12] Lakin 1945-ci ilin sonlarında başlamış "vətənə dönüş" planının əsas hədəfi olan Türkiyədən iddia olunan torpaqları almaq mümkün olmadıqda, məhz, Moskvanın təlimatı ilə Azərbaycan və Ermənistan respublikalarının birinci şəxsləri Stalinə müraciət etdilər ki, erməni repatriantları yaşayış evləri və həyətyanı sahələrlə təmin etmək üçün 130 min azərbaycanlı Ermənistandan Azərbaycana köçürülsün.[13]

---

[11] From Ambassador Harriman to the Secretary of State. Top Secret. 20.10.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/10-20845

[12] From Ambassador Harriman to the Secretary of State. Top Secret. 13.11.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/11-13845

[13] M.C.Bağırov və Q.Arutinovun İ.Stalinə məktubu. 03.12.1945.// Ermənıstan Respublikası MDİSTSA. f.1, s.27, i.47, v.79-80; ARPİİ SSA, f.1, s.226, i.48, v.1-2

1945-ci ilin payızından başlayaraq Türkiyə siyasi dairələri və xüsusilə türk mətbuatı İran Azərbaycanında cərəyan edən hadisələri diqqətlə izləyirdilər. 1945-ci ilin sentyabr ayının 16-da "Tanin" qəzetində C.Yalçının "Azərbaycan məsələsi" adlı geniş yazısı dərc olunmuşdu. Yazıda Azərbaycanda milli hərəkatın başlanması, lakin bu hərəkatın Moskva tərəfindən idarə olunmasından bəhs edilirdi. O, yazırdı: "Əgər müstəqil Azərbaycan uğrunda bu hərəkat xarici ordular İrandan çıxandan sonra başlasaydı, biz onu İranın daxili işi, yerli hərəkat kimi qiymətləndirər və bu məsələyə bu nöqteyi-nəzərdən baxardıq, lakin nə qədər ki, İranda rus təzyiqi və intriqaları vardır Azərbaycan məsələsinə bu məsələlərdən ayrılıqda baxmaq səhv olardı". C.Yalçın Azərbaycandakı hadisələri rusların İrandan çıxmaq istəməmələri ilə izah edərək deyirdi: "Ruslar Azərbaycana azadlıq və müstəqillik vəd edirlər. Onlar təkcə vədlərlə kifayətlənmir və azərbaycanlılara silah və pul verirlər. Onlar istəyirlər ki, azərbaycanlılar öz azadlıqları və müstəqillikləri uğrunda iranlılar əleyhinə mübarizəyə başlasınlar. Nə qədər ki, Azərbaycanda sakitlik olacaq, beynəlxalq vəziyyət baxımından Azərbaycanı İrandan ayırmaq və özünə qatmaq çox çətin və hətta qeyri-mümkün olacaqdır, lakin o vaxt ki, Azərbaycanda milli hərəkat başlandı, müstəqillik və azadlıq bayrağı yüksəldi, müstəqillik və millətçiliyin düşməni olan bolşeviklər üçün demokratiya və azadlığı müdafiə adı altında Azərbaycan məsələsini müdafiə etmək çox asan olacaq. Bundan sonra bir addım yetərlidir ki, İran azərbaycanlıları rus azərbaycanlıları ilə birləşsinlər. İndi yalnız Azərbaycanın bir hissəsi bolşevik zülmü altındadır, sabah bütün birləşmiş Azərbaycan ölümə məhkum olacaq". C.Yalçının fikrincə, "əgər azərbaycanlılar azadlıq və müstəqillik istəyirlərsə, onlar bunu rus orduları onların ölkəsini azad edən kimi öz hökumətlərindən tələb etməlidirlər. Onlar hökumətlə danışıb razılığa gələ bilərlər. Əks istiqamətdə azərbaycanlılar tərəfindən atılan hər hansı addım onlara kömək etməyəcək, fəqət onlara ancaq bədbəxtlik gətirəcək". Türklər ehtiyat edirdilər ki, ruslar İrandan çıxmasalar, İran Azərbaycanını özlərinə birləşdirməkdən imtina etməsələr Qars və Ərdahan haqqında öz fikirlərindən də əl

çəkməyəcəklər. Əlbəttə, bu narahatlıqlar əsassız deyildi. Uzun müddət Sovetlərin rəhbər kommunist orqanlarında çalışmış K.Brutens "30 il Köhnə Meydanda" adlı xatirələrində qeyd edir ki, Sovet İttifaqına qarşı müharibədə faşist Almaniyası ilə əməkdaşlıq etməsə də, ona açıq meyllənən münasibətinə görə Stalinin Türkiyəni "cəzalandırmaq" planları var idi. Gələcəkdə Türkiyədən "azad olunacaq" erməni ərazilərində iki vilayət komitəsinin yaradılması nəzərdə tutulmuşdu, hətta vilayət komitələrinin katibləri də təsdiq edilmişdi. Məsələn, Ermənistan KP MK-nın katibi Koçinyan Qars vilayət komitəsinin katibi təsdiq edilmişdi.[14]

1945-ci ilin dekabr ayının 2-də xaricdə yaşayan ermənilərin repatriasiyası ilə bağlı SSRİ Xalq Komissarları Sovetinin qərarının mətbuatda dərc edilməsi Türkiyənin narahatçılığını daha da artırdı. Xalq Komissarları Sovetinin qərarı mətbuatda çıxdıqdan sonra alınan ilkin məlumatlara görə, dünyanın ondan artıq ölkəsindən 1946-1949-cu illərdə 360 min ermənin Sovet Ermənistanına köçürüləcəyi planlaşdırılmışdı. Qərarda ermənilərin Sovet Ermənistanına qayıtmasından bəhs edilsə də, xaricdən gələn ermənilərin Türkiyədən alınacaq ərazilərdə yerləşdirilməsi planlaşdırılırdı. 1945-ci ilin dekabr ayında Xarici İşlər nazirlərinin müşavirəsinin keçirildiyi günlərdə erməni diaspor təşkilatları üç böyük dövlətlərin Xarici işlər nazirlərinin Moskva müşavirəsinə Türkiyədən Qars, Ərdahan və Artvinin alınıb Sovet Ermənistanına verilməsi barədə öz müraciətlərini göndərmişdilər. Onların dünyanın müxtəlif yerlərindən Potsdam konfransına, Xarici İşlər nazirlərinin sentyabr ayında London, dekabr ayında Moskva müşavirələrinə göndərdikləri müraciətləri, demək olar ki, eyni mətnlər idi. Marşal İ.Stalinə ünvanlanan müraciətlərdə isə Türkiyədən torpaqların alınması ilə yanaşı, xaricdəki ermənilərin vətənə qayıtması və onların ərazisi genişləndirilmiş Sovet Ermənistanında yerləşdirilməsi məsələsi eyni məzmunda əhatə olunurdu, lakin 1945-ci ilin payızında hələ heç kim güman etmirdi ki, Ermənistan və Gürcüstan sovet respublikalarının Türkiyəyə qarşı yönəlmiş ərazi iddiaları az sonra on-

[14] К.Н.Брутенц. Тридцать лет на Старой площади. М., 1998, с.509.

larla qonşu olan Azərbaycan Sovet Respublikasına qarşı yönələcək, Stalinin erməni repatriasiyası planının bədəlini Azərbaycan və Ermənistanda yaşayan azərbaycanlılar ödəyəcəkdi.

Moskvadan güclü dəstək alan hər iki respublikanın - Ermənistan və Gürcüstan sovet respublikalarının rəhbərliyi yaranmış əlverişli şəraitdə Türkiyəyə qarşı ərazi iddiaları ilə eyni vaxtda qonşu Azərbaycan Sovet Respublikasına qarşı da ərazi tələbləri ilə Sovet rəhbərliyinə müraciət etmişdilər. Bu artıq əlamətləri hiss edilən əsəb müharibəsinin son dərəcə nadir bir hadisəsi idi. Əgər Türkiyəyə qarşı ərazi iddiaları ilə bağlı tələblər əsasən İ.Stalinə və V.Molotova ünvanlanırdısa, 1945-ci ilin noyabrında əvvəlcə Gürcüstan, bir neçə gün sonra isə Ermənistan kommunist partiyalarının birinci katibləri K.Çarkviani və Q.Arutinovun məktubları müvafiq qaydada İ.Stalin və G.Malenkova ünvanlanmağa başladı. Bu yazışmalardan aydın olurdu ki, Gürcüstan K(b)P MK-nın birinci katibi K.Çarkviani İ.Stalinə göndərdiyi məktubda Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının guya vaxtilə burada gürcü əhalisinin çoxluq təşkil etdiyinə istinadən Gürcüstan SSR-ə birləşdirilməsi məsələsini qaldırmışdı.[15] Bir sıra gürcü alimləri və xüsusilə, həmin dövrdə Gürcüstan SSR-in bir sıra rəsmi idarələri tərəfindən qeyd edilən rayonlara göndərilən maarif, mədəniyyət işçiləri, pravoslav din xadimləri belə təbliğat aparırdılar ki, guya XVII əsrdə gürcü-fareydanları zorla köçürüb İrana aparanda bu rayonların boşalmış gürcü əhalisinin yerinə müsəlman əhalisi dolmuşdur. Bu istiqamətdə ilk məlumatlar alındıqda Azərbaycan SSR təhlükəsizlik orqanlarının topladığı gizli məlumatlar əsasında aydın oldu ki, hələ 1944-cü ildə Gürcüstanın Maarif Nazirliyi tərəfindən qeyd edilən rayonlara guya işləmək adı ilə göndərilən gürcü müəllimlər Azərbaycan xalqına qarşı qatı böhtançı təbliğat aparır və Qax rayonunun Azərbaycandan ayrılıb Gürcüstana birləşdirilməsi istiqamətində Azərbaycan əleyhinə kampaniya aparırdılar.[16] Lakin, görünür bu məsələyə Gürcüstan

[15] K.Çarkvianinin İ.Stalinə məktubu. Noyabr 1945.// ARPİİ SSA, f.1, s.169, i.249/I hissə, v.11
[16] S.Yemelyanovun M.C.Bağırova məlumatı. 10.11.1947.// ARPİİ SSA, f.1, s.226, i.54, v.28

rəhbərliyi mərkəzdən razılıq aldığından Cənubi Azərbaycan məsələsinin genişləndiyi 1945-ci ilin payızında nəinki bu işlərin qabağını almaq mümkün olmadı, əksinə onlar Azərbaycanın Qax, Balakən və Zaqataladakı azsaylı gürcü məktəblərinə gürcü dili müəllimləri göndərmək imkanı qazandılar və gürcü əhalisini ana dilində oxutmaq üçün bir sıra yeni məktəblər açdılar.

1945-ci ilin noyabr ayının 28-də ÜİK(b)P MK-nın katibi G.Malenkov Ermənistan kommunist partiyasının katibi Q.Arutinovun Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı Moskvaya ünvanladığı məktubu ilə tanış olmaq üçün M.C.Bağırova göndərdi. Q.Arutinov yazırdı: "Ermənistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-nin tərkibinə daxil edilib. Bu vilayətin əhalisi əsasən ermənilərdən ibarətdir. 153 min əhalinin 137 mini ermənidir. Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsi ilə eynilik təşkil edir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil olması onun inkişafını və təsərrüfatlara rəhbərliyini yaxşılaşdırardı. Əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmət göstərilməsi işinə Ermənistan respublika orqanları tərəfindən rəhbərliyi gücləndirərdi. Dağlıq Qarabağ vilayətinin Ermənistanın tərkibinə daxil olması yerli kadrların ana dilində öz təhsillərini Ermənistanın ali məktəblərində davam etdirməsinə imkan verərdi. Digər tərəfdən Ermənistan SSR Dağlıq Qarabağdan əlavə kadrlar ala bilərdi. Bunu və Dağlıq Qarabağ əhalisinin arzusunu nəzərə alaraq Ermənistan K(b)P Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti kimi Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılmasını ÜİK(b)P MK və İttifaq hökuməti qarşısında irəli sürür. Bu məsələ müsbət həll olunarsa, Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti sovet hakimiyyəti qurulması ərəfəsində dağıdılmış Qarabağın keçmiş vilayət mərkəzi Şuşa şəhərinin bərpa olunması təklifi ilə İttifaq hökumətinə müraciət edəcəkdir".[17] Q.Malenkov M.C.Bağırova yazırdı ki, Ermənistan K(b)P MK-nın təklifinə öz fikrinizi bildirin.

[17] Q.Arutinovun İ.Stalinə məktubu. 28.11.1945.// ARPİİ SSA, f.1, s.169, i.249/I hissə, v.7

Bu məktublara cavab vermək üçün M.C.Bağırov respublikanın müvafiq strukturlarına, elmi idarələrinə tapşırıq verdi ki, Ermənistan və Gürcüstan respublikaları rəhbərlərinin toxunduğu məsələlərlə bağlı materiallar toplasınlar. Verilən tapşırığa uyğun olaraq çox qısa müddətdə Qarabağın dağlıq və aran hissəsinin tarixən Azərbaycana aid olması, əhalinin milli tərkibində baş verən dəyişikliklər və onların səbəbləri, müxtəlif statistik məlumatlar, Qarabağın dağlıq hissəsinə muxtar vilayət statusu verilməsi ilə bağlı yazışmalar və müzakirələr, bu məsələ ilə bağlı ittifaq və respublika orqanlarının iclaslarının protokolları və s. özündə əks etdirən çoxlu sayda sənədlər toplandı. Məsələn, keçmiş Qarabağ xanlığının sərhədləri və əhalisi haqqındakı arayışda göstərilirdi ki, Qarabağ xanlığı Kür çay ilə Araz çayı arasında yerləşib şimal-qərbdən Kürəkçay boyunca Gəncə, Göyçay çayı boyunca Şəki, Şərqdən Kür çayı boyunca Şamaxı, Muğan çölü boyunca Qaradağ, cənub-qərbdən Naxçıvan, qərbdən İrəvan xanlıqları ilə həmsərhəd olub. Toplanan sənədlərdə göstərilirdi ki, XVIII əsrdə xanlığın əhalisi 130 min nəfərdən ibarət idi.[18] Əgər bir vaxtlar Qarabağ xanlığının əhalisi əsasən türklərdən ibarət idisə, toplanan sənədlərdə göstərilirdi ki, XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etdikdən sonra Qarabağın dağlıq hissəsində əhalinin milli tərkibində tədricən dəyişikliklər əmələ gəlməyə başladı. Sonrakı dövrdə Qarabağda əhalinin milli-etnik tərkibində baş verən dəyişikliklərin dinamikası müəyyən qədər etibarlı mənbə sayılan 1823-cü ildə tərtib olunmuş "Qarabağ əyalətinin təsviri..." kitabına istinad edilirdi, çünki bu kitabda Şuşa şəhəri və bütün kəndlər əhatə olunmaqla ailələrin sayı, ailə başçılarının ad-familiyası qeydə alınmışdır. Sənədlərə istinad edən rus müəllifi N.İ.Şavrov 1911-ci ildə nəşr edilmiş kitabında Zaqafqaziyaya 1828-1830-cu illərdə 40 min İran və 84600 Türkiyə ermənisinin köçürülməsindən və onların "erməni əhalisi yox dərəcəsində olan" Yelizavetpol və İrəvan quberniyalarında yerləşdirilməsini qeyd etmişdi. N.Şavrov yazırdı ki, Zaqafqaziyada yaşayan 1 milyon

[18] Dağlıq Qarabağ üzrə tarixi materiallar 1946.// ARPİİ SSA, f.1, s 169, i.249/II hissə, v.1-60

300 min ermənidən 1 milyondan artığı gəlmə ermənilərdir.[19] Rus işğallarından sonrakı yüz il ərzində Qarabağda əhalinin milli-etnik tərkibində daha ciddi dəyişikliklər baş verdiyi toplanan sənədlərdə aydın şəkildə göstərilirdi.[20] Toplanan sənədlər içərisində Sovet Ordusunun Mərkəzi Dövlət Arxivinə istinadən Azərbaycan-Ermənistan və Azərbaycan-Gürcüstan sərhədlərini özündə əks etdirən sənədlər xüsusi əhəmiyyət kəsb edirdi. [21]

Toplanan sənədlər içərisində 1945-ci ildə ÜİK(b)P MK Siyasi Bürosunun üzvü A.Mikoyanın 1919-cu ildə "Erməni imperializmi" adlı məqaləsi xüsusi maraq kəsb edirdi. A.Mikoyan yazırdı ki, "Nə qədər təəccüblü və komik, daha çox tragikomik olsa da, hər halda öz spesifikliyi, mürtəce xarakteri və məzmunu ilə erməni imperializmi mövcuddur. İndi Ermənistan faktiki olaraq müsəlman əhalisinin erməni əhalisindən bir qədər az olduğu İrəvan quberniyasının ərazisini tutub, lakin bu yeganə ərazidir ki, ermənilər nisbətən böyük kütlə halında yaşayır və əhalinin çoxluğunu təşkil edirlər. Erməni hökumətinin mürtəce-şovinist siyasəti nəticəsində əhalinin beşdə ikisini təşkil edən bütün müsəlman əhalisi nəinki hakimiyyətdə hər hansı formada iştirakdan və ölkənin idarə edilməsindən tamamilə uzaqlaşdırılıb, eyni zamanda faktiki olaraq xarici vətəndaşlar kimi hüquqsuz vəziyyətə düşüblər".[22]

Bütün bu hazırlıq tədbirlərindən sonra M.C.Bağırov İran Azərbaycanı hadisələrinin ən həssas məqamında, 1945-ci ilin dekabr ayının 10-da Ermənistan və Gürcüstanın Azərbaycana qarşı irəli sürdükləri ərazi iddiaları ilə bağlı öz fikir və mülahizələrini ÜİK(b)P MK-nın katibi G.Malenkova ünvanladığı geniş məktubda açıqladı. O yazırdı: "Ermənistan K(b)P MK-nın katibi Arutinovun Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə daxil edilməsi haqqında təklifləri ilə bağlı Sizin teleqramınıza cavab olaraq bildirirəm: Dağlıq Qarabağ

[19] Н.И.Шавров. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. С-Петербург, 1911, с.59-60

[20] В.А.Потто. Кавказская война. Персидская война 1826–1828 гг.Ставрополь, 1993, т. 3, с.591

[21] Azərbaycanla Ermənistan arasında keçən sərhəd xətti.1920.// ARPII SSA, f.1, s.169, i.249/II hissə, v.15-17

[22] A.Mikoyan. Erməni imperializmi. 1919.// AR MTNA, i.164, v.284-285

Muxtar Vilayətinin ərazisi qədim zamanlardan mərkəzi Pənah xan Qarabağı tərəfindən 1747-ci ildə qala kimi tikdirilən Pənahabad olmaqla Qarabağ xanlığının tərkibinə daxil olub. 1826-cı ildə Qarabağ Çar Rusiyasına birləşdirilib. Sonradan indiki DQMV-nın ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Karyagin və Qubadlı qəzalarının tərkibinə daxil olub. Müsavatçıların Azərbaycanda, daşnakların Ermənistanda ağalıq etdikləri 1918-1920-ci illərdə bütün Qarabağ ərazisində müsavat hökuməti mərkəzi Şuşa şəhəri olmaqla Qarabağ general-qubernatorluğu yaratmışdı. Müsavatçıların və daşnakların təşkil etdiyi milli qırğınlar nəticəsində Azərbaycan və Ermənistanın digər şəhərləri kimi Şuşa şəhəri də dağıdılmış və xarabalığa çevrilmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərliyi vilayətin vahid inqilab komitəsi həyata keçirirdi. 1923-cü ildə erməni əhalisinin üstünlük təşkil etdiyi Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi haqqında məsələ meydana çıxdı, lakin nəzərə alaraq ki, bu ərazi Ermənistanla ümumi sərhədlərə malik deyil və əhalisi istisnasız olaraq azərbaycanlılardan ibarət olan Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ondan ayrılır, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə 7 iyul 1923-cü ildə Mərkəzi Xankəndi, indiki Stepanakert olmaqla DQMV yaradıldı. Beləliklə, DQMV-nin ərazisi heç vaxt Ermənistan SSR-ə bitişik olmayıb və bitişik deyil".[23] Bu izahatdan sonra isə M.C.Bağırov Q.Arutinovun məktubunda DQMV-nin təsərrüfat, iqtisadi, mədəni və siyasi vəziyyəti ilə bağlı qaldırdığı məsələləri təkzib edir, respublika ali məktəblərində təhsil alan tələbələrin 20,5 faizinin ermənilər olduğunu və bunların da əksəriyyətinin DQMV-dan çıxdığı, habelə çoxlu Qarabağ mənşəli ermənilərin rəhbər partiya, sovet və təsərrüfat işlərində irəli çəkildiyini qeyd edirdi. O, birmənalı olaraq Qarabağın dağlıq hissəsinin nə vaxtsa Ermənistanın tərkibində olmadığını vurğulayırdı, lakin M.C.Bağırov bu məsələnin sovet rəhbərliyindən irəli atıldığını düşünərək, Ermənistan SSR-nin əsasən azərbaycanlılar yaşayan Əzizbəyov,

[23] M.C.Bağırovun G.Malenkova məktubu.10.12.1945.// ARPİİ SSA, f.1, s.169, i.249/I hissə, v.8-9

Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-ə birləşdirilməsi şərti ilə Şuşa istisna olmaqla DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsinə etiraz etmədiyini bildirirdi. Onun fikrincə, bu rayonların mədəni və iqtisadi cəhətdən geriliyini nəzərə alaraq onların Azərbaycana verilməsi əhaliyə mədəni-siyasi və maddi-məişət xidmətinin yaxşılaşdırılmasına imkan yaradardı. Şuşanın Azərbaycanın tərkibində qalmasının zəruriliyini əsaslandıraraq M.C.Bağırov yazırdı: "Şuşa əsası qoyulan andan nəinki Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olub, eyni zamanda Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçılarına qarşı mübarizədə müstəsna rol oynayıb. Şuşada Zaqafqaziya xalqlarının qəddar düşməni, qanlı istilaçı İran şahı Ağa Məhəmməd Şah Qacar azərbaycanlılar tərəfindən öldürülüb. Bu şəhərdə Azərbaycanın zəngin musiqi mədəniyyəti formalaşıb, İbrahim xan, Vaqif, Natəvan və digərləri kimi nəhəng siyasi və mədəniyyət xadimlərinin adı bu şəhərlə bağlıdır".[24]

Uzun müddət Sov.İKP MK-da məsul vəzifələrdə işləmiş K.Brutens 1998-ci ildə nəşr olunmuş xatirələrində bu məsələni bir qədər fərqli formada təqdim edir. O yazır: "Hələ ki, rəsmi qaydada təsdiqlənməyən belə bir rəvayət var ki, 1946-cı ildə Qarabag haqqında məsələ Ermənistan KP MK-nın katibi Arutinov tərəfindən qoyulub. Stalinin məsələni "araşdırmağı" tapşırdığı Beriya, Bağırovla birlikdə Qarabağın Ermənistana, Dağıstanın Azərbaycana, eyni zamanda Soçinin Gürcüstana verilməsi təklifini razılaşdırmışdılar".[25] Göründüyü kimi, bu "rəvayət" rəsmi sənədlərlə təsdiqlənən tarixi gerçəklikdən xeyli dərəcədə fərqlidir.

Məktubun ikinci hissəsində M.C.Bağırov Gürcüstan rəhbərliyinin ərazi iddialarına cavab verir və Azərbaycanın Gürcüstan və Rusiya federasiyasına ərazi iddiaları ola biləcəyini xatırladırdı. O, yazırdı: "Gürcüstandan olan yoldaşlar Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-ə daxil edilməsi haqqında məsələ qaldırırlar. Göstərilən rayonların 79 min nəfəri ümumi əhalisindən 9 mini gürcü-inqloylar olmasına baxmayaraq, biz bu məsələyə baxılmasının əleyhinə

[24] Yenə orada, v.9-11

[25] К.Н.Брутенц. Тридцать лет на Старой площади. М., 1998, с.510

deyilik, lakin bununla eyni vaxtda bilavasitə Azərbaycan SSR-ə bitişik, əhalisi demək olar ki, ancaq azərbaycanlılardan ibarət olan Gürcüstan SSR-nin Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi haqqında məsələyə də baxılmalıdır. Ən nəhayət, M.C.Bağırov G.Malenkova yazırdı ki, "biz Dağıstan Muxtar SSR-in Azərbaycan SSR-ə bitişik olan, vaxtilə Bakı quberniyasının tərkibinə daxil olmuş və keçmişdə Azərbaycanın bir hissəsi kimi Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələyə də baxılmasını xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, yeri gəlmişkən, onların yarıdan çoxu heyvandarlıqla məşğul olur və ilin 9 ayını Azərbaycan ərazisində keçirirlər".[26] Məktubun sonunda M.C.Bağırov təklif edirdi ki, bütün qaldırılan məsələlər üzrə təkliflər hazırlamaq üçün ÜİK(b)P MK-nın komissiya yaratmasını və bu məsələdə maraqlı olan hər respublikanın nümayəndəsinin onun tərkibinə daxil edilməsini məqsədəuyğun sayırıq.

Bu məsələlərin İkinci Dünya müharibəsi başa çatdıqdan sonra 1945-ci ilin payızında gündəliyə gəlməsi professor Eldar İsmayılovun qeyd etdiyi kimi, Cənubi Azərbaycanda milli hərəkatın başlanması, bunun son nəticədə Şimali və Cənubi Azərbaycanın birləşməsinə gətirib çıxaracağı, bu halda SSRİ-nin tərkibində Azərbaycan SSR-nin ərazilərinin xeyli genişlənəcəyinə Sovet rəhbərliyinin yuxarı eşelonunda yaranmış inamla bağlı idi.[27] Sovet İttifaqı İkinci Dünya müharibəsindən o qədər qüvvətli çıxmışdı ki, Kreml otaqlarında cızılan planların lap yaxın vaxtlarda reallaşacağına hələ ki, heç kim şübhə etmirdi. Türkiyədən tələb edilən ərazilərin bölüşdürülməsi uğrunda Gürcüstan və Ermənistan arasında başlanmış gərgin əsəb savaşı, Cənubi Qafqazda Azərbaycanın hesabına sərhədlərin dəyişdirilməsi uğrunda fəal mübarizənin başlanması Sovet rəhbərlərinin və eləcə də, Cənubi Qafqaz sovet respublikalarının başçılarının SSRİ-nin İran və Türkiyəyə qarşı irəli sürdüyü, ilk dövrlərdə ardıcıl olaraq həyata keçirdiyi tələblərin yaxın vaxtlarda həll olunacağına yaranmış dərin inamlarından qaynaqlanırdı. Hamı böyük qələbədən sonra

---

[26] M.C.Bağırovun G.Malenkova məktubu.10.12.1945.// ARPİİ SSA, f.1, s.169, i.249/I hissə, v.11-12

[27] Э.Исмаилов. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953 гг. Баку, 2003, с.293

SSRİ-də, o cümlədən Cənubi Qafqazda soyuq müharibənin ilk kiçik qələbəsinin beş addımlığında olduğunu zənn edir və onun doğurduğu eyforiyalı arzuları cilovlaya bilmirdi. Həmin dövrdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi işləmiş Mirhəsən Seyidov əlyazma formasında olan xatirələrində yazırdı: "1945-ci ilin payız günlərinin birində M.C.Bağırov Stalinin qəbulunda ÜİK(b)P MK Siyasi Bürosunun iki üzvü - erməni Anastas Mikoyan və gürcü Lavrenti Beriya ilə rastlaşır. Onların hər ikisi bildirirlər ki, Cənubi Azərbaycan haqqında məsələ artıq həll edilib və tezliklə Azərbaycan SSR-nin ərazisi əhəmiyyətli dərəcədə artacaq. Ola bilsin zarafat kimi, ola bilsin ki, yox, onlar ümidvar olduqlarını bildiriblər ki, indi M.C.Bağırov səxavətli olacaq və Dağlıq Qarabağın Ermənistana, respublikanın şimalında bir sıra rayonların (Balakən, Zaqatala və digərləri) Gürcüstana qatılmasına razılıq verəcək. M.C.Bağırov cavab verib ki, hələ bu haqda düşünməyin vaxtı deyildir".[28]

Beləliklə, 1945-ci ilin dekabrında Xarici İşlər nazirlərinin Moskva müşavirəsi ərəfəsində soyuq müharibənin ilk hadisəsi kimi İran və Türkiyəyə qarşı yönəlmiş sovet tələblərinə Cənubi Qafqaz respublikalarının bir-birlərinə qarşılıqlı iddiaları ilə müşayiət edilən əsəb savaşının məhəlli epizodları da əlavə olunmuşdu.

§ 2. 1945-ci ilin payızında Sovet Azərbaycanına beynəlxalq marağın güclənməsi

1945-ci ilin ikinci yarısında Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığının fəaliyyəti xeyli genişlənmiş, Sovet İttifaqının xarici siyasətində və diplomatik fəaliyyətində milli respublikaların, o cümlədən Sovet Azərbaycanının xarici siyasət idarəsinin rolu artmışdı. Qeyd edilən dövrdə Cənubi Azərbaycan məsələsinin gündəliyə gəlməsi, iki Azərbaycanın birləşməsi ideyasının səslənməsi

[28] М.Г.Сеидов. Общественно-политическая обстановка в Азербайджане в 1940-е – начале 1950-х годов. Рукопись книги, с.27

xarici dövlətlər, xüsusilə müttəfiq ölkələrin Şimali Azərbaycana böyük marağını oyatmışdı.

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra bir tərəfdən komissarlığın beynəlxalq siyasətdə rolunun artması, digər tərəfdən isə ölkədə dinc quruculuq işlərinin başlanması respublika xarici siyasət idarəsinin maddi-texniki bazasının inkişafını zəruri edirdi. Komissarlıq yarandıqdan sonra uzun müddət SSRİ XİXK-nın Azərbaycanda yerləşən müvəkkilinin inventarı ona verildi. SSRİ Xarici İşlər Xalq komissarının müavini V.Dekanozov 1945-ci ilin avqust ayının 14-də göndərdiyi teleqramda XİXK-nın Azərbaycanda müvəkkilinə göstəriş verirdi ki, idarənin balansında olan bütün inventar Azərbaycan SSR Xarici İşlər Xalq komissarlığına təhvil verilsin. Dekanozovun bu göstərişi az sonra, 1945-ci ilin oktyabr ayının 29-da SSRİ XİXK-nın valyuta-maliyyə idarəsinin Bakıya göndərdiyi məktubla da təsdiq edilirdi.[29] Respublikaya gələn xarici qonaqların sayı artdığından komissarlığın qəbul otağı təmir edilmiş və ora qiymətli mebellə təchiz edilmişdi. Ləğv edilmiş müvəkkilliyin inventar bazası hesabına komissarlığın əməkdaşlarının iş şəraiti yaxşılaşdırılmış və bütövlükdə xarici siyasət idarəsinin maddi-texniki bazası möhkəmləndirilmişdi. 1946-cı ildə bu istiqamətdə işləri genişləndirmək üçün SSRİ XİXK tərəfindən respublika komissarlığına 520 min manat həcmində əlavə vəsait ayrılmışdı.[30]

1945-ci ilin oktyabr ayının ortalarında komissarlıq SSRİ XİXK-nın göstərişi ilə hazırlanan "Sovet Azərbaycanı" kitabı üzərində işi başa çatdırmış, geniş foto-illüstrasiya materialları toplanmışdı. Səkkiz çap vərəqi həcmində olan kitab bir sıra kənar müəlliflərin cəlb edilməsi ilə yanaşı, əsasən komissarlığın əməkdaşları tərəfindən hazırlanmışdı. Orada Azərbaycan xalqının öz istiqlaliyyəti uğrunda mübarizə tarixindən qısa məlumatlar, Azərbaycanın ərazisi və əhalisi, təbii ehtiyatları, sənayesi, kənd təsərrüfatı, dövlət quruculuğu, vətəndaşların hüquq və öhdəlikləri, ailə və məişət, din, mədəniyyət və maarif, səhiyyə,

[29] M,Əliyevin M.C. Bağırova arayışı. 31.01.1946.// ARDA, f.28, s.6c, i.16, v.27
[30] Yenə orada, v.29

ədəbiyyat və incəsənəti haqqında qısa məlumatlar verilirdi. Kitabın sonuncu fəsli respublikanın Vətən müharibəsi dövründəki həyatını əhatə edirdi. SSRİ Xarici işlər Xalq komissarlığının göstərişinə əsasən kitab Ümumittifaq Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti tərəfindən nəşr edilməli idi və bu məqsədlə komissar M.Əliyev cəmiyyətin idarə heyəti sədrinin müavini Karaqanova məktubla müraciət edib, onun çapa hazır olduğunu bildirmişdi.[31]

Komissarlığın fəaliyyətində yeni meydana çıxan məsələlərlə bağlı bir qayda olaraq Moskvaya, ittifaq komissarlığına müraciət edilirdi. Bu məqsədlə M.Əliyev 1945-ci ilin dekabr ayının 20-də daxili ərazi suları rejimi, sularda xüsusi zonalar, balıq ovu, Xəzər dənizində dövlət sərhədlərinin təhlükəsizliyinin hüquqi bazası ilə bağlı SSRİ XİXK-a müraciət etmişdi. 1946-ci ilin yanvar ayının 14-də komissarlığın Orta Şərq şöbəsinin müdiri S.Sıçev ona yazırdı ki, ərazi suları ilə bağlı məsələlər 1921-ci ilin fevral ayının 26-da Sovet Rusiyası ilə İran arasında imzalanmış müqavilənin 11-ci maddəsi, ticarət gəmiçiliyi və dənizçilik sahəsində 1940-cı ilin mart ayının 25-də SSRİ ilə İran arasında imzalanmış müqavilənin 12-15-ci maddələri ilə tənzim edilir. Balıq ovuna gəldikdə Sıçev qeyd edirdi ki, bu məsələ 1927-ci ilin oktyabr ayının 1-də SSRİ ilə İran arasında imzalanmış müqavilə ilə müəyyən edilir. Dövlət sərhədlərinin qorunması məsələsinə gəldikdə, bu məsələnin sərhəd məsələlərinə aid 1926-cı ilin fevral ayının 20-də Sovet İttifaqının İranla imzaladığı müqavilə və hər iki ölkənin sərhəd komissarlarının 1927-ci ilin avqust ayının 14-də həyata keçirdikləri notalar mübadiləsi ilə tənzimləndiyi bildirilirdi. Sıçev tövsiyə edirdi ki, ərazi suları ilə bağlı müəyyən məsələləri Azərbaycan SSR Xarici İşlər Xalq komissarlığı SSRİ Hərbi dəniz donanması Xalq komissarlığının Baş qərargahı ilə də dəqiqləşdirə bilər.[32] Xəzər dənizinin hüquqi statusu ilə bağlı Xəzər donanması komandanlığı 1945-ci ilin dekabr ayının 8-də Azərbaycan SSR Xarici İşlər Xalq komissarı M.Əliyevə müraciət etmişdi. Bu

[31] M.Əliyevin Karaqanova məktubu. 08.01.1946.// ARDA, f.28, s.6c, i.16, v.5
[32] S.Sıçevın M.Əliyevə məktubu. 14.01.1946.// ARDA, f.28, s.4c, i.41, v.1

məsələni aydınlaşdırmaq məqsədilə M.Əliyev 1945-ci ilin dekabr ayının 20-də SSRİ XİXK-nın hüquq şöbəsinə müraciət etdi. Sorğu ilə bağlı şöbə müdirinin müavini S.Bazarov ona yazırdı ki, Xəzər dənizində SSRİ ilə İranın hüquqlarının müəyyən edilməsi ilə bağlı məsələləri araşdırmaq məqsədilə sizin məktubunuz SSRİ Hərbi dəniz donanması Xalq komissarlığının hüquq şöbəsinin rəisi Palilova göndərilmişdir. Bazarov xəbərdarlıq edirdi ki, Azərbaycan Xarici işlər Xalq komissarlığını maraqlandıran məsələlər haqqında materiallar donanma komissarlığı tərəfindən Xəzər donanması komandanlığına göndəriləcəkdir.[33] Xəzərin hüquqi statusu ilə bağlı Moskvadan alınmış cavabları M.Əliyev müvafiq məktubla Bakıda yerləşən Xəzər donanması komandanlığına çatdırdı.[34]

Komissarlığın fəaliyyət dairəsi genişləndiyi üçün 1945-ci ilin sonlarından başlayaraq Azərbaycan SSR Daxili İşlər Xalq Komissarlığının Azərbaycan sərhəd dairəsinin rəhbərliyi SSRİ İran sərhədi boyunca baş vermiş pozuntular barədə mütəmadi olaraq M.Əliyevə məlumatlar göndərirdi. Bu məlumatlarda göstərilirdi ki, 1945-ci ilin dekabr ayının 28-də 44-cü sərhəd dəstəsi İran tərəfindən 3 nəfər, dekabr ayının 29-da Göytəpə sərhəd dəstəsi 2 nəfər, həmin gün Lənkəran sərhəd dəstəsi 5 nəfər sərhəd pozucusunu saxlamış və müvafiq yoxlamalardan sonra onların hamısını İrana qaytarılmışdı.[35] Dekabr ayının 29-da sərhədin Cəbrayıl rayonu ərazisindən iki nəfər İran vətəndaşının saxlanıldığı, dekabr ayının 30-da Lənkəran rayonu ərazisindən bir nəfərin, yenə həmin gün Göytəpə sərhəd məntəqəsindən altı nəfər İran vətəndaşının sərhədi pozması barədə Xarici İşlər Xalq komissarı M.Əliyevə məlumat göndərilmişdi.[36]

1945-ci ilin ikinci yarısında xarici nümayəndələrin Azərbaycana səfərləri intensiv xarakter almağa başlamışdı. Bir qayda olaraq, Bakıya gələn xarici qonaqların qarşılanması, müşayiət edilməsi və

---

[33] S.Bazarovun M.Əliyevə məktubu. 25.01.1946.// ARDA, f.28, s.4c, i.41, v.2

[34] M.Əliyevin Qırmızı Bayraqlı Xəzər donanması komandanlığına məktubu. 05.02.1946.// ARDA, f.28, s.4c, i.41, v.3

[35] General-mayor Malışevin M.Əliyevə məlumatı. 30.12.1945.// ARDA, f.28, s.4c, i.34, v.1

[36] General-mayor Malışevin və polkovnik Şoroxun M.Əliyevə məlumatı. 03.01.1945.// ARDA, f.28, s.4c, i.34, v.2-3

bütün protokol görüşlərinin keçirilməsi Xarici İşlər komissarlığı tərəfindən həyata keçirilirdi. 1945-ci ilin avqust ayının 4-də Amerika-Sovet Dostluğu Milli Şurasının vitse-prezidenti Edvin Smit Bakıya iki günlük səfərə gəlmişdi. Bu səfərdə onu Xarici ölkələrlə sovet mədəni əlaqə cəmiyyətinin məsul əməkdaşları (Kondraşov və Arnautova) müşayiət edirdilər. Bakı vağzalında Smiti Azərbaycan Xarici İşlər Xalq Komissarlığının protokol şöbəsinin müdiri M.T.Orucov qarşılamış və səfər müddətində onu müşayiət etmişdi. Bakı ilə tanışlığa başlayan kimi Smit Azərbaycanın tarixi, respublikanın ərazisi və əhalisi, Azərbaycanın sərhədləri, onun keçmiş Rusiya imperiyasının hansı inzibati vahidlərinə daxil olması, hazırda respublikanın inzibati vahidlərə bölünməsinin hansı prinsiplər əsasında həyata keçirilməsi və sair məsələlərlə bağlı çoxsaylı suallar vermiş, onun sualları Orucov tərəfindən cavablandırılmışdı. Avqust ayının 4-də Smit yeni təşkil edilmiş Azərbaycan Elmlər Akademiyasında və Maarif Xalq komissarlığında görüşlər keçirmişdi. O, ilk növbədə SSRİ ilə Amerika xalqları arasında mədəni əlaqələrin inkişafının zəruriliyinə toxunmuş və Elmlər Akademiyasının strukturu və fəaliyyət prinsipləri ilə maraqlanmışdı. Akademiyanın prezidenti Mirəsədulla Mirqasımov onun suallarına cavab verərək bildirmişdi ki, Akademiya 22 elmi-tədqiqat müəssisəsini özündə birləşdirir və onun geologiya-kimya elmləri və neft, fizika-texnika elmləri və neft, biologiya və kənd təsərrüfatı elmləri və ictimai elmlər bölmələri vardır. Smitin Azərbaycanda hansı faydalı qazıntıların olması ilə bağlı sualını Mirqasımov və akademiyanın elmi katibi Mirəli Qaşqay cavablandırdılar. Akademik M.Qaşqay bildirdi ki, neftdən əlavə Azərbaycanda xalq təsərrüfatı üçün əhəmiyyətli olan dəmir mədənlərinin, nadir metalların və digər faydalı qazıntıların, habelə mineral mənbələrin zəngin ehtiyatları mövcuddur. Smit xahiş etdi ki, Azərbaycanın elmi və mədəni uğurları haqqında Amerika-Sovet Dostluğu Milli Şurasının nəzdində təsis edilən elmi komitəyə tez-tez məlumatlar göndərilsin. O, dedi: "Biz Ermənistan və Gürcüstan sovet respublikaları haqqında bütün zəruri məlumatlara malikik, lakin Azərbaycan haqqında demək olar ki,

bizdə heç nə yoxdur və SSRİ xalqlarının həyatı, tərəqqisi və inkişafı haqqında çoxlu suallar verən bizim xalq Qafqazda, bütün dünyada öz nefti ilə şöhrət qazanmış Bakı adlı şəhərin mövcudluğu istisna olmaqla sizin respublika ilə tanış olmaq imkanından məhrumdur".[37]

Akademiyadan sonra Edvin Smit Maarif Xalq komissarının müavini Ələkbərovla görüşdü və Amerika-Sovet Dostluğu Milli Şurasının yanında maarif komitəsinin yaradılmasının əhəmiyyəti haqqında məlumat verdi. O, xahiş etdi ki, komissarlıq bu komitə ilə sıx əlaqələr qursun və respublikada nəşr edilən dərsliklər, jurnallar və sair nəşrlər ora göndərilsin. Ələkbərov Amerika ilə bu istiqamətdə əməkdaşlığın davam etdiriləcəyini, dövri nəşrlərin və məlumatların sistemli şəkildə komitəyə göndəriləcəyini bildirdi. Avqustun 5-də Smit Nizami adına ədəbiyyat muzeyində oldu. O, daha çox Nizami Gəncəvi haqqında məlumatlarla maraqlanırdı. M.T.Orucov N.Gəncəvinin Azərbaycan şəhəri Gəncədə doğulduğunu, bütün ömrü boyu bu şəhərdə yaşayıb yaratdığını bildirdi. Şəhərlə tanışlıq zamanı Smit son 25 il ərzində tikilmiş binalar, salınmış parklar və meydanlar haqqında daha çox məlumat almaq istəyirdi. Bu məlumatlar ona Azərbaycan xalqının 1920-ci ildən sonrakı həyatını sovetləşmədən əvvəlki dövrlə müqayisə etmək üçün lazım idi. Avqustun 5-də axşam Smit və onu müşayiət edən şəxslə Azərbaycan dövlət filarmoniyasında xalq musiqisi və rəqslərindən ibarət konsert proqramına baxdı. O, avqustun 6-da Moskvaya dönüşü ərəfəsində səmimi qəbul üçün respublika rəhbərliyinə təşəkkürünü bildirdi və Azərbaycana səfərindən böyük təəssürat aldığını qeyd etdi.[38]

Sovet İttifaqının müxtəlif şəhərlərinə səfərlərinin yekunları ilə bağlı Edvin Smit SİTA-nın müxbiri ilə keçirdiyi müsahibədə dedi ki, "mənim səfərimin məqsədi ABŞ ilə Sovet İttifaqı arasında mədəni əlaqələri qurmaqdan ibarətdir. Mən sovet respublikalarından birinin paytaxtı kimi Bakıda olmaq istəyirdim. İndiyə qədər mənim təsəvvürlərimdə Bakı dünyanın nəhəng neft mərkəzlərindən biri kimi

[37] M.Əliyev. Amerika-Sovet Dostluğu Milli Şurasının vitse-prezidenti və direktoru Edvin Smitin Bakı şəhərində olması haqqında hesabat. 07.08.1945.// ARDA, f.28, s.4c, i.16, v.48
[38] Yenə orada, v.49

qalırdı, lakin mən heç vaxt təsəvvür etmirdim ki, o belə müasir və mədəni bir şəhərdir". Smit onun Bakıda apardığı danışıqların Amerika və Azərbaycan xalqları arasında elmi və mədəni əlaqələrin inkişafına öz töhfəsini verəcəyini və amerikalıların Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənəti haqqında daha geniş məlumat almalarına müsbət təsir göstərəcəyini bildirdi. Eyni zamanda o, əlavə etdi ki, biz Azərbaycan xalqının da Amerika mədəniyyətinin ən yaxşı ənənələri haqqında məlumat almasında maraqlıyıq. Sonda Smit ümidvar olduğunu bildirdi ki, faşizm üzərində qələbədə böyük rol oynamış SSRİ və ABŞ hazırda daha əhəmiyyətli məsələ olan sülhün qorunub saxlanılmasında birlik nümayiş etdirəcək, xalqlarımız öz mədəni uğurları ilə bir-birilərini daha yaxından tanış edəcəkdir.[39]

Edvin Smitdən təxminən bir ay sonra, 1945-ci ilin sentyabr ayının 9-da Amerika konqresinin iki üzvü – Franses Bolton və Karl Mundt Bakıya gəldilər. Onları səfərdə konqresin katibi Lanham Konner, Dövlət Departamentinin nümayəndəsi Edqar Snou, "İvninq Post" qəzetinin əməkdaşı Raynqrat, Qreqori və Maqlid adlı iki leytenant müşayiət edirdi. Amerikalı qonaqları təyyarə limanında Bakı şəhər soveti icraiyyə komitəsinin sədri Kozlov və Xarici İşlər Xalq Komissarlığının protokol şöbəsinin müdiri M.T.Orucov qarşıladılar. Sentyabr ayının 10-da ABŞ konqresinin üzvləri və onları müşayiət edən şəxslər Bakı şəhəri ilə tanış oldular, Dağüstü parkdan Xəzər dənizini seyr etdilər. Keçirdikləri görüşlərdə və söhbətlərdə onlar Bakı neft sənayesinin hansı dövrdən yenidən qurulduğu, əvvəllər və indi neftin hansı üsullarla çıxarıldığının fərqli cəhətləri, Birinci Dünya müharibəsi dövrü ilə müqayisədə İkinci dünya müharibəsi illərində neft sənayesinin artım sürəti, hazırda fəaliyyətdə olan neft quyularının neçə faizinin sovet dövründə qazılması və sair məsələlərlə maraqlanırdılar. Bu suallarla bağlı Bolton və Mundta bildirildi ki, Bakının neft sənayesi 1927-1928-ci illərdə yenidən qurulmuşdur və çar dövründə təqribən 1912-1913-cü illərdə Bakıda nefti köhnə üsullarla - uzunsov vedrələrlə çıxarıldıqları halda, indi onu

[39] Edvin Smitin Bakıya səfərlə bağlı SİTA-nın müxbiri ilə müsahibəsi. Avqust 1945.// ARDA, f.28, s.4c, i.16, v.50-51

dərin nasoslar və kompressorlarla çıxarırlar. Neft sənayesinin inkişafı ilə bağlı konqresmenlərə məlumat verildi ki, Birinci Dünya müharibəsinin başlandığı 1914-cü illə müqayisədə neft hasilatı 3 dəfə, benzin istehsalı isə 80 dəfə artmışdır. Sonra Bolton və Mundt Azərbaycanda hansı kənd təsərrüfatı məhsulunun aparıcı olduğu və bu sahəyə, bilavasitə hansı respublika mərkəzi orqanının rəhbərlik etdiyi ilə maraqlandılar. Onlara məlumat verildi ki, Azərbaycanda əsas kənd təsərrüfatı məhsulu pambıq hesab edilir, lakin bununla yanaşı taxıl məhsulları, habelə subtropik bitkilər də respublikada geniş yayılmışdır. Konqresmenlərin sonrakı sualları daha çox sosial, elm və mədəniyyət məsələləri ilə bağlı idi. Məsələn, onlar maraqlanırdılar ki, Azərbaycan mədəniyyəti hansı mədəniyyətə yaxınlaşmağa can atır, respublika məktəblərində təhsil alan uşaqların sayı nə qədərdir, Sovet hakimiyyəti illərində Azərbaycanda nə qədər məktəb açılıb, ölkədə hansı ali məktəblər var, yerli əhalidən olan mütəxəssislərin sayı nə qədərdir, azərbaycanlı qızların təhsilə marağı hansı səviyyədədir, neft sənayesində çalışan fəhlələrin mənzil şəraiti necədir, respublikada hansı mədəniyyət ocaqları fəaliyyət göstərir, Azərbaycanda teatr və kino-teatrlar kimə məxsusdur, onlar gəlir gətirirmi, hər iki valideyni işləyən ailələrdə uşaqların vəziyyəti necədir və sair. Azərbaycan mədəniyyətinin hara can atması ilə bağlı suala cavab olaraq bildirildi ki, respublika mədəniyyəti şübhəsiz ki, dünya mədəniyyətinə yaxınlaşmağa can atır, lakin o ilk növbədə rus mədəniyyətinə istiqamət götürmüşdür. Nəhayət, qonaqların sonuncu sualı Azərbaycan Xarici İşlər Xalq komissarlığı ilə bağlı idi və onlar bilmək istəyirdilər ki, komissarlıq nə vaxtdan fəaliyyətə başlayıb və onun ayrıca binası varmı? Konqresmenlərə bildirildi ki, respublika Xarici İşlər Xalq komissarlığı yaxın vaxtlarda fəaliyyətə başlayıb və şəhərin ən yaxşı binalarından biri xüsusi olaraq onun üçün ayrılmışdır. Amerika konqresmenləri söhbət zamanı 17 sual vermişdilər, lakin bu suallar elə tərtib edilmişdi ki, onların əsasında bütövlükdə respublikadakı vəziyyəti müəyyən etmək olardı.[40] Amerika konqresmenləri Bakı ilə iki günlük tanışlıqdan sonra Tehrana yola düşmüşdülər.

[40] ABŞ konqresinin üzvləri Franses Bolton və Karl Mundtun Bakıya səfəri haqqında M,T,Orucovun

Bolton və Mundtun səfərindən bir həftə sonra Amerikadan daha geniş bir heyətin Bakıya iki günlük səfəri başladı. Sentyabr ayının 15-də ABŞ konqresinin üzvləri Uilyam Kolmer, Klifford Keys, Orvill Zimmerman, Cessi Uolkott, Cey LiFebr, Sidney Simpson, Carlz Uolverton və Corc Houl Moskvadan Bakıya gəldilər. Azərbaycana səfər zamanı onları konqresin müharibədən sonrakı dövr üçün iqtisadi siyasət və planlaşdırma komitəsinin direktoru Fils, hərbi istehsal bürosu sədrinin müavini, Harvard universitetinin professoru Elliot, Dövlət Departamentinin xarici əlaqələr üzrə əməkdaşı Ferris Ceyms və Birləşmiş Ştatlarının hərbi qüvvələrinin iki zabiti müşayiət edirdilər. Konqresmenlərin Bakı səfərinin proqramı respublika XİXK-in əməkdaşları tərəfindən hazırlanmış və komissarlığın Protokol şöbəsi bütün görüşlərdə, habelə, mədəni tədbirlərdə amerikalı qanunvericilərlə birlikdə olmuşdular. Sentyabr ayının 16-da konqresmenlərin şərəfinə verilən ziyafətdə nümayəndə heyətinin başçısı Uilyam Kolmer dedi ki, "hələ heç vaxt indiki kimi dünya xalqlarının fikir və düşüncələri üç böyük müttəfiq dövlətlərə yönəlməmişdi". O, təcavüzkar düşmənə qarşı müttəfiqlərin böyük qurbanlar verdiyini və qara qüvvələr üzərində parlaq qələbə qazandıqlarını qeyd etdi. Kolmer dedi: "İndiki məqamın böyük əhəmiyyəti ondan ibarətdir ki, müharibə dövründə rus və Amerika xalqlarının əməkdaşlığının möhkəm bünövrəsi qoyulmuşdur. Bu əməkdaşlıq indiki dinc dövrün də mühüm amilidir. Əgər bu silah qardaşlığı düşməni fəlakətə məhkum etdisə, onun gələcəkdə davam etdirilməsi azadlığın və səmimi dostluğun təminatıdır, azadlıq uğrunda verilən qurbanların hədər getmədiyinin təsdiqidir".[41] Kolmerdən sonra ziyafətdə çıxış edən Cey LiFebr dedi: "Biz iki gün əvvəl ürəkdən söhbət etdiyimiz generalissimus Stalinin şəxsiyyəti qarşısında baş əyirik. Biz onun mərdanə düşüncəsi qarşısında baş əyirik, ona görə ki, əgər Stalinin rəhbərlik etdiyi Qırmızı Ordu bizim ümumi qəddar düşmənimiz olan faşizm üzərində qələbənin yolunu təmizləməsəydi

---

M.Əliyevə hesabatı. 12.09.1945.// ARDA, f.28, s.4c, i.16, v.41-44

[41] ABŞ konqresinin üzvləri Klaud Kolmer və başqalarının Bakıya səfəri haqqında M.T.Orucovun M.Əliyevə hesabatı. 18.09.1945.// ARDA, f.28, s.4c, i.16, v.39

Amerika və Avropa xalqları hansı bədbəxtçiliklərə düçar olardılar".[42] Çıxışlara qoşulan Harvard universitetinin professoru əlavə etdi ki, "Moskvadan yola düşmək ərəfəsində bizi zəmanəmizin ən dahi adamı qəbul etdi, onun adı Stalindir. Biz bu görüşdən həddindən artıq məmnun idik, gözəl qonaqpərvərliyə görə Sovet hökumətinə və Stalinə müstəsna dərəcədə minnətdar idik. Generalissimus Stalinin bizə nümayiş etdirdiyi səmimiyyət Amerika-Sovet münasibətlərinin möhkəmliyinə əminliyimizi qanadlandırır. Sovet xalqının nümayəndələri ilə təsadüfü söhbətlərimiz və bu gün Sovet Azərbaycanının paytaxtında keçirdiyimiz bu sadə görüşümüz bizə Amerika-Sovet dostluğunun səmimiliyini dərindən hiss etməyə bir daha imkan verdi".[43] Konqres üzvü Cessi Uolkott da Bakıdakı çıxışında qeyd etdi ki, "yeni era yeni dünya yaratmalıdır, azad dünya, təhlükəsiz dünya, ədalətli dünya. Böyük dövlətlərin uğrunda vuruşduğu bu şüar real həqiqətə çevrilməlidir. Şər qüvvələrin məğlub edilməsi ümumbəşəri bir vəzifə idi. Bu yalnız Sovet İttifaqı, Amerika Birləşmiş Ştatları və Böyük Britaniyanın birgə fəaliyyəti və qarşılıqlı etimadı əsasında qurulan əməkdaşlıq sayəsində mümkün oldu. Bu qarşılıqlı etimad indiki dünyanın əsaslarının qurulmasının bünövrəsidir".[44] Çıxış edənlər Bakı Şəhər Soveti İcraiyyə Komitəsinin sədri Kozlov və Xarici İşlər Xalq Komissarlığının protokol şöbəsinin müdiri M.T.Orucovdan xahiş etdilər ki, səmimi və qonaqpərvər qəbul üçün onların təşəkkürlərini Azərbaycan respublikasının rəhbərlərinə çatdırsınlar. Görüş zamanı konqres üzvləri Bakı neft sənayesi, respublikanın kənd təsərrüfatı və Sovet Azərbaycanında mədəniyyətin inkişafı ilə bağlı müxtəlif suallar verdilər. Sentyabr ayının 17-də Bakı şəhəri ilə tanışlıqdan sonra ABŞ konqresinin üzvləri və onları müşayiət edən şəxslər təyyarə ilə Tehrana yola düşdülər.

Maraqlıdır ki, konqres üzvləri Bakıda olan günlərdə ABŞ Senatının Floridadan üzvü Klaud Pepper də Azərbaycanda idi. O, Moskvadan Amerikaya qayıdarkən sentyabr ayının 16-17-də yolüstü

[42] Yenə orada, v.40
[43] Yenə orada, v.40
[44] Yenə orada, v.40

Bakıda olmuş və şəhəri görmək arzusunda olduğunu bildirmişdi. Sentyabr ayının 16-da Pepper Dağüstü parkda, Bakının mərkəzi küçələrində, Elmlər Akademiyasında və Nizami muzeyində, Nizami adına kinoteatrda, Bakı-Sabunçu dəmir yol vağzalında və bir sıra mədəniyyət evlərində olmuşdu. Şəhərlə tanışlıqdan sonra senator qeyd etmişdi ki, "Bakının kənarları mənə Kaliforniyanı xatırladır. Çox təəssüf edirəm ki, Azərbaycanın paytaxtı ilə yaxından tanış olmağa, onun sakinlərinin həyatını ətraflı öyrənməyə vaxtım olmadı, lakin mənim ötəri tanışlığım Azərbaycan Respublikasının mədəni inkişafı haqqında danışmağa əsas verir". Həmin axşam Pepper və onu müşayiət edən Senatın xarici siyasət departamentinin işçiləri Nizami kinoteatrda "Arşın mal alan" filminə baxdılar. Film qonaqlarda böyük təəssürat yaratdı və Pepper filmə baxdıqdan sonra dedi ki, "bu doğrudan da sivilizasiyaya doğru böyük və nəhəng bir addımdır. Sovet hakimiyyəti keçmiş Çar imperiyasının ucqarlarında yaşayan xalqların mədəni inkişafı üçün az iş görməyib".[45] Sentyabr ayının 17-də Pepper Bakıdan ABŞ-a yollandı və səfər zamanı onu müşayiət edən Xarici İşlər Xalq Komissarlığının protokol şöbəsinin müdiri Məmməd Tağı Orucov komissar M.Əliyevin adına geniş hesabat hazırladı.

Sentyabr ayında isə, Bakı üzərindən Moskvaya gedən ABŞ, Böyük Britaniya, Meksika, İran, Hindistan və digər ölkələrin alimlərindən ibarət nümayəndə heyəti bir neçə gün Azərbaycanda olmuşdu. Azərbaycan hökumətinin təlimatına əsasən, dünya alimlərindən ibarət olan nümayəndə heyətinin qarşılanması, Bakı şəhəri ilə tanış edilməsi, respublikanın elmi müəssisələrində görüşlərin təşkili və qonaqların yola salınması kimi məsələlər Xarici İşlər Xalq Komissarlığına həvalə edilmişdi.[46]

1945-ci ilin dekabr ayının 11-də Britaniya parlamentinin Leyborist Partiyasından olan üzvü və "Mançester-Qardian" qəzetinin

---

[45] M.Əliyev. ABŞ senatoru Klaud Pepperin Bakıya səfəri barədə hesabat. Sentyabr 1945.// ARDA, f.28, s.4c, i.16, v.45

[46] Azərbaycan SSR XXİK-nın Protokol-Konsulluq şöbəsinin 1945-ci ildə fəaliyyəti haqqında hesabat. 1945.// ARDA, f.28c, s.4c, i.15, v.5

müxbiri Morqan Filips Praysın Bakıya bir həftəlik səfəri başladı. Moskvadan gələn Praysı Bakı hava limanında Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin nümayəndəsi Ə.Şahgəldiyev və Xarici İşlər Xalq Komissarlığının protokol şöbəsinin müdiri M.T.Orucov qarşıladılar. Bakıda olduğu müddətdə Prays Elmlər Akademiyası, Dövlət konservatoriyası, Azərbaycan Sənaye institutu və fizioterapiya institutunda görüşlər keçirmiş, Nizami və tarix muzeylərinə, Dağüstü parka, Şaumyan, Montin və Razin qəsəbələrinə baxmış, Lenin rayonunun mədəniyyət evi, Təzə pir məscidi, erməni kilsəsi ilə tanış olmuş, Dövlət filarmoniyası, Opera teatrı və Nizami adına kinoteatrın mədəni tədbirlərində iştirak etmişdi. M.F.Axundov adına Opera teatrında Prays "Koroğlu", "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarına tamaşa etmiş, kinostudiyada yeni çəkilmiş "Arşın mal alan" filminə baxmışdı.[47] Praysın Bakıya səfəri ilə bağlı Azərbaycan SSR Xarici İşlər Xalq komissarı M.Əliyev Moskvaya, SSRİ XİXK-na göndərdiyi qısa hesabatda yazırdı ki, Britaniya parlamentinin üzvü və "Mançestr-Qardian" qəzetinin müxbiri ilə söhbətdən aydın oldu ki, Prays Azərbaycan tarixinə və Azərbaycan xalqının adət və ənənələrinə, sovet hakimiyyəti qurulana qədər və sovet dövründə respublikanın sənaye və kənd təsərrüfatının müqayisəli təhlilinə, onun inkişaf sürətinə böyük maraq göstərir. Komissar SSRİ Xarici işlər Xalq komissarlığını məlumatlandırırdı ki, "Nizami və Tarix muzeyləri ilə tanışlıq zamanı Morqan Filips Prays özünün qədim Qafqaz tayfalarının dillərinin mənşəyi, Midiya dövlətinin yaranması və onun işğalları, romalılara, iranlılara və digərlərinə qarşı mübarizə tarixi ilə tanış olduğunu nümayiş etdirib. O, Azərbaycanda Bizans-İran müharibələrinin tarixi, azərbaycanlıların ərəb xilafəti əleyhinə, ərəb işğalçılarına qarşı mübarizə məsələləri ilə, Azərbaycanda ticarət və sənətkarlığın tarixi inkişafı, qədim dövrlərdə Azərbaycan mədəniyyətinin inkişaf xüsusiyyətləri, həmin zamanlarda ərəb və fars mədəniyyətlərinin Azərbaycan

[47] Britaniya parlamentinin üzvü Morqan Filips Praysın Bakıya səfəri haqqında M.T.Orucovun M.Əliyevə qısa hesabatı. 20.12.1945.// ARDA, f.28, s.4c, i.16, v.14

mədəniyyətinə və dilinə təsiri ilə maraqlanıb. Onun toxunduğu bütün məsələlərə muzeyin elmi işçisi, filologiya elmləri namizədi Həmid Araslı ətraflı cavablar vermişdi".[48] Bu səfərlə bağlı hazırladığı hesabatda Xarici İşlər Xalq Komissarlığının şöbə müdiri Orucov yazırdı ki, "Azərbaycan tarixinin bir sıra məsələləri ilə bağlı Prays Şirvanşahlar dövlətinin birləşdirmə siyasətindən və Səfəvi dövlətinin meydana çıxması tarixindən, azərbaycanlıların İran və Türkiyə dövlətlərinin işğalçılıq siyasəti əleyhinə müharibələrdən, rus ordularının Azərbaycanda görünməsindən və Azərbaycanın Rusiyaya birləşdirilməsi tarixindən məlumatlı olduğunu nümayiş etdirirdi. Suallar verməklə və qeyd edilən məsələlər ətrafında müzakirələrdə iştirak etməklə Morqan Filips Prays dəfələrlə bildirdi ki, o, şərqşünasdır və Şərq onu həmişə maraqlandırmışdır və maraqlandırır"[49] Müzakirələr zamanı Prays bütün Şərqi – Fələstin, Misir, Suriya, Hindistan, Türkiyə, İran, İraq və digər ölkələri dolandığını demiş və bildirmişdi: "Mən Qafqazda, xüsusilə Bakıda 35 il bundan əvvəl olmuşam və Bakıda mədəniyyət və məişət sahəsində baş verən bugünkü dəyişikliklər qabarıq şəkildə gözə görünür".[50] Bununla belə, Praysın Bakıda keçirdiyi görüşlərlə bağlı Xarici İşlər Xalq Komissarlığının hazırladığı hesabatlarda onun sovet quruluşuna şübhəli münasibəti də əks olunmuşdur. M.T.Orucov yazır: "Bakının görməli yerlərini seyr edərkən və ümumiyyətlə şəhərdə olduğu müddətdə Morqan Filips Prays hərəkətlərində və replikalarında müasir quruluşa və sovet xalqlarının uğurlarına şübhəli və dost olmayan münasibəti çox aydın sezilirdi. O, nə görürdüsə, ona nə göstərilirdisə, Praysa görə bütün bunlar müəyyən dərəcədə görüntü yaratmaq üçündür. Məsələn, "Koroğlu" operasına dirijorluq edən yoldaş Niyaziyə sual vermişdi ki, "sən hər dəfə dirijorluq edəndə frak geyinirsən, yoxsa onu yalnız bu gün geyinmisən?" Yaxud Nizami

---

[48] Britaniya parlamentinin üzvü Morqan Filips Praysın Bakıya səfəri haqqında M.Əliyevin SSRİ XXİK-nın mətbuat şöbəsinin müdirinə məlumatı. 11.01.1946.// ARDA, f.28, s.4c, i.38, v.1-2

[49] Britaniya parlamentinin üzvü Morqan Filips Praysın Bakıya səfəri haqqında M.T.Orucovun M.Əliyevə qısa hesabatı. 20.12.1945.// ARDA, f.28, s.4c, i.16, v.15

[50] Britaniya parlamentinin üzvü Morqan Filips Praysın Bakıya səfəri haqqında M.Əliyevin SSRİ XXİK-nın mətbuat şöbəsinin müdirinə məlumatı. 11.01.1946.// ARDA, f.28, s.4c, i.38, v.3

muzeyində olarkən soruşdu ki, "muzey həmişə belə təmiz saxlanılır, yoxsa, bizim gəlişimizlə əlaqədar bu gün qaydaya salınıb"... O, hər xırda şeyə diqqət yetirirdi. Biz onunla "Koroğlu" operasına baxanda dedi ki, "bu gün tamaşaçılar bizim "Əsli və Kərəm" tamaşasında gördüyümüzdən daha yaxşı geyiniblər". Yaxud o, "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarına baxdıqdan sonra dedi ki, "Azərbaycan musiqisi böyük tərəqqiyə nail olub, lakin hər necə olsa "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında, xüsusilə "Heyratı", "Çahargah" və "Kürd-Şahnaz" fraqmentlərində İran musiqisinin təsiri qalıb. "Leyli və Məcnun" operasını o, Şeksprin "Romeo və Cülyetta"sı ilə müqayisə etdi, lakin "Koroğlu"nun süjetinə etinasız yanaşdı. Azərbaycanın xəritəsi və orfoqrafiyası onu güclü şəkildə maraqlandırır".[51]

Söhbətlər və müzakirələr zamanı Prays neft sənayesinin vəziyyətinə daha böyük maraq göstərmişdi. O, sovetləşməyə qədər və Sovet hakimiyyəti illərində Bakıda neft istehsalının həcmi, Azərbaycanın ümumi iqtisadiyyatında neftin xüsusi çəkisi, bu sahədə planların razılaşdırılması, əmək haqqı, neft sənayesinin mərkəzləşdirilmiş qaydada idarə edilməsi və sair məsələlər barədə görüşdüyü şəxslərə çoxlu suallar vermişdi. M.T.Orucov M.Əliyevə yazırdı: "Elmlər Akademiyasında söhbətləri zamanı və bizimlə müzakirələrdə o, Azərbaycanın geologiyası, faydalı qazıntıları və mineral mənbələri haqqında çoxlu suallar verdi. Xüsusilə onu Azərbaycanın neft yataqları maraqlandırırdı. Bizim əksini sübut etməyimizə baxmayaraq o, israrla iddia edirdi ki, "müharibə zamanı Bakıda qazma işləri dayandırılıb".[52]

Dekabr ayının 17-də Prays Bakıdan Tehrana yola düşdü. Təyyarə limanında o, dedi: "Mən Azərbaycan haqqında yazacağam və çox yazacağam, lakin yazmazdan əvvəl mən İranda olmaq istəyirəm ki, Azərbaycan haqqında, xüsusi ilə Bakı haqqında təəssüratlarımı İranda

[51] Britaniya parlamentinin üzvü Morqan Filips Praysın Bakıya səfəri haqqında M.T.Orucovun M.Əliyevə qısa hesabatı. 20.12.1945.// ARDA, f.28, s.4c, i.16, v.16

[52] Yenə orada, v.16

görəcəklərimlə müqayisə edə bilim".[53] Doğrudan da Morqan Filip Prays Londona qayıtdıqdan sonra Bakıda və İran Azərbaycanında gördükləri haqqında «Mançestr-Qardian" qəzetində geniş məqalə yazmış və Britaniya Kral Cəmiyyətində geniş məruzə ilə çıxış etmişdi.[54]

Cənubi Azərbaycandakı coşqun hadisələr dövründə, 1945-ci ilin payızında hər iki Azərbaycana səyahət etmiş Britaniya parlamentinin leyborist fraksiyasının üzvü Morqan Filips Praysın səfər təəssüratlarında maraqlı məqamlar var idi.[55] Prays yazırdı ki, İran Azərbaycanında "yaşayan əhali öz dilinə, dininə və tarixinə görə qonşu Sovet Azərbaycanı respublikasında yaşayan əhalidən heç nə ilə fərqlənmir". O, sonuncu dəfə 35 il əvvəl gördüyü dövrlə müqayisədə Şimali Azərbaycanının sovet hakimiyyəti illərinə böyük uğurlar qazandığını, idarə və müəssisələrdə çalışanların 75 faizinin azərbaycanlı müsəlmanlar olduğunu yazırdı.[56] Sovet Azərbaycanının iqtisadi və mədəni inkişafını Prays haqlı olaraq Cənubi Azərbaycan üçün cazibə mərkəzi hesab edirdi. Onun fikrincə, İran Azərbaycanı kəndliləri görürdülər ki, şimalda, sərhədin o biri tayında iri feodallar artıq yoxdur, geniş miqyasda suvarma işləri görülür, sahələrdə traktorlar yer əkir, kəndlilər öz əməyinin bəhrəsini hiss edirlər. Prays əlavə edirdi ki, "elə həmin vaxt İrana getmək üçün sərhədi keçərkən onların torpağı xış və toxa ilə şumladıqlarını mən öz gözlərimlə gördüm". Bütün bunlarla yanaşı o, qeyd edirdi ki, rusların İranın şimal-qərbindəki əməllərinə sevinmək olmaz və onun fikrincə, bu ölkə ilə bağlı imzalanmış müqavilələrin ruhu və məzmunu pozulurdu. Prays etiraf edirdi ki, "indiki vaxtda İranda qorxulu vəziyyət yaranır, Rusiya İran Azərbaycanında muxtar islahatçı rejimi müdafiə etdiyi halda, biz və amerikalılar ölkədə ən qatı irticaçı dairələri müdafiə edirik". Bununla da

---

[53] Britaniya parlamentinin üzvü Morqan Filips Praysın Bakıya səfəri haqqında M.Əliyevin SSRİ XXİK-nın mətbuat şöbəsinin müdirinə məlumatı. 11.01.1946.// ARDA, f.28, s.4c, i.38, v.4

[54] Bax:«The Manchester Guardian», 1946, January 24; Journal of the Royal Central Asian Society, XXXIII, 2 (April 1946), p.189

[55] Bax:Azərbaycan SSR Xarici işlər komissarlığının protokol-konsulluq şöbəsinin 1945-ci ildəki fəaliyyəti haqqında hesabat.1945.//ARDA, f.28, s.4, i.15, v.5

[56] Filips Praysın 1912-ci ildə Azərbaycana səfəri haqqında ətraflı məlumat üçün bax: Price Morgan Philips. A Journey Through Azarbaidjan and Persian Kurdistan. The Persian Society, London, 1913

Prays İranda yaranmış vəziyyətə görə məsuliyyətin bir hissəsini İngiltərə və Amerika hökumətlərinin üzərinə düşdüyünü bildirir və yazırdı ki, biz islahatlara hazır olmayan İran hökumətini müdafiə etməklə vəziyyəti xilas edə bilmərik. Eyni zamanda, İran Azərbaycanda milli hökumətin yaranması ilə nəticələnən rusların siyasəti təhlil edərək Prays belə güman edirdi ki, Sovet İttifaqının Azərbaycan məsələsində yeritdiyi siyasət beynəlxalq oyun qaydalarına hesablanıb. O, yazırdı: "Hadisələrin indiki gedişindən yalnız güman etmək olar ki, ruslar nə qədər uzağa hərəkət etməyi düşünürlər. Onların İrandakı siyasəti ola bilsin ki, gələcəkdə beynəlxalq siyasətin digər sahələrində güzəştlər əldə etmək uçun Britaniya şirinin quyruğunu astaca tapdalamaq və Amerika qartalının tüklərini ehmalca yolmaqdan ibarət olan bir oyundur. Şübhəsiz ki, Şimali İrandakı şərait onlar üçün əlverişlidir və əgər biz ehtiyatlı olmasaq, anqlo-saks ölkələri deyil, məhz, Rusiya Orta Şərqin geniş müsəlman dünyasında islahatların müdafiəçisi rolunda çıxış edəcəkdir".[57] Yazının maraqlı tərəfi ondan ibarət idi ki, Cənubi Azərbaycan hadisələrinə bütün şərq ölkələrində böyük ehtiyac duyulan islahatçılıq hərəkatının başlanğıcı kimi baxılırdı.

Azərbaycan SSR Xarici İşlər Xalq Komissarlığının Protokol şöbəsinin yazdığı hesabatlardan aydın olur ki, 1945-ci ilin ikinci yarısında respublikaya səfər edən və Azərbaycan vasitəsi ilə Tehrana, Moskvaya və digər paytaxtlara yollanan dövlət başçıları, diplomatlar, yüksək rütbəli hərbiçilər və xarici ölkələrin parlamentlərinin üzvləri Bakıda olduqları müddətdə, əsasən, neft sənayesi və kənd təsərrüfatının inkişafı, mədəni quruculuq, Azərbaycan SSR-nin SSRİ dövlətindən asılılığı kimi məsələlərlə maraqlanırdılar. Xarici İşlər Xalq Komissarlığının məlumatına görə, respublikaya səfər edən xaricilər Azərbaycan SSR-nin büdcəsinin müstəqil olub-olmaması ilə xüsusi olaraq maraqlanıblar. Onlar müxtəlif görüşlər zamanı Azərbaycanın suverenliyi və müstəqilliyi ilə bağlı yerli rəhbər işçilərə çoxlu suallar verirdilər.[58]

---

[57] The Manchester Guardian, 1946, January 24

[58] Azərbaycan SSR XXİK-nın Protokol-Konsulluq şöbəsinin 1945-ci ildə fəaliyyəti haqqında hesabat. 1945.// ARDA. f.28c, s.4c, i.15, v.6

1945-ci ilin payızında SSRİ-yə və o cümlədən, Sovet Azərbaycanına gələn xarici nümayəndələrin, ayrı-ayrı dövlət xadimlərinin, parlament üzvlərinin və mətbuat təmsilçilərinin sayının kəskin şəkildə artdığı müşahidə olunurdu. Bu ilk növbədə ABŞ-dan gələn nümayəndə heyətlərinə aiddir. Qısa müddət ərzində, 1945-ci ilin avqust-sentyabr aylarında Birləşmiş Ştatlardan SSRİ-yə ardıcıl olaraq bir neçə nümayəndə heyətinin gəlməsi amerikalıların Sovet İttifaqı ilə müharibədən sonrakı dövr üçün əməkdaşlıq arzularının aydın təzahürü idi. Eyni zamanda, bu nümayəndə heyətlərinin SSRİ respublikaları ilə tanışlıq məqsədilə, məhz, Sovet Azərbaycanını seçmələri bir tərəfdən Bakı neftinə olan böyük maraqla bağlı idisə, digər tərəfdən İran Azərbaycanında başlanmış hadisələrin narahatçılığından irəli gəlirdi. Onlar böyük hadisələr ərəfəsində Sovet Azərbaycanının imkanlarını yoxlayırdılar.

§ 3.Xarici İşlər Nazirlərinin Moskva müşavirəsi və Azərbaycan

İran hakimiyyət dairələri Xarici İşlər nazirlərinin dekabr ayının ortalarında Moskvada keçirilən müşavirəsində müttəfiq orduların ölkə ərazisindən çıxarılması məsələsinin müzakirə olunacağına ümid bəsləyirdilər. Onlar Azərbaycan məsələsinin həllini bunda görürdülər. Bu məqsədlə dekabrın 13 və 15-də müttəfiq dövlətlərə İran hökumətinin notası təqdim edilmiş, SSRİ-dəki İran səfiri vasitəsi ilə Baş nazir və Xarici İşlər nazirinin Moskvaya səfər etmək arzuları sovet rəhbərliyinə çatdırılmışdı.[59] Lakin nə Moskva müşavirəsi dövründə, nə də ondan sonra Həkimi və Xarici İşlər naziri Ənuşirəvan Sipəhbudi Sovet İttifaqına dəvət edilmədilər. Belə olduqda, dekabr ayının 18-də Baş nazir İbrahim Həkimi İran Məclisi qarşısında çıxış edib Azərbaycan böhranı ilə bağlı məsələni bir qədər açıq şəkildə qoydu. O, qeyd etdi ki, Azərbaycan hadisələrinin

[59] Bax: İran məclisinin iclasında Baş nazirin nitqinin məzmunu. 18.12.1945.//ARPİİSSA, f.1, s.89, i.93, v.105; Faramraz S.Fatemi. The USSR in Iran, p.91-92; RFXSA, f.0430, s.2, q.5, i.16, v.20-23

arxasında sovetlər dayanıb, Pişəvəri və onun partiyası üzərində qələbə çalmaq üçün İran hökuməti güclü olmalıdır.[60]

Dekabr ayının 16-da ABŞ-ın dövlət katibi C.Birns, Britaniya Xarici İşlər naziri E.Bevin və SSRİ Xarici İşlər komissarı V.Molotovun iştirakı ilə üç müttəfiq dövlətlərin Xarici İşlər nazirlərinin müşavirəsi Moskvada açıldı. Bir gün sonra SSRİ XKS-nin sədri İ.Stalin məzuniyyətdən paytaxta qayıtdı. Müşavirə işə başlayan gün Sovet İttifaqının rəsmi dövlət orqanı olan "İzvestiya" qəzeti SİTA-nın yaydığı "İran Azərbaycanı milli hökumətinin manifesti" adlı müfəssəl məlumatı dərc etdi.[61] Həmin axşam Moskva radiosu Cənubi Azərbaycanda xalq hakimiyyətinin qurulması barədə geniş açıqlama verdi. Moskva müşavirəsi ilə bağlı Tehrandakı Britaniya səfiri Reder Bullard və Amerika səfirliyinin katibi Con Cernegan da SSRİ paytaxtına çağrılmışdılar. Hətta, səfir Bullard nəinki Moskvaya yollanan Britaniya nümayəndəliyinin tərkibinə daxil edilmiş, eyni zamanda o, bilavasitə danışıqlar masası arxasında oturan şəxslərin məhdud dairəsində təmsil olunmuşdu.[62]

Müşavirə işə başlayana qədər hər üç ölkənin xarici siyasət idarələri İran Azərbaycanı ilə bağlı müvafiq hazırlıq işləri görmüşdülər. Hələ Birnsin və Bevinin Moskvaya gəlmələrindən əvvəl SSRİ XİXK-nın Yaxın Şərq şöbəsinin müdiri Mixail Silin dekabr ayının 13-də İran Azərbaycanındakı hadisələr və müttəfiq orduların İrandan çıxarılmasına dair geniş məlumat hazırlayıb V.Molotova göndərmişdi. Orada göstərilirdi ki, İngiltərə və Amerika tərəfindən müttəfiq orduların İrandan çıxarılması məsələsini Moskva müşavirəsinin gündəliyinə təklif etmələri İran Azərbaycanı hadisələri ilə bağlıdır. O, izah edirdi ki, İran hökuməti İngiltərə, ABŞ və SSRİ-yə 26 noyabr tarixli müraciətində Azərbaycanda sakitliyi təmin etmək üçün öz ordularının ölkə ərazisində azad hərəkətinə şərait yaradılmasını

---

[60] Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War, p.33

[61] Известия. 1945, 16 декабря

[62] Bax: RFXSA, f.0430, s.1, q.2, i.8, v.14; Parviz Homayounpour. L'Affaire D'Azerbaidjan Lausanne, 1967, p.84; Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.36

istəyib və Baş nazir Həkimi də dekabr ayının 11-də ingilis qəzetlərinə müsahibəsində xarici orduların İrandan çıxarılması məsələsini qoyub. Silinin fikrincə, Bevin və Birns müttəfiq orduların İrandan çıxarılmasını Tehran hökumətinin Azərbaycandakı hadisələrə dair müraciətinə əsasən irəli sürürlər. O, qeyd edirdi ki, onlar nəinki, xarici orduların çıxarılmasını, eyni zamanda, İran ordularının Azərbaycana buraxılmasını tələb edəcək və İran Azərbaycanında vəziyyəti öyrənmək üçün oraya xüsusi komissiya göndərilməsi məsələsini qaldıracaqlar. Ona görə Silin təklif edirdi ki, məsələni gündəlikdən çıxarmaq lazımdır və əgər müttəfiqlər razılaşmasa, o, tövsiyə edirdi ki, Çin və Yunanıstandan ingilis-amerikan ordularının çıxarılmasını gündəliyə salınmasına nail olmaq lazımdır. Silin yazırdı: "Biz orduların çıxarılması ilə bağlı üzərimizə heç bir öhdəlik qəbul etməməliyik. İran ordularının Azərbaycana buraxılması ilə bağlı sizin noyabr ayının 29-da Harrimana və 30-da Kerrə yazdığınız məktubda deyildiyi kimi bu əlavə gərginliyə səbəb olar və Sovet hökuməti oraya əlavə ordu göndərmək məcburiyyətində qala bilər". İran Azərbaycanı hadisələri ilə bağlı Silin qeyd edirdi ki, "İran hökumətinə təklif etmək lazımdır ki, azərbaycanlıların milli ehtiyaclarının ödənilməsinə diqqətlə yanaşsın, bu məsələni qan tökülmədən dinc yolla, demokratik prinsiplər əsasında həll etsin".[63] Silinin bu xatırlatması onunla bağlı idi ki, Moskvaya gəlməzdən bir neçə gün öncə ABŞ və Böyük Britaniyanın Xarici İşlər nazirləri xarici orduların İrandan çıxarılması haqqında Molotova məktub göndərmişdilər. Britaniya səfiri Arçibald Kerr dekabr ayının 10-da İngiltərə hökumətinin mövqeyini sovet Xarici İşlər Xalq komissarına çatdırmışdı. Dekabr ayının 13-də cavab olaraq Molotov Kerrə yazırdı ki, "bu məsələ müəyyən edilmiş müddətin sonunda, əgər zərurət olarsa, məsələn, 1946-cı ilin fevral ayında müzakirə edilə bilər. İndiki vaxtda isə mən bu məsələnin müzakirəsinə ehtiyac görmürəm".[64] Məsələnin ciddiliyini nəzərə alaraq, SSRİ Xarici İşlər Xalq Komis-

[63] M.Silinin "İran Azərbaycanı hadisələri və müttəfiq orduların Irandan çıxarılmasına dair" V.Molotova məlumatı. 13.12.1945.// RFXSA, f.012, s.6, q.91, i.372, v.61-62

[64] V.Molotovun A.Kerrə cavabı.13.12.1945.// RDSSTA, f.558, s.11, i.99, v.153

sarlığının ekspertləri İranla bağlı müttəfiqlərin təkid edəcəklərini düşündüklərindən dekabrın 15-də Molotov üçün müxtəlif təkliflər hazırlamışdılar.

ABŞ və Britaniya xarici siyasət idarələrinin başçıları Moskvaya gəlmək ərəfəsində öz ölkələrinin Tehrandakı səfirliklərindən Cənubi Azərbaycanda baş vermiş hadisələr barədə müfəssəl məlumatlar almışdılar. Dekabr ayının 13-də İrandakı ABŞ səfiri Uolles Mörrey bu hadisələrlə bağlı dövlət katibinə dörd məlumat göndərmişdi. Birinci məlumatda səfir yazırdı: "İran hökuməti Amerika və Britaniya dəstəyinə arxalanaraq Azərbaycanda həyata keçirdiyi siyasəti davam etdirməkdə qərarlıdır. Biz isə qeyd etdik ki, məsələnin Moskvada müzakirəsindən sonra İranın siyasi nöqteyi-nəzərinin dəyişməməsi bizim üçün vacibdir".[65] Sonrakı məlumatda Mörrey İran hökumətinin Azərbaycandakı hadisələri qanunsuz hesab etdiyini bildirir, problemi həll etmək üçün Baş nazirin danışıqlara üstünlük verdiyini xatırladır, bu məqsədlə Moskvadakı İran səfiri vasitəsi ilə Sovet hökumətinə təkliflər verildiyi vurğulanırdı.[66] Dekabr ayının 13-də göndərdiyi başqa bir məlumatda səfir Baş nazir Həkimi ilə görüşdüyünü bildirir və yazırdı: "Bu gün Baş nazir mənə dedi ki, onun bir az əvvəl Moskvaya getmək və birbaşa danışıqlara başlamaq haqqında etdiyi təklifə sovet tərəfi heç bir cavab verməyib. İndi o, Xarici İşlər nazirlərinin müşavirəsini xüsusi dəvət almazsa, getməyəcəyini bildirir. O, hətta, belə bir dəvət olarsa, oraya İranı rəsmi təmsil etmək üçün səfir Məcid Ahini göndərməyi düşündüyünü söylədi".[67] Sonra Mörrey Vaşinqtona göndərdiyi məlumatda Bayatın Təbrizdən qayıtmasına toxunaraq yazırdı: "Əyalət valisi Bayat Təbrizdən Tehrana bu gün axşamüstü gəldi və məruzə etdi ki, üsyançılar Təbrizə girərək Milli Bank şöbəsini və Polis iqamətgahını tutdular və oradakı İran ordusunun komandanı Deraxşanini təslim olmağa çağırdılar. Bayat dedi ki, oradakı qarnizon şəhəri müdafiə

[65] The Ambassador in Iran (Murray) to the Secretary of State. 13.12.1945. // Foreign Relations of the United States. Diplomatic Papers 1945. Volume VIII. The Near East and Africa. Wash., 1969. p.491
[66] The Ambassador in Iran (Murray) to the Secretary of State. 13.12.1945.// Foreign Relations of the U.S. 1945. Vol.VIII, p.492
[67] The Ambassador in Iran (Murray) to the Secretary of State. 13.12.1945.// Foreign Relations of the U.S. 1945. Vol.VIII, p.493

etməyə qadir deyil. Şübhəsiz ki, vəziyyətə çox ümidsiz yanaşırdı, əks təqdirdə vəzifəsini qoyub qaçmazdı".[68]

Tehrandan alınan məlumatlara əsasən, ABŞ Dövlət Departamentinin Yaxın Şərq və Afrika işləri idarəsi İran Azərbaycanı böhranını Moskva müşavirəsində müzakirə edilməsinə fəal hazırlaşırdı. İdarə rəhbəri Loy Hendersonun fikrincə, məhz, "ABŞ İran üzrə müzakirədə liderliyi öz əlinə almalı idi" və bu işdə İngiltərə və SSRİ-dən fərqli olaraq Amerikanın "xudbin maraqlardan" şübhələnmək çətin olardı, çünki belə şübhələr reallıqla ziddiyyət təşkil edərdi. Dekabr ayının 11-də hazırlanmış memorandumda Henderson Birnsə təklif edirdi ki, ABŞ üçün İrandakı vəziyyət məhəlli problem kimi deyil, Təhlükəsizlik Şurasının daimi üzvlərinin Birləşmiş Millətlərin üzvü olan kiçik dövlətlərin suverenliyinə hörmət məsələsində bir-biriləri ilə əməkdaşlıq etmələrinin sınaq məqamı kimi vacib idi.[69] Amerika ekspertləri İran Azərbaycanı hadisələrinin arxasında SSRİ-nin isti dənizlərə doğru ekspansiya yolunda son maneələri aradan qaldırmaq və Britaniyanın artıq qoruya bilmədiyi müstəmləkə mülklərinə yaxınlaşmaq cəhdlərini görürdü.[70] Ona görə də "nə qədər ki, Sovet İttifaqı İran və Türkiyədən daha uzağa irəliləməmişdi", Henderson Amerika adminstrasiyasını qətiyyətli addımlar üçün səfərbər etməyi vacib hesab edirdi.[71] Xarici İşlər nazirlərinin Moskva müşavirəsi ərəfəsində Henderson və Açesonla görüşən Hüseyn Əla indi artıq, məhz, Cənubi Azərbaycanda sovet siyasətinin davam etməsi ilə bağlı İranın BMT TŞ-nın dəyişən üzvlüyünə namizədliyinin ABŞ tərəfindən müdafiə edilməsini onlardan xahiş edirdi. Onun fikrincə, Tehranın Təhlükəsizlik Şurasının üzvü olması onun İran məsələsinin müzakirəsində birbaşa iştirakını bilavasitə təmin edərdi.[72] Lakin bütün bunlara baxmayaraq, Amerika tarixçisi

---

[68] İbid, p.494
[69] İbid, pp.488-489
[70] Foreign Relations of the United States. Diplomatic Papers 1946. Volume VII. The Near East and Africa. Wash., 1969. pp.2-3
[71] İbid, p.4
[72] Memorandum of Conversation, by the Director of the Office of Near Eastern and African Affairs (Henderson). 17.12.1945. // Foreign Relations of the United States. 1945. Vol.VIII, p.500-501; И.В.Гайдук. ООН и Иранский кризис 1946 года. // «Новая и новейшая история». 2011, №5, с.72

Vladislav Zubokun qeyd etdiyi kimi, özünün Britaniyalı həmkarından fərqli olaraq ABŞ-ın dövlət katibi Birns Moskva müşavirəsində ingilislərlə tandem təşkil etmir və Azərbaycandakı hadisələr fonunda "İranın parçalanmasına yönəlmiş sovet hərəkətləri haqqında "incə mövzunu" qaldırmağa ehtiyatla yanaşırdı".[73]

Britaniya səfiri Rider Bullard da dekabrın 13-də Azərbaycan hadisələri ilə bağlı Forin Ofisə Mörreyin məlumatlarına bənzər təcili məlumatlar göndərmişdi. Bullard hələ, 1945-ci ilin yayından etibarən bu fikirdə idi ki, İranın vəziyyəti ümidsizdir və bu vəziyyət daha çox İngiltərənin 1800-cü ildə düşdüyü vəziyyətə bənzəyir. Onun fikrincə, xarici "əl olmadan" İranın bu vəziyyətdən çıxması müşkül məsələ idi və səfir əminliklə bu "əli" ABŞ-ın simasında görür və İranın yeganə ümidinin Birləşmiş Ştatlar olduğunu bildirirdi.[74] Bullarda görə "Azərbaycanın bütün kartları" SSRİ-nin əlində idi.[75] Bir qədər sonra Vaşinqton və Londona göndərilən məlumatlar nəinki, İran hökumətinin, Azərbaycan hadisələrinin sürətli inkişafından müttəfiq ölkələrin səfirlərinin də ümidsiz vəziyyətə düşdüyünü təsdiq edirdi. Dekabr ayının 15-də ABŞ səfiri Mörreyin Dövlət Departamentinə və dövlət katibi üçün Moskvaya göndərdiyi teleqram bu baxımdan daha səciyyəvi idi. O yazırdı: "Bütün yollar, kəndlər və şəhərlər (Təbriz və Ərdəbil də daxil olmaqla) "demokratlar" tərəfindən ələ keçiriliblər. Onlar seçkilər keçirmiş, "parlament" yaratmış və "nazirlər kabineti" təyin etmişlər. İran hökumətinin gücü nə üsyanı yatırmağa, nə üsyançılarla danışıqlar aparmağa, nə də SSRİ ilə diplomatik yaxınlaşmaya nail olmağa çatmadı. Tehrandan göndərilən dörd batalyon Qəzvin yaxınlığında gözləməkdə davam edir və irəli hərəkət etməyə qadir deyildir. Böhran bölgəsindəki təhlükəsizlik qüvvələri ya müqavimət göstərməmək barədə sovetlər

[73] Vladislav M.Zubok. A Failed Empire .The Soviet Union in the Cold War from Stalin to Gorbachov. The University of North Carolina Press. 2007, p.33; Владислав Зубок. Неудавшаяся империя: Советский Союз в холодной войне от Сталина до Горбачова. Москва, 2011, с.62

[74] From Tehran to Foreign Office. 21.08.1945. // National Archives (United Kingdom), Public Records Office, FO 371/45434; Əlavə məlumat üçün bax: Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992, pp.159-160

[75] Roger Louis. The British Empire in the Middle East, 1945-1951. Oxford, p.66; Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992, p.163

tərəfindən əmr alıblar, ya da sovetlərin onları dəf edəcəyindən o qədər qorxmuşlar ki, müdaxilə etmirlər. Üsyançıların prinsipial tələbi yalnız xarici əlaqələr və müdafiə işlərində mərkəzi hökumətdən asılı olan muxtar bir yerli hakimiyyətin qurulmasıdır. "Demokratların" az bir hissəsinin həqiqi kommunist olmasına baxmayaraq, onların sovet nəzarəti altında olmasına heç bir şübhə yoxdur və onlar sovet təbliğat xəttini izləyirlər. Sovetlərin bu hərəkatda iştirakını inkar etməsinə baxmayaraq, üsyanı onların planlaşdırıb təşkil etmələri şübhəsizdir. İran Xarici İşlər nazirliyinin səfirliyə təqdim etdiyi sənədlərdə göstərilirdi ki, bu ərazidə sovet ordusu bir neçə dəfə İran təhlükəsizlik qüvvələrinin işinə müdaxilə etmişlər. Mərkəzi hakimiyyətin bu ölkədə sovet ordusuna qarşı öz nüfuzunu bərpa etməsi qeyri-mümkün görünür və ola bilsin ki, bu, sovet hərbi hissələrinin geri çəkilməsindən sonra da çətin olsun. Xalq arasında şayiə yayılıb ki, iranlıların yeganə ümidi Amerikanın yardımıdır. Belə təəssürat var ki, britaniyalılar bu işdə xüsusi bir marağa sahib deyillər və 1907-ci ildəki mənafe bölgüsünə dönməyə razı ola bilərlər. Yeganə alternativ Amerika yardımının çatdırılmasıdır. Bundan başqa, iranlılar artıq hər yola əl atacaqları barədə işarə verməyə başlayıblar. Baş nazir və Xarici İşlər naziri Moskvaya getmək istəyirlər. Onların məhəlli çərçivədə sovetlərlə apardığı bütün danışıqlar uğursuzluqla nəticələndi. Artıq mətbuatda da dərc olunan təkrar-təkrar yazılmış notaları göndərməkdən başqa ayrı çarələri yoxdur. Bu mürəkkəb məsələdə üsyançıların haqlı olduğunu göstərən faktlardan biri xalqın gerçəkdən mərkəzi hakimiyyətdən narazı olmasıdır. Hətta müxaliflər də (Azərbaycan hərəkatına müxalif olanlar nəzərdə tutulur – C.H.) etiraf edirlər ki, mərkəzi hakimiyyətin əyalətlərdəki canişinləri korrupsiya və rüşvətxorluqla məşğul olmaqla yanaşı, qara camaatın güzəranına baxmır və iri torpaq mülkiyyətçilərinin mənafeyini qoruyurlar. Əgər tezliklə hərəkat nəzarət altına alınmasa, belə iğtişaşlar ölkənin başqa hissələrində də baş verəcəkdir. Belə ki, məsələ həll olunmazsa, tezliklə İranın şimal əyalətlərinin SSRİ-nin tərkibinə daxil olmasını gözləyə bilərik".[76] Bu

[76] The Ambassador in Iran (Murray) to the Secretary of State. 15.12.1945.// Foreign Relations of the U.S. 1945. Vol.VIII. p.496-497

məlumatla yanaşı Birns Moskva radiosundan məlumat aldı ki, artıq demokratlar Azərbaycanın qırxa qədər şəhərini ələ keçiriblər. ABŞ-ın Tehran və Moskva səfirliklərinin məlumatları ilə tanış olduqdan sonra Birns həyəcanla Ağ evə xəbər verirdi ki, Sovet İttifaqı İran Azərbaycanını nəzarətdə saxlamaq istəyir. Birləşmiş Ştatların ən nüfuzlu qəzetlərindən olan "Nyu York Tayms" Amerika ictimaiyyətinə İranın Azərbaycan əyalətinin paytaxtını itirdiyini bildirirdi. SSRİ-nin bu hərəkətindən qəzəblənən prezident Harri Trümen dövlət katibinə yazdığı məktubda təhdidedici fonda deyirdi ki, "mən sovetlərə dayəlik etməkdən yorulmuşam".[77] Lakin prezident müəyyən mülahizələrə görə bu məktubu dövlət katibinə göndərmədi.

İran hökuməti Xarici İşlər nazirlərinin Moskva müşavirəsində vəziyyətin onun xeyrinə həll ediləcəyinə ümidini itirmişdi. Dekabr ayının 15-də İran hökuməti müttəfiq orduların təcili olaraq ölkədən çıxarılması ilə bağlı yenidən üç ölkənin Xarici İşlər nazirlərinə müraciət etdi. Notada göstərilirdi ki, xarici orduların ölkə ərazisində olması İranın təhlükəsizlik qüvvələrinin öz ərazisində azad hərəkətinə, habelə qayda-qanun yaratmasına imkan vermir.[78]

1945-ci ilin sonlarındakı diplomatik yazışmalardan hiss edilirdi ki, Azərbaycan məsələsindən istifadə etməklə ABŞ tədricən İranla münasibətlərdə təşəbbüsü ələ almağa çalışır, Cənubi Azərbaycan hadisələrini Sovet Azərbaycanı, bütövlükdə Sovet İttifaqı ilə əlaqələndirməyə meyllənirdi. Təbrizdəki xarici ölkələrin konsulluq idarələrini nəzarətdə saxlayan sovet xüsusi xidmət orqanlarının məlumatına əsasən, Bağırov və Maslennikov Stalin və digər sovet rəhbərlərinə yazırdılar ki, "şəhərdəki Amerika konsulluğunun katibi Meyva Aprik bildirib ki, Amerika dairələri Azərbaycanda demokratik hərəkatın əleyhinə deyillər, lakin, guya, onlar

---

[77] James Chace. Acheson. The Secretary of State Who Created the American World. Simon Schuster, 1998, p.143; John Lewis Gaddis. The United States and the Origins of the Cold War. 1941-1947.New York, Columbia University Press,1972, p.281

[78] SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevin ÜİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.// RDSSTA, f.17. s.128. i.93, v.39; A.H.Hamzavi. Persia and the Powers. An Account of Diplomatic Relations, 1941-1946. London, New-York, Melbourne, Sydney. 1946. p.97

rusların bu işlərə açıq müdaxiləsindən dəqiq xəbərdardırlar.[79] Dekabr ayının sonlarında Təbrizə yeni təyinat almış ABŞ konsulu Robert Rossou təxminən on il sonra xatırlayırdı ki, "Sovetlərin Təbrizdəki Baş konsulu, göy yaxalıqlı Krasnıx üsyanın ilhamvericisi idi. O, hərbi başçılardan daha çox siyasi rəhbərlərə tabe olan şəhər komendantlarına nəzarət edir və onların işini tənzimləyirdi. Üsyançıların çox hissəsi Şimali Azərbaycandan gəlmiş mühacir adlandırılan və bir neçə ay əvvəl təlim keçmiş demokrat kimi tanınan şəxslərdən ibarət idi...İnqilab, əlbəttə ki, uğurlu oldu və 1945-ci ilin dekabr ayında Tehran hökumətindən tam müstəqil, rusların oyuncağı kimi "muxtar Azərbaycan hökuməti" yaradıldı...İnqilabın lideri və yeni yaradılmış hökumətin Baş naziri Cəfər Pişəvəri idi. Əlli yaşında olan kiçik boylu və nazik bığlı bu adam Birinci Dünya müharibəsi dövründə İranın ilk kommunisti olmuşdu".[80]

Azərbaycandakı milli hərəkatın bütövlükdə kommunizmin ayağına yazılması ona qarşı mübarizəni, Qərbin böyük dövlətlərinin ona qarşı birləşməsini asanlaşdırdı. Halbuki, Azərbaycan Milli Hökuməti xüsusi mülkiyyəti toxunulmaz elan etməklə kommunizm ilə özü arasında məsafə saxlamaq görüntüsü yaratmağa çalışırdı. Amerika üçün Cənubi Azərbaycanda kommunist təhlükəsi olduğunu qabartmaq cəhdləri İranı nəzarətdə saxlamaq vasitəsinə çevrilirdi. Dekabr ayının 17-də ABŞ-ın siyasi dairələrinə yaxın olan "Taym" jurnalı üz qabığında Məhəmməd Reza şahın portretini, içəridə isə Azərbaycan hadisələrinə dair geniş yazı vermişdi. Yazıda bir vaxtlar Bakıdan İrana gəlmiş Pişəvərinin və onun rəhbərlik etdiyi Təbriz hərəkatının şahın hakimiyyəti üçün ciddi təhlükə yaratdığı vurğulanırdı. Məqalənin ortasına qoyulan xəritə də siyasi məzmun kəsb edirdi və orada Araz çayının aşağısındakı Azərbaycan dəstəyi Bakının üzərində təsvir edilmiş yarımdairəvi oraq ilə əhatəyə alınmışdı.[81] Həmin "Taym" jurnalı dekabr ayındakı sonuncu sayında İranı Azərbaycan təhlükəsindən "xilas etmək" istəyən şəxsi ilin adamı elan etmişdi, bu Ruzveltin qəfil vəfatından sonra Ağ

---

[79] M.C.Bağırov və İ.Maslennikovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı. 18.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.272

[80] Robert Rossow. The Battle of Azerbaijan. 1946.// The «Middle East» Journal. Winter, 1956, p.18

[81] Time, 1945, 17 December, pp.28-33 "

evə gələn Harri Trümen idi. Onun jurnalın üz qabığında verilən portretinin üzərində atom "göbələyinin" təsviri verilmişdi.[82] Məhz, böhranlı dekabr günlərində Dövlət Departamentinin Orta Şərq bölməsinin rəhbəri Harold Maynor Azərbaycan hadisələrini təhlil edərək belə bir nəticəyə gəlirdi ki, "İranın yeganə ümidi Birləşmiş Ştatlardır".[83] Moskva müşavirəsinin davam etdiyi günlərdə dövlət katibinin müavini Din Açeson SSRİ-dəki ABŞ səfiri Harrimana yazırdı: "İran səfiri (Vaşinqtondakı – C.H.) Dövlət Departamentinə zəng edərək həyəcan və hiddətlə dedi ki, onun hökuməti sovet nəzarəti altında olan digər ərazilərin taleyinin də Azərbaycanın taleyi kimi olmaması üçün yalnız ABŞ-ın köməyinə ümid edir. O, əlavə etdi ki, İran sovet nəzarəti altında olan qalan bölgələri də itirsə, məhv olar".[84] Doğrudan da sovet təhlükəsinin İranın digər şimal vilayətlərinə yayılma perspektivləri haqqında amerikalıların əlində bəzi məlumatlar var idi. Məsələn, dekabr ayının 22-də Rəştdən Gilan əhalisinin Tudə partiyasının üzvü olan müxtəlif təbəqələrinin imzaladığı qətnamə alınmışdı. Orada tələb edilirdi ki, ölkədə demokratik rejim qurulmalı, dövlət aparatındakı oğrular və rüşvətxorlar məhkəməyə verilməli, əyalətdə toplanan verginin 50 faizi yerli ehtiyaclar üçün ayrılmalıdır.[85] Qətnamə teleqraf vasitəsi ilə şah, məclis və hökumətə göndərilmişdi. Sənəddə xəbərdarlıq edilirdi ki, əgər 10 gün ərzində tələblər yerinə yetirilməsə, onlar özləri hərəkətə keçəcəklər. Amerika konsulluğuna məlumat daxil olmuşdu ki, Gilanda hərəkatın təşkil olunması ideyası, hələ, bir ay əvvəl İXP MK-nın üzvü Reza Rust Təbrizə gələrkən Mirzə İbrahimov və Pişəvəri tərəfindən ona verilmişdi. Tudə rəhbərləri bu istiqamətdə sovet səfirliyindən hər hansı bir göstəriş almadıqlarını bildirdikdə, M.İbrahimov demişdi ki, onlar fəaliyyətə başlasınlar və o, çalışacaq ki, Gilanda hərəkətə keçməyə icazə verilsin.[86] Kozlovun

---

[82] Time. 1945, 31 December

[83] Memorandum of Conversation, by the Director of the Office of Near Eastern and African Affairs (Henderson). 17.12.1945 // Foreign Relations of the United States. 1945. Vol.VIII, p.501

[84] From Acheson to Harriman. 21 12.1945 // Foreign Relations of the United States. 1945, Volume VIII, p.508

[85] Kozlovun Stalin və Molotova şifli teleqramı. 29.12.1945.// RDSSTA, f.82. s.2, i.1221, v.29

[86] Kozlovun Stalin və Molotova şifli teleqramı. 01.01.1946.// RDSSTA, f.82. s.2, i.1220, v.15-16

İrandan ÜİK(b)P MK-nın beynəlxalq informasiya şöbəsinə göndərdiyi bu teleqramlar Stalin tərəfindən Molotova, sonuncu isə öz dərkənarı ilə onları Xarici İşlər Xalq Komissarlığının idarə rəisi Silinə göndərmiş, Silin isə bu məsələ ilə bağlı sovet rəhbərliyinin mövqeyini Bağırova çatdırmışdı. Azərbaycan hadisələrinin İranın bütün şimal vilayətlərinə yayıla biləcəyini Röyter agentliyinin müxbirinə istinadən Fransanın "Le Monde" qəzeti də yazırdı. Qəzetin fikrincə, Azərbaycan muxtariyyətinin İran hüdudlarında elan edilməsi bu hərəkatın bütün şimal vilayətlərinə yayılması üçün bir manevr idi. "Le Monde" yazırdı: "Bir neçə xüsusiyyətinə görə üsyançı hərəkat Azərbaycanla məhdudlaşmaya bilərdi. Demokratlar açıq şəkildə bəyan edirdilər ki, onlar İranın digər vilayətləri üçün nümunə ola bilərlər".[87] Bundan əlavə, Təbrizdəki konsul Rossoudan Vaşinqtona məlumat gəlmişdi ki, Xorasanda da Azərbaycandakına bənzər uğurlu demokratik hərəkat təşkil etmək üçün Təbrizdəki sovet konsulu Krasnıx və konsulluğun bir neçə əməkdaşı təlimat alaraq Məşhədə göndəriliblər.[88] Daha sonra Açeson İran səfirinin narahatçılığını belə təsvir edirdi: "O, yalnız İranın deyil, bütün dünyanın təhlükəsizlik maraqlarından bəhs edir, çünki Azərbaycan hərəkatı Türkiyə və digər Yaxın Şərq ölkələrini əhatə edə biləcək hadisələr zəncirinin ilk halqasıdır. O, sözünə davam edərək dedi ki, əgər bir ölçü götürülməsə, BMT-nin dünyada sülhün və ədalətin təminatçısı kimi heç bir əhəmiyyəti qalmaz. Mancuriya, Həbəşistan və Münhen hadisələri təkrarlanar, Azərbaycan Üçüncü dünya müharibəsinin ilk atəşi olar".[89] Şübhəsiz ki, səfir Harrimana göndərilən bu məlumat daha çox sovet paytaxtında olan Birnsi məlumatlandırmaq üçün idi. Doğrudan da, elə Birns Moskvada olan vaxt, dekabr ayının 20-də "İzvestiya" qəzetində iki gürcü akademikinin "Bizim Türkiyəyə qanuni tələblərimiz haqqında" adlı geniş yazısı dərc edilmişdi. S.Canaşia və N.Berdzeişvilinin birgə müəlliflikləri ilə çap

---

[87] Le Monde, 1945, 18 decembre

[88] The Ambassador in İran (Murray) to the Secretary of State. 20.12.1945.// National Archives and Records Administration of the USA. RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-2045

[89] From Acheson to Harriman. 21.12.1945.// Foreign Relations of the United States. 1945, Volume VIII, p.508; Əlavə məlumat üçün bax: И.В.Гайдук. В лабиринтах холодной войны: СССР и США в ООН, 1945-1965. Москва, 2012, с.77

olunan məqalədə xatırladılırdı ki, 1921-ci ilin oktyabr ayının 13-də Cənubi Qafqazın sovet respublikaları öz ərazilərinin bir hissəsini – keçmiş Batum dairəsinin bir hissəsini, Artvin, Ərdahan, Oltı, Qars və Kaqızman dairələri, keçmiş İrəvan quberniyasının Sürməli qəzasını Türkiyəyə güzəştə getmişdir. Bununla yanaşı akademiklər bildirirdilər ki, Cənub-Qərbi Meshetiyanın Parxal, Tortom, İspir rayonları ilə bağlı iddiaları əsaslandırmaq və Lazıstanla bağlı mübahisəyə girişmək olar.[90] Gürcü akademiklərinin tələblərini "İzvestiya", "Krasnaya zvezda" kimi qəzetlərdə dərc edilməsi məsələnin dərinliyindən xəbər verirdi. Azərbaycanlıların muxtariyyət mübarizəsindən sonra gürcülərin bu tələblərinə İsfahan ətrafında yaşayan gürcü fareydanlarının (I Şah Abbas dövründə İrana köçürülmüş gürcülər) məsələsi də əlavə edilmişdi.[91] Eyni vaxtda, qonşu Türkiyə ilə bağlı baş verənlər İran hökumətinə məlum idi və İran mətbuatı Sovet İttifaqı ilə Türkiyə arasında mövcud olan problemlərin tam mənzərəsini yaratmağa çalışırdı.[92]

Xarici İşlər nazirlərinin müşavirəsi açılmazdan bir gün əvvəl səfir Mörrey Birnisə göndərdiyi məlumatda sovet idarələrinin Amerika rəsmilərini İran Azərbaycanına buraxmadıqlarından şikayətlənirdi. O, yazırdı: "Tehrandakı Rusiya səfirliyi Dövlət Departamentinin Orta Şərq bölməsinin rəhbəri Maynorun və səfirliyin hərbi attaşesinin müavini kapitan Qaqarinin dekabr ayının 14-24 tarixləri arasında Təbrizə səfər etmələrinə icazə vermədi. Onlar Təbrizdə bir neçə həftə ərzində təcrid vəziyyətində qalan konsulluğumuzla rabitəni qurmaq məqsədilə gedəcəkdilər. Bizə Təbrizə getməyə icazə verilmədi və bunun heç səbəbi də izah edilmədi...Dövlət katibimiz bütün bunları Molotova bəyan etməlidir, çünki, əgər onların hərəkətləri xəbərdarlıqsız qalarsa, bu, sovetlərin səfirliyimizin fəaliyyətinə mane olmaq cəhdlərini davam etdirmələri ilə nəticələnə bilər".[93]

---

[90] Bax: Известия, 1945, 20 декабря

[91] Ətraflı məlumat üçün bax: Джамиль Гасанлы. СССР-ИРАН: Азербайджанский кризис и начало холодной войны (1941 1946 гг). М . Герои Отечества, 2006, с.181-182

[92] Bax Kristen Blake. The U S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War, p.33

[93] The Ambassador in Iran (Murray) to the Secretary of State. 15.12.1945.// Foreign Relations of the United States.1945. Vol.VIII, p.499

Xarici İşlər nazirləri müşavirəsinin birinci günü V.Molotov bilavasitə Azərbaycan hadisələri üzərində qurulmuş İran məsələsinin müzakirəyə çıxarılmasına imkan vermədi. İran məsələsi rəsmi müzakirələrdən çıxarılsa da, razılığa gəlindi ki, bu məsələ qeyri-rəsmi formada müzakirə edilsin.[94] Dekabrın 18-də Britaniya Xarici İşlər naziri Bevin Molotova təklif etdi ki, Azərbaycan məsələsi ilə bağlı fikir mübadiləsi etsinlər. Onun fikrincə, Britaniya ictimaiyyəti İrandakı siyasi prosesləri çox diqqətlə izləyirdi. Molotov isə cavab olaraq bildirdi ki, Sovet İttifaqının Azərbaycanda baş verən milli-demokratik hərəkata heç bir müdaxiləsi yoxdur. SSRİ Xarici İşlər Xalq komissarı Sovet İttifaqının İranla bağlı öz öhdəliklərinə əməl edəcəyini bildirirdi, lakin Molotovun müqavilə öhdəlikləri ilə bağlı təminatı Britaniya naziri üçün elə də inandırıcı görünmürdü.[95] Eyni zamanda o, əlavə etdi ki, bu hadisə sırf daxili məsələdir. Molotovun fikrincə, "Azərbaycanda baş verənlər müharibədən sonrakı şəraitin təbii təzahürü idi". Xarici orduların İrandan çıxarılmasına gəlincə, Molotov dedi ki, bu məsələ Potsdam və Londonda müzakirə edildi və müvafiq qaydada razılığa gəlindi, yenidən bu məsələyə qayıtmağa heç bir səbəb yoxdur.[96]

Dekabr ayının 19-da SSRİ XKS-nin sədri İ.Stalin C.Birns və E.Bevini qəbul etdi. Danışıqlar zamanı bir çox məsələlərlə yanaşı, Azərbaycan məsələsinə də toxunuldu. Bu məsələ ilə bağlı Molotov tərəfindən səsləndirilmiş fikirlər Stalin tərəfindən də müdafiə edildi. Eyni zamanda, o, əlavə etdi ki, İran hökuməti SSRİ-yə qarşı düşmən mövqedə dayanır və bu düşmənçilik özünü İranın Bakı neft mədənlərində təxribat təşkil edə bilməsi təhlükəsini doğurur. Sovet dövlətinin başçısı müttəfiqlərin Xarici İşlər nazirlərini inandırmağa çalışırdı ki, "bir qutu kibriti olan adam" Bakı neft mədənlərini üçün

---

[94] From Ambassador Harriman and Jernegan to the Department of State. Top Secret. 28.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-28845; Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History, 2011, Vol. 46(1), p. 67

[95] Bax: Louise L'Estrange Fawcett. Iran and the Cold War. The Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992, p.100

[96] Correspondence concerning discussions on Persia at the Moscow Conference of Foreign Ministers. 18.12.1945. // National Archives (United Kingdom), Public Records Office, FO 371/52662

ciddi təhlükə yarada bilər.[97] Stalin Sovet İttifaqının öz ordularını İranda saxlamaqda davam etməsini Bakı neft mədənləri üçün yaranmış təhlükə ilə əlaqələndirdi. O, dedi: "Biz sizi əmin edirik ki, SSRİ-nin İrana qarşı hər hansı ərazi və başqa iddiası yoxdur, onun ərazisinin hər hansı hissəsini özünə birləşdirmək, onun suverenliyinə qəsd etmək niyyəti yoxdur. Bakı neft mədənlərinin təhlükəsizliyi təmin olunduğu vaxt SSRİ ordularını İrandan çəkəcək və İranın daxili işlərinə heç bir maraq göstərməyəcək".[98] Tanınmış Amerika alimi Con Leyus Qaddis yazdığı kimi, müttəfiqlər təəccübləndilər ki, Stalin şimali İranda sovet işğalını davam etdirməklə prosesləri 1946-cı ilin əvvəllərində işə başlayacaq BMT-nin Təhlükəsizlik Şurasına sürükləyir və beynəlxalq böhranlarla mübarizədə yeni ümumdünya təşkilatını ilk dəfə böyük sınaq qarşısında qoyur.[99]

İranın Bakı üçün nə dərəcədə təhlükə yarada biləcəyini araşdırmaq məqsədilə dövlət katibi Tehrandakı Amerika səfirinin fikrini soruşduqda, Mörrey bildirdi ki, "sovetlərin "iranlılar Bakı neft mədənləri üçün təhlükə təşkil edir" şərhi həddindən artıq əsassızdır və anlamaq çox çətindir ki, nəyə görə sovetlər bu məsələyə belə böyük əhəmiyyət verir. Moskva konfransından az sonra Britaniya Xarici İşlər naziri Bevin də öz növbəsində Birnsə bildirirdi ki, Bakı neft sənayesinin təhlükəsizliyi ilə bağlı İran daxilindən "bir qutu kibriti olan adam"ın "diversiya hərəkətlərindən" Stalinin narahatçılığı ciddi nəticələrə gətirib çıxara bilər.[100] Əlbəttə, Stalinin Cənubi Azərbaycan və bütövlükdə, İranın şimalına münasibətdə yeritdiyi siyasətin SSRİ-nin cənub sərhədləri üçün müəyyən təhlükəsizlik elementləri var idi. Perspektivdə ABŞ və Britani-

---

[97] Extract of conversation between Stalin with Bevin and Byrnes. 19.12.1945.// National Archives (United Kingdom), Public Records Office, FO 371/52662; Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War, pp.33-34

[98] From Ambassador Harriman to the Department of State. Top Secret. 23.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-2345; Əlavə məlumat üçün bax: Geoffrey Roberts. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History, 2011, Vol. 46(1), p. 67; James F.Byrnes. Speaking Frankly. New-York and London, 1947, p.118-121; R.J.Maddox. From War to Cold War. Boulder, London, 1989. p.164; B.L.Crayson. United States'Iranian Relations. Wash., 1981. p.89; Faramraz S.Fatemi. The USSR in Iran, p.92-93

[99] John Lewis Gaddis. The Cold War. A New History. The Penguin Press. New York, 2005, p.28

[100] Alan Bullock. Ernest Bevin:Foreign Secretary, 1945-1951. London, 1983. p.207

yanın İran neftinin istismarı ilə bağlı sovet sərhədlərinə yaxınlaşmaq cəhdləri Moskva tərəfindən sovetlərin dövlət maraqlarına yönəlmiş təhlükə kimi qəbul edilirdi. Göründüyü kimi, "Stalinin başlıca strateji məqsədi yalnız İran neftinə çıxış əldə etmək deyildi, eyni zamanda onun arzusu Qərb ölkələrini, xüsusilə ABŞ-ı sovet sərhədlərindən uzaqda saxlamaq idi". Bu istiqamətdə Tehrana təzyiq göstərmək üçün sovet lideri İrandakı sovet ordusuna və ölkədə ciddi dəyşikliklər etmək imkanına malik olmayan anti-qərb mövqeli İran millətçilərindən hələ Komintern dövründə təşkil olunmuş marksist-leninçi əhvali-ruhiyyəli Tudə partiyasına əlavə olaraq Şimali İranda idarə olunan separatçı qüvvə kimi Azərbaycan milli kartı ilə oynamaq qərarına gəlmişdi. Bu halda o, Çində Homindan hökumətini bir tərəfdən yerli kommunistlərlə, digər tərəfdən isə Şərqi Türküstan separatistləri ilə təhdid etdiyi kimi İran hökumətini şantaj edə bilərdi.[101] Ona görə də sovet rəhbərliyinin təsəvvürlərində Azərbaycan məsələsinə cənub sərhədlərinin təhlükəsizliyinin təmin edilməsində "bufer zona" kimi baxılır və Şimali İranda neft konsessiyasının əldə edilməsi ölkənin cənub rayonlarının təhlükəsizliyinin mühüm təminatı kimi qiymətləndirilirdi.[102] Xüsusilə, Tehranda hakimiyyət Qərb yönümlü, anti-sovet əhaval-ruhiyyəli dairələrin əlində olduqca, rus alimi İlya Qaydukun yazdığı kimi, "Kreml İranda öz məqsədlərinə nail olmaq üçün daha çox hərbi təzyiq və təxribatçı hərəkətlərə arxalana bilərdi".[103]

---

[101] Vladislav M.Zubok. A Failed Empire .The Soviet Union in the Cold War from Stalin to Gorbachov. The University of North Carolina Press. 2007, p.42; Владислав Зубок. Неудавшаяся империя: Советский Союз в холодной войне от Сталина до Горбачова. Москва, 2011, с.73-74; Çinin Sincan əyalətində (Şərqi Türkistanda) separatist hərəkatın təşkili haqqında ətraflı məlumat üçün bax:"Şərqi Türkistan (Çinin Sincan əyaləti) muxtar hökumətinin yaradılmasına yardım haqqında" ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 22.06.1945.// RDSSTA, f.17. s.162, i.37, v.145-146; "Sincanda vəziyyət haqqında" ÜİK(b)P MK Siyasi Bürosunun qərarı. 15.09.1945.// RDSSTA, f.17. s.162, i.37, v.150-151; "Sincanda vəziyyət və üsyançıların hərəkəti haqqında" Beriyanın Stalin və Molotova məlumatı. 07.08.1945.// RFDA, f. 9401c, s.2, i.98, v.49-51; Sincanda üsyançıların fəaliyyəti haqqında general Yeqnarovun Beriyaya xidməti məlumatı. . 27.08.1945.// RFDA, f. 9401c, s.2, i.98, v.318-319; "Sincanda üsyançı hərəkatın gedişi haqqında" Beriyanın Stalin, Molotov və Malenkova məlumatı. 05.09.1945.// RFDA, f. 9401c, s.2, i.98, v.377-379; Jamil Hasanli.Stalin and Turkish Crisis of the Cold War, 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK. 2013, p.ix və s.

[102] Н.И. Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, № 3, с.39

[103] И.В.Гайдук. В лабиринтах холодной войны: СССР и США в ООН, 1945-1965. Москва, 2012, с.75

Moskva müşavirəsinin davam etdiyi dördüncü gün İran Azərbaycan məsələsini Birləşmiş Millətlər Təşkilatının müzakirəsinə çıxarmaq niyyətində olduğunu SSRİ, ABŞ və Britaniya rəsmilərinə bildirdi. Stalinlə görüşdən sonra Birnsdə də Azərbaycan məsələsinin ağırlaşdığına və problemi BMT-nin müzakirəsinə çıxarmağın zəruriliyinə tam əminlik yarandı, lakin o, elə etmək istəyirdi ki, məsələ beynəlxalq müzakirəyə çıxarıldıqda azərbaycanlılar haqlı tərəf kimi görünməsinlər. Ona görə də Birns təcili olaraq İran hökumətinə vacib saydığı tövsiyələri Moskvadakı səfir Harriman vasitəsi ilə Mörreyə çatdırdı. Orada deyilirdi:"Xahiş edirəm, qeyri-rəsmi və gizli şəkildə Baş nazirə söyləyin: Siz tövsiyə edirsiniz ki, İran hökuməti tezliklə azərbaycanlıların irəli sürdüyü tələbləri qarşılayan güzəştlər etsin. Xüsusilə, məktəblərdə türk dilinin fars dili ilə bərabər öyrədilməsi və İran konstitusiyasına uyğun olaraq əyalət əncümənlərinin yaradılması haqqında azərbaycanlıların istəklərinin doğru olduğunu düşünürəm. Deyə bilərsiniz ki, siz İran hökumətinin bu istiqamətdə addımlar atmaq istəyinin olduğunu bilirsiniz və İranın suverenliyinə zidd olmayan şikayət zəminini yox edə biləcək hər cür addımın tezliklə atılmasınının vacib olduğunu düşünürsünüz. Təbii ki, Azərbaycanın ayrı bir ölkə olmasını, qarşısını almaq üçün belə addımların atılması mümkündür. Baş nazirə izah edin ki, siz ona Azərbaycanda muxtar hökumət qurulmasına razı olmasının təklif etmirsiniz. Qeyd edin ki, bunları tövsiyə etməkdə məqsədiniz İranın BMT və dünya ictimaiyyəti qarşısında haqlı olduğunu göstərmək, əhalinin konstitusyon hüquqlarının əlindən alınmasına cəhddə İran hökumətinə yönələ biləcək şübhələri dağıtmaq üçündür".[104]

Səfir Mörrey dövlət katibinin tövsiyələrini Baş nazirə çatdırdıqda, etnik kimlik baxımından türk olan İbrahim Həkimi onu inandırmağa çalışdı ki, guya Azərbaycan xalqı heç vaxt türk dilini öz doğma milli dili saymayıb və o, bu dilin monqol işğalı zamanı xalqa zorla qəbul etdirildiyini düşünür. Həkimi iddia edirdi ki, Azərbaycan əhalisi

[104] R.Cottam. Iran and the United States. Pittzburgh, 1988. p.67; Foreign Relations of the United States. 1945. Vol.VIII, p.504-505

iğtişaşlarda iştirak etmir və iki il bundan öncəyə qədər heç kimin tanımadığı etirazçıların demokrat lideri bütün ömrünü Bakıda yaşamışdır. Baş nazir belə hesab edirdi ki, demokratların liderinin ətrafında olan adamlar xalqın təmsilçiləri sayıla bilməzlər, lakin bütün hallarda Baş nazir Amerika səfirinin təkliflərini nəzərə alacağını və bu istiqamətdə bəzi addımlar atacağını bildirdi. Bununla belə Həkmi dedi ki, onun hökuməti Azərbaycanda yaradılmış parlamenti və hökuməti heç bir halda qəbul edə bilməz, onun fikrincə, bu qurumların heç bir hüquqi əsası yox idi və guya onlar Qafqazdan qanunsuz yolla İrana keçən xaricilər tərəfindən yaradılmışdı. Həkimi qeyd etdi ki, sovetlər çəkildikdən sonra onun hökuməti Azərbaycandakı üsyanı silah gücünə yatırmaq niyyətindədir. Mörrey yazırdı: "Mən təkrarən şahı, həm də Baş naziri tələsdirdim ki, Azərbaycan problemini qan tökmədən həll etsinlər. Onlara tövsiyə etdim ki, hökumətdəki azərbaycanlılardan ibarət bir komissiya yaradıb, üsyançılarla danışıqlar aparmaq üçün ona təlimat versinlər".[105]

Azərbaycan hadisələrinin guya yerli hadisə olmayıb, Qafqazdan gələnlərlə əlaqələndirilməsi İran siyasi dairələrinin çıxışlarında və paytaxt mətbuatında tez-tez səsləndirildiyindən, məclisin dekabr ayının 24-də keçirilən iclasında Xalq Partiyasından olan deputat Reza Radmaneş belə iddiaların əsassız olduğunu bildirdi. O, dedi ki, "Azərbaycan hadisələrinə gəldikdə, onun məsuliyyətini bizim qonşumuzun üzərinə atmaq lazım deyildir...Azərbaycan məsələsi bizim daxili işimizdir. Azərbaycan hadisələrində qafqazlıların barmaq izlərini axtarmağa lüzum yoxdur. İran Azərbaycanında heç bir qafqazlı olmayıb. Bütün bəla ondadır ki, biz Azərbaycan əhalisinin ehtiyaclarına diqqət yetirməmişik".[106]

ABŞ səfiri Mörreyin bütün cəhdlərinə baxmayaraq Tehrandakı SSRİ səfirliyi Vaşinqtondan ezam olunmuş xüsusi nümayəndə

---

[105] The Ambassador in Iran (Murray) to the Secretary of State. 22.12.1945.// Foreign Relations of the United States. 1945. Vol.VIII, p.509

[106] SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevin ÜİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.// RDSSTA, f.17. s.128, i.93, v.27

Maynoru Təbrizə buraxmamaq üçün ona sovet zonasına buraxılış verilməsini müxtəlif vasitələrlə yubadırdı. Dekabr ayının 22-də Yaqubovla görüşən Mörrey dedi ki, bu ayın 14-də Təbrizə getməli olan Maynor müvafiq sovet orqanlarından hələ bu günə qədər buraxılış ala bilməyib. Səfir əlavə etdi ki, Xarici İşlər nazirlərinin müşavirəsi başlandığından Maynoru hər an Moskvaya çağıra bilərlər və öz dönüşünə qədər o, hökmən Təbrizə getməlidir. Ə.Yaqubov izah etməyə çalışdı ki, Maynorun Təbrizə səfərinin yubanması onun xəstəliyi ilə bağlıdır və o, bir neçə gün işə çıxmayıb. Yaqubov elə həmin gün məsələni araşdıracağına söz verdi.[107]

Dekabr ayının 23-də Stalin Birnisi, bir gün sonra isə Bevini qəbul etdi. Birns Stalinlə ikinci görüşdə Azərbaycan münaqişəsinin BMT-nin qarşıdakı yanvar iclasında qaldırıla biləcəyindən narahat olduğunu və bunun baş verməməsi üçün müxtəlif tədbirlərin görüləcəyinə ümid bəslədiyini bildirdi. Eyni zamanda, dövlət katibi böyük müharibə dövründə İranın SSRİ-yə yardım göstərdiyini vurğulayaraq, indi onun Sovet İttifaqına düşmən münasibəti ilə razılaşmadığını ifadə etdi. Müzakirələrin gedişində Stalin bildirdi ki, SSRİ İran məsələsinin BMT-yə çıxarılmasından qorxmur və əgər belə olarsa, heç kəs narahat olmasın. O, dedi: "Biz sizi utandıracaq elə bir pis iş görmərik. Əgər bu məsələ Məclisdə (BMT Baş Məclisi nəzərdə tutulur – C.H.) qaldırılsa, heç kimə xəcalət çəkmək lazım gəlməyəcək".[108] Tehran bəyannaməsinin yerinə yetirilməsindən razı qaldığını bildirən Stalın etimad və səmimiyyət ifadəsinin keçmiş İran hökumətinə aid olduğunu, indiki Tehran hökumətinin isə SSRİ-yə qarşı düşmən mövqe tutduğunu və əhalini sovetlərə qarşı çıxışa sövq etdiyini vurğuladı. Stalinin fikrincə, İran hökuməti öz vəzifələrini

---

[107] Ə.Yaqubovun U.Mörrey ilə söhbəti. 22.12.1945.// RFXSA, f.094, s.37, q.5, i.357a, v.40

[108] From Ambassador Harriman and Jernegan to the Department of State. Top Secret. 28.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-28845; Memorandum of Conversation, Stalin and Byrnes. 23.12.1945.// Foreign Relations of the United States. Diplomatic Papers 1945. Volume II. General: Political and Economic Matters Wash., 1967. p.750-752; Kuross A. Samii. «Truman Against Stalin in Iran: A Tale of Three Messages». // Middle Eastern Studies, January, 1987, №1, Vol.23, p.97; И В.Гайдук ООН и Иранский кризис 1946 года.// «Новая и новейшая история». 2011, №5, с.73

yerinə yetirməli və Sovet İttifaqına münasibətdə düşmənçilik siyasətini dəyişməlidir. Britaniyalı professor Geoffrey Roberts yazır ki, Stalinin sovet ordularının İrandan çıxarılmasını yubatmasının iki səbəbi var idi. Onun fikrincə, bunlardan birincisi, Moskvanın İranın şimal neft yataqlarının istismarı ilə bağlı Tehranla müqavilə imzalamaq arzusu idi, ikincisi isə "İranda millətçi kommunist hərəkatının rəhbərliyi altında 1945-ci ildə Azərbaycan sovet respublikasındakı həmvətənləri ilə əlaqələri inkişaf etdirmək istəyən azərbaycanlıların muxtariyyət tələblərinin meydana çıxması ilə bağlı idi". Roberts əlavə edir ki, müstəqillik uğrunda hərəkat kimi etnik muxtariyyəti müdafiə etmək Stalinə İranda sovet siyasi təsirinin genişlənmə imkanlarını vəd edirdi.[109]

Dekabr ayının 24-də Stalin tərəfindən qəbul edilən Bevin öz amerikalı həmkarı ilə məsləhətləşdikdən sonra Azərbaycan məsələsini həll etmək üçün Britaniya – Birləşmiş Ştatlar – Sovet İttifaqından ibarət birgə komissiyanın yaradılması haqqında layihəni Stalinə təqdim etdi. Bevinin təkliflərinə görə İran hökumətinə tövsiyə edilirdi ki, əyalət əncümənlərinin işini yenidən qursun, türk, kürd və ərəb dillərinin milli azlıq dilləri kimi öyrədilməsini təmin etsin.[110] Bevinin fikrincə, birgə komissiya əyalət əncümənləri seçkilərinin keçirilməsini müşahidə etməli, eyni zamanda, xarici orduların İrandan geri çağırılması məsələsini araşdırmalı və üç müttəfiq dövlətə öz ordularını İrandan çıxarmaq barədə tövsiyələr verməli idi. Britaniya siyasi dairələrini bu planı həyata keçirməklə artıq baş vermiş fakt olan Azərbaycanın muxtariyyətini sovetlərin iştirakı ilə İran hökumətinin nəzarətinə salmaq məqsədi güdürdü. İlk addım olaraq Stalin Bevinlə görüşdə Britaniya təkliflərinin qəbul edilməsinin mümkünlüyünü söylədi və həmin layihə öyrənilmək üçün SSRİ Xarici İşlər Xalq komissarlığına verildi. Moskva müşavirəsinin qapalı iclasında

---

[109] Geoffrey Roberts. Stalin's War: From World War to Cold War, 1939-1953. Yale University Press, New Haven and London, 2008, p. 308-309

[110] From Ambassador Harriman and Jernegan to the Department of State. Top Secret. 28.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-28845; E.Bevinin V.Molotov və C.Birnisə təklifləri.24.12.1945.// RFXSA, f.012, s.6, q.91, i.372, v.172-173

Britaniya nümayəndə heyətinin başçısı "İrana dair üçtərəfli komissiyanın səlahiyyətləri məsələsinə dair" layihəni müzakirəyə təqdim etdi. Nə Bevin, nə də Birnis istəmirdilər ki, İran Azərbaycanı məsələsi daxili problem kimi qəbul olunsun. Ona görə də, Britaniya Xarici İşlər nazirinin layihəsi Moskva konfransında iştirak edən Tehrandakı ingilis səfiri Bullardın dekabr ayının 20-də xarici orduların İrandan çıxmasına dair hazırladığı ilkin layihədən prinsip etibarı ilə fərqlənən bir sənəd idi.[111] Onun ətrafında müzakirələrin qızğın xarakter alması da, məhz, buradan irəli gəlirdi. Sovet nümayəndələri layihədəki "komissiya xarici orduların tezliklə çıxarılmasını asanlaşdırmaq məsələsi ilə məşğul olmalıdır" ifadəsini, "müttəfiq orduların çıxarılmasını mümkün olduğu qədər sürətləndirmək" ifadəsi ilə əvəz etməyi təklif edirdilər.[112] Lakin Azərbaycan hadisələrinin gündən-günə genişləndiyi bir şəraitdə bu qeyri-müəyyənlik nə Bevini, nə də Birnsi təmin etmirdi. Məsələni daha da konkretləşdirmək üçün Bevin Molotovdan "siz orduların çıxarılmasının mart ayının 2-i tarixinə təyin edilməsi ilə razı deyilsiniz?" – deyə soruşduqda, xalq komissarı birbaşa cavab verdi ki, "biz buna razı deyilik". Molotov öz fikrini daha çox qış vaxtının çətin şəraiti ilə izah etməyə çalışdı və təklif etdi ki, İran tərəfi iştirak etmədiyi üçün bu məsələnin baxılması hələ yaradılmamış üçtərəfli komissiyaya saxlansın.[113]

Dekabr ayının 26-da Bevin təklif etdi ki, layihə üzərində SSRİ-nin bütün düzəlişləri qəbul edilsin və komissiyanın yaradılması barədə saziş razılaşdırılsın.[114] Bevinin bu fəallığı İran Azərbaycanı hadisələrinin Britaniyada ictimai rəyə güclü təsir etməsi ilə bağlı idi və leyborist hökuməti bununla ictimai rəyə biganə olmadığını nümayiş etdirmək istəyirdi. Londondakı İran səfiri Seyid Həsən Tağızadənin Azərbaycan hadisələri ilə bağlı yaydığı bəyanat

---

[111] Foreign Relations of the United States. 1945. Vol.VIII, p.519

[112] Bax: RFXSA, f.0430, s.2, q.5, i.16, v.1-2; RFXSA, f.094, s.31, q.351a, i.3, v.23

[113] Bax: RFXSA, f.0430, s.1, q.1, i.1, v.240; Н.И.Егорова. «Иранский кризис» 1945-1946 гг. По рассекреченным архивным материалам. // «Новая и новейшая история». 1994, №3, с.36

[114] Geniş məlumat üçün bax: From Ambassador Harriman and Jernegan to the Department of State. Top Secret. 28.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-28845

Britaniya siyasi dairələrinə və Birləşmiş Krallıqdakı ictimai rəyə müəyyən qədər təsir göstərmişdi. Orada deyilirdi: "İrandan alınan son məlumatlar o dərəcədə həyəcanlıdır ki, indi xaricdə yaşayan hər bir İran təbəəsi və bütün xalq separatizm cəhdlərinə qarşı öz hiddətini bütün dünyaya çatdırmalıdır... Üçtərəfli müqavilə və Tehran bəyannaməsi ilə böyük dövlətlər İran şahənşah hökumətinin ərazi bütövlüyü və suveren hüquqlarına hörmət etməyi öz üzərlərinə götürmüşlər... Lakin müttəfiqlərdən birinin İranın daxili işlərinə müdaxiləsi üçtərəfli müqavilə üzrə öhdəliklərin pozulmasına misal ola bilər. Müdaxilə elə bir həddə gəlib çıxıb ki, ölkənin mühüm əyalətlərindən olan Azərbaycan İrandan ayrılmaq yolu tutub...Böyük dövlətlərin öz öhdəliklərinin bu formada pozulması nəinki İranın ərazi bütövlüyünə və suverenliyinə kobudcasına qəsddir, eyni zamanda, iranlılar belə hesab edirlər ki, belə hallar müqavilənin üçüncü iştirakçısı olan Böyük Britaniyanın öhdəliklərinin pozulması deməkdir...İranlılar Britaniyanın öz öhdəliklərini yerinə yetirəcəyinə, üç müttəfiq ölkənin nazirlərinin Moskvada İranın suveren hüquqları və bütövlüyünə hörmətlə yanaşılması məsələsində razılığa gələcəklərinə, onun böyük qonşusu və müttəfiqi kimi Sovet İttifaqının öz ordusu və nümayəndələri vasitəsi ilə İranın daxili işlərinə müdaxilədən çəkinməklə Tehrana olan tərəddüdlü və şübhəli münasibətini aradan qaldıracağına ümid bəsləyirlər. Bu ümidlə də iranlılar müşavirənin işinə mane ola biləcək kəskin şikayətlərdən çəkinirlər, lakin indi ictimai fikirdə, guya, Azərbaycan muxtariyyət hərəkatının baş tutmuş fakt olması haqqında bir sıra səhv təsəvvürlər formalaşır. Son günlərin hadisələri göstərir ki, Azərbaycanda hakimiyyətin qiyamçılar tərəfindən qəsb edilməsinin başa çatmış fakt kimi təqdim edilməsinin yolverilməz olması bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırılsın".[115] Lakin İran rəsmilərinin belə açıqlamalarına və Britaniyalı həmkarının ciddi cəhdlərinə baxmayaraq, Molotov Moskva müşavirəsində Azərbaycan məsələsi ətrafında müzakirələrin davam etdirilməsinə etiraz etdi. E.Bevin dəfə-

[115] Londondakı İran səfirliyinin bəyanatı. 21.12.1945.// ARPİİSSA, f.1, s.89. i.93, v.128-129

lərlə məsələyə qayıtsa da, Molotov bu problemin rəsmi qaydada gündəlikdə olmamasını əsas tutaraq Britaniyalı nazirin bütün cəhdlərinin qarşısını aldı. O, eyni zamanda, Bevinə xəbərdarlıq etdi ki, İran hökumətinin razılığı olmadan üçtərəfli komissiya qurula bilməz və ümumiyyətlə, Sovet İttifaqı, hal-hazırda ona düşmən münasibət bəsləyən İran hökuməti ilə bağlı bu məsələni həll etmək fikrində deyildir.[116]

Lakin nəzərə almaq lazımdır ki, İran Azərbaycanı hadisələri Britaniya hakim dairələri üçün yalnız ictimai rəy məsələsi deyildi. Bu hadisələrin arxasında Birləşmiş Krallığın imperiya mülklərinin taleyi dayanırdı və hətta, bəzi məqamlarda Azərbaycan məsələsinə Britaniya imperiyasının gələcəyini müəyyən edən amil kimi baxırdılar. Onlar yaxşı başa düşürdülər ki, "Stalinin İran Azərbaycanını ölkənin qalan hissəsindən ayırmaq planı" pis nəticələr verə bilər və "iranlıların özlərinin dəvət etdiyi britaniyalıların və amerikalıların İranda təsirini azaldar, onların ölkədə genişlənmə imkanlarını zəiflədə bilərdi".[117] Tanınmış iqtisadçı Menken (Mencken) 1945-ci ilin dekabr ayının 21-də "Tayms" qəzetinin redaksiyasına yazırdı: "İngiltərə üçün Azərbaycanın coğrafi və strateji mövqeyi əhəmiyyətlidir. İran Azərbaycanı üçün "muxtariyyət"in ardınca, ola bilsin ki, yaxın gələcəkdə şimalda Sovet Azərbaycanı ilə birləşmək haqqında "kortəbii" tələblər gələcəkdir. Bu, Türkiyəni tamamilə İrandan ayırar, Araratın cənubundan Ərzuruma gedən həyati əhəmiyyətli yolu nəzarət altına almaqla Türkiyəyə arxa qapıdan yol açardı, Rusiyanı İraqın şimal-şərq sərhədlərinə çıxarardı".[118]Britaniyalılar üçün Azərbaycanın muxtariyyəti yaxşı nümunə hesab edilmirdi. Onlar bunun ardınca İran kürdlərinin də hərəkata başlayacaqlarını görür. belə tələblərin İraq və Türkiyədə yaşayan kürdlər tərəfindən səsləndiriləcəyindən ehtiyat edirdilər. Bullardın fikrincə, Mosul neft mədənlərinin sovetlərin nəzarə-

---

[116] Bax:R.Bullard. The Camels Must Go. London, 1961, p.267; Foreign Relations of the United States. 1945. Vol.VIII, pp.518-519; RDƏYTA, f.5, s.30, i.171, v.79

[117]John Lewis Gaddis. We Now Know. Rethinking Cold War History. Oxford University Press,1998, p.164

[118] Times, 1945, 21 December

tinə keçməsi bir dövlət olaraq İraqın iflası, onun çox asanlıqla rusların nəzarətinə keçməsinə gətirib çıxara bilər, bu da öz növbəsində Sovet İttifaqının Küveyt, Səudiyyə Ərəbistanı və Bəhreynin zəngin neft ehtiyatlarının bir addımlığına gəlib çıxması demək olardı.[119] Azərbaycan muxtariyyətinə münasibətdə Britaniya rəsmi dairələrinin sərt mövqe tutmasında bu qarışıq təsəvvürlər az rol oynamırdı.

Moskva müşavirəsinin İranla bağlı bir qərara gələ bilməməsindən narazı qalan Britaniya Xarici İşlər naziri E.Bevin dekabr ayının 28-də Molotova yazırdı: "Təəssüf edirəm ki, İ.Stalinlə mənim dostcasına fikir mübadiləmdən sonra biz İran məsələsinə münasibətdə heç bir razılıq əldə edə bilmədik. Hesab edirəm İran hökumətini bu məsələlərlə bağlı məlumatlandırmamaq doğru olmazdı. Ona görə də mən R.Bullarda təlimat vermişəm ki, bizim Moskvadakı danışıqlarımız, eyni zamanda İran hökumətinə təqdim etmək üçün nəzərdə tutduğumuz təkliflərimiz barədə Tehranı məlumatlandırsın".[120] Bevin əlavə edirdi ki, bu məktubun məzmunu barədə Birnsi də məlumatlandıracaq.

Beləliklə, Xarici İşlər nazirlərinin dekabr ayının 16-dan 26-na qədər keçirilmiş Moskva müşavirəsi Cənubi Azərbaycan məsələsi ilə bağlı heç bir sənəd qəbul etmədi.[121] Tanınmış Amerika tədqiqatçısı professor Bryus Kuniholm yazır ki, Moskva müşavirəsinin nəticəsiz başa çatdığını eşitdikdə Birləşmiş Ştatların prezidenti Harri Trumen "nəinki sadəcə olaraq pörtdü, hətta, qəzəbdən qıpqırmızı oldu. O, konfrans ərzində məsləhətləşməsə də, lakin konfransın yekun rəsmi

---

[119] From Dixon to Howe. 18.12.1945. // National Archives (United Kingdom), Public Records Office, FO 371/52664; Əlavə məlumat üçün bax: И.В.Гайдук В лабиринтах холодной войны: СССР и США в ООН, 1945-1965. Москва, 2012, с.76-77; Kristen Blake. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War, p 31

[120] E.Bevinin V.Molotova məktubu. 28.12.1945.// RFXSA, f.012, s.6, q.91, i.372, v.181; From Ambassador Harriman and Jernegan to the Department of State. Top Secret. 28.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-28845

[121] Fernando Şayd səhv olaraq Xarici İşlər nazirlərinin Moskva müşavirəsinin dekabr ayının 12-dən - 21-nə qədər keçirildiyini yazır. Halbuki, bu müşavirə 16-26 dekabr tarixlərində keçirilmişdi və dekabr ayının 12-də nə ABŞ dövlət katibi Birns, nə də Britaniya Xarici İşlər naziri Bevin hələ Moskvaya gəlməmişdilər.Bax: Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, p.105

məlumatında sovet ordularının İrandan çıxmasına dair heç olması kiçik bir işarənin olacağını gözləyirdi".[122] Hətta, bir sıra müəlliflər belə hesab edirdilər ki, müharibədən sonrakı dünyada İran Birləşmiş Ştatları neftlə təchiz edən ölkə olmaqdan əlavə "Yaxın Şərqdə Sovet İttifaqı ilə Amerikanın maraqları arasında bufer bir ölkə idi".[123] Amerika alimi Laytla görə neft Amerikanın İran siyasətində müəyyənedici amil idi və "əgər Birləşmiş Ştatların xarici siyasəti öz ölkəsinin tükənməz neft ehtirasını təmin etməsəydi o dünya liderliyi funksiyasını yerinə yetirə bilməzdi".[124] Məhz, 1945-ci ilin sonlarında ingilis-amerikan müttəfiqlərinin SSRİ-yə qarşı dirəniş göstərməsi və onu İranda pozuculuq hərəkətlərinə son qoyub öz ordularını bu ölkədən çıxarmaq barədə 1942-ci il müqaviləsinə əməl etməyə inandırmaq cəhdləri bu amillərlə bağlı idi, lakin sovet rəhbərliyi bu təzyiqlərin qarşısında hələ ki, möhkəm dayanmışdı və Cənubi Azərbaycanla bağlı istər Amerika, istərsə də Britaniyanın diplomatik demarşlarını soyuqqanlıqla rədd edirdi.[125]

Moskva müşavirəsinin nəticəsiz başa çatması müəyyən suallar doğurmuşdu. ABŞ-ın Ankaradakı səfiri Edvin Vilson Dövlət Departamentinə yazırdı ki, İranla bağlı indiki müzakirələr daha çox 1907-ci ili xatırladır, lakin səfir əlavə edirdi ki, indiki hadisələrin 1907-ci ildən bir böyük fərqi var, bu da, Azərbaycanın muxtariyyətinin "öz müqəddəratını təyin etmə" adı altında SSRİ tərəfindən ilhaq edilə bilər.[126] İran hakimiyyət dairələri indi məsələni BMT müzakirələrinə çıxarmaq üçün yollar axtarırdı və Moskva müşavirəsindən sonra ABŞ-ın Tehrana münasibətində hər hansı dəyişikliyin olub-olmaması ilə maraqlanırdılar. Bu məsələrlə bağlı Vaşinqtondakı İran səfiri Hüseyn Əla Dövlət Departamentinin Yaxın Şərq və Afrika

---

[122] Bruce R. Kuniholm. The Origins of the Cold War in the Near East: Great power Conflict and diplomacy in Iran, Turkey, and Greece. Princeton, 1980, pp. 295-296

[123] İbid, p.185

[124] Mark Hamilton Lytle. The Origins of the Iranian-American Alliance. 1941-1953. New-York. London, 1987, p.64

[125] И.В.Гайдук. В лабиринтах холодной войны: СССР и США в ООН, 1945-1965. Москва, 2012, с.75

[126] The Ambassador in Turkey (Wilson) to the Department of State. 26.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-26845

idarəsi direktorunun müavini Corc Allenə müraciət etdikdə, Allen bu münasibətlərdə elə bir dəyişikliyin olmadığını bildirmiş və ABŞ-ın İrana yönəlik siyasətinin dəyişməsi üçün hər hansı tutarlı bir səbəbin olmadığını göstərmişdi. Bu cavabdan məmnun qalan Əla bilmək istəyirdi ki, əgər İran Azərbaycan məsələsini BMT Baş Məclisinin müzakirəsinə çıxarmaq istəsə, ABŞ həmin müzakirələrdə İranı dəstəklədiyini açıq bəyan edə bilərmi? Bu sorğuya birbaşa cavabdan yayınan Allen dedi ki, hələ 1944-cü ilin neft mübahisəsində Birləşmiş Ştatlar İranın suverenliyini dəstəkləyib və hazırda Azərbaycan məsələsində də bunu nümayiş etdirir. Səfir dedi ki, bu məsələdə Amerika və İngiltərənin məsləhətləri onun ölkəsi üçün faydalı olar.[127]

Dövlət katibi C.Birns Moskva müşavirəsindən Vaşinqtona döndükdən sonra səfir Hüseyn Əla ona telefon açıb Xarici İşlər nazirlərinin görüşündə İrandakı vəziyyətin müzakirəsi ilə maraqlandı. O, dedi ki, müşavirədə İranla bağlı heç bir qərar qəbul edilmədiyindən hökuməti tərəfindən ona təlimat verilib ki, mümkün olduğu qədər tez bir vaxtda dövlət katibi ilə görüşüb İranla bağlı Moskvada nə baş verdiyi haqqında dəqiq məlumat alsın. O, qeyd etdi ki, ölkəsində baş verənlər həlli vacib olan məsələlərdən olduğu halda, niyə onun müzakirəsini bir konfransdan o biri konfransa saxlayırlar. Səfirin fikrincə, İranda xarici orduların olması əhali arasında ciddi pozuculuq meyilləri üçün şərait yaradırdı. O, mərkəzi hökumətə münasibətdə düşmənçilik çağırışlarının xüsusilə, sovet ordusunun yerləşdiyi ərazilərdə baş verdiyini vurğulayırdı. Hüseyn Əla dedi ki, İran Baş nazirinin bir neçə dəfə təşəbbüs etməsinə baxmayaraq Sovet İttifaqı ilə birbaşa danışıqlar mümkün deyildir və ona görə də məsələni Birləşmiş Millətlərin Təhlükəsizlik Şurasına çıxarmadan öncə onun uğur qazanacağına ümid bəsləmək üçün

[127] Memorandum of Conversation, Allen - Ala. 27.12.1945.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-2745; Memorandum of Conversation, by the Deputy Director of the Office of Near Eastern and African Affairs (Allen). // Foreign Relations of the United States. 1945. Vol.VIII. p.514: Əlavə məlumat üçün bax: И.В.Гайдук. В лабиринтах холодной войны: СССР и США в ООН, 1945-1965. Москва, 2012, с.77; И.В.Гайдук. ООН и Иранский кризис 1946 года.// «Новая и новейшая история». 2011, №5, с.74

onun hökuməti Birləşmiş Ştatların İranı müdafiə etdiyini bilməlidir. Dövlət katibi cavab verdi ki, onların İrandakı nümayəndəsi Cernigan Moskvada olub və o, səfir Mörrey ilə birlikdə İran hökumətinə məsələnin ayrıntıları barədə məlumat verəcəkdir. Birns əlavə etdi ki, belə bir təlimatı Bevin də Britaniyanın İrandakı nümayəndəsinə vermişdir. Sonra dövlət katibi Moskva müşavirəsində İran Azərbaycanı ilə bağlı sovet tərəfinin mövqeyini belə şərh etdi: Sovetlər təsdiq edirlər ki, onlar "demokratik qüvvələr"in hərəkətləri üçün məsuliyyət daşımırlar, lakin onların fikrincə, ölkə konstitusiyası yerli məktəblərdə yerli dillərdən istifadə və yerli gəlirlərdən yol çəkilməsi və sair məqsədlərlə istifadə üçün əhaliyə müəyyən hüquqlar verdiyi halda, bu hüquqlar təmin edilmir. Onlar bu fikirdədirlər ki, hüquqları tapdanan və əzilən əhaliyə konstitusiya ilə verilmiş haqların təmin edilməsi istiqamətində tədbirlər görülməlidir. Moskvanın mövqeyini izah etdikdən sonra dövlət katibi səfirə məsləhət gördü ki, İran hökuməti ilə əlaqəyə girsin və əgər mümkünsə Azərbaycan Demokrat Partiyasının ilkin təkliflərinə qayıtsın. Onun fikrincə, azərbaycanlıların bəzi ağlabatan tələblərinin yerinə yetirilməsi İran hökumətinin vəziyyətini yaxşılaşdırardı. Birnisə görə dünya ictimai rəyində konstitusiyanın verdiyi hüquqların reallaşdırılmaması insanların istismarı kimi qəbul oluna bilərdi və o, xəbərdarlıq edirdi ki, indi dünyada ictimai rəyin əhəmiyyətli hissəsi bu məsələyə çox həssas yanaşır. Ona görə də dövlət katibi bu məsələnin mümkün həllinin tapılmasını tövsiyə edir və yalnız bundan sonra İran hökumətinin suverenliyinin təmin edilməsinin beynəlxalq müzakirəyə çıxarılmasını mümkün sayırdı.[128] Bütövlükdə, dövlət katibi Azərbaycan münaqişəsinin BMT müzakirəsinə çıxarılması ilə bağlı Hüseyn Əlanın dəlillərinə ciddi yanaşır və İran problemindən yeni yaranmış beynəlxalq təşkilatın hadisələrə təsir etmək effektliyini yoxlamaq məqamı kimi istifadə etmək istəyirdi.[129] Elə bu məqsədlə də,

[128] The Iranian Ambassador and the Secretary of State. Memorandum of Conversation . 01.01.1946.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.91/1-146

[129] И.В.Гайдук. В лабиринтах холодной войны: СССР и США в ООН, 1945-1965. Москва, 2012, с.78

Dövlət Departamentinin məsləhətçisi Harri Hovard 1945-ci ilin dekabr ayının ortalarında hazırladığı memorandumda əsaslandırmışdı ki, təşkilatın Baş Məclisindəki Amerika nümayəndəliyi İran məsələsinin "BMT ruhunda" tənzimlənməsinə çalışmalı və "zərurət yarandıqda Təhlükəsizlik Şurası da məsələyə baxılmasına müvafiq zaman ayırmalıdır".[130] Lakin, bütün hallarda Qərb ölkələri Azərbaycan məsələsi üzərində qurulmuş bu "nəbz yoxlamasına" ehtiyatla yanaşır, İranın şikayətinin yeni fəaliyyətə başlamış Birləşmiş Millətləri iflasa uğradacağından ehtiyatlanır. bu problemin dünya ictimai rəyində böyük dövlətlərin birliyinə şübhəli münasibətin yaranması və daimi üzvlərin yekdil rəyi ilə qərarlar qəbul edən Təhlükəsizlik Şurasının nüfuzdan düşəcəyinə gətirib çıxaracağından narahat olurdular. Hətta, Britaniya hökuməti Tehrandakı səfiri Bullarda təlimat vermişdi ki, İran hökumətini BMT-yə müraciət etmək fikrindən daşındırmaq lazımdır. İngiltərə rəsmiləri belə hesab edirdilər ki, Tehranın Birləşmiş Millətlərə müraciət etməsi Moskva müşavirəsində Bevinin irəli sürdüyü üçtərəfli komissiya ideyasının iflasına, SSRİ-nin bu komissiyanın işində iştirakından imtinasına gətirib çıxara bilər.[131]

Moskva müşavirəsinin İranla bağlı heç bir qərar qəbul etməməsi həmin ölkənin hakim dairələrini çox mütəəssir etmişdi. Bu, bütövlükdə, böhran girdabına düşmüş İbrahim Həkimi hökumətinin iflası demək idi. İran Azərbaycanı hadisələri sovetlərlə gizli əlaqəyə girmiş Qəvam əs-Səltənənin hakimiyyətə gəlmək şanslarını artırırdı. Tehran qəzetləri belə hesab edirdilər ki, ölkədə yaranmış çətinlikləri həll etməyə, zəruri olan islahatları keçirməyə və Sovet İttifaqı ilə qarşılıqlı münasibətləri köklü şəkildə yaxşılaşdırmağa qadir olan bir dövlət xadimi varsa, o, da Qəvam əs-Səltənədir. "Deyli Teleqraf" qəzetinə müsahibəsində Qəvam İranda yaranmış vəziyyəti keçmiş hökumətin səhv siyasəti ilə əlaqələndirir və əlavə edirdi ki, əgər böhran dərinləşərsə, bunun səbəbini də indiki

---

[130] Harry Howard. Soviet-Iranian Relations. 13.12.1945.// National Archives and Records Administration of the USA. RG 59. Box: 4010. NND 7600050. Doc. 761.91/12-1345; И.В.Гайдук. ООН и Иранский кризис 1946 года.// «Новая и новейшая история». 2011, №5, с.72

[131] И.В.Гайдук. В лабиринтах холодной войны: СССР и США в ООН. 1945-1965. Москва. 2012, с.78-80; И.В.Гайдук. ООН и Иранский кризис 1946 года.// «Новая и новейшая история». 2011, №5, с.72

hökumətin yanlış siyasətində axtarmaq lazım gələcəkdir. "Deyli Teleqraf"ın müxbirinin: "Siz necə fikirləşirsiniz, Azərbaycandakı hadisələri Sovet hökuməti törədibmi?" sualına Qəvab birbaşa cavabdan yayındı və dedi ki, "mərkəzi hökumətin səhv siyasəti, habelə əyalət əhalisinin qanuni tələblərinə diqqətsizlik bütün ölkədə narazılıq doğurmuşdur. Görünür, xalq razı olsaydı, iğtişaşlar üçün zəmin olmazdı". Qəvamın fikrincə, əgər sovet nümayəndələri belə hərəkətlərə mənəvi baxımdan rəğbət bəsləyirlərsə, bu, dünyada demokratiyanın yayılmasına istiqamətlənmiş müttəfiqlərin ümumi siyasətinə söykənir. Müxbir "siz necə fikirləşirsiniz, əhalinin müəyyən təbəqələrinə silah paylanması və hökumət ordularının şimala hərəkətini qadağan etmək mənəvi yardım kimi başa düşülə bilərmi?" Bu suala cavabında Qəvam yayğın formada bildirdi ki, o, rəsmi sənədlərlə tanış deyildir və əlavə etdi ki, "bilmirəm bu şayiələr nə qədər doğrudur, lakin şübhəsizdir ki, 1320-ci ilin şəhrivərindən sonra gizli şəkildə xalqın, o cümlədən azərbaycanlıların...əlinə əlavə olaraq yeni silah düşmüşdür". Şimala ordu göndərməklə bağlı məsələni şərh edərkən Qəvam dedi ki, "əgər mən hakimiyyətdə olsaydım Azərbaycana ordu göndərənə qədər milli vətənpərvər və azadlıqsevər adamlardan ibarət nümayəndə heyəti göndərərdim ki, məsələni dinc yolla həll etsin". Xarici siyasət məsələsinə gəldikdə, Qəvam balanslaşdırılmış neytral siyasətə üstünlük verdiyini, Sovet İttifaqı ilə indiki gərgin münasibətlərin hökumətin səhv addımlarının, beynəlxalq siyasətdə balansın pozulmasının nəticəsi olduğunu vurğuladı.[132] Bu müsahibənin tam mətni dekabr ayının 23-də Tehranda çıxan "Raade Emruz" qəzetində dərc edildi.

Əhməd Qəvamın Azərbaycan məsələsini sülh yolu ilə həll etmək vədləri çoxları üçün cəlbedici görünsə də, lakin ona münasibətdə Pişəvəri ilə sovet rəhbərliyi arasında ciddi fikir ayrılıqları var idi. Pişəvəri yazırdı: "Qəvam əs-Səltənəni biz həmişə mürtəce bir adam kimi tanıdığımızdan onun azadxahlara, məxsusən Tudə partiyasına özünü bağlamasını şeytanət və hiylə hesab edirdik. Onun keçmişdə oynadığı irticaçı rolları biz unuda bilməzdik. Azərbaycanın qeyrətli

[132] İran dairələrinin Azərbaycan hadisələrinə münasibəti haqqında. Dekabr 1945.// ARMTNA, i.283, v.243

azadxah əfsərlərindən kolonel Məhəmməd Tağı xan Pesiyanın hiylə ilə başını kəsdirib, onun cəsədini belə qəbirdən çıxartdıran, Səttər xanı Atabək parkında mühasirə edib, onun ölümünün müqəddiməsini hazırlayan, nəhayət, 1323-cü il Azərin 17-də törətdiyi qanlı hadisələrlə bərabər onun şəxsən böyük mülkədarlardan olub həmişə irticanı saxlamaq üçün çalışdığını biz bilməmiş deyildik".[133]

Dekabrın 30-da İran məclisində bir sıra deputatlar hökumətin istefasını tələb etdilər. Onların fikrincə, Azərbaycan hadisələri ilə üzbəüz dayanan Həkimi hökuməti ölkəni bürümüş ümumi böhran qarşısında fəaliyyətsiz idi. Pişəvərinin sözləri ilə desək, qocalmış və ərpimiş Həkimülmülk son dəfə iş başına gətiriləndə müəyyən bir nəşəni icra etməklə Qəvam əs-Səltənə və ya başqa müqtədir irticaçı bir şəxsin hakimiyyətə gətirilməsi üçün körpü rolunu oynayırdı. Azərbaycan hadisələri İranda tək böhranı deyil, Tehranda hakimiyyət uğrunda mübarizəni də kəskinləşdirmişdi.

§ 4. Muxtariyyətlə müstəqillik arasında tərəddüdlər: Bakı və Təbrizdə ideya axtarışları

Dekabr ayının ikinci yarısında Cənubi Azərbaycanın bütün ərazisində dövlət idarələrinin yeni hakimiyyətə tabe edilməsi prosesi başa çatdırıldı. Azərbaycan məclisində qəbul edilmiş proqrama uyğun olaraq dövlət aparatının qurulması istiqamətində ilk addımlar atıldı. Azərbaycan muxtariyyət hərəkatı ümummilli məzmun kəsb etməyə başladı. Ölkənin siyasi həyatında xalqın sosial fəallığı xeyli artdı. Başlanmış proseslər Araz çayının hər iki sahilində yaşayan azərbaycanlıları tarixin səhnəsinə çıxarmışdı. Cənubi Azərbaycanda tədricən genişlənən milli-demokratik hərəkat Sovet İttifaqı tərəfindən himayə edilir, əyalətin türk dilində danışan azəriləri Arazdan şimalda yaşayan azərbaycanlı qardaşlarından hərtərəfli yardım görür və mehribanlıq hiss edirdilər.[134]

---

[133] S.C.Pişəvəri. İran Azərbaycanı demokratik hərəkat tarixi. I cild, s.194

[134] The Cambridge History of Iran. Volume 7. From Nadir Shah to the Islamic Republic. Edited by Peter Avery. Cambridgge University press. Cambridge 1991. p.245

Milli hökumət İran Azərbaycanında idarəçiliyi ələ aldıqdan sonra bütün xalqa müraciət etdi. Orada əhalinin canı və malının təhlükəsizliyinə, vətənə xidmət etməyin ali məqsəd olduğuna, ölkədə dincliyin və əmin-amanlığın təmin edilməsinə cəhd göstəriləcəyi bildirilirdi. Müraciətdə milli hökumətin sərəncamına keçmiş bütün mülkiyyətin, maliyyə vəsaitlərinin və digər sərvətin göz bəbəyi kimi qorunacağı, bu ehtiyatlardan ölkənin inkişafı naminə istifadə ediləcəyi vurğulanırdı. Təbrizdə akkreditasiya olmuş diplomatik nümayəndəliklərə müraciət edilərək bildirilirdi ki, onların beynəlxalq qanunlarla müəyyən edilmiş bütün hüquq və vəkalətlərinə hörmətlə riayət ediləcəkdir. Milli hökumət bütün demokratik dövlətlərin Azərbaycanda olan təbəələrinin təhlükəsiz fəaliyyətinə təminat verirdi.[135]

Cənubi Azərbaycan hadisələri ilə bağlı beynəlxalq qalmaqal böyüdükdən sonra Bağırov Daxili İşlər Xalq komissarı Mir Teymur Yaqubov vasitəsi ilə "Bakı üçlüyü"nün üzvlərinə və general Russova təlimat göndərdi ki, İran Azərbaycanı ərazisində aparılan işlərdə gizlilik şərtlərinə ciddi şəkildə əməl etsinlər. Yaqubov yazırdı: "İstər hərbi, istərsə də mülki təşkilatlar vasitəsi ilə İran Azərbaycanından "Starşiyə" (Mir Cəfər Bağırov nəzərdə tutulur – C.H.) məlumat daxil olmuşdur ki, bizim işçilər yerli yoldaşlara əməli yardım göstərərkən həddindən artıq açıq hərəkət edirlər. Yoldaş "Starşi" sizi və sizin işçilərinizin xəbərdar edilməsini zəruri hesab edir və bildirir ki, onlar özgə ərazisində olduqlarını və ciddi şəkildə konspirasiyaya riayət edilməsinin zəruriliyini unutmasınlar. Hər bir sovet işçisinin hərəkətlərini yalnız iranlıların deyil, ingilis, amerikalı, türk və digərlərinin də izlədiyini nəzərə almaq lazımdır. Yoldaşların İran Azərbaycanı işlərində həddindən artıq açıq iştirakı, Demokrat Partiyasına və fədai dəstələrinə məsləhətlər vermələri son dərəcə arzuolunmaz, bir çox məqamlarına görə, hətta, ziyanlıdır. Yoldaş "Starşi" bizim işçilərə tapşırıb ki, yerli yoldaşlarla əlaqələrində ehtiyatlılığa və məxfiliyin təmin edilməsinə riayət etsinlər".[136]

---

[135] SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Sıçevin ÜİK(b)P MK-nın Şöbə müdirinin müavini B.Ponomaryova "İran Azərbaycanında hadisələrə dair" məlumatı. 11.03.1946.// RDSSTA, f.17. s.128, i.93, v.15-16

[136] M.T.Yaqubov və S.Yemelyanovun A.Atakişiyev, H.Həsənov, M.İbrahimov və general Russova

Azərbaycan ərazisində hakimiyyətin ələ alınması prosesi başa çatdığı üçün milli hökumət Təbrizdə fədai dəstələrinin qələbə paradını keçirdi. Bundan əvvəl dekabrın 18-də Pişəvəri Təbrizdə yerləşən İran diviziyasının zabitləri qarşısında çıxış etdi. Bir gün sonra Təbriz şəhər teatrının binasında Azərbaycan xalq ordusunun yığıncağı keçirildi və orada çıxış edən xalq ordusu nazirinin müavini Qulam Yəhya Daneşian fədailəri Azərbaycan muxtariyyətinə sədaqətlə xidmət etməyə, əyalətdə yaranmış əmin-amanlığı bundan sonra da qorumağa dəvət etdi. Demokratik hərəkatın qələbəsi münasibəti ilə Salmas, Marağa, Azərşəhr, Əhər və digər şəhərlərdən gələn təbrik teleqramları "Azərbaycan" qəzetində dərc edildi.[137]

Milli hökumət qurulduqdan sonra ölkənin idarə edilməsində bir sıra boşluqlar hiss edilməkdə idi. Hökumət üzvlərinin çoxu təcrübəsiz adamlar idi və bundan sonra hadisələrin hansı istiqamətdə inkişaf edəcəyi haqqında onların aydın təsəvvürləri yox idi. Ona görə Sovet Azərbaycanı rəhbərliyindən xahiş edilmişdi ki, müvəqqəti olaraq hər nazirliyə heç olmasa qeyri-rəsmi bir məsləhətçinin göndərilməsini təmin etsin, lakin buna Moskvanın razılığı lazım idi. Bu məqsədlə M.C.Bağırov dekabr ayının 19-da Stalin və digər sovet rəhbərliyinə yazırdı: "Azərbaycan milli hökuməti əməli fəaliyyətə keçmişdir. Hökumət üzvləri dövlət işlərində lazım olan təcrübəyə malik olmadıqlarından məsləhət və konsultasiyaya ehtiyac duyurlar. Təbrizli yoldaşlar xahiş edirlər ki, bizim adamlardan hər nazirə bir nəfər qeyri-rəsmi məsləhətçi ayıraq. Bizim fikrimizcə, Təbrizdən olan yoldaşların xahişi ilə razılaşmaq olar. Bunun üçün adamlar seçərik. Sizin göstərişinizi gözləyirik".[138] Dekabr ayının 24-də Moskvadan bu təklifə müsbət cavab gəldi. Molotovun Bağırova göndərdiyi şifrli teleqramda deyilirdi: "İran Azərbaycanı milli hökumətinin nazirlərinə kömək üçün bizim adamların ayrılması barədə sizin təklifinizlə razıyıq. Ezam edilənlərin tərkibinə diqqət

---

təlimatı. 24.12.1945.//ARPİİSSA, f.1, s.89, i.98, v.35

[137] Azərbaycan, 1945, 19 dekabr

[138] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı. 19.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.281

yetirin, onlar yerlərdə olarkən özlərinin sovet vətəndaşları olduqlarını nümayiş etdirməsinlər".[139]

Dekabr ayının 24-də demokratlarla bağlı bir sıra məsələləri həll etmək üçün Təbrizdə olan Sovet Azərbaycanı işçilərindən biri Bakıya çağırılmışdı. Belə razılığa gəlinmişdi ki, H.Həsənov Bakıya getsin. Ona görə də, o, dekabr ayının 25-də M.İbrahimovla birlikdə xəstə yatan Pişəvərinin evinə gedərək ondan hansı qəbildən olan məsləhətçilərə ehtiyac duyulduğunu soruşdular. Pişəvəri hesab edirdi ki, Bakıda aşağıdakı məsələlərin həll edilməsi zəruridir:

-Sovet və İran Azərbaycanlarını yaxınlaşdırmaq üçün təcrübə mübadiləsi kimi Bakıdan Təbrizə, eyni ilə buradan da Bakıya çox adam göndərmək lazımdır, qoy qaynayıb qarışsınlar;

-Ola bilsin ki, ingilislər Azərbaycana neft və benzin gətirilməsini dayandırsınlar. Bu halda Bakıdan gətirilən neft məhsullarını artırmaq lazımdır;

-Təbrizin baş küçəsi boyunca su kəməri çəkəcəyik, bunun üçün 20-25 kilometr boru zəruridir, eyni zamanda Bakıdan su kəməri mütəxəssisinin göndərilməsi də vacibdir;

-Pulla bağlı məsələni həll edin, əgər İran hökuməti Təbrizə pul göndərilməsini qadağan etsə, biz yeni pul nişanları buraxmaq məcburiyyətində qalacağıq;

-Təbii ehtiyatları öyrənmək üçün Azərbaycana bir neçə dağ mühəndisi göndərmək lazımdır, sonra ola bilər ki, Sovet İttifaqı həmin faydalı qazıntıların yataqlarını konsessiyaya götürsün.[140] Bunlardan əlavə, Pişəvəri siyasi, hərbi, iqtisadi və mədəni xarakterli bir sıra məsələlərin də Bakıda həll edilməsini zəruri hesab edirdi.

Dekabr ayının 26-da Bağırova yazdıqları məktubda "Bakı üçlüyü"nün üzvləri Sovet Azərbaycanından göndəriləcək işçilərin İran Azərbaycanının müxtəlif nazirliklərində istifadə edilməsi məsələsini Pişəvəri ilə müzakirə etdiklərini bildirirdilər. Daxili İşlər nazirliyi üzrə bir nəfər polisin işinin təşkili, bir nəfər isə kəşfiyyatın

---

[139] Molotovun Bağırova şifrli teleqramı. 24.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.283

[140] Bax: Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.433-434

qurulması üçün nəzərdə tutulurdu. Maliyyə nazirliyi üçün Təbrizdə olan maliyyə mütəxəssisi Məmmədovdan istifadə edilməsi məqsədəuyğun sayılırdı. Xalq ordusu nazirliyi üzrə ordu növlərinə uyğun olaraq hərbi mütəxəssislər qrupu, əkinçilik üzrə bir təşkilatçı aqronom, Ədliyyə nazirliyi üzrə bir nəfər məhkəmə və prokurorluq mütəxəssisi, Ticarət nazirliyi üzrə bir nəfər ticarətin təşkili, bir nəfər isə kooperasiya məsələləri üzrə təcrübəli mütəxəssisə ehtiyac olduğu bildirilirdi. Maarif və Səhiyyə nazirliklərində Təbrizdə fəaliyyət göstərən sovet məktəbi və xəstəxanası işçilərindən istifadə olunması nəzərdə tutulmuşdu.[141] Bir neçə gün sonra Bağırova göndərilən ikinci məktubda yerli fəallar hesabına kadr hazırlığını təşkil etmək üçün milli hökumətin sərəncamına 10 nəfər təcrübəli tarixçi və pedaqoqların göndərilməsi xahiş edilirdi. Bu məktublarla tanışlıqdan sonra Bağırov MK katibi Soltan Qafarzadə və təhlükəsizlik komissarı Stepan Yemelyanova tapşırıq verdi ki, Cənublu yoldaşlara kömək etmək məqsədilə ən gec 10 gün müddətinə lazım olan ixtisaslar üzrə adamlar seçsinlər, hərtərəfli şəkildə onları yoxlasınlar və zəruri söhbətdən sonra 1946-cı ilin yanvar ayının 15-dən gec olmayaraq onları Təbrizə göndərsinlər.[142]

Müvəqqəti olaraq öz işində fasilə vermiş Azərbaycan məclisi dekabrın 21-də yenidən öz fəaliyyətini bərpa etdi. Onun ilk müzakirə etdiyi məsələlərdən biri xalq ordusunun formalaşdırılması məsələsi idi. Məclisdə qəbul edilmiş qanuna görə 20 yaşına çatmış kişi əhalisindən olan vətəndaşlar bir il yarım xalq ordusunda xidmət etməli idilər. Qanunda göstərilirdi ki, xalq ordularının yaradılması Azərbaycan xalqının ehtiyaclarından doğmuş, onun müdafiəsini və xalqın azadlığını təmin etmək üçün yaradılmışdır. Qanuna görə bütün vətəndaşların malik olduğu hüquq və vəzifələrə xalq ordularının əsgər və zabitlərinə də aid idi. Xalq ordusu ilə yanaşı, Azərbaycanın muxtariyyətinə qarşı yönəlmiş hərəkətlərin qarşısını almaq məqsədilə

---

[141] M.İbrahimov, H.Həsənov və A.Atakişiyevin M.C.Bağırova məktubu. 26.12.1945.//ARPİİSSA, f.1, s.89, i.138, v.10-12

[142] M.C.Bağırovub S.Qafqarzadə və S.Yemelyanova təlimatı. 31.12.1945.//ARPİİSSA, f.1, s.89, i.138, v.13

məclis üç ay müddətinə hərbi-səhra məhkəmələrinin yaradılması haqqında qanun qəbul etdi.[143] Sovet Azərbaycanı nümayəndələrinin tövsiyəsi ilə həmin gün Baş nazir Pişəvəri, Ədliyyə naziri Əzimi və Daxili İşlər naziri doktor Cavid məclisdə İran hakimiyyət orqanları tərəfindən həbs edilmiş siyasi məhbuslara və digər azərbaycanlılara amnistiya vermək təşəbbüsü ilə çıxış etdilər. Amnistiya Azərbaycan məhkəmələri tərəfindən mühakimə edilib cəzasını Tehran və başqa zindanlarda çəkən azərbaycanlılara da şamil edilirdi.[144] Azərbaycan məclisi tərəfindən qəbul edilmiş amnistiya qanununa görə dekabrın 23-də zindanlarda yatan çoxlu sayda məhbus azadlığa buraxıldı.

Dekabr ayının 23-də Maarif naziri Məhəmməd Biriyanın məktəblərdə tədrisin ana dilində təşkil olunması haqqında bir saylı əmri əhali tərəfindən rəğbətlə qarşılandı. Nazirin əmrinə görə ana dilində dərsliklərin hazırlanması üçün nazirliyin nəzdində xüsusi komissiya yaradıldı və komissiyaya tapşırıq verildi ki, I-IV siniflərdə tədris edilən bütün dərs kitablarının Azərbaycanda nəşrinə sərəncam versin. Əmrdə göstərilirdi: "Bütün milli və dövləti müəssisələrin müdirlərinə dəstur verilir ki, dərs kitabları çap olunub nəşr edildikcə, hər klasa aid olan kitablardan istifadə edib, bilavasitə ana dilində tədrisə başlasınlar".[145]

Lakin sovet rəhbərliyinin Azərbaycan Milli Məclisinin qəbul etdiyi qanunlara münasibəti birmənalı olmadı. Dekabr ayının 22-də hərbi rabitə xətti ilə Bakıdan M.İbrahimova təcili təlimat göndərildi ki, "xalq ordusu nizami hissələrinin və hərbi-səhra məhkəməsinin yaradılması ilə bağlı "Xozyain" (gizli yazışmalarda İ.Stalinin şərti adı idi – C.H.) bizə həvalə edib sizə çatdıraq ki, bu qanunlar mətbuatda dərc edilməsin. Gələcəkdə məclisdə buna bənzər qanunlar qəbul edilərsə və ya hökumət hər hansı ciddi tədbir həyata keçirərsə, qabaqcadan onların bizimlə razılaşdırılması zəruridir".[146]

---

[143] M.M.Çeşmazər Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti, s.105; ARPİİSSA, f.1, s.89, i.118, v.36-38

[144] Azərbaycan, 1945, 22 dekabr

[145] Azərbaycan, 1945, 24 dekabr

[146] S.Yemelyanovun M.İbrahimova məlumatı. 22.12.1945.// ARPİİSSA, f.1, s.89, i.97, v.208

Dekabr ayının sonuncu dekadasında vəziyyətin çıxılmaz olduğunu başa düşən İran hökuməti ABŞ və Britaniya siyasi dairələrinin tövsiyəsi ilə Azərbaycanla danışıqlar aparmaq istiqamətində bəzi addımlar atdı, lakin bu, qeyri-rəsmi formada əslən Azərbaycandan olan nüfuzlu şəxslərin və bir vaxtlar əyalətdə rəhbər vəzifələrdə işləmiş tanınmış adamların Təbrizə göndərilməsindən o tərəfə keçmədi. Milli hökumətlə razılaşmadan belə adamların Azərbaycana gəlməsinə icazə verən Tehrandakı sovet konsulluğundan Pişəvəri narazılıq edirdi. Eyni zamanda, Təbrizdəki Sovet Azərbaycanının nümayəndələri də bu məsələdə Pişəvəri ilə həmrəy idilər.

Dekabr ayının 23-də Cənubi Azərbaycan liderləri Pişəvəri, Şəbüstəri, Padeqan, Cavid və Biriya Sovet Azərbaycanının lideri Bağırova hesabat xarakterli gizli məktubla müraciət etmişdilər. Onlar yazırdılar ki, "Cənubi Azərbaycanın öz dili, öz mədəniyyəti, yetərli kadrları olan beş milyonluq xalqı taleyini öz əlinə almağa qadirdir. Dünyanın böyük demokratik dövlətlərinin hələ, üç il əvvəl imzaladıqları Atlantika xartiyası Azərbaycan xalqına müstəqil yaşamaq haqqı vermişdir. Biz hesab edirik ki, beş milyonluq azərbaycanlının hüquqlarını müdafiə etmək üçün Azərbaycanda müasir şəraitə uyğun müstəqil demokratik respublika hökumətinin yaradılması zəruridir. Ona görə, Azərbaycan xalqının müstəqil milli dövlət yaratmaq kimi qanuni hüququna arxalanaraq sizdən xahiş edirik ki, bizə yardım edin və bizim xalqın müqəddəs arzusunun həyata keçməsinə, bu iki respublikanın yaxın gələcəkdə birləşməsinin baş tutmasına şərait yaradın. Ona görə biz qeyd etməyi zəruri bilirik ki, bu yeni respublikanın şərq və cənub sərhədləri Ənzəli limanını öz içinə almaqla, Rəşt, Məncil, Qəzvin, Həmədan və Kermanşahdan keçib İraq sərhədlərinə çatmalıdır. Belə ki, qeyd edilən sərhədlərin hüdudlarında yaşayan əhali istisnasız azərbaycanlılardan və kürdlərdən ibarətdir".[147]

Bu məktub gizli olsa da, artıq Azərbaycanın İrandan ayrılıb müstəqil dövlət olması məsələsi həm yerli, həm də Sovet Azərbayca-

[147] Pişəvəri, Şəbüstəri,Padeqan, Cavid və Biriyanın Bağırova məktubu.23.12.1945.// ARPİİSSA, f.1, s.89, i.110, v.42-45

nından gəlmiş siyasi və diplomatik işçilər arasında müzakirə olunmaqda idi. Təbrizdəki sovet konsulluğunun azərbaycanlı əməkdaşları və "Bakı üçlüyü"nün üzvləri İran Azərbaycanı milli-azadlıq hərəkatının sonrakı gedişini müzakirə edərkən vitse-konsul Bağır Seyidzadə təklif etdi ki, "Azərbaycan İrandan ayrılmalı və müstəqil respublika yaratmalıdır". Milli hökumətin üzvü Məhəmməd Tağı Kəbiri də eyni təkliflə çıxış etmişdi.[148] Bu müzakirələr gedən vaxt M.İbrahimov dekabr ayının 23-də Bağırova yazmışdı ki, "Pişəvəri sizinlə görüşmək arzusundadır. Hesab edirəm indiki anda bir qrup yerli yoldaşlarla görüş çox faydalı olardı".[149]

Cənubi Azərbaycanda siyasi proseslərin gedişini diqqətlə izləyən Təbrizdəki Amerika konsulu dövlət katibinə göndərdiyi raportda Azərbaycanın Irandan ayrılma ehtimalının gücləndiyini qeyd edirdi. O, yazırdı: "Azərbaycanın ilkin muxtar istəkləri İranın hüdudlarından kənara çıxmırdı. Ancaq indi onlar istəklərinin yerinə yetirilmədiyi təqdirdə tam müstəqilliklərini elan edəcəklərini açıqlayıblar...Tehran hökuməti Azərbaycan adda belə müstəqil dövlətin olmasının və onların sovetlərin ovcuna düşmə təhlükəsi doğurduğunun fərqinə varmalıdırlar. Dünən sovet konsulu Təbrizi "yeni milli paytaxt" adlandırmağın məmnunluq hissini yaşayırdı".[150] Siyasi proseslər uğurla nəticələndikdən sonra Sovet Azərbaycanı rəhbərliyinin başlıca narahatçılığı Cənubdakı iqtisadi vəziyyətlə bağlı idi. Milli hökumət bir tərəfdən məmurların əmək haqqını vermək, digər tərəfdən əhalini ən zəruri tələbat malları ilə təmin etmək, fədai dəstələrini saxlamaq, dayanmış müəssisələri işə salmaq və ticarəti bərpa etməyin qayğısına qalmalı idi, lakin hadisələr başlayanda İran hakimiyyət orqanları pul vəsaitlərini və qiymətli kağızları Azərbaycandan çıxarmışdılar. Belə şəraitdə iri həcmli ticarət əməliyyatları aparmaq mümkün deyildi. Əhalidə nağd pul vəsaiti olmadığından hökumət vergiləri yığa bilmir, məmur və qulluqçuların məvaciblərini verə bilmirdi. Ölkənin

---

[148] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.432

[149] C.Həsənli. Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946). Bakı, 2001, s.218

[150] The Ambassador in Iran (Murray) to the Secretary of State. 27.12.1945.// Foreign Relations of the U.S. 1945. Vol.VIII, p.516

anbarlarında ixrac malları tökülüb qalmış, idxal malları isə Tehranın göstərişi ilə dayandırılmışdı. Hökumət bəyan etmişdi ki, əgər Tehran Azərbaycana olan pul borclarını qaytarmasa, İran hökumətinə verilməli olan vergilərin 25 faizi məclisin qərarı ilə borc əvəzi kimi Təbrizdə saxlanılacaqdır.[151] Təbrizdən göndərilən məlumatlar əsasında Cənubi Azərbaycanda iqtisadi vəziyyəti ətraflı təhlil etdikdən sonra Bağırov Daxili İşlər Xalq komissarı Yaqubova və Dövlət Təhlükəsizliyi Xalq komissarı Yemelyanova təcili tapşırıqlar verdi. Orada göstərilirdi: "Görünür, yoldaşlar hələ, iqtisadi, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, əhalinin təminatı və sair məsələlərlə məşğul deyillər və bu işlər üçün lazım olan adamları seçməyiblər. Əgər bu vəziyyət uzun davam etsə, İran hökuməti, xüsusilə ingilislər yerli bəylər və mülkədarlar, ticarət və maliyyə işbazları vasitəsi ilə İran Azərbaycanının təsərrüfat, iqtisadiyyat və bütün həyatını iflic vəziyyətə salacaqlar. Halbuki bunu onlar 8-10 silahlı dəstə yaratmaqla edə bilməzdilər. Bazarda çörək və digər ərzaq məhsulları olmadan ac əhalinin öhdəsindən gəlmək çətindir. İndi əsas diqqəti iqtisadiyyat, maliyyə, sənaye və kənd təsərrüfatı işlərinə yönəltmək lazımdır. Bu məqsədlə düz, vicdanlı və işə bələd olan adamlardan maksimum istifadə etmək lazımdır. Həm Azərbaycan daxilində, həm İranın digər yerlərində əlverişli və sərfəli ticarət işləri aparmaq üçün ilk vaxtlar tacirlər komitəsi yaradılsa pis olmaz. Pulsuz onlar heç nə edə bilməzlər, dövlət aparatını, polis və jandarmı saxlaya bilməzlər. Ona görə vergi orqanlarını işə salmaq lazımdır, gərək vergilər vaxtında yığılsın, xəzinə və digər maliyyə orqanları quldurlardan və oğrulardan təmizlənsin...Əgər İran hökumətindən kimsə, məsələn şah, yaxud nazirlərdən hər hansı biri Azərbaycan hökumət üzvləri ilə əlaqəyə girmək istəyirsə, danışıqlardan imtina etmək lazım deyil. İraqla, xüsusilə Türkiyə ilə sərhədlər möhkəmləndirilməlidir, çünki oradan "dost" adı ilə, rəğbət göstərmək bəhanəsi ilə böyük bir qrup təbliğatçılar, casuslar, diversantlar atıla bilər. Çalışmaq lazımdır ki, tacirlər və digər işgüzar adamlar Azərbaycandan getməsinlər. Onları qorxutmaq lazım deyil, əksinə, elə etmək lazımdır ki, onlar İranın digər yerlərindən Azərbaycana pul, mal və ərzaq gətirsinlər. Ümumiyyətlə hər şeyi etmək və bununla göstərmək

[151] Azərbaycan, 1945, 23 dekabr

lazımdır ki, Azərbaycan muxtariyyəti nəinki azərbaycanlıların vəziyyətini belə sürətlə yaxşılaşdırır, eyni zamanda azərbaycanlılar bütün İran xalqları ilə, bütün dünya xalqları ilə əməkdaşlığa can atırlar".[152] Sonra Bağırov tövsiyə edirdi ki, daxildə bütün məsələlərdə rəhbər işçilər həmrəy olduqlarını, bir-birilərinə etibar etdiklərini, bir-birlərindən şübhələnmədiklərini nümayiş etdirməlidirlər.

Bağırovun qaldırdığı bu məsələlər Təbrizdəki Sovet Azərbaycanı işçilərini də ciddi şəkildə narahat edirdi. Dekabr ayının 25-də onlar bu məsələləri şəhərdəki SSRİ Baş konsulluğundakı müşavirədə müzakirə etdilər. Təbrizdəki sovet ticarət müvəkkili Zinin müşavirədə məlumat verdi ki, indi o, Azərbaycanda ticarət işlərini apara bilmir və yaxın vaxtlarda bir şey almaq və bir şey satmaq fikrində deyildir. Bununla yanaşı o, dedi ki, hazırda tacirlər çərəz məhsullarını Tehrana daşıyıb baha qiymətə satırlar, bu qiymətə ticarət müvəkkili məhsulları ala bilməz. Zinin dedi ki, bu məhsulların Azərbaycandan çıxarılmasının qarşısını almaq üçün milli hökumətə tapşırıq vermək lazımdır. M.İbrahimov və H.Həsənov bunu etməyin mümkünlüyünü bildirdilər, lakin əlavə etdilər ki, çərəz məhsullarının Azərbaycandan çıxarılmasını qadağan etmək olar, lakin onları qiymətdən salıb demək olar ki, havayı almaq da düzgün deyildir. Onların fikrincə, bu kütləvi narazılıq yarada bilərdi və "Bakı üçlüyü"nün üzvləri təklif edirdilər ki, milli-demokratik hərəkatın qələbə çaldığı bütün Azərbaycanda ədalətli qiymətlər tətbiq etmək lazımdır.[153] Dekabr ayının 23-də məclisin sədri Şəbüstəri tacirlərlə görüşüb onları hökumətə kömək etməyə çağırdı. Ticarət nazirliyinə göstəriş verildi ki, anbarlarda qalan istehlak malları satılıb ondan gələn gəlir şəhər təsərrüfatının ehtiyaclarına yönəldilsin. Dayanmış fabrik və zavodların işini bərpa etmək üçün Azərbaycan SSR Yüngül Sənaye Xalq komissarlığına müraciət edildi. Ölkənin maliyyə fəaliyyətini canlandırmaq üçün Rusiranbank və sovet ticarət nümayəndəliyi vasitəsi ilə bir sıra tədbirlər həyata keçirildi. Cənubi Azərbaycanın neft və neft məhsulları ilə təmin edilməsini Sovet Azərbaycanı öz üzərinə götürdü. Azərbaycan SSR

---

[152] M.C.Bağırovub M.T.Yaqubov və S.Yemelyanova tapşırıqları. 15.12.1945.//ARPIISSA, f.1, s.89, i.98, v.24-26

[153] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.432-433

Başneft təchizat idarəsinə göstəriş verildi ki, hər ay Cənubi Azərbaycana 1000 ton neft, 150 ton benzin, 350 ton qazoyl, 300 ton mazut, 25 ton sürtkü yağları göndərsin.[154] Bundan əlavə, M.Sarcalinskiyə tapşırıq verildi ki, Şahsevən tayfaları və ümumilikdə, Ərdəbil əhalisi ilə ticarəti genişləndirmək üçün şirkət yaradılması işini sürətləndirsin. Sovet Azərbaycanı rəhbərliyinin tapşırığı ilə Bakıdan Şahsevən tayfalarına satış məqsədilə 400 min metr pambıq parça, 30 min cüt qaloş, 120 ton qənd, 360 ton neft göndərildi.[155] Sovet Azərbaycanı ticarət idarələrinə tapşırıldı ki, Cənubda yığılıb qalan malların satın alınmasının mümkün yollarını araşdırsınlar.

Cənubi Azərbaycanın taleyində və tarixində dərin izlər qoyan dekabr ayı sona çatmaq üzrə idi. İran hadisələrinə maraq göstərən hər kəs bu hadisələrin nə ilə nəticələnəciyini həyəcanla gözləyirdi. Dekabr ayının 29-da Təbrizdəki yeni Amerika konsulu Robert Rossounun Pişəvəri ilə görüşü də, məhz, Azərbaycan hadisələrinə münasibətdə artan beynəlxalq marağın göstəricisi idi. O, Azərbaycan demokratlarının nə istədiklərini Pişəvərinin dilindən eşitmək istəyirdi. ADP lideri öz məsələlərini dinc yolla həll etmək arzusunda olduqlarını ifadə etdi, lakin Tehran onların üzərinə tanklar və toplar göndərsə azərbaycanlıların özlərini müdafiə etmək üçün vuruşacağını bildirdi.[156] Bir gün sonra Bağırov bu görüş barədə öz mülahizələrini Moskvaya göndərdi. O, yazırdı: "Bizə belə gəlir ki, Amerika konsulunun bu görüşü ikili məqsəd daşıyır. Birincisi, konsul aydınlaşdırmaq istəyir ki, Azərbaycan demokratları öz tələblərində irəli gedəcəklərmi, yəni İrandan ayrılmaq məsələsini qoyacaqlarmı? İkincisi isə, demokratların bir sıra ilkin tələblərindən güzəştə getmək imkanlarını yoxlamaq. Biz Pişəvəriyə məsləhət gördük ki, o, bundan sonra da xarici nümayəndələrlə danışıqlarda Xalq Konqresinin və məclisin dərc olunmuş sənədlərində qeyd edilmiş bütün tələblərin üzərində möhkəm dayansın".[157]

---

[154] İran Azərbaycanın yanacaq və sürtkü materialları ilə təmin edilməsi haqqında arayış. 04.01.1946.//ARPİİSSA, f.1, s.89, i.121, v.23

[155] Şahsevənləri sənaye malları ilə təmin edilməsinin mümkünlüyü haqqında arayış. 14.01.1946.//ARPİİSSA, f.1, s.89, i.121, v.25-26

[156] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı. 29.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.294-295

[157] M.C.Bağırovun İ.Stalin, V.Molotov, L.Beriya və G.Malenkova məlumatı. 30.12.1945.// ARPİİSSA, f.1, s.89, i.90, v.297

Dekabr ayının 29-da Azərbaycan milli hökumətinin Baş naziri Pişəvəri ilə keçirdiyi görüş barədə konsul Rossouda Vaşinqtona geniş hesabat göndərmişdi. O, dövlət katibi Ceyms Birnisə yazırdı: "Bu gün səhər Azərbaycan əyalətinin Baş naziri Pişəvəri ilə söhbətdə o, Azərbaycanı İran daxilində saxlamaq istədiklərini, ancaq mərkəzi hakimiyyətə güvənmədikləri üçün mühafizə dəstələrini saxlayacaqlarını söylədi və buna səbəb kimi İranın Azərbaycanı işğal edəcəyindən və yeni islahatları ləğv edəcəyindən çəkindiklərini göstərdi. O, dedi ki, İranın daxilində qalmaq niyyətini kabinəsində xarici işlər naziri təyin etməməklə sübut etdi...Dedi ki, şahın söz verdiyi islahatlara və təminata inanmır, çünki şah gənc və təcrübəsizdir, fikrini bir gecədə dəyişdirə bilər...O, bir neçə dəfə təkrarladı ki, danışıqlar üçün qapını mərkəzi hökumətin üzünə açıq tutur. O, dedi ki, danışıqlar üçün Tehran heç bir səlahiyyəti olmayan bir adamı göndərmişdi (yəqin ki, general Müqəddəmdən bəhs edir), ona görə də mən bu səlahiyyətsiz adamla danışıq aparmadım...Daha sonra o, səmimi olacağını və hər hansı bir mühüm aksiyanı həyata keçirməzdən əvvəl mənimlə məsləhətləşəcəyini söylədi. Ümumiyyətlə, o, gözlədiyimdən daha anlaşıqlı təsir bağışladı və səmimiyyəti ilə məni mütəəssir etdi".[158] Cənubi Azərbaycanda sovet siyasətinə gəldikdə Rossou yazırdı ki, "SSRİ-nin istəyi Azərbaycanı və başqa əyalətləri "despotik Tehranın təcavüzündən qorumaq" bəhanəsi ilə özünün İrandakı hərbi işğalını genişləndirməkdir. Ona görə ABŞ İranın mövcud milli bütövlüyünü qorumalıdır ki, SSRİ ya təxliyə sazişinə əməl etsin, ya da özünün aqressiv niyyətlərini bütün dünyaya bildirsin. Buna nail olmaq üçün səfirliyimizin İran hökumətinə mümkün olan bütün alternativləri açıqlaması və onu Azərbaycanla danışıqlara getməyə razı salması məsləhətdir. Belə danışıqlara başlamaq Azərbaycanın tam müstəqillik əldə etmək imkanlarını azaldar. Əks təqdirdə Azərbaycan öz müstəqilliyini elan edər və özünə bir "havadar" axtarar".[159]

Hakimiyyətin ələ alınmasından sonra Cənubi Azərbaycanda yaranmış yeni şərait haqqında müfəssəl məlumat vermək üçün dekabr ayının 26-da

---

[158] Foreign Relations of the United States. 1945. Vol.VIII, p.520-521
[159] Ibid, p.521

"Bakı üçlüyü"nün üzvü Həsən Həsənov, Azərbaycan SSR Dövlət təhlükəsizliyi Xalq komissarının müavini Eyyub Kərimov, Təbrizdəki baş rezident və vitse-konsul Nurməmməd Quliyev, ADP MK-nın katibi Sadıq Padeqan və başqaları xüsusi qatarla Bakıya yola düşdülər. Dekabr ayının 28-də Həsənov və Padeqanı Bağırov qəbul etdi. Onlar İran Azərbaycanında, o cümlədən, Təbrizdə işlərin vəziyyəti haqqında geniş məlumat verdilər. Bağırov İranda "Bakı üçlüyü"nün işindən razılığını ifadə etdi və onlara tapşırıq verdi ki, qaldırdıqları bütün məsələlər haqqında, habelə demokratların nə istədiyi barədə geniş arayışlar hazırlasınlar. Müzakirələr səhər saat 5-ə qədər davam etdi. Dekabr ayının 30-da Cənubi Azərbaycan üzrə müxtəlif istiqamətləri əhatə edən arayış artıq hazır idi. Orada SSRİ-nin İran Azərbaycanı ilə ədalətli ekvivalent ticarətin təşkili, Bakıdan İran Azərbaycanına neft məhsullarının daşınması, Bakıdan demokratlara məsləhətçilərin göndərilməsi, kadr hazırlığında ADP-yə kömək məqsədilə təcrübəli partiya işçilərinin göndərilməsi, toxuculuq fabrikinə avadanlıq verilməsi, İran Azərbaycanına həkim briqadası və dərman ləvazimatlarının göndərilməsi, Təbriz su kəməri üçün boru göndərilməsi, faydalı qazıntılar axtarışı ilə bağlı İran Azərbaycanına dağ mühəndislərinin göndərilməsi və sair məsələlər əks olunmuşdu.[160] Həmin axşam Bağırov MK-nın binasında bu arayışın müzakirəsini keçirdi. O, məhz, Təbrizdən gəlmiş nümayəndələrin, xüsusilə cənubluların özlərinin dilindən eşitmək istəyirdi ki, onlar nə istəyirlər: İran hüdudlarında muxtariyyət yoxsa müstəqil respublika? Bu məsələ ilə bağlı ADP MK katibi Sadıq Padeqan, Həsən Həsənov, Nurməmməd Quliyev və başqaları çıxış etdilər. Uzun müzakirələrdən sonra qərara alındı ki, Azərbaycanın müstəqil respublika kimi elan edilməsi məqsədəuyğun olardı. Lakin Bağırovun fikrincə, Moskvadan razılıq almaq üçün bunu əsaslandırmaq lazım idi və bu sənəd ADP-nin rəhbər işçiləri tərəfindən imzalanmalı idi. Müzakirələr başa çatdıqdan sonra Bağırov MK katiblərinin iştirakı ilə yenidən bu məsələyə qayıtdı və H.Həsənova dedi: demokratlara daha çox müstəqillik vermək lazımdır ki, onlar özləri öz məsələlərini həll etsinlər".[161]

---

[160] Г.Гасанов. Иранский дневник (1944-1946). Баку, 2007, с.436

[161] Yenə orada, s.437

Bu müzakirələrin nəticəsi olaraq dekabr ayının 31-də Bağırov M.T.Yaqubov və S.Yemelyanov vasitəsi ilə ADP liderlərinə öz tövsiyələrini göndərdi. Orada deyilirdi: "Parktiki olaraq nə etmək lazımdır? Onlar hazırlaşır, siz də hazırlaşırsınız. Onlar sizi udmaga hazırlaşırlar, siz isə özünümüdafiəyə hazırlaşırsınız. Dünya ictimai rəyini buna hazırlamaq lazımdır ki, nə tələb edəcəyik – muxtariyyət yoxsa ayrılma. Hay-küy qaldırmaq lazımdır ki, irtica silahlı qüvvələr hazırlayır, biz onların bütün plan və hiylələrini bilirik, son damla qanımıza qədər döyüşəcəyik, lakin hər şeydən əvvəl, hər şeydən öncə demokratik dövlətlərə, mütərəqqi bəşəriyyətə ümid bəsləyirik. Bütün dünyada tərəqqi haqqında, demokratiya haqqında söhbət getdiyi bir vaxtda İran Azərbaycanında orta əsr qaydalarını saxlamaq olmaz. Tehran mətbuatı vasitəsi ilə hər gün haray salın ki, sizi əzirlər, talayırlar, öldürürlər və dünya ictimaiyyətindən kömək istəyin".[162]

Dekabr ayının 31-də axşam Sadıq Padeqan da daxil olmaqla Təbrizdən gələn nümayəndələr yeni ili qarşılamaq üçün Həsən Həsənovun evinə toplanmışdı. İran Azərbaycanı milli-azadlıq hərəkatı haqqında ətraflı məlumat almaq üçün həmin axşam Rəsul Rza, Cəfər Cəfərov və Ənvər Məmmədxanlı da oraya gəldilər. Xan Şuşinskinin iştirak etdiyi məclisdə Cənubi Azərbaycan müzakirələri səhər saat 6-ya qədər davam etdi. Beş il davam edən Böyük Vətən müharibəsindən sonra Azərbaycan birinci dəfə idi ki, sülh şəraitində yeni ili qarşılayırdı.

---

[162] M.C.Bağırovun S.Yemelyanov və M.T.Yaqubov vasitəsi ilə ADP liderlərinə tövsiyələri. 31.12.1945.// ARPİİSSA, f.1, s.89, i.98, v.46-47; Əlavə məlumat üçün bax: Fernande Raine Scheid. The Iranian Crisis of 1946 and the Origins of the Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London,2005, p.106

NƏTİCƏ

1939-1945-ci illər arasında Azərbaycan SSR-in beynəlxalq siyasətdə yeri və rolu haqqında aparılan araşdırmalar bir sıra əhəmiyyətli nəticələrin əldə edilməsinə gətirib çıxardı. Qeyd edilən tarixi çərçivədə Sovet Azərbaycanı SSRİ-nin bir hissəsi idi və Sovet İttifaqının getdikcə artan beynəlxalq nüfuzunda onun da payı var idi. Çünki, hələ 1922-ci ildə SSRİ-nin yaranması ilə milli respublikalar öz xarici siyasət hüquqlarını İttifaq dövləti kimi Moskvaya vermişdilər. Bu proses 1944-cü ildə sovet respublikalarında Xarici İşlər Xalq Komissarlıqlarının bərpa edilməsinə qədər davam etmişdi, lakin aparılan araşdırmalar göstərdi ki, İkinci Dünya müharibəsinin başlanması ilə Azərbaycan məsələsi yenidən beynəlxalq müzakirələrin subyektinə çevrilmişdi. Dünya siyasətində neftin əhəmiyyətinin artması 1939-1940-cı illərdə Bakını müttəfiq dövlətlərin diplomatik müzakirələrinin mərkəzinə gətirmişdi. Bu müzakirələrin gedişində ingilis və fransızlar Azərbaycan neftinin həmin dövrdə SSRİ-nin tərəfdaşı olan faşist Almaniyasının əlinə keçməsindən ehtiyatlanır, Bakı neft mədənlərini bombardıman etmək üçün müxtəlif variantlar hazırlayırdılar. Suriya və İraqın şimalında bu məqsədlə hərbi aviasiya bazaları yaradılmış, hərbi hazırlıq tədbirləri görülmüşdü, lakin aparılan tədqiqatlar təsdiq etdi ki, 1940-cı ilin yazında Fransanın təslim olması Bakı neft mədənlərini müttəfiqlərin gözlənilən hava hücumundan xilas etdi. Azərbaycan tarix elmi üçün mühüm əhəmiyyətə malik olan bu elmi ümumiləşdirmə XX əsr respublika diplomatiya tarixinin yeni istiqaməti kimi dəyərləndirilə bilər.

1941-ci ilin iyununda SSRİ-nin dünya müharibəsinə daxil olması ilə Azərbaycanın həyatında və taleyində yeni bir mərhələ başladı. Araşdırmalar nəticəsində müəyyən edildi ki, bu yeni mərhələdə Azərbaycanın neft sənayesinin təhlükəsizliyinin təmin edilməsi artıq müttəfiqlərarası bir məsələyə çevrilmişdi. Bu dövrdə müttəfiq

dövlətlərin başçıları, Xarici İşlər nazirləri və Hərbi komandanlarının müzakirələrində, Kəşfiyyat orqanlarının məlumatlarında Bakı nefti, onun müharibə üçün əhəmiyyəti diplomatik yazışmalarda açıq-aydın etiraf edilirdi. Sovet İttifaqının müharibəyə girməsi ilə bir vaxtlar Bakı neft mədənlərini bombardman etməyin yollarını axtaran müttəfiqlər, indi onun təhlükəsizliyinin etibarlı təminatını arayırdılar. İlk dəfə olaraq İkinci Dünya müharibəsinin gedişində Bakı nefti iqtisadi və strateji məhsul olmaqla yanaşı, artıq siyasi çalarlar da kəsb etməyə başladı. Müttəfiq dövlətlərin başçıları öz gizli yazışmalarında, hərbi ekspertlərin hazırladığı sənədlərdə sovet-alman cəbhəsində əsaslı dönüşün başlanması və faşizm üzərində qələbədə Azərbaycan neftinin rolu yüksək dəyərləndirilirdi.

İkinci Dünya müharibəsinin ağırlığını öz çiyinlərində çəkmiş müttəfiqlər arasında ilk ixtilaflar, məhz, neft uğrunda mübarizədən başladı. Bu ixtilaflar hələ hərbi əməliyyatların qızğın bir dövründə özünü büruzə vermişdi. Hətta, Avropa və Asiyada müharibə başa çatdıqdan sonra beynəlxalq sazişlərin ziddinə olaraq, Sovet İttifaqının öz ordularını İranda saxlamaq cəhdləri Bakı neft mədənlərinin təhlükəsizliyi məsələsi ilə əlaqələndirilirdi. Fikrimizcə, beynəlxalq münasibətlər tarixində bu ideyanın təsdiqlənməsi Sovet Azərbaycanını diplomatik qarşıdurmaların subyektinə çevirir və bu da öz növbəsində müttəfiqlərin müharibə dövrünün əməkdaşlığından soyuq müharibənin ilk qarşıdurmasına keçidində Azərbaycanın yerini müəyyən etməyə imkan verir. XX əsrin 40-cı illərində beynəlxalq münasibətlərdə "neft diplomatiyası" ifadəsinin aparıcı istiqamətə çevrilməsində Bakının özünəməxsus yeri var idi.

II Dünya müharibəsi illərində Sovet və Britaniya ordularının İrana daxil olması Cənubi Azərbaycan məsələsini gündəliyə gətirdi. 1939-1940-cı illərdə Şərqi Avropa və Balkanda baş vermiş sərhəd dəyişikliklərinin Cənubi Azərbaycana da şamil ediləcəyi gözlənilirdi. Bu məqsədlə Böyük Vətən müharibəsinin ilk aylarında Sovet Azərbaycanından İrana min nəfərə qədər siyasi işçi göndərilmişdi. Partiya, sovet, təsərrüfat, mədəniyyət və mətbuat nümayəndələrindən təşkil olunub, İrana göndərilən siyasi işçilər "xalq diplomatiyasının"

ilk nümunəsi, əslində, hələ xarici siyasət idarəsinə malik olmayan Sovet Azərbaycanının xaricdə fəaliyyət göstərən ilk elçiləri idilər. 1942-ci ilin yanvar ayının 29-da İranın ərazi bütövlüyü haqqında SSRİ, Böyük Britaniya və İran hökumətləri arasında üçtərəfli sazişlər imzalandıqdan sonra Əziz Əliyev başda olmaqla siyasi işçilərin birinci dəstəsinin İrandan çıxarılması həmin dövrdə SSRİ-nin döyüş cəbhələrində zəif mövqeyi və üzərinə aldığı beynəlxalq öhdəliklərlə bağlı idi, lakin Böyük Vətən müharibəsinin gedişində əsaslı dönüş başa çatdıqdan sonra Sovet rəhbərliyi yenidən İran məsələsinə qayıtdı və Cənubi Azərbaycanda öz mövqelərini gücləndirməyə qərar verdi. Təsadüfi deyildir ki, 1944-cü ilin yazından başlayaraq, Sovet Azərbaycanı siyasi işçilərinin ikinci dəstəsi Təbrizə ezam olunanda, bu adamların çoxu artıq, rəsmi diplomatik rütbələr almışdılar. Sovet Azərbaycanı siyasi, hərbi, diplomatik və mədəniyyət işçilərinin Cənubi Azərbaycanda fəaliyyətinin öyrənilməsi Azərbaycanın XX əsr tarixinin, onun xarici əlaqələrinin və bütövlükdə diplomatiya tarixinin maraqlı səhifələri kimi dəyərləndirilə bilər.

1944-cü ildə sovet respublikalarında Xarici İşlər Xalq komissarlıqlarının fəaliyyəti bərpa olundu. Müvafiq qaydada həmin komissarlıq Azərbaycan SSR-də də yaradıldı. SSRİ Xarici İşlər Xalq komissarının müavini vəzifəsində işləyən Mahmud Əliyev respublika Xarici İşlər Xalq komissarı vəzifəsinə təyin edildi. SSRİ kimi böyük bir dövlətin xarici siyasət idarəsində yüksək vəzifə tutan bir şəxsin yeni yaradılmış komissarlığa rəhbər təyin edilməsi digər Sovet respublikaları ilə müqayisədə Azərbaycanın üstünlüyü, SSRİ-nin həmin dövrdəki Şərq siyasətində Azərbaycanın mühüm rolunun göstəricisi idi. Bu üstünlük respublika Xarici İşlər Xalq Komissarlığının təşkilatı baxımdan qurulması, diplomatik kadrların hazırlanması, protokol-konsulluq işlərinin qaydaya salınması və Cənubi Azərbaycanda ilk diplomatik addımların atılmasında özünü aydın şəkildə göstərirdi. M.Əliyevin SSRİ Xarici İşlər Xalq Komissarlığında iş təcrübəsini nəzərə alaraq, hətta, bəzi xarici əlaqələr məsələlərində Azərbaycana Cənubi Qafqazın regional mərkəzi kimi baxılırdı, lakin bütün bunlarla yanaşı, araşdırmalar göstərdi ki, müttəfiq respublikalarda, o cümlədən, Azər-

baycan SSR-də Xarici İşlər Xalq komissarlığı respublikaların hüquqlarını genişləndirmək, onların müstəqilliyini artırmaq zərurətindən deyil, müharibənin sonunda yaranmış beynəlxalq şərtlərin, siyasi konyukturanın təsiri altında yaradılmışdı.

1945-ci ilin may ayında Avropada müharibə başa çatdı. Almaniya üzərindəki qələbə qonşu dövlətlərə münasibətdə Sovet İttifaqının müxtəlif tələblərini doğurdu. 1945-ci ilin iyun ayında SSRİ-nin Türkiyənin Şərq vilayətlərinə torpaq tələbləri, Bosfor və Dardanel boğazlarına birgə nəzarət iddiaları və Qara dəniz boğazlarında hərbi baza qurmaq istəkləri elan edildi. Türkiyəyə qarşı yönəlmiş sovet siyasəti həmin dövrdə digər Cənubi Qafqaz sovet respublikaları ilə birlikdə, həmsərhəd ölkə kimi Azərbaycanı da öz içinə alır və sovet xarici siyasət texnoloqları türklərin simasında soyuq müharibənin ilk düşmən obrazını hazırlayırdılar. 1945-ci ilin yayından başlayaraq, SSRİ-nin Türkiyəyə qarşı intensiv xarakter almış ərazi iddiaları həmin ilin sonunda xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına repatriasiya edilməsi haqqında Sovet hökumətinin qərarlarını doğurdu. Regional ziddiyyətlər üzərində köklənmiş bu addımlar az sonra erməni repatriantları yaşayış evləri və həyətyanı torpaq sahələri ilə təmin etmək üçün azərbaycanlıların öz tarixi yurdlarından deportasiya edilməsi ilə nəticələndi. Bu hadisələrin siyasi və beynəlxalq tərəflərinin araşdırılması, Stalinin antitürk diplomatiyasının pərdə arxası məqamlarının ortaya qoyulması Ikinci Dünya müharibəsindən dərhal sonra Azərbaycanın milli taleyində və siyasi tarixində bəzi mühüm məsələlərin aydınlaşdırılmasına imkan verir.

Aparılan tədqiqat işləri nəticəsində müəyyən edildi ki, 1945-ci ilin ortalarından başlayaraq Bakıya ABŞ, Britaniya və digər Qərb ölkələrindən çox nüfuzlu nümayəndə heyətləri səfər etmişdir. Sovet İttifaqına gələn bu heyətlərin Moskvadan kənar marşrut kimi Azərbaycan SSR-nin paytaxtını seçmələri respublikanın beynəlxalq ictimai rəydə oynadığı rol və siyasi müzakirələrdəki yeri ilə bağlı idi. Burada iki amilin müəyyənedici rolunu qeyd etmək lazımdır. Bunun birincisi Bakı nefti, onun dünya müharibəsindəki müstəsna əhəmiyyəti, müharibədən sonrakı dövrdə neftə olan ehtiyacın kəskin şəkildə

artması, ikincisi isə İran Azərbaycanı məsələsinin diplomatik müzakirələrə gəlməsi ilə bağlı idi. Əslində bu səfərlər bir tərəfdən Sovet Azərbaycanı ilə tanışlıq xarakteri daşıyır, digər tərəfdən isə Bakı neftinin və Cənubi Azərbaycan hadisələrinin perspektivinə olan kəskin maraqdan irəli gəlirdi.

Almaniya üzərində qələbədən dərhal sonra, 1945-ci ilin iyun-iyul aylarında Cənubi Azərbaycan şəhərlərində Sovet Azərbaycanı sənaye müəssisələrinin filiallarının açılması, İran Azərbaycanı və Xəzər dənizinin cənub sahillərində neft geoloji-kəşfiyyat işlərinin aparılması, habelə, Cənubi Azərbaycanda separatist hərəkatın təşkil edilməsi haqqında SSRİ XKS-nin, Dövlət Müdafiə Komitəsinin və ÜİK(b)P MK Siyasi Bürosunun gizli qərarları SSRİ-nin isti dənizlərə doğru genişlənmə arzularını təsdiq edir. Eyni ilə həmin vaxtda Çinin Sincan vilayəti olan Şərqi Türküstanda uyğur milli hərəkatının SSRİ tərəfindən himayə edilməsi haqqında müvafiq qərarların qəbul edilməsi Moskvanın cənub sərhədləri boyunca genişlənmə siyasətinin ciddiliyindən xəbər verirdi. Türkiyə, İran və Şərqi Türküstan haqqında 1945-ci ilin ortalarında qəbul olunmuş gizli qərarlar Sovet İttifaqının Yaxın və Orta Şərqdə genişlənmə strategiyasını stimullaşdırır və sərhədyanı sovet respublikaları, o cümlədən Azərbaycan SSR soyuq müharibənin ilk qarşıdurmasını şərtləndirən bu siyasətin həyata keçirilməsində fəal iştirak edirdi. Sovet İttifaqının İranda neft, Cənubi Azərbaycanda ərazi maraqları var idi. Moskva bu maraqların hər ikisini həyata keçirməyə qərarlı idi. II Dünya müharibəsinin sonunda bu maraqlar SSRİ üçün üstün siyasi istiqamətə çevrilmişdi. Sovet xarici siyasətinin strateji hədəfinə çevirmiş hər iki istiqamətin həyata keçirilməsində Azərbaycan rəhbərliyi, respublika Xarici İşlər Xalq komissarlığı və digər yerli orqanlar fəal iştirak edirdilər. Tarixin həmin anında SSRİ-nin İrandakı siyasi və iqtisadi istəkləri ilə, Arazın hər iki tərəfində yaşayan azərbaycanlıların milli maraqları üst-üstə düşürdü. 1945-ci ilin sentyabr ayının 2-də dünya müharibəsinin başa çatması ilə Cənubi Azərbaycan Qərb-Şərq qarşıdurmasının başlıca əməliyyat meydanına çevrildi və bununla da, İran, Türkiyə və Şərqi Türküstanda Sovet siyasəti yeni mərhələyə daxil oldu.

SSRİ-nin İran siyasəti müstəvisində Cənubi Azərbaycan hadisələrinin başlanması ilə respublika Xarici İşlər Xalq Komissarlığının qarşısında geniş fəaliyyət sahəsi açılmışdı. Bakıdan Tehrana, Cənubi Azərbaycanın müxtəlif şəhərlərinə və Xəzərsahili vilayətlərə ezam olunmuş yüzlərlə azərbaycanlı təyinat yerlərində böyük siyasi, hərbi və diplomatik təcrübə məktəbi keçir, soyuq müharibənin ilk qarşıdurmasının iştirakçısına çevrilirdilər. Əlli ilə yaxın dünyanı gərginlikdə saxlayan soyuq müharibənin İran Azərbaycanından başlanması haqqında yeni ideya son illərdə Azərbaycan tarix elminin əldə etdiyi ən mühüm siyasi nəticə kimi qiymətləndirilə bilər və bu tarixi prosesdə Sovet Azərbaycanının da özünəməxsus iştirakı var idi. 1945-ci ilin payızında Cənubi Azərbaycanda baş verən dramatik hadisələr Azərbaycan məsələsini dünya siyasətinin mərkəzi məsələsinə çevirmişdi və qarşıda Qərb – Şərq qarşıdurmasının dərinləşməsi fonunda hər iki Azərbaycanı keşməkeşli hadisələr və ağır sınaq gözləyirdi.

BİBLİOQRAFİYA

I. ARXİVLƏR

- ABŞ Milli Arxivi və Sənədlər İdarəsi (Vaşinqton, ABŞ)
- Azərbaycan Respublikası Dövlət Arxivi (Bakı, Azərbaycan)
- Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi (Bakı, Azərbaycan)
- Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (Bakı, Azərbaycan)
- Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədlər Arxivi (Bakı, Azərbaycan)
- Birləşmiş Krallığın Milli Arxivi (London, Böyük Britaniya)
- Əlimərdan bəy Topçibaşinin Arxivi - Rusiya, Qafqaz və Mərkəzi Avropa tədqiqat mərkəzi (Paris, Fransa)
- Huver İnstitutunun Arxivi, (Stanford, ABŞ)
- George Washington Universiteti yanında Milli Təhlükəsizlik Arxivi (Vaşinqton, ABŞ)
- Fransa Xarici İşlər Nazirliyinin Diplomatik Arxivi (Paris, Fransa)
- Gürcüstan Prezidentinin Arxivi (Tbilisi, Gürcüstan)
- Rusiya Federasiyası Xarici Siyasət Arxivi (Moskva, Rusiya Federasiyası)
- Rusiya Federasiyası Müdafiə Nazirliyinin Mərkəzi Arxivi (Moskva, Rusiya Federasiyası)
- Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi(Moskva, Rusiya Federasiyası)
- Rusiya Federasiyası Dövlət Arxivi (Moskva, Rusiya Federasiyası)
- Rusiya Dövlət Ən Yeni Tarix Arxivi (Moskva, Rusiya Federasiyası)

II. NƏŞR OLUNMUŞ SƏNƏDLƏR

Azərbaycan dilində

- Qızıl səhifələr. (Azərbaycan xalqının milli azadlıq yolunda mübarizə tarixindən). Təbriz, 1946

Türk dilində

- Atatürk'ün Söylev ve Demeçleri. II, 4.Baskı, Ankara, 1989
- Atatürk'ün Tamim Telegraf ve Beyannameleri. IV, Ankara, 1991
- Soysal İsmail. Türkiy'enin Siyasal Antlaşmaları. I Cilt (1920-1945). Ankara, 1989
- Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C. II. Ankara, 1985
- Türkiyedeki Alman Politikası 1941-1943. Alman Dış İşleri Dairesi Belgeleri, Havass Yayınları, İstanbul, 1977
- Şimşir Bilal. Atatürk ve Yabançı Devlet Başkanları. Ankara, 1993

Rus dilində

- Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав – СССР, США и Великобритании (17 июля-2 августа 1945 г.) Сборник документов. М., 1984
- Документы внешней политики СССР. Т. XXII. В двух книгах. М., 1992
- Документы внешней политики. Т.XXIII, кн.1. М., 1995
- Документы внешней политики. Т.XXIII, кн.2. М., 1998
- Документы внешней политика. Т. XXIV, М., 2000
- Из истории азербайджанской эмиграции. Сборник документов, произведений и писем. М., 2011

- Московская конференция министров иностранных дел СССР, США и Великобритании (19-30 октября 1943 г.), М., 1978
- Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I. Накануне. Книга первая (ноябрь 1938 г. – декабрь 1940 г.). М., 1995
- Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Т. II. 1930-1939. М., 2001
- Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Т. III. 1940-1952. М., 2001
- Сталинские депортации. 1928-1953. Под общ. ред. акад. А.Н.Яковлева. М., 2005
- О.А.Ржашевский. Сталин и Черчилль. Встречи. Беседы. Дискуссии: документы, комментарии. 1941-1945. М., 2004
- Советско-иранские отношения в договорах, конвенциях и соглашениях. МИД СССР. М., 1946
- Советско-турецкие отношения. Сб. документов. 1917-1926 гг. М., 1947

Qərbi Avropa dillərində

- Armenia. Political and Ethnic Boundaries. 1878-1948. Anita L.P. Burdett (ed). Cambridge Archive Editions, 1998
- Caucasian Boundaries. Documents and Maps.1802-1946. Edited by Anita L.P.Burdett. Richmond, 1996
- The Boundary Between Turkey and the USSR. CIA/RR M-17. Secret. January 1952. // National Archives and Records Administration USA, CIA-RDP 79
- Communist takeover and occupation of Georgia. Special Report No.6 of the select Committee on Communist Aggression. House of Representatives Eighty-third Congress, second session. Under authority of H.Res. 346 and H.Res 438. United States Government Printing office. Washington: 1955.

- Documents on British Foreign Policy, 1919—1939. First series, volume XV, London, 1967
- Documents on British Foreign Policy 1919-1939. First Series. Vol I. London, 1947 Documents on British Foreign Policy 1919-1939. First Series. Vol. II, 1948
- Documens on German Foreign Policy, 1918-1945, Series D, v.13. The War years. Washington: U.S. Government Printig Oficce, 1964
- Die Geheimakden des französischen Generalstabes, Auswartiges Amt, 1939/1941, Nr/ 6, Sechster Weibbruch der Deutschen Regierung, Archiv Edition, Verlag für ganzheitliche Forschung 25884 Viöl Eigendruck, 1995
- Documents diplomatiques français, serie Deuxieme Guerre, sous la direction d'Andre Kasp, Bruxelles, Peter Lang, 2002
- Foreign Relations of the United States. Diplomatic Papers 1945. Volume VIII. The Near East and Africa. Washington, 1969
- Foreign Relations of the United States. Diplomatic Papers 1946. Volume VII. The Near East and Africa. Washington, 1969
- Foreign Relations of the United States. Diplomatic Papers 1945. Volume II. General: Political and Economic Matters. Washington, 1967

III. ƏDƏBİYYAT

Azərbaycan dilində

- Alpoud Əziz. Həyatımın hekayələri. Bakı, 2011
- Azərbaycan tarixi. Yeddi cilddə. Yeddinci cild. Bakı, 2003
- Bağırzadə Ə.Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970
- Cəfərli M. Azərbaycan legion ədəbiyyatı. Bakı, 2005

- Çeşmazər Mirqasım. Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan 1945-1946-cı illərdə). Bakı, 1986
- Çeşmazər Mirqasım. S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan Milli hökumətinin yaranması uğrunda mübarizədə rolu.// Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1989
- Əliyev İ.H. Azərbaycan nefti dünya siyasətində. 3 cilddə, III cild. Bakı, 1998
- Əmrahov M.İkinci Dünya müharibəsi. 1939-1945. Bakı, 2010
- Fətəlibəyli Ə. Sovet-Fin hərbi // Azərbaycan, Münhen. 1953, № 10
- Genaral Qulam Yəhya. Xatirələr. Bakı, 2006
- Haşımova A. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. Bakı, 1992
- Həsənli.C. SSRİ-Türkiyə: Soyuq müharibənin sınaq meydanı. 1939-1953. Bakı, 2005
- Həsənli Cəmil. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı, 1998
- Həsənli Cəmil. Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946). Bakı, 2001
- Həsənli Cəmil. Soyuq müharibənin başlandığı yer: Güney Azərbaycan (1945-1946). Bakı, 1999
- Həsənov.Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005
- İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1920-1991) Bakı, 1996
- İsmayılov İ. Azərbaycanlıların II dünya müharibəsində iştirakı. Bakı, 2000
- Qasımlı.M., Hüseynova.E. Azərbaycanın xarici işlər nazirləri. Bakı, 2003
- Qasımov.M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993

- Mədətov.Q. Azərbaycan Böyük Vətən müharibəsində (1941-1945-ci illər). Bakı, 1975
- Musayev İ. Azərbaycanın xarici siyasəti. İkinci hissə. 1920-1991. Bakı, 2010
- Novruzov İ. Azərbaycan kartı. İran xatirələri. Bakı, 1997
- Pişəvəri M.C. Seçilmiş əsərləri. Bakı,1984
- Pişəvəri S.C. İran Azərbaycanı demokratik hərəkat tarixi. I-II cild. Bakı, 1947 (Əlyazma hüququnda)
- Rəhimli Əkrəm. Mübarizə burulğanında keçən ömür: Seyid Cəfər Pişəvəri. Bakı, 2009
- Rüstəmova – Tohidi S. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943. Bakı, 2002
- Svyatoçovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Xəzər Universitəsi, 2000
- Tağıyeva Ş., Rəhimli Ə., Bayramzadə S. Güney Azərbaycan. Bakı, 2000
- Talıblı T. Əziz Əliyev. Bakı, 1996
- Vəkilov C.M. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991
- Yaqublu N. Azərbaycan legionerləri. Bakı, 2005
- Yaqublu.N Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. Bakı, 2007
- Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991
- Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı, 1997

Türk dilində

- Ağaoğlu Samet. Babamın Arkadaşları. İstanbul, 1958
- Andican Ahat. Cedidizm'den Bağımsızlığa Hariçte Türküstan Mücadelesi. İstanbul, 2003
- Selim Deringil. Denge Oyunu: İkinci Dünya Savaşında Türkiyenin Dış Politikası. İstanbul, 1994

- Hasanlı Cemil. Soğuk Savaşın ilk çatışması: İran Azərbaycanı. İstanbul, Bağlam, 2005
- Hasanlı Cemil. Tarafsızlıktan Soğuk Savaşa: Türk-Sovyet İlişkileri. 1939-1953. Ankara, Bilgi Yayınevi, 2011
- Hayit Baymirza. Sovyetler Birliğindeki Türklügün ve İslamın bazi Meseleleri. İstanbul, 1987
- Kamuran Gürün. Türkiye – Sovyet İlişkileri (1920-1953). Ankara, 1991
- Kurat Akdes Nimet. Türkiye ve Rusiya. Ankara, 1990
- Sever Ayşegül. Soğuk Savaş Kuşatmasında Türkiye, Batı ve Orta Doğu. 1945–1958. Istanbul, 1997
- Mühlen Patrik fon Zur. Camali Haç ile Kızıl Yıldız Arasında. Ankara, 1984
- Türkiye Cümhuriyeti Tarihi. Cilt II, Ankara, 2004
- Zehra Önder.II. Dünya Savaşında Türk Dış Politikası. Bilgi Yayınevi, Ankara, 2010

Rus dilində

- Абасов М. Бакинская партийная организация в годы Великой Отечественной войны. Баку, 1990
- Абасов М., Гритченко А., Зейналов Р. Азербайджан в годы Великой Отечественной войны. Баку, 1990
- Абуталыбов Р. Годы и встречи в Париже. М., 2006
- Абуталыбов Р. Свой среди чужих, чужой среди своих. М., 2007
- Алиева Р. Азербайджанцы в Европейском движении сопротивления. Баку, 2005
- Алиев Э. Азербайджанцы в Европейском движении сопротивления. Автореферат. Баку, 2008
- Алиев С.М. История Ирана. XX век. Москва, 2004

- Азербайджан в период войны 1941–1945 гг. Сборник статей, 2008
- Балаев А. Мамед Амин Расулзаде (1884-1955). М., 2009
- Безугольный А.Ю. Кавказские национальные форимирования в политических дискуссиях в период обороны Кавказа // «Военно-исторический Архив», 2004, № 10
- Березин О.К. Неизученная кампания. Иран, август 1941. //«Военно-исторический архив», 2004, № 8
- Брутенц К.Н. Тридцать лет на Старой площади. М., 1998
- Гасанлы Дж. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны. 1941–1946. М., 2006
- Гасанлы Дж. СССР-Турция: от нейтралитета к холодной войне. 1939-1953 гг. М., 2008
- Гасанов Г. Иранский дневник (1944–1946). Баку, 2007
- И.В.Гайдук. В лабиринтах холодной войны: СССР и США в ООН, 1945-1965. М., 2012
- Гайдук И.В. ООН и Иранский кризис 1946 года // «Новая и новейшая история». 2011, № 5.
- Горьков Ю. Государственный комитет обороны постановляет (1941–1945). М., 2002
- Егорова Н.И. «Иранский кризис» 1945–1946 гг. По рассекреченным архивным материалам // «Новая и новейшая история». 1994, №3
- Егорова Н.И. Истоки советско-американского соперничества в Иране и Турции, 1944– 1945 гг.// В кн.: Американский ежегодник. 1997
- Зубок Владислав. Неудавшаяся империя: Советский Союз в холодной войне от Сталина до Горбачова. М., 2011
- Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953 гг. Баку, 2003
- Кавказ выстоял, Кавказ победил. Ветераны вспоминают. Тбилиси, 1973,
- Киреев Н.Г. История Турции. XX век. Москва, 2007

- Кочкин Н.В. СССР, Англия, США и «Турецкий кризис» 1945–1947 гг.// «Новая и новейшая история», 2003, № 3
- Международный кризис 1939-1941 гг.: от советско-германских договоров 1939 года до нападения Германии на СССР. М., 2006
- Мамулиа Г. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси-Париж, 2012
- Мамулия Г., Р.Абуталыбов. Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции. Париж-Баку, 2014
- Наджафов Д.Г. Об историко-геополитическом наследии советско-германского пакта 1939 года//Правда Виктора Суварова-2. Восстанавливая историю. Второй мировой. М., 2007
- Оришев А.Б. Политика нацистской Германии в Иране. СП., 2005
- Оришев А.Б. Иранский узел. Схватка разведок. 1936-1945 гг. М., 2009
- Очерки истории Министерства Иностранных Дел России. Том второй, 1917-2002. М., 2002
- Парвизпур Б.Х. Советско-иранские отношения в годы Второй Мировой войны (1939-1945). Тбилиси, 1978;
- Печатнов В. Сталин, Рузвельт, Трумэн: СССР и США в 1940-х гг. Документальные очерки. М., 2006
- Российское зарубежье во Франции 1919-2000. Том третий. М., 2010
- Российско-турецкие отношения: история, современное состояние и перспективы. М., 2003
- Россия и Черноморские проливы (XVIII–XX столетия). М., 1999
- Сеидбекова Л. «Турецкий кризис» и великие державы в первые годы «холодной войны» (1945-1947). Автореферат. Баку, 2012

- Соцков Л. Неизвестный сепаратизм: На службе СД и Абвера. Из секретных досье разведки. М., 2003
- Статистико-экономический атлас Крыма. Выпуск 1. Симферополь, 1922
- Султанов Ч.А. Нефть. Баку, 2000
- Султанов Ч. Политические и экономические этюды по Южному Кавказу (хроника с 1850 по 2010 гг.). Баку, 2010
- Сумбатзаде А.С. Азербайджанская историография XIX - XX веков. Баку, 1987
- Тетради по истории рабочего и революционного движения. М., 2006
- Труды Общества изучения истории отечественных спецслужб. Том III, М., 2007
- Фаталибейли А.Отчет азербайджанскому народу о борьбе его сынов за независимость Родину в период Второй мировой войны.// Азербайджан, Мюнхен, 1951, № 1
- Чубарьян А.О. Канун трагедии: Сталин и международный кризис: сентябрь 1939 – июнь 1941 года. М.,2008
- Чуев С.Г. Кавказская карта Германии.// Военно-исторический Архив, 2004, № 1
- Юнгблюд В.Т., Чучкалов А.В. Политика США в Иране в годы Второй мировой войны. Киров, 2011

Qərbi Avropa dillərində

- Abrahamian Ervand. Communizm and Communalism in Iran: The Tudah and the Firqah-i Dimukrat // International Journal of Middle East Studies, October 1970, 1 (4)
- Abrahamian Ervand. İran Between Two Revolutions. Princeton: Princeton University Press, 1982
- Alstadt A. The Azerbaijani Turks: Power and Identity under Russian Rule. Stanford, 1992

- Atabaki Touraj. Azerbaijan: Ethnicity and Autonomy in Twentieth-Century Iran. London: British Academic Press, 1993
- Athanassopoulou Ekavi. Turkey–Anglo–American Security Interests, 1945–1952. London: Frank Cass, 1999
- Azimi Fakhreddin. Iran: the Crisis of Democracy. New-York, 1989
- Bamberg J.H. The Hictory of the British Petroleum Company. The Anglo-Iranian years, 1928-1954. Cambridge. 1994
- Blake Kristen. The U.S. – Soviet Confrontation in Iran, 1945-1962. A Case and Annals of the Cold War. University Press of America. Lanham, Boulder, New York, Toronto, Plymouth, UK. 2009
- Bedaride F. La strategie secrete de la dröle de guerre. Le conseil Supreme Inerallie, september 1939- avril 1940. Paris, 1979
- Browne G.Edward. A Year amongst the Persians. London, Adam and Charles Black, 1893
- Byrnes F. James. Speaking Frankly. New-York and London, 1947
- Bullock Alan. Ernest Bevin:Foreign Secretary, 1945-1951. London, 1983
- Caroe Olaf. Soviet Empire. The Turks of Central Asia and Stalinism. New York, 1954
- Chace James. Acheson. The Secretary of State Who Created the American World. Simon Schuster, 1998
- Cottam R.. Iran and the United States. Pittzburgh, 1988
- Crayson B.L. United States'Iranian Relations. Washington, 1981
- Dallin A. German Rule in Russia 1941-1945. A study of Occupation Politicies. London, New York, 1957

- Douglas O.William. Strange Lands and Friendly People. New York: Harper and Brothers,1951
- Gaddis John Lewis. The United States and the Origins of the Cold War, 1941-1947.New York, Columbia University Press,1972
- Gaddis John Lewis. We Now Know. Rethinking Cold War History. Oxford University Press,1998
- Gaddis John Lewis. The Cold War. A New History. The Penguin Press. New York, 2005
- Glasneck Johannes, Kircheisen İnge. Türkei und Afghanistan – Brennpunkte der Orientpolitik im Zweiten Weltkrieg. Berlin, 1968
- Hamzavi A.H. Persia and the Powers. An Account of Diplomatic Relations, 1941-1946. London, New-York, Melbourne, Sydney. 1946
- Hasanli Jamil. At the Dawn of the Cold War: The Soviet–American Crisis over Iranian Azerbaijan, 1941–1946. Rowman and Littlefield Publishers, INC. Lanham, Boulder, New York, Toronto, Oxford, 2006
- Hasanl Jamil. The ''Turkish Crisis'' of the Cold War Period and the South Caucasian Republic.// The Caucasus and Globalization, Vol. 2, Issue 4, 2008; Vol. 3, Issue 1, 2009
- Hasanli Jamil. Iranian Azerbaijan: The Epicenter of a Cold War. // The Caucasus and Globalization, Vol. 2, Issue 1-2, 2008
- Hasanli Jamil e Zubok Vladislav. La prima crisi della gurra fredda: Mosca e il petrolio İraniano (1943-1946) .// Ventesimo Secolo, Anno VI, Giugno 2007, #13
- Hasanli Jamil. Iranian Azerbaijan: The Epicenter of a Cold War. // "The Caucasus and Globalization", Vol. 2, Issue 1, 2008

- Hasanl Jamil. The ''Turkish Crisis'' of the Cold War Period and the South Caucasian Republic.// The Caucasus and Globalization, Vol. 2, Issue 4, 2008
- Hasanli Jamil. Le "Crisis turca" nella Guerra fredda // Ventunessimo Secolo, 2009, # 19
- Hasanli Jamil. Stalin and Turkish Crisis of the Cold War, 1945-1953. Lexington Books, Lanham, Boulder, New York, Toronto, Plymouth, UK, 2011
- Hasanli Jamil. Der Kampf um das Erdöl im Nahen und Mittleren Osten.// Walter M. Ilber, Peter Ruggenthaler. Stalins Wirtschaftspolitik an der sowjetischen Peripherie. Ein Überblick auf der Basis sowjetischer und osteuropaischer Quellen. Studien Verlag, Innsbruck, Wien, Bozen, 2011
- Hoffmann L. Die Kaukasien 1942-1943: Das deutsche Neer and die Ostrolker der Sowyetunion. Freiburg: Rombach, 1991
- Homayounpour Parviz. L'Affaire D'Azerbaidjan. Lausanne, 1967;
- Jeloschek A., Richter Fr., Schütte E., Semler J.. Freiwillige vom Kaukasus. Georgier, Armenier, Aserbaidschaner, Tschetschenen u.a. auf deutscher Seite. Der «Sonderverband Bergmann » und sein Gründer Theodor Oberländer. Graz-Stuttgart, 2003
- Fatemi S. Faramraz. The USSR in Iran. New-York-London, 1980
- Fawcett Louise L'Estrange. Iran and the Cold War: the Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992
- Kahle G.Das Kauasusprojekt der Alliierten vom Jahre1940. Opladen, Westdeutscher Verlag, 1973
- KGB in Iran, 1988. In Mitrokhin Collection, Woodrow Wilson Center for Scholars, Washington DC, (a manuscript)
- Krecker Lothar. Deutchland und die Turkei im Zweiten Weltkrieg. Frankfurt, 1964

- Kuniholm R. Bruce. The Origins of the Cold War in the Near East: Great Power Conflict and Diplomacy in Iran, Turkey, and Greece. Princeton. 1980
- Kuross A. Samii. «Truman Against Stalin in Iran: A Tale of Three Messages». // Middle Eastern Studies, January, 1987, №1, Vol.23
- Lytle Mark Hamilton. The Origins of the Iranian-American Alliance. 1941-1953. New-York, London, 1987
- Maddox R.J. From War to Cold War. Boulder, London, 1989
- Mohammad Mosaddeg and the 1953 Coup in Iran. Ed. By M.J.Gasiorowski and M.Byrne. New York, 2004
- Mamoulia G. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009
- Mark Eduard. The Turkish War Scare. // Melvin P. Leffler and David S. Painter. Origins of the Cold War. An International History. Routledge Taylor and Francis Group, New York and London, 2005
- Massigli R. La Turquie devant le guerra, Miision a Ankara 19391940. Paris, 1964
- Monroe E. Britain's Moment in the Middle East. 1914-1956. L. 1963
- Morozova Irina.Contemporary Azerbaijani Historiography on the Problem of "South Azerbaijan" after WWII.// Iran and the Caucasus, Vol. 9, Brill Academic Publishers, Leiden, 2005
- Osborn P.R. Operation Pike. Britain Versus the Soviet Union, 1939-1941. Westport, Connecticut, London, Greenwood Press, 1966
- Roberts Geoffrey. Moscow's Cold War on the Periphery: Soviet Policy in Greece, Iran, and Turkey, 1943–8.// Journal of Contemporary History, 2011, Vol. 46, No 1
- Rossow Robert. The Battle of Azerbaijan. 1946. // The «Middle East» Journal. Winter, 1956

- Scheid Fernande Raine. Stalin, Bagirov and Soviet Politics in Iran, 1939-1946. Ph.D. dissertation, Yale University, 2000
- Scheid Fernande Raine. Stalin and the Creation of the Azerbaijan Democratic Party in Iran, 1945. //Cold War History, vol.2, №1, October 2001
- Scheid Fernande Raine. The Iranian Crisis of 1946 and the origins of Cold War.// Melvin P.Leffler, David S.Painter. Origins of the Cold War. An International History. Second Edition. Routledge, New York and London, 2005
- Spector I. The Soviet Union and the Moslem World. 1917-1958. Wash. 1958
- Swietochowski T. Russia and Azerbaijan: A Borderland in Transition. New York, 1995
- Swietochowski T. and Collins B. Historical Dictionary of Azerbaijan. Lanham, 1999
- The Cambridge History of Iran. Volume 7. From Nadir Shah to the Islamic Republic. Edited by Peter Avery. Cambridgge University press. Cambridge 1991
- The Diary of Georgi Dimitrov, 1933–1949. New Haven, CT: Yale University Press, 2003
- Westad Odd Arne. The Global Cold War. Third World Interventions and the Making of Our Times. Cambridge University Press, 2007
- Zubok M. Vladislav. A Failed Empire .The Soviet Union in the Cold War from Stalin to Gorbachov.

İÇİNDƏKİLƏR

MÜQƏDDİMƏ 5
I FƏSİL. II DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI VƏ MÜTTƏFİQLƏRİN BAKINI BOMBARDIMAN ETMƏK PLANLARI 18
II FƏSİL. SOVET - ALMAN HƏRBİNİN BAŞLANMASI VƏ AZƏRBAYCAN 46
§1. Müttəfiq ordularının İrana daxil olması və Cənubi Azərbaycan məsələsinin gündəliyə gəlməsi 46
§2. Əziz Əliyevin missiyasının Təbrizdə fəaliyyəti 72
III FƏSİL. AZƏRBAYCAN SSR XARİCİ İŞLƏR KOMİSSARLIĞININ YARADILMASI VƏ YAXIN ŞƏRQ ÖLKƏLƏRİNDƏ SOVET SİYASƏTİNİN FƏALLAŞMASI 105
§1. Azərbaycan SSR Xarici İşlər komissarlığının fəaliyyətə başlaması 105
§ 2.Türkiyəyə qarşı Sovet iddialarının başlanması və Azərbaycan 119
§3.II Dünya müharibəsində əsaslı dönüş və Cənubi Azərbaycanda işlərin canlanması 137
IV FƏSİL. SOVET İTTİFAQININ YAXIN ŞƏRQDƏ NEFT MARAQLARI VƏ AZƏRBAYCAN 179
V FƏSİL. II DÜNYA MÜHARİBƏSİNİN SON MƏRHƏLƏSİNDƏ SOVET AZƏRBAYCANININ XARİCİ SİYASƏTİ 220
§1. 1945-ci ilin yazında və yayında Azərbaycan Xarici İşlər Xalq Komissarlığının fəaliyyətinin genişlənməsi 220
§2. İran və Türkiyədə Moskvanın siyasətinin fəallaşması və Sovet Azərbaycanı 234
VI FƏSİL. İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCAN MÜHACİRƏTİNİN ALMANİYA İLƏ ƏLAQƏLƏRİ 268
§1. Üçüncü Reyxin Qafqaz mühacirlərini təşkilatlandırmaq cəhdləri 268
§ 2. Milli legionların yaranması və Azərbaycan mühacirəti 284
§ 3. Azərbaycan Milli Birlik Məclisi və Fətəlibəyli-Düdənginski 306

VII FƏSİL. MOSKVANIN GENİŞLƏNMƏ SİYASƏT VƏ AZƏRBAYCAN 325
§1. Avropada müharibənin başa çatması və SSRİ-nin İran siyasətində Sovet Azərbaycanının fəallığının artması 325
§2.Moskvanın qərarları və Bakının xarici siyasətində iki Azərbaycanın birləşdirilməsi ideyasının üstün istiqamətə çevrilməsi 339
VIII FƏSİL. CƏNUBİ AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİ MOSKVA VƏ BAKININ SİYASƏTİNDƏ 381
§ 1.Azərbaycan Xalq Konqresini və muxtariyyət ideyasının real prosesə çevrilməsi 381
§ 2.Azərbaycan Milli Məclisinə seçkilər və Təbrizdəki "Bakı üçlüyü"nün fəaliyyəti 399
§3.Cənubi Azərbaycanda ADP-nin qələbəsində Sovet Azərbaycanının rolu 423
IX FƏSİL. CƏNUBİ QAFQAZ SOVET RESPUBLİKALARININ ƏRAZİ İDDİALARI VƏ AZƏRBAYCAN MƏSƏLƏSİNİN BEYNƏLXALQ MÜZKİRƏYƏ ÇIXARILMASI 442
§ 1. 1945-ci ilin payızında Cənubi Qafqaz sovet respublikaları arasında ərazi iddialarının meydana çıxması 442
§ 2.1945-ci ilin payızında Sovet Azərbaycanına beynəlxalq marağın güclənməsi 458
§ 3.Xarici İşlər Nazirlərinin Moskva müşavirəsi və Azərbaycan 474
§ 4. Muxtariyyətlə müstəqillik arasında tərəddüdlər: Bakı və Təbrizdə ideya axtarışları 502
NƏTİCƏ 516
BİBLİOQRAFİYA 522

Yığılmağa verilmişdir: **25.01.2015**
Çapa imzalanmışdır: **16.03.2015**
Kağız formatı: **60x84 1/16**
Fiziki çap vərəqi: **36**
Mətbəə kağızı: **№ 01**
Sifariş: **№ 017** Sayı: **1000 nüsxə**
Ofset üsulu ilə çap olunmuşdur